TARİX VƏ ONUN PROBLEMLƏRİ

X/B
BAKI
2023

# TARİX VƏ ONUN PROBLEMLƏRİ




## XÜSUSİ BURAXILIŞ

BAKI - 2023

*“Milli ideologiyamız, şübhəsiz ki, tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır”.*

**Heydər ƏLİYEV**




*2023-cü il Azərbaycan milli dövlətçiliyinin qorunub saxlanması və inkişafında misilsiz xidmətləri olan, Azərbaycan dövlətinin suverenliyi və ərazi bütövlüyünün təmin olunması naminə var gücü ilə çalışan müdrük dövlət xadimi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümüdür. "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan olunması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3494 nömrəli Sərəncamı"ndan irəli gələn tədbirlərin icra edilməsi məqsədilə Bakı Dövlət Universitetinin rektorunun 2023-cü il 23 yanvar tarixli R-04 nömrəli əmri ilə təsdiq edilmiş tədbirlər planına uygun olaraq, Tarix fakültəsinin Türk xalqları tarixi kafedrasının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş* ***"Azərbaycan xalqının milli dövlətçilik tarixində Heydər Əliyev zirvəsi"*** *mövzusunda respublika elmi konfransının keçirilməsi nəzərdə tutulmuşdur.*

*Jurnalın Redaksiya heyətinin qərarı ilə, hazırki sayda konfransda dinləniləcək məruzələr də nəşr edilirlər.*

# TARİX VƏ ONUN PROBLEMLƏRİ

1997-101

**HİSTORY AND İTS PROBLEMS** **ИСТОРИЯ И ЕЁ ПРОБЛЕМЫ**

**NƏZƏRİ, ELMİ, METODİK JURNAL**

**ISSN 2708-0641 (print)**
**2708-065X (online)**

2

**ADİLOĞLU**
**BAKI – 2023**

*Baş Redaktor -* **Əsməd İmammәmmәd qızı Muxtarova -** *Bakı Dövlət Universiteti*
*Baş redaktorun müavini -* **İsmayıl Məhəmməd oğlu Məmmədov -** *Bakı Dövlət Universiteti*
*Məsul katib -* **Qabil Əli oğlu Əliyev -** *Bakı Dövlət Universiteti*

Redaksiya heyəti (əlifba sırası ilə)

**Axundova Nərgiz Çingiz qızı -** *AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
**Andrzej L.Bonusiak -** *Jeşuva Universitetinin Tarix İnstitutu (Polşa)*
**Barış Özdal -** *Bursa Uludağ Universiteti (Türkiyə)*
**Danish Miroslav -** *Bratislava Komenski Universiteti (Slovakiya)*
**Əliyeva Sevinc İsrafil qızı -** *Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**Əlizadə Hikmət Əbdül oğlu -** *Bakı Dövlət Universiteti*
**Hacıyev İsmayıl Muxtar oğlu -** *AMEA Naxçıvan bölməsi*
**Hacıyev Sani Tofiq oğlu -** *Bakı Dövlət Universiteti*
**Hacıyev Zeynəddin Camal oğlu -** *Bakı Dövlət Universiteti*
**Hatice Palaz Erdemir -** *Manisa Calal Bayar Universiteti (Türkiyə)*
**Hüseynova İradə Mehtiqulu qızı -** *Bakı Dövlət Universiteti*
**Hüseynova Lalə Cavid qızı -** *AR Prezidentinin İşlər İdarəsi Siyasi sənədlər arxivi*
**İsgəndərov Anar Camal oğlu -** *Bakı Dövlət Universiteti*
**İsmayılov Qüdrət Seyfulla oğlu -** *Bakı Dövlət Universiteti*
**Qasımlı Musa Cəfər oğlu -** *AMEA Qafqazşünaslıq İnstitutu*
**Quliyeva Nərgiz Məlik qızı -** *AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
**Kvitsiani John Jokiyevich -** *İ.V.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin "Qafqazşünaslıq" Elmi-Tədris İnstitutu (Gürcüstan)*
**Mahmudov Yaqub Mikayıl oğlu -** *AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
**Mamoulia Georges Quramovich -** *Sosial Elmlər üzrə Ali Araşdırmalar Məktəbi (Fransa)*
**Mehdiyeva Nisbət Canməmməd qızı -** *Bakı Dövlət Universiteti*
**Mirabdullayev Adil Mirabdulla oğlu -** *Bakı Dövlət Universiteti*
**Mohammad Salmansızadeh -** *Təbriz Universiteti (İran)*
**Turichın İqor Victoroviç -** *Moskva Tarix, İqtisadiyyat və Hüquq Elmi-Tədqiqat İnstitutu (Rusiya)*
**Vəlixanlı Nailə Məmmədəli qızı -** *Azərbaycan tarx müzeyi*
**Yusifzadə Sevinc Ziya qızı -** *Bakı Dövlət Universiteti*
**Zeynalov İbrahim Xudaverdi oğlu -** *Bakı Dövlət Universiteti*

web-sayt: - http://publish.bsu.edu.az/az/content/tarix_ve_onun_problemleri_jurnali_illerle
http://ek.anl.az/search/query?term_1=Tarix+v%C9%99+onun+probleml%C9%99ri&theme=e-kataloq
*Redaksiya ilə əlaqə:* TarixVeOnunProblemleri@gmail.com
Şəhadətnamə № 0060079 (1997)
©Lisenziya ser.AB - №22477

## MÜNDƏRİCAT

**HEYDƏR ƏLİYEV – 100**

***"Azərbaycan xalqının milli dövlətçilik tarixində Heydər Əliyev zirvəsi"***

Respublika konfransı, 05.05.2023. Bakı Dövlət Universiteti, Tarix fakültəsi


| | | |
|---|---|---|
| QURBANOV S. | *Heydər Əliyev: zamandan uca İnsan* | 5-11 |
| HACIYEV İ. | *Ümummilli lider Heydər Əliyev və Azərbaycanın ərazi bütövlüyü* | 12-19 |
| ZEYNALOV İ.X. | *İqtisadi tərəqqiyə aparan böyük siyasət* | 20-33 |
| MUXTAROVA Ə.İ. | *Heydər Əliyev müstəqil Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasının banisidir* | 34-41 |
| MƏMMƏDOV İ.M., QULİYEV E. | *Türk dünyasına inteqrasiya: Macarıstanın tarixi köklərinə qayıdışı* | 42-48 |
| HÜSEYNOVA İ.M. | *Heydər Əliyev və XX əsrin 70-80-ci illərində mədəni quruculuq məsələləri* | 49-58 |
| MƏMMƏDOV N. | *Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin qurucusu və banisidir* | 59-68 |
| NURİYEVA İ.T. | *Milli ordu quruculuğu sahəsində Heydər Əliyevin tarixi fəaliyyəti* | 69-75 |
| РЗАЕВ А.А., АЛИЕВ А., АЛИЕВА К. | *Гейдар Алиев и государственная политика в отношении национальных меньшинств* | 76-86 |
| İSMAYILOVA S.A. | *Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu* | 87-90 |
| MUSA RƏHİMOĞLU (QULİYEV) | *Heydər Əliyev və Şeyx Şamil hərəkatı* | 91-94 |
| NƏBİYEV V., MƏLİKLİ R. | *Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində Heydər Əliyev amili* | 95-99 |
| BAXIŞOV M. | *Yenı dünya nizamının formalaşması şəraitində Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının diplomatiyası* | 100-106 |
| MƏMMƏDOV A.B. | *Heydər Əliyev və Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyası* | 107-115 |
| XƏLİLZADƏ A. | *IV sənaye inqilabı şəraitində Azərbaycanda rabitə sisteminin inkişafı* | 116-120 |
| MƏMMƏDOVA S. | *Heydər Əliyev Türk dünyasının birlik rəmzidir* | 121-124 |
| BAYRAMOVA B. | *A View of Haydar Aliyev on the rendering of our ancient land: Zangazur to Armenia: The idea of the Zangazur corrıdor* | 125-129 |
| MƏMMƏDOV N. | *Heydər Əliyev və Xankəndi şəhərinin inkişaf strategiyası (1970-1985-ci illər)* | 130-139 |
| ƏLİYEVA K.Q. | *Ulu öndər Heydər Əliyev və Azərbaycan xalqının soyqırımı problemi* | 140-143 |
| ƏHMƏDOV H.O. | *Heydər Əliyevin dövlət quruculuğu siyasətinin mühüm tarixi aspektləri* | 144-149 |
| ИМАНЛЫ А.Г. | *Гейдар Алиев – гениальный стратег и выдающийся дипломат* | 150-155 |
| MEHDİYEV R.M. | *Azərbaycan SSR-də Heydər Əlıyevin hakimiyyətə gəlməsi ilə milli-mənəvi dəyərlərin inkişafında yeni mərhələnin başlanması* | 156-162 |

**QƏDİM DÖVR VƏ ORTA ƏSRLƏR**

| | | |
|---|---|---|
| HACIQƏDİRLİ A.M. | *Məhəmməd peyğəmbərin dini fəaliyyətində Mədinə mərhələsi* | 163-168 |

**YENİ DÖVR**

| | | |
|---|---|---|
| VEYSƏLOVA V. | *XIX əsrdə Bolqarıstanda mədəni-maarifin inkişafı* | 169-173 |
| ƏHMƏDOVA E.İ. | *XIX əsrin sonu - XX əsrin əvvəllərində Şimali Azərbaycanda xeyriyyəçilik ənənələri (sxemli təhlil)* | 174-187 |

**MÜASİR DÖVR**

| | | |
|---|---|---|
| РЗАЕВ А.А., АЛИЕВ А., САФАРОВА Х. | *Культурное строительство в период Азербайджанской Демократической Республики (1918-1920 гг.)* | 188-194 |
| MEHDİYEVA N.C. | *Türk dövlətlərinin mədəni əlaqələri (2004-2022)* | 195-200 |
| KƏRİMOVA E.A. | *Zəfər müharibəsi və Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsinin yeni mərhələsi* | 201-206 |
| ƏSGƏROVA Z. | *Elmi diasporun milli elmin inkişafına təsiri* | 207-212 |
| BEHBUDZADƏ H. | *İqtisadi təhlükəsizliyin makroiqtisadi problemləri və onun aradan qaldırılması yolları* | 213-218 |
| NAĞIYEVA N. | *Cənubi Qafqaz regionunda ictimai-siyasi proseslər* | 219-224 |
| ƏLİYEVA-KƏNGƏRLİ A.İ., SADIQOV T.K. | *Müasir kitabxanaların virtual məkanda fəaliyyəti və əhəmiyyəti* | 225-228 |
| KƏRİMOVA S. | *Biznes mühitinə informasiya dəstəyi sahəsində kitabxanaların elektron resurslarının rolu* | 229-233 |
| NƏSİROVA S., MƏMMƏDOVA A. | *Azərbaycan Respublikası və Çin Xalq Respublikası münasibətləri, gələcək perspektivlər* | 234-238 |
| QULİYEVA G. | *1950-1980-ci illərdə Türkiyə-İran arasında ictimai-mədəni əlaqələr* | 239-244 |
| MƏHƏMMƏDLİ D., QASIMLI H. | *Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionunun kitabxanalarında turizmə dair informasiya resurslarının spesifik xüsusiyyətləri* | 245-254 |
| HƏSƏNOVA A.V. | *Dövlət qulluqçularına kitabxana xidmətinin keyfiyyətinin müəyyənləşdirilməsi meyarları* | 255-260 |
| İSMAYILOVA V.Z. | *İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda təhlükəsizliyin təmin olunmasında Azərbaycanın rolu* | 261-265 |

**ARXEOLOGİYA, ETNOQRAFİYA, MUZEYŞÜNASLIQ**

| | | |
|---|---|---|
| DADAŞOV Ə.N. | *Azərbaycan abidələr içərisində ilk kənd təsərrüfatı və biçin alətləri haqqında* | 266-270 |
| ИБРАГИМОВА Р.М. | *Похоронные обряды у народов Северного Кавказа в XIX веке* | 271-276 |

**MƏNBƏŞÜNASLIQ, TARİXŞÜNASLIQ, DEMOQRAFİYA, METODİKA**

| | | |
|---|---|---|
| KNYAZ ASLAN, SƏFƏROVA S. | *Azərbaycanda milli dərsliklərin tərtibi tarixindən* | 277-280 |




**UOT 94(479.24)**

**SADİQ QURBANOV**
*Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri*
**TarixVeOnunProblemleri@gmail.com**

# HEYDƏR ƏLİYEV: ZAMANDAN UCA İNSAN

*Tarixinin müxtəlif taleyüklü məqamları və mərhələlərində xalqları ağır sınaqlardan çıxarmaq vəzifəsi həmişə müvafiq dövrlərin böyük şəxsiyyətlərinin üzərinə düşüb. Təsadüfi deyil ki, hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Azərbaycan xalqı da Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ölkəmizin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, Heydər Əliyev şəxsiyyəti ilə hər zaman fəxr edəcək, qürur hissi ilə xatırlayacaq. Gələcəyimizin naminə Heydər Əliyev siyasətinin fəlsəfi mahiyyətini açıb göstərmək, onu yaşatmaq və nəsillərə ötürmək olduqca vacib və əhəmiyyətlidir. Çünki, Heydər Əliyevin siyasi, dövlətçilik və milli ideologiya ilə bağlı baxışları, fəlsəfi-nəzəri irsi Azərbaycan ictimai-fəlsəfi və siyasi fikrinin inkişafına təsir edən və xüsusi mərhələ təşkil edir. Heydər Əliyevin gərgin zehni və fiziki əməyinin, uzaqgörənliyinin nəticəsində Azərbaycanın ictimai-iqtisadi, siyasi mənzərəsi önəmli şəkildə dəyişməyə başladı.*

*Açar sözlər:* Heydər Əliyev, Azərbaycan ziyalısı, Zamana sığmayan lider, dövlətçilik ənənələri, dissidentlik, DTK generalı, dövlət mükafatı.

***Giriş.*** Azərbaycanın dövlətçilik ənənələri sübut edir ki, Azərbaycan ərazisində mövcud olmuş qədim dövlətlər də, orta əsrlərdəki böyük imperiyalar da, müstəqil dövlət qurumları olan xanlıqlar da, respublikalar da, Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan Sovet Sosialist Respublikası, bugünkü müstəqil Azərbaycan Respublikası da milli dövlətçiliyin ayrı-ayrı müstəqil təzahürləridir. Bu dövlətlər həm də böyük vahid tarixi prosesin ayrı-ayrı hissələrini də təşkil edir. Azərbaycan xalqı dünya tarixinə Cavanşir, Babək, Şəmsəddin Eldəgiz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Xətai, Nadir şah kimi qüdrətli, nurlu əməllər sahibi olan şəxsiyyətlər bəxş etmişdir. Heydər Əliyev bu görkəmli şəxsiyyətlərin qəhrəmanlıqlarını "vətənpərvərlik məktəbi, vətənin bütövlük, birlik təcəssümü" kimi səciyyələndirir, onların həyat və fəaliyyətlərinin xalqımızın vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirdiyini, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevirdiyini göstərirdi. Qətiyyətlə deyə bilərik ki, 14 iyul 1969-cu il tarixində Heydər Əliyevin Azərbaycana rəhbər təyin edilməsi ilə xalqımızın tarixi üçün yeni epoxa başlandı. Ədəbi ictimai-siyasi mühit canlandı. Heydər Əliyevin Azərbaycan Mərkəzi Komitəsinin Siyasi Bürosundakı çıxışı SSRİ-nın siyasi elitasında şok effekti yaratdı. İlk dəfə idi ki, Kommunist rejiminin rəhbərlərindən biri müttəfiq respublikanın rəhbəri olan şəxs sosializim qurluşunun problemlərindən danışaraq onu tənqid edirdi. Bu neqativ hallara qarşı mübarizə aparılmasına səsləyirdi. Xarici radiostansiyalar Heydər Əliyevin çıxışını tirajlayır SSRİ-ni tənqid edirdilər. Bu həmin dövr idi ki, Aleksandr Solijentsinin əsərləri xaricdə çap edilirdi. 1969-cu ildə Soljenitsının adı Nobel nominantları sırasına salınsa da o bu mükafatı ala bilmirdi, çünki bədii məziyyətindən başqa A.Soljenitsinin əsərlərindəki siyasi çalarlar daha mühüm yer tuturdu.

Bu çıxış Heydər Əliyevin siyasi karyerası üçün böyük təhlükə yaradırdı. Lakin Heydər Əliyev bu təhlükələri göz önünə alaraq gerçəklikdən çıxış edirdi. Məhz bu idi Heydər Əliyev fenomenini başqalarından fərqləndirən səciyyəvi xüsusiyyət. Dövləti idarə etməyə belə cəsatətli çıxışla başlayan Heydər Əliyev öz siyasi fəaliyyəti dövründə öz həyat kredosuna sadiq qaldı, öz gerçək kimliyindən imtina etmədi. Bir əqidəyə namusla xidmət etdiyini kommunist ideyalarına inandığını etiraf etdi. Lakin sonralar bu ideyanın yalnış olduğunu SSRİ-nın isə imperiya olduğunu da səmimiyyətlə etiraf etdi.

***Heydər Əliyev Azərbaycan ziyalılarının himayəçisi kimi***. Heydər Əliyevin I hakimiyyəti dövründə məhz başqa müttəfiq respublikalardan fərqli olaraq dissident hərəkatı yaranmadı, çünki ziyalıları Sovet İmperiyasının repressiya çarxlarının altından qoruya bildi. Bu onun siyasi bacarığının milli düşüncəsinin və milli təəssübkeşliyinin nəticəsi idi. Gəlin o dövrün siyasi gerçəkliklərinə və tarixi xronologiyasına bir nəzər salaq.

Heydər Əliyevin hakimiyyətə gəlməsindən cəmi 4 ay sonra (2 noyabr 1969) Bakı Dövlət Universitetinin 50 illik yubileyinin təşkil olunmasına nail olur. Burada Heydər Əliyev Azərbaycan dilində çıxış edir. Müttəfiq respublikaların rəhbərləri əksəriyyətinin rus dilində danışmasına baxmayaraq Heydər Əliyevin ana dilində ziyalılar qarşısında çıxış etməsi onun milli düşüncəsindən irəli gələn strateji hədəflərə söykənən bir jest idi. Bu Heydər Əliyevin milli dil siyasəti ilə bağlı gələcəkdə həyata keçirəcəyi doktrinanın ən vacib komponenti idi. Heydər Əliyev çıxışında deyir: ***"Azərbaycan xalqının parlaq və orijinal mədəniyyətinin ən yaxşı ənənələri Azərbaycan Dövlət Universitetində inkişaf etdirilmişdir. Dövlət Universitetinin (Bakı Dövlət Universiteti - red.) 50 yaşı tamam oldu yarım əsrdir ki, universitet bilik məşəlini uca tutur, vətənə, xalqa fədakarlıqla xidmət edir. Azərbaycanın bu birinci ali məktəbi doğma xalqın mənəvi dirçəlişində, onun iqtisadiyyatının və mədəniyyətinin tərəqqisində elə böyük, elə nəcib rol oynamışdır ki, universitetin 50 illiyi əsil ümumxalq təntənəsinə çevrilmişdir. Respublika öz ali məktəb flaqmanın yubileyini milli mədəniyyətin və elmin böyük bayramı kimi qeyd edir. Azərbaycan Dövlət Universiteti öz qızıl yubileyinə yaradıcılıq qüvvələrinin bulaq kimi qaynadığı bir vaxtda gəlmişdir".***

Heydər Əliyev Bakı Dövlət Universitetinin yaradılması dönəminə də toxunmağı zəruri hesab edir. Həmin dövrdə 1918-1920-ci illər zamanı haqqında Azərbaycan SSR tarixində yalnız bir cümlə keçirdi. Bu da həmin dövrdə milli burjuaziyanın hakimiyyətdə olmasından ibarət idi.

Heydər Əliyev qeyd edir ki, Azərbaycan xalqının tarixində birinci ali məktəbin yubileyi elə bir hadisədir ki, onun ictimai əhəmiyyəti Azərbaycanın dövlət hüdudlarından çox-çox kənara çıxır. **Bakıda universitet Azərbaycan xalqının həyatının ağır günlərində yaradılmışdır. Lakin bu gərgin vəziyyət universitet yaradılması uğrunda hərəkatın qarşısını ala bilmədi.**

Biz Azərbaycan xalqının bu və bir çox digər görkəmli oğullarına ona görə minnətdarıq ki, onlar zülmətli irtica və özbaşınalıq şəraitində Azərbaycan xalqının ictimai fikrinin, elm və mədəniyyətinin məşəlini göz bəbəyi kimi qorumuşlar.

1919-cu ildə, Azərbaycanın ictimai dairələrində universitet açmaq haqqında məsələ müzakirə olunduqda bəziləri şəkk gətirib deyirdilər ki, bu iş baş tutmayacaqdır, yaxşısı budur gəncləri xarici ölkələrin tanınmış universitet mərkəzlərində təhsil almağa göndərək. Bu gün biz həmin inamsızlara deyə bilərik ki, dörd qitənin elçiləri təhsil almaq üçün Azərbaycana gəlirlər. Azərbaycanın ali məktəblərində dünyanın 27 xarici ölkəsinin gəncləri təhsil alır.

***SSRİ-də disidentlik hərakatı***. Solojinitsin 1962-ci ildə Sovet lideri Nikita Xruşşovun razılığı ilə Stalin repressiyalarından bəhs edən "İvan Denisoviçin həyatında bir gün" adlı ilk romanını nəşr etdirdi. Soljenitsının Sovet İttifaqında nəşr olunan sonuncu əsəri 1963-cü ildə "Matryonanın yeri" idi. Xruşşovun hakimiyyətdən uzaqlaşdırılmasından sonra Sovet hakimiyyəti Soljenitsını yazmağa davam etməkdən çəkindirməyə çalışdı. O, 1966-cı ildə "Xərçəng şöbəsi", 1968-ci ildə "Birinci dairədə", 1973-cü ildə nəşr "Qulaq arxipelaqı" sovet rejiminin ciddi etirazlarına səbəb oldu. Nəhayət 1974-cü ildə Soljenitsın Sovet vətəndaşlığını itirdi və təyyarə ilə Qərbi Almaniyaya getdi və geri qayıtmadı. O, 1976-cı ildə ailəsi ilə birlikdə ABŞ-a köçdü və burada yazmağa davam etdi.

SSRİ-də ikinci populyarlıq qazanan dissident Andrey Dmitriyeviç Saxarov idi. Sovetlər hakimiyyətin onun fikirlərini zərərli sayaraq ona qarşı repressiyalar həyat keçirirdilər. Saxarova görə kapitalist dövlətlərlə iqtisadi və siyasi sahədə əməkdaşlığı normal sayırdı. Bu isə kommunist ideologiyası ilə uyğunluq təşkil etmirdi. Saxarov 1975-ci ildə Nobel sülh mükafatı ilə təltif olunmuş,

lakin SSRİ hökumətinin təzyiqləri ilə 1986-cı ilə qədər ölkə içində sürgünə göndərilmişdir. O həmçinin SSRİ-nin Əfqanıstana qoşun yeritməsinə qarşı çıxış etmişdir. Nikita Xuruşov A.Saxarov haqqında KQB-də ayrıca qovluq açdırmış və onun əleyhinə kompromatlar toplayırdı.

Bakıda doğulan məhşur violonçel ifaçısı Mstislav Leopoldoviç Rostropoviç zadəgan nəslindən idi. Rostropoviç Sovet ideologiyasının ən təhlükəli illərində belə sərhədsiz, siyasi təsir və təzyiqlərdən azad sənət, sərbəst fikir azadlığı və bu kimi Sovet ideologiyasına zidd demoktarik ideyaları çəkinmədən səsləndirirdi. 1970-ci ildə isə Rostropoviç Sovet ideologiyasının təqiblərinə məruz qalmış yazıçı A. Soljenitsinə öz evində sığınacaq verir. Soljenitsınla dostluq münasibətləri və digər dissidentlərə verdiyi dəstək səbəbindən Rostropoviç hakimiyyətin qəzəbinə tuş gəlir. Kanservatoriyanı tərk etməli olur. Nəhayət, Rostropoviç ailəsi ilə birgə 1974-cü ildə Sovetlər İttifaqını tərk edərək ABŞ-a yollanır. Tezliklə vətənində musiqi fəaliyyətinə qəti qadağan tətbiq olunur və ardınca 1978-ci ildə Sovetlərin mədəni azadlığa qoyduğu məhdudiyyətlərə qarşı kəskin çıxışlarına görə Sovet vətəndaşlığından məhrum edilir.

1 may 1997-ci il tarixində Bakıda Heydər Əliyev Rastropoviçin yubiley görüşündə bu barədə maraqlı fikirlər səsləndirir. Jurnalistin məlumdur ki, Rostropoviç dissident olan vaxtlar Siz DTK- nın generalı idiniz. Bu, Sizin onunla münasibətlərinizə nə dərəcədə təsir göstərirdi? Ola bilsin ki, Siz o vaxtlar onun müqəddəratında müəyyən dərəcədə iştirak edirdiniz. Daha bir sual: belə bir fikir var ki, SSRİ-də yenidənqurmaya məhz DTK başlamışdı- suallarına cavabı diqqətəlayiqdir.

Heydər Əliyev: "Bəli, mən DTK-nın generalı olmuşam. Bu, doğrudur. Bəziləri bunu həmişə mənim bioqrafiyamın mənfi səhifəsi kimi qələmə verməyə çalışırlar. Hesab edirəm ki, mənim bütün bioqrafiyam müsbətdir. Mən öz bioqrafiyamın bir sətrindən də imtina etmirəm və keçmişdə mənim həyatımda nə olmuşsa, hamısı ilə fəxr edirəm. Mən cavan yaşlarımdan Kommunist Partiyasının üzvü olmuşam, dövlət təhlükəsizliyi orqanlarında olmuşam, burada uzun illər ərzində xidmət etmişəm, burada dövlət təhlükəsizliyi naziri, general olmuşam. Bunların hamısı olubdur. Lakin 1969-cu ilin iyul ayında məni Azərbaycan KP MK-nın birinci katibi seçdilər, Rostropoviç isə 1974-cü ildə dissident olmuşdur. **Nə deyə bilərəm? Azərbaycanın Dövlət Təhlükəsizliyi Komitəsində işlədiyim dövrdə də, respublikaya rəhbərlik etdiyim 14 il ərzində də Azərbaycanda dissidentlər olmayıbdır. Soruşa bilərsiniz: niyə? Dissidentlər olmağına olmuşdur, amma biz onları dissident hesab etmirdik. Yəni onları dissidentlik halına gətirib çıxarmırdıq, sadəcə olaraq dissidentlər axtarmırdıq".**

Azərbaycanda da 60-70-ci illər milli hisslərin coşduğu bir zamanlar idi. Heydər Əliyevin rəhbər kimi milli dildə danışması ziyalıları himayə etməsi milli hissləri daha da coşdururdu.

Xalq şairi Bəxtiyar Vahabzadənin 1960-cı ildə Şəkinin "Nuxa fəhləsi" qəzetində çap olunan "Gülüstan" poemasında milli azadlıq və müstəqillik ideyaları aşılayırdı. Poema getdikcə populyarlıq qazanır və əl-əl gəzirdi. Heydər Əliyevin hakimiyyəti dönəmində "Gülüstan" poeması həddindən artıq geniş yayılmışdır. Artıq Bəxtiyar Vahabzadənin həbs edilməsi məsələsi Azərbaycan SSR-nin DTK-də müzakirə edilirdi. Heç kimə sirr deyildi ki Dövlət Təhlükəsizlik Komitəsi yerli hakimiyyətdən çox SSRİ-nın rəhbərliyinin maraqlarına xidmət edir öz kampitensiyasına aid olan məslədə heç kimə güzəştə getmirdilər. Xüsusi ilə qeyri-ruslara qarşı daha amansız idilər. Sovet ideologiyasının əlehinə gedən rus disidentlərinə belə heç bir güzəşt edilmirdi. Yuxarıda Solijinitsin və Saxarov və Rastrapoviç nümunəsinə diqqət etmək kifayətdir ki, o vaxtkı mənzərə gözləriniz önündə canlansın.

Heydər Əliyev özü bu hadisələri belə xarakterizə edir: **"Mən dövlət Təhlükəsizlik Komitəsində işləyən zaman Bəxtiyar Vahabzadənin həbs olunması məsələsi meydana çıxmışdı. O, vaxtı mən onu xilas etdim. Mən qoymadım o həbs olunsun. Nəinki qoymadım onunla dəfələrlə söhbət apardım. Ona öz məsləhətlərimi verdim. Hamısı onun xatirindədir. Belə bir insan o vaxtları böyük bir fəlakət qarşısında idi. Nəyə görə? Heç bir cinayəti yox idi. Nəyə görə? Ona görək ki, o millətini sevirdi. Millətin qayğıları haqqında yazılar yazırdı şerlər yazırdı. Gülüstan poeması yazmışdı. Ondan ötrü onun həbs olunmaq məsələsini qoymuşdular. Xəlil Rzanı həbs etmək məsələsini qoymuşdular"**.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 75 illik yubileyi münasibətilə xalq şairi Bəxtiyar Vahabzadəyə göndərdiyi təbrik məktubunda deyir: "*Vətənlə, xalqla, ana dilimizlə qırılmaz tellərlə bağlı olan hər bir misranızdakı hikmət ölkəmizin müstəqilliyi uğrunda vətənpərvər mübarizlərin yetişməsində böyük rol oynamış və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə*

*edilməsində bir örnək olmuşdur. Siz yüksək ideallar tərənnüm edən poeziyanızla millətin birliyinə, ləyaqətinə ehtiram hissləri aşılamış və onların təntənəsi uğrunda səbrlə, yorulmadan, ardıcıl mübarizə aparmısınız".*

Rusiyalı araşdırmaçı tarixçi Nikolay Zenkoviç Heydər Əliyev Tale yolları adlı avtobioqrafik əsərində bu barədə yazır: Azərbaycan əraziləri çar generalları silah gücünə qanlı çarpışmalarda zəbt etmişlər. Heydər Əliyev xidməti məlumatı oxuyur, gözlərinə inanmırdı. «Aranı qarışdıranlar» tanınmış tarixçilər M.İsmayılov, S.Əliyarov idilər. Xüsusən təəccüblü idi ki, hamı üçün sanki aydın olan bu faktları təkzib edən alimlər arasında Böyük Vətən müharibəsinin iştirakçısı, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovun da adı vardı. Qalmaqal universitet divarlarından kənara yayılmışdır. Kommunist Partiyasının Mərkəzi Komitəsinə və DTK -ya müraciət edən «xeyirxahlar» tələb edirdilər ki, həmin alimlərə, xüsusən də Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadova qarşı ən sərt tədbirlər görülsün. Bu ideoloji təxribata gözyummaq olmaz! Beş il əvvəl Azərbaycanın Rusiya tərkibinə könüllü daxil olmasının yubileyi ilə əlaqədar təntənəli tədbirlər keçirilmiş, respublikanı Lenin ordeni ilə təltif etmişdilər, indi isə gözlənilmədən belə bir xoşagəlməz hadisə baş verib. Əliyev «aranı qarışdıranlarla» söhbət etdi. Onlar tarixi mənbələr, o cümlədən Rusiya arxivlərindən olan sənədlər göstərdilər. Qaynaqlar sübut edirdi ki, alimlər doğru danışırlar. Heydər Əliyev tapşırıq verdi ki, bu işi elmi mübahisələrə aid edərək bağlasınlar.

**Əbülfəz Elçibəy** ***:"...öz-özümə boynuma da almışam ki, səhv etmişəm".*** Eks prezident Əbülfəz Elçibəyin Heydər Əliyev haqqında fikirləri bu mövzuda maraq doğurur. Əbülfəz Elçibəy: "Deyirdim ki, bu qurluş dağılacaq" (Bakı Gənclik 1992) adlı kitabında 70-ci illərdə rus dilinin geniş yayılması ilə bağlı tənqidi fikirlərini səsləndirməsi ilə bağlı fikirlərinin yer aldığı müsahibəsində Heydər Əliyevin həmin dövrdəki xidmətlərindən danışır. Əbülfəz Elçibəy Sovet rəhbərliyini və Heydər Əliyevi necə tənqid etməsindən danışır: "Sonra, Sovet İttifaqını idarə edənlərin hamısının yaşlı, oturuşmuş, savadsız, intellektual səviyyəsiz adamlar olduğunu (*Brejnev'*dən tutmuş *Qrişin*'ədək) deyirdim. Hətta *Heydər Əliyev'*in özünü də. Məsələn, Heydər Əliyevin Azərbaycanda nə üçün dövlət başçısı ola bilməyəcəyini belə əsaslandırırdım ki, o, güclü savad almayıb (onda belə düşünürdüm), Dövlət Təhlükəsizliyi Komitəsinin məktəbini qurtarıb. DTK haqqında da o zaman eşitmişdim ki (xaricdə olan bir azərbaycanlının yazısı idi), *Göbbels* qəddarlıqda Sovet İttifaqı «Kaqebe»sində (bu cür ifadə etmişdi) işləyən adicə bir serjantın əlinə su tökməyə layiq deyil. Yəni bu sistem belədir – qəddarlıq sistemidir. Bunu hamı görürdü. Mən də düşünürdüm ki, Heydər Əliyev də burada böyüyüb. Eşitmişdim ki, 25 il yaxasında zəhər gəzdirən kəşfiyyatçılardandır. Deyirdim ki, bu adam həyatda ağır yollar keçib, ölümlə üz-üzə gəlib, bəlkə lap adam da öldürüb; ondan humanist başçı ola bilməz. Doğrudan, iddiam bu idi. Ancaq etiraf edirəm ki, onun savadının nə səviyyədə olduğunu o zaman düzgün bilməmişdim. Mən fikirləşirdim ki, o, tarix fakültəsini qiyabi qurtarıb. Deyirdim ki, tarix fakültəsində ona dərs deyən müəllimlərin səksən faizi savadsızdır, onu özü də qiyabi qurtarıb – onun nə savadı ola bilər?

Əbülfəz Elçibəy sonra Heydər Əliyevin güclü şəxsiyyət olmasını etiraf edərək söyləyir: ***"Amma mən bilmirdim ki, Heydər Əliyev xüsusi məktəb keçib. Sonradan gördüm ki, onun çox möhkəm yaddaşı və yüksək qabiliyyəti var. Mən həbsxanaya getdim, həbsxanada da onun əleyhinə oldum, çıxandan sonra da bir-iki il onun əleyhinə idim. Sonralar ki onun bəzi çıxışlarını, bəzi manevrlərini gördüm, inandım ki, o, çox idraklı adamdır, çox güclü şəxsiyyətdir, onun güclü şəxsiyyət olduğunu qəbul etdim. Doğrudan da, etiraf edirəm ki, Heydər Əliyevin təqribən 6 il, 7 il əleyhinə danışdığım halda sonradan elə olub ki, 6 il, 7 il də onu tərifləmişəm, öz-özümə boynuma da almışam ki, səhv etmişəm"... "***Mən H.Əliyevin güclü şəxsiyyət olması, onun güclü məlumat, fenomenal yaddaş sahibi olması haqqında fikrimdə indi də qalıram. Özü də, çox qəribədir ki, bu sözləri mən demirəm – onun o vaxtkı rəqibləri də elə onda mənimlə razılaşmayıb deyirdilər ki, Əliyevin fenomenal yaddaşı var, savadlı adamdır. Öz düşmənləri bunu etiraf edirdilər".

***Ə.Elçibəy etiraf edir ki, Heydər Əliyev milli görüşlü ziyalılara dövlət mükafatı verməklə həm həmin elm sahəsini inkişaf etdirir həm də həmin şəxsləri qoruyurdu.*** **–** "O zaman bir çox şeylərin – vətənpərvərliyin, milləti sevməyin hələ ana xətləri tamam qırılmamışdı, qalırdı, onu müdafiə edirdilər. Yəni hiss edirdin ki, bu millət özünü müəyyən qədər qoruyur, ziyalısı onu müdafiə edir (ya gizli, ya açıq şəkildə), özünüqoruma duyğusu qüvvətlidir.

Birincisi, Azərbaycan dilinin təbliğatı genişlənirdi. Azərbaycan dili müəllimləri kitablar buraxırdılar, hər yerdə çıxış edirdilər. Heydər Əliyevin ən böyük işlərindən birisi bu idi. Azərbaycanda iki şeyi görəndən sonra Əliyevə münasibətim dəyişməyə başladı. Birincisi, ilk dəfə olaraq bir neçə dilçi alimə (yeddi nəfərdi, ya altı nəfərdi) bir yerdə dövlət mükafatı verdirdi. Azərbaycan dilçilərinin nüfuzu qalxır və onlar toxunulmaz olurlar. Axı ***millətin təfəkkürünü inkişaf etdirməyə dilçilər başlayır.*** Bu baxımdan mükafatın çox xeyri oldu. Mükafat verilən kimi dilimizin işlədilməsi genişlənməyə başladı. Bu, çox təbiidir; o zaman eləydi – nəyə mükafat verilsəydi həmin sahə inkişaf etdirilməliydi. Bu, Heydər Əliyevin xidməti idi".

Akademik *Ziya Bünyadov*un *«Azərbaycan Atabəylər dövləti»* əsərinə dövlət mükafatı verdirməsi. Bu da o deməkdi ki, vaxtilə Ziya Bünyadova «millətçi», «şovinist» deyə hər cür damğalar vururdular və indi o, alimi bütün hücumlardan qorudu, yəni siz ermənilər ki həmişə Ziyaya «millətçi» deyirdiniz, indi alın – o, dövlət mükafatı laureatıdır. Vaxtilə Heydər Əliyev Ziya Bünyadovu tənqid etmişdi. Ermənilər bundan istifadə edib yazırdılar ki, hətta Azərbaycan KP MK-nın birinci katibi belə onu tənqid edib və **Ziyanı beləcə vururdular. Bu mükafatdan sonra isə ermənilər təzədən yazdılar ki, Heydər Əliyev millətçidir – o, millətçi Ziya Bünyadova dövlət mükafatı verdirib.**

Bax, bu şəkildə hiss olunurdu ki, hamı öz vətənini, millətini istəyir, ancaq sadəcə olaraq, bunun müdafiə formalarını bilmir, hərə bir cür, öz bacardığı kimi müdafiə edir. Bu, bir xətt idi.

Həmçinin Ə.Elçibəy etiraf edir ki, yetmişinci illərdə Azərbaycanda dissidentlik olmayıb. Heydər Əliyev: "Dövlətimiz müstəqil dövlətdir, formalaşır. Onun özünün yüksək mükafatları var. Ən yüksək mükafat təsis olunub - bu, "İstiqlal" ordenidir. Kimə birinci çatmalıdır bu orden? Mən bir neçə aydır bu haqda düşünürəm. Çox götür-qoy eləmişəm və xeyli müddət bundan qabaq belə qərara gəlmişəm ki, bu orden bax, bizim şəxsiyyətlərimizə çatmalıdır. Şəxsiyyətlərimiz birinci növbədə buna layiq görülməlidirlər. Buna görə də dünən mən fərmanlar verdim, Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsində xüsusi xidmətlərinə görə hörmətli şairimiz Bəxtiyar Vahabzadə, hörmətli şairimiz Məmməd Araz və çox hörmətli şairimiz, mərhum Xəlil Rza bu ordenlə təltif edildilər. Güman edirəm ki, mən doğru addım atmışam və hesab edirəm ki, xalqımız, ictimaiyyətimiz bunu yaxşı qarşılayacaq. Mən artıq bu gün aldığım məlumatlardan hiss eləyirəm ki, bunu yaxşı qarşılayacaqlar. Ona görə də sizi təbrik eləyirəm, Məmməd Araz, səni təbrik eləyirəm, Bəxtiyar, səni təbrik eləyirəm. Sizin uzun illər həqiqətən xırda-xırda, misra-misra, damcı-damcı yaratdığınız əhval-ruhiyyə Azərbaycan xalqını gətirib bugünkü vəziyyətə çıxartdı".

Heydər Əliyev Azərbaycanın görkəmli ziyalıları Bəxtiyar Vahabzadə, Məmməd Araz və Xəlil Rza Ulutürkə məhz milli azadlıq hərakatındakı xidmətlərinə görə "İstiqlal" ordeni ilə təltif etdi. 4-cü ordeni Mirvari Dilbaziyə verərkən onun Azərbaycan ədəbiyyatındakı xidmətlərini nəzərə almaqla siyasi palitranın obyektiv dəyərləndirdi.

**Heydər Əliyevlə Rəsulzadə ailəsinin görüşü barədə böyük siyasi xadimin nəvəsi əməkdar rəssam Rais Rəsulzadənin fikirləri maraqlıdır. Heydər Əliyevlə görüşlərini xatırlayan R.Rəsulzadə maraqlı məqamlara toxunur. R.Rəsulzadə:** "Bu hadisə atamın Bakıya son gəlişində baş vermişdi. 1991-ci il idi. Atam növbəti dəfə Bakıya gəlmişdi. Məktəb dostlarından biri ilə zəngləşib danışmışdılar, görüşməli idilər. Görüşün vaxtına hələ vaxt vardı. Atam mənə dedi ki, gəl Şəhidlər Xiyabanına gedək, şəhidlərimizi ziyarət edək. O vaxt orada 20 Yanvar şəhidləri dəfn edilmişdi. Şəhidlər Xiyabanında şəhidlərimizi ziyarət etdik. Şəhidlər Xiyabanında heç kim yox idi, ikimiz idik. Birdən atam qoluma toxundu ki, o Heydər Əliyevdir. Mən də baxdım ki, həqiqətən odur. Onun da yanında jurnalistlər var idi. Özü də girəcəkdə idi, müsahibə verirdi. Onların hamısını araladı, düz bizim yanımıza gəldi. Atamla salamlaşdı, dedi ki, **"Siz Məhəmməd Əmin Rəsulzadənin oğlu Azərsiniz?" Atam dedi, bəli. Heydər Əliyev dedi ki, "mən sizi bir dəfə televizorda görmüşəm. Necəsiniz? Nə var, nə yox? Eşitmişdim problemləriniz var. Səhhətiniz nə yerdədi?"**. Atam da dedi ki, **"Necə olacaq, "xalq düşməni"** damğasını atmışam, gəlmişəm bura". Heydər Əliyev də dedi ki, **"Mən də "kommunist"** damğasını atmışam. **Sabah burada Milli Məclisdə çıxış etməliyəm".** Bizim burada 3 evimiz var idi, atam deyirdi ki, o evləri aldılar. Atam Heydər Əliyevdən soruşdu ki, "düzünü deyin, mən Bakıya gəlsəydim, siz mənə ev verərdiniz?". Heydər Əliyev də atama dedi, "əlbəttə, sizə ev verərdim, niyə vermirdim. Bundan sonra Heydər Əliyev çox maraqlı bir tarix danışır: ***"O vaxtı "Qlavlit"də müdür, bilikli mütəxəssis lazım idi, adam tapa bilmirdik. Bir gün***

***gəldilər ki, biz adam tapmışıq, amma o olmaz. Dedim niyə? Dedilər, çünki Məhəmməd Əminin qohumudur. Mən də dedim o nə deməkdir ki? Gətirin vəzifəyə həmin adamı. Gəldi, fəaliyyət göstərdi, özünü doğrultdu da həmin adam. Ona görə o vaxt gərək gələrdiniz".*** Bizimlə görüşdüyü dönəmdə Naxçıvanda fəaliyyət göstərirdi Heydər Əliyev. Ona görə deyirdi ki, **"İndi mənim burada səlahiyyətim yoxdur, amma Naxçıvana gəlin, orada nə şərait istəyirsiniz sizə yarada bilərəm. Qeyd edim ki, orada mənim stolumun üstündə Leninin büstü var idi, onu atdıq, Məhəmməd Əmin Rəsulzadənin büstünü qoymuşuq, onun bayrağını asmışıq. Görüş belə oldu...**

***Rais Rəsülzadə: "Atamın nəşini Heydər Əliyev Bakıya gətizdirdi".*** Rais Rəsülzadə: "Atamın nəşini Heydər Əliyev Bakıya gətizdirdi". R.Rəsülzadə Azərbaycan Dövlət Televiziyasına müsahibəsində bildirib ki, atasına qarşı dəfələrlə təxribat törədiblər. Hətta Məhəmməd Əmin Rəsulzadənin vəfatından istifadə etmək istəyənlər də olub: "1955-ci ildə atamı çağırdılar ki, atanız Ankarada vəfat edib, getmək istəyirsinizmi? Təbii ki, atamı Ankaraya müəyyən şərtlərlə göndərirdilər. Atam 35 yaşında idi, bilirdi ki, şərtlərə məxfi işlərlə məşğul olmaq, kimlərləsə əlaqə yaratmaq da daxildir. Atam dedi ki, getmək istəmirəm". Rais Rəsulzadə Bakıya niyə gəldiyini də söyləyib: "1965-ci ildə Bakıya gəldim. Atam etiraz eləyirdi. Amma mən hər şeyi bilirdim, deyirdim ki, ədaləti bərpa eləməliyəm".

M.Ə.Rəsulzadənin yadigarı atasının son arzusunu açıqlayıb: **"Atam vəsiyyət eləmişdi ki, vətəndə dəfn olunsun. Kimsə gəlib Heydər Əliyevə Rəsulzadənin oğlunun vəfat etdiyini deyəndə, soruşmuşdu ki, siz hələ onu gətirməmisiniz?** Ondan sonra xəbər aldıq ki, təyyarə gəlir. Gecə ilə gəldilər, apardıq, Novxanıda babasının yanında dəfn elədik".

Bütün bu faktları nəzərə alsaq deyə bilərik ki, Heydər Əliyevin qeyri-adi şəxsiyyəti onun ictimai-siyasi həyatdakı bənzərsiz əməli siyasətçiliyi və təşkilatçılığı, müdrikliyi, filosofluğu ilə vəhdət təşkil edir. Təsadüfi deyil ki, dahi şəxsiyyətin fəaliyyətini tədqiq edən alimlər Heydər Əliyevin siyasət məktəbini "siyasi tərbiyə institutu" kimi dəyərləndirərək onun insan və cəmiyyətin kamilləşməsində əsas amil olduğunu göstərirlər. Qeyd etmək istəyirəm ki, Heydər Əliyev şəxsiyyəti, fəaliyyəti və onun yaratdığı siyasət məktəbi əməli-siyasi idarəçilik sahəsində çalışan hər bir şəxs üçün yüksək ictimai tərbiyə və siyasi kamillik məktəbi nümunəsi ola bilər və olmalıdır.

***Nəticə.*** Heydər Əliyev siyasətə kompleks yanaşmanın, siyasətin bütün aspektlərinin vəhdətdə götürülməsinin canlı nümunəsi idi. Heydər Əliyevin fenomenal şəxsi keyfiyyətləri, görünməmiş təhliletmə qabiliyyəti, dahiyanə siyasətçiliyi və diplomatikliyilə birləşərək onu müqayisə olunmaz dünya siyasətçisi səviyyəsinə qaldırdı. Heydər Əliyevin məntiqli, aydın, ardıcıl siyasəti onun müdrikliyi, hikməti və dahiyanə idrakı ilə vəhdət təşkil edərək siyasi, iqtisadi, mədəni-mənəvi amillərin birliyini özündə cəmləşdirmişdir. Heydər Əliyevin siyasət fəlsəfəsinin ali tələbləri dövlət, cəmiyyət, xalq və fərd maraqlarının uzlaşmasını təmin etməkdir. Heydər Əliyevin kompleks siyasətinə qətiyyətlik, prinsipiallıq, məsuliyyət, dəqiqlik, demokratizm, tolerantlıq, humanizm, sosial ədalət, operativlik xasdır. Ulu Öndər siyasətə milli və ümumbəşəri maraqların vəhdəti prizmasından yanaşmanın bariz nümunəsi idi.

## ƏDƏBİYYAT


1. Qurbanov S. Zamana sığmayan lider: Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi, Bakı, İzə nəşriyyatı, 2022, 436 s.
2. Qurbanov S. " Ziyalıların böyük himayədarı" / Azərbaycan qəzeti, 1 aprel 2023-cü il.
3. Bir günəşin zərrələri, R.Rəsulzadə ilə müsahibə / Mədəniyyət.az., № 2 2018.
4. N.Zenkoviç. Heydər Əliyev , Tale yolları. Bakı, Azərbaycan nəşriyyatı, 2007.
5. Əbülfəz Elçibəy. "Deyirdim ki, bu quruluş dağılacaq". Bakı, Gənclik, 1992-ci il.
6. Xalq şairi Bəxtiyar Vahabzadənin "Gülüstan" poeması necə çap olundu və həbsdən necə xilas edildi? / Ədəbiyyat qəzeti, 2019 16 noyabr.
7. Xəlilov X.R. (Xəlil Rza Ulutürkün) "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 15 aprel 1995-ci il. № 317.
8. M.İ.İbrahimovun (Məmməd Arazın) "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 15 aprel 1995-ci il. № 318.
9. B.M.Vahabzadənin "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 15 aprel 1995-ci il. № 319.

**САДИК ГУРБАНОВ**
*Председатель Комитета природных ресурсов, энергетики и экологии Милли Меджлиса*

## ГАЙДЕР АЛИЕВ: ЧЕЛОВЕК ВНЕ ВРЕМЕНИ

Гейдар Алиев был живым примером комплексного подхода к политике, объединяющего все аспекты политики. Феноменальные личностные качества Гейдара Алиева в сочетании с его беспрецедентной способностью к гениальному анализу политики и дипломатии подняли его на уровень несравненного мирового политика.

Логичная, ясная и последовательная политика Гейдара Алиева, соединенная с его мудростью и гениальным пониманием, заключала в себе единство политических, экономических, культурных и нравственных факторов. Высшим требованием политической философии Гейдара Алиева является обеспечение примирения интересов государства, общества, народа и личности.

Сложная политика Гейдара Алиева характеризуется решительностью, принципиальностью, ответственностью, аккуратностью, демократичностью, толерантностью, гуманизмом, социальной справедливостью и эффективностью. Великий Вождь был наглядным примером подхода к политике с точки зрения единства национальных и общечеловеческих интересов.

*Ключевые слова*: Гейдар Алиев, азербайджанский интеллигент, Вечный лидер, традиции государственности, инакомыслие, генерал службы государственной безопасности, государственная награда.

**SADİQ GURBANOV**
*Chairman of the Natural Resources, Energy and Ecology Committee of the Milli Majlis*

## HAYDER ALIYEV: A PERSON GREATER THAN TIME

Heydar Aliyev was a living example of a comprehensive approach to politics, taking all aspects of politics together. Heydar Aliyev's phenomenal personal qualities, combined with his unprecedented ability to analyze ingenious politics and diplomacy, raised him to the level of an incomparable world politician.

Heydar Aliyev's logical, clear, and consistent policy, united with his wisdom and ingenious understanding, incorporated the unity of political, economic, cultural, and moral factors. The highest requirements of Heydar Aliyev's political philosophy are to ensure the reconciliation of state, society, people, and individual interests.

Heydar Aliyev's complex policy is characterized by determination, principality, responsibility, accuracy, democracy, tolerance, humanism, social justice, and efficiency. The Great Leader was an explicit example of approaching politics from the perspective of unity of national and universal interests.

*Keywords:* Heydar Aliyev, Azerbaijani intellectual, Timeless leader, traditions of statehood, dissidence, general of Government security service, state award.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*




**UOT 94(479.24)**

**İSMAYIL HACIYEV**

*AMEA Naxçıvan Bölməsinin sədri, akademik*
**haciyev.i1951@gmail.com**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ

*Məqalədə XIX əsrin əvvəllərində Azərbaycan ərazisinin iki hissəyə bölünməsi, ermənilərin Şimali Azərbaycan ərazisinə köçürülməsi, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Ermənistan və Gürcüstanın Azərbaycana qarşı iddiaları tarixi faktların köməyi ilə araşdırılır və bir sıra ərazilərin itirildiyi göstərilir. 20-ci əsrin 20-60-cı illərində Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları davam edərək sahəsi 9 min kvadrat kilometrdən 29 min 700 kvadrat kilometrə çatdı.*

*Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlməsi ilə Ermənistanın iddialarının qarşısı alındı. Lakin Heydər Əliyevin istefası ilə ermənilərin ərazi iddiaları yenidən başladı və nəticədə Dağlıq Qarabağ və Azərbaycanın 7 ətraf rayonu işğal edildi. Ümummilli liderin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə Ermənistan-Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində danışıqlar aparıldı, Azərbaycan Ordusu formalaşdı, lakin ikitərəfli siyasət problemin sülh yolu ilə həllinə mane oldu.*

*Prezident İlham Əliyevin 19 illik prezidentliyi dövründə də danışıqlar aparıldı, eyni zamanda, Azərbaycan öz hərbi və iqtisadi potensialını gücləndirdi, problemin beynəlxalq səviyyədə həllinə nail oldu və nəhayət, erməni təxribatlarına əks-hücumla cavab verdi. Nəticədə 44 günlük İkinci Qarabağ müharibəsi ilə ərazi bütövlüyümüz bərpa olundu.*

*Açar sözlər*: Azərbaycan, Heydər Əliyev, İlham Əliyev, ərazi bütövlüyü, Dağlıq Qarabağ münaqişəsi, Ermənistan, Vətən müharibəsi.

***Giriş***. Xalqımızın ümummilli lideri ulu öndər Heydər Əliyevin çoxşaxəli siyasi fəaliyyətində xalqımızın və dövlətimizin milli maraqlarında mühüm yer tutan ölkəmizin ərazi bütövlüyünün qorunması uğrunda aparılan siyasətin və strategiyanın müəyyən olunması və onun uğrunda aparılan mübarizə mühüm yer tutur. Heydər Əliyev 1969-cu ildə Azərbaycan rəhbərliyinə gələnədək ölkəmizin ərazisinin bir qismi itirilmişdi və mənfur düşmənlərimiz daha böyük torpaqlara yiyələnmək arzusu ilə fəaliyyət göstərirdilər. Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə ermənilərin Azərbaycana qarşı torpaq iddialarının qarşısını almış, onların arzularının reallaşmasına imkan verməmişdir.

Tarixdən məlumdur ki, iki yüz ildən artıqdır ki, Azərbaycan xalqı erməni şovinist-millətçi ünsürlərinin ərazi iddiaları, soyqırım və etnik təmizləmə siyasəti ilə üz-üzədir. Bu müddət ərzində azərbaycanlılar amansız hücumlara məruz qalmış, öz doğma ocaqlarından qovulmuş və ərazilərinin dörddə üç hissəsini itirmişdir. XIX əsrin 20-ci illərinə qədər Azərbaycanın ərazisinin sahəsi təxminən 410 min kv. km olmuşdur. 1806-1828-ci illərdəki müharibələr nəticəsində 280 min kv.km ərazi – Cənubi Azərbaycan İran əsarəti altına, 130 min kv.km ərazi – Şimali Azərbaycan Rusiya əsarəti altına düşdü. 1918-ci ildə 9 min kv.km ərazidə Ararat Respublikası yaradıldı, 7 min kv.km-ə malik Dərbənd xanlığı Rusiya tərəfindən tutuldu.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə onun ərazisi 113,9 min kv.km idi. Bunun 97,3 min kv.km-i mübahisəsiz, 16,6 kv.km-i mübahisəli idi [5, s.461]. Gürcüstanla 8,7 min kv.km, Ermənistanla isə 7,9 min kv.km həmsərhəd ərazi qonşu dövlətlər tərəfindən mübahisəli torpaq sayılırdı. Ərazi məsələlərinin birtərəfli, daşnak-bolşevik "həlli" nəticəsində "mübahisəli" ərazilər ermənilərə verildi və bundan əlavə 11 min kv.km ərazimiz Ermənistana bağışlandı. Buraya əsasən Zəngəzur, Dərələyəz qəzaları və Göyçə dairəsinin torpaqları daxil idi. Beləliklə, həmin illərdə Azərbaycanın 27,6 min kv.km ərazisi itirildi. 1922-ci ildə Dilican ərazisi və Göyçə ərazisinin qalan torpaqları da Ermənistana bağışlandı.

1929-cu ildə Naxçıvan Muxtar Respublikasının 657 kv.km torpaq sahəsi – 10 kəndi, Zəngilan rayonunun 3 kəndi Ermənistana verildi. Bundan əlavə həmin illərdə Əldərə, Lehvaz, Astazur, Nüvədi və b. yaşayış məntəqələri də Ermənistanın ərazisinə birləşdirildi [8, s.95]. 1938-ci ildə Zaqafqaziya MİK Rəyasət Heyətinin qərarı ilə Şərur rayonunun Sədərək və Kərki kəndləri ətrafındakı müəyyən ərazilər Ermənistana keçdi. Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisinin Ermənistan SSR-ə birləşdirilməsi üçün erməni daşnakları bir neçə dəfə SSRİ rəhbərliyinə müraciət etdi. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün Dağlıq Qarabağ Muxtar Vilayətində yürüdülən gizli işləri hələ 1960-1970-ci illərdə ümummilli lider Heydər Əliyev aşkar edərək qarşısının alınması üçün bir sıra kəskin tədbirlərin görülməsinə nail oldu.

SSRİ hökumətinin təzyiqi ilə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il mayın 7-də Ermənistan SSR-lə sərhəd rayonlarının ərazilərindən 2 min hektardan çox torpağın Ermənistan SSR-ə verilməsi haqqında hələ 1938-ci il mayın 5-də qəbul etdiyi qərarı təsdiq etdi [1, v.92-96]. 1969-cu il iyulun 14-də Azərbaycan SSR-in rəhbəri seçilən Heydər Əliyev bu qərarın icrasını dayandırdı. O, məsələyə yenidən baxmağı Moskva qarşısında təkidlə qoydu. Belə sərt mövqe respublikanın gənc, mövqelərini hələ möhkəmləndirməmiş rəhbəri üçün təhlükəli olsa da, Azərbaycan xalqının mənafelərini hər şeydən üstün tutan Heydər Əliyev təzyiqləri rədd edərək mövqeyindən dönmədi. Onun məntiqi, biliyi, bacarığı Moskvanı geri çəkilməyə vadar etdi. Erməni rəsmi dairələri yerində oturduldu. Heydər Əliyev bu məsələni bir ay müddətində uğurla həll etdi. O, həmin qərarı yerinə yetirməkdən imtina etdi. Moskvadakı bəzi qüvvələr və Ermənistan rəhbərləri qərarın həyata keçirilməsində çox israr etsələr də, Heydər Əliyev buna imkan vermədi.

Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyində uzun illər torpaq üzrə mütəxəssis vəzifəsində işləyən Nadir Hüseynbəyov 1969-cu ilin avqust ayında Heydər Əliyevlə görüşünü belə xatırlayır: "Heydər Əliyev heç bir ay yox idi ki, Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində işləyirdi. Bildirdilər ki, Heydər Əliyev məni yanına dəvət edib. Bu, mənim üçün gözlənilməz idi. Söhbətimizin əsasını Azərbaycanla Ermənistan arasında olan sərhəd, guya, mübahisəli torpaq məsələləri təşkil edirdi. Görüşümüz iki saata yaxın davam etdi. Mən özümlə 1903-cü ildə nəşr edilmiş xəritəni də gətirmişdim. Möhtərəm Heydər Əliyev həmin xəritəyə diqqətlə baxdı, onu 1969-cu ildəki mövcud xəritə ilə müqayisə etdi. Heyrət onu bürüdü: "Aman Allah, heç olmazsa, bu millətə sənin rəhmin gəlsin. Gör nə qədər torpağını əlindən alıblar", - dedi. Görüşümüzdən iki gün keçmişdi. Azərbaycan KP MK-dan mənə dedilər ki, Heydər Əliyev qatarla Ağstafaya gedir. Mənim də onunla birlikdə Ağstafaya getməyimi tapşırıb və bildirib ki, özüm ilə bir sıra sənədləri, o cümlədən 1903-cü ilin torpaq xəritəsini də götürsün. Qatar Bakıdan yola düşəndən bir az keçmiş mənə xəbər elədilər ki, Heydər Əliyev məni yanına dəvət edir. Söhbətimiz iki saatdan artıq oldu. Heydər Əliyev sənədlərə, həmin xəritəyə yenə dönə-dönə diqqətlə baxdı. Qazax rayon Partiya Komitəsinin birinci katibi bizi qarşıladı. Qazaxa, oradan da Azərbaycanla Ermənistanın sərhəddinə getdik. Sərhəddə Ermənistan KP MK-nın birinci katibi Anton Koçinyanın rəhbərlik etdiyi nümayəndə heyəti bizi gözləyirdi. Heydər Əliyev məndə olan bütün sənədləri və 1903-cü il xəritəsini aldı, mənə dedi ki, Qazax Rayon Partiya Komitəsində məni gözləyin. Heydər Əliyev onu qarşılayanlarla Dilicana yola düşdü. Təxminən üç saatdan sonra Heydər Əliyev Qazax rayon PK-ya gəldi. Hamımızla görüşdü. Məndən aldığı sənədləri qaytardı və dedi ki, 1903-cü ilin xəritəsini Ermənistan KP MK-nın birinci katibi Koçinyana bağışladım və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 7 may 1969-cu il tarixli qeyri-qanuni qərarını müzakirə etdik, Koçinyanla ümumi razılığa gəldik ki, heç bir sərhəd və mübahisəli məsələyə bundan sonra baxılmayacaq" [4, 2001, 14 may].

Həmin dövr tarixinin başqa bir canlı şahidi Həbib Həsənov yazır: "Ermənistanda Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevlə görüşə müstəsna əhəmiyyət verilirdi. Əslində, bu görüş ermənilər tərəfindən bir növ kəşfiyyat xarakteri daşıyırdı. Heydər Əliyev Ermənistan rəsmiləri üçün sirli şəxsiyyət idi. Koçinyan görüşdən İrəvana qayıdan kimi, Ermənistan KP MK-nın bürosu toplandı. Koçinyan qayğılı və dalğın görünürdü. Mən həmin büroda iştirak edən yeganə azərbaycanlı idim. O, Heydər Əliyevlə görüşü barədə çox qısa məlumat verdi. Yerdən bir neçə nəfər Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 7 may 1969-cu il tarixli qərarının icrasına nə vaxt başlanacağı barədə suallar verərkən Koçinyan bildirdi ki, "Ermənistanı və erməniləri sevən hər birinizdən xahiş edirəm ki, nə qədər Heydər Əliyev adlı adam var, heç bir sərhəd məsələsi və mübahisəli torpaq, ərazi iddiası qaldırmayın. Bunu birdəfəlik yaddan çıxarın" [10, s.105-106].

Sonralar Həbib Həsənov Ali Sovetin 1969-cu il tarixli "Torpaq alverini rəsmiləşdirən qərarı icra olunmadı" adlı məqaləsində yazırdı: "1969-cu il mayın 7-də Ermənistan SSR Ali Soveti Rəyasət Heyəti sədrinin müavini kimi gündəliyin tərtibində iştirak edirdim. İclasın başlanmasına 10-15 dəqiqə qalmış sədr N.Arutyunyanın yanına getməli oldum. Ermənistan KP MK-nın birinci katibi A.Koçinyan başda olmaqla büronun bütün üzvləri onun kabinetində idi... Təəccübümü görən N.Arutyunyan bildirdi ki, bu gün Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Azərbaycanla Ermənistanın mübahisəli sərhəd məsələsinə baxacaq. Biz də həmin məsələni müzakirə etməliyik... Qeyd etdi ki, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti də bu gün həmin məsələni müzakirə edir. Azərbaycan razılaşdırılmış xəritəni və qərar layihəsini Ermənistan SSR Ali Sovetinə təqdim edib. Xəritə divardan asılmışdı. Qara tuşla hər iki respublikanın sərhədləri bir-birindən ayrılmışdı. Xəritənin aşağı hissəsində eyni ilə qrafik sənədə razılıq bildirilən sözlər yazılmış, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti katibinin imzası ilə təsdiqlənmiş və möhür də vurulmuşdu. İclasın gedişində N.Arutyunyan Bakıya – Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri İsgəndərova zəng vurub öyrəndi ki, onlar həqiqətən məsələni müzakirə edirlər. Müzakirələrdən, təqdim olunmuş sənədlərdən belə qənaətə gəlindi ki, Azərbaycan təsərrüfatçıları Ermənistana aid olan 1568,2 hektar sahədən istifadə edirlər, bu torpaqlar Ermənistana qaytarılmalıdır. Zaldan replika eşidildi: Bu qədər ərazi üçün qazan qaynatmağa dəyərmi? Replikaya cavab olaraq sədr N.Arutyunyan bildirdi ki, biz xalqımıza cavab verməliyik. Qonşu ölkələrdən torpaqlarımızı ala bilmirik. Xalqımıza başa salmalıyıq ki, imkanımız olan təqdirdə bircə hektar torpağımızı kənarda qoymayacağıq" [10, s.106].

Ermənistan dairələrinin Azərbaycanın digər sərhəd rayonlarına qarşı da əsassız iddialar irəli sürdüyü niyyətləri puça çıxdı. Sov. İKP MK-nın 1969-cu il 5 avqust tarixli "Ermənistan SSR Şəmsəddil rayonunun və Azərbaycan SSR Gədəbəy rayonunun bəzi kolxozları arasında qeyri-normal qarşılıqlı münasibətlər haqqında" qərarı Azərbaycan KP MK bürosunun Heydər Əliyevin sədrliyi ilə keçirilən 1969-cu il 17 avqust tarixli iclasında müzakirə edildi. İki qonşu xalq arasında normal münasibətlərin yaradılması zəruri sayıldı.

Nəzərdə tutulan 1568,2 hektar sahədən bircə qarış belə Ermənistana verilmədi. May ayından sonra Azərbaycanda baş verən dəyişikliklər və bunun ölkədə yaratdığı əks-səda torpaq "alverinin" qarşısını aldı.

Heydər Əliyev 1969-cu il avqust plenumunda respublika rəhbərlərinin 1968-ci ildə Ermənistan rəhbərləri ilə torpaq məsələsi üzrə bir neçə dəfə görüşdüyünü və Azərbaycan ərazisindən Ermənistana torpaq verilməsi haqqında protokol imzalanmasını qeyd etmişdi. Həmin protokola görə ermənilər Naxçıvanın Ermənistanla sərhəddində indiki Sədərək rayonunun ərazisindəki torpaqların bir hissəsinə, Ordubad tərəfdən Mehri ilə sərhəddə olan torpaqlara, Gədəbəy rayonundakı Tağlar kəndinə, Qazax, Qubadlı və Laçın rayonlarının bir hissəsinə iddia edirdilər. Təəssüf ki, Azərbaycanın o vaxtkı rəhbərləri bununla razılaşmışdılar. Heydər Əliyev o hadisəni belə xatırlayır: "İndi mən o günləri xatırlayıram. Bir neçə gün idi ki, işləyirdim, bu məsələləri gətirib qarşıma çıxardılar. Moskvadan da çox böyük təzyiq edirdilər ki, qərar qəbul olunub, tez edin, icrasına sərəncam verin. Dedim, bilirsiniz, bu qərar mayda qəbul olunub, əgər iyul ayına qədər icra edilməyibsə, imkan verin mən onu bir araşdırım. Şübhəsiz ki, mən araşdırandan sonra gördüm ki, buna razılıq verə bilmərəm. Mən razılıq vermədim. Nə qədər ki, mən Azərbaycanda işlədim, o qərar həyata keçmədi" [7].

Beləliklə, 1969-cu il mayın 7-də qəbul edilmiş qərar kağız üzərində qaldı və 1984-cü ilə qədər Ermənistanda bu məsələ qaldırılmadı. Heydər Əliyevin nə qədər böyük və güclü şəxsiyyət olduğunu ermənilər də yaxşı dərk edirdilər.

Ermənistan KP MK-nın keçmiş birinci katibi A.Koçinyan 1988-ci ildə bir müsahibəsində deyirdi ki, onun rəhbərliyi dövründə Qarabağ "məsələsi" neçə dəfə qaldırılmış, lakin Heydər Əliyevin nüfuzu və mərkəzdə sözünün iti kəsəri bu məsələnin həllinə imkan verməmişdir.

Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasəti sayəsində respublika təşkilatları öz işlərini elə qurmuşdular ki, erməni separatçıları açıq çıxışlardan çəkinirdilər. 1977-ci ildə Dağlıq Qarabağ məsələsi növbəti dəfə qaldırılsa da, qarşısı qətiyyətlə alınmışdı. Heydər Əliyev erməni millətçilərinin niyyətini yaxşı dərk edir, sərhəd rayonlarının iqtisadi və sosial-mədəni inkişafına böyük əhəmiyyət verir, qayğı göstərirdi. 1970-ci illərdə rəsmi Moskva ermənilərin təhriki ilə Kəlbəcər rayonunun perspektivsizliyi, buradan əhalinin köçürülməsi, torpaqların isə yaylaq kimi respublikalar arasında bölüşdürülməsi haqqında məsələ qaldırdı. Buna qarşı Heydər Əliyev 1977-ci ildən bu rayonun potensial imkanlarını genişləndirmək tədbirləri hazırlanmasına və həyata keçirilməsinə nail oldu. İqtisadiyyat xeyli dirçəldi. Mərkəzin, erməni millətçilərinin niyyətləri alt-üst oldu.

1977-ci ildə SSRİ Konstitusiyası, 1978-ci ildə isə Azərbaycan Konstitusiyası qəbul edilərkən ermənilər müxtəlif mərkəzi orqanlara müraciət edərək Dağlıq Qarabağ məsələsini yenidən qaldırdılar. Lakin Heydər Əliyev L.Brejnevlə görüşüb məsələni həll edərək erməni avantüristlərinin iddialarını puça çıxardı. Artıq onun Dağlıq Qarabağa yönəlmiş siyasətində həyata keçirdiyi tədbirlərin qarşısını kimsə almaq iqtidarında deyildi. Bundan sonra Heydər Əliyev Dağlıq Qarabağ məsələsi ilə bağlı fəaliyyətini daha da genişləndirərək erməni iddialarını əməli işləri ilə puça çıxardı. Ermənilər ölkə rəhbərliyi qarşısında Dağlıq Qarabağın Ermənistana verilməsi barədə məsələ qaldıran zaman Heydər Əliyevin göstərişi ilə Dağlıq Qarabağın tarixi barədə geniş bir arayış hazırlanaraq mərkəzə təqdim olundu və bununla da növbəti bir təxribatın qarşısı alındı.

Dağlıq Qarabağ məsələsini "əsaslandırmaq" üçün erməni separatçıları iddia edirdilər ki, guya Azərbaycan rəhbərliyi tərəfindən vilayətin sosial-iqtisadi və mədəni inkişafına fikir verilməmişdir. Heydər Əliyev isə faktlar və dəlillərlə bu fikirlərin tamamilə əsassız olduğunu göstərmiş, qeyd etmişdir ki, DQMV sosial-iqtisadi inkişaf göstəricilərinə görə Azərbaycan və Ermənistanın orta respublika göstəricilərini üstələmişdir. Xüsusilə vilayətin iqtisadiyyatı 70-80-ci illərdə daha inkişaf etmiş, vilayətin mərkəzinə dəmir yolu çəkilmiş, Xankəndində vağzal, yeni aeroport tikilmişdi.

1983-cü ildən etibarən ermənilər Azərbaycana qarşı yeni-yeni ərazi iddiaları irəli sürməyə başladılar. Respublika rəhbərlərinin zəifliyi erməni planlarının genişləndirilməsinə rəvac verirdi. 80-ci illərin ortalarından etibarən erməni dairələri öz fəaliyyətlərini bir neçə istiqamətdə daha da genişləndirdilər. Bunun əsas səbəblərindən ən ümdəsi ermənipərəst M.Qorbaçovun hakimiyyətə gəlməsi idi. Lakin ermənilər çox yaxşı başa düşürdülər ki, Heydər Əliyev Kremldə işlədikcə onların iddialarının reallaşdırılması mümkün deyildi. Çünki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə ermənilərin torpaq iddialarının həyata keçməsinə heç vaxt yol verilməmiş, Azərbaycan ərazisinin bir qarışı da Ermənistana verilməmişdir.

Ulu öndər Heydər Əliyevin hakimiyyətdə olmaması, SSRİ-də yaranmış vəziyyət, M.Qorbaçovun ermənipərəst mövqeyi erməni millətçilərinin Azərbaycan Respublikasına qarşı yeni ərazi iddiaları irəli sürmələrinə əsas verdi. Əsrin əvvəlindən başlayaraq tarixi Azərbaycan torpaqlarının – İrəvan, Göyçə və Zəngəzur mahallarının işğal edilməsi ilə kifayətlənməyən ermənilər "böyük Ermənistan" xülyasını yenidən ortaya atdılar. Bu siyasət Qərbi Azərbaycandan azərbaycanlıların kütləvi şəkildə qovulması, Azərbaycan-Ermənistan qarşıdurması ilə nəticələndi. Bu, ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qarşı ərazi iddiaları onların "böyük Ermənistan" yaratmağa yönəlmiş strateji planlarının tərkib hissəsi idi.

1987-ci ildən başlayaraq ermənilər Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə mübarizəyə başladılar. Bu mübarizənin Heydər Əliyevin vəzifədən getməsindən dərhal sonra başlaması təsadüfi deyildi. "Dağlıq Qarabağ" kartı ortaya atıldı və bu məsələdə Azərbaycan rəhbərliyinin tam acizliyi görünürdü. Xalq mövcud rəhbərlikdən narazı olduğu üçün ümidlə milli liderini gözləyirdi.

Dağlıq Qarabağ münaqişəsindəki Ermənistan işğallarını üç dövrə ayirmaq mümkündür: 1. DQMV-nin türksüzləşdirilməsi. 2. Ermənistanla birbaşa torpaq əlaqəsinin yaradılması (1992-1993). 3. Ermənistanın bilavasitə Azərbaycana təcavüzü (1993-1994).

1988-ci ilin fevralından Dağlıq Qarabağda separatçılar və erməni millətçilərinin mitinqləri başladı. Mitinqçilərin tələbi ilə fevralın 20-də Vilayət Sovetinin sessiyası DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR tərkibinə verilməsi haqqında qərar qəbul etdi [2, v.4]. Ermənistandan 230 min azərbaycanlı qovuldu. SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1989-cu il yanvarın 12-də "Azərbaycan SSR-nin DQMV-də xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərar qəbul etdi [3, v.1].

Heydər Əliyev Azərbaycanın o zamankı siyasi rəhbərliyinin fəaliyyətindən təəssüflənir və qeyd edirdi ki, o dövrdə Azərbaycanın siyasi rəhbərliyi bu idarənin yaranmasını böyük qələbə kimi qiymətləndirir və bu idarəyə çox böyük ümidlər bəsləyirdi. Dağlıq Qarabağ münaqişəsinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlı öz tarixi torpaqlarından qovuldu.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün getdikcə daha mütəşəkkil xarakter aldığı dövrdə respublikamızda hakimiyyət çəkişmələrinin artması, qanunsuz silahlı dəstələrin yaradılması ölkəni anarxiya girdabına sürükləyir, siyasi və iqtisadi böhranın dərinləşməsinə, torpaqlarımızın bir-birinin ardınca işğal olunmasına rəvac verirdi. 20 Yanvar faciəsi, Xocalı soyqırımı, hərbi uğursuzluqlar, torpaqların itirilməsi Azərbaycan hakimiyyətinin səriştəsizliyindən, Moskvanın əlaltısına çevrilməsindən, çəkişmələrin baş verməsi nəticəsindən olmuşdu. Səbr kasası dolmuş xalq Heydər Əliyevin hakimiyyətə qayıtmasına yeganə xilas yolu kimi baxırdı [9, s.133-134].

DQMV və onun ətrafında olan 7 rayon ermənilər tərəfindən işğal olundu. İtirilmiş torpaqlarımız 14082 kv. km olmuş, bunun 4372 kv.km-i Dağlıq Qarabağa, qalanı isə ətraf rayonlara aiddir. Ümumiyyətlə, XX əsrin 20-90-cı illərində 40.681 kv.km ərazimiz Ermənistan tərəfindən işğal olunmuşdur.

Xalqımız ümummilli liderin olmaması səbəbindən ağır faciələrlə üzləşdi. 1990-1993-cü illərdə Bakıda gedən proseslərin əksinə olaraq, blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasını Heydər Əliyev mətinliklə müdafiə edir, həmişə xalqın yanında olurdu. Naxçıvan əhalisi də onun ətrafında sıx birləşərək nicat yolunun məhz Heydər Əliyevdə olduğunu başa düşürdü. Bu xalq və rəhbər birliyi Naxçıvanı tarixin çətin sınaqlarından çıxardı.

1993-cü ilin iyun ayında respublikamızda yaranmış böhranlı vəziyyətin aradan qaldırılması yolunu xalqın əksər təbəqələri dövrün görkəmli siyasi xadimi, zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyevin respublikanın siyasi rəhbərliyinə qaytarılmasında görürdü. Dünyanın bir sıra siyasi xadimləri və xalqımız deyirdi ki, əgər Heydər Əliyev bu illərdə Azərbaycanda hakimiyyətdə olsa idi nə ərazilər itirilər, nə də bu faciələr baş verərdi.

Hakimiyyətdə olan qüvvələr ölkəni saldıqları ağır vəziyyətdən çıxarmaqda acız olduqlarından, yaratdıqları problemləri həll etmək üçün çıxış yolu tapa bilmədiklərindən, xalq və tarix qarşısında məsuliyyətdən qorxaraq Heydər Əliyevi hakimiyyətə dəvət etdilər.

Heydər Əliyev deyirdi: "Mən buraya adamların təzyiqindən çox yaranmış vəziyyətə görə gəldim, çünki xalqın taleyi həll olunurdu" [4, 1993, 12 avqust]. Ulu öndərin Azərbaycan rəhbərliyinə gəlməsi respublikanın tarixi müqəddəratını həll etdi, vətəndaş müharibəsinin qarşısı alındı, torpaqların işğalı dayandırıldı, respublikanın parçalanması təhlükəsi aradan qaldırıldı.

Azərbaycan rəhbəri kimi Heydər Əliyev Dağlıq Qarabağ probleminin həllinə kompleks yanaşır, daxili və xarici siyasət amillərini hökmən nəzərə alırdı. O, Azərbaycanın dövlət müstəqilliyini qorumaq, erməni təcavüzkarlarına qarşı xalqın ədalətli müharibəsini sülh vasitəsi ilə başa çatdırmaq, respublikanın ərazi bütövlüyünü bərpa etmək üçün yorulmaq bilmədən çalışırdı.

Nizami ordu olmadan ölkənin təhlükəsizliyini təmin etmək mümkün deyildir. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ordu quruculuğunda yeni dönüş mərhələsi başladı. Dövlət Müdafiə Şurası yaradıldı. Könüllülərdən ibarət batalyonlar yaradılıb cəbhəyə göndərildi. İki ay ərzində 16,7 min nəfərdən ibarət 40 ehtiyat taboru təşkil edildi [6, s.513-516]. Döyüşçülərin mənəvi-psixoloji ruh yüksəkliyi artırıldı. Vahid komandanlıq möhkəmləndirildi, ordunun döyüş hazırlığı artırıldı. Silahlı qüvvələrin maddi-texniki bazası xeyli möhkəmləndirildi. Heydər Əliyev ən qaynar cəbhə bölgələrinə getdi, döyüş səngərlərində əsgər və zabitlərlə görüşdü, onların problemləri ilə maraqlandı, tapşırıq və

tövsiyələrini verdi. Nəticədə, Azərbaycan Ordusu düşmənin respublikanın içərisinə doğru hücumunu dayandırdı. Hətta əks-hücuma keçib bir sıra torpaqları işğaldan azad etdi.

Formalaşan Azərbaycan ordusu düşmənə öz qüvvəsini göstərdi. Düşmənin Beyləqan istiqamətindəki hücumu dayandırıldı. 1994-cü il yanvarın 5-6-da Füzuli rayonunun ən böyük yaşayış məntəqəsi olan Böyük Bəhmənli kəndi, bir gün sonra Horadiz qəsəbəsi, Füzulinin daha 22 kəndi, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi geri alındı. Bir sıra strateji yüksəkliklər, yaşayış məntəqələri azad edildi [4, 1994, 25 yanvar].

Məhz bu uğurlar ermənilər danışıqlar masası arxasına oturmağa və 1994-cü il mayın 12-də atəşkəs barədə saziş imzalamağa məcbur etdi.

Ümummilli lider Heydər Əliyev daxili siyasətlə yanaşı, xarici siyasətə böyük önəm verir, bu sahədə də böyük müdriklik və diplomatik istedad nümayiş etdirdi. Ulu öndərin başçılığı ilə informasiya blokadasının yarılması, Dağlıq Qarabağ probleminə dair həqiqətlərin dünya dövlətləri arasında özünəlayiq yer tutması, respublikanın ərazi bütövlüyünün sülh, danışıqlar yolu ilə təmin edilməsi istiqamətində gərgin və səmərəli iş aparılırdı. Azərbaycan dövləti ölkənin ərazi bütövlüyünü bərpa etmək, dövlətçiliyini möhkəmləndirmək üçün dünyanın müstəqil və yüksək inkişaf etmiş ölkələri arasında özünə layiqli yer tutmasına hesablanmış siyasət yeridirdi. Beynəlxalq təşkilatlardan BMT, ATƏT, AŞ, Aİ, İKT, QİƏT, MDB kimi təşkilatlarla geniş və sıx əməkdaşlıq qurulmuşdu.

Heydər Əliyev Ermənistan – Azərbaycan münaqişəsinin, qondarma "Dağlıq Qarabağ problemi"nin, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi və qorunması məsələlərinin həll edilməsində ilk gündən beynəlxalq təşkilatların gücündən istifadə edilməsinə, onların vasitəsilə bu məsələlərin sülh yolu ilə həll edilməsinə çalışırdı. Heydər Əliyevin qətiyyəti, əzmkarlığı və gərgin fəaliyyəti sayəsində ATƏT-in Minsk qrupu, BMT-nin Təhlükəsizlik Şurası çərçivəsində müntəzəm olaraq danışıqlar aparılmış, Azərbaycanın ərazi bütövlüyü təsdiq edilmiş və "Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu" ifadəsi qəbul olunmuşdur. ATƏT-in üzvü olan ölkələrin dövlət başçılarının Budapeşt, Lissabon, İstanbul görüşlərində Azərbaycanın ərazi bütövlüyünün tanınması və bərpası istiqamətində mühüm qərarlar qəbul edilmişdi.

***Nəticə***. Ulu öndər Heydər Əliyevin ərazi bütövlüyümüzün təmin olunması sahəsindəki apardığı siyasət bu günümüzdə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ərazi bütövlüyünün pozulduğu və torpaqlarımızın 30 ilə yaxın dövrdə təcavüzkar erməni dövlətinin işğalı altında olduğu bir şəraitdə Azərbaycan ordu quruculuğuna, onun maddi-texniki təminatına böyük əhəmiyyət vermişdir. Azərbaycan NATO standartlarına uyğun şəkildə təlim görmüş öz milli ordusu ilə Cənubi Qafqazda hərbi qüdrətinə görə lider dövlətə çevrilmişdir. Bu gün Azərbaycan ordusu düşmənin istənilən hərbi hədəfini məhv etməyə qadirdir. İlham Əliyevin rəhbərliyi ilə yaradılmış Müdafiə Sənayesi kompleksində 1160 adda silah-sursat istehsal edilir. 2016-cı ilin dördgünlük aprel müharibəsində Azərbaycan Ordusu nəyə qadir olduğunu göstərdi.

İlham Əliyevin rəhbərliyi ilə 19 il ərzində Azərbaycan müdafiə qabiliyyətinin möhkəmləndirilməsi istiqamətində böyük işlər görmüş, İkinci Qarabağ-Vətən müharibəsində qarşıya qoyulan vəzifələr uğurla həll edilmişdir. BMT-nin, ATƏT-in Minsk qrupunun həll etməli olduğu problemi Azərbaycan Ordusu 44 günə həll etmiş, düşməni işğal etdiyi torpaqlarımızdan çıxarmış, Azərbaycanın ərazi bütövlüyünü həll etmişdir. Bu bilavasitə Ümummilli birliyin gücü – Xalq-Lider-Ordu vəhdəti sayəsində qazanılmışdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA), F.1, siy. 56, iş 36, v.92-96.
2. ARPİİSSA, F.1, siy. 83, iş 205, v.4.
3. ARPİİSSA, F.1, siy. 83, iş 16, v.1.
4. "Azərbaycan" qəzeti.
5. Azərbaycan tarixi. Yeddi clddə. V cild (1900-1920-ci illər). Bakı: "Elm", 2008, 696 s.
6. Heydər Əliyev. Müstəqillik yollarında. I cild. Bakı: Azərnəşr, 1997, 558s.

7. Heydər Əliyev. Naxçıvanın muxtariyyatı tarixi nailiyyətdir və biz bunu qoruyub saxlamalıyıq. 1998-ci il yanvarın 14-də Azərbaycan Respublikası Konstitusiyası Komissiyasının iclasında yekun nitqi. "Azərbaycan" qəzeti, 1998, 17 yanvar.
8. Naxçıvan Muxtar Respublikası. Bakı: "Naxçıvan ensiklopediyası", 2001, 222 s.
9. Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: Müəllim, 2006, 148 s.
10. Sərdarov Z. Heydər Əliyev və milli mübarizə tariximiz. Bakı: CBS, 2008, 166 s.

**ИСМАИЛ ГАДЖИЕВ**
*Председатель Нахчыванского отделения НАНА, академик*

## ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ И ТЕРРИТОРИАЛЬНАЯ ЦЕЛОСТНОСТЬ АЗЕРБАЙДЖАНА

В статье с помощью исторических фактов исследуется разделение территории Азербайджана на две части в начале XIX века, переселение армян на территорию Северного Азербайджана, претензии Армении и Грузии на Азербайджан в период Азербайджанской Демократической Республики и показано, что ряд территорий был утрачен. В 20-60-е годы XIX века территориальные претензии Армении к Азербайджану продолжались, ее площадь увеличилась с 9 тыс. км$^2$ до 29 тыс. 700 км$^2$

С приходом к власти в Азербайджане великого лидера Гейдара Алиева претензии Армении были пресечены. Однако с отставкой Гейдара Алиева территориальные претензии армян возобновились, в результате чего был оккупирован Нагорный Карабах и 7 прилегающих районов Азербайджана. С возвращением общенационального лидера к политической власти во второй раз между Арменией и Азербайджаном были проведены переговоры по урегулированию Нагорно-Карабахского конфликта, сформирована азербайджанская армия, но двусторонняя политика помешала мирному решению проблемы.

Во время 17-летнего президентства Президента Ильхама Алиева также были проведены переговоры, в ходе которых Азербайджан укрепил свой военный и экономический потенциал, добился решения проблемы на международном уровне и, наконец, ответил контрнаступлением на армянские провокации. В результате 44-дневной второй Карабахской войны наша территориальная целостность была восстановлена.

*Ключевые слова*: Азербайджан, Гейдар Алиев, Ильхам Алиев, территориальная целостность, Нагорно-Карабахский конфликт, Армения, Отечественная война.

**ISMAIL HAJIYEV**
*Chairman of ANAS Nakhchivan Department, academician*

## NATIONAL LEADER HEYDAR ALIYEV AND TERRITORIAL INTEGRITY OF AZERBAIJAN

The article examines the division of the territory of Azerbaijan into two parts at the beginning of the 19th century, the resettlement of Armenians in the territory of Northern Azerbaijan, the claims of Armenia and Georgia against Azerbaijan during the Azerbaijan Democratic Republic with the help of historical facts and it was shown that a number of territories were lost. In the 20s and 60s of the 20th century, Armenia's territorial claims against Azerbaijan continued, increasing its area from 9,000 square kilometers to 29,700 square kilometers.

Armenian claims were prevented with the arrival of great leader Heydar Aliyev to the leadership of Azerbaijan. However, with the retirement of Heydar Aliyev, the territorial claims of the Armenians began again, as a result of which Nagorno-Karabakh and 7 surrounding Azerbaijani regions were occupied. With the return of the national leader to political power for the second time,

negotiations were held to resolve the Armenian-Azerbaijani conflict over Nagorno-Karabakh, the Azerbaijani Army was formed, but the bilateral policy prevented a peaceful solution to the problem.

Negotiations were also held during Ilham Aliyev's 17-year presidency, at the same time, Azerbaijan has strengthened its military and economic potential, achieved international settlement of the problem and finally responded to Armenian provocations with counter-attack. As a result, he restored our territorial integrity through the 44-day Second Karabakh War.

*Keywords*: Azerbaijan, Heydar Aliyev, Ilham Aliyev, territorial integrity, Nagorno-Karabakh conflict, Armenia, Patriotic War.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*




**UOT 94(479.24)**

**İBRAHİM ZEYNALOV**
*tarix elmləri doktoru,*
*Bakı Dövlət Universitetinin professoru*
**ibrahimzeynalov@bsu.edu.az**

# İQTİSADİ TƏRƏQQİYƏ APARAN BÖYÜK SİYASƏT

*Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ölkədə demokratik, hüquqi, sivil dövlət qurmaq, respublikanın iqtisadiyyatında islahatlar aparmaq, öz iqtisadiyyatını dünya iqtisadiyyatına bağlamaq prinsiplərini əsas götürmüşdür.*

**Ümummilli lider Heydər Əliyev**

*Elmi məqalədə müasir dövlətçiliyimizin yarım əsrdən artıq bir mərhələsindən, o cümlədən müstəqil Azərbaycan dövlətinin formalaşmasında, qorunub saxlanması və möhkəmlənməsində, sosial-iqtisadi, siyasi inkişafında və dünya inteqrasiya sisteminə qovuşmasında misilsiz rol oynayan ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci mərhələsində həyata keçirilən ən mühüm tədbirlərdən bəhs edilir. Məqalədə Heydər Əliyevin Azərbaycanı modernləşdirmək yolunu tutması, bununla Azərbaycanın modernləşdirilməsinin müasir başlanğıcı hesab olunan "Əsrin müqaviləsi" və ondan irəli gələn tədbirlərin, ölkəmizdə neft strategiyasının uğurla həyata keçirilməsi, 90-cı illərin əvvəllərindən başlayan siyasi, sosial-iqtisadi böhrana son qoyulması, 1995-1996-cı illərdən iqtisadi inkişafın başlanmasından, Ulu Öndərin təşəbbüsü və rəhbərliyi altında dünya təcrübəsindən istifadə etməklə müstəqil Azərbaycanın 1993-2003-cü illərdə milli dövlət quruculuğunda başlıca amil olan iqtisadi tərəqqiyə aparan böyük siyasətdən bəhs edilir.*

*Açar sözlər:* böyük siyasət, "Əsrin müqaviləsi", böhran, iqtisadi tərəqqi, hüquqi, dünyəvi, Torpaq islahatı, "Torpaq vergisi haqqında", Dövlət Proqramı, Ümumi Daxili Məhsul, "İpək Yolu", TRASEKA.

***Giriş.*** Ulu Öndər qeyd edirdi ki, Azərbaycanın iqtisadi potensialı, yeraltı və yerüstü sərvətləri, elmi, intellektual potensialı ilə yanaşı, onun digər dövlətlərlə iqtisadiyyat sahəsində əməkdaşlığı üçün daha əlverişli coğrafi mövqeyidir. Azərbaycan Respublikası ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə bazar iqtisadiyyatı yolunu seçib bu yolla cəsarətlə irəliləməyə başladı. Həmçinin respublikanın sosial-iqtisadi inkişafında Azərbaycan xarici ölkələr və dünyanın bütün şirkətləri ilə sıx əməkdaşlığa üstünlük verdi. Araşdırmalar göstərir ki, dünya iqtisadiyyatının inteqrasiyası, iqtisadi sahədə ölkələrin bir-biri ilə əməkdaşlığı hər bir dövlət üçün mənfəətlidir və ümumiyyətlə, dünyada daha da yüksəlmək üçün bu, yeganə yoldur.

Ümummilli lider Heydər Əliyev bildirdi ki, "Əgər biz istəyiriksə respublikamızın təbiətindən, torpağından, suyundan, havasından, kənd təsərrüfatı imkanlarından maksimum istifadə etmək, xalqımızın rifahını yaxşılaşdırmaq, iqtisadiyyatı yüksəltmək, kənd əhalisinin rifahını yaxşılaşdırmaq, onda biz bazar iqtisadiyyatı yolu ilə getməliyik. Başqa üçüncü yol yoxdur" [1, s.49].

Müasir dövlətçilik tariximizin 50 ildən artıq bir mərhələsi, o cümlədən müstəqil Azərbaycan dövlətinin formalaşması, qorunub saxlanması, möhkəmləndirilməsi, sosial-iqtisadi, siyasi inkişafı və dünyada inteqrasiya sisteminə qoşulması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır [2, s.5]. Heydər Əliyev fəaliyyətində həmişə fatehlik strategiyasına deyil, xalqa, əql, müdriklik siyasətinə, uzaqgörənlik strategiyasına, ən ağır, ən çətin və təhlükəli şəraitdə öz idrakına, qüdrətinə, bilik, təcrübə və bacarığına arxalanaraq çətinliklərə, siyasi böhranlara məharətlə sinə gərib, onu aradan qaldıra bilmişdir. Heydər Əliyevin idarəçilik sistemi Azərbaycan gerçəkliyini, onun ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi həyatının bütün sahələrini əks etdirən mükəmməl elmi-nəzəri bir sistemdir. Hazırki zamanda başlıca məqsədimiz fenomen lider, dahi şəxsiyyət Heydər Əliyevin irəli sürdüyü bu ideyaları, əməli fəaliyyətini nəzəri təfəkkür səviyyəsində təhlil etməklə, həm də bu konseptual sistemin təməllərini üzə çıxarmaq, onu öyrənmək, şərh etmək və gənc nəsillərə çatdırmaqdır [3, s.5-6]. Ulu öndər Heydər Əliyevin 34 ildən artıq olan fəaliyyəti dövründə siyasətlə sosial-iqtisadi həyat vəhdət təşkil edirdi. Azərbaycanda sosial-iqtisadi həyatda əldə edilən uğurların əsaslarını Heydər Əliyevin respublikada yaratdığı sabitlik, sağlam ictimai-siyasi mühit, işgüzar şərait təşkil edirdi.

***İqtisadi tərəqqiyə aparan böyük siyasət.*** Heydər Əliyev Azərbaycana rəhbərliyinin ikinci dövründə Azərbaycanı modernləşdirmək yolunu tutdu. “Əsrin müqaviləsi” Azərbaycanın modernləşdirilməsinin müasir mərhələsinin başlanğıcı oldu. Ulu Öndər “Əsrin müqaviləsi”ni “tarixi hadisə”, nefti Azərbaycan Respublikası və Azərbaycan xalqının “ən böyük milli sərvəti” kimi dəyərləndirmişdi.

SSRİ-nin süqutu ərəfəsində və Sovetlər Birliyinin dağılmasından sonrakı ilk illərdə Azərbaycanda siyasi, sosial-iqtisadi sahələrdə tənəzzül, böhran son həddə çatmışdı. Mərkəz tərəfindən qəbul edilmiş “yenidənqurma” kursu özünü doğrultmadı, əksinə sistemsiz islahatlar, ölkənin (SSRİ-nin) idarə edilməsinin radikal islahatçılara tapşırılması dünyanın quru hissəsinin altıda birini təşkil edən Sovet İttifaqında bir-biri ilə zəncirvari şəkildə bağlı olan respublikalar arasında əlaqələrin pozulmasına səbəb oldu. Nəticədə, ümumi bazar üçün xalq təsərrüfatının əsas sahələrinin, xüsusilə sənaye sahəsinin fəaliyyətində əsl xaosun yaranması, ənənəvi satış bazarlarının itirilməsi keçmiş ittifaq respublikalarının, o cümlədən Azərbaycanın iqtisadiyyatını iflic vəziyyətə saldı. Respublikanın xalq təsərrüfatının bütün sahələrində tənəzzül davam edirdi, ölkənin maliyyə-kredit sistemi pis vəziyyətdə idi.

XX əsr 90-cı illərin ilk illərində erməni işğalçıları tərəfindən ərazimizin 20%-nin zəbt edilməsi şəraitində ölkə daxilindəki qeyri-sabit ictimai-siyasi vəziyyət, hakimiyyət uğrunda çəkişmələr təsiri dağıdıcı olan bu mənfi meylləri daha da gücləndirirdi. Ulu Öndərin belə bir böhranlı, xaos vəziyyətdə xalqın təkidli tələbi ilə yenidən respublika rəhbərliyinə qayıtması Azərbaycanda dövlətçiliyin möhkəmləndirilməsinə, ictimai-siyasi, iqtisadi vəziyyətin sabitləşməsinə, suveren gənc dövlətin iqtisadi əsaslarının yaradılmasına xidmət edən kompleks tədbirlərin həyata keçirilməsinə şərait yaratdı. Bilavasitə xilaskar, dahi şəxsiyyət, fenomen liderin rəhbərliyi ilə kompleks tədbirlərin, islahatların həyata keçirilməsi nəticəsində müstəqil Azərbaycan dövlət quruculuğunun əsasları yaradıldı, müstəqilliyimizin əbədi qorunması üçün fundamental zəmin yaradıldı. Azərbaycan xalqı öz sərvətlərinin sahibinə çevrildi.

Müstəqil Azərbaycan dövlətinin baş memarı, qurucusu, dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə gəlməsindən, tarixi xilaskarlıq missiyasına başlamasından sonra respublikada vətəndaş qarşıdurmasına, separatçılıq meyllərinə, xaos, anarxiya, hərc-mərcliyə son qoyuldu və ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında sürətli yüksəlişə səbəb oldu. Zəngin idarəçilik təcrübəsinə, uzaqgörən, iti zəkaya malik Heydər Əliyev qəti əmin oldu ki, ağır vəziyyətdə olan, dərin siyasi-iqtisadi böhran keçirən respublika iqtisadiyyatını dirçəltmək, ölkəni dünya iqtisadiyyatında təmin etmək üçün, canlandırmaq məqsədilə ən baçlıca, sanballı mənbə olan neft amili ola bilər. 1994-cü il sentyabrın 20-də müstəqil Azərbaycan Respublikasının tarixində mühüm hadisə baş verdi. Xəzər dənizinin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” və dərinsulu “Günəşli” yatağında neftin birgə işlənməsi və pay bölgüsü haqqında Bakıda 8 ölkənin – Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanının 13 neft şirkəti arasında 30 il müddətinə müqavilə imzalandı [4, s.188]. Bununla Heydər Əliyev ölkənin neft strategiyasını müəyyənləşdirdi. Bu strategiyanın ana xəttini təbii sərvət olan nefti milli sərvətə çevirmək, ölkənin bütün sahələrində inkişafa nail olmaq, iqtisadi inkişafı təmin etməklə dövlət müstəqilliyini möhkəm təməl-

lər üzərində qurmaq üçün beynəlxalq təminatlar yaratmaq təşkil edirdi. Bununla əlaqədar olaraq, sonralar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yazırdı: "Heydər Əliyevin ölkədə hakimiyyətə qayıdışı vəziyyəti kökündən dəyişdi. Azərbaycanın dəqiq iqtisadi konsepsiyası formalaşdırıldı və neft sənayesinin inkişaf etdirilməsi həmin konsepsiyada üzvi surətdə öz yerini tutdu [5, s.181].

Respublikaya güclü investisiya axını başladı. Azərbaycan iqtisadiyyatı, ilk növbədə, onun neft sənayesi beynəlxalq biznes həyatına qovuşdu. Ulu Öndərin neft strategiyası Azərbaycan Respublikasında demokratiyanın inkişafı, ictimai-siyasi sabitliyin təmin edilməsi, milli dövlət quruculuğunun möhkəmləndirilməsi, onun dünya iqtisadiyyatına qovuşması üçün möhkəm baza yaratdı. "Əsrin müqaviləsi" siyasətlə iqtisadiyyatın vəhdətinin bariz nümunəsi oldu. Ümummilli lider Heydər Əliyev yazırdı: "Biz belə addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdirdik. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qovuşması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir. Azərbaycanda demokratik prinsiplərin bərqərar olması və inkişaf etməsi üçün geniş meydan açılmışdır. Azərbaycan Respublikası bazar iqtisadiyyatı yolu ilə getmək əzmindədir" [6, s.20].

Bu müqavilə ilə Azərbaycanın sosial-iqtisadi və siyasi həyatında yeni mərhələnin başlanğıcı qoyuldu. Azərbaycan əhalisinin uzunmüddətli sosial inkişafı üçün zəmin yarandı. Bu müqavilə milli iqtisadiyyatın inkişafına güclü təkan verməklə yanaşı onun keyfiyyətcə yeni vəziyyətini də müəyyənləşdirdi. Eyni zamanda, ölkədə yeni iqtisadi sistemin qurulması, aqrar islahatların, özəlləşdirmənin aparılması, sahibkarlığın inkişafı ilə əlaqədar qanunvericilik bazası yaradıldı. Heydər Əliyev əhalinin sosial şəraitinin yaxşılaşdırılmasını fundamental əhəmiyyət kəsb edən bir məsələ kimi ön plana çəkdi.

1993-1994-cü illərdə ölkədə böhran son həddə çatmışdı. Ölkə iqtisadiyyatı hər il təxminən 20-25% tənəzzül edirdi, inflyasiya ən yüksək səviyyəyə çatmışdı. Bütün bunların nəticəsi idi ki, ölkədə yoxsulluğun artması davam edirdi. Nəticədə ulu öndər Heydər Əliyevin təşəbbüsü, rəhbərliyi və tapşırığı ilə Azərbaycanda "Yoxsulluğun azaldılması üzrə Dövlət Proqramı" qəbul edildi. Ulu Öndərin bu sosial siyasəti az bir vaxtda öz nəticəsini verdi. Ümummilli lider yazırdı: "SSRİ dövründə yaranmış iqtisadi potensial da bizim böyük sərvətimizdir. Bu sərvət də Azərbaycanın tam sərbəst, heç bir dövlətdən asılı olmayaraq yaşamasına imkan verir. Güman edirəm ki, biz müstəqilliyimizi tam bərqərar etdikdən və qarşıda duran vəzifələri həyata keçirdikdən sonra ölkəmizin bu iqtisadi potensialının bəhrələrini Azərbaycanın hər bir vətəndaşı görəcək və bunun sayəsində şən, firavan yaşayacaqdır" [7, s.50].

Ulu Öndərin rəhbərliyi və göstərişləri əsasında sosial siyasətə uyğun olaraq həyata keçirilən tədbirlər nəticəsində yoxsulluğun dəfələrlə aşağı salınmasını şərtləndirdi. Müstəsna təşkilatçılıq qabiliyyətinə, zəngin idarəçilik təcrübəsinə, dərin təfəkkür və iti analitik duyuma malik olan Heydər Əliyev həm də nüfuzlu, iradəli, cəsarətli, qətiyyətli, dünya birliyi tərəfindən sayılan, seçilən nadir şəxsiyyətlərdən biri idi. Məhz bunun nəticəsi idi ki, onun dünyanın ən nüfuzlu, ən güclü dövlət xadimləri, dövlət başçıları ilə Azərbaycanda yeni iqtisadi sistemin qurulması, Azərbaycanın dünyaya inteqrasiyasına qovuşması kimi qlobal problemlərə dair apardığı danışıqlar dünya ictimaiyyəti tərəfindən bu gün də çox yüksək dəyərləndirilir.

Ulu Öndər qeyd edirdi ki, "Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən istifadə etmək, islahatlar aparmaq, bazar iqtisadiyyatı yolu ilə getmək, torpağı kəndlilərə vermək, onları torpağın sahibi etmək, mülkiyyət formasını dəyişmək lazımdır" [8, s.51]. Ümummilli lider Heydər Əliyev xarici şirkətlər, iş adamları ilə bağladığı sazişlər, müqavilələr, razılaşmalarda həmişə tam milli mənafelər mövqeyindən çıxış edir, xarici iş adamlarının fəallığının artmasına, onların qeyri-neft sektoruna, regionların inkişafına daha geniş şəkildə cəlb edilməsinə üstünlük verirdi. Eyni zamanda, beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığın daha da təkmilləşdirilməsinə xüsusi əhəmiyyət verirdi.

Müstəqil Azərbaycanın 1993-2003-cü illərdə dövlət quruculuğu, iqtisadi dirçəliş, ictimai-siyasi və sosial-mədəni həyatda tərəqqi dövrü ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev sosial-iqtisadi böhrana son qoymaq, sosial-iqtisadi inkişafı təmin etmək və bu sahənin inkişafını sürətləndirmək üçün çoxlu sayda fərman və sərəncamlar imzalamışdı. Dünya iqtisadi sektorunda ən stabil və yüksək inkişaf indikatorlarına malik ölkə hesab olunan müstəqil Azərbaycanın ötən illərdə əldə etdiyi nailiyyətlər, dinamik inkişafı, yüksək sosial-mədəni tərəqqi erası da məhz Azrbaycan xalqının dahi oğlu Heydər Əliyevin uzaqgörən, iti zəkası sayəsində hazırlanan və müvəffəqiyyətlə həyata keçirilən iqtisadi inkişaf proqramının reallaşdırılması sayəsində mümkün olmuşdu. Ulu Öndərin müəyyən etdiyi mükəmməl inkişaf konsepsiyasının həyata keçirilməsi dövlət suverenliyini bərpa edən Azərbaycanda demokratik dövlət quruculuğu və kompleks institusional islahatların reallaşdırılmasına, azad bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılmasına, yeni iqtisadi təsərrüfat sisteminin yaradılmasına və dinamik inkişafın təmin olunmasına dərin əsaslar yaratmışdı.

Dövlət müstəqilliyini qoruyub saxlamaq, onu möhkəmləndirmək, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, ölkənin ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, respublika vətəndaşlarının rifahını yaxşılaşdırmaq və digər ümummilli məqsədlər Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin gərgin və qətiyyətli əməyi, böyük idarəçilik təcrübəsi sayəsində mümkün olmuşdu.

1996-2003-cü illər Azərbaycanda iqtisadi islahatların, respublikanın sosial-iqtisadi həyatında bütün islahatların sürətlə həyata keçirilməsi dövrü hesab oluna bilər. Bu illər müstəqil Azərbaycanda iqtisadi islahatların keçirilməsi ilə səciyyələnirdi. Ulu öndər Heydər Əliyevin qətiyyəti və cəsarəti sayəsində 1994 və 1995-ci illərdə dövlət çevrilişlərinə edilən cəhdlərin aradan qaldırılmasından sonra 1996-cı ildən başlayaraq iqtisadi islahatların həyata keçirilməsi üçün respublikada daha əlverişli şərait yarandı. Ümummilli lider Heydər Əliyev bəyan edirdi ki, "Mən bunu dəfələrlə demişəm, - dağıtmaq böyük bir ağıl, böyük bir qəhrəmanlıq tələb etmir və çox vaxt da istəmir. Bu, çox asan bir işdir. Amma qurmaq, yaratmaq – bu, çox böyük zəka, ağıl, təcrübə, bilik tələb edir, vaxt tələb edir, iradə tələb edir. Azərbaycanda isə, Allaha şükürlər olsun ki, böyük iqtisadi potensial toplanıbdır, indi də bunu demək olar. O illərdə də biz heç vaxt Mərkəzdən dotasiya almamışdıq, özümüz özümüzü təmin etmişik. İndi aydın olur ki, respublikamızın, ölkəmizin bir çox sahələrdə o illərdə qurduğu sənaye potensialı, kənd təsərrüfatı potensialı bizim iqtisadi cəhətdən tam müstəqilliyimiz üçün əsas yaradıbdır, təməl yaradıbdır".

Azərbaycanda iqtisadiyyatın ən mühüm sahələrindən biri də böyük potensialı olan kənd təsərrüfatıdır. Ulu Öndər qeyd edirdi ki, "Azərbaycan torpağının nəyə qadir olduğunu vaxtilə xalq da görüb, siz də görmüsünüz, biz də görmüşük. Respublikada kənd təsərrüfatı potensialından, imkanlarından istifadə etmək bizim, sizin, kənd əhalisinin, bu sahədə çalışan mütəxəssislərin, alimlərin borcudur. Çünki, kənd təsərrüfatı məhsulları Azərbaycan əhalisinin ərzaqla, sənayemizin bir çox sahələrinin xammal ilə təmin olunması üçün lazımdır və biz kənd təsərrüfatının bu imkanlarından səmərəli və maksimum dərəcədə istifadə etməliyik" [9].

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından 30 ildən artıq vaxt keçib. Bu müddətdə Azərbaycan Respublikası dinamik və sürətli bir inkişaf yolu keçib, dünya inteqrasiya sisteminə qoşulub, regionun lider dövlətinə çevrilib. Azərbaycan dünya iqtisadi sektorunda ən sabit və yüksək indikatorlarına malik ölkə hesab olunur. Azərbaycanın 1993-2003-cü illərdə əldə etdiyi uğurlar sənaye, yanacaq-energetika, informasiya texnologiyaları, kənd təsərrüfatı, nəqliyyat, ekologiya, turizm, tikinti, səhiyyə, elm, təhsil, mədəniyyət və digər sahələri əhatə edirdi. Ulu öndər Heydər Əliyev Azərbaycanın sosial-iqtisadi siyasətinin əsas istiqamətləri barədə deyirdi: "Azərbaycan Respublikasının iqtisadi siyasəti bazar islahatlarının ardıcıl və nizamlı aparılmasına əsaslanır. Bu islahatların başlıca istiqamətlərini dövlət mülkiyyətinin özəlləşdirilməsi, şəxsi və kollektiv sahibkarlıq təşəbbüsünün inkişaf etdirilməsi, istehsalın səmərəliliyinin yüksəldilməsi və iqtisadi dirçəlişin sürətləndirilməsi təşkil edir" [10, s.242].

Ümummilli lider Heydər Əliyev 1993-2003-cü illərdə ölkədə sosial-iqtisadi problemləri həll etmək, bu sahədə dinamik inkişafı təmin etmək, onu sürətləndirmək üçün çoxlu sayda fərmanlar, sərəncamlar imzalamışdı, müvafiq qanun və qərarlar qəbul edilmişdi. 1995-2003-cü illərdə iqtisadi inkişafın sürətləndirilməsində mühüm rol oynayan – dövlət əmlakının özəlləşdirilməsinin kompleks və hərtərəfli proqramının həyata keçirilməsini təmin etmək üçün Dövlət Komissiyasının yaradılması

mühüm əhəmiyyət kəsb etmişdi. Özəlləşdirmə prosesinin düzgün həyata keçirilməsini təmin etmək üçün öncə onun hüquqi bazası yaradılmış, özəlləşdirmə prosesində əhalinin bütün təbəqələrinin sosial müdafiəsinin təmin edilməsinə diqqət yetirilmişdi.

İqtisadi islahatların keçirilməsi zamanı iqtisadiyyatda liberallaşdırma prosesi, ixrac və idxalın liberallaşdırılması və iqtisadiyyatda özəl sektorun yaradılması da başlıca yer almışdır. Ulu öndər Heydər Əliyevin uzaqgörənliyinin və zəngin təcrübəsinin nəticəsi olaraq respublika iqtisadiyyatında çox önəmli struktur dəyişiklikləri aparılmış, xarici sərmayənin Azərbaycana gətirilməsinə şərait yaradılmışdır. Xarici ticarətin genişləndirilməsinə, ölkədə torpaq islahatının aparılmasına nail olunmuşdur.

Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında dünyanın aparıcı şirkətləri ilə əməkdaşlığa daha ciddi diqqət yetirilmiş, onların təcrübəsindən istifadə respublika iqtisadiyyatını xeyli gücləndirmiş, dinamik inkişafa şərait yaradılmışdır. Azərbaycan çoxlu sayda mühüm iqtisadi layihələrin müəllifi və təşəbbüskarıdır.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycana rəhbərliyə qayıdışından sonra Milli Məclisdə 3200-dən çox qanun və qərarlar qəbul olunub [11, s.3]. Ulu öndər Heydər Əliyevin Azərbaycana yenidən rəhbərliyi dövründə Azərbaycan sivil, demokratik və hüquqi dövlətə çevrilmiş, dünyaya inteqrasiya etmişdir və bu istiqamətdə uğurla irəliləyir. Ulu Öndər qeyd edirdi ki, Azərbaycan heç vaxt demokratik idarəçilik sistemindən imtina etməyəcəkdir. Azərbaycan xalqı heç vaxt indiki kimi öz sərvətlərinin sahibi olmayıb və heç vaxt da özü belə iri, cəsarətli, iradəli addımlar atmaq imkanına malik olmayıb. 1993-2003-cü illərdə Heydər Əliyevin zəngin idarəçilik və uzaqgörənliyi sayəsində Azərbaycan Respublikası iqtisadi cəhətdən dəyişdi, dinamik inkişaf yolu tutdu, regionun iqtisadi cəhətdən ən inkişaf etmiş dövlətinə çevrildi.

Heydər Əliyevin rəhbərliyi altında 1993-2003-cü illərdə aparılmış son dərəcə gərgin fəaliyyət nəticəsində Azərbaycan xalqının, dövlətinin taleyi ilə pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə son qoyulmuş, ölkədə cinayətkarlığın qarşısı tam alınmış, dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaradılmışdı. Beləliklə, Azərbaycanda dövlətçiliyin möhkəmləndirilməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi Heydər Əliyevin adı ilə bağlıdır.

1993-1995-ci illərdə ölkədə demokratik dövlət quruculuğu və bazar iqtisadiyyatına keçid kursu müəyyənləşdirilmiş və onun ardıcıl həyata keçirilməsinə başlanmışdır. İqtisadiyyatın liberallaşdırılması ilə yanaşı keçid dövründə əhalinin sosial müdafiəsinin təmin edilməsi üçün ən ümdə prinsiplər müəyyənləşdirilmişdi:

- ilk növbədə, müxtəlif mülkiyyət növlərinə əsaslanan iqtisadi sistemin yaradılması;
- azad sahibkarlığın inkişafına dövlət təminatının verilməsi;
- iqtisadi münasibətlərdə inhisarçılığın qarşısının alınması;
- əhalinin rifahının yaxşılaşdırılması və onun sosial müdafiəsinin təmin olunması və s.

Bu prinsiplərin müəyyənləşdirilməsi ulu öndər Heydər Əliyevin zəngin təcrübəsi əsasında mümkün olmuşdur. Qeyd olunan prinsiplər əsasında islahatlar aparılmış və hər şeydən əvvəl yeni iqtisadi sistemə keçidin hüquqi bazası yaradılmış, bu istiqamətdə iqtisadi islahatların hüquqi bazasını təmin edən qanunlar işlənib hazırlanmış və qəbul edilmişdir. Bu qanunlardan mülkiyyət haqqında, torpaq və aqrar islahatlar haqqında, özəlləşdirmə, sahibkarlığın inkişafı, vergi, maliyyə-bank sisteminin yenidən qurulması, ticarətin liberallaşdırılması, investisiyaların, o cümlədən xarici investisiyaların qorunması, inhisarçılığın aradan qaldırılması və sağlam rəqabətin inkişafı, əhalinin rifahının yüksəldilməsini və sosial müdafiəsini təmin edən qanunlar xüsusi yer tuturdu [12, s.160]. Beləliklə, Ulu Öndərin şəxsi təşəbbüsü və rəhbərliyi nəticəsində qəbul edilən bu qanunlar Azərbaycanda iqtisadiyyatın müxtəlif istiqamətlərində köklü islahatların aparılmasında mühüm rol oynadı. Belə ki, 1995-1998-ci illərdə dövlət əmlakının özəlləşdirilməsi proqramının yerinə yetirilməsi nəticəsində ölkədə kiçik özəlləşdirmə, demək olar ki, başa çatdı, 28 minədək belə obyekt xüsusi mülkiyyətə keçdi. Minlərlə ticarət, ictimai iaşə və xidmət obyektlərinin özəlləşdirilməsi bu sahələrdə özəl bölmənin payının kəskin surətdə artmasına səbəb olmuşdur [13, s.161].

Aqrar islahatların keçirilməsini şərti olaraq 3 dövrə: 1991-1995, 1995-2003 və 2003-cü ildən sonrakı dövrə bölmək olar.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə aqrar islahatların əsas tərkib hissəsi olan torpaq islahatlarının normativ-hüquqi bazasının yaradılması və aqrar islahatların əməli olaraq həyata keçirilməsi istiqamətində tədbirlərə başlanıldı. Aqrar islahatların həyata keçirilmisinin başlıca müddəaları "Kənd təsərrüfatı istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında" (28 noyabr, 2003-cü il), "Baytarlıq haqqında" (31 may, 2005-ci il), "Ailə kəndli təsərrüfatı haqqında" (14 iyun, 2005-ci il), "Damazlıq haqqında" (18 dekabr, 2007-ci il), "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" (1 aprel, 2008-ci il), "Arıçılıq haqqında" (2 fevral, 2009-cu il) və s. dövlət sənədlərində öz əksini tapmışdır.

Ulu Öndərin rəhbərliyi sayəsində 1995-2003-cü illərdə Azərbaycan Respublikasında aqrar sahəyə dair 100-dən artıq qanun, fərman, sərəncam, qərar və digər normativ-hüquqi aktlar qəbul olunmuşdu [14, s.30-49]. Həmçinin, ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi əsasında 1995-1998-ci illərdə "Aqrar islahatların əsasları haqqında", "Sovxoz və kolxozların islahatları haqqında", "Torpaq islahatları haqqında", "Torpaq vergisi haqqında", "Torpaq icarəsi haqqında", "Torpaq məcəlləsi haqqında" və s. qanunların qəbul edilməsi respublikanın kənd təsərrüfatının inkişafında böyük rol oynamışdır. Ümummilli Lider torpaqların xüsusi mülkiyyətə verilməsi haqqında qanunun Azərbaycanın iqtisadi həyatında ilk mütərəqqi qanun olduğunu qeyd etmişdir və bildirmişdir ki, "Torpağı xüsusi mülkiyyətə verməkdə bizim əsas müqsədimiz torpaqdan istifadənin səmərəliliyini, torpağın məhsuldarlığını artırmaqdır. Torpaq xüsusi mülkiyyətdə olanda torpağın sahibi onu göz bəbəyi kimi qoruyacaqdır" [15]. 1995-ci ildə Heydər Əliyevin göstərişi ilə aqrar qanun layihələrinin qəbul edilməsi üçün ilk sınaq təcrübəsinə respublikanın bir sıra şimali-qərb rayonlarında başlanıldı [16, s.57].

1996-cı il 16 iyunda "Torpaq islahatı haqqında" qanun qəbul olundu. Bu qanuna görə respublikada ümumi torpaq fondunun 56,9 %-i dövlət torpaqlarına, 23,5 %-i bələdiyyə mülkiyyətinə, 19,6 %-i isə xüsusi mülkiyyətə ayrılmışdı. 1 mln. 953 min 264 hektar dövlət torpağı əkin-biçin üçün ölkə əhalisinə pay kimi verildi [17]. Ulu öndər Heydər Əliyevin müəllifi olduğu "Torpaq və Aqrar " islahatlar nəticəsində respublika ərazisində 1996-2003-cü illərdə 1300-dən çox kolxoz və sovxoz ləğv edildi, onların bazasında 35 minədək kəndli (fermer) təsərrüfatları, o cümlədən 224 kooperativ, 491 kiçik müəssisə, 1676 birgə təsərrüfat yaradıldı [18, s.94].

1995-2003-cü illərdə Heydər Əliyevin uzaqgörən, uğurlu siyasəti, təşəbbüsü ilə görülən tədbirlərin nəticəsində Azərbaycan Respublikası kənd təsərrüfatına 300 mln. dollaradək xarici investisiya cəlb olunmuşdur [19, s.81]. Ulu Öndər respublikada aqrar və torpaq islahatlarının sürətləndirilməsində dövlətin tənzimləyici roluna xüsusi önəm verirdi. Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyi dövründə aqrar siyasət kursunun sürətləndirilməsi, kənd əhalisinin yaşayış səviyyəsinin yüksəldilməsi, əhalinin sosial-mədəni həyatının müasir tələblər səviyyəsinə qaldırılmasına mühüm əhəmiyyət verildi.

Ulu öndər Heydər Əliyevin aqrar sahədə siyasəti Respublika Prezidenti İlham Əliyev tərəfindən 20 ildir ki, böyük uğurla davam etdirilir. Bu sahədə İlham Əliyevin 24 noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanı və bu fərmandan irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə 11 fevral 2004-cü il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları (2004-2008, 2008-2012, 2013-2017, 2017-2021) ölkədə aqrar və torpaq siyasətinin uğurlu davamı kimi qeyd olunmalıdır.

Beləliklə, 1995-2003-cü illərdə, ilk növbədə, respublika iqtisadiyyatının bazar iqtisadiyyatı yönümlü inkişafına keçid başladı. Ulu Öndərin qətiyyətli, dəyərli, düşünülmüş və uzaqgörən siyasəti nəticəsində iqtisadiyyatın idarə olunması və strukturunda dəyişikliklər, yeni iqtisadi münasibətlər yaranmağa başladı. Həmçinin, 1993-1995-ci illərdə ulu öndər Heydər Əliyevin böyük təcrübəsi və təşəbbüsü ilə ölkədə iqtisadi durğunluq, böhran aradan qaldırıldı, uğursuz iqtisadi prosesi tədricən inkişaf əvəz etməyə başladı. 1995-1996-cı illərdə bazar iqtisadiyyatı yolu tutan Azərbaycan iqtisadiyyatı davamlı olaraq dinamik şəkildə inkişaf etməyə başladı. Ulu Öndər Azərbaycan iqtisadiyyatının dinamik inkişafını bazar iqtisadiyyatına keçiddə görür və bu istiqamətə mühüm əhəmiyyət verirdi. Ulu öndər Heydər Əliyev yazırdı: "Bu yol bizim üçün yeni, mürəkkəb bir yol olsa da, insanların çoxu bu iqtisadi sistem şəraitində işləməyə öyrənmişdir. Biz bazar iqtisadiyyatını tətbiq etməyə başladıq, uğurla həyata keçirdik və davam etdiririk" [20].

Ulu öndər Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə qayıdışı ilə neft və qeyri-neft sektoruna investisiyaların həcmi artırıldı. Bunun nəticəsi olaraq, inflyasiyanın qarşısı alındı, dövlət büdcəsi formalaşdırıldı, gömrük vergi xidmətlərinin strukturu təkmilləşdirildi, qiymətlərin liberallaşdırılmasına xüsusi diqqət yetirildi, xarici ticarət genişləndirildi, sərt maliyyə-kredit və büdcə siyasəti müəyyənləşdirildi, milli pul vahidi dövriyyəyə buraxıldı və möhkəmləndirildi, beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq gücləndirildi. Nəticədə, 1996-cı ildən başlayaraq, bir çox sahələrdə, xüsusilə də mikro-iqtisadi göstəricilərdə irəriləyişin əldə edilməsinə imkan verildi. Belə ki, ümumi daxili məhsulun artımı 1996-cı ildə 1,3%, 1997-ci ildə 5,8%, 1998-ci ildə 10%, 1999-cu ildə 7,4%, 2000-ci ildə 11,4%, 2001-ci ildə altı ayda 8,4% olmuşdu. 1995-2003-cü illərdə ümumi daxili məhsul bütünlükdə 52,8% artmışdı [21, s.162].

Bu illərdə ulu öndər Heydər Əliyevin sosial-iqtisadi siyasəti Azərbaycan Respublikasında ümumi daxili məhsul (ÜDM) və ümumi daxili məhsulda özəl sektorun payı nəzərə çarpacaq dərəcədə artdı. Heydər Əliyevin gərgin əməyi və düzgün iqtisadi siyasəti nəticəsində Azərbaycanın iqtisadi potensialı, yeraltı və yerüstü sərvətləri, elmi, intellektual potensialı ilə yanaşı onun digər dövlətlərlə iqtisadiyyat sahəsində əməkdaşlığı üçün daha əlverişli şərait yaradılmışdı. Ulu Öndər qeyd edirdi ki, "Sağlam, təmiz, pak bazar iqtisadiyyatı yolu ilə gedən iş adamlarına Azərbaycanda geniş yer veriləcəkdir, xarici şirkətlərə, sərmayəçilərə geniş meydan açılacaqdır" [22, s.53].

Ümummilli lider Heydər Əliyevin sosial-iqtisadi siyasətində neft strategiyası ilə yanaşı "Böyük İpək Yolu"nun bərpası da əhəmiyyətli yer tuturdu. Heydər Əliyev qeyd edirdi ki, "Azərbaycan "Böyük İpək Yolu"nun mərkəzində yerləşir. "Böyük İpək Yolu" Yaponiya, Çin və Mərkəzi Asiyadan keçib Xəzərə çıxır. Xəzərdə Şərq və Qərb sahilləri arasında keçid bərəsi var və bu bərə Azərbaycana məxsusdur. Bakı "İpək Yolu"nun üstündə yeganə iri dəniz limanıdır. Ona görə də, Azərbaycan burada çox mühüm strateji mövqe tutur" [23, s.67].

Heç şübhəsiz ki, ulu öndər Heydər Əliyev tarixi "İpək Yolu"nun bərpasına çox böyük dəyər və əhəmiyyət verirdi. O qeyd edirdi ki, "İpək Yolu"nun bərpası Azərbaycan iqtisadiyyatının inkişafında, onun dünya iqtisadiyyatına inteqrasiya etməsində böyük hadisə olacaqdır. "İpək Yolu"nun bərpası Azərbaycanın yeni-yeni ölkələrlə iqtisadi sahədə mühüm əlaqələrinin yaradılmasında, dövlətlərin iqtisadiyyatının möhkəmləndirilməsində, ticarət əlaqələrinin genişlənməsində, dövlətlərdə iqtisadi və sosial islahatların aparılmasında böyük imkanlar yaradacaq. Həmçinin, ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasına böyük təkan verəcək. Böyük İpək Yolunun bərpası nəticəsində respublikanın iqtisadi göstəricisində müsbət dəyişiklik baş verdi" [24, s.67].

Ulu öndər Heydər Əliyevin iqtisadi siyasətində respublika sənayesinin coğrafiyasının genişləndirilməsi, sənaye məhsulu istehsalında səmərəliliyin, keyfiyyətin artırılması mühüm yer tuturdu. Heydər Əliyev siyasəti əsasında həyata keçirilən ən uğurlu iqtisadi layihələrdən biri də Avropa İttifaqının yürütdüyü TRASEKA proqramıdır. Azərbaycan 1993-cü ildə Brüssel Konfransında Qafqazın və Mərkəzi Asiyanın digər yeni müstəqil dövlətlərlə birlikdə Avropa Birliyinin Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yardım üzrə TRASEKA proqramının işgüzar iştirakçısına çevrildi. Bu proqramda başlıca məqsəd alternativ nəqliyyat dəhlizləri vasitəsilə yeni yaranmış müstəqil dövlətlərin Avropa bazarına çıxarılmasına dəstək vermək, dövlətlərarası regional əməkdaşlığa təkan vermək, TASİS-TRASEKA proqramının köməyi ilə beynəlxalq maliyyə təşkilatlarının və özəl investorların cəlb edilməsini gücləndirmək idi. Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycanın iqtisadi əlaqələri gücləndi, iqtisadi siyasətin vahidliyi, bölünməzliyi və sosial yönümlülüyü təmin olundu. Əsası Heydər Əliyev tərəfindən qoyulan iqtisadi siyasət Respublika Prezidenti tərəfindən uğurla davam etdirilirdi. Respublika Prezidenti İlham Əliyev Azərbaycan iqtisadiyyatının gələcəyi haqqında deyir: "Sərmayələrin gəldiyi əsas yer Bakıdır, neft sənayesidir".

Azərbaycan iqtisadiyyatının əsas tərkib hissəsi olan sənaye sahəsi Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə durğunluq və böhrandan xilas oldu (1993-1996). 1997-ci ildən başlayaraq sənaye məhsulunun istehsalında artım başladı. 2000-ci ildə artım 6,9%, 2001-ci ildə altı ayda isə 5,1% olmuşdu. Sənayenin bütün sahələrində, o cümlədən neft, qaz, kimya, neft-kimya, maşınqayırma və metal emalı, tikinti materialları sənayesi sahələrində nəzərə çarpacaq irəliləyiş [25, s.162] nəticəsində dinamik inkişafın təmin olunması, məhsul istehsalının həcminin çoxalması ulu öndər Heydər Əliyevin fədakar əməyi, zəngin iş təcrübəsi, yüksək idarəçilik bacarığı ilə bağlı olmuşdu.

Heydər Əliyev tərəfindən yenidən qurulan sənaye sahəsinin inkişafı sonrakı illərdə də yüksək sürətlə inkişaf etməkdədir. Belə ki, Azərbaycanın sürətli iqtisadi inkişaf dövrünün – 2003-2011-ci illərdə ümumi daxili məhsulun (ÜDM) orta illik artımı 14%, o cümlədən qeyri-neft sektorunda 9% olmuşdu. ÜDM-də özəl sektorun payı 81,7%-ə çatmışdı. İqtisadiyyata investisiya qoyuluşu 2,4 dəfə, o cümlədən xarici investisiya qoyuluşu 1,5 dəfə, daxili investisiya qoyuluşu isə 5,5 dəfəyədək artmışdı. 2010-cu ilin sonuna ölkənin strateji valyuta ehtiyatları 14 dəfədən çox artaraq 29 mlrd. dolları ötmüşdü. Bütün nailiyyətlərin nəticəsi olaraq, ölkənin dövlət büdcəsinin gəlirləri və xərcləri orta hesabla hər il 24%, əhalinin gəliri 3,2 dəfə, orta aylıq nominal əmək haqqı isə 2,6 dəfə artmışdı [26, s.3].

İnsan inkişafı indeksi yüksələrək Avropa və Mərkəzi Asiya ölkələri səviyyəsinə qalxmış, müvafiq olaraq, məşğulluq səviyyəsi də artmışdır. Yoxsulluğun səviyyəsi 9%-ə enmişdir. Ulu Öndərin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində Azərbaycan iqtisadiyyatı Cənubi Qafqaz ölkələrinin iqtisadiyyatının yarıdan çoxunu təşkil edirdi. Heydər Əliyevin təşəbbüsü ilə yaradılan Neft Fondu neftdən əldə olunan gəlirlərin ədalətli və şəffaf şəkildə xərclənməsinə əlverişli imkan yaratmışdır. Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına qayğı göstərilirdi. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Oğuz-Qəbələ-Bakı su kəməri və Samur-Abşeron suvarma sistemi üzrə layihələr, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi və digər mühüm proqramlar Fondun vəsaiti hesabına reallaşdırılmışdı. Qəbələ-Bakı su kəməri müstəqillik illərində bu sahədə keçirilən ən böyük layihədir.

Ulu öndər Heydər Əliyevin neft strategiyasını uğurla həyata keçirməsi nəticəsində müstəqillik dövründə Azərbaycanda neft hasilatı 6,1 dəfə, qaz hasilatı 3,1 dəfə artmış, "Azəri-Çıraq-Günəşli" layihəsi üzrə birinci mərhələnin əvvəlindən 247 mln. ton neft və 62,7 mlrd. kubmetr qaz hasil edilmişdir. Neft sənayesinə 35,8 mlrd. dollar, o cümlədən "Azəri-Çıraq-Günəşli" layihəsi üzrə 24,4 mlrd. dollar xarici sərmayə qoyulmuşdur. Naxçıvan Muxtar Respublikasında 1991-2011-ci illərdə 432 sənaye müəssisəsi yaradılmışdı. Ümumi daxili məhsulda özəl sektorun payı 85,9% təşkil edirdi. Bu illərdə Naxçıvanda 305 növ və 807 çeşiddə məhsul istehsal olunmuşdu [27, s.4].

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə respublikanın kənd təsərrüfatı sahəsində aparılan islahatlar, həyata keçirilən tədbirlər nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalı xeyli yüksəlmiş, kənd təsərrüfatının strukturu formalaşmışdır. Ümummilli Liderin investisiya siyasətində kənd təsərrüfatının inkişaf etdirilməsi xüsusi yer tuturdu. Heydər Əliyevin təşəbbüsü və şəxsən rəhbərliyi ilə aqrar bölmənin inkişafı məqsədilə bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri qurulmuş, Dünya Bankının və Kənd Təsərrüfatının inkişafı üzrə Beynəlxalq Fondun maliyyə dəstəyi ilə nümunəvi fermer təsərrüfatının yaradılmasına başlanmışdır. İlkin mərhələdə Azərbaycanın 6 rayonunda layihənin tətbiqi müsbət nəticələr vermiş, fermer təsərrüfatının təşkilində və məhsuldarlığın artırılmasında irəliləyişlərə nail olunmuşdu. Ulu Öndərin göstərişi sayəsində qazanılan uğurlar nəzərə alınıb 2000-ci ildən başlayaraq respublikanın daha 30 rayonunda fermer təsərrüfatlarının inkişafına beynəlxalq maliyyə qurumlarından əlavə 100 mln. dollar vəsait cəlb olunmuşdu. Kənd təsərrüfatının inkişafına yönəldilmiş layihələr içərisində Mil-Muğan kollektorunun və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması işləri də böyük əhəmiyyət kəsb edirdi. Ulu Öndərin təşəbbüsü ilə respublikada kənd təsərrüfatı üzrə yenidənqurma işlərinin aparılması 1998-ci ildən başlayaraq Mil-Muğan kollektorunun bərpası 500 min hektardan artıq suvarılan torpaqların meliorasiya vəziyyətini yaxşılaşdırmış və ölkənin mərkəzi rayonlarında kənd təsərrüfatı məhsullarının istehsalının artmasına kömək etmişdi.

Ulu Öndərin xarici siyasətində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi mühüm yer tuturdu. 1995-2001-ci illərdə Azərbaycanda xarici investorlar üçün cəlbedici sahələrdən biri də rabitə və telekommunikasiya sistemi idi. Bu illərdə göstərilən sahənin inkişafı üçün 180 mln. dollardan çox xarici investisiya istifadə edilmişdi. Azərbaycana cəlb olunmuş investisiyaların bir hissəsi erməni işğalından azad olunmuş ərazilərdə yaşayış, təhsil, səhiyyə, energetika və digər sosial və infrastruktur obyektlərin bərpasına istifadə olunmuşdu.

1995-2003-cü illərdə iqtisadiyyata daxili investisiya qoyuluşunda da əhəmiyyətli işlər görülmüşdü. Həmin illərdə dövlət büdcəsinin, ayrı-ayrı dövlət müəssisələrinin və iş adamlarının vəsaiti hesabına iqtisadiyyatın bütün sahələrinə 9,7 trilyon manat məbləğində vəsait yönəldilmişdir ki, bu da yüzlərlə kilometr elektrik ötürücüsü xətlərinin, neft kəmərlərinin və onlardan ayrılmaların, rabitə xətlərinin, yanacaqdoldurma və transformator stansiyalarının, müəssisə və istehsal güclərinin, körpülə-

rin, yaşayış evlərinin, mədəniyyət obyektlərinin, inzibati binaların, minlərlə təhsil, səhiyyə, məişət, ticarət və digər xidmət obyektlərinin tikilib istifadəyə verilməsini təmin etmişdir. Bütünlükdə, 1993-2003-cü illərdə ulu öndərin investisiya siyasəti Azərbaycanın iqtisadi potensialını artırmaqla yanaşı, əhalinin rifahının yaxşılaşdırılmasını, məşğulluq səviyyəsinin yüksəlməsini, bazar iqtisadiyyatı prinsiplərinə uyğun maliyyə bazasının formalaşdırılmasını, daha sıx beynəlxalq iqtisadi əlaqələrin qurulmasını və Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasını xeyli sürətləndirmişdi.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə müstəqil Azərbaycan dövlətinin bazar iqtisadiyyatına keçid istiqamətində aparılan iqtisadi islahatlar içərisində dövlət əmlakının özəlləşdirilməsi siyasəti mühüm yer tuturdu. Özəlləşdirmə prosesi Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş iqtisadiyyatın müxtəlif mülkiyyət formalarına əsaslanaraq inkişaf etdirilməsi və onun dövlət tərəfindən dəstəklənməsi prinsiplərinə uyğun olaraq həyata keçirilmişdir.

Azərbaycanda kütləvi özəlləşdirməyə 1993-cü ilin yanvarında "Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" qanun qəbul edildi. Lakin o dövrdə ölkədə gedən icimai-siyasi proseslər, bir tərəfdən, 1991-1994-cü illəri əhatə edən I Qarabağ müharibəsi, Ermənistanın Azərbaycana təcavüzü və torpaqlarımızın 20 faizinin işğalı, digər tərəfdən hakimiyyət uğrunda mübarizə respublikada özəlləşdirməyə başlamağa imkan vermirdi. Özəlləşdirmənin kütləvi başlanmasına imkan verməyən amillərdən biri də müvafiq qanunun olmasına baxmayaraq, bu prosesi tənzimləyən dövlət proqramının, vacib normativ-hüquqi sənədlərin vaxtında hazırlanmaması, özəlləşdirmədə prioritet istiqamətlərin və ardıcıllığın müəyyən edilməməsi olmuşdur. Yalnız 1995-ci ilin martında ölkədə ictimai-siyasi sabitlik təmin edildikdən sonra ulu öndər Heydər Əliyev tərəfindən hazırlanmış "Dövlət əmlakının özəlləşdirilməsi sahəsində əməli tədbirlər haqqında" fərman bu prosesə təkan verdi [28, s.180]. 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramı və çoxsaylı normativ hüquqi sənədlər hazırlanıb qəbul edilməsində Heydər Əliyevin idarəçilik təcrübəsi böyük rol oynayıb. Ulu Öndərin səyi və təşəbbüsü ilə Azərbaycan Respublikasının bütün vətəndaşlarına özəlləşdirmənin başlanğıcında bərabər, ədalətli şərait yaradılmış və əhalinin özəlləşdirmə prosesində iştirakını təmin etmək məqsədilə onlara dörd çekdən ibarət olan 7,5 mln. yaxın özəlləşdirmə payı verilmişdir.

Özəlləşdirmə bir neçə mərhələdə həyata keçirilmişdir. İlk mərhələdə kiçik özəlləşdirmə prosesində ticarət, xidmət, iaşə obyektləri, sənayenin müxtəlif sahələrində, tikintidə, nəqliyyatda fəaliyyət göstərən yüzlərlə kiçik müəssisə hərracda satılaraq öz sahibini tapmışdı [29, s.181]. Eyni zamanda bu mərhələdə normativ-hüquqi sənədlərə uyğun olaraq minə yaxın orta və iri müəssisə (yüngül, yeyinti, taxıl məhsulları, quşçuluq, mebel, tikinti), on iri dövlət müəssisəsi ("Bakıelektroqaynaq", "Qarabağ-Sement", "Bakı-Tütün", "Gəncə-Şərab-2", "Dəvəçi-Dəyirman" və s.) səhmdar cəmiyyətlərinə çevrilmişdir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 2000-ci ildə II Dövlət Özəlləşdirmə Proqramı qəbul edilmişdi. Bununla respublikada geniş miqyaslı özəlləşdirmənin başlanğıcı qoyulmuşdu. II Özəlləşdirmə Proqramına uyğun olaraq yanacaq-energetika, metallurgiya, maşınqayırma, kimya, neft-kimya sənayesində, nəqliyyat və rabitə sahəsində iri müəssisələr özəlləşdirməyə açıq elan edildi.

Ulu Öndərin zəngin idarəçilik təcrübəsi əsasında iqtisadi sahələri əhatə edən islahatların keçirilməsində başlıca məqsəd güclü mərkəzlə yanaşı regionlarda iqtisadi inkişafa nail olmaq idi. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra ölkədə demokratik, hüquqi, sivil dövlət qurmaq və respublikanın iqtisadiyyatında islahatlar aparmaq, öz iqtisadiyyatını dünya iqtisadiyyatına bağlamaq prinsiplərini əsas götürmüşdü. Ulu öndər Heydər Əliyevin iqtisadi siyasətinin başlıca prinsipi Azərbaycanda bazar iqtisadiyyatı yolu ilə getmək və bu yol ilə Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatına sıx surətdə bağlamaq məqsədi daşıyırdı. Ulu öndərin dediyi kimi: "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur".

Azərbaycanın iqtisadi inkişafında, o cümlədən özəlləşmə və sahibkarlığın həyata keçirilməsində Heydər Əliyevin fəaliyyəti, həyata keçirdiyi tədbirlər sferasını aşağıdakı mərhələlərə bölmək olar:

1. 1993-1995-ci illər
2. 1995-1998-ci illər
3. 1998-2003-cü illər

Birinci mərhələdə ulu öndər Heydər Əliyevin başlıca fəaliyyət sferasında Azərbaycan dövlətçiliyinin xilas edilməsi, mərkəzləşdirilmiş unitar dövlətin formalaşdırılması, ölkə iqtisadiyyatının bazar prinsipləri əsasında yenidən qurulması dayanırdı. Bu mərhələ demokratik islahatlar, sosial-iqtisadi islahatlar və dövlət quruculuğu mərhələsi ilə səciyyəvi idi. İkinci mərhələdə ümummilli lider Heydər Əliyev iqtsadi anlamda 3 əsas problemin paralel surətdə həllini önə çəkmişdi. Burada milli-iqtisadi sistemin formalaşdırılması, ölkə iqtisadiyyatının bazar prinsipləri əsasında yenidən qurulması, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının təmin edilməsi başlıca yer tuturdu. Bunun nəticəsində respublika iqtisadiyyatında özəl sektorun formalaşdırılması və inkişaf etdirilməsi üçün yüksək baza yaradılmışdı. Üçüncü mərhələdə isə Azərbaycanda özəl sektor geniş fəaliyyətə başlamışdı.

Ulu öndər Heydər Əliyev tərəfindən təsdiq olunmuş 1997-2000-ci illərdə Kiçik Orta Sahibkarlığa Dövlət Köməyi Proqramı Azərbaycanda sahibkarlığın inkişafına güclü təkan verdi. Heydər Əliyevin rəhbərliyi və təşəbbüsü ilə sahibkarlığın normativ-hüquqi və təşkilati bazasının yaradılması, həvəsləndirmə sisteminin formalaşması istiqamətində çox mühüm əhəmiyyət kəsb edən tədbirlər həyata keçirildi. Ulu öndərin irəli sürdüyü bu siyasəti həyata keçirmək üçün bir sıra zəruri qurumlar, o cümlədən Sahibkarlığa Kömək Milli Fondu, Kiçik və Orta Sahibkarlığın inkişafı Agentliyi, sahibkarlara informasiya, maliyyə və məsləhət xidmətləri göstərən müxtəlif strukturlar yaradıldı.

Həmçinin, Ulu Öndərin səyi və dəstəyi ilə Azərbaycan Respublikasında sahibkar hüquqlarının qorunması da önə çəkilmişdi. Belə ki, onların fəaliyyətinə yersiz müdaxilənin və özəl müəssisələrdə əsassız yoxlamaların qarşısının alınmasına yönəldilmiş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1996 və 1999-cu illərdə qəbul etdiyi fərmanlar sahibkarlığın inkişafına əlverişli şərait yaradılmasında, onların müxtəlif dövlət orqanları ilə münasibətlərinin tənzimlənməsində əvəzsiz rol oynamışdı.

1995-2000-ci illərdə sahibkarlığın inkişafına göstərilən dövlət qayğısı və Ulu Öndərin bu sahə ilə bağlı uzaqgörən siyasəti, yüksək dəstəyi nəticəsində iqtisadiyyatın bütün sahələrində özəl müəssisələrin sayı və ölkədə məhsul istehsalında sahibkarlığın xüsusi çəkisi əhəmiyyətli dərəcədə artmışdı. Azərbaycanda sahibkarlığın inkişafı və iqtisadiyyatda özəl bölmənin payı aşağıda verilmiş cədvəldə (faizlə) əksini tapır.

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|
| Ümumi daxili məhsul | 30,3 | 38,0 | 46,0 | 59,5 | 62,0 | 68,0 |
| Sənaye | 5,5 | 7,5 | 18,3 | 26,4 | 37,3 | 43,7 |
| Tikinti | 79,0 | 79,0 | 81,0 | 80,6 | 65,9 | 63,5 |
| Kənd təsərrüfatı | 61,4 | 68,5 | 85,0 | 96,5 | 98,0 | 99,0 |
| Ticarət və restoran | 82,4 | 86,4 | 91,8 | 97,1 | 97,9 | 98,3 |
| Nəqliyyat və rabitə | 4,0 | 4,5 | 26,1 | 50,3 | 55,3 | 62,2 |
| Sosial və digər xidmətlər | 27,0 | 27,6 | 29,1 | 48,5 | 53,2 | 58,7 |

Cədvəldən göründüyü kimi, əgər 1995-ci ildə ümumi daxili məhsulda özəl bölmənin payı 30,3%, o cümlədən iqtisadiyyatın aparıcı sahəsi olan sənayedə 5,5% olmuşdusa, 2000-ci ildə isə bu göstərici müvafiq olaraq 68% və 43,7% təşkil etmişdir. Müvafiq illər üzrə iqtisadiyyatın digər sahələrində də ümumi daxili məhsulda özəl bölmənin payı artmışdı [30, s.183]. 1995-2000-ci illərdə Azərbaycanda sahibkarlığın inkişafında da əhəmiyyətli dərəcədə artım olmuşdu.

***Nəticə.*** Yeni Azərbaycan Partiyasının VII qurultayında Prezident İlham Əliyevin giriş nitqində deyilirdi: “Yeni Azərbaycan Partiyasının adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Partiya Heydər Əliyevin ətrafında yaradılmışdı, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətdir. 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər önəmli rol oynayırdı. Çünki, mən bunu dəfələrlə demişəm və partiya üzvləri bunu yaxşı bilir, gənc nəsil də bilməlidir ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerdə idi. Heydər Əliyevin fəaliyyəti nəticəsində isə 1982-ci ildə qabaqcıl yerlərdə idi” [31].

Ulu Öndər 1991-1993-cü illərdə Respublikanın ictimai-siyasi, sosial-iqtisadi həyatında mövcud olan mürəkkəb, olduqca çətin olan vəziyyəti təhlil edərək Ümummili liderin rəhbərliyi ilə Azərbaycanda sosail-mədəni quruculuq sahəsində böyük, əhəmiyyətli tədbirlər həyata keçirildi, nəticədə:

- Əhalinin maddi rifah halı yaxşılaşdı;
- Səhiyyə və idman inkişaf etdi, ekoloji tarazlıq təmin olundu;
- Demokratik vəziyyət yaxşılaşmağa başladı;
- Yoxsulluğun kəskin şəkildə azalması müşahidə olunmağa başladı.

*İkinci:* Azərbaycanda sosial-iqtisadi böhranın dərinləşməsi, xalqın güzaranının gündən-günə ağırlaşması böyük həyəcan doğurur, milli gəlirin istehsalı 25 faiz aşağı düşmüşdü. Kənd təsərrüfatında, eləcə də iqtisadiyyatın digər sahələrində vəziyyət daha da ağır idi. Əgər Azərbaycan iqtisadiyyatının səviyyəsinin son 5-6 il ərzində dayanmadan (1988-1993) aşağı düşməsini nəzərə alsaq, o zaman respublikanın necə böyük fəlakətlə üzləşdiyini təsəvvür etmək çətin deyildi. Azərbaycan tükənməz təbii sərvətlərə, zəngin sənaye, aqrar və sosial ehtiyatlara, lazımi intellektual potensiala, əsaslı istehsal fondlarına, istənilən qədər işçi qüvvəsinə malikdir. Bütün bunlardan respublikanın müstəqilliyini möhkəmləndirmək və insanların həyat səviyyəsini yaxşılaşdırmaq üçün səmərəli istifadə olunmalı idi. Belə qənaətə gəlmək olar ki, dövlət və hökumət orqanlarının respublikanı ağır vəziyyətdən çıxarmağa yönəldilən aydın iqtisadi proqramı, strategiyası, əhalinin həyat səviyyəsini günü-gündən yaxşılaşdırmaq üçün konkret tədbirləri yoxdur. Müşahidələr göstərir ki, bu sahədə çox işlər kortəbii aparılır (1991-1993).

*Üçüncü:* 1991-1993-cü illərdə respublikada aparılan kadr siyasəti çox haqlı olaraq geniş xalq kütləsinin etiraz və narazılıqlarına səbəb olur. Rəhbər vəzifələrə təyinatlarda iş qabiliyyəti, biliyi, bacarığı, təsərrüfat və idarəetmə işlərindəki təcrübəsi nəzərə alınmadan, yalnız Xalq Cəbhəsinə mənsubiyyətinin əsas götürülməsi hüquq normalarına uyğun deyil. Ötən illər və onilliklər ərzində respublikada dövlət idarəetmə, iqtisadiyyat, elm, mədəniyyət və sosial sahələrdə kifayət qədər bilikli, təcrübəli, səriştəli, yüksək mədəniyyətə malik kadrlar hazırlanmışdır. Onların hamısı ictimai-siyasi təşkilatlara, partiyalara mənsubiyyətindən asılı olmayaraq, fəal quruculuğa cəlb olunmalı idi. Azərbaycandan kənarda - Rusiyada, Ukraynada və başqa respublikalarda ölkənin mötəbər, nüfuzlu ali məktəblərində, elm mərkəzlərində, ali hərbi məktəblərində təhsil almış və böyük təcrübə toplamış azərbaycanlılar yaşayırdı. Onları öz vətənlərində müstəqil Azərbaycanın həyatının müxtəlif sahələrində çalışmağa cəlb etmək üçün tədbirlər görmək lazımdır. Yeniləşən, demokratikləşən müstəqil Azərbaycana onlar öz səmərəli fəaliyyətləri ilə çox böyük fayda verə bilər.

*Dördüncü:* Müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəmləndirilməsi, hər şeydən əvvəl, respublikada qanunların toxunulmazlığından, qanunun aliliyindən asılıdır. Totalitarizmdən tamamilə xilas olmaq yalnız demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizm, insan azadlığı şəraitində mümkündür. Söhbət söz, vicdan, din, təşəbbüskarlıq və sahibkarlıq, mülkiyyətçilik, seçib-seçilmək azadlığından gedir. Azərbaycanda yaşayan hər bir vətəndaş milliyyətindən, dinindən, dilindən, siyasi əqidəsindən asılı olmayaraq bu demokratik azadlıqlara və hüquqlara malik olmalıdır. Əfsuslar olsun ki, bu sahədə də respublikada ötən vaxtda 1991-1995-cü illərdə heç bir dəyişiklik baş verməmişdir. Fikrimcə, yeni müstəqil dövlətin quruculuğu prosesinə vətəndaşların hamısı, əhalinin bütün təbəqələri cəlb olunmalıdır. Yeni müstəqil Azərbaycan bütün Azərbaycan xalqınındır. Hamı onun tərəqqisinə çalışmalıdır.

Ulu öndərin çox ağır bir böhranlı günlərdə xalqın təkidli tələbi ilə yenidən Azərbaycana rəhbərliyə qayıtması respublikamızda dövlətçiliyin möhkəmləndirilməsinə. Ictimai-siyasi, iqtisadi vəziyyətin sabitləşməsinə, gənc müstəqil dövlətin iqtisadi əsaslarının yaradılmasına xidmət edən kompleks tədbirlərin həyata keçirilməsinə, şərait yarandı.

Bilavasitə xilaskar ulu öndərin gərgin əməyi ilə müstəqil Azərbaycanın dövlət quruculuğunun əsasları yaradıldı, müstəqilliyimizin əbədi qorunması üçün fundamental zəmin yaradıldı.

1993-1995-ci illlərdə ulu öndər Heydər Əliyev Azərbaycanın parçalanmaq, müstəqilliyini yenidən itirmək təhlükəsi və qorxusu birdəfəlik aradan qaldırıldı. Ümummilli liderin tarixi xilaskarlıq missiyasının başlamasından sonra ölkəmizdə vətəndaş qarşıdurmasına, seperatçılıq meyllərinə, xaosa, anarxiyaya, hərc-mərcliyə son qoyuldu.

Müstəqil Dövlət quruculuğunun mühüm istiqamətlərdən biri olan Azərbaycan Ordusunda hökm sürən intizamsızlığa son qoyuldu, ölkədə vahid güclü milli Azərbaycan ordusu yaradıldı. Azərbaycanı düşmən üzərində şanlı, böyük qələbəyə aparan, dünyanın ən güclü 50 ordusu sırasına daxil olan dımir nizam-intizama malik böyük ordunun yaradılmasının əsasları o illərdə qoyulub.

1993-2003-cü illərdə Azərbaycanı iqtisadi tərəqqiyə və hərbi qələbəyə aparan iqtisadi siyasətin əsası qoyuldu.

Həmçinin ulu öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycan iqtisadiyyatını dirçəltmək, ölkənin dünya inteqrasiyasında iştirakını təmin etmək üçün ən başlıca mənbə olan 1994-cü ildə "əsrin müqaviləsi" – neft strategiyası reallığa çevrildi.

Banisi ulu öndər Heydər Əliyev olan neft strategiyası müstəqil respublikamızda demokratiyanın inkişafı, demokratik, hüquqi və dünyəvi, mülki dövlət quruculuğunun əsasının qoyulması və möhkəmləndirilməsi, onun dünyaya iqtisadiyyatına qovuşması üçün möhkəm baza rolunu oynadı.

1996-cı ildən iqtisadiyyatda tənəzzülün qarşısı alındı, dinamik inkişafı başladı.

1996-2003-cü illərdə Ümummilli liderin rəhbərliyi altında Azərbaycanda yeni iqtisadiyyati sistemin əsasə qoyuldu, ölkədə aqrar islahatlar aparıldı, özəlləşdirə, sahibkarlıq, sərbəst bazar iqtisadiyyatı təşəkkül tapdı,yoxsulluğun azaldılması üzrə "Dövlət Proqramı" qəbul olundu, əhalinin maddi rifah halının yaxşılaşdırılması istiqamətində böyük tədbirlər həyata keçirildi. Xarici iş adamlarının Azərbaycanın qeyri-neft sektoruna daha çox cəlb olunması diqqət daha çox artırıldı.

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin inkişaf və sabitlik yolunu müəyyənləşdirdi. İqtisadi-sosial, yeni idarəetmə siyasətini formalaşdırdı. Azərbaycançılıq milli təfəkkürünün formalaşmasına nail oldu.

Dövlət əmlakının özəlləşdirilməsi, yeni iqtisadi siyasətin mahiyyətini təşkil edən aqrar islahatların aparılması ilə yanaşı dövlətin maliyyə-kredit siyasəti, milli bank sistemi formalaşdı.

Ulu Öndərin çox gərgin əməyi ilə xarici iqtisadi əlaqələr quruldu və inkişaf etməyə başladı.

Heydər Əliyev siyasətinin ən mühüm tərkib hissəsi olan Respublikada milli-mənəvi dəyərlərin tərəqqisi, milli dirçəliş, milli özünəqayıdış başladı.

Elmin, təhsilin inkişafında ciddi dəyişikliklər baş verdi. Gənclər siyasət, dünya azərbaycanlıların həmrəyliyi siyasəti, Azərbaycan diasporasının formalaşması da Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

2003-cü ildə keçirilən prezident seçkilərində seçicilərin həlledici hissəsinin etimadını qazanan Heydər Əliyevin ən layiqli davamçısı İlham Əliyev ölkə prezidenti seçildi.

Azərbaycan Respublikasının Prezidenti kimi verdiyi vədlərə sadiq qaldı, verdiyi vədləri ardıcıl olaraq yerinə yetirdi. Nəticədə Azərbaycanın dünyaya inteqrasiyası daha da gücləndi, regionun lider dövlətinə çevrildi. Qalib ölkəyə çevrildi, ölkənin ərazi bütövlüyü təmin olundu.

Ölkə Prezidenti İlham Əliyev qeyd edir ki, Biz, bu günkü uğurlarımıza, ikinci Qarabağ müharibəsinin Qələbə və Zəfərlə başa çatmasına, Azərbaycanın öz Haqqına qovuşmasına görə, həm də Ümummili lider Heydər Əliyevə, onun müdrik, uzaqgörən siyasəti kursuna borcluyuq.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, "Azərbaycan Universiteti", 1997, s.49.
2. Ziyad Səmədzadə. İqtisadi tərəqqiyə və hərbi qələbəyə aparan böyük siyasət / "Xalq" qəzeti, 12 dekabr 2020-ci il, s.5.
3. Heydər Əliyev və Müasir Azərbaycan. Bakı, "Azərbaycan Universiteti", 2003, s.5-6.
4. Qasımlı M.C. Azərbaycan Respublikasının tarixi (1991-2021). 2 cilddə. I cild (1991-2003). Bakı, Bakı Dövlət Universiteti, 2021, s.188.
5. Алиев И. Каспийская нефть Азербайджана. М., 2003, с.181.
6. Azərbaycan özünün inkişafının yeni mərhələsinə qədəm qoyur. "Əsrin müqaviləsi"nin imzalanma mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi // Dirçəliş-XXI əsr, 2003, dekabr, №70, s.20.
7. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, "Azərbaycan Universiteti", 1997, s.50.
8. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, "Azərbaycan Universiteti", 1997, s.51.

9. Heydər Əliyev. Prezident sarayında kənd təsərrüfatı işlərinin gedişində, xüsusən pambıq yığımı ilə əlaqədar məsələlərin müzakirəsinə həsr olunmuş müşavirədə giriş sözü. 22 sentyabr, 1994-cü il.
10. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. II kitab, 1997, s.242.
11. Müstəqil Azərbaycan 20 ildə // “Kəlam”, elmi-ədəbi publisistik jurnal. Oktyabr-noyabr 2011, s.3.
12. Azərbaycan Respublikası. 1991-2001. Bakı, XXI əsr – Yeni Nəşrlər Evi, 2001, s.160.
13. Yeni iqtisadi sistemə keçid: iqtisadi siyasətin formalaşması və makro-iqtisadi tarazlığın əldə edilməsi. Azərbaycan Respublikası. Bakı, 2001, s.161.
14. Azərbaycan Respublikası Milli Məclisinin Arxivi (MMA), fond 2941, siyahı 1, iş 392, v. 231-251; iş 397, v. 30-49.
15. Heydər Əliyev. “Torpaq islahatı haqqında” qanun layihəsinin müzakirəsinə həsr edilmiş iclasda yekun nitqi / “Azərbaycan” qəzeti, 13 iyul 1996-cı il.
16. Aqrar islahatlar 10 ildə. Elmi-tədqiqat kənd təsərrüfatının iqtisadiyyatı və təşkili institutu. Bakı, “Nurlar”, 2005, s.57.
17. ARMMA: f.2941, siy.1, iş 390, v.1-44.
18. İbrahimov İ. Aqrar islahatlar və sahibkarlığın inkişafı. Bakı, “Səda”, 2005, s.94.
19. İbrahimov İ. Aqrar iqtisadiyyatın aktual problemləri. Bakı, “Təhsil-Elm”, 2002, s.81.
20. “Azərbaycan” qəzeti, 26 dekabr, 2002-ci il.
21. Azərbaycan Respublikası. 1991-2001. Bakı, XXI-Yeni Nəşrlər Evi, 2001, s.162.
22. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, “Azərbaycan Universiteti” nəşriyyatı, 1997, s.53.
23. Habil Həmidov. Azərbaycan dövlətinin uzaqgörən siyasəti və Böyük İpək Yolu // Dirçəliş – XXI əsr, 2005-ci il dekabr; 2006-cı il, yanvar; № 94-95, s.67.
24. Habil Həmidov. Azərbaycan dövlətinin uzaqgörən siyasəti və Böyük İpək Yolu // Dirçəliş – XXI əsr, 2005-ci il dekabr; 2006-cı il, yanvar; № 94-95, s.67.
25. Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001, s.162.
26. Müstəqil Azərbaycan 20 ildə // “Kəlam”, elmi-ədəbi publisistik jurnal. Oktyabr-noyabr 2011, s.3.
27. Müstəqil Azərbaycan 20 ildə // “Kəlam”, elmi-ədəbi publisistik jurnal. Oktyabr-noyabr 2011, s.4.
28. Dövlət əmlakının özəlləşdirilməsi və sahibkarlığın inkişafı. Azərbaycan Respublikası 1991-2011. Bakı: XXI-Yeni Nəşrlər Evi, 2011, s.180.
29. Dövlət əmlakının özəlləşdirilməsi və sahibkarlığın inkişafı. Azərbaycan Respublikası 1991-2011. Bakı: XXI-Yeni Nəşrlər Evi, 2011, s.181.
30. Azərbaycan Respublikası 1991-2001. Bakı, “XXI-Yeni Nəşrlər Evi”, 2001, s.183.
31. Yeni Azərbaycan Partiyasının VII qurultayında Prezident İlham Əliyevin giriş nitqi // “Xalq qəzeti”, № 051, 6 mart 2021-ci il.

**ИБРАГИМ ЗЕЙНАЛОВ**
*Профессор Бакинского Государственного Университета*

## БОЛЬШАЯ ПОЛИТИКА, ВЕДУЩАЯ К ЭКОНОМИЧЕСКОМУ ПРОГРЕССУ

В научной статье рассказывается о важнейших мероприятиях, осуществленных на втором этапе руководства Азербайджаном общенационального лидера Гейдара Алиева, сыгравшего несравненную роль в становлении, сохранении и укреплении независимого Азербайджанского государства, о его социально-экономическом, политическом развитии, вступлении в мировую интеграционную систему за более чем полвека. В статье излагаются путь Гейдар Алиева по модернизации Азербайджана, «Контракт века», который считается современным началом модернизации Азербайджана и вытекающие из него меры, успешная реализация нефтяной стратегии в нашей стране, завершение политического, социально-экономического кризиса, начавшегося в начале 1990-х годов, начало экономического развития с 1995 по 1996 гг., а также великая политика, ведущая к экономическому прогрессу, которая являлась главным

фактором национального государственного становления независимого Азербайджана в 1993-2003 гг. использованием мирового опыта по инициативе и руководству Великого Лидера.

*Ключевые слова:* великая политика, «Контракт века», кризис, экономический прогресс, правовой, мировой, Земельная реформа, Государственная Программа, «Земельный налог», Валовый Внутренний Продукт, Шелковый путь, ТРАСЕКА.

**IBRAHIM ZEYNALOV**
*Professor of Baku State University*

## GREAT POLICY LEADING TO ECONOMIC PROGRESS

The scientific article tells about the most important activities carried out during the second stage of the leadership of Azerbaijan by the national leader Heydar Aliyev, who played an incomparable role in the formation, preservation and strengthening of the independent Azerbaijani state, about its socio-economic, political development, entry into the world integration system for more than half a century. The article outlines Heydar Aliyev's path to the modernization of Azerbaijan, the "Contract of the century”, which is considered the modern beginning of the modernization of Azerbaijan and the measures arising from it, the successful implementation of the oil strategy in our country, the completion of the political, socio-economic crisis that began in the early 1990s, the beginning of economic development from 1995 to 1996, as well as the great policy leading to economic progress, which was the main factor in the national state formation of independent Azerbaijan in 1993-2003, using world experience on the initiative and leadership of the Great Leader.

*Keywords:* great politics, "Contract of the Century", crisis, economic progress, legal, world, Land reform, State Program, "Land tax", Gross Domestic Product, Silk Road, TRACECA.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*




**UOT 94(479.24)**

**ƏSMƏD MUXTAROVA**
*tarix elmləri doktoru,*
*Bakı Dövlət Universitetinin professoru*

# HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAF STRATEGİYASININ BANİSİDİR

*"İqtisadi cəhətdən güclü olmayan dövlət özünün müstəqilliyini qoruyub saxlaya bilməz və dünyada söz sahibi ola bilməz".*
**Heydər Əliyev**

*Sovet İttifaqının süqutu və Azərbaycanın öz dövlət müstəqilliyini əldə etməsindən bir neçə il sonra ölkəmizin sosial-iqtisadi inkişafı sferasında əldə olunan bütün nailiyyətlər – iqtisadi və maliyyə potensialının artırılması, dayanıqlı infrastrukturun yaradılması, əhalinin sosial rifahının yaxşılaşdırılması, elmi-texniki sahədə tərəqqi və bütövlükdə sosial-iqtisadi inkişaf strategiyasının əsaslarının qoyulması XX əsrin böyük dövlət xadimi, dahi şəxsiyyət, xalqımızın Ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin adı ilə bağlıdır. Müstəqilliyini bərpa edən Azərbaycanın qarşısında bazar iqtisadiyyatı sisteminə keçmək və qlobal dünya iqtisadiyyatına inteqrasiya olunmaqla milli iqtisadiyyatı formalaşdırmaq və inkişaf etdirmək kimi strateji vəzifə dururdu. Elə buna görədir ki, hazırkı məqalədə Ümummilli liderimiz tərəfindən əsası qoyulan və bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu inkişaf strategiyasının xüsusiyyətlərini, formalaşma mərhələlərini, onun uğurla həyata keçirilməsini təmin edən başlıca faktor və şərtlərin tədqiq olunması və elmi-obyektiv prizmada qiymətləndirilməsi Heydər Əliyev irsinin öyrənilməsində və ölkəmizin gələcək inkişaf prioritetlərinin müəyyənləşdirilməsi, həyata keçirilməsi istiqamətində müstəsna əhəmiyyətə malikdir.*

*Açar sözlər:* Heydər Əliyev, Ümummilli lider, sosial-iqtisadi inkişaf, siyasi-iqtisadi sabitlik, neft strategiyası, Azərbaycan iqtisadiyyatı.

***Giriş.*** Yeraltı və yerüstü sərvətləri ilə zəngin olan, əlverişli geostrateji mövqedə yerləşən Vətənimiz daim iri dövlətlərin diqqətini cəlb etmiş, keçən əsrin 90-cı illərinin əvvəllərində yenicə müstəqilliyini bərpa etmiş Azərbaycanın istiqlaliyyəti, suverenliyi və ərazi bütövlüyü ilk vaxtlar təhdid altına düşmüş, sistemli sosial-iqtisadi inkişaf strategiyası olmadığına görə ölkə iqtisadiyyatı dəfələrlə böhranlarla üzləşmiş, xalqımız layiq olduğu həyat səviyyəsinə nail ola bilməmişdir. Zəngin təbii resurslara malik olmasına baxmayaraq, qətiyyətli bir siyasi liderin olmaması səbəbindən ölkədə nə siyasi, nə də iqtisadi münasibətlər rasional şəkildə tənzimlənməmiş, mövcud potensialdan səmərəli şəkildə istifadə edilməmiş, nəticədə xalqımız müxtəlif böhran və fəlakətlərlə üzləşmişdir. Məhz belə bir ağır dönəmdə, Azərbaycanın dərin iqtisadi böhran mərhələsinə qədəm qoyduğu bir tarixi şəraitdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev ölkəmizdə nəinki yeni dövlətçilik ənənələrinin, demokratik və dünyəvi dövlət quruluşunun, həm də uğurla icra edilən və gələcək nəsillərə ötürülən sosial-iqtisadi inkişaf strategiyasının əsasını qoymuşdur. Ümummilli lider Heydər Əliyevin

təkcə 1993-2003-cü illərdə deyil, həmçinin sovet dönəmində (1969-1982-ci illər) Azərbaycana rəhbərliyi zamanı Respublikanın sosial-iqtisadi vəziyyətinin statistik təhlili bir daha göstərir ki, o, ölkəmizi üzləşdiyi çətinliklərdən, ağır vəziyyətdən çıxarmaq üçün qətiyyətli addımlar atmış, uzaqgörənliklə, əsaslandırılmış şəkildə hazırlanan, respublikanın uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramlarının müəllifi olmaqla onların icrasına tam nail olmuşdur. Belə ki, Heydər Əliyev 1969-cu ildə ölkə rəhbəri seçilən vaxt Sovet Azərbaycanı öz iqtisadiyyatına görə digər müttəfiq ölkələri ilə müqayisədə xeyli geri qalırdı. Məsələn, 1960-1969-cu illərdə taxıl istehsalında məhsuldarlıq 10,4 sentnerdən 9,5 sentnerə, pambıqda 16,6-dan 15,1 sentnerə düşmüşdür [10]. Həmin illərdə əsaslı infrastruktur islahatları həyata keçirilməmiş, kadr siyasəti düzgün formalaşdırılmamış, sosial sahələrin inkişafı üçün zəruri addımlar atılmamışdır. Belə bir dövrdə Azərbaycana rəhbərliyə başlayan Heydər Əliyev qısa müddət ərzində ölkə iqtisadiyyatını dərindən və kompleks şəkildə təhlil edərək geriliyin əsas səbəblərini üzə çıxarmağa nail olmuş, iqtisadiyyatın hərtərəfli inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün yeni inkişaf strategiyaları, proqramlar hazırlanmış, mərhələli şəkildə onların icrasına başlanılmışdır. Hər bir məsələyə xüsusi həssaslıqla yanaşan Ümummilli lider strateji xətti və prioriteti yüksək peşəkarlıqla müəyyənləşdirməklə ölkənin sosial-iqtisadi inkişaf modelini yaratmağa müvəffəq olmuşdur. Nəticədə, ölkə iqtisadiyyatı böhrandan çıxmış, onun bütün sahələrində istehsalın sürətlə artması müşahidə olunmuş, iqtisadi və sosial inkişafın ümumiləşdirici göstəricisi olan milli gəlir 1969-1982-ci illərdə 2,5 dəfə artmışdır. Bu illər ərzində sənaye məhsulları istehsalının real həcmi 2,7 dəfə artmış, ölkə sənayesi keçmiş İttifaqın bütün respublikaları arasında daha yüksək sürətlə - orta illik artımı 7,9 faiz olmaqla inkişaf etmiş, sənaye istehsalının ümumi həcmi 1970-ci ilədək olan 25 illik dövrün istehsalını 2,0 dəfə üstələmişdir [10].

***Əsas hissə.*** XX əsrin sonlarında müstəqilliyini bərpa edən Azərbaycanın qarşısında yeni iqtisadi münasibətlər sisteminə olan bazar iqtisadiyyatına keçid etmək, dünya iqtisadiyyatına inteqrasiya olunmaqla milli iqtisadiyyatı formalaşdırmaq və inkişaf etdirmək kimi mühüm strateji vəzifə durur-du. Məhz həmin dönəmdə xalqın mütləq səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev bacarıqlı siyasi lider kimi dünyada baş verən ziddiyyətli siyasi, iqtisadi, hərbi, qlobal, regional prosesləri uzaqgörənliklə qiymətləndirmiş, ölkəmizin böhran vəziyyətindən çıxaraq sosial-iqtisadi inkişaf yoluna qədəm qoymasını təmin etmiş, daxili və xarici təhlükəsizliyini, iqtisadi rəqabətlilik qabiliyyətini təmin etmək üçün ən optimal qərarlar qəbul etmiş və onları əməli olaraq reallaşdırdırmışdır.

Məlum olduğu kimi, hər bir ölkə özü üçün fərqli sosial-inkişaf strategiyası yolunu seçir. Bu baxımdan Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasını tədqiq edərkən görürük ki, bu strategiya ölkəmizin malik olduğu təbii, iqtisadi, əmək resursları balansına, texnoloji inkişaf səviyyəsinə, insan kapitalının inkişaf dərəcəsinə, milli mentalitetin xüsusiyyətlərinə, iqtisadi inkişafın sosial yönümünə, cəmiyyətin qarşısında duran sosial-iqtisadi məqsəd və hədəflərin reallaşdırılması prinsiplərinə uyğun olan milli iqtisadiyyata əsaslanır. Bütün bu xüsusiyyətləri nəzərə aldıqda belə qənaətə gəlmək olar ki, Ümummilli lider Heydər Əliyev 1993-2003-cü illər ərzində müstəqil Azərbaycanın milli iqtisadi inkişafının formalaşmasının çox uğurlu və gələcək inkişafa istiqamətlənmiş keçid modelinin əsaslarını müəyyənləşdirməklə onun əməli cəhətdən tam reallaşmasını təmin etmişdir [7, s.6].

Müstəqilliyin ilk onilliyində Azərbaycanda milli iqtisadiyyatın formalaşdırılması ilə bağlı Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi nəhəng miqyaslı işləri daha aydın təsəvvür etmək üçün həmin dövrün sosial-iqtisadi və siyasi vəziyyətini təhlil etmək mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, 1992-1994-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20%-nin işğal olunması, ictimai-siyasi sabitliyin pozulması, ölkə rəhbərliyinin tez-tez dəyişməsi 90-cı illərin əvvəlindən etibarən iqtisadiyyatın əksər sahələrində istehsalın tənəzzülünə və bu halın getdikcə daha da dərinləşərək böhran xarakteri almasına səbəb olmuşdu. 1991-1995-ci illərdə ölkədə istehsal müəssisələrinin böyük əksəriyyəti fəaliyyətini dayandırmış və ya öz gücünün 15-20%-i səviyyəsində işləmişdir. Həmin illərdə sənayedə illik geriləmə 20-24%-ə, kənd təsərrüfatında 15- 20%-ə, əsaslı vəsait qoyuluşunda 40%-ə düşmüş, istehlak mallarının qiymətinin ildə 14-18 dəfə artması sosial-iqtisadi sahəyə dağıdıcı təsir göstərmişdi. Ümumilikdə respublikada 1991-1995-ci illərdə ÜDM 58%, sənaye məhsulu 67%; kənd təsərrüfatı məhsulu 48%; əsaslı vəsait qoyuluşu 48,5% azaldığı halda, Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz makroiqtisadi sabitləşmə tədbirləri sayəsində 1997-

2003-ci illərdə ÜDM 74,8%, sənaye məhsulu 30,8%, kənd təsərrüfat məhsulu 58,0%, əsaslı vəsait qoyuluşu isə 4,7 dəfədən çox artmış, adambaşına düşən ÜDM-in həcmi 1993-cü ildə 179,9 dollar, 1995-ci ildə 319,3 dollar olduğu halda, bu rəqəm 2003-cü ildə 4,9 dəfədən çox artaraq 879,7 dollara, xarici ticarət dövriyyəsinin həcmi 4 dəfə artaraq 5,28 milyard dollara çatmış, habelə ticarət dövriyyəsinin ümumi strukturunda idxal 3,9 dəfə, ixrac isə 4,1 dəfə artmışdır [7, s.14].

Bu da həqiqətdir ki, siyasi sabitliyə nail olmadan həmin dövrdə nə böhrandan səmərəli çıxış, nə də sabitləşmə siyasətini həyata keçirmək mümkün deyildi. Öz növbəsində, iqtisadi sabitləşmənin təmin edilməsi islahatların müvəffəqiyyətlə həyata keçirilməsinin ən başlıca və ilkin şərti idi. Çünki makroiqtisadi sabitləşməni təmin etmədən iqtisadi artıma, milli iqtisadiyyatın formalaşdırılmasına və nəhayət, bazar münasibətlərinə keçidin mühüm şərti olan müvafiq iqtisadi mühitin yaradılması məqsədilə həyata keçirilən zəruri tədbirlərin heç biri əməli səmərə verməyəcəkdir. Ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə yenidən gəldikdən sonra müstəqilliyin ilk illərində ölkəmizin qarşısında duran problemlərin ağırlığını və xalqın qarşısında məsuliyyətini xüsusi vurğulayaraq Azərbaycan Respublikası Milli Məclisinin 15 iyun 1993-cü il tarixli iclasındakı çıxışında demişdir: "***Heç kimin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini, harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişafına həsr edəcəyəm***" [8, s.135]. Fövqəladə zəkaya və xalq arasında böyük nüfuza sahib olan bu dahi şəxsiyyət ümumxalq səsverməsi yolu ilə prezident seçildikdən sonra, 1993-cü il oktyabrın 10-da andiçmə mərasimindəki proqram xarakterli çıxışında yeni cəmiyyət quruculuğunun başlıca konturlarını dəqiqləşdirdi. Heydər Əliyev xüsusi olaraq bəyan etdi ki, Azərbaycanda sərbəst bazar iqtisadiyyatı və demokratik prinsiplərə uyğun olaraq ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək, müstəqil fəaliyyət göstərən hüquqi dövləti, vətəndaş cəmiyyətini və milli iqtisadiyyatı formalaşdıracağıq. Məhz bu dövrdən Azərbaycanda ictimai-siyasi sabitliyin, sosial-iqtisadi inkişafın təməli qoyuldu. Aydındır ki, ölkədə yaradılan siyasi sabitlik genişmiqyaslı əsaslı islahatlar aparmağa imkan verdi. Ümummilli liderimiz yaxşı bilirdi ki, müstəqilliyi qoruyub saxlamaq, inkişaf etdirərək əbədi bir prosesə çevirmək onu əldə etməkdən qat-qat çətindir. Bu məqsədlə sisemin transformasiyası ilə bağlı bütün siyasi, iqtisadi münasibətləri keyfiyyətcə yenidən qurmaq üçün, hər şeydən əvvəl, ölkənin əsas qanunu olan Konstitusiyanı yaratmaq zəruri oldu. 1995-ci ilin noyabrında baş memarı Heydər Əliyev olan Azərbaycan Respublikası Konstitusiyasının qəbulu ölkədə həyata keçirilməsi nəzərdə tutulan sosial, siyasiiqtisadi islahatlar üçün normativ-hüquqi və institusiona) baza yaratdı. Heydər Əliyevin böyük səyi, iradəsi və idarəçilik məharəti sayəsində ölkədə qısa bir müddət ərzində əldə olunan sosial-iqtisadi, siyasi sabitlik, habelə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu iqtisadi sistemin transformasiyası ilə bağlı aparılması nəzərdə tutulan iqtisadi islahatların qanunvericilik bazasının yaradılmasına, sosial-iqtisadi inkişafda prioritetlərin seçilməsinə, cari və perspektiv məqsədlər nəzərə alınmaqla onların reallaşdırılmasının taktika və strategiyasını müəyyənləşdirməyə imkan verdi [7, s.15].

Ulu öndər Heydər Əliyev bütün bacarığını səfərbər edərək qısa zamanda ölkədə baş alıb gedən tənəzzülü dayandıraraq tərəqqiyə nail oldu. Ölkədə mövcud olan problemlər tədricən həllini tapdı, iqtisadi və siyasi sabitlik təmin olundu və beləliklə də iqtisadi inkişafın sürətləndirilməsi, ölkəmizin beynəlxalq arenada nüfuzunun artırılması, Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılması və s. istiqamətlərdə konkret proqram və layihələrin işlənib hazırlanmasına başlanıldı. Başqa sözlə desək, siyasi-iqtisadi sabitliyə nail olmaq və Azərbaycanı dünyaya tanıtmaq qarşıda duran ən mühüm vəzifələrdən idi. Ona görə də, əldə edilmiş nailiyyətlər ölkə daxilində milli birliyin təmin olunması ilə yanaşı, həm də dünya azərbaycanlıları arasında həmrəyliyin güclənməsinə səbəb oldu. Bu isə öz növbəsində, müxtəlif ölkələrdə yaşayan soydaşlarımızı daha da ruhlandıraraq onların ölkəmizin milli maraqları ətrafında sıx birləşmələri üçün ciddi zəmin yaratdı. Təbii ki, xaricdə yaşayan həmvətənlərimizin bir ideya ətrafında birləşdirilməsi ölkənin inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu gün onlar dünyanın harasında yaşamalarından asılı olmayaraq Azərbaycanla fəxr edir, onun uğurlarından qürur duyur və fərəh hissi keçirirlər. Bütün bunlara görə, həm də milli birliyə və dünya azərbaycanlılarının həmrəyliyinə nail olduğumuz üçün Ümummilli liderimiz Heydər Əliyevə borcluyuq [2, s.7].

Heydər Əliyevin bilavasitə rəhbərliyi və fəal iştirakı ilə 1993-cü ilin sonundan başlayaraq respublikamızda intensiv olaraq iqtisadi prosesləri tənzimləməyə dair qanunlar, normativ aktlar qəbul

olunmağa başlanıldı. Bu proses, hər şeydən əvvəl, maliyyə sisteminin tənzimlənməsindən başlamışdır. Belə ki, 1993-cü il dekabrın 11-də "Azərbaycan Respublikası milli valyutanın respublika ərazisində yeganə ödəniş vasitəsi elan olunması haqqında", daha sonra, 17 yanvar 1994-cu ildə Azərbaycan Respublikasında pul dövriyyəsinin yaxşılaşdırılması üzrə əlavə tədbirlər haqqında", 1995-ci ilin fevralın 26-da "Azərbaycan Respublikasında milli valyuta tənzimlənməsinin sərbəstləşdirilməsi haqqında", 24 sentyabr 1996-cı ildə "İqtisadiyyatda qarşılıqlı hesablaşmalarda yaranmış vəziyyətin aradan qaldırılması və maliyyə intizamının möhkəmləndirilməsi haqqında" fərmanlar verilmişdir [7, s.20].

Unudulmaz tarixi şəxsiyyət olan Heydər Əliyev bütün fəaliyyəti dövründə xaricdə yaşayan soydaşlarımızın birliyi və təşkilatlanması məsələsini daim diqqət mərkəzində saxlayaraq dünya azərbaycanlılarının vahid məqsəd ətrafında birləşdirilməsinə səy göstərmiş və buna nail olmuşdur. Bu baxımdan Ümummilli lider Heydər Əliyevin müvafiq sərəncamı ilə Bakı şəhərində keçirilmiş Dünya Azərbaycanlılarının I qurultayı böyük əhəmiyyət kəsb etdi. Qurultay xaricdə yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında birləşərək təşkilatlanması istiqamətində yeni mərhələnin başlanğıcını qoydu. Qeyd etdiyimiz kimi, təşkilatlanma prosesi, dünya azərbaycanlılarını bir araya gətirmək təklifi ulu öndərimiz Heydər Əliyev tərəfindən irəli sürülmüşdür. Heydər Əliyevin həyat və fəaliyyəti Azərbaycan xalqına xidmət etməkdən, Azərbaycanı inkişaf etdirməkdən ibarət olmuşdur. Bu gün Heydər Əliyev ideyalarına sadiq qalan Azərbaycan Prezidenti cənab İlham Əliyev də xarici ölkələrdə yaşayan azərbaycanlıların problem və qayğılarını daim diqqət mərkəzində saxlayır. Soydaşlarımızla əlaqələri daha da möhkəmləndirmək və qarşıda duran vəzifələri müzakirə etmək məqsədilə Dünya Azərbaycanlılarının II qurultayının keçirilməsi bunun bariz nümunəsidir. Qurultay Azərbaycanın sürətli inkişafı və beynəlxalq arenada siyasi mövqeyinin daha da gücləndirilməsi istiqamətində tarixi işlərin görülməsinə şərait yaratmışdır. Məhz dünya azərbaycanlılarının, ümumilikdə türk diaspor təşkilatlarının bir amal uğrunda birləşdirilməsinə xidmət edən qərarların qəbul edilməsinin və bu istiqamətdə görülən genişmiqyaslı tədbirlərin nəticəsidir ki, artıq dünyada güclü, öz sözünü deyə bilən, siyasi proseslərə təsir etmək iqtidarında olan diaspor təşkilatları formalaşdırılmışdır [2, s.7].

Müstəqilliyimizin ilk illərində dahi rəhbər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin və ölkə iqtisadiyyatının labüd fəlakətdən, hərc-mərclikdən xilas edilməsi istiqamətində mühüm addımlar ataraq ölkəmizin iqtisadi yüksəlişi üçün təcili tədbirlər görməyə başladı ki, bu zaman keçmiş Sovetlər İttifaqının süqutu ilə iqtisadi əlaqələrin dağılmasından sonra milli iqtisadiyyatın dirçəldilməsi üçün ölkənin malik olduğu təbii resurslardan istifadə edilməsi və milli məhsulların xarici bazarlara çıxışının təmin olunması mühüm əhəmiyyət kəsb edirdi. Belə bir dövrdə Azərbaycanın zəngin neft ehtiyatlarının mövcudluğunu nəzərə alan Ümummilli lider Heydər Əliyev ilk vaxtlardan başlayaraq danışıqlar prosesinə o zaman Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti olan İlham Əliyevi də cəlb etdi. Beləliklə, cənab İlham Əliyev yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata keçirilməsinin ən fəal iştirakçılarından oldu. Onun bütün fəaliyyətinin mərkəzində özünün dəfələrlə vurğuladığı kimi bir ideya dururdu: "***Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyildir. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir***" [3, s.1]. 1994-cü ilin 20 sentyabrında Bakıda, "Gülüstan" sarayında ARDNŞ ilə dünyanın 11 böyük neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda olan "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından birgə neft çıxarılması haqqında ilk neft müqaviləsi imzalandı. Bu beynəlxalq müqavilənin imzalanması bütün dünyada böyük əks-səda doğurdu [11, s.224]. Müqaviləni imzalayan şirkətlər ABŞ-ın "Amoko", "Yunokal", "Penzoyl", "Ekson", Böyük Britaniyanın "Britiş Petroleum", "Remko", Rusiyanın "Lukoyl", Norveçin "Statoyl", Türkiyənin "Türk petrolları", Səudiyyə Ərəbistanının "Delta", Yaponiyanın "İtoçu" şirkətləri idi [12, s.36]. "Əsrin müqaviləsi" adlandırılan bu tarixi sənədin imzalanması ilə Azərbaycanın yeni neft strategiyası uğurla həyata keçirilməyə başlandı. Müqavilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi. Ölkəmizin iqtisadi inkişafında əvəzsiz rol oynayan "Əsrin müqaviləsi" üzrə ilkin neft 12 noyabr 1997-ci ildə hasil edilməyə başlandı. Təqribən 730 milyon ton neft və 200 milyard kubmetrə yaxın təbii qaz ehtiyatına malik olan yataqlarda görüləcək işlərə 12-14 milyard ABŞ dollarına yaxın investisiya qoyuluşu nəzərdə tutulurdu ki, bu da

müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikası üçün çox vacib məsələ idi. Təkcə bir faktı qeyd edək ki, 1995-ci ildən başlayaraq ölkə iqtisadiyyatında sabitlik yarandıqdan sonra ölkəmizə xarici investisiya qoyuluşu sürətlə artaraq 10 milyard dollara çatmışdır. Bunun da 60%-dən çoxu (6,1 milyard dollar) xarici kapitalın payına düşür. 1996-2001-ci illərdə ölkədə fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin sayı 717-dən 1974-ə, müəssisələrdə çalışanların sayı isə təxminən 15 min nəfərdən 25 min nəfərə çatmışdır. Göstərilən müddətdə, eyni zamanda, xarici investisiyalı müəssisələrin ödədiyi vergilərin payı, cəmi vergi daxilolmalarında 9,3%-dən 19,7%-ə yüksəlmişdir. Ümumilikdə isə, 1996-2001-ci illərdə həmin müəssisələr vergi və sosial ayırma şəklində büdcəyə təqribən 600 milyon dollar, sosial fondlara isə 400 milyon dollara yaxın vəsait ödəmişlər [4, s.3].

1994-cü ildə "Əsrin müqaviləsi"nin bağlanılması ilə ölkəmizdə neft resurslarından səmərəli istifadənin optimal bir modeli yaradıldı. Məhz onun nəticəsidir ki, bu gün Azərbaycanın neft strategiyası ölkəmizin sosial-iqtisadi inkişafının lokomotivinə çevrilmişdir.

"Əsrin müqaviləsi" üzrə hasil edilən Azərbaycan neftinin dünya bazarlarına ixracı üçün ilkin dövrlərdə Bakı-Novorossiysk və Bakı-Supsa neft boru kəmərlərindən istifadə olunurdu. Lakin yaxın illərdə müqaviləyə daxil olan yataqlar üzrə illik hasilatın 50 milyon tona çatdırılacağını nəzərə alan Azərbaycan Prezidenti ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə daha böyük nəqletmə imkanına malik ixrac marşrutları araşdırıldı və optimal variant kimi Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri seçildi. Məhz buna görə də layihənin həyata keçirilməsində fenomen siyasətçi Heydər Əliyevin əvəzsiz xidmətlərini nəzərə alan layihə iştirakçıları 2004-cü ildə BTC əsas ixrac boru kəmərinə Heydər Əliyevin adının verilməsi barədə qərar qəbul etdilər. Beləliklə də, "Üç dənizin əfsanəsi" adlanan BTC layihəsi reallığa çevrilərək xalqımızın maddi-rifah halının yaxşılaşdırılması və doğma Azərbaycanın qüdrətli dövlət olmasına öz töhfəsini verməkdədir. Heydər Əliyevin 2002-ci il sentyabrın 18-də demişdir: ***"...Bu yaxın vaxtlarda İstanbulda, «Üç dənizin əfsanəsi» adlı konfrans keçirildi. Orada əfsanə haqqında söhbət keçirildi. Mən orada nitq söylədim, dedim, siz burada əfsanədən danışırsınız. Amma mən sizə demək istəyirəm ki, bu xəyal deyil, əfsanə deyil. Üç dəniz – Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi birləşəcəkdir... Ona görə indi xəyaldan gerçəkliyə gəlib çatmışıq*** " [11, s.416].

Ümumilikdə neft strategiyası ilə sürət götürən Azərbaycan iqtisadiyyatının inkişaf dinamikası sonrakı illərdə daha genişmiqyaslı formada davam etdirildi. 1995-1998-ci illər əsasən müvafiq normativ hüquqi bazanın yaradılması ilə yadda qalsa da, bu dövr həm də dövlət mülkiyyətinin özəlləşdirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi və d. istiqamətlərdə Dövlət Proqramları da qəbul edilmişdir. Bazar iqtisadiyyatı şəraitində iqtisadi inkişafın əsas amilinin özəl mülkiyyət və sahibkarlığın müxtəlif formalarının təşəkkül tapması olduğunu çox düzgün qiymətləndirən dahi şəxsiyyət Heydər Əliyev ölkəmizdə sabitliyə nail olunan kimi sahibkarlığın inkişaf etdirilməsinə xidmət edən qərarlar qəbul etdi. Bu sahədə görülən işlərin əsl mahiyyətini daha yaxşı anlamaq üçün Ümummilli lider Heydər Əliyevin 1996-cı ildə söylədiyi bir fikri yada salmaq yerinə düşərdi: "***Bir Prezident kimi mən iqtisadiyyatda dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara bərabərlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılması zəruridir. Bu, dövlət siyasətimizin əsas prinsipləridir***" [6, s.4]. Məhz bu diqqət və qayğının nəticəsidir ki, ölkədə yerli sahibkarlıq fəaliyyəti ildən ilə daha da genişlənir, möhkəmlənir və dövlət büdcəsinin əsas gəlir mənbələrindən birinə çevrilir. Artıq başlıca məqsəd bu mühüm sahənin inkişafını genişləndirməklə ölkənin sosial-iqtisadi inkişafında əhəmiyyətini artırmaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün Heydər Əliyev təkcə 2002-ci ilin avqust-sentyabr aylarında altı mühüm fərman imzalamışdır. Bu tarixi fərmanların qəbul edilməsi mahiyyət etibarı ilə, ilk növbədə ölkəmizin sosial-iqtisadi durumunun keyfiyyətcə yeni inkişaf mərhələsinə qalxmasında böyük potensiala malik milli sahibkarlığın qarşısında konkret vəzifələr qoyaraq onun həlledici rolunu daha da gücləndirdi. Məhz həmin dövrdə məqsədyönlü formada həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, artıq sahibkarlıq iqtisadiyyatın aparıcı sahələrindən birinə çevrilərək istər məşğulluğun təmin olunması, istərsə də büdcə gəlirlərinin artırılması istiqamətində öz bəhrəsini verməkdədir [5, s.3].

Azərbaycan müstəqil dövlətə çevrildikdən sonra özünün bütün yeraltı, yerüstü və təbii sərvətlərinin və insan potensialının şəriksiz sahibinə çevrildi. Qloballaşma şəraitində çağdaş və gələcək nəsillərin maraqları naminə ölkənin malik olduğu bütün resurslardan səmərəli istifadə edərək onların hər vahidi hesabına maksimum son nəticə əldə etməklə davamlı inkişafa nail olunması ölkəmizdə yaxın gələcək üçün müəyyənləşdirilən iqtisadi strategiyanın əsas prioriteti oldu. Bu prosesləri uzaqgörənliklə hiss edən Heydər Əliyev BMT-nin təşəbbüsü ilə 2000-ci ilin sentyabr ayında Nyu-York şəhərində keçirilən "Minilliyin Forumu"ndakı çıxışında davamlı inkişafın təmin olunmasında qloballaşmanın rolunu çox düzgün xarakterizə edərək demişdir: "***Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb və heç də birmənalı olmayan prosesin perspektivləri bizim hamımızı düşündürür. Qloballaşma dövlətlərin davamlı inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəlməsinə kömək etməlidir***" [9, s.37-38].

***Nəticə.*** Son illərdə sosial-iqtisadi inkişafda böyük nailiyyətlər əldə edən və dünyəvi dövlət quruculuğunun uğurla həyata keçirildiyi Azərbaycanın beynəlxalq nüfuzu durmadan artır və geostrateji əhəmiyyəti getdikcə yüksəlir. Ölkəmiz Cənubi Qafqaz regionunun aparıcı dövlətinə çevrilmişdir. Azərbaycanın milli iqtisadiyyatın formalaşdırılması və inkişafı sahəsində əldə etdiyi uğurlar əyani şəkildə təsdiq edir ki, Ümummilli liderimiz Heydər Əliyevin bilavasitə təşəbbüsü, iştirakı və rəhbərliyi ilə formalaşdırılan və həyata keçirilən iqtisadi siyasət mövcud reallıqlar şəraitində ən optimal, rasional və başlıcası isə gələcəyə istiqamətlənmiş alternativi olmayan siyasətdir. Məhz Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda dövlətçilik ənənələri qurulmuş, müstəqilliyimiz möhkəmlənmiş, zəruri siyasi-iqtisadi islahatlar aparılmış, demokratik proseslər sarsılmaz xarakter almışdır. Azərbaycan tarixinin ən böyük dühalarından biri olan Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və ölkəmizin dövlətçilik tarixində yeni mərhələnin əsasını qoymuş sosial-iqtisadi inkişaf kursu 2003-cü il oktyabrın 31-dən başlayaraq onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uzaqgörənliklə, yaradıcılıqla inkişaf etdirilir. İlham Əliyevdə siyasi lider üçün zəruri keyfiyyətlərin olduğunu böyük müdrikliklə və dəqiqliklə hiss edən Heydər Əliyev qeyd etmişdir: "***O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm***" [1, s.3]. Cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçildiyindən ötən dövr ərzində dövlət müstəqilliyimizin möhkəmləndirilməsi, milli sahibkarlığın, milli istehsalın, regionların inkişafı əsasında ölkəmizdə dünyəvi, demokratik-hüquqi dövlətin formalaşdırılması, dünya iqtisadiyyatına səmərəli inteqrasiya olunması, iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində gördüyü çoxşaxəli titanik işlər, nəhayət, sosial-iqtisadi inkişafda əldə olunmuş yüksək nəticələr birmənalı sübut edir ki, Ümummilli lider öz seçimində əsla yanılmamışdır. Prezident İlham Əliyevin son 20 il ərzində həyata keçirdiyi uğurlu iqtisadi siyasət sayəsində Azərbaycanda milli iqtisadiyyatın dinamik və tarazlı inkişafı təmin olunmuşdur. Əlverişli biznes və investisiya mühitinin formalaşdırılması, enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, həm neft, həm də qeyri-neft sektorunun inkişafı, işsizlik və yoxsulluq kimi problemlərin həlli və d. sahələrdə əldə olunan böyük nailiyyətlər ilk növbədə ölkəmizdə müstəqillik illərində əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyən olunmuş iqtisadi siyasətin məntiqi nəticəsidir.

## ƏDƏBİYYAT

1. "Azərbaycan" qəzeti, № 89, 7 may 2020.
2. "Xalq" qəzeti, 14 may 2009.
3. "Xalq" qəzeti, 13 sentyabr 2009.
4. "Xalq" qəzeti, 6 may 2010.

5. “Xalq” qəzeti, 22 may 2011.
6. “Respublika” qəzeti, № 217, 3 oktyabr, 2019.
7. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası. Bakı, “Şərq-Qərb”, 2019, 328 s.
8. Cəfərov N., Çobanov M., Paşayeva Q. Azərbaycanşünaslığın əsasları. Bakı, AzAtaM, 2013, 352 s.
9. Davamli inkişafin sosial və fəlsəfi problemləri. Bakı, Elm və təhsil, 2019, 312 s.
10. Heydər Əliyev Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasının banisidir - https://www.yeniazerbaycan.com/Siyaset_e34690_az.html [Müraciət tarixi: 15.04.2023].
11. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, “Təhsil”, 2004, 472 s.
12. Muxtarova Ə. Heydər Əliyev Azərbaycanda demokratik, dünyəvi dövlət quruculuğunun banisidir. Tarix və onun problemləri, №2, 2022, s.34-39.

**АСМЕД МУХТАРОВА**
*Профессор Бакинского Государственного Университета*

## ГЕЙДАР АЛИЕВ – ОСНОВОПОЛОЖНИК СТРАТЕГИИ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ НЕЗАВИСИМОГО АЗЕРБАЙДЖАНА

Через несколько лет после распада Советского Союза и обретения Азербайджаном независимости все достижения в сфере социально-экономического развития нашей страны – увеличение экономического и финансового потенциала, создание устойчивой инфраструктуры, улучшение социального благосостояния населения, прогресс в научно-техническая сфера и социально-экономическая в целом, закладывающие основы стратегии развития, связаны с именем великого государственного деятеля XX века, гениальной исторической личности, общенационального лидера азербайджанского народа Гейдара Алирза оглы Алиева. После восстановления независимости перед Азербайджаном встала стратегическая задача формирования и развития национальной экономики путем перехода к системе рыночной экономики и интеграции в глобальную мировую экономику. Поэтому характеристика этой стратегии развития, заложенной нашим общенациональным лидером и успешно продолжаемой сегодня Президентом Азербайджанской Республики Ильхамом Алиевым, этапы ее формирования, основные факторы и условия, обеспечивающие ее успешную реализацию, и оценка в научно-предметной призме в данной статье имеет исключительное значение в изучении наследия Гейдара Алиева, в определении и реализации будущих приоритетов развития нашей страны.

*Ключевые слова*: Гейдар Алиев, общенациональный лидер, социально-экономическое развитие, политико-экономическая стабильность, нефтяная стратегия, экономика Азербайджана.

**ASMAD MUKHTAROVA**
*Professor of Baku State University*

## HEYDAR ALIYEV IS THE FOUNDER OF THE SOCIO-ECONOMIC DEVELOPMENT STRATEGY OF INDEPENDENT AZERBAIJAN

A few years after the dissolution of the Soviet Union and Azerbaijan’s independence, all the achievements in the sphere of socio-economic development of our country – increasing the economic and financial potential, creating stable infrastructure, improving the social welfare of the population, progress in the scientific and technical field and socio-economic as a whole laying the foundations of the development strategy is connected with the name of Heydar Alirza oglu Aliyev, a great statesman of the XX century, a genius historical figure, the national leader of Azerbaijani people. Having regained its independence, Azerbaijan faced the strategic task of forming and developing the national economy by transitioning to a market economy system and integrating into the global world economy. Therefore, the characteristics of this development strategy, which was founded by our

national leader and which is successfully continued today by the President of the Republic of Azerbaijan Ilham Aliyev, the stages of its formation, the main factors and conditions that ensure its successful implementation, and evaluation in the scientific-objective prism in this article has exceptional importance in the study of Heydar Aliyev's legacy and in determining and implementing the future development priorities of our country.

*Keywords:* Heydar Aliyev, national leader, socio-economic development, political and economic stability, oil strategy, Azerbaijan's economy.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*




**UOT 94**

**İSMAYIL MƏMMƏDOV**
*Bakı Dövlət Universitetinin professoru*
**ismayılmammadov@bsu.edu.az**

**ELŞAD QULİYEV**
*Bakı Dövlət Universitetinin magitrantı*
**elshadquliyev105@gmail.com**

# TÜRK DÜNYASINA İNTEQRASİYA: MACARISTANIN TARİXİ KÖKLƏRİNƏ QAYIDIŞI

*“Azərbaycanla Macarıstan arasındakı dostluq münasibətləri iki xalqın rifahı naminə daim inkişaf edəcək və genişlənəcək”.*

**Heydər Əliyev**

*Macarların mənşəyi tarix boyu həmişə maraqlı mövzu olmuşdur; Mövzu ilə maraqlanan tarixçilər, arxeoloqlar, antropoloqlar, dilçilər, elm adamları və ziyalılar müxtəlif fikir və mülahizələr irəli sürmüş, şərhlər vermişlər. İrəli sürülən fikirlər, fikir və mülahizələr arasında müxtəlif fikirlər mövcuddur. Macarların müxtəlif türk tayfaları ilə əlaqələrinin tarixi eramızın V əsrinə gedib çıxır. Macarlar 896-cı ildə indiki vətənlərində məskunlaşana qədər türk tayfaları ilə qarşılıqlı münasibətlər şəraitində yaşamışlar. 896-cı ildən sonra Kuman və Peçeneq tayfaları Macarıstanda məskunlaşdılar. Tarixi əlaqələrin son mərhələsi Macarıstanda Osmanlı hökmranlığı dövrüdür. V əsrdən 1686-cı ildə Budinin macarlar tərəfindən geri alınmasına qədərki dövrü Macarıstanın milli kimliyinə birbaşa türk təsiri dövrü kimi də adlandırmaq olar. Xüsusilə XIX əsrdə dövlət quruculuğu prosesi macarları öz milli kimlikləri haqqında düşünməyə məcbur etdi. Şərq mənşəli olması, qeyri-hind-Avropa dilindən istifadə etməsi və türklərlə qohumluq ideyası macar milli kimliyinin digər Avropa xalqlarından fərqli olaraq formalaşmasına səbəb olmuşdur. Türklərlə qohumluq ideyası XIX əsr macar ziyalılarının iki hissəyə bölünməsinə səbəb oldu: Birinci qrup macarların türklərlə qohum olduğunu, digər qrup isə macarların fin-uqor tayfası olduğunu iddia edir. Bu müzakirələr bu gün də davam edir. Macar milli kimliyinin formalaşmasında türklərlə qohumluq ideyası böyük rol oynamışdır. Müasir dövrdə Macarıstanın türk dünyası birliyi ilə əlaqələrinin genişlənməsi, inteqrasiya proseslərini bu əlaqələrin tarixi davamı kimi qiymətləndirə bilərik. Məqalədə Macarıstanın qədim dövrdən bəri türk xalqları ilə əlaqələri,müasir dövr türk dünyası dövlətləri ilə əlaqələri araşdırılacaqdır.*

*Açar sözlər*: Macarlar, Milli Kimlik, Etnik Formasiya, Macarıstan-Türk dövlətləri münasibətləri, Etnogenetika, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası

***Giriş***. Macarlar dünyanın ən qədim xalqlarından biridir, uzun tarixi inkişaf yolu keçmiş bu xalqın tarix boyu formalaşmasında bir çox xalqlar iştirak etmişdir. Macarların etnik kimliyinin formalaşmasında türklərin rolu böyük olmuşdur. Bu proses uzun bir tarixi dövrü əhatə edərək, macarların tarixi, dili, mədəniyyəti, etnoqrafiyası və digər sahələrdə izlərini qoymuşdur. Macarların

etnik kimliyinin formalaşmasında ilk olaraq hun tayfaları iştirak etmişdir. Hun mərhələsindən sonra macarların soykökünün formalaşmasında hun-uqor qatı yer alır. Növbəti mərhələ isə bulqarların adı ilə bağlıdır [6, s.61]. Bugünkü macar dilində əkinçilik, kənd təsərrüfatı alətlərinin əksəriyyəti məhz bulqar türkcəsindədir. Müasir dövrdə Macarıstanın türk dövlətləri ilə əlaqələrinə baxdıqda bu dövlətlərin qarşılqlı münasibətlərinin artan xətt üzrə inkişaf etdiyi aydın görünür.

***Hun-macar etnik əlaqələri***. Hun-macar əlaqələrinin tarixinə dair ilkin mənbələr dini salnamələrdir. Bu salnamələrdən biri Saray keşişi Simon Kezainin salnamələrində yazdığı macarların meydana çıxması haqqında rəvayətə görə: Hunor (Hun eri) və Magor (Macar) Azov dənizinin şimalında birlikdə yaşayardılar. Lakin macarların məlum olan ən qədim vətəninin Azov dənizindən kifayət qədər uzaqda olması onu deməyə əsas verir ki, bu əfsanə Arpad nəslindən olan macar padşahları Atilla ilə daha çox hunlarla qohumluq əlaqəsi yaratmaq üçün yazılıb. Macar türkoloqu Rásonyi macarların mənşəyi ilə bağlı türklərlə qohumluq əlaqələri qurmaqla yanaşı, türkləri macarların atası, fin-uqorları isə macarların anası kimi müəyyən etmişdir [3, s.1-7].

Asiya və Avropanın etnik-siyasi tarixində mühüm rol oynamış və mənbələrdə jun, hunnu, hun adlandırılan türk tayfaları Mərkəzi Asiyanın ən qədim yerli sakinləri idilər [5, s.8]. Hunlar Avropa anlayışının yaradıcısı, indiki Avropanın etno-siyasi və coğrafi mənzərəsinin memarı hesab edilirlər. Hunlar Macarıstan da daxil olmaqla Avropaya feodalizmi gətirmiş və Avropa tarixində böyük rol oynamışdır [4, s.12].

Hunların Avropada və Qafqaz bölgəsində məskunlaşması etnik proseslərdə, tarixi hadisələrin inkişafında kəskin dəyişikliklər yaratdı. Bəhs edilən bölgələrdə hunların təsirlərini yer adlarında, məişət həyatında görmək mümkündür [2, s.35]. Hunların Macarıstana entosiyasi təsirləri güclü olmuş, müasir dövrdə də bu vəziyyət Macarıstanın toponimiyasında özünü göstərir [7, s.43].

Uqor vətənində yaşayan macarlar qərb türkləri (ehtimal ki, onoqurlar) ilə əlaqə saxlayaraq və ya onlara məğlub olaraq türklərlə birlikdə yeni torpaqlarında məskunlaşdılar. Macarların əcdadları Ural dağlarının şərqində Magna Hungaria adlanan ilk vətənlərində (müasir Başqırdıstan torpaqlarında) yeddi macar tayfasına (Macar/Megyer, Nyek, Kurd-Gyarmat, Tarjan, Jenö, Ker və Keszi) mənsub idilər. Digər altı tayfa bu konfederasiyanın ən qədimi və güclüsü olan macar (macar) tayfasının ətrafında birləşdi və zaman keçdikcə bütün tayfalar macar adı ilə adlandırıldı. Macarların yerləşdiyi coğrafiyada Onoqurlar, Sabirlər və Göytürklər, macarlarla tez-tez ünsiyyətdə olmuşlar və bəziləri macarları təşkil edən tayfa adlarından da göründüyü kimi türk adlarını götürmüşlər [1, s.65].

***Müasir dövrdə macar-türk mədəni əlaqələri. Turan qurultayı.*** Macarıstan son illər türk dünyasında inteqrasiya prosesinə ciddi maraq göstərən bir Avropa ölkəsidir. Macarıstan vətəndaşları, ictimai fikir xadimləri, bu ölkənin alimləri, etnoqrafları Asiyaya dayanan soyköklərini axtarmaqdadırlar. Bunun əyani sübutu olaraq 2008-ci ildə Macarıstanın təşkilatçılığı ilə Turan qurultayını qeyd edə bilərik. [13]. Qurultayda Macarıstanın və digər türk dövlətlərinin bir çox səlahiyyətli nümayəndəsi iştirak etmişdi. Qurultayda Macar Turan Vəqfinin başqanı Androş Bironun çıxışı daha açıqmətnli – "diplomatiya buxovları"ndan azad idi:

"Biz böyük bir ailəyik – Hun-Türk kökənlilərin böyük ailəsi..! Birlikdə olmağımız sadəcə tariximizi yansıtmır, biz həm də öz gələcəyimizi birlikdə qururuq!.. Bu gün Hun-Türk kökənlilər öz torpaqlarında problemlər yaşayırlar; Azərbaycanın işğal altında olan Qarabağ bölgəsini unutmamalıyıq! Uyğurlar, Kıprıs türkləri, İraq və Suriya türkmanları böyük problemlər yaşayırlar – onları unutmamalıyıq..! Biz əlbəttə, nifrət deyil, sevgi göstərmək istəyirik. Qlobalistlər istəyir ki, dünyada sadəcə təktipli bir insan topluluğu yaratsınlar, lakin dünya rəngarəngdir, ayrı-ayrı xalqların varlığı ilə gözəldir. Biz Avropanın göbəyində yaşasaq da, öz soykökümüzü, öz mədəniyyətimizi əsla unutmadıq [21].

Biz eyni taleyi, eyni qədəri paylaşan qardaş xalqlarıq. Bizim aramızda işbirlikləri önəmlidir, lakin bizimki sadəcə işbirliyi deyil, eyni qanı daşıyan əqrabaların işbirliyidir. İşbirliyində portnyorlar dəyişə bilər, qohumluq bağları isə dəyişməz!".

Beləliklə, ayrı-ayrı türk ölkələrindən çoxsaylı insanların iştirakı ilə gerçəkləşən Turan Qurultayı, təkcə bir ictimai təşkilatın, bir ölkənin deyil, dünya türklüyünün maraq dairəsindədir, deyə bilərik.

***Macarıstan-Azərbaycan əlaqələri.*** Macarıstan Azərbaycan Respublikasının müstəqilliyini 26 dekabr 1991-ci ildə tanımışdır. Diplomatik münasibətlər 27 aprel 1992-ci ildə qurulmuşdur. Azərbaycanın Macarıstandakı Səfirliyi 1 sentyabr 2004-cü ildə təsis olunmuşdur. Macarıstanın

Azərbaycandakı Səfirliyi 12 yanvar 2009-cu ildə təsis olunmuşdur. Macarıstanın Baş naziri Viktor Orbanın 5-6 mart 2016-cı il, 14-15 oktyabr 2019-cu il tarixlərində Azərbaycan Respublikasına səfərləri baş tutmuşdur. [12]. 28 iyun 2016-cı il, 29 iyun 2018-ci il, 29 mart 2019-cu il, 17 iyul 2020-ci il, 10 mart 2021-ci il tarixlərində Macarıstan xarici işlər nazirinin Azərbaycan Respublikasına səfərləri baş tutmuşdur.

2023-cü il yanvarın 30-da Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstan Prezidenti xanım Katalin Novak ilə geniş tərkibdə görüşü olmuşdur [11]. Bu səfər çərçivəsində Azərbaycan və Macarıstan arasında iqtisadi-mədəni sahədə bir sıra sənədlər imzalandı [10].

Ölkə Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Macarıstan və Azərbaycan iki dost və tərəfdaş ölkə kimi bundan sonra da həm ikitərəfli əməkdaşlığı dərinləşdirəcək, həm də təmsil olunduğumuz beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyi də bir-birinə əsirgəməyəcək. Azərbaycan və Macarıstan arasında olan dostluq əlaqələri həm ölkələrimiz üçün, həm Avrasiya qitəsi üçün çox böyük önəm daşıyır. Strateji tərəfdaşlığa dair imzalanmış sənədlər onu göstərir ki, həqiqətən Macarıstan və Azərbaycan dost ölkələrdir [8].

***Macarıstan-Özbəkistan əlaqələri.*** Sovet İttifaqının dağılmasından sonra Özbəkistan və Macarıstan müxtəlif səviyyələrdə əlaqələr qurmağa başladılar. İlk dövrlərdə iki ölkə arasındakı əlaqələr coğrafi uzaqlığa görə məhdud olsa da, həm Orta Dəhliz, həm də Türk Dövlətləri Təşkilatı (TDT) tərəflər arasında əlaqələrin inkişafını sürətləndirdi. 2018-ci il sentyabrın 3-də hər iki ölkənin liderləri o zamanlar Türk Şurası olan TDT-nin altıncı sammitində iştirak ediblər. Macarıstan bu sammitdə müşahidəçi üzv olarkən; 15 oktyabr 2019-cu ildə keçirilən yeddinci sammitdə Özbəkistan tamhüquqlu üzv oldu. Bu inkişaf münasibətlərin çoxölçülü və struktur formatında irəliləməsinə imkan verib.

Özbəkistan və Macarıstan arasında əlaqələrin inkişafında dövlət başçılarının təşkil etdiyi qarşılıqlı səfərlər həlledici rol oynayır. Yuxarıda qeyd olunan səfərlərdən biri 29 mart 2021-ci ildə Macarıstanın Baş naziri Viktor Orban tərəfindən həyata keçirilmişdir. Səfər zamanı siyasi, kommersiya, texniki, mədəni və humanitar sahələrdə əməkdaşlığın inkişafına ortaq münasibət nümayiş etdirilib. Bundan əlavə, tərəflər münasibətlərini “strateji tərəfdaşlıq” səviyyəsinə qaldırmağa hazır olduqlarını bəyan ediblər [16].

2022-ci il oktyabrın 6-da Şövkət Mirziyoyev və Baş nazir Viktor Orban Özbəkistan və Macarıstan arasında strateji tərəfdaşlığın inkişafına dair birgə bəyanat imzalayıblar. Sənəddə danışıqların dostluq, açıq və konstruktiv ruhda keçdiyi, hərtərəfli qarşılıqlı faydalı əməkdaşlığın aktivləşdirilməsinin nəzərdə tutulduğu qeyd edilir. İki ölkə arasındakı diplomatik münasibətlərin qurulmasından 30 il ötür. Ölkələrin hökumətləri, nazirlikləri və qurumları səviyyəsində Özbəkistan-Macarıstan strateji tərəfdaşlıq əlaqələrinin daha da genişləndirilməsinə yönəlmiş 15 sənəd imzalanıb [17].

Nəticədə Özbəkistan və Macarıstan arasında münasibətlər inkişaf və dərinləşməyə meyllidir. Bunda dövlət başçılarının qarşılıqlı səfərləri həlledicidir. Bu vəziyyət Orta Dəhlizdə müsbət əksini tapır və tərəflərə Şərq-Qərb qarşılıqlı fəaliyyətinin əsas aktorlarına çevrilməsinə şərait yaradır.

***Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və Macarıstan***. Macarıstanın 2010-cu ildən başlayaraq türk respublikalarına istiqamətli yeni xarici siyasət konsepsiyasına uyğun olaraq “Şərq Ekspansiyası” adlandırılan siyasəti nəticəsində Türk Şurası arasında sıx əməkdaşlıq əlaqələri qurulub. 2018-ci ildə Qırğızıstanın Çolpon-Ata şəhərində keçirilən Türk Şurasının 6-cı Zirvə Toplantısında Macarıstan Türk Şurasına müşahidəçi ölkə kimi qoşulub.

Macarıstanın Türk Şurasına üzv olması prosesində türk cümhuriyyətləri ilə xüsusilə iqtisadi əlaqələri gücləndirmək məqsədi ilə yanaşı, macar xalqının türk tarixi, mədəniyyəti və dili ilə qurduğu əlaqə də təsirli olmuşdur. Zirvə görüşündə müşahidəçi dövlət statusunda iştirak edən Macarıstanın Baş naziri Viktor Orban macar xalqının türkdilli xalqlarla əməkdaşlığı inkişaf etdirməkdə maraqlı olduğunu bildirdi. Viktor Orban Avropanın mərkəzində yerləşən Macarıstanın da öz dilini və mədəniyyətini qoruduğunu qeyd etmiş , bu məqsədlə ölkəsində həyata keçirilən tədbirlərdən danışmışdı:

“Biz macarlar macar dilində danışırıq. Bu türk dilləri ilə qohum olan çox nadir və gözəl bir dildir. Biz qıpçaq-türk dəyərləri əsasında xristianlığı qəbul etmişik. Hər il Macarıstanda türkdilli xalqların qurultayı keçirilir. Şuraya üzv ölkələr Macarıstanın xarici siyasətində çox vacib rol

oynayırlar və Türkiyə ilə olduğu kimi, Azərbaycan və Qazaxıstanla münasibətlər bir neçə ildir ki, strateji tərəfdaşlıq səviyyəsindədir. Məqsəd həm də Qırğızıstan və Özbəkistan ilə münasibətləri eyni səviyyəyə çatdırmaqdır. Onu da deyim ki, Macarıstan il ərzində Azərbaycan da daxil olmaqla türkdilli ölkələrin tələbələrinə təqaüd verir" [18].

Türk Şurasının Budapeşt Nümayəndəliyi 2019-cu ilin sentyabrında ölkə müşahidəçi statusu aldıqdan sonra açılıb [19].

Macarıstanın müşahidəçi statusundan sonra ilk səfəri 30 iyun-1 iyul tarixlərində Türk Şurası ölkələrinə (Türkiyəyə) edən Szijjarto xarici işlər naziri Mövlud Çavuşoğlu, energetika naziri Fatih Dönməz, ticarət naziri Ruhsar Pekcan, sənaye və texnologiya naziri Mustafa Varank ilə görüşmüşdü.Bu səfər zamanı Türkiyənin Xarici işlər naziri Çavuşoğlu epidemiya zamanı Macarıstanın güclü həmrəyliyinə işarə edərək, həm türkcə, həm də macarca "Dostlar qaranlıq gündə ortaya çıxacaq" sözlərini qeyd etmişdi [22].

15 oktyabr 2019-cu ildə Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü keçirildi.Bu tədbirdə Macarıstanın Baş Naziri Viktor Orbanı ilk dəfə olaraq müşahidəçi qismində iştirak etdi.Viktor Orban VII Zirvə görüşündə qeyd edir ki: Macarıstanda qıpçaqlar yaşayır və macarların çoxunun damarlarında qıpçaq qanı axır. Onların hətta öz bələdiyyəsi, özünüidarə orqanları da var. Cənab Prezident Nazarbayev macar qıpçaqlarının fəxri prezidentidir. Hər il qıpçaqlar iclas keçirəndə biz onu Macarıstandan salamlayırıq [9].

13 noyabr 2021-ci ildə Macarıstanın baş naziri Viktor Orban İstanbulda keçirilən Türk Şurasının zirvə toplantısının yekun nitqində deyib ki, Macarıstan Avropa İttifaqı çərçivəsində türk xalqlarının maraqlarını qorumaq üçün bütün səylərini göstərəcək.Viktor Orban qeyd edib ki: "Macar xalqı türk xalqını əsrlərə gedib çıxan tarixi-mədəni irslə bağlayır. Bizi Avropada Barbar Hunları və Atilla xalqı kimi təhqir etdilər. Bununla belə, xalqımız bu tarixi irslə fəxr edir" [14].

Orban Macarıstanın Asiya ilə əlaqələrini inkişaf etdirməkdə qərarlı olduğunu, Türkiyə ilə yanaşı Özbəkistan və Qırğızıstanla da strateji tərəfdaşlıq əlaqələri qurduğunu bildirib.

13 Yanvar 2023-cü ildə Türk Dövlətləri Təşkilatının (TDT) baş katibi Kubançıbek Omuraliyev Macarıstanın xarici işlər naziri Piter Siyyarto ilə görüşüb. Nazir görüşdə qeyd edib ki:"Türk Dövlətləri Təşkilatının Macarıstan üçün nə qədər əhəmiyyətli olduğu dəfələrlə sübut edilib. İndiki qlobal vəziyyətdə həqiqi dostlara və sağlam düşüncəyə əsaslanan siyasətə hər zamankından daha çox ehtiyac var. Təşkilatın yeni baş katibi Kubançıbek Omuraliyev ilə birlikdə bu gündən bu istiqamətdə birgə işimizə başladıq" [20].

Macarıstan türk respublikaları ilə əlaqələrin inkişafında daim maraqlıdır. 29 Mart 2023-cü ildə Katalin Novak R.T.Ərdoğanın rəsmi dəvəti ilə Türkiyəyə səfər etmişdir. Prezident Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Ankaraya gələn Novak onu müşayiət edən nümayəndə heyəti ilə Aslanlı Yolu boyunca gəzərək Qazi Mustafa Kamal Atatürkün məqbərəsi önünə əklil qoyaraq bir dəqiqəlik sükutla yad edib. Anıtkabir Xüsusi Kitabına imza atan Novak bunları yazıb:

"Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün xatirəsi önündə dərin təəssüf və dərin ehtiramımı bildirirəm.

Atatürkün dövlət quruculuğu fəaliyyəti bütün macar və türk xalqları üçün örnəkdir. Əgər onun Macarıstan-Türkiyə münasibətlərini yaxşılaşdırmaq səyləri olmasaydı, bu gün xalqlarımız arasında qardaşlıq və müttəfiqlik bağı bu qədər sıx olmazdı.Macarıstan və Türkiyə Cümhuriyyəti arasında ilk beynəlxalq müqavilənin imzalanmasının 100-cü ildönümünə yaxınlaşdığımız bir vaxtda, düşünürəm ki, XXI əsrdə olduğu kimi qarşıda bizi ən azı 100 uğurlu il gözləyir.

Türkiyə-Macarıstan Dostluq Sazişinin 100-cü ildönümünün 2023-cü il dekabrın 18-də qeyd olunacağını bildirən prezident Ərdoğan vurğulamışdı ki : "2024-cü ili Ortaq Mədəniyyət İli olaraq qeyd edəcəyik" [15].

***Nəticə.*** Macarlar üçün onların etnik mənşəyi və dilin mənşəyi iki əsas müzakirə mövzusudur. Alimlər hesab edirlər ki, indiki Macarıstanın yerləşdiyi Karpat hövzəsinə gələn macarlar genetik cəhətdən qarışıq etniklər olub. Etnik cəhətdən üstünlük təşkil edən şərq mənşəli Qərbi Avrasiya və Orta Asiyadandır.

Macarıstan hökuməti etnik mənsubiyyət və dilin mənşəyi ilə bağlı müzakirələrdə yaxından iştirak edir. Bu məqsədlə macarların mənşəyini öyrənmək üçün institut yaradılmışdır. Türkiyə-

Macarıstan əməkdaşlığına böyük əhəmiyyət verən baş nazir Viktor Orban macarların özlərini Atilla nəslindən və hun-türk mənşəli gördüklərini, macar dilinin türk dilləri ilə qohum olduğunu düşündüyünü bildirmişdir. Müasir dövrdə Macarıstanın türk dünyasına inteqrasiyasını macarların tarixi köklərinə qayıdışı adlandıra bilərik, Macarıstanın xarici siyasətində türk dövlətləri xüsusi yerə malikdir.

ƏDƏBİYYAT

1. Doğan, İ., "Macar Ulusal Kimliğinin Oluşumunda Türk Etkisi" // Ankara Üniversitesi Dil ve Tarih-Coğrafya Fakültesi Dergisi, Cilt:47, Sayı:2, Yıl:2007. URL: http://dergiler.ankara.edu.tr/dergiler/26/920/11474 [08.04.2023].
2.Dostıyev T. Kafkasya ’da Hunlar. Türkler, Yeni Türkiye Yayınları, İstanbul, 1993.
3.Eckhart, Ferenc Macaristan Tarihi 2. Baskı(Macarcadan Çeviren: İbrahim Kafesoğlu). Ankara: Türk Tarih Kurumu, 2010, 313 s.
4.Əkbər Nəcəf. Hun minilliyi (b.e.ə IV - b.e. VI əsrlərdə türk dünyası). Bakı, TEAS Press nəşriyyatı, 2015, 460 s.
5.Məmmədov İ. Hunlar. Bakı, 1997, 100 s.
6.Osman Karatay. Macarlar: kökler ve türkler. İstanbul, Ötüken nəşriyyatı, 2020, 285 s.
7.Джафаров Ю. Гуны и Азербайджан. Baku, 1993, 107 s.
*İnternet resursları*
8.Azərbaycan və Macarıstan arasında əməkdaşlıq yüksələn xətlə inkişaf edir. - https://az.trend.az/azerbaijan/politics/3704304.html [08.04.2023].
9.Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü keçirilib. - https://president.az/az/articles/view/34442 [08.04.2023].
10.Budapeştdə Azərbaycan-Macarıstan sənədləri imzalanıb. - https://president.az/az/articles/view/58755 [08.04.2023].
11.İlham Əliyevin Macarıstan Prezidenti Katalin Novak ilə geniş tərkibdə görüşü olub. - https://president.az/az/articles/view/58750 [08.04.2023].
12.Macarıstan. - https://mfa.gov.az/az/category/avropa/macaristan [08.04.2023].
13.Macarıstanda Hun-Türk Turan Qurultayı. - https://www.trt.net.tr/azerbaycan/m-d-niyy-t-v-s-n-t/2014/08/08/macaristanda-hun-turk-turan-qurultayi-83726 [08.04.2023].
14.Macaristan Başbakanı Orban: 'Yüzyıllarca Türk halklarıyla birlikte yaşadık, bundan gurur duyuyoruz'. - https://www.bbc.com/turkce/haberler-dunya-59276998 [08.04.2023].
15.Macaristan Cumhurbaşkanı Novak Türkiye'de. - https://www.haberturk.com/macaristan-cumhurbaskani-novak-turkiye-de-3578256 [08.04.2023].
16.Özbekistan-Macaristan İlişkilerinde Güçlü İşbirliği Arayışları. - https://www.ankasam.org/ozbekistan-macaristan-iliskilerinde-guclu-isbirligi-arayislari/ [08.04.2023].
17.Özbəkistan və Macarıstan strateji tərəfdaşlığı inkişaf etdirmək üçün 16 sənəd imzalayıb. https://turaz.org/ozbekistan-ve-macaristan-strateji-terefdasligi-inkisaf-etdirmek-ucun-16-sened-imzalayib/ [08.04.2023].
18.Türk Birliyinə aparan YOL. - https://modern.az/az/news/176057/turk-birliyine-aparan-yol [08.04.2023].
19.Türk devletleri teşkilatı. - https://www.turkicstates.org/tr [08.04.2023].
20.Türk Dövlətləri Təşkilatının baş katibi Macarıstanda – FOTO. - https://modern.az/dunya/389639/turk-dvletleri-teskilatinin-bas-katibi-macaristan-xin-bascisi-ile-grusdu/ [08.04.2023].
21.Türk dünyasını Macarıstan birləşdirəcək – MÜSAHİBƏ. - https://modern.az/az/news/62809/turk-dunyasini-macaristan-birlesdirecek-musahibe [08.04.2023].
22.Türk Konseyi'nin gözlemci üyesi Macaristan, Türk dünyası ile güçlü bağlar kuruyor. - https://www.aa.com.tr/tr/dunya/turk-konseyinin-gozlemci-uyesi-macaristan-turk-dunyasi-ile-guclu-baglar-kuruyor/1921964 [08.04.2023].

**ИСМАИЛ МАМЕДОВ**
*Профессор Бакинского Государственного Университета*
**ЭЛЬШАД ГУЛИЕВ**
*Магистрант Бакинского Государственного Университета*

## ИНТЕГРАЦИЯ В ТЮРКСКИЙ МИР: ВОЗВРАЩЕНИЕ ВЕНГРИИ К СВОИМ ИСТОРИЧЕСКИМ КОРНЯМ

Происхождение венгров всегда было интересной темой на протяжении всей истории; Историки, археологи, антропологи, лингвисты, ученые и интеллектуалы, интересующиеся этой темой, выдвинули различные мнения и комментарии. Представлено большое разнообразие мнений, взглядов и мнений. История взаимоотношений венгров с различными тюркскими племенами восходит к V веку нашей эры. Венгры жили во взаимоотношениях с тюркскими племенами, пока не осели на своей нынешней родине в 896 году. После 896 г. в Венгрии поселились племена половцев и печенегов. Последним этапом исторических отношений является период османского владычества в Венгрии. Период с 5 века до отвоевания Буди венграми в 1686 году можно назвать периодом прямого турецкого влияния на венгерскую национальную идентичность. Особенно в 19 веке процесс государственного строительства заставил венгров задуматься о своей национальной идентичности. Его восточное происхождение, использование неиндоевропейского языка и идея родства с тюрками привели к формированию венгерского национального самосознания в отличие от других европейских народов. Идея родства с турками привела к разделению венгерской интеллигенции XIX века на две группы: первая группа утверждает, что венгры связаны с турками, а другая группа утверждает, что венгры являются финно-угорским племенем.Эти дискуссии продолжаются сегодня. Идея родства с тюрками сыграла большую роль в формировании венгерского национального самосознания.В современный период мы можем оценить расширение отношений Венгрии с тюркским мировым сообществом и интеграционные процессы как историческое продолжение этих В статье будут рассмотрены отношения Венгрии с тюркскими народами с древнейших времен и отношения с государствами тюркского мира в современный период.

*Ключевые слова*: венгры, национальное самосознание, этническая формация, венгерско-турецкие отношения, этногенетика, Совет сотрудничества тюркоязычных государств.

**ISMAİL MAMMADOV**
*Professor of Baku State University*
**ELSHAD GULİYEV**
*Master student of Baku State University*

## INTEGRATION INTO THE TURKISH WORLD: HUNGARY'S RETURN TO ITS HISTORICAL ROOTS

The origin of the Hungarians has always been an interesting topic throughout history; Historians, archaeologists, anthropologists, linguists, scientists and intellectuals who are interested in the topic have put forward various opinions and comments. There is a wide variety of opinions, views and opinions presented. The history of Hungarians' relations with various Turkic tribes dates back to the 5th century AD. The Hungarians lived in mutual relations with the Turkic tribes until they settled in their present homeland in 896. After 896, Kuman and Pecheneg tribes settled in Hungary. The last stage of historical relations is the period of Ottoman rule in Hungary. The period from the 5th century to the recapture of Budi by the Hungarians in 1686 can be called the period of direct Turkish influence on the Hungarian national identity. Especially in the 19th century, the state

building process forced the Hungarians to think about their national identity. Its eastern origin, use of a non-Indo-European language and the idea of kinship with the Turks led to the formation of the Hungarian national identity in contrast to other European nations. The idea of kinship with Turks led to the division of 19th-century Hungarian intellectuals into two groups: The first group claims that Hungarians are related to Turks, and the other group claims that Hungarians are a Finno-Ugric tribe. These discussions continue today. The idea of kinship with the Turks played a big role in the formation of the Hungarian national identity. In the modern period, we can evaluate the expansion of Hungary's relations with the Turkic world community and the integration processes as the historical continuation of these relations. The article will examine Hungary's relations with the Turkic peoples since ancient times, and the relations with the Turkic world states in the modern period.

*Keywords*: Hungarians, National Identity, Ethnic Formation, Hungarian-Turkish relations, Ethnogenetics, Cooperation Council of Turkic-speaking States.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*




**UOT 94(479.24)**

**İRADƏ HÜSEYNOVA**

*Bakı Dövlət Universitetinin "Qafqaz xalqları tarixi" kafedrasının müdiri,*
*tarix elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar müəllimi*

# HEYDƏR ƏLİYEV VƏ XX ƏSRİN 70-80-Cİ İLLƏRİNDƏ MƏDƏNİ QURUCULUQ MƏSƏLƏLƏRİ

*«Öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan, inkişaf etdirən, tarixini əks etdirən, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim - öz xalqının, millətinin, milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəli getməsinə xidmət göstərir».*

**Heydər Əliyev**

*Məqalədə Ulu Öndər Heydər Əliyevin 1970-80-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə milli-mədəni sahədə əldə etdiyi uğurlardan bəhs olunur. Həmin illərdə Heydər Əliyevin elm və təhsil sahəsinə göstərdiyi xüsusi qayğı və diqqət təhlil olunur. Qeyd edilir ki, Heydər Əliyevin xüsusi səyləri nəticəsində elm və təhsil sahəsində yüksəlişə nail olunmuş və Azərbaycanın gələcəyi üçün milli kadr bazasının hazırlanmasının bünövrəsi qoyulmuşdur.*

*Bununla yanaşı, Heydər Əliyev Azərbaycan xalqının dini dəyərlərinin qorunub saxlanılması üçün əlindən gələni əsirgəməmişdir. Belə ki, bir sıra dini abidələrin bərpası məhz Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilmişdir. Habelə, Heydər Əliyev Azərbaycan dilinin qorunub saxlanılmasına öz misilsiz töhfələrini verərək və Azərbaycan dilinin inkişaf etdirilməsi istiqamətində xeyli irəliləyişlər əldə edərək, Azərbaycan dilinin 1978-ci ildə mövcud gərgin şəraitdə Konstitusiyaya dövlət dili kimi salınmasına nail olmuşdur. Bu gələcəyə hesablanmış, düşünülmüş, uzaqgörən siyasətin göstəricisi idi. Bu gün cənab prezident İlham Əliyev tərəfindən aparılan Azərbaycan Respublikasının milli inkişaf strategiyası məhz Heydər Əliyevin müdrik siyasətinə əsaslanaraq davam etdirilir. Azərbaycanın dünəni, bu günü və gələcəyi kimi dəyərləndirilən Heydər Əliyev ideyaları Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizə qarşıdakı illər üçün daha möhtəşəm uğurlar vəd edir.*

*Açar sözlər:* ümummilli lider, elm və təhsilin inkişafı, dini dəyərlər, 1970-1980-ci illər.

***Giriş***. Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrü Azərbaycan tarixinə siyasi, sosial-iqtisadi və mədəni yüksəliş dövrü kimi daxil olaraq, xalqın milli mənlik şüurunun, müstəqillik ideallarının oyanışına güclü təkan vermişdir. Bu nöqteyi-nəzərdən, Azərbaycan xalqının müstəqil dövlətdə yaşamaq idealının real, dayanıqlı əsaslar üzərində gerçəkləşərək əbədiləşməsi çağdaş tariximizin unudulmaz dühası – ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər o çətin dövrdə belə fəaliyyətində yüksək daxili «Mən»inin təcəssümü olan ədalətlilik, insanpərvərlik, humanizm kimi ali dəyərlərə sadiqliyini nümayiş etdirmişdir. Düzgünlük, haqqı nahaqqa qurban verməmək,

zəifləri, məzlumları müdafiə etmək, hər bir fərdin mənafeyini önə çəkmək Heydər Əliyevin idarəçilik fəlsəfəsinin əsas mahiyyətini təşkil etmişdir.

Etiraf olunmalıdır ki, intellektual baza olmadan dövlət müstəqilliyinin təmin edilməsi mümkün deyil. 1969-1982-ci illər Azərbaycan elminin, təhsilinin intibah dövrü kimi xatırlanır. Heydər Əliyev öz fəaliyyəti və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni, mütərəqqi nailiyyətlərindən faydalanmış, cəmiyyətin, xalqın inkişaf zəminini elmdə, maariflənmədə görmüşdür. Heydər Əliyev dühası həm də elmimizin, mədəniyyətimizin, ədəbiyyatımızın gözəl bilicisi, tədqiqatçısı, ən əsası, böyük hamisi olmuş, elmə və alimə həmişə yüksək qiymət vermişdir.

1970-1980-ci illərin əvvəllərində ali təhsil sahəsində yaranan fundamental maddi-texniki baza, mütərəqqi ənənələr bu gün milli ali təhsilimizin möhkəm bünövrəsini təşkil edir.

Azərbaycan KP MK-nın 1969-cu ilin avqust plenumu tariximizə Heydər Əliyev siyasətinin və əqidəsinin rəsmi dövlət siyasəti səviyyəsində ortaya çıxması demək idi. Bu siyasətin başlıca məramı güclü dövlət, güclü iqtisadiyyat və sağlam milli kadrlar yetişdirmək idi. Ölkə rəhbəri milli təhsilin səviyyəsini və keyfiyyətini yüksəltmək üçün fəal təhsil və kadr konsepsiyasını irəli sürdü. Ali məktəblərə qəbul sahəsində neqativ hallara qarşı sərt mübarizə başlandı. Heydər Əliyevin yaratdığı spesifik idarəçilik modelinin üstün cəhətlərindən biri də kadr seçimində sosial ədalətsizliyin aradan qaldırılması – daha çox yüksək mənəvi-əxlaqi keyfiyyətləri, intellekti və yüksək bilik səviyyəsi ilə fərqlənən gənclərə üstünlük verilməsidir. Keçən əsrin 70-ci illərinin əvvəllərindən etibarən Heydər Əliyev bir sıra nüfuzlu ixtisaslar üzrə kadrların hazırlanması işinin keyfiyyətini birbaşa nəzarətə götürmüşdür. Geniş imtiyazlara, səlahiyyətlərə malik vəzifəli şəxslərin övladlarının bir sıra nüfuzlu ixtisaslar üzrə ali məktəblərə daxil olmasını yasaqlayan sərəncam imzalamış ümummilli lider, əslində, bununla təhsil sistemində özünü qabarıq göstərən neqativ meyillərə qarşı amansız mübarizəyə qalxmış, imkansızların, zəhmətkeş övladlarının ali təhsil almasına imkan yaradan şəffaf mühitin formalaşdırılmasına nail olmuşdur [1, s.301].

Ali təhsilin inkişafı üçün 70-ci illərdə çox böyük və mühüm işlər görülmüşdür. Həmin illərdə yaranmış demokratik və şəffaf mühit nəticəsində nüfuzlu ixtisaslar üzrə ali məktəblərə daxil olmaq istəyini gerçəkləşdirmiş yüzlərlə zəhmətkeş azərbaycanlı övladı ulu öndərin bu addımını daim böyük rəğbət və ehtiramla xatırlayır. Təhsildə islahatlar dönüş xarakteri aldı, yeni ali məktəblər və onların filialları yaradıldı. Ali məktəblərin maddi-texniki bazasının inkişafı üçün böyük işlər görüldü: Azərbaycan Dövlət Universiteti, Neft-Kimya İnstitutu, Tibb İnstitutu və başqa ali məktəblər üçün binalar tikildi, müxtəlif ləvazimatlar alınıb gətirildi. Tələbələr üçün yataqxanalar tikildi. Bütün bunlar Azərbaycanda ali təhsilin səviyyəsini yüksəltməyə yönəldilən addımlar idi. 1970-ci illə müqayisədə 1980-ci ildə ali təhsilli ixtisaslı kadrların sayı respublikada iki dəfə artmışdı. O dövrdə yüksək ixtisaslı kadrların böyük bir ordusunu qadınlar təşkil edirdi – 1978-ci ildə onlar ümumi sayın 46 faizini təşkil edirdilər (104 min nəfər).

XX əsrin 70-ci illərindən etibarən quruculuq missiyasını cəsarətlə öz üzərinə götürən böyük tarixi şəxsiyyət möhtərəm Heydər Əliyevin elm və təhsil sahəsində apardığı nəhəng islahatlar gələcək uğurlarımız üçün geniş zəmin və şərait yaratmışdır. Böyük rəhbər bütün şüurlu həyatı boyu istər əməli, istərsə də şəxsi nümunəsi ilə sübut etmişdir ki, elm və təhsilimizin yorulmaz fədaisi, təəssübkeşi və himayədarıdır. Azərbaycanın son 33 ildən artıq inkişafı tarixində əldə olunan nailiyyətlər, qazanılan uğurlar, xüsusilə keçən əsrin 70-80-ci illərində və müstəqillik dövründə təhsil sahəsində aparılan islahatlar xalqımızın misilsiz təəssübkeşi Heydər Əliyevin böyük və əvəzsiz xidmətlərinin nəticəsidir. Heydər Əliyevin respublikada rəhbərlikdə olduğu 1969-1982-ci illərdə Azərbaycan hökumətinin diqqət mərkəzində duran ən ümdə vəzifələrdən biri elmin və təhsilin inkişafına diqqət və qayğının artırılması olmuşdur [2, s.51; 22, s.135-136].

Qeyd etməliyik ki, 1970-ci ilədək respublikadan kənara ali təhsil almağa göndərilən gənclər içərisində azərbaycanlıların yeri 40% təşkil edirdisə, Heydər Əliyevin apardığı uğurlu siyasət nəticəsində 1976-cı ildə göndərilənlər içərisində azərbaycanlıların real çəkisi 85%-ə, 1977-ci ildə 92%-ə, 1980-ci illərin əvvəllərində 97,6%-ə, yüksəlmişdi. 1969-1982–ci illərdə Heydər Əliyevin fəaliyyəti sayəsində respublikadan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq şəhərinin 135 mülki, 105 hərbi ali məktəbində Azərbaycanın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə

edən, 250-dən çox nadir ixtisaslar üzrə 15 mindən çox azərbaycanlı mütəxəssis hazırlanmışdır [4, s.23; 21, s.5].

1970-1980-ci illərdə Azərbaycanda ali təhsil müəssisələrinin sayı 1969-cu illə müqayisədə 12-dən 17-yə, təhsil alanların sayı isə 70 mindən 100 minə qədər yüksəlmişdi. Həmin dövrdə respublikada geniş vüsət alan tikinti-quruculuq işlərini yüksək ixtisaslı mütəxəssislərlə təmin etmək üçün Azərbaycan İnşaat Mühəndisləri İnstitutu (indiki Azərbaycan Memarlıq və İnşaat Universiteti) yaradıldı, daha sonra Gəncədə Azərbaycan Texnologiya İnstitutu (hazırkı Azərbaycan Texnologiya Universiteti), Gəncə Pedaqoji İnstitutu, Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu (hazırkı Bakı Slavyan Universiteti), N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu, C.Naxçıvanski adına Hərbi Məktəb, BDU-nun Şərqşünaslıq fakültəsinin bina və tədris korpusları tikilib istifadəyə verilmişdir. Ümumiyyətlə, 1970-1982-ci illərdə Azərbaycanda beş yeni ali məktəb yaradılmış, çoxlu ixtisaslar, kafedralar, problem laboratoriyaları açılmışdır. Əgər 1960-cı illərin sonunda respublikada 12 ali məktəb, bunlarda 105 fakültə, 450 kafedra mövcud idisə və 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 17 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi ki, bütün bu uğurlar Heydər Əliyevin ali təhsilin inkişafına, respublikanın milli kadr potensialının gücləndirilməsinə vətəndaş qayğısının nəticəsində mümkün olmuşdur [4, s.23-24].

Qeyd etmək lazımdır ki, hələ Sovetlər İttifaqının mövcudluğu şəraitində Heydər Əliyev Azərbaycanda hərbi kadrların hazırlanmasına çox böyük diqqət yetirirdi. Hələ 1971-ci il 23 iyul tarixli Azərbaycan KP MK-nın iclasında baxılan məsələlərdən biri də xüsusi internat məktəbinin yaradılması idi. Azərbaycan SSR Maarif Nazirliyi və Respublika Hərbi Komissarlığının qərarı ilə Bakı şəhəri Zığ qəsəbəsindəki 2 saylı 8 illik internat məktəbi 1971-1972-ci ildən başlayaraq hərbi məktəblər üçün kontingentin hazırlanması üzrə ixtisaslaşması qəbul edilmişdir. Hər il məktəb internata qəbul 2-5-ci siniflərə 70 nəfər həcmində nəzərdə tutulmuşdur [9, F.1, Siy.58, İş 113, v.191].

1971-ci il 23 iyul Azərbaycan KP MK-nın qətnaməsinə uyğun olaraq Bakı 2 saylı internat məktəbi 1971-1972-ci illərdə yenidən təşkil edilərək SSR hərbi məktəblərə hazırlıq üçün xüsusi internat məktəbinə çevrilmişdir. 1971-1972-ci illərdə həmin internat məktəbləri 2-5-ci siniflərə 70 tələbə qəbul edilmişdir. Gələcəkdə Azərbaycan KP Mərkəzi bürosunun 7 mart 1972-ci il qərarı ilə 5-9-cu siniflərə 150 şagird qəbul edilmişdir. Nəzərdə tututal kontingentin cəlb olunması üzrə aparılan işlər göstərdi ki, bu məktəbdə təhsil almaq istəyənlərin sayı çoxdur. Şərti işə qəbul komissiyası sözügedən məktəbin 7-ci, 8-ci, 9-cu və 10-cu siniflərinə şagirdləri qəbul etmişdir. Cəmi nəzərdə tutulan 150 şagirdin əvəzinə məktəbə 340 şagird qəbul edilmişdir. Həmin ildə internat məktəbdə 410 tələbə təhsil alırdı [10, F.1, Siy.59, İş 91, v. 69-71].

Azərbaycan KP MK-nin 20 aprel 1976-cı il iclasının 5 saylı protokoluna əsasən C.Naxçıvanski adına ümumtəhsil internat məktəbinin respublika ixtisaslaşdırılmış orta məktəbinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında qərarı qəbul edildi [11, F.1, Siy.58, İş 73, v.51].

Heydər Əliyev Azərbaycanda bir sıra yeni ixtisaslar – informasiya texnologiyaları, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, aviasiya və s. üzrə mütəxəssis hazırlayan ali məktəblərin olmadığını nəzərə almaqla, minlərlə azərbaycanlı gəncin Moskva, Kiyev, Minsk və başqa şəhərlərdəki nüfuzlu ali məktəblərə göndərilməsini təmin etmişdir. Ümummilli lider bu ali məktəblərdə müsabiqədənkənar oxumağa gedən gənclərin sayının ildən-ilə artırılmasına Moskvadan çətinliklə də olsa icazə alır, onların təhsilinin ümumittifaq büdcəsindən maliyyələşdirilməsinə nail olur, həmin gənclərin məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirirdi.

Şəxsən Heydər Əliyevin təşəbbüsü ilə SSRİ-nin Moskva, Leninqrad, Kiyev və başqa ali məktəblərində oxumağa göndərilən tələbələrin sayı hər il artmışdı. Bu faktı qeyd etmək kifayətdir ki, təkcə 1978-ci ildə Sovetlər İttifaqının 151 ali məktəbində Azərbaycandan üç mindən çox tələbə oxuyurdu. Doqquzuncu beşillikdə Azərbaycanın ali məktəblərində 80 min nəfərdən çox ali təhsilli, 95 mindən çox orta ixtisas təhsilli mütəxəssis hazırlanmışdı. Azərbaycan Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji İnstitutu, Azərbaycan Dövlət Konservatoriyası Qırmızı Əmək Bayrağı Ordeni ilə təltif edilmişdi [12, s.58].

Bu tarixi reallıqdır ki, Azərbaycan xalqı bəşər tarixinə görkəmli şəxsiyyətlər - elm, mədəniyyət və ictimai dövlət xadimləri vermişdir. Belə şəxsiyyətlərin xidmətlərini, tarixdə rolunu göstərmək, onların adını əbədiləşdirmək, bütün xalqa və gələcək nəsillərə tanıtmaq Heydər Əliyevə xas olan nəcib

və yüksək keyfiyyətlərdəndir. Azərbaycanın görkəmli şəxsiyyətlərinin fəaliyyətinin üzə çıxarılması, adlarının əbədiləşdirilməsi onun şəxsi təşəbbüsü, böyük və tarixi xidmətidir.

Respublikada görkəmli şəxslərin, elm, təhsil və mədəniyyət ocaqlarının yubileylərinin keçirilməsi böyük tarixi hadisəyə çevrilmişdi. Şəxsən Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə N. Nərimanovun anadan olmasının 100 illiyi, İmadəddin Nəsiminin 600 illiyi, Azərbaycan dram teatrının 100 illiyi, Azərbaycan Dövlət Rus Dram Teatrının 50 illiyi, «Azərbaycan qadını» jurnalının 50 illiyi, Ü.Hacıbəyovun, M.Maqomayevin, S.Vurğunun, C.Cabbarlının, M.S.Ordubadinin, Aşıq Ələsgərin və bir çox mədəniyyət və incəsənət xadimlərinin yubileyləri keçirilmişdir [3, s.62]. Bu bir daha xalqımızın böyük oğlu Heydər Əliyevin incəsənətə, bütövlükdə mədəniyyətimizə, tarixi irsimizə, milli mənəvi dəyərlərimizə verdiyi böyük diqqət və qayğıdan xəbər verirdi.

Eyni zamanda ayrı-ayrı tarixi mərhələlərdə Azərbaycan xalqına xidmət edən, ona bağlı olan, siyasi və dövlət xadimləri haqqında öz yüksək fikirlərini söyləmiş, onların xatirəsini əbədiləşdirilməsi istiqamətində real addımlar atılmışdır. Heydər Əliyev böyük cəsarət, mübarizlik, milli təəsübküşlik nümayiş etdirərək, Azərbaycan xalqının görkəmli siyasi xadimi **N.Nərimanovun həyat və fəaliyyəti haqqında Heydər Əliyev öz məruzəsində onun Azərbaycan tarixində xidmətlərini, XX əsr ictimai fikir tarixinin görkəmli nümayəndəsi olduğunu vurğulamış,** N.Nərimanovun Azərbaycan tarixindəki roluna və mövqeyinə dair mövcud olan böhtan və iftiraların ifşa edilməsinə nail olmuş, həm N.Nərimanovun özünün fəaliyyət göstərdiyi zamanda, həm də ondan sonrakı dövrdə baş qaldırmış şər və uydurmaları puça çıxartmışdır. Onu da qeyd etmək lazımdır ki, XX əsrin 70- ci illərində ermənilər tərəfindən N.Nərimanova qarşı böhtançılıq kompaniyası aparılırdı, onun yubileyinin keçirilməsinə imkan vermirdilər. Bütün bu müqavimətlərə, ciddi təzyiqlərə rəğmən Heydər Əliyevin təşəbbüsü ilə 1972-ci il iyunun 22-də N.Nərimanovun anadan omasının 100 illik yubileyi Respublikada təntənəli şəkildə keçirildi və Bakının görkəmli yerində, 1979-cu ildə isə Ulyanovsk şəhərində N.Nərimanovun əzəmətli abidələri ucaldıldı. Ulyanovsk şəhərinin böyük bir prospektinə Nərimanovun adı verildi.

Heydər Əliyev Nəriman Nərimanovun fəaliyyətinə yüksək dəyər verərək qeyd edirdi ki, ... Nəriman Nəcəf oğlu Nərimanov siyasi rəhbər və təşkilatçı kimi bütün bacarığını, qəlbinin bütün alovunu xalqın xidmətinə vermişdir» [25, s.55-56].

**1975-ci ildə böyük bəstəkar Üzeyir Hacıbəyovun yubileyi münasibətilə onun ev-muzeyi yaradılmışdı. 1976-cı ildə Səməd Vurğunun 70 illik yubileyinə hazırlaşarkən bir neçə ayda onun ev-muzeyi təşkil edildi. Cəfər Cabbarlının 80 illik yubileyi ərəfəsində onun həm ev-muzeyi yaradılmış, həm də Bakıda möhtəşəm heykəli qoyulmuşdu. Bu illərdə həmçinin İmadəddin Nəsimiyə abidə qoyulmuşdu. Bülbülün ev-muzeyi təşkil edilmişdi. 70-ci illərdə Cəlil Məmmədquluzadənin ev-muzeyini yaratmaq haqqında Heydər Əliyevin rəhbərliyi ilə qərar qəbul edilmişdi. Bu məqsədlə onun yaşadığı evdəki vətəndaşlara hələ 1981-1982-ci illərdə başqa yerlərdə mənzillər də verilmişdi. Lakin Heydər Əliyev Moskvaya işə gedəndən sonra o qərar yerinə yetirilməmişdi. Yalnız ikinci dəfə Azərbaycana rəhbər vəzifəyə qayıdandan sonra 1994-cü ildə C.Məmmədquluzadənin ev-muzeyi sözün həqiqi mənasında yaradıldı [23].**

1971-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Aşıq Ələsgərin 150 illik yubileyinin keçirilməsi barədə qərar qəbul edilmişdi [13, F.1, Siy.58, İş 73, v.51]. Əslində bu istiqamətdə qəbul olunan qərarlar böyük gələcək məqsədlərə hesablanmışdı. Aşıq Ələsgər irsinin öyrənilməsi həm də tarixi yurd yerimiz olan Qərbi Azərbaycanda mədəni irsimizin öyrənilməsi, unudulmaması demək idi. Bu dolayı yolla həm də Qərbi Azərbaycanın ulu Göyçə mahalının Azərbaycana aidliyinin təsdiqi demək idi. Ümummilli lider Heydər Əliyev müxtəlif illərdə ən müxtəli Azərbaycanlı dövlət xadimlərinin təltif olunması, onlara fərdi təqaüdlərin verilməsi ilə bağlı Qərarlar qəbul etmişdi. 1969-cu ildə görkəmli şair Əli Kərim [14, F.1, Siy.56, İş 93, v.202], 1970-ci ilin martında Rəsul Rza [15, F.1, Siy.57, İş 34, v.289], həmin ilin mayında xalq artisti Hacı Məmmədov [16, F.1, Siy.57, İş 62, v.258], iyununda yazıçı-dramaturq Sabit Rəhman [17, F.1, Siy.57, İş 69, v.7, 9], 1971-ci ilin fevralında yazıçı Əli Vəliyev [18, F.1, Siy.58, İş 57, v.207], həmin ilin aprelində Müslüm Maqomayev, Rübabə Muradova, Həsənağa Turabov, Mikayıl Cəbrayılovla bağlı [19, F.1, Siy.58, İş 78, v.24] belə qərarlar qəbul edilmişdi. Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə mədəniyyət sahəsində imza-

lanmış çoxsaylı sənədlərin təhlili bu cür qərarların sayının yüzlərlə olduğunu göstərir. Bu ümummilli liderin mədəniyyət xadimlərinə böyük diqqətinin və qayğısının ifadəsi idi.

Heydər Əliyev bütün rəsmi yığıncaqlarda, tədbirlərdə rəhbər şəxslərin rus dilində çıxış etməsinin ənənəyə çevrildiyi bir vaxtda - 1969-cu ilin noyabrında Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyi münasibətilə keçirilən təntənəli yığıncaqda öz ana dilində, Azərbaycan dilində çıxış etməsi ilə geniş yayılmış stereotipi sındırdı. Bu respublikaya səs saldı. Bu münasibətlə onu təbrik edənlərə öz minnətdarlığını bildirərək deyirdi ki, «burada bir qeyri-adilik yoxdur, nahaq təəccüb edirsiniz, bu mənim ana dilimdir və ana dilində çıxış etmək elə böyük bir qəhrəmanlıq da deyildir. Ana dilini bilməmək isə, ana dilini qiymətləndirməmək isə, şübhəsiz ki, xalq qarşısında qəbahətdir».

Nizami Xudiyev düzgün olaraq göstərir ki, Heydər Əliyevin Azərbaycan dili ilə əlaqədar düşüncələri 70-ci illərdə onun respublikaya rəhbərliyinin ilk onilliyi dövründə təşəkkül tapıb formalaşmışdır [5, s.98].

**Etiraf etməliyik ki, 1970-1985-ci illər Azərbaycanın quruculuq tarixinin ən məhsuldar, işıqlı səhifələri olmuşdur. Həmin vaxtda yaxın və uzaq gələcəyə yönələn, müstəqilliyə yol açan, mütərəqqi ənənələrə söykənən inkişaf strategiyası müəyyənləşdirilmiş və uğurla həyata keçirilmişdir [3, s.57].**

1980-ci il 10 noyabr tarixində Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan SSR Mədəniyyət Nazirliyi və Vartaşen - indiki Oğuz rayonu (red.İ.H.), Cəbrayıl, Culfa, İliçevsk - indiki Şərur rayonu (red.İ.H.), Ordubad rayon partiya komitələri rayon mərkəzlərində dövlət tarix-diyarşünaslıq muzeylərinin yaradılması ilə bağlı qərar qəbul etdilər [7, F.1, Siy.67, İş 118, v.218].

Həmin illərdə məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan SSR Elmlər Akademiyasının respublika əlyazma fondunun fəaliyyətinin daha da təkmilləşdirilməsi tədbirləri haqqında vacib qərarlar qəbul edildi [8, F.1, Siy.68, İş 103, v.173-175].

Heydər Əliyev bütün fəaliyyəti dövründə həmişə Azərbaycan xalqının dilinin, mənliyinin, milli şüurunun, milli mentalitetinin qorunması və inkişaf etdirilməsi keşiyində durmuş və bu sahədə çalışanların əməyinə yüksək qiymət vermişdi.

«Öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan, inkişaf etdirən, tarixini əks etdirən, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim - onlar hamısı birlikdə öz xalqının, millətinin, milli şüuranun, milli rahunun, vətənpərvərlik rahunun inkişaf etməsinə, irəli getməsinə xidmət göstərir».

Bu xidmətləri ilə Heydər Əliyev özü həmişə nümunə olmuşdur. Azərbaycan dilinin inkişaf etdirilməsində, qiymətləndirilməsində Heydər Əliyevin əvəzsiz xidmətləri vardır.

**Heydər Əliyevin rəhbərliyi və təşəbbüsü ilə Hüseyn Cavidin anadan olmasının 100 illiyi və 110 illiyinin keçirilməsi Azərbaycan tarixində əvəzsiz xidmətdir. 1981-ci ildə Azərbaycan KP Mərkəzi Komitəsi H. Cavidin anadan olmasının 100 illiyinin keçirilməsi haqqında qərar qəbul etmişdi. Bundan sonra bir çox işlər görüldü. 1982-ci il oktyabrın 26-da onun cənazəsi Sibirdən gətirilib Naxçıvanda dəfn olundu. Bu, o vaxtkı Sovetlər İttifaqında Azərbaycanın rəhbəri Heydər Əliyevin misilsiz cəsarətinin nəticəsi idi. Lakin qərarda nəzərdə tutulan bəzi tədbirlər həyata keçirilməmişdi.**

**1992-ci ildə H. Cavidin anadan olmasının 110 illiyi qeyd edildi. Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevin bu münasibətlə çıxışında deyilirdi ki, 10 il bundan əvvəl H. Cavidin 100 illik bayramı keçirilmişdisə, lakin bu illər ərzində nəzərdə tutulmuş tədbirlərin çoxu həyata keçirilməmişdir. Onlardan biri - nəzərdə tutulan məqbərənin tikintisi başa çatmamışdı. Respublika Prezidenti Heydər Əliyevin şəxsi təşəbbüsü və himayəsi ilə 1996-cı ildə məqbərə də tikildi. 1996-cı il oktyabrın 29-da məqbərənin təntənəli açılışı oldu. Heydər Əliyevin dərin məzmunlu nitqində H.Cavid yaradıcılığının, Azərbaycanda bu istiqamətdə görülən işlərin əhəmiyyəti təhlil edildi [24, s.33-39].**

**Heydər Əliyevin rəhbərliyi Azərbaycanı SSRİ-də birinci yerə çıxartdı. O özü isə Sovetlər İttifaqının görkəmli partiya və dövlət xadimi kimi böyük nüfuz və şöhrət qazandı [3, s.65].**

Azərbaycan Respublikası Prezidenti tərəfindən vaxtilə xalq düşməni adı ilə unutdurulmuş şəxslərin adlarının tarixə qaytarılması, bərpa edilməsi elmdə böyük tarixi xidmətdir. Azərbaycan Xalq Cümhuriyyəti uzun illər tarixin unudulmuş səhifəsi idi. Azərbaycan müstəqilliyinin bərpa edilməsin-

dən sonra Xalq Cümhuriyyəti tarixinin həqiqətlərinin üzə çıxarılmasında, onun Azərbaycan tarixində yerinin və əhəmiyyətinin göstərilməsində Heydər Əliyevin nəinki siyasi xadim kimi, eyni zamanda böyük tarixçi kimi yüksək xidməti vardır. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi haqqında prezidentin 1998-ci il 30 yanvar tarixli sərəncamı böyük tarixi hadisə oldu. Prezident sərəncamının yerinə yetirilməsinin nəticəsi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair sənədlər və materiallar külliyyatı VII clddə hazırlanıb 1998-ci ildə nəşr edildi. Cümhuriyyət tarixinə dair elmi-tədqiqat işləri aparılmağa başlandı. Prezident Heydər Əliyevin 1 fevral 2003-cü il tarixli fərmanı ilə Bakı şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin xatirəsinə abidə ucaldılmasıqərara alındı.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin göstərişi ilə MEA-nın Tarix İnstitutu tərəfindən 7 cildlik «Azərbaycan tarixi»nin akademik nəşri buraxılmışdır. Ümumiyyətlə, Heydər Əliyevin tarix elminin inkişaf etdirilməsində xidmətləri böyükdür. O, tarix elminin mühüm problemlərinin obyektiv tədqiq edilməsi sahəsində özünün konsepsiyasını irəli sürmüşdü ki, bu da tariximizin işlənməsində mühüm elmi-metodoloji əhəmiyyət kəsb edir. Son dövrə qədər Azərbaycan tarix elmində unudulmuş səhifələrin açılmasında, bir çox problemlərin təhrif edilmiş şəkildə yazılmasının açıqlanmasında, tarix elmində yeni tədqiqat istiqamətlərinin meydana çıxarılmasında, bir çox məsələlərin yeni konsepsiyada işlənilməsinin metodikasının müəyyən edilməsində xidmətləri böyük elmi-nəzəri əhəmiyyət daşıyır. Onun azərbaycanlıların soyqırım məsələlərinin, Qərbi Azərbaycan tarixinin öyrənilməsinin zəruriliyini tarix elminin mühüm bir problemi kimi rəsmi şəkildə əsaslandırması tariximizə, millətimizə böyük elmi xidmət nümunəsidir. Heydər Əliyev elmdə nihilizmə, diletantlığa, subyektivliyə, populizmə qarşı qəti mübarizə aparmağı tələb edirdi.

Ümummilli lider Heydər Əliyevin Sovet dövründə böyük xidmətlərindən biri də Azərbaycanda milli mətbuatın dirçəldilməsi idi. Bu istiqamətdə çoxsaylı addımlar atılmış, mətbuatın inkişafında xidmətləri olan şəxslərin təltif olunması, onların adlarının müxtəlif orden və medallara təqdim olunması, mükafatlandırılması ilə bağlı qərarlar imzalanmışdır. XX əsrin 70-ci illərdinə "Əkinçi" "Bakı fəhləsi", "Şərq qapısı" qəzetlərinin, "Bakı" jurnalının və bir çox digər mətbu orqanlarla bağlı qərarlar qəbul olunmuşdur. 1975-ci ildə "Əkinçi" qəzetinin 100 illik yubileyi ilə əlaqədar olaraq qərar qəbul edilmiş və bu qərara məhz ümummilli lider Heydər Əliyev imza atmışdır [20, F.1, Siy.63, İş 29, v.118-119].

Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin inkişafına da böyük əhəmiyyət verirdi. Bu mənada onun totalitar rejiminin mövcudluğu şəraitində xalqın milli adət-ənənələrinin qorunmasını, inkişaf etməsini fəaliyyətinin vacib istiqamətlərindən biri hesab edirdi.

İnsanların həyat şəraitini ağırlaşdıran və nə vaxtsa kommunizm cəmiyyətinin qurulacağı vədi ilə xalqı aldadan Sovet imperiyası cəmiyyətin bir-birinə qarşı ədalətsizliyini artırmaq, mənəvi boşluq və haçalanma yaratmaq üçün dini aşkarcasına sıxışdırma kampaniyasını 1960-cı illərdə daha da dərinləşdirməyə başlamışdı. Ancaq 1969-cu ildə respublikada rəhbərliyə irəli çəkilən Heydər Əliyev milli-mənəvi dəyərlərin qorunması üçün məqsədyönlü addımlar atmışdı. Qeyd etmək lazımdır ki, Heydər Əliyevin vaxtilə DTK-da çalışması və bu təşkilata rəhbərlik etməsi Azərbaycan Respublikasında dinin düşdüyü çətinliklərin miqyası və onun dirçəlişi yolları barədə geniş şəkildə məlumat və təcrübə əldə etməsinə imkan vermişdi.

Onu da qeyd etmək lazımdır ki, 1970-ci illərdə artıq dağılma ərəfəsində olan yüzlərlə məscid, minarə, pir və ziyarətgah Heydər Əliyevin təşəbbüsü ilə yenidən bərpa edilmiş və qoruq statusu ilə Mədəniyyət Nazirliyinin balansına verilmişdi. Əgər 1970-ci illərə qədər fəaliyyət göstərən məscid, pir və ziyarətgahlarda yığılan nəzir pulları, ianələr mədəniyyət və başqa nazirliklərin hesabına keçirilirdisə, artıq 1970-ci illərin ortalarından etibarən bu pulların böyük hissəsi Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin hesabına keçirilməyə başlamışdı. Bu isə fəaliyyətdə olan dini obyektlərin maddi ehtiyaclarının aradan qaldırılmasına xidmət etmişdi. Qeyd etmək lazımdır ki, 1976-cı ildən başlayaraq Azərbaycandakı məscidlərin pul gəliri 10 dəfədən çox artmışdı. Belə ki, bu məbləğ 57,8 min manatdan 628,4 min manata çatmışdı. Bu fakt, eyni zamanda, insanların mənəvi qida almaq üçün mütəmadi olaraq məscidlərə gedib-gəlmək imkanı əldə etdiklərini də sübut etmək üçün kifayət edir. İslam dininə daha kəskin şəkildə müxalif olan və onu insanların mənəviyyatından çıxarıb atmağı qarşısına məqsəd qoymuş kommunizm rejiminin hakim olmasına baxmayaraq, Heydər Əliyev böyük siyasi

məharət və saf vətənpərvərlik ruhu ilə tamamilə ölgün bir vəziyyətə salınmış Azərbaycan xalqının milli-mənəvi dəyərlərindən olan dini dəyərləri – islam dəyərlərini dirçəltmişdi. Məhz o, respublikada siyasi vəziyyəti dəyişdikdən sonra hər bir vətəndaş öz dini tələbatını ödəmək üçün tam əmin-amanlıqla məscidlərdə ibadət edə bilirdi. 1970-ci illərin ortalarında artıq məscidlərdə ibadət edənlərin sayının 4-5 dəfə artması yuxarıda qeyd edilənlərə parlaq sübutdur. Bu yolda aparılan tədbirlərdə ən müsbət hal isə dini dəyərlərə meyil edənlərin böyük əksəriyyətinin gənclərdən ibarət olması idi.[6]

Vaxtilə keçirilməsi qadağan olunmuş dini bayram və mərasimlərin yenidən, rəsmi şəkildə olmasa da, xalq arasında dirçəlişi prosesi də məhz 1970-ci illərdən başlamışdı. Həmin illərdən etibarən Ramazan, Qurban bayramlarında, Sovet imperiyası tərəfindən yasaqlanmış aşura mərasimində məscidlərə gələn insanların sayı qat-qat artmışdı. Heydər Əliyev xalqın həyatından zorla qoparılmış mənəvi dəyərlərlə bağlı olan bayram və mərasimlərin dirçəlməsinə şərait yaratmaqla, imperiya tərəfindən xalqın taleyinə bu yolla daxil edilmiş sosialist bayramları hesab olunan Komsomol toyu, Çoban günü, Məhsul bayramı, Şöhrət bayrağı qaldırma günü və sair bunun kimi milli-mənəvi keyfiyyətlərə yad bayramlara qarşı xalqın marağını azaltmış olmuşdu.

Unikal şəxsiyyət, qeyri-adi zəka sahibi olan Heydər Əliyev bütün elm sahələrini gözəl bilirdi və hər hansı mütəxəssislə müvafiq sahə ətrafında peşəkarcasına fikir mübadiləsi apara bilirdi. Ulu öndər indiki Bakı Dövlət Universitetinin Tarix fakültəsində təhsil almışdı və tarix elmini də çox sevirdi. Deyirdi ki, xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın. 1969-cu ilin məşhur iyul plenumundan sonra geridə qalmış Azərbaycana rəhbər təyin edilən Heydər Əliyev ilk gündən respublikanın sürətli inkişafı istiqamətində düşünülmüş addımlar atmağa başladı. İqtisadiyyat, kənd təsərrüfatı, təhsil, səhiyyə və eləcə də elm sahəsində müşahidə edilən tərəqqi özünü çox gözlətmədi. Həmin illərdə Birinci katibin diqqət mərkəzində dayanan, himayəsində olan sahələrdən biri də tarix elmi idi. 1969-cu ilədək tam təhrif edilən, saxtalaşdırılan, müəmmalı erməni və rus mənbələri ilə "zənginləşdirilən" Azərbaycan tarixi məhz ulu öndərimizin sayəsində yenidən tədqiq olunmağa başladı, tarixçi alimlərə keçmişimizin tam dürüst araşdırılması üçün hər cür şərait yaradıldı. Milli mənsubiyyətimiz, xalqımızın formalaşma aspektləri kimi mühüm məsələlər məhz Heydər Əliyevin nəzarəti altında yenidən tədqiq edildi. Bu haqda nəşr olunan cild-cild kitablardan xəbərdar olan Kreml rəhbərliyi Azərbaycan tarixinə sovet tərzində yanaşmanı inkar edən tarixçi-alimlər barədə sərt tədbirlər görülməsini erməni millətçilərinin köməyi ilə təşkil etsələr də, bunun əksinə olaraq, Heydər Əliyev onların hamısını yüksək dövlət mükafatları ilə təltif etdi.

**Heydər Əliyev hələ 70-80-ci illərdə Azərbaycana rəhbərlik etdiyi vaxtlarda da Azərbaycanın gələcəyi, müstəqilliyi haqqında düşünürdü. Azərbaycanın müstəqil yaşaması üçün, mövcudluğu üçün, böyük imkanlara malik olduğuna tam əmin idi. Qeyd etmək lazımdır ki, o, respublikanın sosial-iqtisadi, milli-mədəni inkişafını yüksək səviyyədə təmin etməklə məhz bunun gələcəkdə əsas təməl olacağını nəzərdə tuturdu. Bu fikrini, ideyasını sonralar daha açıq şəkildə ifadə edirdi. 1996-cı ildəki çıxışlarının birində göstərirdi ki, «Mən keçmişdə də Azərbaycanın gələcəyi, müstəqilliyi haqqında düşünərkən və Sovet İttifaqı dağılan zaman bu barədə öz fikrini qəti bildirərkən Azərbaycanın müstəqil yaşaması üçün tam imkanı olduğu barədə fikirlərini deyərkən, eyni zamanda zəngin yeraltı sərvətlərimizlə, neft-qaz yataqlarımızla və başqa mədənlərimizlə bərabər, böyük sənaye potensialı ilə bərabər, geniş aqrar sektorda, kənd təsərrüfatı sahəsində, ərzaq məhsulları istehsalı sahəsində də Azərbaycanın böyük potensialını həmişə nəzərə alırdım» [1, s.55].**

**1969-1982-ci illərdə Azərbaycanın inkişaf tarixinin dinamikası belə bir fikri təsdiq edir ki, Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonrakı dövr, əslində, respublikamızın müstəqil dövlət quruculuğuna aparan yol olmuşdur. Heydər Əliyevin böyük əməyinin nəticəsində həyata keçirilən dəyişikliklərin həcminə, ictimai-iqtisadi islahatların səciyyəsinə görə 70-80-ci illər Azərbaycanın tarixində ən parlaq səhifələr təşkil etmişdir. 70-ci illərdən başlanan iqtisadi inkişaf, milli-mədəni dirçəliş, milli özünüdərk duyğularını, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı milli dövlətçilik ideyasının milli- azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsində mühüm zəmin oldu. 80-ci illərin sonu - 90-cı illərin əvvəlində müstəqillik uğrunda mübarizənin yüksəlişi Heydər Əliyevin rəhbərliyinin birinci**

**mərhələsində əldə edilmiş iqtisadi canlanma və milli mübarizlik ruhunun təşəkkülü nəticəsində mümkün oldu.**

***Nəticə***. Müstəqil Azərbaycan Respublikası zəngin mədəni irsini, ənənələrini davam etdirərək dünyanın mədəni cəhətdən inkişaf etmiş qabaqcıl ölkələrindən birinə çevrilmişdir. İftixarla demək lazımdır ki, bütün bu müvəffəqiyyətlərin kökündə məhz Heydər Əliyevin daxili və xarici siyasətinin uğurla həyata keçirilməsinin, xalqın mədəni irsinin, intellektual potensialının, bütövlükdə mədəni quruculuq sahəsindəki fədakar əməyinin və təşkilatçılıq bacarığının nəticəsidir.

Fəxr edirik ki, bu gün Azərbaycan xalqı müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin dövlətçilik xəttini çox böyük müvəffəqiyyətlə irəli aparan cənab İlham Əliyevin rəhbərliyi altında, ulu öndərin milli dövlətçilik ideyalarını əsas tutaraq sürətli inkişaf yolu ilə inamla və dayanmadan irəliləyir.

Azərbaycan xalqı çox xoşbəxtdir ki, ümummilli liderimizin alternativi olmayan düşünülmüş və müdrik siyasəti bu gün hörmətli prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan xalqı xoşbəxtdir ki, vətənimizin bundan sonrakı sürətli tərəqqisi etibarlı əllərdədir. Azərbaycan xalqı xoşbəxtdir ki, xalqını dərindən sevən prezidenti ilə əl-ələ verib qüdrətli dövlət, güclü Azərbaycan, inkişaf etmiş cəmiyyət qurur!

## ƏDƏBİYYAT


1. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Birinci kitab. Bakı: Azərnəşr, 1997, 612 s.
2. Hüseynova İ. Dövlətçilik naminə. Bakı: Azərbaycan, 2001, 294 s.
3. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.
4. Hüseynova İ. Tarix.Zaman.Düşüncələr. III cild. Bakı: Elm və təhsil, 2020, 432 s.
5. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı. Bakı: Təhsil, 2003, 504 s.
6. Prezident Fərmanının işığında: Elm və təhsilin vəhdət zərurəti / “Respublika” qəzeti, 7 sentyabr 2022.
7. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, Fond 1, siyahı 67, iş 118, vərəq 218
8. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, Fond 1, siyahı 68, iş 103, vərəq 173-175
9. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, Fond 1, siyahı 58, iş 113, vərəq 191
10. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, Fond 1, siyahı 59, iş 91, vərəq 69-71
11. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, Fond 1, siyahı 63, iş 43, vərəq 150
12. «Əsrlərə bərabər illər. 1969-1999. Faktlar və rəqəmlər»/Azərbaycan Respublikası Prezidentinin Katibliyi. Bakı: Nurol, 2002, 58 s.
13. О проведении 150-летия со дня рождения ашуга Алескера // Azərbaycan Respublikası Prezidenti Yanında İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Fond 1, Siyahı 58, iş 73, v. 51.
14. АОПД УДП АР. Ф. 1. Оп. 56. Д. 93, л. 202.
15. АОПД УДП АР. Ф. 1. Оп. 57. Д. 34, л. 289.
16. АОПД УДП АР. Ф. 1. Оп. 57. Д. 62, л. 258.
17. АОПД УДП АР. Ф. 1. Оп. 57. Д. 69, л. 7,9.
18. АОПД УДП АР. Ф. 1. Оп. 58. Д. 57, л. 207.
19. АОПД УДП АР. Ф. 1. Оп. 58. Д. 78, л. 24.
20. АОПД УДП АР. Ф. 1. Оп. 63. Д. 29, л. 118-119.
21. «Əsrlərə bərabər illər. 1969-1999. Faktlar və rəqəmlər» Bakı. 1999-cu il, s.5.
22. Развитие высшей школы в Советском Азербайджане. Bakı, 1984, s.135-136

23. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yanında keçirilən müşavirədə giriş sözü/"Azərbaycan qəzeti", 13 iyun 1995-ci il.
24. Hüseyn Cavid. Naxçıvan. 1996, s.33-39.
25. N.Nərimanov (Anadan olmasının 100 illiyinə həsr edilmiş yubiley təntənələrinin materialları). Bakı, 1974, s.55-56.

**ИРАДА ГУСЕЙНОВА**
*Зав. кафедрой «Истории народов Кавказа» Бакинского государственного университета, доктор исторических наук, профессор, Заслуженный учитель Азербайджанской Республики*

## ГЕЙДАР АЛИЕВ И ВОПРОСЫ КУЛЬТУРНОГО СТРОИТЕЛЬСТВА 70-Х И 80-Х ГОДОВ XX ВЕКА

В статье рассказывается об успехах, достигнутых великим лидером Гейдаром Алиевым в национально-культурной сфере в период его руководства Азербайджаном в 1970-х и 1980-х годах. Анализируются особая забота и внимание Гейдара Алиева в те годы к области науки и образования. Отмечается, что в результате особых усилий Гейдара Алиева был достигнут прогресс в области науки и образования, заложена основа для подготовки национальной кадровой базы будущего Азербайджана.

Кроме того, Гейдар Алиев не жалел сил для сохранения религиозных ценностей азербайджанского народа. Так, реставрация ряда религиозных памятников была осуществлена именно по инициативе Гейдара Алиева. Также Гейдар Алиев внес свой беспримерный вклад в сохранение азербайджанского языка и добился значительных успехов в направлении развития азербайджанского языка. Это было свидетельством ориентированной на будущее, продуманной, дальновидной политики. Сегодня реализуемая господином Президентом Ильхамом Алиевым национальная стратегия развития Азербайджанской Республики продолжается на основе мудрой политики Гейдара Алиева. Идеи Гейдара Алиева, которые считаются вчерашним, сегодняшним и будущим Азербайджана, обещают еще большие успехи нашей стране в ближайшие годы под руководством Президента Ильхама Алиева.

*Ключевые слова*: общенациональный лидер, развитие науки и образования, религиозные ценности, 1970-1980 гг.

**IRADA HUSEYNOVA**
*Head of the "History of Caucasian Peoples" department of Baku State University, doctor of historical sciences, professor, Honored teacher of the Republic of Azerbaijan*

## HEYDAR ALIYEV AND ISSUES OF CULTURAL CONSTRUCTION IN THE 70S AND 80S OF THE 20TH CENTURY

The article talks about the successes achieved by Great Leader Heydar Aliyev in the national and cultural field during his leadership of Azerbaijan in the 1970s and 1980s. In those years, Heydar Aliyev's special care and attention to the field of science and education is analyzed. It is noted that as a result of Heydar Aliyev's special efforts, progress was achieved in the field of science and education, and the foundation for the preparation of the national personnel base for the future of Azerbaijan was laid.

In addition, Heydar Aliyev spared no effort to preserve the religious values of the Azerbaijani people. Thus, the restoration of a number of religious monuments was carried out precisely on the initiative of Heydar Aliyev. Also, Heydar Aliyev made his unparalleled contributions to the preservation of the Azerbaijani language and achieved considerable progress in the direction of the

development of the Azerbaijani language. This was an indication of a future-oriented, thought-out, far-sighted policy. Today, the national development strategy of the Republic of Azerbaijan carried out by Mr. President Ilham Aliyev is continued based on the wise policy of Heydar Aliyev. Heydar Aliyev's ideas, which are valued as Azerbaijan's yesterday, today and future, promise greater success to our country in the coming years under the leadership of President Ilham Aliyev.

*Keywords*: national leader, development of science and education, religious values, 1970-1980 years.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*




**UOT 94(479.24)**

**NURU MƏMMƏDOV**

*Tarix elmləri doktoru, Bakı Dövlət Universitetinin*
*Azərbaycan tarixi kafedrasının professoru, Respublikanın Əməkdar Müəllimi*
**TarixVeOnunProblemleri@gmail.com**

# HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN QURUCUSU VƏ BANİSİDİR

*Dahi insan bəşəriyyət kitabının sərlövhəsidir*
Fridrix Hebbel
(Alman dramaturqu)

*Məqalədə görkəmli ictimai-siyasi və dövlət xadimi, müstəqil Azərbaycan Respublikasının qurucusu və banisi Heydər Əliyevin ölkəmizə rəhbərliyi illərində qazanılan fundamental nailiyyətlər haqqında konkret tarixi faktlar araşdırılmışdır. Tədqiqatlar zamanı qeyd edilir ki, XX əsrin nadir şəxsiyyətlərindən biri olan Heydər Əliyev ölkəmizə rəhbərliyi illərində məhz dahi şəxsiyyətin qüdrətli istedadı və təşkilatçıları sayəsində müstəqil Azərbaycan sürətlə inkişaf etdi, daxili və xarici siyasətdə fundamental nailiyyətlər qazanıldı. Aparılan geniş tədqiqatlardan aydın olur ki, bugünkü müstəqil Azərbaycanın qurucusu və memarı, banisi xalqımızın ümummilli lideri Heydər Əliyevdir.*

*Açar sözlər*: Heydər Əliyev, müstəqil Azərbaycan, dövlət, inkişaf, rəhbərlik, daxili və xarici siyasət, müstəqilliyin banisi.

***Giriş. Heydər Əliyev XX əsrin nadir şəxsiyyətlərindən biri olmaqla yanaşı Azərbaycanın bütün dünya ölkələri ilə strateji tərəfdaşlığının təməlini qoymuş, uğurlu və tarazlaşdırılmış siyasətin bünövrəsini yaratmış, beynəlxalq əməkdaşlığın prioritet istiqamətlərini hazırlamış, dövlətimizin gələcək inkişafının istiqamətlərini müəyyənləşdirmiş, güclü, idarə edilən dövlətin qüvvətli dayaqlarını yaratmış və bununla da XX əsrin reallıqlarında müstəqil və güclü Azərbaycan dövlətçiliyinin qurucusu və memarı olmuşdur.***

Görkəmli ictimai-siyasi və dövlət xadimi, Müstəqil Azərbaycan Respublikasının qurucusu və banisi Heydər Əliyevin anadan olmasının 100 illiyinin böyük qurur hissi ilə qeyd edilməsi millətin zəngin yaradıcı və tarixi potensialına istinad edilməklə xalqımızın milli-mənəvi və mədəni tarixində, ölkəmizin hərtərəfli inkişaf tarixində çox böyük əhəmiyyətə malik olan mühüm hadisədir. 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Prezident İlham Əliyevin imzaladığı Sərəncamda deyilir: "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlardan uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur" (1). Milli dövlətçilik və azərbaycançılıq fəlsəfəsini Azərbaycan mentaliteti ilə birləşdirən Heydər Əliyev özünün fenomenal siyasi keyfiyyətləri sayəsində bütün mütərəqqi qüvvələri müstəqilliyin qorunması ətrafında cəsarətlə birləşdirə bilmiş, xalqın və dövlətin demokratik dəyərlər qanunu ilə idarə edilməsinin zəngin məktəbini yaratmışdır. Bu məktəbin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası daxili və xarici siyasətdə böyük nailiyyətlər qazanmış, sosial,

iqtisadi, mədəni və beynəlxalq sahədə fundamental müvəffəqiyyətlərə nail olmuş, iqtisadi inkişaf sürətinə görə lider dövlətə çevrilmişdir. Heydər Əliyevin yaratdığı yeni-yeni dövlət strukturları, müəyyən etdiyi inkişaf strategiyası müstəqilliyimizin möhkəmlənməsini müəyyən edən başlıca istiqamətlərdir. Prezident İlham Əliyevin dediyi kimi, 1993-2003-cü illərdə 10 il ərzində görülmüş işlər bir əsr ərzində görülmüş işlərə bərabərdir (9). Məhz Heydər Əliyevin böyük fəaliyyəti nəticəsində Azərbaycan dövləti qurulmuş və dövlətçilik prinsipləri inkişaf etdirilmişdir.

Heydər Əliyev şəxsiyyəti ümumxalq zəkası ilə ayrılmaz bir vəhdətdə, vahid bir ideyada birləşmişdir. Heydər Əliyev Azərbaycan xalqının bütün yaradıcılıq potensialını, xidmətlərini müstəqillik ideyalarında birləşdirən və bu müstəqilliyi daha da möhkəmləndirən ümummilli lider səviyyəsinə yüksəlmişdir. Heydər Əliyev demişdir: “ Müstəqilliyi qorumaq və onun möhkəmləndirilməsi, əbədi edilməsi hər birimizdən var qüvvəsini sərf etməyi tətltəb edir” (2, s.53).

Uca Allahın əmri ilə Məhəmməd Peyğəmbər (ə.s.) yer üzünə nurlu bir çıraq olaraq göndərildiyi kimi (14, s.33, 46), Heydər Əliyevi də Azərbaycan xalqının qismətinə xilaskar bir rəhbər kimi, nurlu bir başçı kimi, xalqımızı mövcud bəlalardan xilas edə bilən, qısa zaman kəsiyində Azərbaycanın inkişafına nail ola bilən Ilahi bir varlıq kimi, qüdrətli bir dövlət xadimi kimi göndərdi.

“Dövlətçilik salnaməsində silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev” (1) özünün geniş fəaliyyəti ilə müstəqilliyimizin qorunmasında müasir inkişaf etmiş modern dövlətimizin yaradılmasında əvəzsiz xidmətlər göstərmişdir.

Əgər dərindən araşdırsaq, o zaman hər kəsə gün kimi aydın olar ki, bugünkü nailiyyətlərimizin kökündə Heydər Əliyev dövlətçiliyinin möhkəm təməl prinsipləri dayanır. Və bu fundament üzərində müasir inkişaf strategiyası qərar tutur. Deməli, Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi və mənəvi-mədəni inkişafının bütün istiqamətləri elə müəyyənləşdirilmişdir ki, o, ancaq Azərbaycan xalqına xidmət etmək amalında bərqərar olur. Bununla da tarixi baxımından bu inkişaf dialektikası sanki ardıcıl davam edərək irsən daha yüksək nailiyyətlər qazanılır. Bu gün müstəqil Azərbaycanın daxili və beynəlxalq uğurları dediklərimizə sanballı sübutlardır, dəlillərdir.

Son iki əsrin qovşağında Azərbaycanda baş verən köklü dəyişikliklər ölkəmizin gələcək inkişafını müəyyənləşdirən başlıca amillərdən biri oldu. Bu illərdə Azərbaycan müstəqillik qazanmaqla yanaşı özünün ərazi bütövlüyünü itirməklə də üz-üzə qaldı. Hələ 1988-ci ildən başlayaraq erməni millətçi şovinistlərinin uydurduğu Qarabağ problemi getdikcə dərinləşərək qanlı faciələr törədilməsi ilə nəticələndi. Belə bir vaxtda erməni təcavüzünün qarşısını almaq üçün və müstəqillik uğrunda genişlənən azadlıq hərəkatı səkkiz milyonluq Azərbaycan xalqını ayağa qaldırdı və onun qarşısına yeni tarixi vəzifələr qoydu. Azərbaycanı müstəqil görmək arzusu ilə yaşayan xalqımız özünün azadlıq mübarizəsini daha da genişləndirdi və nəticədə dövlət müstəqilliyini bərpa edə bildi. Bu, xalqımızın azadlıq və müstəqillik uğrunda apardığı prinsipial mübarizəsində qazandığı parlaq nailiyyət və böyük tarixi qələbə idi. Beləliklə, 1991-ci il oktyabrın 18-də Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsi ilə xalqımız özünün öz müstəqilliyini yenidən qazandı və əsrin əvvəllərində itirilmiş müstəqilliyimiz bərpa olundu. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin dediyi kimi, müstəqil Azərbaycan Respublikası bizim ən böyük tarixi nailiyyətimizdir və Azərbaycanın müstəqilliyi daimidir, dönməzdir, əbədidir.

Azərbaycanın müstəqillik aktı qəbul edildikdən sonra qarşıda hələ çətin və mürəkkəb vəzifələr dururdu. Bir tərəfdən erməni təcavüzü genişlənir, torpaqlarımız işğal edilir, digər tərəfdən ölkə daxilində hakimiyyət uğrunda siyasi çəkişmələr güclənir və nəticədə xalq ağır itkilər verirdi. Azərbaycanın belə ağır vaxtında müxtəlif bölgələrdə yaranan silahlı qruplaşmalar ölkəni parçalamaq, hakimiyyəti ələ keçirmək niyyəti ilə çıxışlar və qiyamlar etməyə başladılar. Azərbaycan çox çətin dilemma qarşısında qalmışdı. 90-cı illərin əvvəllərində ölkə iqtisadi, siyasi və hərbi böhran içərisndə idi, dərinləşməkdə olan çəkişmələr və hakimiyyət böhranı ölkəni iflic vəziyyətə salmışdı. Dünya azərbaycanlılarının II qurultayında (mart-2006) Azərbaycan Prezidenti cənab İlham Əliyevin dediyi kimi, «bütövlükdə Azərbaycan dövlətinin taleyi sual altında idi».

Dövlət müstəqilliyini qazanan Azərbaycan xalqı iyirminci yüzilliyin 90-cı illərin əvvəllərində ağır sosial-iqtisadi və siyasi problemlərlə üz-üzə qaldı. Azərbaycanda baş verən ciddi sosial-siyasi proseslər, Dağlıq Qarabağ problemi və Ermənistan-Azərbaycan müharibəsi respublikanın iqtisadiy-

yatına və sosial-mədəni həyatına ağır zərbə vurmuş, onu iflic vəziyyətinə salmışdı. Gündən-günə maddi nemətlər istehsalı azalır, iqtisadi tənəzzül dərinləşirdi. Bakıda, Gəncədə, Naxçıvanda, Lənkəranda, Şamaxıda, Şəkidə, Qubada, Şəmkirdə, Qazaxda və respublikanın bütün şəhərlərində və sənaye mərkəzlərində zavodlar və fabriklər dağıdılır, onların avadanlıqları amansızcasına talan edilir, əsas istehsal vasitələri və maşınqayırma avadanlıqları, neft maşınqayırma zavodları işi dayandırır və böyük əksəriyyəti məhv edilirdi. Respublikanın aparıcı sənaye müəssisələri son dərəcə ağır vəziyyətə düşmüş, dərin iqtisadi böhran genişlənirdi.

Respublikanın sənaye obyektlərinin, zavod və fabriklərin bütün sahələrinin ağır vəziyyətə düşməsi kənd təsərrüfatı iqtisadiyyatına da güclü zərbə vürmüşdü. Ölkənin bütün rayonlarında və kəndlərində kolxoz və sovxozlar məhv edilir, əvəzində isə yeni yaradılan fermer təsərrüfatları gözlənilən nəticələri vermirdi. Kolxoz və sovxozların maşın-traktor parkları, kənd təsərrüfat avadanlıqları, texniki qurğuları, kombayn və ekskavatorları, meliorasiya qurğuları köhnəlmiş, sıradan çıxmış, suvarma kanalları bərbad hala düşmüşdür. Torpaqların çoxu becərilmədiyindən yararsız hala düşmüş, çox hissəsi şoranlaşmışdı.

İqtisadiyyatda hərc-mərclik baş alıb gedirdi. Yalançı rəhbərlər və idarə müdirləri işə məsuliyyətsiz yanaşır, nəzarətsizlik artır və nəticədə iqtisadiyyata böyük ziyan dəyirdi. Respublika talanır, xalqın sərvəti dağıdılırdı. Müəssisələrin avadanlığı sökülüb xaricə daşınırdı. Hətta Bakı metrosunun ehtiyat kabelləri də oğurlanıb satılmışdı. Nadir ağaclar olan meşələrimiz talanır və qırılıb məhv edilirdi. Oğuz, Zaqatala, Qazax, Qəbələ, Şəki, Lerik, Cəlilabad meşələri, məhv edilirdi. 1992-ci ildə pambıq sahələrindən 100 min tondan çox məhsul yığılmamış, çoxlu üzüm məhsulları torpaqlarda qalıb xarab olmuşdu.

Müəssisələr bağlanır, işsizlik artır, əhalinin güzəranı və sosial vəziyyəti sürətlə pisləşirdi. Ölkənin maliyyə sistemi bərbad vəziyyətə düşmüş, infilyasiya sürətlə artmışdı. 1991-1993-cü illərdə respublikanın mövcud iqtisadi və mədəni potesialından, zavod və fabriklərdən, kommunikasiya vasitələrindən və yüksək ixtisaslı mütəxəssislərindən istifadə olunmurdu.

Beləliklə, ölkə iqtisadiyyatı ciddi sarsıntılara məruz qalmış, maddi nemətlər istehsalı və gündəlik tələbata olan ehtiyac əşyaları, ərzaq istehsalı xeyli geriləşmişdi. Belə bir vaxtda Respublikada tədricən yeni-yeni iqtisadi institutlar meydana gəlirdi, milli və beynəlxalq əmanət bankları, özəl banklar təşkil olunurdu. Dövlət, torpaq, əmlak komitələri yaradılmışdı. Milli valyuta – manat dövriyyəyə buraxılmışdı.

Ancaq bu tədbirlərin heç biri mövcud vəziyyətdən çıxış yolu deyildi. Çünki ölkə iqtisadiyyatının bərpası və inkişafı üçün düşünülmüş və əsaslandırılmış dövlət proqramının hazırlanmasına kəskin ehtiyac var idi.

Dövlət müstəqilliyi qazanan Azərbaycan xalqı doxsanıncı illərin əvvəllərində ciddi imtahan qarşısında qalmışdı. Ölkədə dərin və təhlükəli ictimai, siyasi və iqtisadi böhran yaranmışdı. Həmin dövrün ətraflı təhlilini verən ümummilli lider Heydər Əliyev demişdir: "… Vəziyyət elə təhlükəli xarakter almışdı ki, 1991-ci ildə yaranmış müstəqil dövlətimiz qəsdən və yaxud səriştəsizlikdən yaranan idarəsizlik nəticəsində real itirilmək təhlükəsi ilə üz-üzə qalmışdı. Beləliklə, 1991-1993-cü illər Azərbaycanın Müstəqillik tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan "ölüm, ya olum" dilemması qarşısında qalmışdı" (2, s.34). Azərbaycan xalqının belə ağır və çətin vaxtında hamının diqqəti o zaman Naxçıvan Ali Sovetinin Səlri vəzifəsində çalışan Heydər Əliyevə yönəldi. Çünki xalqı belə ağır vəziyyətdən qurtara bilən yeganə dünyəvi şəxsiyyət ancaq və ancaq Heydər Əliyev ola bilərdi. Azərbaycan ziyalılarının və Azərbaycan xalqının xahişi ilə, Ə.Elçibəyin dəvəti ilə müdrik el ağsaqqalı, zəngin dövlətçilik təcrübəsi olan görkəmli dövlət xadimi Heydər Əliyev 1993-cü il iyunun 9-da Bakıya gəldi, iyunun 15-də Respublika Ali Sovetinin (indiki Milli Məclis) sədri seçildi. Həmin gün Azərbaycan xalının şərəfli tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Heydər Əliyev ümumxalq səsverməsi yolu ilə 1993-cü ilin oktybarında Azərbaycan Respublikasının Prezidenti seçildi.

Azərbaycan xalqının tarixində yeni bir dövr başlandı. Milli Məclisin 1997-ci il 27 iyun tarixli iclasında 15 iyun günü ***«Milli Qurtuluş günü»*** elan edildi.

Dövlət başçısı kimi fəaliyyətə başladığı ilk gündən Heydər Əliyev ölkəmizin daxili və xarici siyasət proqramını hazırladı, dağıdılmış iqtisadiyyatın bərpa və inkişaf etdirilməsinin strategiyasını

müəyyənləşdirdi, azad bazar iqtisadiyyatına doğru dərin və əhatəli sosial-iqtisadi, siyasi və mədəni islahatlar kursunu inkişaf etdirdi. Prezident Heydər Əliyev qısa zamanda ölkənin sosial-iqtisadi, siyasi və mədəni inkişafının elmi cəhətdən əsaslandırılmış proqramını hazırladı. Dünya sivilizasiyanın inkişaf proqramından və təcrübəsindən istifadə edərək milli iqtisadiyyatın inkişafının spesifik cəhətləri, xüsusiyyətləri və milli mentalitetimizə uyğun bütün parametrləri nəzərə alınaraq yeni-yeni layihələr və dövlət proqramları hazılandı. Ölkəmizin inkişaf dövrü başlandı. Bu gün həyata keçirilən tədbirlər və inkişaf strategiyası onu göstərir ki, ".....ulu öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin banisidir" (9).

İyirminci yüzilliyin üçdə biri qədər ölkəmizi idarə edən bu dahi şəxsiyyət qısa zaman kəsiyində nəinki Azərbaycanı dünyaya tanıtdıra bildi, habelə Azərbaycan sivilizasiyalı dövlətlər bərabərliyinə yüksələ bildi. İstər sovet məkanı vaxtında və istərsə də müstəqilliyimiz illərində Azərbaycan sosial-iqtisadi, siyasi, mədəni, elm və təhsil sahəsində fundamental nailiyyətlər qazandı, demokratik dəyərlərə malik yüksək göstəricilər əldə edə bildi. Unutmaq olmaz ki, Azərbaycanın tarixi əsrin üçdə biri qədər bu xalqa rəhbərlik edən dahi şəxsiyyət Heydər Əliyevin adı və fəaliyyəti ilə sıx bağlıdır. Azərbaycanın möhtərəm prezidenti cənab İlham Əliyev demişdir: "***Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır***" (8).

Azərbaycanın 1969-cu ildən bəri yaşanan dövrü xalqımızın tarixinə Heydər Əliyev dövrü kimi əbədi həkk olmuşdur. Bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş Heydər Əliyev özünün geniş və böyük fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Xalq da heç vaxt ondan öz diqqətini əsirgəməmişdir. Əgər biz Vətən tariximizə nəzər salsaq, onun hər hansı bir ömür kitabını vərəqləsəq, onda görərik ki, Heydər Əliyev sözün əsil mənasında ümumxalq məhəbbəti qazanan müdrik el ağsaqqalı, görkəmli ictimai- siyasi dövlət xadimi, dünyanın tanımış şəxsiyyəti və dövlət rəhbəri, ayrı-ayrı dünya ölkələrində siyasi və dövlət rəhbərləri içərsindən seçilmiş «İlin adımı» olmuşdur. Heydər Əliyevin bir sözü ilə, bir müraciəti ilə milyonlarla insan ayağa qalxdı, hərəkətə gəldi, öz rəhbərinin arxasınca getməyə, onu ən çətin anlarda müdafiə etməyə, ona arxa olmağa, ona dəstək verməyə, onu şər qüvvələrdən qorumağa and içdi. "Heydər-xalq, xalq-Heydər" şüarı xalqımızın dil əzbəri oldu və nəğmələrə çevrilib yaddaşlara hopdu. Azərbaycan xalqının bugünkü firavan yaşaması, müstəqilliyimizin möhkəmlənməsi, dövlətimizin qüdrətlənməsi məhz dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyevin xidmətləridir.

Heydər Əliyev Azərbaycan dövlətçiliyinin bütöv bir təlimini və onun inkişaf strategiyasının uğurlu istiqamətlərini yaratdı. Heydər Əliyev dövlətçilik konsepsiyasının bütün istiqamətlərini hazırlamış və uğurla inkişaf etdirmişdir. "Heydər Əliyev qısa müddətdə milli dövlətçilik doktrinasını irəli sürmüş və onun sürətli icrasına başlamıdır" (15, s.133).

Heydər Əliyevin ictimai-siyasi və dövlət quruculuğu sahəsindəki fəaliyyəti o vaxta qədərki Azərbaycan gerçəkliyinin və mənliyinin canlı ensiklopediyasıdır. Azərbaycan xalqının elə bir müqəddəs arzusu və niyyəti, fikir və ümid çırpıntısı, azadlıq və mücadilə mübarizəsi yoxdur ki, bir möcüzə kimi Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyətində əbədiləşməsin. Ulu öndərin ecazkar gücü və qüdrətli təşkilatçılığı ilə müstəqillik ideyaları zamanın sovet məkanında da parlaq və şəfəqlənən ideala çevrilmiş, sanki gələcək azadlıq mübarizəsinin konturlarını müəyyənləşdirmişdir.

İlham Əliyevin imzaladığı Prezident Sərəncamında deyildiyi kimi, 70-ci illərdə Ulu Öndərin "atdığı qətiyyətli addımlar müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir" (1). Heydər Əliyev bəşər həyatının ən yüksək zirvəsindən insan azadlığını və müstəqilliyi tanrı vergisi kimi müqəddəs bilmiş, hələ vaxtında, yəni ötən əsrin 70-ci illərində keçmişlə gələcəyi bir-birinə bağlayan və bir-birini tamamlayan qırılmaz vasitə kimi əlaqələndirmə körpüsü yaratmış və beləliklə, Azərbaycan xalqının vahidliyini düşünərək tarixi tərəqqinin inkişaf istiqamətlərini və müstəqillik yollarını müəyyən etmişdir. Əslində də ürəyində olan arzu və ideyaların əməli işə çevrilməsini, praktikada onun təsdiqi dahi insanların ölməzliyidir və sağlığında ikən əbədi məşələ çevrilməsidir. Bu arzu və ideyalarla yaşayan və dövlət vəzifələrini icra edən Heydər Əliyev hər bir Vətən övladının qəlbində özünə əbədi heykəl yarada bilmiş, xalqımızın sevgi dolu dövlət rəhbəri olmağa, layiqli vətən övladı olmağı işdə sübut edə bilmişdi.

Heydər Əliyev tərəfindən yaradılmış yeni-yeni dövlətçilik strukturları daxili mahiyyətinə və vəzifələrinə görə bəşəri məzmun daşıyır və elmi baxımdan daha dolğun və daha düzgün istiqamətləndirilmişdir ki, bugünkü uğurlarımız və nailiyyətlərimiz də həmin köklərə və həmin mənbələrə söykənir. Hazırda dünyanın bir çox dövlət xadimləri onu yüksək qiymətləndirirlər.

Əgər biz desək ki, müstəqillik uğrunda mübarizə aparan və müstəqilliyimizi də qazanan Azərbaycan xalqının özüdür, bütün tarix boyu inkişaf edib öz milli tarixini, ədəbiyyatını və mədəniyyətini, mentalitetinin bütün dəyərlərini də zənginləşdirən xalqımızın özüdür, onun zəkasıdır. Bu, doğrudan da belədir. Ancaq bununla belə bu zəngin mədəniyyəti daha da inkişaf etdirmək, ümumdünya səviyyəsinə yüksəltmək istedadı və bacarığı dahi şəxsiyyət olan, müstəqilliyimizin möhkəmləndirilməsinə var qüvvəsi ilə çalışan məhz Heydər Əliyev olmuşdur.

Heydər Əliyev 1993-cü ilin oktyabrında 98,8 faiz səslə Azərbaycan Respublikasının Prezidenti seçildi. Andiçmə mərasimində çıxış edən Prezident Heydər Əliyev qarşıdakı böyük və mürəkkəb vəzifələrin dayandığını və onların həlli yollarının istiqamətlərini, bir sözlə müstəqil dövlətimizin daxili və xarici siyasətinin konseptual vəzifələrini konkret müəyyənləşdirdi. Andiçmə mərasimində dedi: "Əlimi Azərbaycan Respublikasının Konstitusiyasına və Qurani-Kərimə basaraq and içirəm ki, biliyimi, təcrübəmi, qüvvəmi Azərbaycan xalqının, Azərbaycan Respublikasının rifahına həsr edəcəyəm, xalqımızın milli-mənəvi ənənələrinə daim sadiq olacaq və bu ənənələrin bərqərar olmasına təminat yaradacağam"(13, s.519).

Heydər Əliyevin ictimai-siyasi və dövlətçilik fəaliyyəti, onun proqram xarakterli çıxışları, nitq və məruzələri, çağdaş tariximizin sistemli-müqayisəli formada öyrənmək baxımından çox qiymətli bir məxəzdir və zəngin tarixi mənbədir.

Apardığımız tədqiqatlar və araşdırmalar nəticəsində aydın olur ki, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizdə köklü islahatlar aparıldı və fundamental əhəmiyyətə malik olan tədbirlər həyata keçirildi. Konkret desək, zənnimizcə həmin tədbirlər əsasən aşağıdakılardır:

***Birincisi,*** Böyük dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyevin birinci dəfə Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə fundamental nailiyyətlər qazanıldı. Həmin illərdə respublikada 250-dən çox zavod, fabrik və digər sənaye müəssisələri, o cümlədən Mingəçevir və Şamxor SES-ları, Bakı kondisioner zavodu, Sumqayıt kompressorlar zavodu, Gəncədə xalça zavodu, qənnadı zavodu, çini-saxsı qablar zavodu, Əli-Bayramlı məişət cihazları zavodu, Bakıda neft emal zavodu, neft maşınqayırma zavodu, ELOU-AVT üzən qurğusu, Naxçıvanda, Balakəndə, Zaqatalada və Xankəndində aeroportlar, Bakıda yeni təyyarə limanı, Yevlax-Balakən və Ağdam-Xankəndi dəmir yolları, Bakı metrosunun 2-ci növbəsi, Bakıda 7 mikrorayon, Badamdar, Əhmədli, Hövsan yaşayış kompleksləri və digər sənaye müəssisələri tikilib istifadəyə verildi. Heydər Əliyevin göstərişi ilə Azərbaycanda 6 yeni ali məktəb, C.Naxçıvanski adına hərbi məktəb, çoxlu təhsil müəssisələri yaradıldı, milli yaddaş və milli özünüdərk ideyaları inkişaf etdirildi. Nizami, Nəsimi, Gəncə, Babək adına rayonlar yaradıldı.

1978-ci ildə qəbul edilən Azərbaycan SSR-in yeni Konstitusiyasında 15 sovet respublikaları içərisində yeganə olaraq bizim Əsas Qanunumuzda Azərbaycan dili rəsmi dövlət dili kimi Konstitusiyaya daxil edildi.

Nizami, Əcəmi, Nəsimi, Tusi, Vaqif, Aşıq Ələsgər, Aşıq Alı, Ü.Hacıbəyov, M.Maqamayev, H.Cavid və başqalarının təntənəli yubileyləri keçirildi. Taqanroqda, Sevestapolda milli diviziyaların şərəfinə abidələr ucaldıldı. Heydər Əliyevin Azərbaycana rəhbərliyi illərində 350 adda sənaye məhsulu dünyanın 65 ölkəsinə ixrac edilirdi. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illər ***Azərbaycan tarixində dönüş mərhələsi*** adlanır. Çünki həmin illərdə Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafda böyük nailiyyətlər qazanıldı (2, s.20-21).

***İkincisi,*** Heydər Əliyev 1990-cı ilin iyununda Bakıya, oradan da Naxçıvana gəldi, 1991-ci ilin sentyabrından Azərbaycan xalqının ***qurtuluş hərəkatı*** başlandı və bu qurtuluş hərəkatına başçılıq etməyə başladı. Naxçıvana rəhbərlik etdiyi illərdə Heydər Əliyevin təşəbbüsü ilə ***əvvəla,*** muxtar respublikanın adından «sovet sosialist» sözləri çıxarıldı, ***ikincisi***, «Ali Sovet», «Ali Məclis» adlandırıldı, ***üçüncüsü***, ADR-in üçrəngli bayrağı ilk dəfə Naxçıvan MR-ın dövlət bayrağı kimi qəbul edildi, ***dördüncüsü***, Kommunist partiyasının fəaliyyəti dayandırıldı, ***beşincisi,*** SSRİ-nin saxlanılması barədə referendumdan imtina edildi, ***altıncısı***, 20 yanvar faciəsinə ilk dəfə MR-da siyasi və hüquqi qiy-

mət verildi, y***eddincisi,*** Dünya azərbaycanlılarının həmrəylik gününün qeyd olunması barədə tarixi qərar qəbul edildi. Bu cəsarətli addımların atılması Naxçıvanı qurtuluş mücadiləsinin önünə çıxardı və Heydər Əliyevə ümumxalq məhəbbəti daha da artdı. Bütün Azərbaycan xalqı aydın şəkildə başa düşdü və dərk etdi ki, ölkəni bu xaosdan qurtara bilən yeganə şəxsiyyət və dövlət rəhbəri ancaq və ancaq Heydər Əliyev ola bilər (16).

***Üçüncüsü,*** Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası ilə əldə edilən nailiyyətlər və doxsanıncı illərin əvvəllərində ölkədə yaranmış dərin siyasi hakimiyyət böhranı, Dağlıq Qarabağ və Ermənistan-Azərbaycan müharibəsi, erməni millətçi silahlı birləşmələri tərəfindən torpaqlarımızın işğalı dövlət müstəqilliyimizin taleyini təhlükə qarşısında qoydu. Belə ağır və mürəkkəb vaxtda Azərbaycan xalqının təkidli xahişi ilə Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı xalqımızın tarixinə Milli Qurtuluş günü kimi daxil oldu və dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində Heydər Əliyevin hərtərəfli fəaliyyəti daha da genişləndi, qətiyyətli və prinsipial uğurlar əldə edildi. "Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə dövlətçilik institutunun əsl simasını özünə qaytardı, xalqın dövlətçilik barədə təsəvvürləri tamamilə dəyişdi" (15, s.132).

***Dördüncüsü,*** Heydər Əliyevin respublikaya rəhbərliyə başladığı ilk gündən əsas diqqət ölkə daxilində siyasi parçalanmanın və vətəndaş qarşıdurmasının qarşısının alınmasına, sakitliyə və sabitliyə, cəbhədə atəşkəsə nail olunmasına, sürətlə artmaqda olan inflyasiyanın qarşısının alınmasına, azad bazar iqtisadiyyatına doğru dərin sosial-iqtisadi, siyasi və mədəni islahatların həyata keçirilməsinə yönəldildi. Prezident İlham Əliyevin dediyi kimi, sabitlik inkişaf üçün əsas şərtdir (12).

Qısa zaman kəsiyində Heydər Əliyevin çox böyük təşkilatçılığı və rəhbərliyi, məqsədyönlü siyasəti sayəsində Azərbaycan xalqının milli birliyi bərqərar oldu, ictimai, siyasi sabitlik bərpa olundu, hakimiyyət böhranı aradan qaldırıldı, əhəmiyyətli qərarlar və fərmanlar qəbul edildi, təsirli tədbirlər həyata keçirildi, müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsi üçün əsaslı şərait yarandı.

***Beşincisi,*** Heydər Əliyevin qətiyyəti, prinsipiallığı, diplomatik səyi və böyük dövlətçilik təcrübəsi sayəsində dövlətçiliyimizə və müstəqilliyimizə qarşı edilən bütün qəsdlərin qarşısı müvəffəqiyyətlə alındı, dövlətçiliyimizə qarşı törədilən qəsdlər ləğv edildi. Azərbaycanın dövlət müstəqilliyinə qarşı yönəldilmiş qəsdlərin aradan qaldırılması istiqamətində həyata keçirilən qətiyyətli tədbirlər bir daha real faktlarla sübut etdi ki, respublikamızda qiyam üçün heç bir sosial və siyasi baza yoxdur, xalq öz prezidentini ürəkdən sevir, onun müdrik daxili və xarici siyasi xəttini bəyənir və dəstəkləyir.

***Altıncısı,*** Qısa zamanda Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasının xarici siyasət strategiyasının konseptual, elmi əsasları yaradıldı, bütöv bir təlimin beynəlxalq münasibətlər sisteminə uyğunlaşdırılması istiqamətləri, prinsip və vəzifələri, düşünülmüş taktiki yolları, dünya dövlətləri ilə əlaqələrin yaxın və uzaq strategiyası müəyyənləşdirildi. Hazırlanan Proqramda sülhsevərlik, mehriban qonşuluq və dinc yanaşı yanaşmaq prinsipləri, başqasının daxili işlərinə qarışmamaq, qarşılıqlı faydalı əməkdaşlıq kimi yüksək bəşəri dəyərlər öz əksini tapdı.

Heydər Əliyev hakimiyyətə başladığı ilk gündən milli xarici siyasət konsepsiyasını hazırlayıb başa çatdırmaq üçün bütün qüvvələri və potensial imkanları bir mexanizm kimi hərəkətə gətirdi. Mütəxəssis alimlərin potensial qüvvələrini səfərbərliyə aldı, dünya təcrübəsindən istifadə edərək yeni və elmi cəhətdən əsaslandırılmış xarici siyasət doktrinasının dövlət proqramını və onun başlıca istiqamətlərini hazırladı. Respublikamızın geosiyasi vəziyyətini və beynəlxalq siyasətə təsir etmə imkanlarının dərin elmi, nəzəri və praktik təhlili əsasında xarici siyasət konsepsiyasında mövcud reallıqları nəzərə alaraq ölkənin mənafe və maraqlarının qorunmasına yönəlmiş dəyişikliklər edildi. İlk növbədə müstəqil dövlətimizin beynəlxalq münasibətlər müstəvisində dünya dövlətləri ilə əlaqələrinin başlıca istiqamətləri müəyyənləşdirildi, planetin ayrı-ayrı böyük və xırda dövlətləri ilə dərindən düşünülmüş əlaqələr sistemi yaradıldı. Prezident Heydər Əliyev dövlətimizin xarici siyasət proqramını belə müəyyənləşdirirdi: "Azərbaycan dövlətinin xarici siyasətinin başlıca prinsipləri beynəlxalq hüquq normaları ilə tənzimlənən dövlətlərarası münasibətlərə hörmət etməkdən, bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaqdan, bütün mübahisəli məsələləri sülh və danışıqlar yolu ilə həll etməkdən, qarşılıqlı əməkdaşlıq yaratmaqdan, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaqdan ibarətdir" (3, s.516). Bununla da Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasının xarici siyasət strategiyasının əsasları yaradıldı, bütöv bir təlimin beynəlxalq münasibətlər sisteminə uyğunlaşdırılan istiqamətləri, prinsip və vəzifələri, həyata keçirilməsinin elmi

cəhətdən dərindən düşünülmüş taktiki yolları müəyyənləşdirildi ki, həmin demokratik prinsiplər onun dünyəvi əhəmiyyətini xeyli artırdı.

Təkcə bu faktı demək kifayətdir ki, Azərbaycan Respublikası XX əsrin əvvəllərində dünyanın təqribən 137 ölkəsi ilə diplomatik əlaqə qurmuşdur. Azərbaycanda 63 xarici dövlətin səfirlikləri fəaliyyət göstərirdi. Öz növbəsində Azərbaycanın 21 xarici ölkədə səfirliyi, daimi nümayəndəliyi və konsulluğu fəaliyyət göstərirdi (2, s.41).

Prezident İlham Əliyevin uğurlu diplomatik siyasəti nəticəsində hazırda Azərbaycanda dünyanın 66 dövlətinin səfirliyi, 4 baş konsulluğu, 3 fəxri konsulluğu, 22 beynəlxalq təşkilatın nümayəndəliyi fəaliyyət göstərir. Öz növbəsində ölkəmiz dünyanın 170-ə qədər ölkəsi ilə diplomatik münasibətlər yaratmışdır. Azərbaycanın isə dünyanın 59 ölkəsində səfirliyi, 9 baş konsulluğu, 5 beynəlxalq təşkilat yanında daimi nümayəndəliyi, 15 fəxri konsulluğu fəaliyyət göstərir (17).

***Yeddincisi,*** Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunun həyata keçirilməsində, milli dövlət strukturlarının yaradılmasında və formalaşmasında Yeni Konstitusiyanın (1995-ci il) qəbul edilməsinin böyük əhəmiyyəti oldu. Milli Konstitusiyamızın qəbul olunması Azərbaycanda dövlət müstəqilliyinin daimi, ədəbi olunmasını bir daha dünyaya sübut etdi, demokratik vətəndaş cəmiyyəti quruculuğuna, insanların azad və sərbəst yaşamalarına, insan haqları və hüquqlarının genişlənməsinə əlverişli şərait yaratdı.

Deməliyik ki, müstəqil dövlətimizin Konstitusiyası Heydər Əliyevin şah əsəridir. Ona görə ki, milli Konstitusiyasının hazırlanması və qəbul edilməsinin müəllifi məhz Heydər Əliyevdir.

***Səkkizincisi***, Azərbaycan tarixinin ən parlaq səhifələrindən biri olan «Əsrin müqaviləsi» sazişlərinin imzalanması Heydər Əliyev dühasının düşünülmüş və uzaqgörən diplomatiyasının böyük və tarixi qələbəsi, neft strategiyası siyasətinin parlaq uğuru idi**.** Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə beynəlxalq əhəmiyyətə malik olan neft kontraktları haqqında 1994-cü il sentyabrın 20-də sazişlərin imzalanması müstəqil Azərbaycanı dünyanın nəhəng dövlətlərinin diqqət mərkəzinə gətirdi. İri dövlətlərin böyük neft şirkətləri tezliklə bu müqaviləyə qoşulması istəkləri artdı. Azərbaycan neft sənayesinin inkişafına beynəlxalq sərmayələrin qoyulması çoxaldı. Azərbaycan neft sənayesi sürətlə inkişaf etməyə başladı. Heydər Əliyevin rəhbərliyi ilə tezliklə ***Bakı-Novorossiysk*** və ***Bakı-Supsa*** kəmərləri çəkilib istifadəyə verildi. Bakı nefti Rusiyaya və Avropaya nəql edilməyə başlandı. Bununla yanaşı Prezident Heydər Əliyev daha böyük beynəlxalq layihələrə imza atdı.

Məhz Heydər Əliyevin fəal və uzaqgörən daxili və xarici siyasəti nəticəsində Azərbaycan transmilli layihələrə qoşuldu, qlobal və regional layihələrin reallaşdırılmasına, ***Bakı-Tbilisi-Ceyhan*** neft boru kəmərinin reallaşdırılmasına nail olundu. Azərbaycan Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək, Bakı-Tbilisi-Ceyhan neft boru kəməri Heydər Əliyev siyasətinin qələbəsidir. Bakı-Tbilisi-Ceyhan boru kəmərinə Heydər Əliyevin adının verilməsi xalqların və millətlərin ona olan böyük sevgisi və istəyidir.

***Doqquzuncusu,*** Heydər Əliyev siyasətinin ən parlaq uğurlarından biri Azərbaycan xalqının milli mənəvi dəyərlərinin dirçəlişi və qorunub saxlanılması, böyük cəsarətlə milli söykökümüzə, milli tariximizə, milli ədəbiyyatımıza və mədəniyyətimizə, ana dilimizə və Vətən tariximizə verilən böyük qiymət və dəyərlərdir. Məhz Heydər Əliyevin diqqət və qayğısı sayəsində istər sovet dövründə olan rəhbərliyi zamanında, istərsə də müstəqillik illərində Azərbaycan xalqının milli mənəvi dəyərlərinin qorunub saxlanılmasında və müasir dövrümüzdə yeni-yeni müsbət keyfiyyətlərlə daha da zənginləşdirilməsində, ağıllı və dərin, düşünülmüş diplomatik siyasətin həyata keçirilməsində zəngin dövlətçilik təcrübəsinin çox böyük rolu və əhəmiyyəti olmuşdur. Dünya azərbaycanlılarının birinci qurultayında Heydər Əliyev demişdir: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıdır". 1969-1982-ci illərdə və müstəqillik illərində bir çox elm və mədəniyyət xadimlərinə, ədəbiyyat və incəsənət işçilərinə fəxri adların verilməsi, onların yüksək səviyyədə qiymətləndirilməsi məhz ümummilli lider Heydər Əliyevin xidmətidir və bu dahi şəxsiyyətin diqqət və qayğısı sayəsində mümkün olmuşudur. Azərbaycançılıq fəlsəfəsinin yeni və inkişaf istiqamətlərini yaradan, bununla da inkişaf dialektikasının əsasını qoyan Heydər Əliyev Dünya Azərbaycanlılarının I qurultayında (noyabr, 2001) böyük qürur hissi ilə demişdir: "***Hər bir insan üçün milli mənsubiyyəti onun qurur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam"*** (7).

***Onuncusu,*** milli söykökümüzə qayıtmaq, milli şüurun və milli tariximizin "ağ" və "qara ləkələrinin" silinməsi, tarixi ədalətin bərpa olunması və obyektiv həqiqətlərin üzə çıxarılması istiqamətində ümummilli lider Heydər Əliyevin cəsarətli siyasəti və qəbul etdiyi təsirli dövlət qərarları Azərbaycan tarixinin öyrənilməsi üçün böyük tarixi əhəmiyyətə malik olan sənədlərdir. Azərbaycanlı əhalinin 1948-1953-cü illərdə Ermənistan SSR-dən doğma dədə-baba yurdlarından və torpaqlarından zorakılıqla deportasiya edilməsi haqqında 1997-ci il 18 dekabr tarixli (5) və 31 Mart azərbaycanlıların soyqırımı haqqında 1998-ci il 26 mart tarixli (6) Heydər Əliyevin imzaladığı Prezident Fərmanları sözün əsil mənasında xalqımızın tarixinə olan qayğı, diqqət və hörmətdir, tarixi ədalətin və sovet imperiyası dövründə unudulmuş tariximizin və yaddaşımızın bərpasıdır, o tarixi cinayətlərə verilən hüquqi-siyasi qiymətdir. Həmin Prezident Fərmanları tarixçi və ictimaiyyətçi alimlərimizə aydın və konkret istiqamətlər verdi və hadisələrin tədqiqinə və araşdırılmasına əsaslı şərait yaratdı. Heydər Əliyev demişdir " Bizim xalqımızın böyük və möhtəşəm tarixi var, böyük dövlətçilik tariximiz var. Biz tariximizlə fəxr edə bilərik" (4, s.319).

***On birincisi,*** Heydər Əliyev çox gözəl bilirdi ki, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, dərinləşməkdə olan Dağlıq Qarabağ hadisələrini ədalətlə həll etmək, erməni işğalçıları tərəfindən zəbt olunmuş torpaqlarımızı azad etmək üçün müasir standartlara cavab verə bilən güclü Silahlı Qüvvələr lazımdır. Bu məqsədlə ordu quruculuğunda köklü islahatların aparılması zəruri idi. 90-cı illərin əvvəllərində isə Azərbaycan Ordusu pərakəndə halda və könüllü hərbi birləşmələrdən ibarət idi və mərkəzə bəzən tabe olmurdu. Belə bir şəraitdə könüllü hərbi birləşmələri buraxmaq, mərkəzləşdirilmiş ordu yaratmaq və onu komplektləşdirmək, əlbəttə çox çətin idi və vaxt tələb edirdi. Ancaq böyük dövlətçilik təcrübəsinə, yüksək təşkilatçılıq qabiliyyətinə və dəmir iradəyə malik olan ümummilli liderimiz qısa zaman kəsiyində Silahlı Qüvvələrin yaradılmasına, onun döyüş texnikası ilə və müasir dünyəvi silahlarla təchiz və təmin olunmasına, siyasi və təşkilat cəhətdən möhkəmləndirilməsinə nail oldu. Şəxsən özünün diqqətində və nəzarətində saxladığı ordu quruculuğu məsələsi ilə əlaqədar hərbi hissələrə getdi, döyüş cəbhələrində oldu, əsgər və zabitlərlə görüşdü, generalları dinlədi, mütəxəssis təkliflərini bəyəndi və dünya təcrübəsindən istifadə edərək NATO və Türkiyə Silahlı Qüvvələrinin nümunəsində güclü Silahlı Qüvvələr ordusunu yarada bildi ki, bu gün biz öz milli ordumuzla fəxr edə bilərik. Ordumuzun bütün şəxsi heyəti və komandirləri işğal edilmiş torpaqlarımızı azad etməyə, Ali Baş Komandanımızın əmrinə hazırdır. Danılmaz faktdır ki, müasir Azərbaycan ordusunun yaradılmasının və formalaşdırılmasının memarı ümummilli lider Heydər Əliyevdir.

***Nəticə.*** Prezident İlham Əliyevin dediyi kimi "müasir Azərbaycan ordusu dünyanın ən güclü orduları sırasındadır" (10). Məhz güclü Azərbaycan Ordusu 44 günlük İkinci Qarabağ müharibəsi zamanı parlaq Qələbə ilə 30 illik işğala son qoydu. Azərbaycan ərazi bütövlüyünü təmin etdi. Çağdaş tariximizin ictimai-siyasi və dövlətçilik tarixinin varislik əlaqəsi baxımından araşdırılması bir daha onu sübut edir ki, müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində bir çox yarımçıq qalmış problemlər prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş köklü islahatlar kursu qətiyyətlə davam etdirilmişdir. Müstəqil Azərbaycanın daxili və xarici siyasət kursunda qazanılmış fundamental uğurlar dediklərimizə sanballı arqumentlərdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // "Azərbaycan" qəzeti, 30 sentyabr, 2022-ci il.
2. Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. B; 2001, 55 s.
3. Heydər Əliyev. Prezident seçilmiş Heydər Əliyevin 1993-cü il oktyabrın 10-da andiçmə mərasimində nitq. Qətiyyətin təntənəsi. B; 1995, 847 s.
4. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. V kitab. B; 1998, 500 s.
5. Heydər Əliyev. "1948-1953-cü ildə Azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Prezident Fərmanı. 18 dekabr 1997.
6. Heydər Əliyev. "31 mart Azərbaycanlıların soyqırımı haqqında." Fərman. 26 mart 1998.

7. Heydər Əliyev. Dünya azərbaycanlılarının I-ci qurultayında nitq. "Azərbaycan" qəzeti; 10 may 2001.
8. İlham Əliyev. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında. Prezident Sərəncamı. "Azərbaycan" qəzeti; 22 yanvar 2013.
9. İlham Əliyev. Müstəqilliyimizin 25-ci ildönümü münasibəti ilə təntənəli yığıncaqda nitq / "Azərbaycan" qəzeti; 18 oktyabr 2016.
10. İlham Əliyev. Azərbaycan ordusunun 100-illiyi münasibəti ilə nitq / "Azərbaycan" qəzeti; 28 iyun 2018.
11. İlham Əliyev. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial iqtisadi inkişafı dövlət proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda nitq / "Azərbaycan" qəzeti; 4 fevral 2020.
12. İlham Əliyev. 4-cü dəfə prezident seçilmiş İlham Əliyevin andiçmə mərasimində nitqi / "Respublika " qəzeti, 19 aprel 2018.
13. Qətiyyətini təntənəsi B., 1995
14. Qurani-Kərim. B., 1991, 33-cü surə, 46-cı ayə. 714s.
15. İradə Hüseynova. Azərbaycan dövlətçiliyi tarixində Heydər Əliyev irsi. B., 2005, 911 s.
16. Nuru Məmmədov. Heydər Əliyev və Azərbaycanın qurtuluşu // "Respublika" qəz., 14 iyun 2020
17. Azərbaycanın xaricdəki səfirliklərinin sayı açıqlandı. 9 iyul 2019-cu il. - https://sputnik.az/20190709/memmedyarov-azerbaycanin-xaricde-nece-sefirlik-421057258.html [01.04.2023].

**НУРУ МАМЕДОВ**
*доктор исторических наук, профессор кафедры*
*Истории Азербайджана БГУ, Заслуженный педагог республики*

## ГЕЙДАРА АЛИЕВ СОЗДАТЕЛЬ И ОСНОВАТЕЛЬ НЕЗАВИСИМОГО АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА

В статье на основе конкретных исторических фактов исследуются фундаментальные успехи, достигнутые выдающимся общественно-политическим и государственным деятелем, основателем и создателем независимого Азербайджанской Республики Гейдаром Алиевым в годы руководства Азербайджаном. В исследовании отмечается что, выдающаяся личность XX века Гейдар Алиев в период руководства Азербайджаном, благодаря выдающимся способностям и организаторскому таланту добиться развития республики быстрыми темпами и он достигла фундаментальных успехов во внутренней и внешней политике. На основе проведенных фундаментальных исследований можно придти к выводу, что основателем и архитектором сегодняший Азербайджанской республики является общенациональный лидер Гейдар Алиев.

*Ключевые слова*: Гейдар Алиев, независимый Азербайджан, государство, развитие, руководство, внутренняя и внешняя политика, основатель независимого государства

**NURU MAMMADOV**
*Doctor of Historical Sciences, professor of the department*
*History of Azerbaijan BSU, Honored Teacher of the Republic*

## HEYDAR ALIYEV IS THE CREATOR AND FOUNDER OF THE INDEPENDENT AZERBAIJANI STATE

Based on specific historical facts, the article examines the fundamental successes achieved by the outstanding socio-political and statesman, founder and creator of the independent Republic of Azerbaijan Heydar Aliyev during the years of leadership of Azerbaijan. The study notes that the outstanding personality of the twentieth century, Heydar Aliyev, during the period of leadership of

Azerbaijan, thanks to his outstanding abilities and organizational talent, achieved the development of the republic at a rapid pace and he achieved fundamental successes in domestic and foreign policy. On the basis of the fundamental research carried out, it can be concluded that the founder and architect of today's Republic of Azerbaijan is the national leader Heydar Aliyev.

*Keywords*: Heydar Aliyev, independent Azerbaijan, state, development, leadership, domestic and foreign policy, founder of an independent state.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*




**UOT 94(479.24); UOT 351.862**

**İRADƏ NURİYEVA**

*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin*
*"Humanitar fənlər"kafedrasının professoru, siyasi elmlər doktoru*
**iradanuri@gmail.com**
**Orcid ID: 0000-0002-5309-0009**

# MİLLİ ORDU QURUCULUĞU SAHƏSİNDƏ HEYDƏR ƏLİYEVİN TARİXİ FƏALİYYƏTİ
**(Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunur)**

*Məqalədə müstəqilliyi bərpa edildikdən sonra Azəbaycanın dövlət siyasətinin əsas prioritet istiqamətlərindən olan hərbi sahədə aparılan yeniliklər, inkişaf, yeni nəsil texnika ilə təchiz edilməsi, qəhrəmanlıq ənənələri üzərində tərbiyə edilən və Vətən uğrunda şəhid olmağa hazır olan milli hərbi kadrların yetişdirilməsində Ulu Öndər Heydər Əliyevin tarixi fəaliyyəti şərh olunur. Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi hərbi quruculuq siyasətinin nəticəsidir ki, 44 günlük İkinci Qarabağ müharibəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında qəhrəman Milli Ordumuz torpaqlarımızı işğalçı Ermənistanın silahlı qüvvələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirdi.*

*Açar sözlər*: Ulu Öndər Heydər Əliyev, ordu quruculuğu, milli hərbi kadrlar.

***Giriş***. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Milli Ordunun formalaşdırılması ümummilli Lider Heydər Əliyevin tarixi fəaliyyətinin əsas istiqamətlərindən biri olmuşdur. Heydər Əliyev Milli Ordu quruculuğu sahəsində Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə (1969-1982) ölkənin qəhrəmanlıq ənənələrinin davam etdirilməsi, zəngin hərb tarixinin dirçəldilməsi, gənclərin bu qəhrəmanlıq ənənələri üzərində tərbiyə olunması, sərkərdələrin və görkəmli hərbi xadimlərin şərəfli yolunun davam etdirilməsi kimi məsələləri daim diqqətdə saxlayırdı. Heydər Əliyev respublikaya rəhbərliyi dövründə milli hərbi kadrların hazırlanmasına xüsusi diqqət yetirirdi.

Ulu Öndər 1970-ci ildə azərbaycanlı gənclərin hərbi məktəblərə göndərilməsinin dövlət maraqlarına cavab vermədiyini vurğulayaraq, 1970-ci ildə Azərbaycandan hərbi məktəblərə1360 nəfər seçilməli olduğu halda, 910 nəfərin seçildiyini, onlardan yalnız 367 nəfərinin hərbi məktəbə daxil olduğunu bildirmişdir. Demək olar ki, SSRİ-nin ali hərbi məktəblərində Azərbaycan üçün ayrılmış 30 faizlik güzəştli kvotaya ümumiyyətlə əməl edilmir, rus dilini zəif bilməsi səbəbindən daxil olanlar arasında azərbaycanlıların sayı xeyli az idi [20, s.777]. 1971-ci ildə Heydər Əliyev azərbaycanlı gəncləri SSRİ-nin ali hərbi məktəblərinə daxil olmağa daha yaxşı hazırlamaq məqsədilə Azərbaycanda Suvorov hərbi internat məktəblərinə bənzər internat məktəbinin açılması, hərbi təhsil müəssisələrinə daxil olmaq istəyənlərin məktəb yaşından hərb işinə hazırlığın başlanması təşəbbüsü ilə çıxış etdi. Ümummilli Liderin cəsarətli səyləri nəticəsində MK Bürosunun 1971-ci il iyulun 23-də keçirilən iclasında "Xüsusi orta internat məktəbinin yaradılması haqqında" Qərar qəbul edildi. Qərara əsasən, Zığ qəsəbəsində yerləşən 2 nömrəli 8 illik internat məktəbi təkmilləşdirilərək Xüsusi orta internat məktəbinə çevrilməli idi. "Xüsusi internat məktəbinin təşkili haqqında" Respublika Nazirlər Sovetinin 1971-ci il 15 noyabr tarixli qərarına əsasən 2 nömrəli 8 illik internat məktəbinin bazasında orta ümumtəhsil internat məktəbi yaradıldı [19, s.7-8], 1971-ci ilin noyabrında isə internat məktəbinə

Cəmşid Naxçıvanskinin adı verildi. Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev respublikanın müvafiq təşkilatları qarşısında ciddi vəzifələr qoyduqdan sonra hərbi təhsil müəssisələrində təhsil alan azərbaycanlıların sayı artdı. 1972-1977-ci illər ərzində Azərbaycandan 8208 gənc seçilərək ölkənin ali hərbi təhsil müəssisələrinə göndərilmişdir ki, onlardan 3398 nəfəri azərbaycanlı idi. Bu illər ərzində hərbi məktəblərə göndərilmiş 694 azərbaycanlı olmaqla, o cümlədən 2153 gənc sınaq imtahanlarından uğurla keçərək ali hərbi məktəblərə daxil oldular [21, s.11]. 1981-ci ildə 2405 abituriyentdən 416 nəfəri azərbaycanlı olmaqla 804 nəfəri ali hərbi məktəblərə daxil oldu [21, s.119]. XX əsrin 80-90-cı illərində Ermənistanın Azərbaycan xalqına qarşı genişmiqyaslı təcavüzü nəticəsində müdafiə qoşunlarının formalaşdırılmasını müxtəlif qüvvələrə xidmət edən şəxslərin öz ixtiyarına buraxılması Azərbaycanda ordu əvəzinə idarəolunmaz silahlı qüvvələrin yaranmasına, ordunun parçalanmasına, siyasi mənsubiyyətinə görə qruplaşdırılması və bəzi cinayətkarların ətrafında cəmlənməsinə səbəb oldu. Mövcud dövrdə Heydər Əliyevin rəhbərliyi ilə 1991-ci il oktyabrın 26-da Naxçıvan MR Ali Məclisi "Silahlı Qüvvələrin Naxçıvan Muxtar Respublikasında yerləşən hissələrinin statusu haqqında" qərar qəbul etmişdir [23, s.59]. Bu qərar Naxçıvandakı 75-ci motoatıcı diviziyanın və 41-ci sərhəd dəstəsinin muxtar respublikanın hakimiyyət orqanları ilə münasibətlərini müəyyən etdi [15, s.502].

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Sovet İttifaqının qoşunları bütün əmlakı ilə birlikdə Naxçıvanı tərk etmək istəyirdilər. Lakin Heydər Əliyev müdrik siyasət yeritməklə bu təxribatın qarşısını aldı. Belə ki, ulu Öndər 75-ci diviziya və 41-ci sərhəd dəstəsinin rəhbərliyi ilə bir neçə dəfə danışıqlar apardı və ardıcıl siyasəti nəticəsində 75-ci diviziyanın və 41-ci sərhəd dəstəsinin bütün əmlakı Naxçıvanda qaldı [16, s.551]. Sonradan Azərbaycan Müdafiə Nazirliyinin nümayəndələrinə verilən bu əmlak əsasında Naxçıvanda Müdafiə Nazirliyinin hərbi briqadası yaradıldı. Heydər Əliyev 1993-cü ilin iyunun 15-də xalqın tələbi ilə respublika rəhbərliyinə qayıdandan sonra hərbi sahədə gərgin fəaliyyətə başladı. 1993-cü ilin yayında Azərbaycanda gərginliyin pik həddinə çatmasının əsas səbəblərindən biri siyasi böhran, ikincisi isə Azərbaycan ordusunun böhranı idi. Daxili çəkişmələr nəticəsində ayrı-ayrı şəxslər Azərbaycan xalqını və Azərbaycan dövlətçiliyini ciddi təhlükə qarşısında qoyaraq, ordunu parçalayıb qanunsuz əməllər törətməyə səfərbər edirdilər. Xalqın ümid və iradəsini əks etdirə biləcək ordu yaratmadan genişlənən erməni işğallarının qarşısını almaq mümkün deyildi. Heydər Əliyev dövlət maraqlarına xidmət etməyə qadir olan yeni ordunun yaradılmasını, ilk növbədə, Azərbaycanın müstəqilliyinin, milli azadlığının və ərazi bütövlüyünün qorunması zərurəti ilə əlaqələndirirdi [15, s.502; 16, s.551].

Heydər Əliyev 1993-cü il noyabrın 2-də radio və televiziya ilə Azərbaycan xalqına müraciətində ordu və dövlət, ordu və maddi baza, ordu və mənəviyyat, ordu və xalq, ordu və milli kadrlar, ordu və nizam-intizam və digər mühüm məsələləri, onların əhəmiyyəti və onlara nail olmaq yollarını çox aydın şəkildə təhlil etmişdir [5]. Heydər Əliyevin 2 noyabr 1993-cü il tarixli müraciətindən sonra orduda ciddi islahatlar aparıldı, yeni hərbi hissə və bölmələrin təşkili təklif olundu. Qoşunların hərbi hazırlığının və döyüş fəaliyyətinin idarə edilməsinin operativliyini təmin etmək məqsədilə Silahlı Qüvvələrin strukturuna yenidən baxıldı, Müdafiə Nazirliyinin 4 noyabr 1993-cü il tarixli əmri ilə əsassız olaraq tətbiq olunan Səhra Cəbhə İdarəsi ləğv edildi. Heydər Əliyevin xalqa müraciətində qeyd edildiyi kimi, 400-500 nəfər əvəzinə cəmi 15-18 nəfər olan hərbi hissələr buraxıldı. Döyüş fəaliyyətini lazımi səviyyədə təşkil edə bilməyən hərbi hissələrin yeni kadrlarla möhkəmləndirilməsi dövlət rəhbərliyinin Müdafiə Qüvvələrinin yenilənməsi istiqamətində atdığı konkret addımlardan biri idi [6]. Bakıda və respublikanın digər bölgələrində könüllü müdafiə dəstələri yaradıldı. Salyan, Lənkəran, İmişli, Beyləqan və Bakının Nizami rayonlarının, eləcə də Sumqayıt şəhərinin tabeliyində təşkil edilmiş könüllü batalyonlar cəbhə bölgəsinə göndərildi [7]. Könüllü müdafiə birləşmələrinin formalaşdırılması, bütövlükdə Silahlı Qüvvələrin döyüş hazırlığı Heydər Əliyevin ciddi nəzarəti altında idi [11]. Bütün bunlar tezliklə öz bəhrəsini verdi. Azərbaycan silahlı qüvvələrinin əvvəlcə Füzuli, sonra isə Ağdam-Tərtər istiqamətində apardığı uğurlu döyüşlər göstərdi ki, Azərbaycan ordusunun siması dəyişib və bu dəyişiklik düşmən qüvvələrini təşvişə salıb. 1993-cü il dekabrın sonundan 1994-cü il yanvarın 6-dək davam edən döyüşlər nəticəsində Horadiz qəsəbəsi, Füzuli rayonunun 20 kəndi və Cəbrayıl rayonunun Çoquq Mərcanlı kəndi erməni işğalından azad edildi. "Horadiz" əməliyyatı adlanan bu döyüşlərdə 21 min ha ərazi Azərbaycan Ordusunun nəzarətinə keçdi, Ermənis-

tan silahlı qüvvələrinə ağır zərbə vuruldu və Heydər Əliyevin 1993-cü il noyabrın 2-də Azərbaycan xalqına müraciətindən sonra Azərbaycan Ordusu böyük qələbəsini qazandı [18, 22].

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin 23 yanvar 1994-cü il tarixli bəyanatında deyilirdi ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Qalx ayağa, Azərbaycan xalqı!" çağırışına cavab olaraq Milli Ordunun əsgərləri düşmənə sarsıdıcı zərbələr endirərək, onu işğal olunmuş ərazilərdən geri çəkilməyə məcbur edirlər. Füzuli və Kəlbəcər rayonlarında ermənilər tərəfindən işğal edilmiş bir sıra yaşayış məntəqələri azad edildi. 1994-cü il yanvarın 22-də Azərbaycan Ordusunun bölmələrinin uğurlu döyüşlərindən sonra Kəlbəcər rayonunun Bozlu, Təkəqaya, Qanlıkənd, Çəpli, Susuzluq, Qasımbinəsi, Yanşaqbinə, Yanşaq, Bağırsaq, Qamışlı, Bağırlı yaşayış məntəqələri işğaldan azad edildi. Erməni işğalı altında olan Kəlbəcər-Ağdərə yolunun yuxarı hissəsi nəzarətə götürüldü, düşmənin 300 əsgər və zabiti, 9 tankı, 2 PDM, 5 artilleriya qurğusu məhv edildi, 4 tank, 2 PDM, çoxlu sayda atıcı silah, minaatan və s. qənimət kimi götürüldü [10]. Ermənistan silahlı qüvvələri 1994-cü il aprelin 10-da başlayan növbəti genişmiqyaslı hücumu nəticəsində Azərbaycan Ordusunun Ağdam-Tərtər ətrafında yerləşən hissə və bölmələrinə güclü zərbə endirərək cəbhə xəttini yarıb, bu istiqamətdə strateji əhəmiyyət kəsb edən Tərtər şəhərini işğal etmək istəyirdi [8]. 1994-cü il aprelin 12-də Heydər Əliyev yenidən radio və televiziya ilə xalqa müraciət etdi. Ulu Öndər cəbhə bölgəsinə getdi, əsgər və zabitlərlə görüşdü, hərbi vəziyyətlə yerindəcə tanış oldu. Onun səfərindən və xalqa müraciətindən sonra müdafiə qüvvələri bütün gücünü Vətənin müdafiəsinə səfərbər etdi. Yeniləşən və güclənən Azərbaycan Ordusundan ağır zərbə alan Ermənistan silahlı qüvvələri geri çəkildi. 1994-cü il mayın 4-5-də MDB Parlamentlərarası Şurasının Bişkek şəhərində keçirilən iclasında Rusiyanın vasitəçiliyi ilə Ermənistan və Azərbaycan arasında atəşkəs haqqında yeni danışıqlar başladı və mayın 12-də razılaşma əldə edildi [23, s. 65]. Atəşkəs dövründə Heydər Əliyev Milli Ordu quruculuğu konsepsiyasını daha da təkmilləşdirərək bu istiqamətdə aparılan fəaliyyəti Azərbaycanda müstəqil dövlət quruculuğu ilə əlaqələndirdi: "Azərbaycan dövlətinin ən böyük dayağı, onun sütunu Azərbaycanın Silahlı Qüvvələridir, Azərbaycanın Silahlı Qüvvələrinə daxil olan bütün hərbi strukturlardır. Bunların içərisində birinci yerdə Azərbaycan Ordusudur. Azərbaycanın dövlət müstəqilliyinin ən dəyərli nəticələrindən biri Azərbaycanın milli ordusunun yaranması, təşkil olunması və onun müasir tələblərə uyğun hazırlanmasıdır. Hər bir dövlət öz dövlətçiliyini qüdrətli etmək istəyirsə, onun güclü ordusu olmalıdır" [14, s.433].

Heydər Əliyev ordunun inkişafını və gücləndirilməsini Azərbaycanın dövlətçiliyinin möhkəmləndirilməsinin tərkib hissəsi hesab edirdi: "Azərbaycanda ordunun inkişaf etməsi, möhkəmlənməsi dövlətimizin və xalqımızın ən əsas vəzifəsidir. Biz həmişə həmrəy olaraq bəyan etmişik ki, Azərbaycanın dövlət müstəqilliyi əbədidir və sarsılmazdır. Bu bəyanatı həmişə reallaşdırmaq üçün, bu fikirləri əməli surətdə daim həyata keçirmək üçün biz orduya qayğı göstərməliyik, onu möhkəmləndirməli və inkişaf etdirməliyik" [1, s.323]. Heydər Əliyev işğal olunmuş torpaqların azad edilməsi üçün ordunun möhkəmləndirilməsini zəruri hesab edirdi: "Silahlı Qüvvələr, ordu hər bir müstəqil dövlətin əsas atributlarından biridir. Ordu olmalıdır, ordu yaranmalıdır. Müharibə olmasa da, torpaqlarımıza heç kəs təcavüz etməsə də, Azərbaycanın müstəqilliyini, suverenliyini təmin etmək üçün onun qüdrətli ordusu olmalıdır" [3, s.209]. Ordunun davamlı inkişafının təmin edilməsi dövlətin rəhbərliyi altında həyata keçirilməlidir. Belə ki, ordunun yaradılması dövlətin müstəsna səlahiyyətindədir, bu proses tamamilə dövlət tərəfindən həyata keçirilir, ordunun bütün təchizatı dövlət tərəfindən təmin edilir, formalaşması dövlət tərəfindən müəyyən edilir və ondan əməli istifadə də dövlətin qəbul etdiyi qanun və qərarlarına əsasən reallaşdırılır. Heydər Əliyevin Azərbaycana ikinci rəhbərliyi dövründə ordu quruculuğu üçün böyük əhəmiyyət kəsb edən "Müdafiə haqqında" Azərbaycan Respublikasının Qanunu (1993), "Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanunu (1994), "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (1997) "Hərbi xidmət keçmə haqqında" Əsasnamə (1997) kimi mühüm sənədlər qəbul edilmişdir [12].

Heydər Əliyev Milli Ordunun vahid komandanlığının təcrübi əsaslarını təşkil etdi, komandanlıq və idarəetmə strukturları üçün məsuliyyəti artırdı, ordu quruculuğunu dövlət quruculuğunun bütün sahələri ilə üzvi olaraq əlaqələndirdi. Ordu mütəmadi şəkildə dövlətin qayğısı ilə əhatə olundu, ordunun bütün ehtiyacları davamlı olaraq ödənildi, bunların həayata keçirilməsi ilə əlaqədar bütün dövlət orqanlarının məsuliyyəti artırıldı. Dövlətin və xalqın maraqlarına cavab verən hərbi siyasət

müəyyən edildi, bu siyasət ordu quruculuğu qarşısında duran vəzifələri və onların həyata keçirilməsi üsullarını dəqiqləşdirdi, dövlətin kifayət qədər müdafiə qabiliyyətinin artıtılması istiqamətində tətbiqi işlər görüldü. Dövlətçiliyimizə qarşı fəaliyyət göstərən siyasi qüvvələrin orduya nüfuz etməsinin qarşısı Heydər Əliyev sayəsində birdəfəlik alındı. Azərbaycan Orduunun siyasi qruplaşmalardan və təsirlərdən təmizlənməsi, Silahlı Qüvvələrin rəhbərliyinin dövlətin nəzarətinə verilməsi ordu quruculuğunun uğurlu inkişafı üçün münbit şərait yaratdı. Ordu quruculuğunda perspektivə malik olmaq üçün ordunun maddi-texniki bazasının yaxşılaşdırılması vacib idi. Güclü ordu güclü iqtisadiyyat tələb edir. Ölkə iqtisadiyyatının inkişafı ilə ordunun maddi-texniki vəziyyəti yaxşılaşdı, orduda zəruri infrastruktur yaradıldı, ordu yeni silah və hərbi texnika ilə təchiz edildi. Ordunun maddi-texniki bazasının yaxşılaşdırılması onun döyüş qabiliyyətini gücləndirdi, müdafiə imkanlarını artırdı. Orduya peşəkar rəhbərliyi ən mühüm amillərdən biri hesab edən Ali Baş Komandan Heydər Əliyevin qərarı ilə Müdafiə Nazirliyinin rəhbərliyində kadr dəyişiklikləri baş verdi [5]. Ulu Öndər Heydər Əliyev Müdafiə Nazirliyinin fəaliyyətinin düzgün təşkil olunmasına, bu qurumun təşkilati-idarəetmə imkanlarının genişləndirilməsinə xüsusi diqqət yetirir, nazirliyin qarşısında duran vəzifələrin yerinə yetirilməsində yüksək tələbkarlıq göstərir, mövcud nöqsanlara barışmazlıq nümayiş etdirir və onların aradan qaldırılması, bu nöqsanlara səbəb olan problemlərin həlli ilə bağlı nazirliyin rəhbərliyi qarşısında bunu tələb kimi qoyurdu [3, s.392]. Zabitlərlə görüş zamanı Heydər Əliyev onları xidməti vəzifələri ilə bağlı belə təlimatlandırırdı: “Siz hərbi qulluqçu, zabitsiniz. Hərbi xidmətin bir toxunulmaz qanunu var: hərbi qulluqçu, hərbi xidmətdə olan adam Vətən, komandanlıq harada lazım bilsə, orada da xidmət etməlidir. ... Bir daha bildirirəm ki, bu gün Müdafiə Nazirliyindən aldığınız əmrlər danışıqsız yerinə yetirilməlidir” [17, s.130].

Dövlət rəhbərliyinin ordu quruculuğu məsələlərinə diqqətinin və tələbkarlığının artırılması, bu istiqamətdə aparılan işlərin sistemləşdirilməsi və təkmilləşdirilməsi Milli Ordunun formalaşmasına da müsbət təsir göstərmişdir. Ordu ilə xalq arasında münasibətlər yeni səviyyəyə qaldırıldı. Ulu Öndər Heydər Əliyev deyirdi ki, xalqın ayrılmaz tərkib hissəsi sayılan ordunun vətəndaşlar qayğısına qalmalıdır. Xalq hər zaman ordunu sevməli, ona kömək etməlidir. Xalq azad, sərbəst yaşamaq istəyirsə, ölkəsinin, torpağının toxunulmaz olmasını istəyirsə, ilk növbədə ordunun qayğısına qalmalıdır. “Ordunun hörmətini qaldırmaq lazımdır. Hərbi peşə Azərbaycanda ən hörmətli peşələrdən biri olmalıdır. Hər bir vətəndaş Azərbaycan əsgərinə, zabitinə hörmət, ehtiram və qayğı göstərməlidir. Hər bir Azərbaycan vətəndaşı, hər bir gənc orduda xidmət etməyi özünün şərəfli borcu hesab etməlidir” [14], - deyərək vurğulayan ümummilli Lider ordu quruculuğunda mənəvi əhval-ruhiyyənin yüksəldilməsinin, hərbi-vətənpərvərlik ideologiyasının gücləndirilməsinin xüsusi olaraq qeyd etdi. Azərbaycanın müstəqilliyinə sədaqət, Azərbaycanın müstəqilliyinin qorunması hərbi xidmətə münasibətin əsas məzmununu təşkil edirdi. Hərbi hissələrdə əhval-ruhiyyənin yüksəldilməsi məqsədilə nizam-intizamın yaradılması, tələbkarlıqla qayğının əlaqələndirilməsi, qanunlara əməl olunması ciddi nəzarət altına alındı. Xalqın və dövlətin mübarizliyi, düşmənə qarşı barışmazlığı və qətiyyəti ordunun şəxsi heyətinin mənəvi keyfiyyətlərini şərtləndirən əsas amillərə çevrildi.

Uğurlu ordu quruculuğunda Heydər Əliyev zabit kadrlarının hazırlanmasına, onların yüksək peşəkarlığının qorunub saxlanmasına böyük önəm verirdi. Milli kadrların hazırlanmasını yüksək səviyyədə həyata keçirmək üçün Azərbaycanda mövcud olan ali hərbi təhsil müəssisələrinin fəaliyyəti əsaslı şəkildə yenidən quruldu, bu təhsil ocaqlarının işində dünya ölkələrinin qabaqcıl təcrübəsi yerli xüsusiyyətləri nəzərə alaraq tətbiq edildi. 1971-ci ildə Heydər Əliyevin şəxsi təşəbbüsü ilə əsası qoyulan Cəmşid Naxçıvanski adına xüsusi internat məktəbi 1997-ci ildə Hərbi Lisey adlandırıldı. Azərbaycan Respublikası Prezidentinin 13 mart 1998-ci il tarixli fərmanı ilə Hərbi Liseyin Naxçıvan filialı yaradıldı [9]. 2004-cü ildə bu liseyin bazasında Heydər Əliyev adına Hərbi Lisey yaradıldı. Sovet dövründə zabit kadrları hazırlayan Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Bakı Ali Birləşmiş Komandanlıq Məktəbi adlandırıldı və Azərbaycanın dövlət başçısı Heydər Əliyevin 20 avqust 2001-ci il tarixdə Sərəncamı ilə Azərbaycan Ali Hərbi Məktəbi adlandırıldı [23, s.73]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 mart 2004-cü il tarixli fərmanı ilə bu məktəbə Heydər Əliyevin adı verildi. 1995-ci ildə Azərbaycanda ordu üçün hərbi pilotların hazırlanması məqsədilə Uçuş Hazırlığı Təlim Mərkəzi yaradıldı və bu mərkəzdə üç illik proqram üzrə təyyarəçi kadrlarının hazırlanmasına başlanıldı [4]. Heydər Əliye-

vin ordu quruculuğu siyasətinin uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin fəaliyyətinin təkmilləşdirilməsi yüksək səviyyədə aparılırdı. Heydər Əliyevin rəhbərliyi ilə milli zabit kadrlarının hazırlanması sahəsində həyata keçirilən tarixi fəaliyyətin nəticələrindən biri də 1999-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının yaradılması olmuşdur. Hərbi Akademiyanın açılması milli zabitlərin respublika daxilində ali hərbi təhsil alması üçün imkan yaratdı. Hərbi pilotların hazırlanmasına xüsusi önəm verilməsi ilə əlaqədar 1998-ci ildə Uçuş Hazırlığı Təlim Mərkəzi Bakı Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı. Bu məktəbdə oxuyanlar 2 istiqamət və 4 ixtisas üzrə təhsil alırdılar. 2001-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanı ilə bu təhsil müəssisəsinə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adı verildi. Həmin il eyni fərmanla Bakı Ali Hərbi Dənizçilik Məktəbi Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi adlandırıldı. Hərbi texnologiyanın sürətli inkişafı peşəkar kadrların yetişdirilməsini zəruri tələb kimi qarşıya qoyurdu. Belə ki, yalnız elmli və bilikli professional milli kadrlar yeni texnologiyanın döyüş imkanlarını tam üzə çıxara bilərlər. Beləliklə, ordu quruculuğunda hərbi təhsil sisteminin gücləndirilməsi və elmi biliklərin genişləndirilməsi prioritet vəzifələrdən birinə çevrilmişdir. Hərbi təfəkkürün formalaşması nəticəsində Azərbaycan Ordusu Azərbaycanın milli qüdrətini qorumağa qadir qüvvəyə çevrilmişdir [2]. Heydər Əliyev Azərbaycanın təhlükəsizliyinin təmin edilməsində xüsusi rolu olan güclü ordu quruculuğunda reallaşdırılan uğurlu siyasətin nəticələrini belə dəyərləndirdi: "Azərbaycanın bugünku ordusu - Silahlı Qüvvələri Azərbaycan torpaqlarını etibarlı müdafiə etməyə qadirdir" [1].

***Nəticə***. Heydər Əliyevin dövründə bu xüsusiyyətlərə yiyələnən Azərbaycanın Milli Ordusu Prezident İlham Əliyevin respublikaya rəhbərliyi illərində daha da inkişaf etdirilib. Respublika Prezidenti İlham Əliyevin təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan ordu qurculuğu: müasir hərbi texnika ilə təchiz edilməsi, orduda möhkəm nizam-intizam yaradılması, düşmənə sarsıdıcı zərbə vuran, qarşıya qoyulan istənilən tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik olan yüksək döyüş ruhu ilə seçilən Milli Ordumuzun inkişaf etdirilməsi sahəsində həyata keçirdiyi tədbirlərlə ölkənin hərbi baxımdan güclənməsi və regionda ən güclü silahlı qüvvələrə malik olması kimi qarşıya qoyduğu vəzifəni uğurla yerinə yetirir [13, s.654-655]. Prezident İlham Əliyevin həyata keçirdiyi hərbi quruculuq siyasətinin məntiqi nəticəsidir ki, 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən İkinci Qarabağ müharibəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu torpaqlarımızı Ermənistanın işğalçı silahlı birləşmələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirdi.

## ƏDƏBİYYAT


1. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. //http://files.preslib.az/projects/toplu/v2/f3_5.pdf [18.02.2023].
2. Azərbaycan Milli Ordusunun yaradılmasının 82 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 2000-ci il. // http: zfiles.preslib.az/projects/toplu/v2/f3 10 pdf [18.02.2023].
3. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 83-cü ildönümünə həsr olunmuş təntənəli mərasimdə nitq. 26 iyun 2001-ci il. // Heydər Əliyev və ordu quruculuğu, s.392.
4. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Ali Hərbi Təyyarəçilik Məktəbinin ilk buraxılışına həsr olunmuş təntənəli mərasimdə çıxışı. 15 oktyabr 1997-ci il. //http://files.preslib.az/projects/toplu/v2/fi_7.pdf [18.02.2023].
5. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1993 cü il noyabrın 2-də televiziya və radio ilə xalqa müraciəti. // "Azərbaycan" q., 4 noyabr 1993-cü il.
6. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxışı. // "Azərbaycan" q., 9 noyabr 1993-cü il.
7. Ağır vəziyyətimiz ruhdan düşməyə əsas vermir. Əksinə... //"Azərbaycan" q., 16 noyabr 1993-cü il.
8. Велимамедов М. Тер-терская операция. // http:, vetenperver.net/ter-terskaya-operatsiya/ [18.02.2023].
9. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 30 illik yubileyinə həsr olunmuş təntənəli mərasim.// "Azərbaycan" q., 22 aprel 2003-cü il.
10. Düşmənə sarsıdıcı zərbə vurulur.//"Azərbaycan" q., 25 yanvar 1994-cü il.

11. Heydər Əliyev: "Azərbaycanın ərazi bütövlüyü sizin əlinizdədir". // "Azərbaycan" q., 9 noyabr 1993-cü il.
12. Qanunvericilik, https://mod.gov.az/az/qanunvericilik-015/ [18.02.2023].
13. Nuriyeva İradə Tofiq qızı. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək)Texniki Ali məktəblər üçün dərslik.-Bakı: Elm və təhsil. 2022, 744 s.
14. Naxçıvandakı "N" saylı hərbi hissədə keçirilən goruşdə çıxış. 17 iyun 2002-ci il. // http://files.preslib.az/projects/toplu/v2/f3_12.pdf [18.02.2023].
15. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətinin məlumatı. 31 oktyabr 1991-ci il // Qayıdış. 1990-1993. Bakı, 1996, s.502.
16. Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında' Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin qərarı. 19 sentyabr 1992-ci il.// Qayıdış. 1990-1993, s.551.
17. Prezident Aparatında zabitlərin bir qrupu ilə görüşdə çıxış. 13 yanvar 1994-cü il //Yenə orada, s.130.
18. Paşasoy E. Horadiz əməliyyatının 24 il saxlanılan gizlinləri.// https: müsavat.corrvnews.horadız-emelıyyatının-24-ıl-saxlanan-gızlınleri 4056X3 hıml [18.02.2023].
19. Ramiz Duyğun. Mənim unudulmaz məktəbim. Bakı, 2002, s.7-8.
20. Süleymanov M. Azərbaycan Ordusunun tarixi. IV cild. Bakı, 2018, s.777.
21. Süleymanov M. Azərbaycanda Ali Baş Komandanlıq institutunun Heydər Əliyev mərhələsi. Bakı, 2018, s.11.
22. Таривердиева Л., Агаларова Ф. Горадизская операция: день, о котором в Армении вспоминают с дрожью // https: news.day.az politics. 965536 html [18.02.2023].
23. Vətən müharibəsi tarixi.Şəxsiyyət faktoru (27 sentyabr-10 noyabr 2020-ci il). Bakı, "Şərq-Qərb", 2021, 444 s.

**ИРАДА НУРИЕВА**
*Доктор политических наук, профессор кафедры «Гуманитарных наук»*
*Азербайджанского Государственного Университета Нефти и Промышленности*

## ИСТОРИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ ГАЙДЕРА АЛИЕВА В ОБЛАСТИ СТРОИТЕЛЬСТВА НАЦИОНАЛЬНОЙ АРМИИ
### (Посвящается 100-летию Великого Лидера Гейдара Алиева)

В статье описывается историческая деятельность Великого Лидера Гейдара Алиева в военной области, которая является основным приоритетным направлением государственной политики Азербайджана после восстановления его независимости, инновации, развитие, оснащение техникой нового поколения, подготовка национальных военнослужащие, воспитанные на героических традициях и готовые стать шехидами за Родину. В результате военно-строительной политики, основанной Великим Лидером Гейдаром Алиевым и успешно осуществленной Президентом Ильхамом Алиевым, в 44-дневной Второй Карабахской войне под руководством Победоносного Верховного Главнокомандующего наша Национальная Армия с честью выполнила священный долг освобождения наших земель от вооруженных сил Армении-захватчика.

*Ключевые слова*: Великий Лидер Гейдар Алиев, армейское строительство, национальные военные кадры.

**IRADA NURIYEVA**
*Doctor of Political Sciences, professor at the*
*Department of Human Sciences of Azerbaijan State Oil and Industry University*

## HISTORICAL ACTIVITY OF HAYDER ALIEV IN THE FIELD OF CONSTRUCTION OF THE NATIONAL ARMY (Dedicated to the 100th anniversary of Great Leader Heydar Aliyev)

The article describes the historical activities of the Great Leader Heydar Aliyev in the military field, which are the main priority areas of the state policy of Azerbaijan after the restoration of its

independence, the innovations, development, equipping with new generation equipment, training of national military personnel who are brought up on heroic traditions and are ready to become martyrs for the Motherland. As a result of the military construction policy laid by the Great Leader Heydar Aliyev and successfully implemented by President Ilham Aliyev, in the 44-day Second Karabakh War, under the leadership of the Supreme Commander-in-Chief Muzaffar, our National Army honorably fulfilled the sacred duty of liberating our lands from the armed forces of the invading Armenia.

*Keywords*: Great Leader Heydar Aliyev, army construction, national military personnel.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 fevral 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*

*Tarix və onun problemləri / История и её проблемы / History and its problems, 2023 №2, 76-86*




**UOT 94(479.24)**

**АЗАД РЗАЕВ**
*доктор философии по истории, доцент БГУ*
**azad_rzayev@mail.ru**

**АЛИ АЛИЕВ**
*старший научный сотрудник БМА имени У.Гаджибекова*

**КАМАЛЯ АЛИЕВА**
*ведущий научный сотрудник, доцент*
*Института Археологии, этнографии и антропологии НАНА*
**TarixVeOnunProblemleri@gmail.com**

# ГЕЙДАР АЛИЕВ И ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА В ОТНОШЕНИИ НАЦИОНАЛЬНЫХ МЕНЬШИНСТВ

*В представленной статье на основе широкого круга источников и действующего законодательства рассмотрен комплекс вопросов, связанных с содержанием и реализацией основных направлений государственной политики в деятельности общенационального лидера Г.Алиева в отношении национальных меньшинств, проживающих на территории Азербайджанской республики. На основе содержания статьи, законодательства республики и опыта международной практики были сформулированы рекомендации, направленные на совершенствование государственной политики в отношении национальных меньшинств, живущих в нашей стране.*

*Ключевые слова:* общенациональный лидер Г.Алиев, государственная деятельность Г.Алиева, национальные меньшинства в Азербайджане, государственная политика в отношении национальных меньшинств, мультикультурализм, культурное разнообразие, защита культурных ценностей национальных меньшинств.

***Введение***. Вопрос национальных отношений является одним из наиболее острых и болезненных для большинства современных государств мира. Этническая проблематика актуальна и для Азербайджанской республики. После обретения государственной независимости (18 октября 1991 г.) началось становление азербайджанской государственности, сопровождающееся широкомасштабной трансформацией всех сфер общественной жизни. Для большинства людей в неустойчивой ситуации переходного общества этническая принадлежность стала способом ощутить себя частью некоего целого, найти психологическую поддержку в традициях своего народа. Выступая с речью на официальном открытии IV Международного гуманитарного форума (октябрь 2014 г.) Президент Азербайджанской республики И.Алиев заявил: «в Азербайджане все народы живут в атмосфере дружбы и доброжелательности, как одна семья. Никогда в Азербайджане не было противостояния, недоразумений на религиозной и национальной почвах, и это наше большое достояние. Так как силу любой страны, конечно же, определяют несколько факторов – политические возможности, экономическая мощь и в то же время существующие в обществе атмосфера, здоровая среда и чувство солидарности. Считаю, что с этой точки зрения опыт Азербайджана очень позитивен, и своими делами мы вносим позитивный вклад в идущие в мире процессы» [20].

***

За годы суверенитета в Азербайджанской республике был принят ряд законодательных актов, формирующих основу государственной национальной политики, целью которой является равенство граждан всех национальных общностей и возможность реализации индивидуальных и коллективных прав национальных меньшинств. Вместе с тем, стремительно меняющиеся условия требуют дальнейшего развития и совершенствования механизмов государственной национальной политики. Отмеченное обстоятельство определило теоретическую и практическую актуальность научного анализа современного состояния положения в Азербайджане национальных меньшинств, межэтнического взаимодействия отношений, определение путей и направлений их дальнейшего совершенствования и развития.

В статье сделана попытка определить место и роль национальных меньшинств в государственной национальной политике, оценить влияние государственной политики на процессы развития национальных меньшинств в условиях суверенитета Азербайджанской Республики. В центре нашего внимания будет ряд проблемных вопросов, в числе которых: роль Общенационального лидера Г.Алиева в исследуемом вопросе, механизм и содержание государственной политики в отношении национальных меньшинств, основные направления и формы этнического развития в культурной среде азербайджанского общества. Будет также предпринята попытка выработать научно-практические предложения по устойчивому развитию национальных меньшинств в целях сохранения этнополитической стабильности в Азербайджанской республики. Анализ и обобщение динамики развития национальных меньшинств в Азербайджанской республике, рассмотрение их институтов с учетом противоречивого характера современных социальных процессов дадут возможность повысить эффективность этнической политики государства, совершенствовать механизмы ее реализации, а также выявить основные факторы, определяющие развитие межэтнических процессов в стране и принятие превентивных мер для консолидации азербайджанского общества.

Принадлежность лиц к национальному меньшинству основывается на его добровольной самоидентификации с данным национальным меньшинством. Отмеченное обстоятельство нашло свое отражение в Конституции Азербайджанской республики это положение выражено в ст. 44. 1) Каждый обладает правом сохранять свою национальную принадлежность; 2) Никто не может быть принужден изменить свою национальную принадлежность» [21, с.11].

Как и во многих республиках бывшего Советского Союза, в Азербайджане, в русле борьбы за государственную независимость и территориальную целостность начиная с конца 80-х гг. XX века, начался процесс возрождения этнического самосознания, населяющих ее народов. В этих условиях независимое азербайджанское государство, с его полиэтнической структурой населения столкнулось с проблемами выявления и разрешения различных политических, экономических и социальных проблем. От способов восприятия этих проблем и их решения, во многом зависела стратегия политического развития республики и ее место в мировом сообществе. Следует отметить, что на протяжении последних 30 лет Азербайджан оставался территорией с самыми горячими и напряженными очагами этнотерриториальных конфликтов на Кавказе. Причины этого неоднозначны, их можно разделить на две группы: внутренние и внешние. Внутренние формы главные по своим последствиям наиболее опасны: «коллизии между титульной нацией азербайджанцами и этническими меньшинствами связаны с дискриминацией и ущемлением прав и свобод этих меньшинств, с отстранением их представителей от государственных структур и экономических рычагов, с «теневой экономикой», бюрократией, мафией и сепаратистскими выпадами [18, с.190]. На наш взгляд, указанный азербайджанским историком Р.Гусейновым феномен характерен для этнических и межэтнических коллизий на всем постсоветском пространстве.

В истории каждого народа есть память о гениях, среди которых великие заслуги перед азербайджанским народом имел основатель нашей современной государственности, наш общенациональный лидер Гейдар Алиев, а его руководство нашей республикой стало важным поворотный моментом в истории нашей страны. Одна из важнейших реформ, проведенным в период независимости, была связана с образованием. Во всех своих выступлениях Гейдар Алиев высоко оценивал деятельность БГУ в развитии науки и образования в Азербайджане.

*Ключевые слова*: Гейдар Алиев, Великий лидер, Бакинский Государственный университет, образование, люди.

**SANUBAR ISMAYILOVA**
*Accosiate professor of Baku State University*

## WORLD FAMOUS GRADUATE OF BAKU STATE UNIVERSITY

In the history of every nation there is a memory of geniuses, among which the founder of our modern statehood, our national leader Heydar Aliyev, had great services to Azerbaijani people, and his leadership of our republic became an important turning point in the history of our country. In all his speeches, Heydar Aliyez higly appreciated the activity of BSU in the development of science and education in Azerbaijan.

*Keywords*: Heydar Aliyer, great leader, BSU, education, people.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 23 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*




UOT 94(479.24)

**MUSA RƏHİMOĞLU-QULİYEV**

*AMEA Naxçıvan Bölməsi, tarix üzrə fəlsəfə doktoru*

**kuliyevm@yandex.ru**

# HEYDƏR ƏLİYEV VƏ ŞEYX ŞAMİL HƏRƏKATI

*Məqalədə Çeçenistanda və Dağıstanda çar müstəmləkəçilərinə qarşı mübarizənin rəhbəri, imamlığın başçısı Şeyx Şamilin həyatından , fəaliyyətindən və 1997-ci ildə Bakıda onun anadan olmasının 200 illiyinin təntənəli qeyd edilməsindən söhbət açılır. Məqalədə həmçinin Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 4 noyabr 1997-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında 200illik yubileyinə həsr edilmiş təntənəli gecədə söylədiyi nitqində böyük sərkərdənin fəaliyyətinə layiqli qiymət verməsindən də danışılır.*

*Açar sözlər*: Heydər Əliyev, Şeyx Şamil, Azərbaycan, Çeçenistan, Qafqaz, Gimrı, Qunib.

***Giriş***. Dünya tarixinin maraqlı və döyüşlərlə dolu səhifələrindən biri də Qafqaz tarixidir. Qafqaz tarixində yerli xalqların milli azadlıq mübarizələrinə rəhbərlik edənlərdən biri böyük sərkərdə Şeyx Şamildir. Şeyx Şamilin apardığı azadlıq mübarizəsi haqqında çoxlu sayda kitablar yazılsa da 1997-ci ilə qədər onun fəaliyyətinə obyektiv qiymət verilməyib. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 4 noyabr 1997-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Şeyx Şamilin 200 illik yubileyinə həsr edilmiş təntənəli gecədə söylədiyi məşhur nitqində böyük sərkərdənin fəaliyyətinə layiqli qiyməti verdi. Bu məhşur nitqə istinad etmədən Qafqazda gedən milli azadlıq mübarizəsini araşdırmaq və düzgün nəticə çıxarmaq olmaz. Bütün yüzilliklərdə Qafqazın dünyanın aparıcı dövlətlərinin diqqət mərkəzində olduğunu bildiyimizdən, azacıq da olsa tarixə ekskurs etməyimiz yerinə düşər. Qafqaz haqqında olan əfsanələrin, əsatirlərin və miflərin sayı-hesabı yoxdur. Bizə gəlib çatan mənbələrin çoxu yunan müdriklərinin kitablarında təsvir olunmuşdur.

Təbii ilahi bir qalanı xatırladan Qafqaz dağları Avropa və Asiyanı da Xəzər və Qara dənizləri arasında yarıya bölür. Qədim yunan mütəfəkkiri Esxil Qafqazı "ulduzların qonşusu" adlandırır. Hələ çox qədim zamanlardan nəhəng sərkərdələr öz taclarını Qafqazı fəth etməklə başlarına qoymaq istəmişlər. Qafqazın tarixində ən maraqlı məsələlərdən biri işğalçıların arxalandıqları güclərini tarmar edən yerli xalqların mübarizəsi və apardıqları döyüşləri olub.

Bu işğalçıların siyahısı genişdir. Məqsədimiz onları sadalamaq deyildir. Çar Rusiyası Qafqazı işğal məsələsinə hələ IV İvan Qroznının vaxtından başlayıb. Əvvəlcə onlar qohumluq diplomatiyası yaradıblar. IV İvan çərkəz knyazının qızı Mariyaya evlənmiş və ilk dəfə Terek çayı sahilində rusların mühafizə qalasını tikdirmişdir. 1594-cü ilin yazında boyar A. Xvorostinin rəhbərlik etdiyi qoşunlar Xəzər dənizi sahilində yerləşən Tarki şamxallığını işğal etdi. Amma dağlı xalqları rus qoşunlarını qovaraq Terekin o biri sahilinə qaytardılar. Sonralar Boris Qodunovun göndərdiyi qoşunların aqibəti də belə oldu. Bundan sonra Qafqaz xalqları üç əsrə yaxın bir müddətdə Türkiyə və İranla müttəfiqlik edirdilər. Ancaq I Pyotr Rusiyanın çarı olandan sonar onun Qafqaza hücumları yenidən başlandı. Bu işdə ona Qafqazda yaşayan gürcülər, gəlmə ermənilər kömək etməyə başladılar.

Qafqazda siyasi hadisələrin qızğın bir vaxtında 1797-ci il iyunun 26-da dəmirçi Denqav Məhəmmədin ailəsində bir oğlan dünyaya gəldi. Müsəlman təqviminə görə 1212-ci il, məhərrəm ayının

1-i idi. Avarların yaşadığı Gimri aulunda (kəndində) hamı sevinirdi. Təzə doğulan körpənin babası adətə görə onun sağ qulağına azan oxudu. Sol qulağına isə onun adını çağırdı: Əli.

Təzə doğulan uşağın zəifliyi valideynlərini çox narahat edirdi. Onlar ümidlərini itirmişdilər. Molla dua oxumağa başladığı vaxt qəribə bir hadisə baş verdi. Aulun üzərində ağ bir qartal göründü. O, Gimri üzərində bir neçə dəfə dövrə vurdu, birdən aşağı şığıyıb yerdən ilanı caynağına alaraq uçub getdi. Aulun başbilən qocaları bunu ilahi xəbər bildilər. Məsləhət gördülər ki, uşağa yeni bir ad da versinlər. Gənc ata-ana öz oğullarını xilas etmək üçün ona Şamil adı verdilər (3, s.2-7; 13-17). Hələ ki, yazılan kitabların heç birində körpəyə bu adın nəyə görə verildiyi araşdırılmayıb. Şamilin yeniyetməlik, gənclik illərindən və hərbi fəaliyyətindən çox yazılıb, söhbət açılıb. Təxminən 100-ə qədər elmi monoqrafiyalarda, akademik nəşrlərdə onun tərcümeyi-halı və hərbi fəaliyyəti haqqında ətraflı məlumat verilib. Həmin mənbələrdən istifadə edərək böyük sərkərdə Şeyx Şamilin bioqrafiyasına nəzər salaq. Şeyx Şamil 1797-ci ildə Dağıstanın Gimri aulunda avar kəndlisi anadan olmuşdur. O, müsəlman ruhanilərindən tərbiyə almışdır. Şamil yaxşı təhsil görmüşdü və ərəb ədəbiyyatını mükəmməl öyrənmişdi. XIX əsrin 20-ci illərindən Qazi Məhəmmədin, sonra isə Həmzət bəyin silahdaşlarından olub. 1817-ci ildən başlanan Qafqaz müharibələri 1864-cü ilədək davam etmişdir. 1835-ci ilin yayında Şamil imam seçilmiş və o vaxtdan dağlıların azadlıq müharibəsinə başçılıq etmişdir. Şamil təşkilatçılıq bacarığı və iradəsi sayəsində dağlıları birləşdirə bilmişdi. Az müddət içində şəxsi igidliyi, sərkərdəlik bacarığı və gözəl natiqliyi ona şöhrət qazandırmışdı. Bu şöhrət Şamilə imkan vermişdi ki, hərbi-teokratik dövlət – imamlıq yaratsın. Bu imamlıqda dünyəvi və dini hakimiyyət Şamilə məxsus idi. 1848-ci ildən isə imamlıq irsi elan edilmişdi. Şeyx Şamilin qoşunları 1840-cı illərdə çar qoşunları üzərində bir neçə dəfə qələbə qazanməşdı. Bu döyüş illərində Şeyx Şamilin qoşununun sayı 20 min nəfərə çatırdı. Onun 6min süvarisi vardı. Çətin əməliyyatlarda 10-15 min qoşun iştirak edirdi. Ancaq getdikcə imamlıqda sosial ziddiyətlər artmağa başladı. Əhali yorulmuşdu, ərzaq çatışmırdı və naiblərin bir çoxu Şamilə xəyanət edib Rusiya tərəfə keçmişdi. Bütün bu olanlar Rusiya qoşunlarının qələbə qazanmalarına səbəb olmuşdu. Belə bir vəziyyət 1850-ci ildə Şeyx Şamil hərəkatını zəiflətdi. 1853-cü ildə Şeyx Şamil Zaqatala qalasına hücum etdi. Amma qələbə qazana bilməyib geri çəkildi. 1859-cu ilin avqustunda general Baryatinskinin 360 minlik ordusu hücuma başladı. Şeyx Şamil 400 müridi ilə Qunib aulunda mühasirəyə alındı və avqustun 26-da o, fəxri şərtlərlə təslim oldu. Şeyx Şamil ailəsi ilə birlikdə Kaluqaya göndərildi. Çar hökuməti 1870-ci ildə Şeyx Şamilə Məkkəyə ziyarətə getməyə icazə verdi. Lakin o, Məkkəyə çatmamış Səudiyyə Ərəbistanının Mədinə şəhərində vəfat etdi. Bu kədərli hadisə 1871-ci ilin martında baş verdi. Çarizm Çeçenistanı və Dağıstanı silah gücünə Rusiya ilə birləşdirdi (1, s.461).

Çar hökuməti Cənubi Qafqazı işğal edəndən, guya özünə könüllü birləşdirəndən sonra Qafqazın dağlıq hissəsində yerləşən rayonlarda öz hakimiyyətini bərqərar etməyə başladı. Hələ itaət altına alınmamış tayfaların və xalqların yaşadıqları bu ərazi Cənubi Qafqazı Şimali Qafqazdan ayırırdı. Bu ərazini tutmadan Cənubi Qafqaza möhkəm sahib olmaq mümkün deyildi. Bunun üçün Rusiya qoşunları hərəkətə başladılar. Meşələrdə yollar çəkir, dağlarda cığırlar açır və qalalar tikirdilər. Dağıstan, Çeçen və Adıgey dağlıları işğalçı rus qoşunlarına qarşı qızğın mübarizəyə başladılar. Rusiya üçün çox ağır olan müharibə başlandı. 1830-cu ildən başlayan bu müharibə 1860-cı ilədək davam etdi.

Məğrur, azadlıqsevər xalqların önündə 25 il ərzində (1834-1859) işğalçılara qarşı döyüşən böyük sərkərdə Şeyx Şamil haqqında çox deyilib yazılsa da, ona və onun apardığı azadlıq müharibəsinə əsl doğru-düzgün siyasi qiyməti ümummilli liderimiz Heydər Əliyev verdi. O, müstəqil Azərbaycan dövlətinin prezidenti olduğu illərdə, 1997-ci ildə Şamilin anadan olmasının 200 illiyinin təntənəli keçirilməsi üçün sərəncam imzaladı. 4 noyabr 1997-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında keçirilən təntənəli yubiley gecəsində ümummilli liderimizin söylədiyi nitq ilk dəfə olaraq ümumən Qafqazda gedən azadlıq mübarizəsinin çox böyük hünərli bir tarix olduğunu önə çəkdi: "Şamil öz böyük həyat yolu ilə, qəhrəmanlığı ilə, Qafqaz xalqları qarşısında əvəzsiz xidmət edibdir. Dünyanın məşhur şəxsiyyətlərindən birinə çevrilibdir" (2, s.141).

Azərbaycan xalqının ümummilli lideri Şeyx Şamili böyük sərkərdə, alim, filosof, dövlət xadimi və xalq qəhrəmanı kimi səciyyələndirmişdir. Çox maraqlıdır ki, o, Qafqazı cəhətlərə bölməyib. Şeyx Şamili küllən Qafqazın xalq qəhrəmanı kimi tarixə daxil etmişdir. Biz öz araşdırmalarımızda bunu həmişə əsas götürməliyik. Qafqaz birdir, bütövdür. İlk dəfə Qafqaz ittifaqını məhz Heydər Əliyev bu

gecədə bir daha qətiyyətlə vurğulamışdır: "İstəyirik ki, Qafqazın hər yerində əmin-amanlıq bərqərar olsun, sülh bərqərar olsun, dostluq bərqərar olsun, xalqlar arasında səmimi münasibətlər yaransın. Bunların hamısı mümkündür. İnanıram ki, biz birgə səylərimizlə onlara nail ola biləcəyik. Ona görə də burada Ümumqafqaz haqqında səslənən ifadələr, sözlər tam əsaslıdır" (2, s.147).

Böyük sərkərdə Şeyx Şamil haqqında hələ onun sağlığında maraqlı kitablar yazılıb. Hətta Rusiyanın özündə rus şairləri Şeyx Şamilə mədhiyyələr ithaf etmişlər. Amma istər çar Rusiyasında, istərsə də keçmiş Sovet İttifaqında, hətta müstəqil dövlətlər yarandıqdan sonra da bu cəsur sərkərdə haqqında şər, böhtan yazanlar da olub. Elə müəmmalı yazılara rast gəlmişik ki, təəssüf hissi tərk etməyib bizi. Ancaq inanmayıb oxucu. Əgər Şeyx Şamil könüllü təslim olubsa, burada açılmayan məsələlər var. Yaxud da bu, uzun sürən Qafqaz müharibəsində dağlıların tamamilə məhv edilməsinin qarşısını alıb. Tarixi araşdırmalara yalnız Heydər Əliyevin dediyi müdrik fikirlərin işığında düzgün cavab tapmaq mümkündür: "Mən hesab edirəm ki, Şeyx Şamil haqqında tarixin müəyyən dövrlərində bəzi qadağalar qoyulmasına baxmayaraq xalqımız Şeyx Şamili heç vaxt unutmayıb. Şeyx Şamil Qafqaz xalqlarının qəlbində daim yaşayıbdır. Onun obrazı həmişə bir qəhrəmanlıq simvolu kimi və müstəqillik, milli azadlıq mübarizəsinin simvolu kimi insanların qəlbində yaşayıbdır. Doğrudur, onun həyatı bir tərəfdən ziddiyyətli olubdur, bir tərəfdən də çox parlaq olubdur, çox nümunəvi olubdur. Amma o, həyatdan gedəndən sonra onun haqqında yazılan tarixi kitablar da ziddiyyətli olubdur, ayrı-ayrı siyasi, subyektiv fikirlər nəticəsində onun həyat yolu bəzən Şamil şəxsiyyətini, onun adını tarixdən silə bilməyibdir" (2,s.142).

Şeyx Şamil haqqında yazılan kitabların ən dolğunu A.Runovskinin yazdığı "Zapiski o Şamile" ("Şamil haqqında qeydlər" SPb., 1860) kitabıdır (4). Ancaq heç bir yerdə Azərbaycanda olduğu kimi, Şamilin fəaliyyəti dərindən və məhəbbətlə tədqiq edilməyib. Hətta azərbaycanlı alim Heydər Hüseynovu məhz Şeyx Şamil haqqında yazdığına görə məhv ediblər. Yubiley gecəsində ümummilli liderimiz Heydər Əliyevin böyük alim və filosof Heydər Hüseynov haqqında dedikləri Şeyx Şamilin Azərbaycanda nə qədər əziz olduğunu önə çəkir: "Bilirsiniz, bu gün, yubiley gecəsində bir daha demək istəyirəm ki, Şeyx Şamilin həyatını təhlil edənlərin də çoxu Azərbaycan alimləri olublar, onun yolunda çətinliklərlə üzləşənlər də Azərbaycan alimləri və yazıçıları olublar, Şeyx Şamilin yolunda qurban gedən də Azərbaycanın böyük alimi, filosofu Heydər Hüseynov olubdur. Bu onu göstərir ki, Şeyx Şamil Azərbaycan xalqı, Azərbaycan üçün nə qədər qiymətli, nə qədər əziz olubdur ki, onun yolunda, yəni, onun ideyaları yolunda, onun haqqında doğru-düzgün, ədalətli sözlər deməyə görə böyük insanlar hətta canını qurban veriblər" (2, s.148-149).

Burada bir məsələni demək çox yerinə düşərdi. Tarixən Qafqazı qana boyayan, böyük dövlətləri burada müharibələrə cəlb edən ermənilər olub. Çünki Qafqazda marağı olan dövlətlərin üçündə də (Rusiyada, İranda və Türkiyə də) ermənilər əziz-xələf olublar. Ermənilər isə bundan xəyanətkarcasına istifadə edərək Qafqazın xoşbəxtliyinə son qoymaq istəmişlər. Hətta onlar XX əsrdə də bu məqsədlərindən əl çəkməmişlər. Elə bu səbəbdən də Şeyx Şamilin yubiley gecəsində Heydər Əliyev Ermənistanın işğalçı niyyətlərini və Azərbaycanın ərazisinin 20 faizinin onlar tərəfindən işğal olunmasını da Qafqaz xalqlarının bir daha yadına saldı: "Bunların hamısı Qafqazın birliyinə vurulan zərbələrdir" (2, s.147).

***Nəticə***. Şeyx Şamilin Qafqazda apardığı milli-azadlıq mübarizəsi tarixin hər bir zamanında Qafqazın yerli xalqları üçün nümunədir. Bu milli azadlıq mübarizəsinə yüksək siyasi qiymət verən və bir daha cəsur sərkərdənin həyatının, fəaliyyətinin dərindən araşdırılmasını tövsiyə edən ümummilli liderimiz Heydər Əliyev tarixi nitqi ilə Qafqaz xalqlarının azadlıq mübarizəsinin istiqamətini müəyyənləşdirdi. Bu tarixi nitq bütün yüzilliklərdə qafqazşünaslara Qafqaz tarixini tədqiq etmək üçün əvəzsiz mənbədir.

## ƏDƏBİYYAT


1. ASE (Azərbaycan Sovet Ensiklopediyası). X cild. Bakı: ACE Baş Redaksiyası, 1987, 608 s.
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. XIII cild. Bakı: Azərnəşr, 2004, 520 s.
3. Казиев Шапи. ЖЗЛ. Имам Шамиль. Москва: Молодая гвардия, 2003, 378 с.
4. Руновский А.И. Записки о Шамиле пристава при военнопленном. Санкт-Петербург, тип. К.Вульфа, 1860, 204 с.

**МУСА РАГИМОГЛУ (КУЛИЕВ)**
*Нахчыванское отделение НАНА, доктор философских наук*

## ГЕЙДАР АЛИЕВ И ДВИЖЕНИЕ ШЕЙХА ШАМИЛЯ

В статье рассказывается о жизни и деятельности руководителя борьбы против царских колонизаторов в Чечни и Дагестане, главы имамата Шейха Шамиля и торжественном отмечании в1997 голу в Баку 200-летия со дня рождения. В статье также говорится об оценки общенационального лидера Азербайджанского народа Гейдара Алиева в 4 ноября 1997 году в Баку Азербайджанской Государственной Академической Оперном и Балетном Театре дал достойную оценку деятельности великого полководца во время своего выступления в торжественном вечере, посвященном 200-летнему юбилею Шейха Шамиля.

*Ключевые слова*: Гейдар Алиев, Шейх Шамиль, Азербайджан, Чечня, Кавказ, Гимры, Гуниб.

**MUSA RAHIMOGLU (GULIYEV)**
*Nakhchivan Department of ANAS, Doctor of Philosophy in History*

## HEYDAR ALIYEV AND SHEYKH SHAMIL MOVEMENT

The research paper speaks about the life and activity of Sheykh Shamil, who was the captain of the resistance to Tsar colonizers in Chechnya and Dagestan, the leader of the imamate, and about the celebration of his 200th anniversary in Baku, in 1997. It also deals with worthily appreciation of the great commander by Heydar Aliyev, the National leader of the Azerbaijani nation, in his speech in the honour of 200th anniversary of Sheykh Shamil, made in Azerbaijani State Academic Opera and Ballet Theatre, on November 4, 1997.

*Keywords*: Heydar Aliyev, Sheykh Shamil, Azerbaijan, Chechnya, Caucasus, Gimri, Gunib.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*




**UOT 94(479.24)**

**VAQİF NƏBİYEV**
*Bakı Dövlət Universitetinin baş müəllimi*
**vagifnabiyev@bsu.edu.az**

**RƏNA MƏLIKLI**
*Bakı Dövlət Universitetinin müəllimi*
**renamelikli@mail.ru**

# AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ HEYDƏR ƏLİYEV AMİLİ

*Məqalə görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-2003-cü illərdə Azərbaycana rəhbərliyi dövründə ölkəmizi çətin sınaqlardan çıxarması ilə yanaşı, müstəqilliyimizin möhkəmləndirilməsi üçün atdığı uğurlu addımlardan bəhs olunur. Tədqiq olunan dövrdə Heydər Əliyev tərəfindən Azərbaycanın daxili və xarici siyasətində və eləcə də iqtisadiyyatın, elmin, mədəniyyətin ordu quruculuğunun yüksəldilməsinə verdiyi töhfələr geniş şəkildə əks etdirilmişdir.*

*Açar sözlər:* Müstəqillik, Heydər Əliyev, sabitlik siyasət, iqtisadiyyat, islahat.

***Giriş.*** Azərbaycanın çətin günlərində 1993-cü il iyunun 15-də xalqın tələbi ilə hakimiyyətə gələn Heydər Əliyevin bu qayıdışı Azərbaycanın dövlətçilik tarixində mühüm mərhələ oldu. Xüsusilə Ulu Öndər 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra taleyüklü məsələlərin həllinə cəsarətlə başladı. İlk olaraq ölkədə baş alıb gedən xaos və özbaşınalığın qarşısı alındı. Azərbaycanı parçalamağa çalışan qüvvələr Heydər Əliyevin səyi nəticəsində ləğv olundu. Ölkədə sabitlik bərqərar olundu. Müstəqil respublikamızın ilk Konstitusiyası qəbul olundu. Xarici ölkələrlə münasibətlər qaydasına düşdü. Azərbaycanın iqtisadiyyatında, elm və mədəniyyətində böyük uğurlar qazanıldı. Göründüyü kimi təqdim olunan mövzu xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan tarixinin taleyüklü hadisələrlə dolu otuz ildən artıq bir dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın müstəqillik, milli dövlətçilik uğrunda mübarizəsində ulu öndərin özünə məxsus müstəsna yeri vardır.

Məlum olduğu kimi 1991-ci ilin 18 oktyabr tarixli sessiyasında Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktını qəbul etdi.

Bundan sonra əsas vəzifə yaranmış vəziyyətdən düzgün istifadə edərək ölkəmizin müstəqilliyini möhkəmləndirmək üçün konkret tədbirlər həyata keçirməkdən ibarət idi. Lakin respublika rəhbərliyi ölkədəki mövcud ictimai-siyasi vəziyyəti düzgün qiymətləndirə bilmədi. Bu da Azərbaycanda böhranın dərinləşməsinə, xaos və özbaşınalığın artmasına şərait yaratdı.

Vəziyyətdən çıxmaq üçün dəfələrlə hakimiyyət dəyişikliyi baş versə də nə cəbhədə, nə də ölkənin ictimai-siyasi, iqtisadi və mənəvi həyatında müsbətə doğru irəliləyiş yaranmadı. Əksinə xaricdən idarə olunan "sadval"ın Azərbaycanın şimal rayonlarını ondan ayırmaq, Əlikram Hümbətovun isə ölkənin cənub bölgəsini ayırıb müstəqil dövlət təşkil etmək iddiaları, digər tərəfdən erməni silahlı qüvvələrinin yeni hücumları, bütün bunlar Azərbaycanı parçalamaq, məhv olmaq təhlükəsi qarşısında qoymuşdu.

Vahid ordu yaratmaq əvəzinə ölkə içərisində müxtəlif partiyalara, ayrı-ayrı adamlara məxsus silahlı dəstələr yaradılmışdı ki, onların da heç biri hakimiyyətə tabe olmur, istədiklərini edirdilər. Belə bir vəziyyətdə Azərbaycan Xalq Cəbhəsi iqtidarının üsyançı polkovnik Surət Hüseynovu ordudan uzaqlaşdırmaq cəhdləri heç bir nəticə vermədi, əksinə respublikamız üçün faciə ilə nəticələndi. Belə ki, 1993-cü il iyunun 4-də Gəncədə Surət Hüseynovun nəzarəti altında olan ordu hissələri ilə iqtidara məxsus ordu arasında baş verən toqquşmada xeyli ölən və yaralananlar olmuşdu.

Surət Hüseynov Gəncə və onun ətraf rayonlarını öz nəzarəti altına almış, son məqsədinin isə Xalq Cəbhəsini hakimiyyətdən uzaqlaşdırmaq olduğunu bəyan etmişdi.

Artıq belə bir vəziyyətdə xalqla birlikdə hakimiyyətdə olan AXC iqtidarı da çıxış yolunu yalnız görkəmli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə gətirilməsində görürdü.

Respublikanın bu ağır günündə Heydər Əliyev xalqın çağırışını qəbul edib 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Parlament üzvləri ilə görüşdə Gəncəyə gedib hadisələrlə yaxından tanış olacağını bildirdi. Belə ki, Heydər Əliyev öz şəxsi həyatını təhlükə qarşısında qoyaraq böyük cəsarət nümayiş etdirərək Gəncəyə getdi, orada baş vermiş hadisələrlə yaxından tanış olub öz tövsiyələrini verdikdən sonra Bakıya qayıtmış və Ali Sovetdə millət vəkilləri qarşısında ətraflı məlumat vermişdi.

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Həmin vaxtlar ulu öndər qarşısında duran vəzifələrə toxunaraq demişdir: “Mən bu böyük yükü ancaq ona görə çiyninə götürmüşəm ki, xalqın həyatının ən çətin dövründə onu xidmət göstərim” [1, 122].

Azərbaycan Prezidenti Əbülfəz Elçibəy ölkədəki gərgin vəziyyəti düzəltmək üçün əməli addımlar atmaq əvəzinə Bakını tərk edib Naxçıvanın Kələki kəndinə getmişdi. Bəzi hökumət üzvləri isə vəzifələrindən istefa vermişdilər. İyunun 23-də Respublika Ali Soveti tərəfindən Respublika Prezidentinin səlahiyyətləri Heydər Əliyevə həvalə olundu.

Təcrübəli siyasətçi Heydər Əliyev 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi yolu ilə Azərbaycan Respublikasının Prezidenti seçilir. Bundan sonra o, ölkə qarşısında duran problemlərin həllinə başladı. Xalqın dəstəyinə arxalanan Prezidentin qətiyyəti və müdrik siyasəti nəticəsində Azərbaycanı daxildən parçalamağa çalışan qüvvələr ləğv edildi. 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs əldə edildi və müharibə dayandırıldı.

Ulu öndər Heydər Əliyev hələ prezidentliyinin ilk illərində demişdir: “Əgər bu gün qarşımızda duran vəzifələri layiqincə yerinə yetirə bilsək, Azərbaycan xalqı, respublikası, müstəqil dövlətimiz üçün gələcəkdə daha gözəl şərait yarada bilərik” [2,15]. Ölkə rəhbərliyinin səyi nəticəsində Azərbaycanda yaranan sabitlik beynəlxalq maliyyə mərkəzlərini, dünyanın nüfuzlu şirkətlərini respublikamıza böyük miqdarda kredit verməyə, investisiya qoymağa ruhlandırdı. Heydər Əliyevin qətiyyəti nəticəsində 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında “Əsrin müqaviləsi” adlandırılan neft müqaviləsi imzalandı [3]. Azərbaycan üçün həyatı əhəmiyyət kəsb edən bu müqavilə həm ölkə daxilində sabitliyin bərqərar olmasında, həm də xarici siyasətdə böyük uğurlar əldə edilməsində müstəsna rol oynadı.

“Əsrin müqaviləsi” nin bağlanmasına xüsusi önəm verən Heydər Əliyev demişdir: “Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə istismarına dair xarici neft şirkətləri ilə bağlanmış müqavilələrin son dərəcə böyük əhəmiyyəti var” [4,51]. Bu tarixi müqavilənin imzalanmasından sonra Azərbaycanın iqtisadiyyatında artım özünü geniş şəkildə göstərməyə başladı. Lakin yaranan sabitlik və əldə olunan nailiyyətlər hakimiyyət hərisi olan müəyyən qüvvələri ciddi narahat edirdi. Onlar hakimiyyətə can atır və bunun üçün hər cür çirkin vasitələrdən istifadə edirdilər. Belə ki, 1994-cü il oktyabrın 4-də Respublika Nazirlər Kabinetinin sədri Surət Hüseynovun başçılığı ilə Gəncədə edilən dövlər çevrilişi qəsdi və 1995-ci ilin martında Bakıda Xüsusi Təyinatlı polis işçilərinin dövlət çevrilişi cəhdləri Heydər Əliyevin qətiyyəti nəticəsində baş tutmadı. Bunlardan başqa ölkə rəhbərliyinin səmərəli fəaliyyəti nəticəsində bir sıra sui-qəsd və təxribatlar da aşkar edilib zərərsizləşdirilmişdi.

Azərbaycanın dövlət müstəqilliyinin qorunması üçün ölkə başçısı Heydər Əliyev bütün çətinliklərə sinə gərərək öz müdrik siyasəti və zəngin zəkası sayəsində böyük uğurlara imza atmış və xalqımızın parlaq gələcəyinə toxunaraq demişdir: “Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi

yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır" [5, 14].

1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəhbərliyi ilə yeni Konstitusiyanın qəbulu ölkədə demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunda hüquqi əsas yaratdı.

Beləliklə Azərbaycanda daxili çəkişmələrə son qoyulması, siyasi sabitliyin təmin olunması "atəşkəs" haqqında razılaşma əsasında erməni təcavüzünün dayandırılması, "Əsrin müqaviləsi" nin bağlanması, balanslaşdırılmış xarici siyasət və qonşu ölkələrdə münasibətlərin normallaşdırılması, bütün diqqəti ölkədə çoxdan yığılıb qalış, daxili, sosial-iqtisadi problemlərin həll olunmasına yönəlməyə imkan verdi.

Dövlət quruculuğu məsələlərində və respublikamızın hərtərəfli inkişafının düzgün istiqamətləndirilməsində xüsusi rol oynayan ilk Konstitusiyanın qəbul edilməsini yüksək qiymətləndirərək Heydər Əliyev demişdir: "İndi biz müstəqil Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin ilk Konstitusiyasını qəbul etdik. Bu çox məsuliyyətli və çox şərəfli bir vəzifədir. Bu bizə nəsib olubdur və güman edirəm ki, biz, yəni indiki nəsil həmin şərəfli vəzifəni ləyaqətlə yerinə yetirməyə qadirik" [6, 18-19].

Ümumiyyətlə Azərbaycanda müstəqilliyin qorunması üçün bütün sahələrin, belə ki, iqtisadiyyatın, elmin, mədəniyyətin, idarəçilik sisteminin, ordu quruculuğunun müasir tələblər səviyyəsinə yüksəldilməsi üçün ölkə rəhbərliyi tərəfindən əməli addımlar atılması xüsusi qeyd edilməlidir. Müstəqilliyin qorunmasını əsas vəzifələrdən biri hesab edən Heydər Əliyev demişdir: "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanması, daimi, əbədi olması bundan da çətindir" [7, 7].

Azərbaycanda müstəqil dövlət quruculuğunun memarı olan Heydər Əliyev iqtisadi inkişaf strategiyasını formalaşdırılmağı və inkişaf etdirməyə, iqtisadi islahatların və idarəçiliyin təməl prinsiplərindən başlayaraq qarşıda duran vəzifələrə toxunaraq demişdir: " Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən də istifadə etmək, islahatlar aparmaq, bazar iqtisadiyyatı yolu ilə getmək, sərbəstlik vermək, torpağı kəndlilərə vermək, onları torpağın sahibi etmək, mülkiyyət formasını dəyişdirmək lazımdır" [8, 51].

Görülən tədbirlərin məntiqi nəticəsi olaraq qısa müddət ərzində iqtisadi islahatların hüquqi bazasını təmin edən qanunlar işlənib hazırlanmış və qəbul edilmişdir. Mülkiyyət və dövlət əmlakının özəlləşdirilməsi haqqında verilən qanunlar kütləvi özəlləşdirməyə və sahibkarlığın inkişafına güclü təkan vermişdir.

Respublika iqtisadiyyatında neftin artan rolunu nəzərə alan ölkə rəhbərliyinin səyi nəticəsində xarici neft birliyinin səyi nəticəsində xarici neft şirkətləri ilə müqavilələr imzalanması uğurla davam etdirilmişdir. Belə ki, 1996-cı il iyunun 4-də "Şahdəniz" struktur yatağı ilə bağlı 5 xarici şirkətlə müqavilə imzalanmışdır [9, 36]. Bunun davamı olaraq 1996-cı il dekabrın 14-də Bakının "Gülüstan" sarayında Xəzərin Azərbaycan sektorundakı "Dan ulduzu" və "Əşrəfi" neft strukturlarının birgə işlənməsi haqqında müqavilə imzalanmışdır [10, 38]. Bütün bunların nəticəsi olaraq Azərbaycanın iqtisadiyyatına yatırılan sərmayələrin həmçinin sürətlə artması, ölkəmizdə həm daxili, həm də xarici investisiya üçün əlverişli şərait yaratmışdı.

Ümumiyyətlə ölkəmizdə dövlət quruculuğu sahəsində həyata keçirilən mühüm əhəmiyyətli tədbirlər Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirdi və xalqın gələcəyə olan inamını xeyli artırdı.

Buna görədir ki, xalqımız Ümummilli Lider Heydər Əliyevin 1993-1998-ci illərdəki prezidentlik fəaliyyətini yüksək qiymətləndirildi. Bu dövrdə o Azərbaycanı bölünməkdən, müstəqilliyimizi itirməkdən, vətəndaş qarşıdurmasından xilas etdi. Respublikamız artıq demokratik prinsiplərin inkişafına xüsusi önəm verən müstəqil dövlət kimi beynəlxalq aləmdə öz mövqeyini daha da möhkəmləndirdi. Ona görə də 1998-ci il oktyabrın 11-də keçirilən növbəti prezident seçkilərində xalqımız müdrik şəxsiyyət olan Heydər Əliyevi yenidən prezident seçdi.

Ulu öndər ikinci prezidentliyi dövründə də ölkəmizin sosial, iqtisadi və mədəni inkişafına diqqəti daha da artırmış və böyük uğurlara imza atmışdır. 1998-ci ildə respublikamızda ölüm hökmü ləğv edilmiş və bu cür demokratik addımların atılması sayəsində Azərbaycan 2001-ci ildə Avropa Şurasına üzv qəbul olunmuşdur.

Respublikamızın iqtisadiyyatında mühüm rol oynayan neft sənayesinin daha da inkişaf etdirilməsi üçün müasir texnologiyalar əsasında yenidən qurulmasına önəmli əhəmiyyət verən Heydər Əliyevin rəyi nəticəsində bu sahədə böyük uğurlar qazanılmışdır. Ölkənin əldə etdiyi valyuta və digər vəsaitlərin yığılması, səmərəli idarə və istifadə olunması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli fərmanına uyğun olaraq Dövlət Neft Fondu yaradılmışdır [11].

Ümumiyyətlə 1994-2002-ci illərdə Azərbaycan Dövlət Neft şirkəti 15 ölkənin 33 neft şirkəti ilə 21 müqavilə imzalanmışdır [12 355]. Beləliklə həyata keçirilən uğurlu neft sazişləri sayəsində respublikamıza güclü sərmayə axını uğurla davam etmiş, nəticədə Azərbaycanın neft-qaz sənayesi üstün surətlə inkişaf etmişdir.

Ulu Öndər Heydər Əliyev xarici ölkələrə rəsmi səfərləri zamanı bir qayda olaraq orada yaşayan azərbaycanlılarla görüşmüş, onların problemləri ilə yaxından tanış olmuş, öz tövsiyələrini vermişdir. 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi Heydər Əliyevin ən böyük xidmətlərindən biri idi. Bunun məntiqi davamı olaraq Prezident Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli fərmanı ilə "Xaricdə Yaşayan Azərbaycanlıların İşi Üzrə Dövlət Komitəsi" yaradıldı [13]. Bu dünya azərbaycanlılarının həyatında mühüm mərhələ oldu.

Ümumiyyətlə, ulu öndər Azərbaycan xalqının və Azərbaycan dövlətini fəlakət burulğanından xilas etməklə yanaşı, misilsiz fitri istedadı, zəngin dövlətçilik təcrübəsi və ölkə daxilindəki reallıqları düzgün qiymətləndirmə bacarığı sayəsində respublikamıza bütün sahələrdə böyük uğurlar qazandırmışdır.

2003-cü il noyabrın 17-də İlham Əliyev prezident seçkilərindən sonra Nazirlər Kabinetinin ilk iclasında proqram xarakterli çıxışında demişdir: " Azərbaycanda son illər ərzində aparılan iqtisadi siyasət çox uğurlu olubdur və Azərbaycanın gələcək inkişafı üçün gözəl təməl yaradılmışdır. Bizim hamımızın vəzifəsidir ki, bu siyasəti davam etdirək, əldə olunan bu uğurları artıraq və Azərbaycanın hərtərəfli inkişafı üçün böyük imkanlardan istifadə edərək, qoyulmuş bu təməl üzərində müasir Azərbaycanı yaradaq [14].

Göründüyü kimi Azərbaycanda müstəqilliyin siyasi proqramını böyük inamla formalaşdıran və reallaşdıran eyni zamanda iqtisadi müstəqillik uğrunda mübarizənin möhkəm təməlini yaratmış ulu öndər Heydər Əliyevin uğurları ölkə başçısı İlham Əliyev tərəfindən xüsusi qeyd edilmişdir.

2004-cü il mayın 10-da Heydər Əliyev Fondunun açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışında ulu öndərin əvəzsiz xidmətlərindən bəhs edərək demişdir: "Bu gün Heydər Əliyev bizimlə deyil, amma onun fiziki yoxluğu bizi ruhdan salmamalıdır. Onun ideyaları yaşayır, onun siyasəti yaşayır, onun fəlsəfəsi, Azərbaycan fəlsəfəsi, ideologiyası yaşayır. Və onun qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır və onun yolu ilə inkişaf edir" [15].

***Nəticə.*** Məlum olduğu kimi Heydər Əliyev Azərbaycanın Dövlət müstəqilliyini qorumaqla yanaşı, ölkəmizin hərtərəfli inkişafının uzun ömürlülüyünü" təmin edən təkmil irs, dövlətçilik xətti, siyasi məktəb yaratmışdır. Onun hakimiyyəti dövrü Azərbaycan tarixində ən şərəfli səhifələrdən diridir və bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə edilən nailiyyətlər məhz Ulu öndərin fəaliyyəti bəhrələridir. Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışlarında ölkəmizin bu günkü uğurlarında Heydər Əliyevin əvəzolunmaz rolunu qeyd etməklə yanaşı, onun siyasətini davam etdirəcəyini vurğulamışdır.

## ƏDƏBİYYAT

1. "Azərbaycan" qəzeti. Bakı, 1994, 21 sentyabr
2. "Azərbaycan" qəzeti. Bakı, 1999, 30 dekabr
3. "Azərbaycan" qəzeti. Bakı, 2002, 6 iyul
4. "Azərbaycan" qəzeti. Bakı, 2003, 18 noyabr
5. "Azərbaycan" qəzeti. Bakı, 2004, 11 may
6. Azərbaycan tarixi. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2014, 380 s.
7. Elman Nəsirov. Azərbaycan nefti və beynəlxalq müqavilələr (1991-1999). Bakı, Qanun nəşriyyatı, 1999, 104 s.

8. Elman Nəsirov. Azərbaycan nefti və beynəlxalq müqavilələr (1991-1999). Bakı, Qanun nəşriyyatı, 1999, 104 s.
9. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, Azərbaycan Universiteti, 1997, 136 s.
10. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, Azərbaycan Universiteti, 1997, 136 s.
11. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, Azərbaycan Universiteti, 1997, 136 s.
12. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, Azərbaycan Universiteti, 1997, 136 s.
13. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, Azərbaycan Universiteti, 1997, 136 s.
14. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, Azərbaycan Universiteti, 1997, 136 s.
15. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, Azərbaycan Universiteti, 1997, 136 s.

**ВАГИФ НАБИЕВ**
*Старший преподаватель Бакинского Государственного Университета*
**РЕНА МЕЛИКЛИ**
*Преподаватель Бакинского Государственного Университета*

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА В УКРЕПЛЕНИЕ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА

В статье исследуются деятельность Гейдара Алиева в 1993-2003-е годы по выводу Азербайджана из тяжелого положения, а так же успешные шаги предприняты им для укрепления Независимого Азербайджана. В статье раскрываются рекомендации Гейдара Алиева по развитию внутренней и внешней политики, науки и культуры, а так же военного строительства Гейдара Алиевым в исследуемый период.

*Ключевые слова:* Независимость, Гейдар Алиев, политика, стабильность, экономика, реформы

**VAGIF NABIYEV**
*Senior lecturer of State University*
**RENA MELIKLI**
*Lecturer of State University*

## THE ROLE OF HEYDAR ALIYEV IN STRENGTHENING OF INDEPENDENCE OF THE STATE OF AZERBAIJAN

The article examines the activities of Heydar Aliyev between 1993-2003 to get Azerbaijan out of a difficult situation, as well as successful steps taken by him to strengthen its independence. The article analyses Heydar Aliyev's contributions to the development of domestic and foreign policy, science and culture, as well as military development in the period under study.

*Keywords*: Independence, Heydar Aliyev, policy, stability, economy, reforms.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*




**UOT 94(479.24)**

**MƏMMƏDAĞA BAXIŞOV**

*Bakı Dövlət Universiteti Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının dosenti*

**mamamadağabaxışov@bsu/edu/az**

# YENİ DÜNYA NİZAMININ FORMALAŞMASI ŞƏRAİTİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİYASI

*Məqalə dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanın yeni geosiyasi şəraitə uyğunlaşmaq və yeni beynəlxalq sistemin formalaşmasında iştirak etmək üçün xarici siyasət proqramının hazırlanıb həyata keçirilməsinə həsr olunmuşdur. Bu siyasət ulu öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış, bilavasitə onun iştirakı ilə həyata keçirilmiş və ölkəmizin daxili və beynəlxalq vəziyyətinin yaxşılaşmasında, dövlət müstəqilliyinin möhkəmlənməsində mühüm rol oynamışdı. Məqalədə respublikamızın xarici siyasət fəaliyyətinin əsas istiqamətlərinə, vastələrə icrasına nail olmaq üçün istifadə edilən geniş miqyaslı diplomatik vasitələrə və diplomatiyamızın nailiyyətlərinə xüsusi diqqət yetirir.*

*Açar sözlər:* Xarici siyasət, diplomatiya, geosiyasət, beynəlxalq təşkilatlar, əməkdaşlıq, münaqişə,varislik və zəfər.

***Giriş.*** XX əsrin sonunda soyuq müharibənin başa çatması və əvvəlki beynəlxalq sistemin dağılması nəticəsində dünyada yeni geosiyasi vəziyyət yarandı. Beynəlxalq münasibətlərin inkişafında keçid dövrü başlandı. Keçid dövründə dünyada yeni beynəlxalq münasibətlər sistemi formalaşırdı. Dünyanın hər yerində yeni nizam, yeni beynəlxalq qayda, yeni dövlətlərarası və diplomatik münasibətlər sistemi yaranırdı. Azərbaycanın dövlət müstəqilliyinin bərpası belə bir dövrə təsadüf etmişdi. 1991-ci ilin oktyabrında müstəqilliyini bərpa edən respublikamız keçid dövründə, yeni geosiyasi şəraitdə, yeni diplomatik münasibətlər sistemində fəaliyyət göstərməli, başqa sözlə dünyada yaranmış yeni geosiyasi vəziyyətə uyğunlaşmalı idi. Gənc müstəqil dövlət üçün bu asan məsələ deyildi, amma zəruri idi.

Dünyada mürəkkəb və ziddiyyətli hadisələr cərəyan etdiyi və məhəlli silahlı münaqişələrin artdığı şəraitdə müstəqil dövlət yaratmaq üçün dərin düşüncə, yaradıcılıq və çeviklik tələb olunurdu. Böyük dövlətlər dünyanı "qarşılıqlı asılı dövlətlər sistemi"kimi görürdü [1]. Bu amil yeni yaranmış dövlətlərin başqaları ilə əməkdaşlığına şərait yaradırdı, eyni zamanda böyük dövlətlər öz həyat tərzini digər dövlətlərə qəbul etdirməyə meylli idi. Ona görə müstəqilliyi yeni qazanan ölkə onu xarici təsirdən qorumağa qadir olan potensial yaratmalı idi. Zəruri məsələlərdən biri daxili və xarici siyasətin bir-birini tamamlanması idi. 1990-cı illərin əvvəllərində dünyanı əhatə edən geosiyasi proseslər ölkəmizə də böyük təsir göstərmişdi. Bəzi dövlətlər Ermənistanı Azərbaycanda yeni ərazilər ələ keçirməyə təhrik edirdi.

***Azərbaycan Respublikasının xarici siyasıt fəaliyyətinin istiqamətləri və yeni diplomatiyanın zəruriliyi.*** Müstəqilliyin bərpasından sonra Azərbaycan Respublikasının qarşısında dayanan zəruri vəzifələrdən biri milli maraqlara və dövrün reallıqlarına uyğun xarici siyasət kursunun hazırlanması və yeni diplomatiya əsasında həyata keçirilməsi idi. Beynəlxalq hüququn prinsiplərinə əsaslanan bu

siyasət ölkəmizin ağır sosial-iqtisadi və siyasi vəziyyətdən çıxmasını təmin, dünyanın iqtisadi və siyasi həyatına inteqrasiyasını təşkil etməli idi [5, s.109]. Müstəqilliyin qorunması, suverenliyin möhkəmlənməsi və respublikanın tərəqqi yoluna çıxması səmərəli və praqmatik xarici siyasətdən, diplomatiyadan birbaşa aslı idi.

1993-cü ilin iyulunda xalqın tələbi ilə yenidən respublikamızda hakimiyyətə qayıdan Ulu öndər Heydər Əliyev həm daxili, həm də xarici siyasətin və diplomatiyanın ölkənin, xalqın, dövlətin və dünyanın tələblərinə cavab verən proqramını hazırladı. Həmin proqram əsasında Azərbaycan Respublikasının xarici siyasəti və diplomatiyası yenidən quruldu. Ümummilli liderin rəhbərliyi altında Azərbaycan dövləti əvvəlki hökumətlərin beynəlxalq siyasət sahəsində yol verdiyi səhvləri aradan qaldırmaq və ölkəmizin beynəlxalq vəziyyətini yaxşılaşdırmaq üçün səmərəli fəaliyyətə başladı.

Ulu öndər Heydər Əliyev Azərbaycanın geosiyasi mövqeyini onun strateji mənafeləri və böyük dövlətlərin Cənubi Qafqaza yönəlmiş geosiyasəti ilə uzlaşdırmağı məharətlə bacardı. 1993-cü ilin iyunun 9-da Milli Məclisdə çıxışında Ümummilli lider bildirmişdi: "Xarici siyasət Azərbaycan müstəqilliyini təmin edən atributlardan biridir. Azərbaycanın xarici siyasəti sağlam, düşünülmüş, uzaqgörən olmalıdır. Bu siyasət Azərbaycanı dünya birliyinə bağlamalı, ölkəmizin bütün dövlətlərlə əlaqəsini və mənafelərini təmin etməlidir" [2]. Xarici siyasət faktiki və hüquqi cəhətdən Azərbaycanın müstəqil dövlət və suveren ölkə kimi tanınmasını təmin etməli idi. Ulu öndər haqlı olaraq belə hesab edir di ki, 1991-1992-ci illərdə Azərbaycanın sağlam düşüncəli xarici siyasəti yox idi. Ulu öndər həm xarici siyasət sahəsində buraxılmış səhvlərin səbəblərini, həm də düzgün xarici siyasətin yolunu göstərdi: Azərbaycanın bütün dövlətlərlə bərabərhüquqlu əlaqələri olmalıdır.

Ulu öndər Heydər Əliyev bəyan edirdi ki, 1991-1992-ci illərdə ölkəmizin xarici siyasətində üstün yer tutan təcridçilik həm səhv, həm də milli maraqlarımıza zidd idi. Heydər Əliyev deyirdi ki, dünyanın Azərbaycanı tanımaması, problemlərini bilməməsi, səsini eşitməməsi özünütəcrid siyasətinin yekunu idi. Bu siyasəti Ulu öndər "özümüzün özümüzə vurduğumuz zərbə" kimi səciyyələndirmişdi. Ulu öndər bilirdi ki, ölkənin strateji maraqlarının reallaşması və qorunması birbaşa düzgün addımların, dəqiq hesablanmış aksiyaların vasitəsilə mümkündür. Ümummilli lider nəzərə alırdı ki, respublikamızda böyük dövlətlərin geoiqtisadi maraqları var, geosiyasi cəhətdən Azərbaycan onların nüfuz dairəsinə daxildir. Bu vəziyyətdə xarici siyasətimiz balanslı mövqe, çevik münasibət, çoxsaylı taktiki aksiyalar əsasında həyata keçirilməli idi və belə həyata keçirildi. Bu yolla Azərbaycanın dünya siyasətində yerini möhkəmləndirmək, rolunu artırmaq, rasional strategiyanın köməyi ilə məqsədlərə çatmaq mümkün idi. Ulu öndər Azərbaycanın beynəlxalq mövqeyini formalaşdıran amilləri ciddi şəkildə nəzərə alıb ölkəmizin xarici, o cümlədən geosiyasətində, taktika, strategiyasında və diplomatiyasında nəticəsi müsbət olan dəyişikliklər etdi. Ulu öndərin bu sahədə gördüyü işlərdən biri xarici siyasət fəaliyyətinin əsas istiqamətlərini. o cümlədən prioritetlərini müəyyənləşdirmək oldu. Bütün istiqamətlərdə respublikamızın beynəlxalq əlaqələrinin coğrafiyası genişlənməli, Azərbaycan müxtəlif formalarda beynəlxalq hüquq subyekti olan təşkilatlarla əməkdaşlıq etməl idi.

Ulu öndər dərhal ölkənin qarşısında dayanan mühüm vəzifələrin icrasına başladı. O, beynəlxalq vəzifələrin həllində dinc, yəni, diplomatik-siyasi vasitələrə,hətta çətin vaxtlarda və çətin işlərdə diplomatiyaya, danışıqlara üstünlük verdi. bu yolla respublikamız həm də başqa dövlətlərin Azərbaycana yönəlmiş bir sıra niyyətlərini pozdu. Balanslaşdırılmış xarici siyasət çoxvariantlı diplomatik vasitələrə əsaslandı. Dünyada qüvvə nisbəti Qərb dövlətinin xeyrinə dəyişmişdi. Avropaya və dünyaya inteqrasiya respublikamızın xarici siyasətinin strateji xətti idi.

Qonşu ölkələrlə əlaqələrin bərpası və inkişafı Azərbaycanın qarşısında dayanan əsas vəzifələr sırasına daxil idi. Ulu öndər yaxın və uzaq ölkələri yaxşı tanıyır, Azərbaycanla bağlı məqsədlərini kifayət qədər bilirdi. Ulu öndərin təşəbbüsü ilə Azərbaycan Respublikası 1993-cü ilin sentyabrında Müstəqil Dövlətlər Birliyinə daxil oldu [2]. Bu yolla keçmiş SSRİ respublikaları ilə əlaqələrin bərpası prosesi sürətləndi. Sonra postsovet respublikaları ilə iqtisadi, siyasi və mədəni əlaqələr genişləndi.

Ulu öndər dialoq və anlaşma əsasında Rusiya ilə əməkdaşlığı yüksək qiymətləndirir və bunu Cənubi Qafqaza təhlükəsizlik üçün zəruri hesab edirdi. Heydər Əliyev həmişə Rusiya ilə əlaqələrin strateji xarakter daşımasını qeyd edirdi. Ona görə Rusiya ilə əlaqələrin Qərb və Şərq sivilizasiyalarının elementlərini özündə birləşdirən ölkə kimi respublikamızın xarici siyasətində mühüm yer tutması təsadüfi deyildi. V.Putinin ölkəmizə səfərindən sonra iki ölkə arasında münasibətlərin yeni mər-

hələsi başladı. Ulu öndər Rusiyada cavab səfərində oldu, Bakı bəyannaməsi imzalandı və Xəzərin statusu ilə bağlı mübahisəli məsələlər öz həlini tapdı.

Postsovet məkanına daxil olan Ukrayna, Gürcüstan və Moldova ilə əlaqələrin bərpasına və inkişafına ölkəmizdə böyük diqqət yetirilirdi. Uğurlu fəaliyyət nəticəsində həmin ölkələrlə münasibətlər genişləndi. Gürcüstan vasitəsilə respublikamız Avropaya çıxış əldə etdi. Ukrayna malik olduğu böyük potensialla yanaşı, bütün sahələrdə əməkdaşlıq üçün etibarlı tərəfdaş idi. Ulu öndər Heydər Əliyev tərəfindən Qafqazda sülh və əməkdaşlıq məsələləri ilə bağlı təklif edilən proqramı region dövlətlərinin mütləq əksəriyyəti bəyəndi.

Dünyanın fövqəldövləti olan ABŞ-la münasibətlərin yaradılması və inkişafında Ulu öndər Heydər Əliyevin misilsiz rolu oldu. ABŞ Azərbaycanın müstəqilliyini 1991-ci ilin dekabrında tanımış, 1992-ci ilin martında onunla diplomatik münasibətlər yaratmışdı [7, s.144]. ABŞ-la müxtəlif sahələrdə əməkdaşlıq ölkəmiz üçün zəruri idi. ABŞ çoxsaylı problemlərin həllində, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsində respublikamıza lazım olan yardımı göstərməyə bütün imkanı olan böyük dövlətlərdən biri idi. Bu yardımı almaq üçün ölkəmiz öncə ABŞ-ın etimad və etibarını qazanmalı, intensiv diplomatik fəallıq göstərməli idi. Bu məqsədlə Azərbaycan dövləti bütün diplomatik vasitələrdən məharətlə istifadə etdi.

1994-cü ilin sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ABŞ Azərbaycan münasibətlərinin inkişafında mühüm hadisə oldu [3]. ABŞ hökümətinin Azərbaycanla əməkdaşlığa, onun problemlərinə və geosiyasi əhəmiyyətinə diqqəti artdı. ABŞ-ın respublikamızın ərazi bütövlüyünü tanıması prinsipial əhəmiyyətə malik idi. ABŞ bütün hallarda Dağlıq Qarabağ münaqişəsinin dinc tənzimlənməsinə tərəfdar idi. 1997-ci ilin iyul-avqust aylarında Ulu öndər Heydər Əliyevin ABŞ-a rəsmi səfəri, səfər zamanı keçirilmiş yüksək səviyyəli görüşlər və imzalanmış sənədlər iki ölkə arasında münasibətlərin inkişafına güclü təkan oldu [9, s.230].

2001-ci ilin sentyabrın 11-də ABŞ-da törədilmiş terror aktlarından sonra Azərbaycan prezidenti Heydər Əliyev əksər dünya liderlərindən əvvəl terrorizmi pisləyən bəyanatla çıxış və ABŞ-ın yaratdığı antiterror koalisiyasında iştirak edəcəyini qətiyyətlə bəyan etdi [7, s.159]. Bu cəsarətli addım ABŞ-ın Azərbaycana inamını artırdı və 2002-ci ildə 907-ci düzəlişin qüvvədən salınması haqqında konqresin qərar qəbul etməsi ilə nəticələndi. ATƏT-in 1999-cu ilin noyabrında İstanbul sammitində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin və Xəzərdə "Şahdəniz" yatağından çıxarılan qazın nəqli məqsədilə kəmər çəkilməsi haqqında müqavilənin imzalanması Azərbaycanın ABŞ-la birgə fəaliyyətinin məhsuldar nəticəsi və Heydər Əliyev siyasətinin böyük qələbəsi idi. Azərbaycan Respublikası ABŞ-la əməkdaşlığı onun Əfqanıstanda və İraqda apardığı sülhyaratma əməliyyatında iştirak etməklə davam etdirdi.

Avropanın inkişaf etmiş ölkələri ilə münasibətlər Ulu öndər Heydər Əliyevin xarici siyasətində əsas istiqamətlərdən biri idi. Bu ölkələrlə əməkdaşlıq edərkən Azərbaycan hökuməti onların bütün xüsusiyyətlərini ciddi şəkildə nəzərə alırdı. İngiltərə, AFR, Fransa və İtaliya kimi inkişaf etmiş ölkələrlə faydalı əlaqələr qurulması böyük nailiyyət idi. Bu ölkələrlə əməkdaşlıq zamanı diqqət çəkən məqamlardan biri Ulu öndərin çevik taktiki gedişləri idi. Avropa ölkələri ilə əməkdaşlıq Azərbaycanın Avropaya və dünyaya inteqrasiyasında mühüm rol oynadı.

Respublikamız həm də Şərqi Avropa ölkələri ilə əməkdaşlıq edirdi. Keçmişdə eyni siyasi və iqtisadi sistemin üzvü olduğuna görə Azərbaycanın Şərqi Avropa ölkələri ilə oxşar cəhətləri mövcud idi. Respublikamız Şərqi Avropa ölkələrinin geosiyasi əhəmiyyətini və həyata keçirdikləri islahatların təcrübəsindən istifadənin zəruriliyini nəzərə alırdı. Polşa, Rumınya, Macarıstan və Çexiya ilə əməkdaşlıq həm də Avropa təşkilatları ilə əlaqələrə kömək edirdi. Azərbaycan təbii ehtiyatlarla zəngindir. Şərqi Avropa ölkələrinin Azərbaycanın karbohidrogen ehtiyatlarına ehtiyacı böyük idi. Çünki, enerji təhlükəsizliyi müasir dövrdə əksər dünya ölkələrinin milli təhlükəsizliyinin zəruri elementinə çevrilmişdir. Şərqi Avropa ölkələri həm də Azərbaycanin neft və qazının nəql edilməsində tranzit ölkə kimi çıxış edir.

Ulu öndərin başçılıq etdiyi Azərbaycan hökümətinin xarici siyasət kursunda islam ölkələri ilə əlaqələr mühüm yer tuturdu. Respublikamız müsəlman ölkələri ilə beynəlxalq hüquq normaları, qarşılıqlı fayda prinsipləri əsasında bərabərhüquqlu əməkdaşlığa çalışırdı. Bu işdə Ulu öndər Heydər Əliyevin İrana, Türkiyəyə, Səudiyyə Ərəbistanına və Pakistana səfərlərinin mühüm rolu oldu. Düz-

gün siyasət nəticəsində İranla münasibətlər yenidən quruldu və ölkələrarası gərginlik zəiflədi. Əlverişli coğrafi mövqe və zəngin sərvətlər Azərbaycanla İran arasında əlaqələrin genişlənməsinə şərait yaratdı. Ölkələr arasında iqtisadi əməkdaşlq genişləndi və ticarət dövriyyəsinin həcmi artdı [8, s.601].

Türkiyəyə münasibətdə həyata keçirilən siyasət həm Azərbaycan üçün, həm də türkdilli ölkələrin həmrəyliyini möhkəmləndirmək üçün böyük əhəmiyyət kəsb edirdi. Türkiyə-Azərbaycan əməkdaşlığının möhkəm bünövrəsi mövcuddur. Türkiyəyə ilə əməkdaşlıq edərkən ölkəmiz onun dörd dənizə çıxışı olan geosiyasi mövqeyini ciddi şəkildə nəzərə alırdı. "Bir millət, iki dövlət" prinsipi əsasında qurulan Azərbaycan-Türkiyə münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır. Ölkələrimiz arasında imzalanmış çoxsaylı sənədlər münasibətləri ən yüksək səviyyəyə qaldırdı. Azərbaycan Türkiyənin enerji daşıyıcıları ilə təminatında böyük rol oynayır. Ulu öndərin hərtərəfli düşünülmüş diplomatiyası Türkiyə ilə münasibətlərin uğurlu inkişafını təmin etdi. Azərbaycan və Türkiyə həm də dünya siyasətində, beynəlxalq təşkilatlar çərçivəsində fəal tərəfdaşdır. Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı Türkiyə respublikamızın haqlı mövqeyini hamıdan yaxşı müdafiə edirdi [4, s.183]. Yüksək səviyyəli əməkdaşlıq sayəsində Azərbaycan və Türkiyənin regionda vəziyyətə və siyasətə təsiri əhəmiyyətli şəkildə artdı. Türkiyənin ölkəmizlə münasibətləri Azərbaycanın təhlükəsizliyini əsaslı şəkildə möhkəmləndirdi.

Azərbaycanın xarici siyasətində fəal istiqamətlərdən biri Orta və Uzaq Şərqdir. XX əsrin sonunda Asiya-Sakit okean bölgəsinin dünya siyasətində rolu artdı. Azərbaycanı Mərkəzi Asiya ilə həm də milli və mədəni yaxınlıq birləşdirir. Ölkəmiz Qədim İpək yolunun əsas məntəqələrindən biri kimi də geosiyasi və mədəni nüfuz qazanıb. Bu amil kompleks halda Azərbaycanın xarici siyasətində Asiya-Sakit okean istiqamətinin mühüm yer tutmasını şərtləndirir. Bu prosesdə Mərkəzi Asiya ölkələrinin xüsusi yeri var. Azərbaycan həmin dövlətlərlə fəal əməkdaşlıq edirdi ki, bu ərazi öz növbəsində Uzaq Şərq istiqamətində əməkdaşlığı gücləndirmək üçün meydan rolu oynayır. Mərkəzi Asiya dövlətləri ilə Azərbaycanın münasibətlərinin türkdilli dövlətlərin əməkdaşlığını inkişaf etdirmək müstəvisində də qurulması əlavə imkanlar yaratdı.

Azərbaycanın xarici siyasətinin xüsusiyyətlərindən biri onun qüvvə tarazlığının təmin olunmasına yönəlməsidir. Ölkəmizin geosiyasi vəziyyəti və problemləri xarici siyasətdə tarazlığı gözləməyi, Azərbaycanın manevr imkanlarını saxlamağı və regionda möhkəmlənmək uğrunda mübarizə aparan müxtəlif güc mərkəzləri arasındakı münasibətlərdən səmərəli istifadəni zəruri edirdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xarici ölkələrə səfərləri, həmin ölkələrin dövlət başçıları, digər rəhbərləri və iş adamları ilə keçirdiyi məhsuldar görüşlər ikitərəfli və çoxtərəfli əməkdaşlığın güclənməsinə təkan verdi və onun daha yüksək mərhələyə keçməsinə şərait yaratdı.

Ulu öndər Heydər Əliyevin uğurlu xarici siyasət fəaliyyətinin daha bir məqamı Azərbaycanın nüfuzlu beynəlxalq və regional təşkilatlarla münasibətlərinin yaradılması və daha yüksək səviyyəyə qaldırılması ilə diqqəti cəlb edirdi. Beynəlxalq təşkilatlara üzv olmaq, onlarla səmərəli işləmək Azərbaycanın problemlərini və Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün böyük əhəmiyyət kəsb edirdi [1]. Ona görə Azərbaycan Respublikası BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO İslam Əməkdaşlıq Təşkilatı Beynəlxalq Valyuta Fondu kimi təşkilatlarla ilə fəal əməkdaşlıq edirdi.

Azərbaycanın ardıcıl şəkildə Avratlantika məkanına qoşulması Heydər Əliyevin xarici siyasətinin əsas istiqamətlərindən idi. 1994-cü ilin mayında NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı yeni müstəqillik qazanmış ölkələrə təklif olunduqdan dərhal sonra Heydər Əliyev Brüsellə səfər edib ölkəmizin bu proqrama qoşulması haqqında çərçivə sənədini imzaladı[6,s.144]. Sonra o, NATO-nun tədbirlərində iştirak etmiş və Azərbaycanın Şimali Atlantika Alyansı ilə tərəfdaşlığının əsas prioritetlərini müəyyən etmişdi.

Avropa və Avratlantik strukturlara inteqrasiya Azərbaycanın xarici siyasətinin mühüm istiqamətini təşkil edir. Avropa və Avratlantik birliyin dəyərləri ilə bölüşən Azərbaycan, çoxtərəfli Transatlantik təhlükəsizlik əməkdaşlığı proqramlarını uğurla inkişaf etdirmiş, Avropa qitəsində və onun sərhədlərindən kənarda təhlükəsizlik və sabitliyə töhfə verməşdi. NATO ilə regional və enerji təhlükəsizliyi, terrorizmlə mübarizə, kütləvi qırğın silahlarının yayılmaması, narkotiklərin qeyri-qanuni dövriyyəsi və silah alveri, sərhədlərin mühafizəsi, fövqəladə halların fəsadlarının aradan qaldırılması, təhlükəsizlik və digər sahələrdə islahatlar istiqamətində əməkdaşlıq inkişaf edirdi. Azərbaycan Avro-

atlantik Tərəfdaşlıq Şurası və digər vasitələrlə NATO ilə mümkün tərəfdaşlıq mexanizmlərindən istifadə edir. Azərbaycan Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının növbəti fazasını açan və NATO ilə siyasi dialoqun dərinləşdirilməsini. müdafiə və təhlükəsizlik sahələrində islahatların həyata keçirilməsini, elm və ictimai diplomatiya sahəsində əməkdaşlığı nəzərdə tutan Fəaliyyət Planı üzrə sənədləri vaxtında icra etmişdir.

Prezident Heydər Əliyevin xarici siyasətində vəzifələrdən biri Avropa İttifaqı ilə münasibətlərin qurulması və inkişafı idi. Azərbaycan bu nüfuzlu qurumla əməkdaşlıq edərkən milli iqtisadiyyatı səmərəli inkişaf etdirməyi, milli iqtisadiyyatın Avropanın iqtisadi və maliyyə məkanına inteqrasiyasını və ümumavropa proseslərində, xüsusən Avropa təhlükəsizliyinin sabit və səmərəli arxitekturasının qurulmasında öz rolunu və əhəmiyyətini artırmağı qarşısına məqsəd qoymuşdu. Avropa İttifaqı ilə Azərbaycan arasında 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi siyasi dialoq, demokratik institutların inkişafına dəstək, iqtisadi əməkdaşlıq və sərmayələrin təşviqi kimi mühüm proseslərdə çərçivə sənədi rolunu oynayırdı. Avropa İttifaqının göstərdiyi yardım Azərbaycanda islahat prosesinin sürətlənməsinə, müxtəlif layihələrin həyata keçirilməsinə yönəlmişdi. Azərbaycan dünyanın və dünya siyasətinin mərkəzi olan Avropanın ən mühüm istiqamətlər üzrə tərəfdaşıdır. Prezident Heydər Əliyevin uğurlu siyasəti nəticəsində 2001-ci ilin yanvarında Azərbaycan Avropa Şurasına qəbul edildi [3]. Bu faktla ölkəmizdə hüquqi islahatların aparılması, demokratik hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi kimi bəşəri dəyərlərə əməl olunması özünün layiqli qiymətini aldı.

Prezident Heydər Əliyevin xarici siyasətinin tərkib hissələrindən biri 2001-ci il 11 sentyabr hadisələrindən dərhal sonra Azərbaycanın ABŞ başda olmaqla antiterror koalisiyasına qoşulması və terrorizmə qarşı mübarizədə öz səylərini əsirgəməməsi idi. Erməni terrorundan əziyyət çəkən bir ölkə kimi Azərbaycan dövləti bu problemin aradan qaldırılması üçün beynəlxalq qurumlar və ayrı-ayrı ölkələrlə geniş əməkdaşlıq edirdi. Azərbaycan beynəlxalq terrorizm və kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə ilə bağlı ikitərəfli və çoxtərəfli çərçivədə beynəlxalq əməkdaşlığa fəal cəlb olunmuşdu. Azərbaycan terrorizmə qarşı mübarizəyə dair bütün beynəlxalq sənədlərə qoşulmuşdu. Azərbaycanın sülhməramlıları Kosovo, İraq və Əfqanıstanda beynəlxalq birliyin digər ölkələrdən olan əsgərlərilə birlikdə xidmət etmişdi. Azərbaycan hökümətinin Əfqanıstana yardımı bu ölkənin bərpasına və ehtiyac içində yaşayan əhalisinin vəziyyətinin yaxşılaşmasına yönəlmişdi.

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi meqalayihələr region miqyasında və bütün Avrasiya məkanı üçün xüsusi əhəmiyyətə malik idi. Bu qlobal tərəfdaşlıq Qara dəniz və Xəzər dənizi regionunu ədalətli və bərabər əməkdaşlıq meydanına çevirmiş, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsini təmin etmişdi. Xəzər dənizinin zəngin enerji ehtiyatlarının işlənməsi və dünya bazarına nəql edilməsi istiqamətində həyata keçirilən irimiqyaslı layihələrin uğurla başa çatdırılması əhalinin rifahının yaxşılaşması, ölkəmizin iqtisadi potensialının dirçəldilməsi, xarici investisiyaların həcminin artması üçün geniş imkanlar yaratmışdı.

Azərbaycan diasporunun təşkilatlanması, dünya azərbaycanlılarının Azərbaycan Respublikası ilə əlaqələrinin güclənməsi Prezident Heydər Əliyevin xarici siyasətində mühüm yer tuturdu. Xarici siyasətin strategiyasını düzgün müəyyənləşdirən Ulu öndər demişdi ki, müasir dövrdə hər bir dövlətin qüdrəti yalnız iqtisadi resuslarla deyil, həm də onun xaricdə formalaşdırdığı diaspor və lobbinin gücü ilə ölçülür. Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə ciddi nailiyyətlər qazanmaq və milli məsələlərin beynəlxalq müstəvidə qaldırılmasına nail olmaq mümkün deyildi. Ona görə Azərbaycan höküməti dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün üzərinə düşən missiyanı məsuliyyətlə yerinə yetirməyə, bu sahədə sistemli və ardıcıl siyasət yeritməyə çalışırdı. Xarici ölkələrdə yaşayan soydaşlarımızla çoxşaxəli münasibətlər qurmaq, onlara ideoloji-siyasi yardım göstərmək və ümummilli mənafelər naminə səfərbər etmək Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən birinə çevrildi. Respublikamızın məqsədi xaricdə yaşayan soydaşlarımızın milli özünəməxsusluğunu qorumaq və inkişaf etdirmək, Azərbaycanla əlaqələrini genişləndirmək, habelə digər hüquqlarını reallaşdırmaqdan ibarət idi. Ermənistanın işğalçılıq siyasətini, erməni lobbisinin beynəlxalq ictimaiyyəti çaşdırmaq cəhdlərini nəzərə alan Ulu öndər xarici ölkələrdə Azərbaycan diasporu və lobbisinin formalaşdırılması məsələsini mühüm dövlət siyasəti səviyyəsinə qaldırmışdı. Diaspor

və lobbi quruculuğuna göstərilən xüsusi diqqət Heydər Əliyevin yüksək diplomatik və peşəkar siyasətçi keyfiyyətindən qaynaqlanırdı.

Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənib aradan qaldırılması Heydər Əliyevin diplomatiyası qarşısında dayanan əsas vəzifələrdən biri idi. Hakimiyyətə qayıtdığı ilk gündən Heydər Əliyev ölkənin təhlükəsizliyi və Azərbaycana hərbi müdaxiləsi ilə bağlı məsələləri beynəlxalq birliyin diqqətinə çatdırıb, münaqişəyə son qoymaq və regionda sülhün bərpası üçün böyük dövlətlərin və beynəlxalq təşkilatların imkanlarından maksimum istifadə etməyə çalışırdı. Ulu öndər iki və çoxtərəfli diplomatik görüşlər zamanı Ermənistan- Azərbaycan müharibəsini dayandırmaq üçün əhəmiyyətli müzakirələr aparırdı.

BMT ilə əməkdaşlıq respublikamızın xarici siyasətində mühüm yer tuturdu. Ümummilli lider dünyanın ən böyük beynəlxalq təşkilatının daha səmərəli fəaliyyət göstərməsində maraqlı idi. 1999-cu ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı Baş Məclisin iclasında prezident Heydər Əliyev cıxış edib müasir dövrün qlobal problemləri ilə bağlı mövqeyini diqqətə çatdırmış və bütün iştirakçılardan Ermənistana təzyiqi artırmağı tələb etmişdi.

1994-cü ilin dekabrında ATƏT-in Budapeşt və 1996-cı ilin dekabrında lissabon sammitində Ermənistan- Azərbaycan münaqişəsinin geniş müzakirəsi və qəbul edilmiş sənədlər ilk növbədə hər iki sammitdə prezident Heydər Əliyevin mükəmməl diplomatik fəaliyyətinin nəticəsi idi. Lissabon sammitində münaqişənin həllinə şərait yaradan yekun bəyannaməsinə əlavə edilən sənəddə əksini tapmış üç prinsipi Ulu öndər ABŞ-ın nümayəndə heyəti ilə birlikdə hazırlamışdı [4, s.392].

2000-ci ilin senyabrında Nyu-Yorkda BMT-nin keçirdiyi Minilliyin sammitində prezident Heydər Əliyev iştirak və çıxış etmiş, dünyəvi problemlərin həllində BMT-nin rolunun artmasını və təşkilatda islahatların zəruriliyini xüsusi bəyan etmişdi.

Ulu öndər Azərbaycan respublikasına rəhbərlik etdiyi dövrdə dünyanın 80 ölkəsinin rəhbərləri ilə 500-ə dək görüş keçirilmiş, bütün aparıcı beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlər zamanı geniş həcmdə Ermənistan- Azərbaycan münaqişəsinin həlli üsullarını müzakirə etmişdi.

***Nəticə.*** Qlobal miqyasda dünya siyasəti və diplomatiyasının müəyyən problemləri mövcuddur. Onları "siyasət və diplomatiyanın ümumi böhranı" adlandırırlar. Bu şəraitdə Azərbaycanın xarici siyasəti bir tərəfdən milli maraqları qoruyur, digər tərəfdən, dünya siyasətində subyektlərin bərabərhüquqlu iştirakını təmin edən fəaliyyət modelinə üstünlük verir. Azərbaycanın xarici siyasətində çoxşaxəlik üstünlük təşkil etdiyindən onun qlobal miqyasda qeosiyasi çəkisi daim artırdı. Azərbaycanın regional və qlobal siyasətin müstəqil mərkəzi olmasında Heydər Əliyev tərəfindən müəyyən edilmiş çoxvektorlu xarici siyasət kursu həlledici rol oynamışdı.

2003-cü ildə Ümummilli lider Heydər Əliyevin kursunu davam etdirən prezident İlham Əliyevin yüksək diplomatik məharəti sayəsində Azərbaycan həm regionda, həm də dünyada gedən proseslərə böyük təsir göstərmək imkanı qazandı. Azərbaycan çətin və məsuliyyətli geosiyasi məkanda müstəqil xarici siyasətini davam etdirdi. Bu siyasət nəticəsində həm Respublikamızın müstəqilliyi və suverenliyi, həm də beynəlxalq sistemdə mövqeyi daha da möhkəmləndi.

## ƏDƏBİYYAT

1. Novruz Məmmədov. Heydər Əliyevin xarici siyasət kursu: dünya sisteminin yenidən qurulması kontekstində / 24 aprel 2013. - https://news.milli.az/politics/183716.html [18.04.2023].
2. Xalq qəzeti, may 2010. - news.anl.az/down/metale/xalq qazeti/28 htm [18.04.2023].
3. Heydər Əliyev və Azərbaycanın milli maraqlara əsaslanan xarici siyasət kursu / AzərTac, 15.06.2022. - https://azertag.az/xeber/Heyder_Aliyev_ve_Azerbaycanin_milli_maraqlara_esaslanan_xarici_siyaset_kursu-2178857 [18.04.2023].
4. Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi (1918-2003). Bakı, Az.Tu-nun mətbəəsi, 2012, 408 s.
5. Baxışov M.Ə. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Bakı, "Fyuzat", 2022, 200 s.
6. Baxışov M.Ə. Amerika ölkələrinin xarici siyasəti. Bakı, "Fyuzat", 2023, 224 s.
7. Baxışov M.Ə. Amerika Birləşmiş Ştatlarının yeni və müasir tarixi. Bakı, Bakı, Az.Tu-nun mətbəəsi, 2018, 205 s.

8. Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə.Bakı, "Mütərcim", 2015, 648 s.
9. Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). II hissə.Bakı, "Mütərcim", 2015, 640 s.
10. Qarabağ Azərbaycandır. Zəfər Epopeyası. Bakı, Azəri poloqrafiyası, 2021, 600 s.

**МАМЕДАГА БАХЫШОВ**
*доцент Бакинского Государственного Университета*

## ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ И ДИПЛОМАТИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В УСЛОВИЯХ ФОРМИРОВАНИЯ НОВОГО МИРОПОРЯДКА

Статья посвящена подготовке и осуществлению новой внешнеполитической программы Азербайджана, направленной участию в формировании новой международной системы. Дипломатия и внешняя политика подготовлена под руководством президента Гейдара Алиева, осуществлена его непосредственным участием и сыграла большую роль в улучшении внутреннего и международного положения и в укреплении независимости страны.

В статье уделяется особое внимание основным направлениям внешней политики республики, использованных многочисленных дипломатических средств для исполнения задач и важным успехам его дипломатии.

*Ключевые слова:* внешняя политика, дипломатия, геополитика, международное право, международные организации, сотрудничество, конфликт и триумф.

**MAMEDAGA BAKHYSHOV**
*associate professor of Baku State University*

## NATIONAL LEADER HEYDAR ALIYEV AND DIPLOMACY OF THE REPUBLIC OF AZERBAIJAN IN THE CONTEXT OF THE FORMATION OF A NEW WORLD ORDER

The article is devoted to the preparation and implementation of a new foreign policy program of Azerbaijan, aimed at participating in the formation of a new international system. Diplomacy and foreign policy were prepared under the leadership of President Heydar Aliyev, carried out with his direct participation and played a great role in improving the domestic and international situation and strengthening the country's independence.

The article pays special attention to the main directions of the republic's foreign policy, the numerous diplomatic means used to perform tasks and the important successes of its diplomacy.

*Keywords:* foreign policy, diplomacy, geopolitics, international law, international organizations, cooperation, conflict and triumph.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*




**UOT 94(479.24)**

**AYDIN MƏMMƏDOV**

*BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru*

**aydin.mmmdov.67@ mail.ru**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASININ DEMOQRAFİK İNKİŞAF KONSEPSİYASI

*Demoqrafik proses hər bir xalqın, millətin siyasi-iqtisadi, sosial-ictimai həyatının demək olar ki, bütün sferaları ilə sıx və üzvi şəkildə bağlı olan ən dinamik cəmiyyət hadisəsidir. Bəşər tarixinin ən qədim zamanlarından çağdaş dövr də daxil olmaqla hər bir mərhələsi demoqrafik proseslərin inkişaf istiqamətlərinə, spesifik xüsusiyyətlərinin formalaşmasına ciddi surətdə təsir göstərmişdir. Digər tərəfdən cəmiyyətdə baş verən hər bir hadisə demoqrafik proseslərə hansı şəkildə təsir göstərirsə, demoqrafik proseslər də həmin hadisələrə demək olar ki, məhz o şəkildə təsir göstərir. Bu baxımdan Ümummilli lider Heydər Əliyevin 1999-cu ilin 9 dekabrında imzaladığı "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı ölkəmizdə son iki əsrdə cərəyan edən demoqrafik proseslərin tarixini, inkişaf dinamikasını, o cümlədən əhali artımı və məskunlaşması ilə bağlı gələcək planları özündə əks etdirən son dərəcə qiymətli sənəddir.*

*Açar sözlər*: Heydər Əliyev, Demoqrafik İnkişaf Konsepsiyası, əhali artımı, əhali məskunlaşması, tarixi demoqrafiya.

***Giriş.*** Hər bir xalqın, millətin tarixi demoqrafiyasına, yaxud demoqrafik proseslərə dair rəsmi sənədlərə nəzər salmaq, həmin xalqın tarix boyu üzləşdiyi ictimai-siyasi, sosial-iqtisadi məsələləri öyrənmək deməkdir. "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamında demoqrafik siyasətin mahiyyətinin nədən ibarət olduğu, hansı sahələri əks etdirməsi aydın bir şəkildə izah olunur: "Demoqrafiya siyasəti nəsillərin normal təkrar istehsalının ardıcıl surətdə həyata keçirilməsinin təmin edilməsinə yönəlmiş iqtisadi, sosial və hüquqi tədbirlər sistemindən ibarət olmaqla, əhalinin bütün sosial-demoqrafik təbəqələrinin köklü mənafelərinə toxunur" [2].

Sərəncamdan məlum olur ki, özündə ailə-nikah, doğum, ölüm, təbii artım, adamların sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi, əhalinin məşğulluq və həyat səviyyəsinin yaxşılaşdırılması, ömrünün uzadılması, miqrasiyası və s. bu kimi ictimai-sosial prosesləri özündə birləşdirən demoqrafik siyasətin məqsədi "...demoqrafik hadisələrə təsir göstərən ən mühüm amilləri nəzərə alaraq, cəmiyyətin və onun hər bir üzvünün mənafeyinə uyğun olan, əhalinin normal təkrar istehsalı prosesini təmin edən şərait yaradılmasına nail olmaqdır" [2].

Azərbaycan Respublikası Prezidentinin sözügedən sərəncamı xalqımızın demoqrafik mənzərəsini tarixi aspektdə son dərəcə real əks etdirir. Sərəncamda Şimali Azərbaycanda əhalinin ilk dəfə 1897-ci ildə siyahıyaalınmasından 1997- ci ilədək, tam bir əsr ərzində xalqımızın əhalinin bu və ya digər səbəbdən artıb-azalması, məskunlaşması ilə bağlı üzləşdiyi demək olarki, bütün demoqrafik proseslərin tarixinə konkret statistik rəqəmlərin müqayisəli təhlili əsasında nəzər salınır: "Azərbay-

can Respublikasının əhalisinin sayı 1897-1997-ci illəri əhatə edən 100 il ərzində dünya əhalisinə nisbətən daha sürətlə, yəni 4,3 dəfə artaraq 1807 min nəfərdən 7847,5 min nəfərə gəlib çatmışdır" [2].

Qeyd etmək lazımdır ki, Şimali Azərbaycanda əhalinin ilk dəfə olaraq siyahıya alındığı 1897-ci ildən 1914-cü ilədək say dinamikasına nəzər saldıqda əhali artımının baş verdiyini aydın şəkildə görmək olur. Bu bir tərəfdən çar hökumətinin XIX əsr boyunca apardığı köçürmə siyasətini XX əsrin əvvəllərində də davam etdirməsi ilə, digər tərəfdən isə Azərbaycanın nəinki Rusiyada, eləcə də bütün dünyada neft sənayesi mərkəzi olması, deməli, buraya müntəzəm olaraq fəhlə axınlarının durmadan artması ilə bağlı idi. Əhali artımının baş verməsi səbəblərini ilk növbədə sözügedən dövrün siyasi-iqtisadi və sosial-ictimai xüsusiyyətlərində axtarmaq lazımdır. Belə ki, 1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə müqavilələrindən sonra Qacar dövlətinin Azərbaycan vilayətindən 40 min, Osmanlı ərazisindən isə 84 min nəfərdən çox erməni əhalisi Şimali Azərbaycana köçürülərək İrəvan, Naxçıvan və Qarabağ torpaqlarında yerləşdirilmişdi. Tarixçi A.İsgəndərov bu məqama diqqət yetirərək yazır: "XIX əsrin birinci yarısında Şimali Azərbaycanın müxtəlif bölgələrində başlanmış qaçqınçılıq və köçkünlük çar Rusiyasının müstəmləkəçilik siyasətinin, milli ədavətin, aramsız müharibələrin bilvasitə nəticəsi idi. Azərbaycanlı əhalinin məcburiyyət üzündən Şimali Azərbaycanı tərk etməsi xristianlaşdırma siyasətinin gerçəkləşməsinə daha geniş imkanlar açırdı." [10, s.335]. Köçürmə prosesi nəticəsində Şimali Azərbaycanın qərb hissəsinin, xüsusilə də Naxçıvan, İrəvan və Qarabağ bölgələrinin əhalisinin etnik tərkibi çox kəskin dəyişikliyə məruz qalmışdı. Sözügedən problemlə bağlı digər əsərdə oxuyuruq: "Çarizm Şimali Azərbaycan torpaqlarını işğal etdikcə, bu torpaqlarda möhkəmlənmək üçün həm də əhalinin erməniləşdirilməsi siyasətini də həyata keçirirdi". [12, s.31]. Məhz bu səbəbdən də Rusiya İmperiyası Şimali Azərbaycan xanları ilə bağladığı və əvvəlcə sanki hər iki tərəfi "razı" salan barışıq müqavilələrinin şərtlərini pozurdu. K.Şükürov "Rusiya ilə Azərbaycan Qarabağ xanlığı arasında imzalanmış 1805-ci il Kürəkçay müqaviləsinin sistemli analizi" adlı məqaləsində Rusiyanın əslində Kürəkçay müqaviləsinin şərtlərinə görə Qarabağ xanlığında irsi hakimiyyəti təmin etməsi öhdəliyini öz üzərinə götürməsinə rəğmən, 1822-ci ildə Qarabağ xanlığını ləğv etməsilə, bu müqavilənin də qüvvədən düşdüyünü xüsusi olaraq vurğulayır: "Tarixi təcrübə göstərir ki, Rusiya İmperiyası həmişə Cənubi Qafqaz hakimlərilə bağladıqları müqavilələri, o cümlədən Kürəkçay müqaviləsinin şərtlərini pozmuşdur" [17, s.221-226]. Məsələn, əgər Qarabağ əyalətinin 1823-cü il üzrə "təsviri"ndə burada yaşayan 20 minədək ailənin cəmi 1,6 mini (8,4%) erməni idisə, 1832-ci ildə ermənilərin xüsusi çəkisi artaraq 34,8%-ə, 1897-ci ildə isə 53%-ə qalxmışdı. M.İsmayılov 2014-cü ildə Sankt-Peterburqda nəşr olunan "Qarabağ: tarix münaqişə kontekstində" elmi məqalələr toplusunda "Qarabağ XIX – XX əsrin əvvəllərində" adlı məqaləsində çarizmin XIX əsrin əvvəllərində köçürülmə siyasəti nəticəsində ermənilərin Qarabağ bölgəsində və Şuşada sayının kəskin surətdə artmasını xüsusi olaraq vurğulayır. Müəllif 1832-ci il kameral təsvirinə istinadən yazır ki, Qarabağ xanlığında yaşayan 20546 ailənin 13965-i azərbaycanlı, 6491-i erməni ailəsi idi. 1823-cü ildən 1827-ci ilədək Qarabağ bölgəsində azərbaycanlılar əhalinin 91% ni, ermənilərsə 8,4% ni təşkil edirdilər. Məhz çarizmin köçürmə siyasəti nəticəsində XIX əsrin 30 – cu illərində azərbaycanlıların sayı 64,8% azaldığı halda, ermənilərinsə sayı 34,8% artdı [15, s.233-234].

Digər tərəfdən Vətənimizdə demoqrafik fonun dəyişməsinə artıq Birinci Rusiya-İran müharibəsi (1804-1813) başa çatdıqdan sonra Azərbaycana rusların köçürülməsi prosesi də heç də az təsir göstərmədi. Belə ki, 1830-cu il oktyabrın 20-də rusların Cənubi Qafqaz vilayətlərinə köçürülmələri haqqında rəsmi sərəncam verildi. Bu sərəncam əsasında rus ordusunun baş komandanı İ.F.Paskeviç onların Qarabağ torpaqlarında məskunlaşdırılmaları barədə qərar verdi. Buraya əsasən təriqətçi və bidətçiləri köçürməyə başladılar. XIX əsrin 30-40cı illərində Cənubi Qafqazda salınmış 34 rus kəndindən 30-a qədəri Azərbaycan torpaqlarında yerləşirdi. Cənubi Qafqaza köçürülən 8,6 min təriqətçi və bidətçinin də 7 min nəfəri Azərbaycanda məskunlaşdırılmışdı. Bundan başqa, sözügedən dövrdə Avropada Napaleonun apardığı müharibələrin Almaniya iqtisadiyyatına vurduğu ağır zərbələr nəticəsində almanların Rusiyaya miqrasiyası prosesi başlanmışdı. 1817-ci ildə general Yermolov almanların ilk dəstələrinin Cənubi Qafqazda məskunlaşdırılmasını təşkil etdi. Gəlmələrin çoxunu Vürtemburq krallığından olan alman əhalisi təşkil edirdi. 1817-1818-ci illərdə Qafqazda təşkil edilmiş 8 alman koloniyasından ikisi – Yelenendorf (sözügedən yaşayış ərazisi 1819-1938-ci illərdə Yelendorf, 1938-2008-ci illərdə Xanlar rayonu, 2008-ci ildən Göygöl rayonu adlanır – A.M.) və Annenfeld (in-

diki Şəmkirə bitişik kənd – A.M.) Şimali Azərbaycanda yerləşirdi. Yelenendorfda 127, Annenfelddə 67 ailə məskunlaşmışdı. Qafqazdakı 8 alman koloniyasında yaşayan 486 ailədən 200-ə qədəri Şimali Azərbaycanda idi. 1842-ci ildə 70 vürtemberqli alman ailəsi Şamaxı şəhərinin Mərəzə kəndi yaxınlığında yerləşdirildi. Şimali Azərbaycanda 38 ailədən ibarət sonuncu alman koloniyası 1857-ci ildə Aleksandersqilf adı ilə Yelizavetpolda məskunlaşdırıldı. Qeyd etmək lazımdır ki, Şimali Azərbaycanda artıq 1832-1833-cü illərdə demoqrafik fona ciddi şəkildə təsir edən müharibələrin səngiməsi, o cümlədən Şimali Azərbaycanda təsərrüfat həyatında baş verən dirçəlişlə bağlı vaxtı ikən buradan köçüb gedənlərin bir hissəsi yenidən geri qayıtdığına görə əhalinin sayı da xeyli artmışdı. 1850-ci ildə Şimali Azərbaycanda əhalinin sayı artaraq 1 milyon nəfərə çatmışdır [13, s.184]. Sözügedən dövrdə, Şimali Azərbaycan əhalisinin çox hissəsi kəndlərdə yaşayırdı. Əhalinin 70 min nəfəri isə şəhərlərdə yaşayırdı. 1856-cı ildə artıq Şimali Azərbaycanda şəhər əhalisinin sayı 110 min nəfər təşkil edirdi. Bu dövrdə Şimali Azərbaycanın Şamaxı, Gəncə və Şuşa kimi iri şəhərlərinin hər birində 10 min nəfərdən çox adam yaşayırdı.

Azərbaycanda kapitalist münasibətlərinin XIX əsrin 60-cı illərində vüsət alan inkişafı Vətənimizin yeni demoqrafik mənzərəsinin formalaşmasına ciddi təsir etdi. Belə ki, Bakı, Şəki, Şamaxı şəhərlərindəki manufaktura tipli müəssisələrlə yanaşı bir sıra müəssisələrdə muzdlu əmək geniş surətdə tətbiq olunurdu. XIX əsrin 70-90-cı illərində Azərbaycanda kəndlilərin əksəriyyətini (75%-ni) dövlət kəndliləri təşkil edirdi. 80-ci illərdən etibarən Azərbaycan kəndində sosial təbəqələşmə güclənirdi. Bu proses öz təzahürünü ilk növbədə kəndlilərin şəhərlərə-fabrik-zavodlara axınında göstərirdi. Əgər XIX əsrin 50-ci illərində şəhər əhalisi Şimali Azərbaycanda ümumi əhalinin 10%-ni təşkil edirdisə, artıq 1913-cü ildə bu göstərici 24%-i təşkil edirdi. Bu dövrdə Şimali Azərbaycanda 12 şəhər var idi. Şəhərətrafı qəsəbələrlə birgə Bakıda 300 min, Gəncədə 57 min, Şuşada 42 min, Nuxada 52 mindən çox adam yaşayırdı. Bu dövrdə xalqımızın iqtisadiyyat, dil, ərazi birliyi və onlar arasında təşəkkül tapan psixoloji əlamətlər və mədəniyyət birliyi daha da inkişaf etməyə başlayır, bu isə insanların ali birlik forması olan millətə doğru inkişafını sürətləndirirdi.

Azərbaycan Respublikası Prezidentinin sözügedən sərəncamında XX əsr boyu Azərbaycan xalqının artım dinamikasına, demoqrafik fonuna ciddi surətdə təsir göstərən siyasi proseslər, sosial-ictimai amillər tarixi demoqrafik baxımdan mühüm faktoloji materiallarla öz əksini tapmışdır. Sözügedən sərəncamda xalqımızın tarixi demoqrafiyası xronoloji baxımdan dövrləşdirilərək təhlil edildiyinə görə elmi baxımdan da böyük əhəmiyyət kəsb edir. Belə ki, sərəncamda XX əsrin əvvəllərində öncə çarizmin Şimali Azərbaycandakı etnik hərc-mərclikdən məharətlə istifadə edərək törətdiyi milli qırğınlar, sonra isə gərgin ictimai-siyasi vəziyyətdən yararlanaraq Azərbaycan torpaqları hesabına uydurma Böyük Ermənistan dövləti qurmağa cəhd göstərən erməni millətçilərinin törətdiyi qanlı cinayətlər nəticəsində əhalinin azalmasını əks etdirən rəqəmlər verilmişdir.1917-ci ilin oktyabrında Peterburqda hakimiyyəti şevriliş yolu ilə ələ alan bolşeviklərə arxalanan erməni daşnakları Bakını – Zaqafqaziyada inqilabla əksinqilab arasında mübarizə meydanına çevirdilər. Tezliklə, S.Şaumyanın başçılıq etdiyi antiazərbaycan mahiyyətli Bakı Xalq Komissarları Soveti 1918-ci ilin martında Bakıda milli zəmində həyata keçirdiyi qırğınları Şamaxı, Quba, Salyan, Lənkəran və digər Azərbaycan qəzalarında da tətbiq etməyə başladı. Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törədilən soyqırımları 1918-ci ilin ortalarına qədər davam etdi. Bu müddət ərzində 50 mindən çox dinc soydaşımız soyqırım siyasətinin qurbanı oldu. Təəssüflər olsun ki, 1920-ci il aprelin 28-də cəmi 23 ay fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyətini süquta uğradan bolşeviklər Vətənimizdə Sovet Sosialist Respublikasının yaradıldığını elan edərək köhnə nə varsa hamısını dağıtmağa, milli dəyərləri məhv etməyə, tarixi torpaqlarımızı Ermənistanın xeyrinə əlimizdən almağa, heç bir günahı olmayan minlərlə azərbaycanlını şübhəli hesab edərək qətlə yetirməyə başladılar [16, s.7-19, 32-50, 77-163, 204-214]. 1920-ci il aprelin 28-dən – 1921-ci ilin avqustunadək Azərbaycanda 48 min adam bolşevik terrorunun qurbanı olmuşdur.

Sərəncamda yuxarıda deyilənlərlə baglı oxuyuruq: "1913-1920-ci illərdə Birinci Dünya Müharibəsi, xarici müdaxilə, vətəndaş müharibəsi, ermənilər tərəfindən azərbaycanlıların soyqırımı və sair hadisələr nəticəsində Azərbaycan əhalisinin sayı 387 min nəfər və ya 16,6 faiz azalaraq 2339 min nəfərdən 1952 min nəfərə düşmüşdür" [2].

Azərbaycan Respublikası Prezidentinin sözügedən sərəncamında Azərbaycan əhalisinin İkinci dünya müharibəsində iştirakından da bəhs edilir. Qeyd etmək yerinə düşərdi ki, Birinci və İkinci Dünya müharibələri arasında bəşəriyyətın nisbətən dinc yaşaması dövrü cəmi 20 il çəkmişdir. Lakin bu "dinc dövr"də də bəşəriyyət hərbi qarşıdurmalar səbəbindən böyük itkilər vermişdir. Təəssüf ki, bu dövr də Azərbaycanın demoqrafiya tarixində ən faciəli dövrlərdən biri kimi yadda qalmışdır. Belə ki, 1941-1945-ci illər vətən müharibəsi illərində respublika əhalisinin sayı 568,4 min nəfər və ya 17,4% azalaraq, 1940-cı ilin əvvəlindəki 3274,0 min nəfərdən 1945-ci ilin əvvəlində 2705,6 min nəfərə düşmüşdür. Z.Eminovun təbirincə desək: "İkinci dünya müharibəsi dövründə əhalinin təbii artımı çoxsaylı itkilərlə əlaqədar kəskin şəkildə azalmışdır" [5, s.43]. Nəticədə, Azərbaycanın əhalisinin müharibədən əvvəlki səviyyəsi müharibə qurtardıqdan yalnız 10 il sonra, yəni 1955-ci ildə bərpa olunmuşdur. Həmin ildə Azərbaycanda əhalinin sayı 3277,2 min nəfərə çatmışdır.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamında oxuyuruq: "1941-1945-ci illərdə Böyük Vətən Müharibəsi zamanı Azərbaycan əhalisinin sayı 568,4 min nəfər və ya 17,4 faiz azalaraq 1940-cı ilin əvvəlindəki 3274,3 min nəfərdən 1945-ci ilin əvvəlində 2705,6 min nəfərə düşmüş və bununla əlaqədar Azərbaycan əhalisinin sayı özünün müharibədən əvvəlki səviyyəsinə yalnız 10 il sonra, yəni 1955-ci ildə çatmışdır" [2].

Müharibədən sonrakı ilk illərdə Azərbaycan SSR-də əhali sayının artımı ləng gedirdi. 1950-ci ildə respublikada 2859 min nəfər yaşayırdı, bu da 1940-cı ildəkindən 415 min nəfər az idi. Azərbaycan əhalisindən yüz minlərlə döyüşçü cəbhədən geri dönməmiş, o cümlədən müharibədən sonrakı ilk ağır illərin iqtisadi, sosial və mənəvi çətinlikləri üzündən çoxlu sayda insan dünyasını dəyişmişdi. 1947-ci il dekabr ayının 23-də Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında SSRİ Nazirlər Sovetinin qərarı dərc olundu. Həmin qərarda göstərilirdi ki, 1948-1950-ci illərdə "könüllülük prinsipləri əsasında" Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün. Onlardan 1948-ci ildə 10 min nəfərin, 1949-cu ildə 40 min nəfərin və 1950-ci ildə isə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu. SSRİ Nazirlər Soveti 1948-ci il 10 mart tarixli 754 saylı "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi üzrə tədbirlər haqqında" adlı ikinci bir qərar qəbul edir. Sərəncamda sözügedən hadisələrlə bağlı oxuyuruq: "1948-1953-cü illərdə Ermənistan ərazisindən 150 min nəfərdən çox azərbaycanlı öz əzəli torpaqlarından deportasiya olunmuşdur" [2].

Azərbaycan Respublikası Prezidentinin sözügedən Sərəncamında Azərbaycanda 60-cı illərdə cərəyan edən demoqrafik inkişaf keçmiş İttifaqda baş vermiş demoqrafik proseslərlə konkret faktlarla, müqayisəli təhlil yolu ilə son dərəcə geniş, aydın bir şəkildə öz əksini tapmışdır: "1960-cı ildə keçmiş İttifaqda əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 24,9 nəfər, təbii artım səviyyəsi isə 17,8 nəfər olmuşdursa, Azərbaycanda bu göstəricilər müvafiq surətdə 42,6 və 36,9 nəfər təşkil etmiş və ya orta ittifaq səviyyəsindən müvafiq olaraq 1,7 və 2,1 dəfə yüksək olmuşdur". Təbii ki, 60-70-cı illərdə Azərbaycanda əhalinin təbii artımı ilk növbədə Heydər Əliyevin doğma yurduna göstərdiyi ardıcıl, məqsədyönlü qayğısı ilə bağlı idi. Akademik Y.Mahmudovun təbirincə desək: "Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi və Moskvada fəaliyyət göstərərkən doğma yurdun keşiyində durduğu dövrdə – 1969-1985-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilmiş, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunmuşdu. Həmin illər ərzində Azərbaycanın milli gəlirinin ümumi həcmi 2,5 dəfə artmışdı" [11, s.115]. Həmin dövrdə sözügedən problemlə bağlı digər kitabda oxuyuruq: "Sənaye və kənd təsərrüfatı məhsullarının dinamik artan istehsalı, plan və öhdəliklərin vaxtından əvvəl və artıqlaması ilə yerinə yetirilməsi Azərbaycanın inkişafının nə qədər sürətli olmasının göstərirdi. ...1985-cu ildə təkcə sənayedə əmək məhsuldarlığı 1870-ci illə müqayisədə 2,1 dəfə, kənd təsərrüfatında isə 1,8 dəfə artmışdı" [6, s.146; 7]. Təbii ki, Azərbaycanın həm sənaye, həm də kənd təsərrüfatında gedən belə bir dinamik inkişaf, o cümlədən əmək qabiliyyətli əhalinin ictimai əməyə cəlb olunması tarixən ailəcanlılığı, şoxuşaqlılığı ilə səciyyələnən ailə modelimizin ənənəvi xüsusiyyətlərinin qorunub saxlanılmasına və daha da güclənməsinə münbit şərait yaratdı: "1970-ci ildən başlayaraq əmək qabiliyyətli əhalinin ictimai əməyə cəlb olunması, habelə əmək ehtiyatlarından səmərəli istifadə edilməsi sayəsində fəhlə, qulluqçu kolxozçuların orta illik sayı 813 min nəfər, yaxud 1,5 dəfə artaraq 1985-ci lidə 2 mln. 360 min nəfərə çatdı" [8, s.190].

Qeyd etmək lazımdır ki, Azərbaycanda əhalinin ən sürətli artımı artıq XX əsrin 60-cı illərinin əvvəllərində başlamışdır: "Azərbaycanda əhalinin ən sürətli artımı 60-cı illərin əvvəllərində özünü bürüzə vermişdir. 1960-cı ildə keçmiş İttifaqda əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 24,9 nəfər, təbii artım səviyyəsi isə 17,8 nəfər olmuşdursa, Azərbaycanda bu göstəricilər müvafiq surətdə 42,6 və 36,9 nəfər təşkil etmiş və ya orta ittifaq səviyyəsindən müvafiq olaraq 1,7 və 2,1 dəfə yüksək olmuşdur" [2].

Azərbaycanda XX əsrin 60-cı illərində müşahidə olunan əhalinin artım tempi yalnız 1965-ci ildən etibarən nisbətən aşağı düşsə də bütövlükdə sonrakı otuz ildə də demək olar ki, sabit olaraq qalmışdır: "Təsadüfi deyildir ki, 1959-1989-cu illərdə keçmiş SSRİ-də əhalinin orta illik artımı 1,24% olduğu halda, Azərbaycanda bu göstərici 3,0% və ya 2,4 dəfə yüksək olmuşdur. Sözügedən dövrdə Azərbaycanda əhalinin təbii artımında mənzil tikintisinin atması və yeni ailə quranların həmin rahat mənzillərlə təmin edilməsi də az rol oynamamışdır: "Həmin illərdə respublikada ümumi sahəsi 35 mln. kv. m., o cümlədən kənd yerlərində 16 mln. kv. m. olan mənzillər tikilmişdi. Üç milyona qədər adamın mənzil şəraiti yaxşılaşdırılmışdı" [4, s. 205; 3, s. 216-217].

Sözügedən dövrdə Azərbaycanda mənzil tikintisinin və yeni ailə quranların sayının atması əhalinin məskunlaşması, o cümlədən respublika daxilində miqrasiyası prosesinin də aktivləşməsinə səbəb oldu: "70-80-ci illərdə respublikanın şəhər və kəndlərində mənzil tikintisi sürətlə artmışdı. Bakıda, Sümqayıtda, Gəncədə, Naxçıvanda, Mingəçevirdə, Əli Bayramlıda, Daşkəsəndə yeni mikrorayon və qəsəbələr salınmış, çoxmərtəbəli yaşayış binaları tikilmiş, kənd yaşayış məntəqələri yenidən qurulub şəhərtipli qəsəbəyə çevrilmişdi" [4, s. 205].

Başqa sözlə desək, 70-80-ci illərdə Azərbaycanın iqtisadi yüksəlişi öz təsirini maaşların artmasında da göstərdi: "Respublikanın iqtisadi yüksəlişi xalqın rifahının yaxşılaşmasına şərait yaratmışdı. Fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 1,4 dəfə, 80-ci illərdə 1,3 dəfə, kolxozçuların orta aylıq əmək haqqı isə müvafiq surətdə 2 və 1,5 dəfə artmışdı" [4, s.203].

Sözügedən dövrdə nəinki, qocalara, əlillərə, əmək qabiliyyətini müvəqqəti itirənlərə, eləcə də başçısını itirmiş uşaqlı ailələrə, o cümlədən tək analara da edilən maddi yardımların miqdarı artırılırdı [4, s.203]. Təbii ki, bu iqtisadi yüksəliş demoqrafik vəziyyətə də pozitiv təsir göstərirdi. Lakin, ötən əsrin 80-ci illərinin ikinci yarısından başlayaraq, məlum siyasi proseslər iqtisadi münasibətlərdən də yan keçmədi, xüsusən də XX əsrin 90-cı illərinin əvvəllərində ölkə ərazisində yaranmış sosial-iqtisadi böhranın getdikcə dərinləşməsinə gətirib çıxardı: "Bununla belə xüsusən 80-ci illərinin ikinci yarısından manatın alıcılıq qabiliyyətinin 37 faiz aşağı düşməsi əhalinin real gəlirlərinin artım sürətinin azalmasına səbəb olmuşdu. Əgər 70-ci illərdə real gəlir 42 faiz artmışdısa, 80-ci illərdə bu 16 faizdən çox deyildi" [4, s.204].

1988-ci ilin əvvəllərindən Ermənistanda "Ermənistanı türklərdən təmizləməli!", "Ermənistanda yalnız ermənilər yaşamalıdır." şüarları altında mitinqlər keçirilməyə başlandı [1, s.316]. Bu faktiki olaraq rəsmi Yerevanın azərbaycanlılara qarşı ardıcıl və davamlı şıkildə həyata keçirdiyi etnik təmizləmə siyasəti idi. 1988-ci ilin sonu və 1989-ci ilin əvvəllərində indiki Ermənistan dövlətinin ərazisindən 250 mindən çox azərbaycanlı deportasiya edildi: "Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin növbəti faciəvi mərhələsi olan bu kütləvi qovulma aksiyası azərbaycanlıların öldürülməsi, onlara işgəncələrin verilməsi ilə müşayiət edildi. ... Etnik zəmində həyata keçirilən bu cinayət əməlləri rəsmi Yerevan tərəfindən qabaqcadan düşünülmüş və planlaşdırılmışdı.Belə ki, azərbaycanlıların öz tarixi vətənlərindən deportasiya edilməsinə, onların məskunlaşdığı yaşayış məntəqələrinə hücumlara Ermənistan hökumətinin məmurları, milis və prokurorluq əməkdaşları, rayon partiya komitələrinin katibləri rəhbərlik edirdi" [14, s.9-10].

Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamda sözügedən dövrdə baş verənlərlə bağlı deyilir: "1988-ci ildən başlayaraq erməni təcavüzü nəticəsində torpaqlarımızın 20%-i işğal edilmiş, bir milyon nəfərədək soydaşımız qaçqın və məcburi köçkün olmuş, o cümlədən 250 min nəfərdən artıq azərbaycanlı soydaşımız Ermənistandan qovulmuş və beləliklə son iki əsr ərzində 1,5 milyon nəfərdən çox azərbaycanlı öz tarixi torpaqlarından məcburi surətdə deportasiya edilmişdir" [2].

Sərəncamda deyilir ki, XX əsrin 90-cı illərinin əvvəllərində ölkə ərazisində yaranmış sosial-iqtisadi böhranın, o cümlədən keçici xarakter daşıyan keçid dövründə sosial infrastruktur sahələri son dərəcə zəif inkişaf etdiyinə görə əhalinin əksər hissələri onların xidmətindən lazımi səviyyədə

istifadə edə bilməmiş, Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində əhalinin ölüm səviyyəsi, xəstəliklər artmış, boşanma və nikahdan kənar evlənmə halları isə çoxalmışdır. Sərəncamda boşanma və nikahdan kənar evlənmə hallarının çoxalması Azərbaycan xalqının mənəviyyatına xas olmayan hal kimi qiymətləndirilir. Həqiqətən də minillərin sınağından çıxmış, zəngin dəyərlərə, tarixi ənənələrə malik üzünömürlü və çoxuşaqlı Azərbaycan ailəsi üçün boşanma halları nadir hadisələrdən sayıldığına görə,onların sayının azalması, yaxud heç olmaması sevinc, çoxalması isə təəssüf hissi doğurur:" 1991-1995-ci illərdə boşanmaların sayı 46,7% azalaraq10,7 mindən 5,7 minə düşmüşdürsə, 1995-1997-ci illərdə 1,7% artaraq 5,8 minə qalxmışdır [2].

Yuxarıda deyildiyi kimi, ölkə ərazisində ötən əsrin 90-cı illərinin əvvəllərində yaranmış sosial-iqtisadi böhran əhalinin istehlak tələbləri ilə təklifi arasında da uyğunsuzluğun dərinləşməsinə yol aşdı. Sərəncamda sözügedən dövrdə ölkə ərazisində yaranmış sosial-iqtisadi vəziyyət, o cümlədən əhali tərəfindən istehlak edilən ərzaq məhsullarının keyfiyyətinə və satışına nəzarətin zəif olması, ekoloji tarazlığın pozulmasının sürətlənməsi və ona nəzarətin zəif olması, sağlam yaşayış tərzinin ləng formalaşması və onun təbliğinin aşağı səviyəyə düşməsi halları pislənilir.

Sərəncamda qeyd olunur ki,sözügedən dövrdə əhalinin artım tempinin aşağı düşməsinə təsir edən amillərdən biri də miqrasiya proseslərinin tənzimlənməməsi nəticəsində əsasən reproduktiv yaşda olan kişilərin ölkəni tərk etməsi olmuşdur. Bu isə öz növbəsində sərəncamda deyildiyi kimi ölkə əhalisinin yaş-cins strukturunun pozulması ilə nəticələnmişdir. Qeyd etmək lazımdır ki, demoqrafik proseslər bir biri ilə zəncirvari proseslərdən ibarətdir. Burada əhalinin artım tempinin aşağı düşməsinə səbəb olan hər hansı bir proses digər mənfi prosesin baş verməsinə səbəb olur. Belə ki, Sərəncamda qeyd olunduğu kimi reproduktiv yaşda olan kişilərin ölkəni tərk etməsi fertil – 15-49 yaşda olan qadınlar arasında evliliyin də azalmasına səbəb olmuşdur: "Hazırda Azərbaycan xalqının mənəviyyatına xas olmayan belə bir hal da diqqəti cəlb edir ki, bir tərəfdən 25-29 yaşlı gənclər arasında subayların sayına görə respublikamız MDB ölkələri arasında ilk yerlərdən birini tutur, digər tərəfdən isə nikahsız doğulanların bütün doğulanlar arasında xüsusi çəkisi 1990-1997-ci illərdə 2,8 dəfə artaraq 2,6 faizdən 7,3 faizədək qalxmışdır" [2].

Belə bir hal isə qanunauyğun bir şəkildə doğum səviyyəsinin sürətlə aşağı düşməsinə, ölüm səviyyəsinin isə əksinə səbəb olmuşdur: "Əhalinin hər 1000 nəfərinə düşən ölüm səviyyəsi isə 1990-1994-cü illərdə, yəni atəşkəs dövrünədək 6,0 nəfərdən 7,3 nəfərədək qalxmış və ya 21,7 faiz artmışdır. Xüsusi olaraq onu da qeyd etmək lazımdır ki, respublikada doğum səviyyəsinin sürətlə aşağı düşməsi fertil yaşda olan qadınlar arasında (15-49) bütün yaş qruplarında özünü göstərir. ... Respublikamızda bir yaşınadək uşaqlar arasında ölüm səviyyəsi də xeyli yüksək olaraq qalmaqdadır. Statistika məlumatlarına əsasən 1997-ci ildə hər 1000 nəfər doğulan uşaqlardan bir yaşınadək ölənlərin sayı 19,6 nəfər təşkil edib, bu da bir çox MDB ölkələrində olduğuna nisbətən yüksəkdir. Qeyd olunmalıdır ki, BMT-nin Əhali Sakinliyi İnkişaf Fondunun məlumatına görə isə respublikamızda bu göstərici 33 nəfər təşkil etmişdir. Ölüm sahəsində xüsusi narahatçılıq doğuran digər bir hal da 1990-1997-ci illərdə ölkədə ana ölümünün səviyyəsinin 3,3 dəfə artmasıdır" [2].

Sözügedən problemin araşdırıcılarından olan R.Əfəndiyev yuxarıda söylənən bütün bu amillərin demoqrafik proseslərə neqativ təsir göstərərək, 1991-ci ildən 2001-ci ilə qədər doğum nisbətində əhalinin artım tempinin aşağı düşməsini əsas səbəblərdən hesab edir [18, s.52].

Sərəncamda yuxarıda sadalanan mənfi halların qarşısının alınması vacib vəzifə kimi göstərilir: "Bu amillərin nəzərə alınmaması yaxın gələcəkdə respublikanın demoqrafik inkişaf vəziyyətinin daha da kəskinləşməsi ilə yanaşı, ölkədə iqtisadi və sosial demoqrafik vəziyyətin nəzərəçarpacaq dərəcədə dəyişməsinə, dövlət tərəfindən sosial sığortanın və pensiya təminatının maliyyələşdirilməsinin gərginləşməsinə, azuşaqlı ailə modelinin formalaşmasına, əmək potensialının kəmiyyət-keyfiyyət tərkibinin mənfi dəyişməsinə, gənclər kontingentinin azalmasına və nəticə etibarilə ölkənin milli təhlükəsizliyinə mənfi təsir edəcəkdir" [2].

Məhz bu səbəbdəndir ki, demoqrafiya sahəsində dövlət siyasətinin əsas məqsədi sərəncamda deyildiyi kimi, demoqrafik proseslərdə yaranmış neqativ meylləri aradan qaldırmaqla ölkənin uzunmüddətli inkişaf strategiyasına uyğun gələn əhalinin kəmiyyət-keyfiyyət artımını təmin etməkdən ibarətdir.

Sərəncamda demoqrafiya sahəsində dövlətin əsas vəzifələri olaraq göstərilir:

- əhalinin kəmiyyət-keyfiyyətinə normal təkrar istehsal üçün zəruri olan doğum səviyyəsini təmin edə biləcək hərtərəfli şəraitin yaradılması;
- ölüm səviyyəsinin azaldılması, əhalinin sağlamlığının və həyatının yaxşılaşdırılması hesabına ömür müddətinin uzadılması;
- nikah və boşanma proseslərinin bütünlükdə cəmiyyətin və ayrılıqda hər bir ailənin mənafeyinə uyğun tərzdə nizamlanması;
- ictimai tərəqqinin həm yaxın, həm də uzaq gələcəyə perspektivləri nəzərə alınmaqla miqrasiya proseslərinin tənzimlənməsi;
- respublikanın sosial-iqtisadi, siyasi və demoqrafik mənafelərini rəhbər tutaraq ölkə ərazisində, o cümlədən sərhəd rayonlarında və işğal edilmiş regionlarda əhalinin məskunlaşmasının yaxşılaşdırılması və demoqrafik potensialının artırılması üçün şəraitin yaradılması;
- ailə institutunun mənəvi-əxlaqi dəyərlərinin təbliği və mübadiləsi, sağlam həyat tərzinin formalaşdırılmasının normalara uyğun tənzimlənməsi.

Sərəncamda demoqrafiya sahəsində dövlət siyasətinin əsas prinsiplərinin aşağıdakılardan ibarət olduğu bildirilir:

- demoqrafiya siyasətinin respublika vətəndaşlarının hüquq və azadlıqlarının təmin edilməsinə tam uyğun şəkildə qurulması və hər kəsin millətindən, irqindən, cinsindən, yaşından, dini etiqadından, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən siyasi və digər əqidəsindən asılı olmadan həyata keçirilməsi;
- sabitlik və uzunmüddətlilik - demoqrafik siyasətin sabit və məqsədyönlü olub uzun müddəti əhatə etməsi;
- sosial ədalətlilik - bütün sosial-demoqrafik qruplardan və təbəqələrdən olan əhalinin (qadınların, kişilərin, gənclərin, pensiyaçıların, əlillərin, qocaların, qaçqın və məcburi köçkünlərin və s.) mənafelərinin qorunması;
- komplekslilik - görülən tədbirlərin ayrı-ayrılıqda deyil, sistem halında, maksimum mümkün olan demoqrafik nəticələr almaq məqsədi ilə demoqrafik inkişaf proqramının həyata keçirilən digər proqramlarla qarşılıqlı əlaqə və asılılıqda həyata keçirilməsi (təhsil, səhiyyə, miqrasiya, məşğulluq, məhsuldar qüvvələrin yerləşdirilməsi, ətraf mühitin mühafizəsi və s.);
- elmilik - demoqrafiya siyasətinin elmi əsaslar üzərində qurulması;
- təhsil, məşğulluq və tibbi xidmət, o cümlədən cinsi və reproduktiv sağlamlığın və ailənin planlaşdırılması sahələrində cinslər arasında bərabərliyin bərqərar olmasına yardım edilməsi;
- Azərbaycan Respublikasında ekoloji cəhətdən təhlükəsiz və sabit iqtisadi inkişafın təmin edilməsi;
- ölkənin sosial-iqtisadi inkişafının həm bugünkü, həm də gələcək nəslin hərtərəfli inkişafına yönəlməsinin təmin edilməsi.

Müstəqil Azərbaycan Respublikasında demoqrafiya sahəsində dövlətin yuxarıda göstərilən əsas vəzifə və prinsiplərinin ardıcıl olaraq həyata keçirilməsi təbii ki, insan potensialının, insan inkişafı üzrə sosial siyasətin də başlıca vəzifələrindən biri hesab oluna bilər. Ümummilli lider Heydər Əliyev kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanda yoxsulluğun azaldılması, işsizliyin aradan qaldırılması, yeni iş yerlərinin açılması, əhalinin sosial rifah halının yaxşılaşdırılması, qaçqın və məcburi köçkünlərə qayğı göstərilməsi, əhalinin maddi vəziyyətinin təmin edilməsi sahəsində müxtəlif vasitələrdən, o cümlədən aztəminatlı ailələrə ünvanlı sosial yardımların verilməsi kimi genişmiqyaslı tədbirləri daima həyata keçirməsi demoqrafik vəziyyətin müsbət məcrada inkişfına səbəb olmuşdur.

Bu gün həyata keçirdiyi neft layihələri ilə nəinki Cənubi Qafqazın, eləcə də Yaxın və Orta Şərqin ən güclü dövlətlərindən olan ölkəmizin modernləşməsi vəzifəsinin ön plana çıxması demoqrafiya siyasətinin də elmi əsaslar üzərində qurulması məsələsini daha da aktuallaşdırıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev insan potensialının önəminə yüksək qiymət verərək demişdir: “Biz bilirik ki, təbii sərvətlər əbədi deyil və zaman keçdikcə tükənəcək. Bu səbəbdən də qara qızılı insan kapitalına çevirmək sadəcə şüar deyil. Bu, reallıqdır” [9].

***Nəticə.*** Zəngin dövlətçilik ənənələri olan Azərbaycan xalqı XX əsrdə iki dəfə öz dövlət müstəqilliyini bərpa etməyə nail olub. Əsrin əvvəllərində (1918-1920) qurulmuş və cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyətindən fərqli olaraq, əsrin sonlarında – 1991-ci ildə müstəqil dövlət kimi tarix səhnəsinə qədəm qoymuş Azərbaycan Respublikası artıq öz tarixinin üçüncü onilliyini yaşayır. Müstəqil Azərbaycan Respublikasında milli dövlətçiliyimizin təməl prinsipləri gündən-günə möhkəmləndikcə, tarixən zəngin ailə mədəniyyəti, həyat fəlsəfəsinə malik olan demoqrafik ənənələrimiz də güclənir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Milli Ensiklopediyası. Azərbaycan. Bakı, "Azərbaycan Milli Ensiklopediyası" Elm Mərkəzi, 2007, 884 s.
2. Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncam - https://e-qanun.az/framework/5277 [14.04.2023].
3. Azərbaycan rəqəmlərdə. 1994-cü il. Bakı, 1995.
4. Azərbaycan tarixi. 7 cilddə. VII c. Bakı, "Elm", 2008. 608 s.
5. Eminov Z. Azərbaycanın əhalisi. Bakı, "Çıraq", 2005, 560 s.
6. Hüseynova İ. Dövlətçilik naminə. Bakı, "BDU", 2001, 286 s.
7. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, "Təhsil", 2004, 472 s.
8. Hüseynova. İ. Tarix. Zaman. Düşüncə. Bakı, "Elm və təhsil", 2016, 512 s.
9. İlham Əliyevin yekun nitqi, Davos Dünya İqtisadi Forumu. Bakı, aprel, 2013
10. İsgəndərli A. Azərbaycan həqiqətləri 1917-1920. Bakı, "Elm və təhsil", 2012, 228 s.
11. Mahmudov Y. H.Əliyev ideyalarının zəfər yürüşü. Bakı, "Təhsil", 2015, 547 s.
12. Mahmudov Y., Şükürov K. Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı, "Təhsil", 2005, 380 s.
13. Məmmədov A. Tarixi demoqrafiya. Bakı, "ADMİU", 2019, 232 s.
14. Süleymanov E. Süleymanov V. Ermənistanin Azərbaycana qarşı silahlı təcavüzü və işğalının ağır nəticələri. Bakı, "Poliqrafik produktion", 2013.
15. Исмаилов М. Карабах в XIX- начале XX века. Карабах: история в контексте конфликта. СПб, «Вестник», 2014, 404 с.
16. Нифталиев. И. Азербайджанская ССР в экспансионистских планах армян (20-е годы XX века). Баку, «Тахсил», 2009, 256 с.
17. Шукюров К. Кюрекчайский договор 1805 года между Россией и азербайджанским Карабахским ханством: системный анализ. // Карабах: история в контексте конфликта. СПб, «Вестник», 2014, 404 с.
18. Эфендиев Р. Важнейшие аспекты демографического развития в Азербайджане за 25 лет независимости республики. Економіка та держава № 6/2017.

**АЙДЫН МАМЕДОВ**
*Доцент кафедры Источниковедения, историографии и методики*
*Бакинского Государственного Университета, доктор философии по истории*

# ГЕЙДАР АЛИЕВ И КОНЦЕПЦИЯ ДЕМОГРАФИЧЕСКОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Демографический процесс – наиболее динамичное социальное явление, тесно и органично связанное практически со всеми сферами политико-экономической, социальной жизни каждого народа и нации. Каждый этап истории человечества с древнейших времен до новейшего времени, оказал серьезное влияние на направления и развития демографических процессов, а также формирование их специфических характеристик. С другой стороны, демографические процессы влияют на эти события почти точно так же, как каждое событие, происходящее в обществе, влияет на демографические процессы. В связи с этим Указ Президента Азербайджанской Республики «Об утверждении Концепции демографического развития Азербай-

джанской Республики», подписанный общенациональным лидером Гейдаром Алиевым 9 декабря 1999 года, в котором описана история демографических процессов в нашей страны за последние два века, динамика развития, в том числе планы на будущее, связанные с ростом населения и народонаселением, является чрезвычайно ценным документом.

*Ключевые слова:* Гейдар Алиев, Концепция демографического развития, рост населения, народонаселения, историческая демография.

**AYDIN MAMMADOV**
*Associate Professor of the Department of Source Study, Historiography and Methodology of Baku State University, Ph.D. in History*

## HEYDAR ALIYEV AND THE DEMOGRAPHIC DEVELOPMENT CONCEPT OF THE REPUBLIC OF AZERBAIJAN

The demographic process is the most dynamic social phenomenon that is closely and organically connected with almost all spheres of the political-economic, social life of every people and nation. Every stage of human history from the earliest times, including the modern era, has had a serious impact on the development directions of demographic processes and the formation of their specific characteristics. On the other hand, demographic processes affect those events in almost exactly the same way that every event that occurs in society affects demographic processes. In this regard, the decree of the President of the Republic of Azerbaijan "On approval of the Demographic Development Concept of the Republic of Azerbaijan" signed by the national leader Heydar Aliyev on December 9, 1999 which describes the history of the demographic processes in our country in the last two centuries, the dynamics of development, including future plans related to population growth and settlement is an extremely valuable document.

*Keywords:* Heydar Aliyev, Concept of Demographic Development, population growth, population settlement, historical demography.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*

*Tarix və onun problemləri / История и её проблемы / History and its problems, 2023 №2, 116-120*




**UOT 94(479.24)**

**ARZU XƏLİLZADƏ**
*Bakı Dövlət Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru*
**arzuxelilzade89@gmail.com**

# IV SƏNAYE İNQİLABI ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA RABİTƏ SİSTEMİNİN İNKİŞAFI

*Məqalədə müstəqil Azərbaycanda rabitə sisteminin əsaslarının yaradılması məsələləri araşdırılmış, informasiya cəmiyyətinin formalaşmasını zəruri edən faktorlar, onun üstünlükləri araşdırılmışdır. Müəllif rabitə sisteminin formalaşması tarixinə nəzər salmış, yeni mərhələdə informasiya-kommunikasiya sistemlərinin inkişafı istiqamətində atılan addımları təhlil etmişdir.*

*Açar sözlər*: rabitə, informasiya texnologiyaları, qeyri-neft sektoru, inkişaf, IV Sənaye inqilabı, telekommunikasiya.

***Giriş***. Azərbaycanda rabitə sahəsi qeyri-neft sektorunun mühüm sahələrindən biri olub qədim tarixə malikdir. Azərbaycanda ilk rabitə müəssisəsi olan poçtun yaradılması XIX əsrin əvvəllərində olmuşdur. 1818-ci ildə Gəncə şəhərində poçt kontoru açılmış və Azərbaycanda ilk poçt rabitəsi yaradılmışdır. Azərbaycanın neft sənayesinin inkişafı və Bakının sənaye şəhərinə çevrilməsi rabitə - poçt sisteminin yaradılmasını labüd edirdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə poçt, rabitə sahəsində mühüm işlər həyata keçirilmiş, Poçt və Teleqraf Nazirliyi təşkil edilmiş, Teleqraf Agentliyi təsis edilmişdir.

Ümummilli lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda rabitə sistemi inkişaf etmiş, bu sahəyə xarici investisiyalar yatırılmağa başlanmışdır. Azərbaycanda bu sahənin inkişafı dünya rabitə sisteminə inteqrasiya olunmuş və dünya informasiya-kommunikasiya texnologiyalarına (İKT) uyğunlaşma şəraitində getdikcə daha da təkmilləşmişdir. Bu baxımdan mövzu mühüm əhəmiyyətə malikdir.

Müstəqillik dövründə Azərbaycan Respublikasında rabitə sisteminin inkişaf sahələri ilə bağlı bir sıra tədqiqatlar aparılmışdır. Lakin yeni materialların və mənbələrin dövriyyəyə gətirilməsi ilə mövzunun tədqiqi mühüm əhəmiyyət kəsb edir. Yeni mənbələr əsasında mövzunun tədqiqi, ona tarixi və siyasi yanaşmanın göstərilməsi elmi yenilik səciyyəsi daşıyır.

***Azərbaycanda rabitə sisteminin əsasları***. Azərbaycanda 1926-cı ildə ilk radionun, 1956-cı ildə isə ilk televiziyanın fəaliyyətə başlaması, həmin dövrdə Azərbaycanda ilk rəqəmsal kompüterlərin meydana gəlməsi, 1945-ci ildə AMEA-nın yaradılması və bu istiqamətdə tədqiqatların aparılması, kibernetikanın, informatikanın əsasının qoyulması kompleks olaraq Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının formalaşmasına, yüksək ixtisaslı kadrların hazırlanmasına şərait yaratdı [1].

Azərbaycanda telekommunikasiya və informasiya texnologiyaları sektorunun inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dövlət müstəqilliyinin bərpa edilməsindən sonra Azərbaycanda rabitə sistemi yeni inkişaf mərhələsinə qədəm qoymuş, bu sahənin inkişafı üçün xarici dövlətlərlə münasibətlərə böyük önəm verilmişdir. 1997-ci il yanvar ayının 1-dən poçt rabitəsi elektrik rabitəsindən ayrılaraq müstəqil bir quruma çevrilmişdir. Bu poçt rabitəsinin inkişafında yeni mərhələ

hesab olunurdu. Bu illərdə telekommunikasiya, rabitə sahəsində qanunvericilik bazasının yaradılması istiqamətində mühüm işlər görüldü. 2002-ci il oktyabrın 5-də Prezident Heydər Əliyevin Fərmanı ilə teleradio sahəsində dövlət tənzimlənməsini həyata keçirən müstəqil qurum – Milli Televiziya və Radio Şurası yaradıldı [14].

2003-cü ildən başlayaraq Prezident İlham Əliyev telekommunikasiya, rabitə sisteminin inkişafı ilə bağlı beynəlxalq tədbirlərdə iştirak edərək bu sahədə struktur islahatlar həyata keçirməyə başladı. Prezident İlham Əliyevin 2004-cü il fevralın 20-də imzaladığı Fərmanla Rabitə Nazirliyi ləğv edilərək onun bazasında Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yaradıldı [7]. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan)" [4] qəbul olunması rabitə kommunikasiya sisteminin inkişaf strategiyasının müəyyənləşdirilməsi baxımından mühüm addım idi.

Bu illərdə Azərbaycanın rayon və kəndlərində əhalinin rabitə və informasiya xidmətlərinə olan tələbatını ödəmək məqsədilə "AztelekomNET" internet xidməti təşkil edildi. Elektron imza və elektron sənəd haqqında", "Elektron ticarət haqqında", "İnformasiya əldə etmək haqqında", "Telekommunikasiya haqqında", "Poçt rabitəsi haqqında" və digər mühüm qanunlar və "Azərbaycan Respublikasında telekommunikasiya sahəsinə dair siyasət planı" qəbul edildi. Bu normativ aktlar və sənədlər rabitə və informasiya texnologiyaları sahəsinin inkişafı üçün yeni imkanların yaradılmasını və İKT-dən hərtərəfli istifadənin səmərəliliyinin artırılmasını təmin edirdi [8].

Azərbaycan Prezidenti İlham Əliyev rabitə, telekommunikasiya sahəsinin inkişafının vacibliyini bir daha vurğulamışdır: "*Mən informasiya-kommunikasiya texnologiyalarının Azərbaycanda tətbiqini prioritet məsələ elan edirəm. Mənim informasiya-kommunikasiya texnologiyaları sahəsində dünyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşlərim də məhz bundan qaynaqlanır ki, onlar Azərbaycana gəlsinlər. Azərbaycana yeni investisiyalar gəlsin, biz özümüz dövlət tərəfindən, Dövlət İnvestisiya Şirkəti tərəfindən bu investisiyaları qoyaq. Texnoparklar yaradaq, Azərbaycanda çox güclü informasiya-kommunikasiya mərkəzi yaradaq. Bu, gələcəkdir, gələcəyin inkişafıdır"* [10, s.212]. Beləliklə, poçt, rabitə, telekommunikasiyanın inkişafı prioritet istiqamət olaraq müəyyənləşdirildi.

***İnformasiya cəmiyyətinə keçirdin xüsusiyyətləri və "Elektron hökumət"***. Azərbaycanda "Elektron hökumət" sistemi formalaşmışdır. "Elektron hökümət" daha səmərəli hökumət fəaliyyətinə nail olmaq üçün informasiya texnologiyaları, xüsusilə internetdən istifadə edilməsidir. Azərbaycanda "Elektron hökumət"in yaradılması beynəlxalq təcrübəyə əsaslanmış və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında Sərəncamı, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli Fərmanı və digər normativ hüquqi aktlarla fəaliyyəti üçün hüquqi baza yaradılmışdır [13].

İnternet resursların köməyi ilə dövlət qurumlarının xidmətlərindən istifadə daha aktualdır. Bu isə Azərbaycanda "Elektron hökümət"in formalaşması zərurətini yaratmışdır [12]. Azərbaycanda "e-Gov" ("MyGov") və "Asan Login", "Asan Finans", "AsanPay", "AsanVisa", "e-Agro", "e-satınalma", "e-sosial" kimi layihələr həyata keçirilsə də, bir sıra sahələrin və xidmətlərin elektronlaşdırılmasına, bəzilərinin isə təkmilləşdirilməsinə da böyük zərurət yaranmışdır. Elektronlaşmaya ehtiyac duyulan əsas sahələr səhiyyə, maliyyə, məhkəmə, notariat, sahibkarlarla iş üzrə bəzi sahə və xidmətlərdir [13].

"Elektron hökumət"in həm hökumət, həm vətəndaşlar, həm də biznes sektoru üçün mühüm üstünlükləri vardır. Müasir texnologiyaların tətbiq edilməsi ilk növbədə dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artması, büdcə vəsaitlərinə qənaət edilərək, dövlət xidmətlərinin göstərilməsi müddəti və xərclərinin azaldılması, dövlət orqanlarının vahid informasiya fəzasının formalaşması və təhlükəsizliyinin təmin olunmasına xidmət edir [9].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 2 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üzrə Milli Strategiya"nın [3] həyata keçirilməsi informasiya-kommunikasiya texnologiyaları sektorunun əsas göstəricilərinin dünyanın inkişaf etmiş ölkələrinin müvafiq göstəriciləri səviyyəsinə çatmağına imkan yaratdı.

"Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın təsdiq edilməsi [6] və Milli Strategiyanın icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın [2] hazırlanması mühüm əhəmiyyətə malik idi. Bu milli strategiyanın əsas məqsədi informasiya cəmiyyətinin yaradılması, İKT-nin dövlət idarəçiliyində hərtərəfli tətbiqi, informasiya və telekommunikasiya infrastrukturunun müasirləşdirilməsi, "Elektron hökumət"in genişləndirilməsi və İKT-nin tətbiqi ilə dövlət idarəçiliyinin səmərəliliyinin artırılması, demokratik prinsiplərin inkişaf etdirilməsi, informasiya cəmiyyəti mühitində xalqın tarixi, ədəbi və mədəni irsinin qorunub saxlanılması və geniş təbliği, bu sahədə regional inteqrasiyanın genişləndirilməsi idi [3].

Strategiyaya əsasən eGov2.0 versiyasında mobil hökumət (mGov) konsepsiyasının hazırlanması, "Hökumət bulud"un (G-cloud) yaradılması (dövlət orqanlarının informasiya sistemlərinin istismarı, infrastrukturun qurulması və standartların formalaşdırılması üzrə tədbirlərin əlaqələndirilməsi), "Elektron imza"nın, o cümlədən "Asan imza"nın beynəlxalq səviyyədə qarşılıqlı tanınmasının təmin olunması, "Elektron məktəb" sisteminin tətbiqi və inkişaf etdirilməsi, "Elektron səhiyyə" proqramlarının yaradılması, rəqəmsal resept sisteminin tətbiqi nəzərdə tutulmuşdur [5]. Bununla yanaşı, Azərbaycan Respublikasında Telekommunikasiya və İnformasiya Texnologiyalarının İnkişafına dair Strateji Yol Xəritəsi 2016-cı ildən etibarən icra olunur [5]. Strateji Yol Xəritəsinin hazırlanması zamanı qeyri-neft sektorunun prioritet istiqamətlərindən olan telekommunikasiyanın inkişafının dəstəklənməsi, innovasiyayönümlü və biliyə əsaslanan iqtisadiyyatın qurulması, beynəlxalq və yerli bazarlara yüksək keyfiyyətli və rəqabətədavamlı informasiya texnologiyaları məhsullarının çıxarılması prioritet istiqamətlər nəzərə alınmışdır [5].

Azərbaycanda yalnız dövlət idarəçiliyində deyil, eyni zamanda əhali arasında kommunikasiya sistemi əlçatan olmuşdur. Azərbaycanda elektron hökumət portalından istifadə imkanları mövcuddur. Lakin mövcud elektron hökumət xidmətlərinin təşviqatına dair tədqiqata əsaslanan layihələrin həyata keçirilməsi vacibdir [11].

***Nəticə***. Aparılan tədqiqat müstəqillik illərində Azərbaycan rabitə, telekommunikasiya sisteminin inkişafı ilə bağlı bir sıra elmi nəticələrə gəlməyə imkan verir. Prezident İlham Əliyev hakimiyyətə gəldikdən sonra informasiya cəmiyyətinin hüquqi əsaslarının yaradılması və inkişafı, vahid milli elektron informasiya məkanının formalaşdırılması, informasiya və kommunikasiya xidmətlərinin genişləndirilməsi, ölkənin informasiya təhlükəsizliyinin təmin olunması istiqamətlərində mühüm addımlar atmış, Azərbaycanı bu sahədə Cənubi Qafqazda regional mərkəzə çevirmək əsas vəzifə olaraq müəyyənləşdirilmişdir. Azərbaycanda informasiya cəmiyyətinin formalaşması üçün dünya təcrübəsindən istifadə edilmiş, beynəlxalq formatda əməkdaşlıq əlaqələri qurulmuşdur.

## ƏDƏBİYYAT

1. Azərbaycan rabitəsi: Telefondan rəqəmsal transformasiyaya uzanan 140 illik yol: [Elektron resurs] / – URL: https://report.az/ikt/azerbaycan-rabitesi-telefondan-reqemsal-transformasiyaya-uzanan140-illik-yol/ [05.01.2023].

2. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016–2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // 20 sentyabr 2016-cı ildə qəbul edilmişdir: [Elektron resurs] / – URL: https://president.az/az/articles/view/21127 [05.01.2023].

3. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya // 2 aprel 2014-cü ildə qəbul edilmişdir: [Elektron resurs] / – URL: https://president.az/az/articles/view/11312 [05.01.2023].

4. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // 21 oktyabr 2005-ci ildə qəbul edilmişdir: [Elektron resurs] / – URL: https://e-qanun.az/framework/10778 [05.01.2023].

5. Azərbaycan Respublikasında Telekommunikasiya və İnformasiya Texnologiyalarının İnkişafına dair Strateji Yol Xəritəsi // 6 dekabr 2016-cı ildə təsdiq edilmişdir: [Elektron resurs] / – URL: https://mida.gov.az/documents/Telekommunikasiya_v%C9%99_informasiya_texnologiyalar%C4%B1n%C4%B1n_inki%C5%9Faf%C4%B1na_dair_strateji_yol_x%C9%99rit%C9%99si.pdf [05.01.2023].
6. Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər) // 17 fevral 2003-cü ildə təsdiq olunmuşdur: [Elektron resurs] / – URL: https://e-qanun.az/framework/ 1969 [05.01.2023].
7. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // 20 fevral 2004-cü ildə qəbul edilmişdir: [Elektron resurs] / – URL: https://e qanun.az/ framework/4848 [05.01.2023].
8. Azərbaycanın sürətli inkişafında rabitə və informasiya texnologiyaları sektorunun mühüm rolu: [Elektron resurs] / – URL: http://anl.az/down/medeniyyet2008/noyabr/medeniyyet2008_noyabr_147.htm. [05.01.2023].
9. "Elektron hökumət": [Elektron resurs] / Azərbaycan Respublkası Rəqəmsal İnkişaf və Nəqliyyat Naziriliyinin rəsmi saytı. – URL: https://mincom.gov.az/az/view/pages/57/ [05.01.2023].
10. Əliyev, İ. H. İnkişaf – məqsədimizdir: [119 cilddə] / İ. Əliyev. – Bakı: Azərnəşr, – c. 22. – 2015.– 384 s.
11. İnformasiya cəmiyyəti: [Elektron resurs] / Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi saytı. – URL: https://www.stat.gov.az/source/information _society/ [05.01.2023].
12. İnformasiya texnologiyaları: [Elektron resurs] / Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Naziriliyinin rəsmi saytı. – URL: https://mincom. gov. az/az/view/pages/10/ [05.01.2023].
13. Məmmədov, V. Azərbaycanda elektron hökumət: Yeni çağırışlar astanasında: [Elektron resurs] / – URL: https://www.digital.gov.az/digitalazerbaijan/az/blog/ 68/azerbaycanda-elektron-hokumet-yeni-cagirislar-astanasinda [05.01.2023].
14. Milli Televiziya və Radio Şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı // 5 oktyabr 2002-cin ildə qəbul edilmişdir: [Elektron resurs] / – URL: https://frameworks.e-qanun.az/1/c_f_ 1133.html [05.01.2023].

**АРЗУ ХАЛИЛЗАДЕ**
*Доцент Бакинского Государственного Университета, доктор философии по историческим наукам*

## РАЗВИТИЕ СИСТЕМЫ СВЯЗИ В АЗЕРБАЙДЖАНЕ В УСЛОВИЯХ IV ПРОМЫШЛЕННОЙ РЕВОЛЮЦИИ

В статье были рассмотрены вопросы создания основ системы связи в независимом Азербайджане, рассмотрены факторы, обусловившие необходимость формирования информационного общества, и его преимущества. Автор рассмотрел историю становления системы связи, проанализировал шаги, предпринятые в направлении развития информационно-коммуникационных систем на новом этапе.

*Ключевые слова*: связь, информационные технологии, ненефтяной сектор, развитие, IV промышленная революция, телекоммуникации.

**ARZU KHALILZADEH**
*Associate professor of Baku State University, PhD*

## DEVELOPMENT OF COMMUNICATION SYSTEM IN AZERBAIJAN IN IV INDUSTRIAL REVOLUTION

In the article, the issues of the formation of the foundations of the communication system in independent Azerbaijan were investigated, the factors that necessitated the formation of the infor-

mation society, and its advantages were examined. The author examined the history of the formation of the communication system, analyzed the steps taken towards the development of information and communication systems at a new stage.

*Keywords*: communication, information technologies, non-oil sector, development, IV Industrial revolution, telecommunications.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*




**UOT 94(479.24)**

**SEVİNC MƏMMƏDOVA**
*Sumqayıt Dövlət Universitetinin nəzdində*
*Sumqayıt Dövlət Texniki Kollecinin ictimai elmlər və tarix fənn birləşməsinin müəllimi*
**TarixVeOnunProblemleri@gmail.com**

# HEYDƏR ƏLİYEV TÜRK DÜNYASININ BİRLİK RƏMZİDİR

*Müasir Azərbaycan dövlətçiliyinin qurucusu, Azərbaycan xalqının milli lideri Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə türk dünyasını əhatə edir. Böyük tarixi şəxsiyyətin türk dünyası ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi mülahizələr elmi-nəzəri mükəmməlliyilə yanaşı, praktik perspektivliliyilə də böyük tarixi əhəmiyyətə malikdir. Heydər Əliyev türk birliyinin möhkəmlənib inkişaf etməsində Türkiyənin rolunu həmişə yüksək qiymətləndirmişdir.*

*Açar sözlər*: Heydər Əliyev, türk, millət, birlik, milli həmrəylik, müdrik siyasət.

***Giriş***. Türklərin tarix boyu dünya birliyi ilə fəal münasibətləri Yer üzünün bütün nöqtələrinə səpələnmiş bu əzəmətli xalqın nümayəndələri arasında böyük mütəfəkkirlərin, qüdrətli dövlət xadimlərinin yetişməsinə şərait yaratmışdır. Türk dünyasının fəxri olan ulu öndər Heydər Əliyev də XX əsrdə Azərbaycan xalqının yetirdiyi böyük dühalardan biri kimi ehtiramla xatırlanır. Heydər Əliyevi başqa tarixi şəxsiyyətlərdən fərqləndirən başlıca xüsusiyyətlər onun qeyri-adi zəka realizminə, yüksək təşkilatçılıq bacarığına, hadisələri müşahidə və təhlil etmək sahəsində unikal qabiliyyətə malik olmasıdır. Heydər Əliyev dühasının şöhrəti bir xalq, bir ölkə, bir qitə çərçivəsinə sığmayıb, bütün dünyaya yayılmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 34 illik siyasi və dövlətçilik fəaliyyəti dövründə Azərbaycanın hərtərəfli inkişafı, müstəqilliyin möhkəmləndirilməsi, dünya birliyində layiqli yerini tutması üçün yorulmadan və əzmlə çalışmış və buna əsasən nail olmuşdur. Xüsusi olaraq vurğulamaq gərəkdir ki, azərbaycançılıq, türkçülük milli dövlət ideologiyası kimi Azərbaycan Respublikasının Konstitusiya əsaslarına söykənən, ölkəmizin müstəqilliyinə, onun hüquqi və demokratik dövlət kimi inkişafına və milli təhlükəsizliyinin qorunmasına xidmət edən mütərəqqi dəyərlər sistemidir [1, 27]. XX əsrin 80-ci illərinin əvvəllərində ulu öndər Heydər Əliyev öz şəxsiyyəti ilə türkçülük düşüncəsini, türkçülük faktını SSRİ kimi nəhəng imperiyanın ən ali iyerarxiyasına qədər gətirib çıxarmışdı. Təsadüfi deyil ki, SSRİ rəhbərlərindən biri kimi Moskvada keçirdiyi illərdə dünya Heydər Əliyevi, əsasən, bir təqdimatla tanıyırdı: “Kremldə ucalan türk bayrağı”. Ümummilli liderin türk dünyasının problemləri ilə ardıcıl şəkildə məşğul olmağa başladığı mərhələ isə, əsasən, 1993-cü ildən xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonraya təsadüf edir. Heydər Əliyevin türk dünyasının gələcəyi ilə bağlı baxışlar sistemində müstəqil türk dövlətləri ilə əlaqələr mühüm yer tutur: türk dövlətlərinin müstəqilliyinin müdafiəsi, mövcud imkanlar çərçivəsində türk dünyasının birliyinin təmin olunması, bu birliyin narahat dünyamızda nizam yaradılması məqsədinə xidmət etməsi, Azərbaycanın iqtisadi, siyasi, ictimai problemlərinin həllində türk dünyasının imkanlarından istifadə edilməsi, türk dünyasının qüvvələrinin birləşdirilməsi və birgə hərəkətinin təmin edilməsi, türk dünyasının beynəlxalq nüfuzunun daha da gücləndirilməsi və bunun üçün

müstəqil türk dövlətlərinin imkanlarından istifadə edilməsi. Heydər Əliyev bu məqsədlərin həyata keçirilməsində Türkiyə Cümhuriyyətinin rolunu həmişə yüksək qiymətləndirmişdir. Ulu öndərin hakimiyyətə qayıdışından sonra Azərbaycanla Türkiyə arasında strateji tərəfdaşlıq münasibətləri əbədi və dönməz xarakter almışdır [2, 83]. Tarixi-siyasi, dini, milli-mənəvi köklərə bağlı Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrdə sürətli inkişafı Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", Heydər Əliyev isə "Biz bir millət, iki dövlətik" tezislərinə əsaslanmışdır. Heydər Əliyevin öz xalqına, millətinə təmənnasız xidmətləri yaddaşlara əbədi həkk olunmuşdur. Onun bu xidmətdə əxlaq qaydalarını daim uca tutması ulu öndərin bitib-tükənməz ideyalarının inandırıcı potensialını daha da artırmışdır. Məhz xalqda olan bu inam böyük Azərbaycanlının ikinci dəfə hakimiyyətə gəlişinin istinadına çevrilmişdir. Böyük qayıdışdan sonra Azərbaycan cəmiyyətində müstəqil dövlətçilik ideyaları fundamental mahiyyət kəsb etməyə başladı. Müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevə yaxşı bəlli idi ki, Ermənistanın təcavüzünə qarşı aparılan qeyri-bərabər döyüşlər davam etdikcə, bir tərəfdən xarici dövlətlərdən hərtərəfli yardım alan Ermənistan vasitəsi ilə Azərbaycan daha ağır vəziyyətə düşə bilər, digər tərəfdən transmilli neft şirkətlərini Azərbaycana dəvət etmək, onlarla müqavilə bağlamaq və beləliklə, Azərbaycan neftini sərbəst təhlükəsiz marşrutla Qərbə ixrac etmək mümkün olmayacaq [3, 102]. Ona görə də, ilk növbədə 1994-cü il mayın 14-də atəşkəsə nail olundu, həmin ilin sentyabr ayının 20-də isə «Əsrin müqaviləsi» imzalandı. Məhz ulu öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində öz geostrateji mövqeyini möhkəmləndirə bildi. 1994-1995-ci illərin hadisələrində Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini faciələrdən və iflasdan xilas etdi. O, ictimai-siyasi sabitliyi təmin etməklə demokratik dövlət modeli konsepsiyasını həyata keçirməyə başladı. Müasir Azərbaycan dövlətçiliyinin qurucusu, Azərbaycan xalqının milli lideri Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə türk dünyasını əhatə edir. Böyük tarixi şəxsiyyətin türk dünyası ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi mülahizələr elmi-nəzəri mükəmməlliyilə yanaşı, praktik perspektivliliyilə də böyük tarixi əhəmiyyətə malikdir. Heydər Əliyev türk birliyinin möhkəmlənib inkişaf etməsində Türkiyənin rolunu həmişə yüksək qiymətləndirmişdir. Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olaraq Türkiyəyə üç rəsmi səfəri, iki qeyri rəsmi səfəri, on beş işgüzar səfər etməsi ümumilli liderin xarici siyasət konsepsiyasında Türkiyəyə verdiyi əhəmiyyətin və iki qardaş ölkə arasındakı strateji birliyin çox fərqli olduğunun göstəricisidir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci ildə Türkiyənin "Dövlət Nişanı", 1999-cu ildə isə Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülməsi, dəfələrlə Türkiyənin müxtəlif media qurumları tərəfindən "İlin adamı" seçilməsi, bu ölkənin bir çox universitetləriinin Fəxri doktoru seçilməsi Azərbaycan – Türkiyə münasibətlərinin inkişafaındakı xidmətlərinin göstəricisidir.

Heydər Əliyevin nəzəri irsində azərbaycançılıq milli həmrəyliyin ideologiyası kimi işlənmişdir. Ona görə də, onun fikrincə, dövlətçilik, vətənçilik kimi fenomenlər azərbaycançılıq ideologiyasından bəhrələnməli və bunlar da öz növbəsində azərbaycançılığın sosial-milli məzmununun saflığını qorumalıdırlar. Maarifçilik fəlsəfəmizin tarixi-mənəvi dəyərlərindən bəhrələnmiş ümummilli liderimiz vətən, millət və milli dövlət anlayışlarını azərbaycançılıq ideyası çərçivəsində vəhdətdə götürərək bu sintezi milli bütövlüyün təmin edilməsi, onun həmrəylik ruhunda inkişaf etdirilməsinin mühüm sosiomədəni mexanizmi kimi işləmişdir [4, 2]. Azərbaycançılıq ideyası müharibə gedən ölkəni fəlakətdən çıxarmaq üçün millət və cəmiyyət qarşısında həmrəy qüvvələri birləşdirmək simvoluna çevrilmişdi. Ulu öndərin "azərbaycanlının Azərbaycandan başqa vətəni yoxdur" kəlamı nəinki ölkə daxilindəki vətəndaşlarımız, hətta xaricdəki soydaşlarımız üçün də milli həmrəylik manifestinə çevrilmişdi. Ulu öndərin bilavasitə təşəbbüsü ilə Bakıda keçirilmiş dünya azərbaycanlılarının qurultayı da göstərdi ki, həmrəylik fenomeni bütün dünyadakı soydaşlarımızın milli inkişafı üçün misilsiz sərvətdir. O, soydaşlarımıza daim belə bir əqidəni aşılayırdı ki, tariximizdə ağır səhifələr və böhranlı məqamlar az olmayıb, amma ulu babalarımız ruhdan düşməmişlər.

Ulu öndər respublikanın rəhbəri seçildikdən az sonra indiki Bakı Dövlət Universitetində keçidiyi yığıncaqda, əvvəlki birinci şəxslərdən fərqli olaraq, öz ana dilində nitq söyləməklə Azərbaycan türk dilinin qorunub saxlanmasının və zənginləşdirilməsinin xalqımızın gələcəyi üçün nə qədər önəmli olduğunu göstərmişdir. Heydər Əliyev yaxşı bilirdi ki, milli müstəqillik məfkurəsi milli şüur və dil amili ilə birbaşa bağlıdır. 1970-80-ci illərdə Azərbaycan türkologiya elminin mərkəzinə çevril-

məsi, Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin respublikanın dövlət dili kimi təsbit edilməsi bu sahədə həyata keçirilən uzaqgörən və məqsədyönlü siyasətin nəticəsi idi.

Həmin illərdə Azərbaycanın rəhbəri kimi Heydər Əliyev respublikamızın Türkiyə ilə həm elmi, həm də mədəni-humanitar əlaqələrinin bərpa edilməsi və genişləndirilməsi məslələlərinə mühüm əhəmiyyət verir, bu sahədə mövcud olan problemlərin aradan qaldırılması üçün özünün İttifaq rəhbərliyi yanındakı nüfuzundan maksimim dərəcədə istifadə etməyə çalışırdı. Azərbaycanın məşhur musiqiçilərinin Türkiyəyə qastrol səfərlərinin təşkili üçün mərkəzi hakimiyyətdən razılıq almaq heç də asan məsələ deyildi.

Eyni zamanda, Azərbaycanda keçirilən müxtəlif mədəni-kütləvi tədbirlərdə ittifaq tərkibindəki türkdilli respublikaların nümayəndələrinin fəal iştirakı, onların incəsənət ustalarının, musiqi kollektivlərinin çıxışları eyni genetik kökü olan xalqların daha da yaxınlaşmasında əvəzsiz rol oynayırdı. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda türkdilli xalqların və respublikaların mədəniyyət günlərinin keçirilməsi ənənə halını almışdı. Həmin illərdə Azərbaycanda qazax şairi və filosofu Abay Kunanbayevin, məşhur qırğız eposu "Manas"ın, türk dünyasının şah əsərlərindən olan "Kitabi-Dədə Qorqud"un yubileylərini yüksək səviyyədə keçirilməsi ümumtürk mədəniyyətinin inkişafına layiqli töhfə olmuşdur.

Türkiyə və türkdilli respublikalarla ədəbiyyat sahəsində əlaqələrin fəallaşması da ulu öndərin daim diqqət mərkəzində olmuşdur. Hələ sovet dövründə türkçülüyün fəal təbliğatçısı olan qazax şairi Oljas Süleymenovun, dünya şöhrətli yazıçı Çingiz Aytmatovun Azərbaycanla sıx əlaqələri məhz Heydər Əliyevin təşəbbüsü və qayğısı sayəsində yaranmışdır.

Hələ Naxçıvana rəhbərlik edərkən Türkiyə ilə birbaşa əlaqələr quran, blokada şəraitində yaşayan müxtar respublika əhalisinin həyat şəraitinin təmin edilməsində qardaş dövlətin imkanlarından istifadə edən, o dövrdə Türkiyə hökumətinə başçılıq edən Süleyman Dəmirəllə dostluğunu daha da möhkəmləndirən Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyə başladığı vaxtdan ümumtürk ideyalarının həyata keçirilməsi yolunda məqsədyönlü addımlar atmışdır.

Ulu öndər xarici siyasətdə ilk gündən Türkiyə ilə əməkdaşlığı önə çəkmişdir. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkə dərin hörmət və ehtiram bəsləyən Heydər Əliyev türk xalqları arasında öz dövrünün Atatürkü kimi tanınmışdır [5, 443]. Biz hamımız yaxşı bilirik ki, türk dünyasının bu iki dahi şəxsiyyəti türk xalqlarının birlik və həmrəylinin möhkəmlənməsinə fədakarlıqla xidmət etmişlər. Heydər Əliyev demişdir: "Atatürkün şəxsiyyəti, onun yaratdığı Türkiyə Cümhuriyyəti mənim üçün örnəkdir". Mustafa Kamal öz ömrünü böyük türk millətinin istiqlalına həsr etdiyi kimi, Heydər Əliyev də həyatını Azərbaycanın müstəqillik və azadlığının dönməzliyinin təmin olunmasına həsr etmişdir. Ulu öndərimizin "Azərbaycan-Türkiyə: bir millət – iki dövlət" şüarı bu gün də iki qardaş dövlətin qarşılıqlı etimada əsaslanan sıx əlaqələrinin leytmotividir.

Heydər Əliyevlə dostluğundan hər zaman fəxrlə söz açan Türkiyənin doqquzuncu prezidenti Süleyman Dəmirəlin sözləri yaddaşımıza həkk olunmuşdur: "Azərbaycan xalqının bəxti onda gətirib ki, onun Heydər Əliyev kimi lideri var".

Bütün türk dünyasının lideri olduğunu Heydər Əliyev Dünya azərbaycanlılarının I qurultayını təşkil etməklə bir daha sübuta yetirmişdir. 36 ölkənin təmsilçilərinin iştirak etdiyi bu möhtəşəm tədbir türkçülük ideyasının təkmilləşdirilməsində müstəsna əhəmiyyət kəsb etmişdir. Bakıda 1996-cı ildə Türk Dünyası Yazıçılarının III Qurultayının keçirilməsi də ulu öndər Heydər Əliyevin təşəbbüsü olmuşdur. Azərbaycan Respublikasının xarici siyasət xəttində Türkiyə ilə münasibətlərdə keyfiyyətcə yeni mərhələ 1993-cü ilin yayından başladı. Bizə bu dost və qardaş ölkə Ermənistanı təcavüzkar bir dövlət kimi tanıyaraq Dağlıq Qarabağ məsələsi beynəlxalq hüquq normalarına uyğun olaraq, Azərbaycanın düzgün mövqeyini nəzərə alaraq ədalətli şəkildə həll edilməyincə, Ermənistanla heç bir əlaqə saxlamayacağını açıq şəkildə bütün dünyaya bəyan etmişdir. Türkiyə Respublikası bölgədə və dünyada Azərbaycanın ən etibarlı siyasi müttəfiqi və bərabərhüquqlu iqtisadi tərəfdaşı kimi çıxış edir. Azərbaycan müstəqillik qazındıqdan sonra bütün dünyada yaşayan azərbaycanlıların hüquqlarının qorunması və birliyinin təmin olunması üçün geniş imkanlar açıldı. Azərbaycan dövlətinin böyük səyləri nəticəsində 2001- ci il noyabrın 9-10-da Bakı şəhərində Dünya azərbaycanlılarının I qurultayı keçirildi [6, 371, 372]. 37 ölkədən gəlmiş çoxlu sayda nümayəndənin iştirak etdiyi qurultay dünyanın

müxtəlif yerlərinə səpələnmiş soydaşlarımızın qüvvəsinin Vətənimizin mənafeyi naminə birləşdirilməsində ilk və çox mühüm addım oldu.

***Nəticə***. Heydər Əliyev ölməz şəxsiyyəti və möhtəşəm dövlətçilik fəaliyyəti ilə böyük türk dünyasının qəhrəman övladları arasında özünəməxsus yer tutur. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi o, müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, xalqımızın müstəqillik arzusunun həyata keçməsinə nail olmaqla yanaşı, həm də türksoylu və türkdilli xalqlar arasında birlik və həmrəylik uğrunda qətiyyətli və ardıcıl mübarizə aparmışdır.

ƏDƏBİYYAT

1. Yeni Azərbaycan.-2021.-11 mart.-№45.-S.8.
2. Novruz Məmmədov. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı, Qanun Nəşriyyatı, 2013, 264 s.
3. Səlahəddin Xəlilov. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı, “Azərbaycan Universiteti” nəşriyyatı, 2002, 232 s.
4. Yeni Azərbaycan.-2021.-6 mart.-№43.-S.8.
5. Azərbaycan tarixi. Ali məktəblər üçün mühazirələr kursu. II hissə (XIX-XXI əsrin əvvəli). Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2010, 545s.
6. Azərbaycan tarixi. Dərslik. M.Abdullayevin elmi redaktorluğu ilə. Bakı: “Bakı Universiteti” nəşriyyatı, 2019, 400 s.

**СЕВИНДЖ МАМЕДОВА**
*Сумгаитский Государственный Технический Колледж при Сумгаитском Государственном Университете*

## ГЕЙДАР АЛИЕВ – СИМВОЛ ЕДИНСТВА ТЮРКСКОГО МИРА

Политико-идеологическая деятельность Гейдара Алиева, основателя современной азербайджанской государственности, общенационального лидера азербайджанского народа, не ограничивалась Азербайджаном, а охватывала весь тюркский мир. Работа, проделанная великим историческим деятелем, выдвинутые им идеи, высказанные им мнения имеют большое историческое значение как своим научно-теоретическим совершенством, так и своей практической перспективой. Гейдар Алиев всегда высоко ценил роль Турции в укреплении и развитии тюркского единства.

*Ключевые слова*: Гейдар Алиев, турецкий, нация, единство, национальная солидарность, мудрая политика.

**SEVINJ MAMMADOVA**
*Sumgayit State Technical College under Sumgayit State University*

## HAYDER ALIYEV IS THE SYMBOL OF UNITY OF THE TURKIC WORLD

The political-ideological activity of Heydar Aliyev, the founder of modern Azerbaijan statehood, the national leader of the Azerbaijani people, was not limited to Azerbaijan, but covered the entire Turkic world. The work done by the great historical figure, the ideas he put forward, the opinions he said are of great historical importance with their scientific-theoretical perfection as well as their practical perspective. Heydar Aliyev has always appreciated the role of Turkey in strengthening and developing the Turkic unity.

*Keywords*: Heydar Aliyev, turkish, the nation, unity, national solidarity, wise policy.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*




**UOT 94(479.24)**

**BİRJA BAYRAMOVA**

*Ph.D, Baku State University*

**birjabayramova@bsu.edu.az**

# A VIEW OF HAYDAR ALIYEV ON THE RENDERING OF OUR ANCIENT LAND: ZANGAZUR TO ARMENIA: THE IDEA OF THE ZANGAZUR CORRIDOR

*Tarix bizim üçün dərs olmalıdır.*
**Ulu öndər Heydər Əliyev.**

*In 2021, with the Pashinyan government's announcement of further falsification of "fake" Armenian history, the question of the ancient, deeply rooted history of Zangezur, its population, language, religion, and culture, and how it was forcibly torn away from Azerbaijan by the media, and many researchers were reintroduced. Although the Armenians tried to erase the history of how Zangezur, our ancient homeland, was given to Armenia, the massacres and atrocities committed against the inhabitants, as the National leader Haydar Aliyev said, "History always puts everything in its place" [1]. The triumph was obtained at the cost of the life and blood of Azerbaijan's people in the 44-day Patriotic War, which is now etched in our military history, instilled in our people confidence that they would reclaim the lost regions. Thus, Haydar Aliyev was the creator of the regionally significant Zangezur corridor, which is located in a strategic, advantageous geographical location.*

*As has been mentioned, Zangezur as one of the lost lands, its extensive history, territory, topography, people, toponymy, and Zangezur corridor have all been represented in many articles as well as significant materials by a number of historians and researchers. This article addresses Haydar Aliyev's view on the transfer of Zangezur to Armenia, as well as a number of his statements on the subject. The article highlights the purpose and period of the idea of the Zangezur corridor.*

*Keywords:* Zangezur, Soviet power, Armenians bandit groups, the idea of the Zangezur corridor.

***Introduction.*** From the beginning of his reign, Azerbaijan's National leader Haydar Aliyev struggled for the advancement of Azerbaijan. Thus, the steps taken to develop Azerbaijan's economy, culture, and sociopolitical condition were regarded as a significant victory of the time. As Yaghub Makhmudov, a historian, noted, "the decisions of the National leader were made at the level of the Politburo of the Central Committee of the CPSU, plenums of the Central Committee, congresses of the CPSU [2, p.11]. Haydar Aliyev's foresight was evident in his efforts to establish an economic, agricultural, and cultural history on the land of the USSR's already beginning decline. As Haydar Aliyev said, "The most obvious result of Azerbaijan during the Soviet period was that the economic, scientific, technical, and cultural potential created during this period created a solid foundation for our republic to function as a fully independent state" [2, p.14]. Despite these efforts, the issue that constantly worried the National leader was our lost historical territories, forcibly separated from Azerbaijan. One of these regions was the Zangezur region, or Zangezur "district" if we go back to the 20 s.

Jabi Bakhramov, a historian, stated that "in Zangezur in 1832, 1833, and 1877, the majority of the population of more than 223 thousand people were Azerbaijanis" [3]. Armenians have become more active after 1918, targeting our strategically significant regions such as Zangezur, Nakhchivan,

and Karabakh. Ramin Alizade notes that in July 1918, the Armenians bandit groups, Andranik, destroyed the village of Komardli located in the Zangezur ridge, the homeland of Haydar Aliyev, and killed its inhabitants [4]. The burning of 115 villages in the Zangezur district was one of the atrocities performed by Armenians bandit groups in the spring of 1918. Thus, "3257 men, 2276 women, and 2196 children were slaughtered, totaling 10068 Azerbaijanis" [5, p.4, see also: 6]. Because the Turkish-Muslim, Azerbaijani community, which has its own ancestral home and lived in lands claimed by Armenians, had the potential to derail the Armenians' long-held dream of a "Great Armenia".

***Theoretical view of Haydar Aliyev on the transfer of Zangezur, our ancestral home, to Armenia and the idea of the "Zangezur corridor".*** The question of moving Zangezur to Armenia was settled on November 30, 1920, at a joint meeting of the Politburo of the Central Committee of the Communist Party of Azerbaijan [7]. The Baku Soviet's "Dashnak-Bolshevik Union" adopted the "Declaration on the Transfer of Zangezur, Nakhchivan, and Naghorno-Karabakh to Armenia" on December 1, 1920. The regrettable part was that the Armenian authors stated that N.Narimanov proposed the declaration. However, Narimanov declared in June 1920 that "Nakhchivan, Sharur-Daraleyaz district, Ordubad, Karabakh, and Zangezur are undisputed parts of Azerbaijan" [5, p.39].

On January 14, 1998, at a meeting of the Constitutional Commission of the Republic of Azerbaijan regarding Armenian claims to Zangezur, the National leader Haydar Aliyev stated that "when Soviet power was established in Armenia in December 1920, it was proclaimed on behalf of the government of Azerbaijan that Zangezur and Nakhchivan districts incorporated into Armenia"[8]. "The transfer of the Zangezur district, including the Meghri region of Zangezur on the banks of the Araz, to Armenia is a historical injustice," Haydar Aliyev remarked in his speech. According to historical evidence, the majority of the Zangezur region was part of the Karabakh Khanate in the 18th century, while a portion of it was part of the Nakhchivan and Iravan Khanates"[9]. Paying attention to various toponyms in the Zangezur region reveals that they are derived from Turkic tribe names such as Bayandur, Gayi, Gajar, Baharly, Zangara, Khalaj, and Chepni. Mountains, rivers (Bazarchay, Basitchay, etc.), and other geographical names were in Azerbaijani [3]. As a result, the Armenians, who captured temples from the Albanian era that do not bear the Armenian architectural style, attempted to distort history once more. The majority of the 10-12 churches in the Meghri district, for example, were Albanian churches [3]. During this discussion, the National leader highlighted the Armenians' claims to Nakhchivan [10]. Regarding the Nuvedi village in the Meghri region, the National leader Haydar Aliyev spoke about the handover of this territory to Armenians in 1929, as well as the struggle of the Nuvedi village's inhabitants. He mentioned that in 1991, Azerbaijanis were forcibly expelled from this village and relocated to Vezhnali in Zangilan [11]. "... I myself defended Nakhchivan with great difficulty, what could I do to them?": Haydar Aliyev remarked in his speech. Despite this, I sent representatives by helicopter to the tents near the village of Veynali in the Zangilan district, to the residents of Nuvedi - when we had such an opportunity - and I sent some assistance numerous times... Now, a distance between us and Nakhchivan - the distance of 40-46 km via railway, the distance connecting Armenia to Iran - was not so great even when Zangezur was granted to Armenia... that distance was about 10 km" [11]. Haydar Aliyev regularly mentioned Azerbaijan's lost regions in his talks, reminding that "Azerbaijan must return the historical lands!" [8]. As for the idea of the Zangezur corridor, the construction of the Zangezur road was carried out in 1940-1941. During World War II, this tunnel carried the majority of the commodities. Surprisingly, "the right to the property belonged to Azerbaijan" [3]. What's more, "the ownership right belonged to Azerbaijan" [3]. Zangezur, which was Azerbaijani land for years, was given to Armenia by Tsarist Russia, and Nakhchivan was separated from Azerbaijan. This separation can be considered one of the great historical projects of Russia [12, p.46]. This project is strategically, economically, and commercially significant for Azerbaijan. The "idea of the Zangezur Corridor" of the Natioanl leader dates back to the 1970s. It should be mentioned that the construction of the Mekhri-Nakhchivan-Baku highway in the 1970s and 1980s served as a signal and the start of the “Great Turan” project. However, the project was halted following Armenian protests [13]. And now the question is how the Armenian authorities evaluate the establishment of the passage through Western Zangezur area. They continue to promote misinformation about losing control over a portion of their territory [10].

Because of its intercontinental significance, this corridor could become a new option to other countries' economic transportation networks [14, p.930]. As Iqbal Aghayev, historian, has mentioned, it can be carried from China to Turkey's eastern provinces via the Zangezur corridor, and then to Europe via the Mediterranean Sea [15]. With the realization of this concept, "Zangezur can lead to the unification of the Turkic world, as well as stimulate the development of Nakhchivan" [16]. Furthermore, the concept of the Zangezur corridor is essential in the context of "confidence-building, combating international terrorism, as well as cross-border crime" between the region's states [17].

***Conclusion.*** In one of his speeches, Ilham Aliyev assessed the solar power plant with a capacity of 240 megawatts being implemented in the Zangezur region as “the largest project with foreign investment among the regions liberated from occupation and declared Karabakh and East Zangezur a green energy zone” [18]. In his speech, he spoke about the active participation of Azerbaijan in the implementation of regional coordination projects, such as the East-West, North-South, North-West transport corridors [18]. Thus, Haydar Aliyev's internal and foreign policies are being carried on by Ilham Aliyev. Attempting to put Haydar Aliyev's ideals into action, the president is taking significant steps for the restoration of Eastern Zangezur, its continued development, and the return of the population to their native areas [19]. It is worth noting that the phrase "Zangezur corridor" was omitted from the "Trilateral Statement" [20]. Ilham Aliyev declared on January 10, 2023 that he "included this phrase in the geopolitical lexicon himself." It should be highlighted that, while the Zangezur Corridor project is vital for Azerbaijan, Turkey, and a number of other nations, the international community does not forsake its pro-Armenian stance [21, p.901].

As a result, it can be noted that the issue of the Zangezur corridor, its international significance, the attitude of many countries of the world, especially Turkey, Iran, Russia, to this project is a separate subject of investigation. The scientific significance of this article lies in the fact that it is the pages of the history of the National leader Haydar Aliyev in all periods of his reign, provides valuable information about the lost lands, awakens the national spirit of the people. Although the Soviet authorities tried to remove Haydar Aliyev from power, they were unable to turn him back from his resolute principle. The idea of the Zangezur corridor will also be a victory for the thinking of the National leader.

## ƏDƏBİYYAT

1. İradə Hüseynova. Tarixi təsdiqləyən Azərbaycan həqiqətləri / İki sahil, 2014, 29 mart, S.7., 11. - http://anl.az/down/meqale/iki_sahil/2014/mart/359342.htm [19.04.2023].
2. Heydər Əliyev. İki cilddə. Bakı –“Turxan NPB” , 2013, 500 s. - http://www.anl.az/el/Kitab/2015/eh_1cild.pdf [19.04.2023].
3. Qərbi Azərbaycan mahaları: Qafandakı kilsələrin ermənilərə aidiyyəti yoxdur, hamısı alban dövrünə aiddir. 31 yanvar 2023. - https://apa.az/az/qerbi-azerbaycan/qerbi-azerbaycan-mahallari-qafandaki-kilselerin-ermenilere-aidiyyeti-yoxdur-hamisi-alban-dovrune-aiddir-meqale-745445 [19.04.2023].
4. Ramin Əlizadə. Zəngəzurun Comardlı kəndi-Heydər Əliyevin ata yurdu. 12 avqust. - https://modern.az/az/news/302424/zengezurun-comardli-kendi-heyder-eliyevin-ata-yurdu [19.04.2023].
5. Zakir Sərdarov. Heydər Liyev və milli mübarizə tariximiz. Bakı, “Çinar-çap”, 2008, 166 s. - http://anl.az/el/s/247272.pdf [19.04.2023].
6. Резня 1918-1920-х годов. Управление делами Президента Азербайджанской Республики Президентская библиотека. Зангезур. с.1. - https://files.preslib.az/projects/zangazur/ru/b4.pdf [19.04.2023].
7. “Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!”, 25 avqust. - https://mod.gov.az/az/pre/37339.html [19.04.2023].
8. Heydər Əliyevin Zəngəzurun tarixi haqqında tarixi çıxışı-Video. 14 aprel 2023. - https://azvision.az/news/279597/--heyder-eliyevin-zengezur-haqqinda-tarixi-cixisi-%E2%80%93--video---.html [19.04.2023].
9. Heydər Əliyev Zəngəzur barədə: “Orada erməni adında bir adam da yaşamayıb”. 13 dekabr 2021. - https://www.bizimyol.info/az/news/377598.html [19.04.2023].

10. Heydər Əliyevin Zəngəzur haqqında tarixi çıxışı-Video. 14 dekabr 2021. - https://www.bakupost.az/heyder-eliyevin-zengezur-haqqinda-tarixi-cixisi-video [19.04.2023].
11. Nüvədi kəndi ermənilərə 1929-cu ildə verilibdir. Qədim, çox böyük ənənələri olan kənddir. 13.12.2021. - https://www.yeniazerbaycan.com/Arxiv_e63756_az.html [19.04.2023].
12. Sunay Yılmaz. Sovetler Birliği sonrası dönemde Nahçıvan Ozerik Cumhuriyyeti. İstanbul, 2015, 193 s. - http://nek.istanbul.edu.tr:4444/ekos/TEZ/54355.pdf [19.04.2023].
13. Heydər Əliyev ideyaları: Zəngəzur və Şuşa vəsiyyətləri bizə nə deyir? 15 aprel 2023. - https://ikisahil.az/post/234054-heyder-eliyev-ideyalari-zengezur-ve-shusha-vesiyyetleri-bize-ne-deyir [19.04.2023].
14. M.Mustafayev.Zəngəzur dəhlizi: inkişaf və əməkdaşlıq layihəsi / "Respublika", 2023 13 aprel, №76, s-1.4. Azərbaycan Respubalikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. - https://files.preslib.az/projects/zangazur/az/e2.pdf [19.04.2023].
15. Агаев И.Г. Интересы региональных и мировых держав в открытии Зангезурского коридора. - https://cyberleninka.ru/article/n/interesy-regionalnyh-i-mirovyh-derzhav-v-otkrytii-zangezurskogo-koridora/viewer [19.04.2023].
16. Mehriban Sultan. Vahid, qüdrətli Azərbaycan naminə BÖYÜK QAYIDIŞ. 09.01.2023. - https://serqqapisi.gov.az/xeberler/vahid-qudretli-azerbaycan-namine-boyuk-qayidis-1 [19.04.2023].
17. Günay Həsənli, Nəzakət Həsənova, Turan Yusubov. Zəngəzur dəhlizinin perspektivləri. Noyabr 7, 2022. - https://www.injuria.az/news/zengezur-dehlizinin-perspektivleri [19.04.2023].
18. BMT-nin Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunub. 24 sentyabr 2021. - https://president.az/az/articles/view/53197 [19.04.2023].
19. Rəşad Rəhmanov.Zəngəzur dəhlizi reallığa çevrilir. 22.12.2022. - https://avrasiya.net/qarabag/69639-zngzur-dhlizi-realla-cevrilir.html [19.04.2023].
20. Üçtərəfli bəyanat imzalandı. 10 naybr. - https://aztv.az/az/news/10294/ucterefli-beyanat-imzalandi [19.04.2023].
21. Ə.Rüstəmov. Zəngəzur dəhlizi və Qarabağ. Xalq qəzeti -2023, 10 mart. №53 s.13. Azərbaycan Respubalikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. https://files.preslib.az/projects/zangazur/az/e2.pdf [19.04.2023].
22. AzərTac: Prezident İlham Əliyev: Qarabağ və Şərqi Zəngəzurda 67 məsciddən 65-i ermənilər tərəfindən dağıdılıb". 17.03.2023. - https://scwra.gov.az/az/view/news/11402/prezident-ilham-eliyev-qarabag-ve-sherqi-zengezurda-67-mescidden-65-i-ermeniler-terefinden-dagidilib [19.04.2023].
23. Zangezur Koridoru adım adım gerçekleşiyor. 06.03.2023. - https://www.trthaber.com/haber/dunya/zengezur-koridoru-adim-adim-gerceklesiyor-750954.html#:~:text=Ankara%2DBak%C3%BC%20aras%C4%B1ndaki%20mesafe%20k%C4%B1sal%C4%B1yor&text=Ankara'dan%20ba%C5%9Flayan%20demir%20yolu,mesafe%20Zengezur%20koridoru%20olarak%20adland%C4%B1r%C4%B1l%C4%B1yor [19.04.2023].
24. Zangezur Koridoru projesiyle ilgili bilinenler neler? 17 Eylül, 2022. - https://www.bbc.com/turkce/articles/crgjd28700mo [19.04.2023].

**BİRCƏ BAYRAMOVA**
*tarix üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti*

## HEYDƏR ƏLİYEVİN ƏZƏLİ YURDUMUZ OLAN ZƏNGƏZURUN ERMƏNİSTANA VERİLMƏSİ MƏSƏLƏSİNƏ BAXIŞI: ZƏNGƏZUR DƏHLİZİ İDEYASI

2021-ci ildə Paşinyan hakimiyyətinin "saxta" erməni tarixini daha da saxtalaşdırmaq üçün etdiyi bəyanat ilə Azərbaycanda kütləvi informasiya vasitələri, həmçinin bir çox tədqiqatçılar tərəfindən Zəngəzurun qədim, köklü tarixi, onun əhalisi, dili, dini, mədəniyyəti və Azərbaycandan necə zorla qoparılması məsələsi yenidən gündəmə gətirildi. Əzəli yurdumuz olan Zəngəzurun

Ermənistana necə verilməsi, əhaliyə qarşı törədilən qırğınlar, vəhşilikləri ermənilər tarixdən silməyə çalışsalar da, ulu öndər Heydər Əliyevin dediyi kimi, "Tarix həmişə hər şeyi öz yerinə qoyur." [1] Hərb tariximizə şərəflə yazılan 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının canları, qanları bahasına qazandıqları qələbə itirilmiş torpaqları yenidən qaytarmaq üçün xalqımızda inam yaratdı. Belə ki, strateji, əlverişli coğrafi mövqedə yerləşən, regional əhəmiyyətli Zəngəzur dəhlizi ideyasının müəllifi Heydər Əliyev olmuşdur.

Qeyd etdiyimiz kimi, itirilmiş torpaqlardan biri kimi Zəngəzur, onun köklü tarixi, ərazisi, coğrafiyası, əhalisi, toponimikası, Zəngəzur dəhlizi haqqında artıq bir sıra tarixçilər, tədqiqatçılar saysız-hesabsız məqalələr, qiymətli mənbələr işıqlandırmışlar. Bu məqalədə isə Zəngəzurun Ermənistana verilməsinə Heydər Əliyevin baxışı, bu haqda etdiyi bir sıra çıxışları tədqiq edilir. Zəngəzur dəhlizi ideyasının nə məqsədlə və hansı dövrə dayandığını vurğulanır.

*Açar sözlər:* Zəngəzur, Sovet hakimiyyəti, erməni quldur dəstələri, Zəngəzur dəhlizi ideyası.

**БИРДЖА БАЙРАМОВА**
*доктор философских по истории,*
*Бакинский Государственный Университет*

## ВЗГЛЯД ГЕЙДАРА АЛИЕВА НА ПЕРЕДАЧУ НАШЕЙ ДРЕВНЕЙ ЗЕМЛИ ЗАНГЕЗУР В АРМЕНИЮ: ИДЕЯ ЗАНГЕЗУРСКОГО КОРИДОРА

В 2021 году, с заявлением правительства Пашиняна о дальнейшей фальсификации «фальшивой» армянской истории, встал вопрос древней, глубоко укоренившейся истории Зангезура, его населения, языка, религии, культуры и того, как он был насильственно отторгнут от Азербайджана средствами массовой информации, а также многими исследователями вновь был поставлен на повестку дня. Хотя армяне пытались стереть историю о том, как Зангезур, наша древняя родина, была отдана Армении, массовых убийствах и зверствах, совершенных против населения, как сказал великий лидер Гейдар Алиев, «История всегда все ставит на свои места» [1]. Победа, одержанная ценой жизни и крови народа Азербайджана в 44-дневной Отечественной войне, с честью вписанная в нашу военную историю, вселила в наш народ уверенность в том, что он вновь вернет утраченные земли. Таким образом, Гейдар Алиев был автором идеи важного в региональном отношении Зангезурского коридора, расположенного в стратегическом, выгодном географическом положении.

Как мы уже упоминали, Зангезур как одна из потерянных земель, его глубокая история, территория, география, население, топонимия и Зангезурский коридор уже опубликованы рядом историков и исследователей в бесчисленных статьях и ценных источниках. В данной статье исследуется взгляд Гейдара Алиева на передачу Зангезура Армении и ряд его выступлений по этому поводу. Подчеркивается цель и период идеи Зангезурского коридора.

*Ключевые слова:* Зангезур, советская власть, армянские бандитские группы, идея Зангезурского коридора.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*

*Tarix və onun problemləri / История и её проблемы / History and its problems, 2023 №2, 130-139*




**UOT 94(479.24)**

**NAZIM MƏMMƏDOV**

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
ORCID: 0000-0002-3114-1856
**mamedov-n@yahoo.com**

# HEYDƏR ƏLİYEV VƏ XANKƏNDİ ŞƏHƏRİNİN İNKİŞAF STRATEGİYASI (1970-1985-ci illər)

*1970-1985-ci illərdə Heydər Əliyevin şəxsi təşəbbüsü, düşüncəsi, inadlı fəaliyyəti və dərin qayğısı nəticəsində Azərbaycanın Xankəndi şəhərində sənaye üstün, sürətlə və dinamik inkişaf etmiş, əhalinin sosial-iqtisadi həyatında, məişətində, rifahında mühüm dəyişikliklər baş vermiş, gəlirlər, alıcılıq qabiliyyəti, ticarət, ictimai-iaşə, tibb, rabitə, məişət xidmətlərinin səviyyəsi yüksəlmiş, yaşayış məntəqələrinin su, qaz, kanalizasiya sistemləri ilə təchizatı yaxşılaşmışdır. Həmin illərdə Xankəndi şəhərində mədəniyyətin inkişafında mühüm dövr oldu. Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Xankəndi şəhərində təhsil, elm, mətbuat, ədəbiyyat və incəsənətin tərəqqisi üçün münasib imkanlar açıldı. Şəhərin mənəvi sərvəti, kadr potensiyalı daha da artdı. Dövlətimizin dərin qayğısı nəticəsində Xankəndi şəhərində mədəniyyət dinamik inkişaf etdi. Artıq XX əsrin 80-ci illərinin ortalarında Xankəndi şəhəri Azərbaycanın inkişaf etmiş mədəniyyətə malik şəhərlərindən birinə çevrilmişdi.*

*Açar sözlər*: Ümummilli lider Heydər Əliyev, Azərbaycan, inkişaf, Xankəndi, şəhər, mədəniyyət, iqtisadi, strategiya.

***Giriş***. Xankəndi Azərbaycanın qədim yaşayış məskəni, inkişaf etmiş şəhərlərindən biridir. Şəhərin ərazisi 8 kvadrat kilometr, əhalisi 53,1 min nəfərdir [7, v.32]. Xankəndi oykonimi "Xana məxsus kənd" mənasındadır. Qısa bir müddətdə sürətlə inkişaf edən Xankəndi şəhəri Azərbaycanın gənc şəhərlərindən sayılır. Doğrudur, Xankəndi Azərbaycanın qədim yaşayış məskənidir və Azərbaycanın digər yerlərində olduğu kimi burada da, ibtidai insanlar yaşamışlar. Sonrakı ictimai-iqtisadi formasiyalarda da, Xankəndi bir neçə evdən ibarət kənd kimi mövcud olmuşdur. Tədqiqatlardan məlum olur ki, XVIII əsrin sonlarında Qarabağ xanlığının başçıları [xanları] istirahət üçün yaşayış məskəni kimi Xankəndini seçmişlər. Xanlığın fəaliyyətinə maksimum şərait yaradılması üçün məskən, Qarabağ xanlığının paytaxtı Şuşanın 10 kilometrliyində, nisbətən dağ ətəyində salınmışdır. İbrahimxəlil xanın Xankəndini şəxsi malikanə kimi seçməsi, ərazinin əlverişli təbii-coğrafi şəraiti ilə bağlı olmuşdur. Hətta İbrahimxəlil xana məxsus cins atlar və sağılan heyvanlar Xankəndində saxlanılırdı. İlk illər yeni yaşayış məskənində xan ailəsi və onun yaxınları yaşadığından el arasında "Xanın kəndi" kimi tanınırdı. Qısa bir müddətdən sonra yeni salınmış qəsəbə Xankəndi adını alır [31]. Aparılan tədqiqatlardan məlum olur ki, 1813-cü ildə Xankəndində heç bir erməni və rus ailəsi yaşamadığı halda, artıq 1847-ci ildə orada 80 erməni, 52 rus ailəsinin yaşadığı ev qeydə alınmışdı. Hətta bəhs etdiyimiz dövrdə Xankəndində kilsə də, inşa edilmişdi [10, v.45]. 1847-ci ildə Xankəndində böyük rus Alayı "Sinja Polku" yerləşdirildikdən sonra, ərazinin inkişafı çar hökumətinin diqqət mərkəzində saxlanıldı. 1923-cü il sentyabrın 18-də Azərbaycanın qədim yaşayış məskəni olan Xankəndinin adı yağı düşmən tərəfindən erməniləşdirilərək Stepan Şaumyanın şərəfinə "Stepanakert" adlandırıldı. Oktyabrın

6-da Azərbaycan MİK-si həmin qərarı təsdiq etdi. Qeyd edək ki, yalnız 68 il sonra, 1991-ci ildə Xankəndinin tarixi adı özünə qaytarılmışdı [3, i.2, v.5]. Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə Xankəndi şəhəri dinamik inkişaf etdi.

***Xankəndində sənayenin inkişafı***. Azərbaycanın regionlarının inkişafı, Respublikamıza rəhbərlik etdiyi dövrdə Ümummilli liderimiz Heydər Əliyevin həmişə diqqət mərkəzində olmuşdur. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1970-1985-ci illərdə ümumilikdə Respublikamız üzrə regionların xalq təsərrüfatına ayrılan vəsaitin həcmi nəzərdən keçirilərkən Bakı və Sumqayıt şəhərlərindən sonra Xankəndinə ayrılan vəsaitin həcmi sayca 3-cü yerdə dayanırdı.

1970-1985-ci illər Xankəndi şəhərində sənayenin dinamik inkişaf dövrü olmuşdur. Bu dövrdə şəhərdə bir neçə əhəmiyyətli sənaye müəssisələri tikilib istifadəyə verilmişdir. Belə ki, SSRİ-nin 50 illiyi adına "Xankəndi Ayaqqabı Fabriki"nin əsası 1970-ci ildə qoyulmuş 1972-ci ildə tam istifadəyə verilmişdir [26, s.9, i.5, v.16]. Xankəndi ayaqqabı fabrikinin layihəsi Heydər Əliyevin təşəbbüsü ilə Kiyevdə hazırlanmışdır. İlk fəaliyyətə başladığı illərdə fabrikdə 8,4 min cüt ayaqqabı istehsal olunmuşdursa, 1980-ci ildə istehsal həcmi təxminən 5 dəfə artaraq 4 milyon 181 minə, 1985-ci ildə 4 milyon 514 minə çatmışdır [22, s.1, i.4, v.21].

XX yüzilliyin 70-ci illərində Heydər Əliyevin təşəbbüsü ilə bölgədə yaradılmış sənaye müəssisələrindən biri də, Xankəndi tikinti materialları kombinatıdır. Burada istehsal olunan mərmər bloklar keçmiş SSRİ məkanının 160-dan çox müxtəlif şəhərlərdə geniş istifadə olunurdu.

Keçən əsrin 70-ci illərində yerli xammal əsasında Xankəndi şəhərində ipək parça məhsullarının, geniş çeşidli trikotaj, tikiş məmulatları və digər hazır məhsul istehsalının həcmi artırdı. Bəhs etdiyimiz dövrdə Heydər Əliyevin göstərişləri əsasında Azərbaycanda 2-ci böyük ipək kombinatı olan Xankəndi şəhərində fəaliyyət göstərən "Qarabağ İpək Kombinatı"nın yeni filialları yaradıldı [1, s.1, i.9, v.10]. 1980-ci illərdə "Qarabağ İpək Kombinatı"nda 12 adda ipək parça hazırlanmışdı. Qarabağ ipək kombinatı Azərbaycan ipəkçilik sənayesi məhsullarının 36 faizini verirdi. Burada istehsal olunan məhsullar təkcə ittifaq miqyasında deyil Yaponiya, İtaliya, Macarıstan və digər dövlətlərdə tanınırdı. Xankəndi şəhəri ipək istehsalına görə Azərbaycanda ikinci mərkəz idi. Dağlıq Qarabağın yüngül sənaye məhsulunun üçdən iki hissəsi və respublikamızın ipəkçilik sənayesi məhsulunun təxminən 25 faizi Xankəndi şəhərinin payına düşürdü [5, s.1, i.701, v.29].

Bəhs etdiyimiz dövrdə Xankəndi elektrotexnika zavodu şəhərin sənayesində mühüm yer tuturdu. 1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə zavodun beş min kvadrat metrlik daha bir istehsalat körpüsü tikilib istifadəyə verildi [30, s.86]. Zavodda əvvəllər yalnız stolüstü ventilyatorlar və məişət kaloriferləri istehsal olunmuşdursa, 1970-ci illərin sonlarında burada istehsalın çeşidində xeyli irəliləyiş əmələ gəldi. Artıq 1970-ci illərin ortalarında zavodda ictimai binaları, məişət və müalicə binalarını işıqlandırmaq üçün müasir tipli elektrik çıraqları buraxmağa başlandı. 1980-ci illərin əvvəllərində müəssisədə 14 növ məhsul istehsal olunurdu. 1970-1980-ci illərdə məhsul istehsalı 32 dəfədən çox artmışdı [2, i.12, v.5].

XX yüzilliyin 70-ci illərində Heydər Əliyevin təşəbbüsü ilə Xankəndində yaradılmış sənaye müəssisələrindən biri də lüminessent lampaları üçün işıq armaturları istehsal edən kombinatın inşa edilməsi idi. Bu kombinat Xankəndi Elektrotexnika Zavodunun nəzdində fəaliyyət göstərirdi.

1970-1985-ci illərdə Azərbaycan SSR-in Xankəndi şəhərində dinamik inkişaf etmiş sənaye sahələrindən birində Şərabçılıq sənayesidir. Bəhs etdiyimiz illərdə Azərbaycan hökumətinin ayırdığı vəsait hesabına ümumilikdə Dağlıq Qarabağda 5 yeni şərabçılıq zavodları tikilib istifadəyə verildi [4, s.200, i.19, v.21].

1960-cı illərin sonlarında Xankəndinin müasir avadanlıqlarla təchiz olunmuş iri Mebel Fabriki işə düşmüşdü. 1970-ci illərdə isə həmin fabrikin bir neçə filialları yaradıldı. Xankəndi mebel fabriki keçmiş İttifaq miqyasında ixtisaslaşmış böyük müəssisə kimi tanınırdı. Burada istehsal olunan məhsullar – mebel, masa, kürsü, kreslo, çarpayı, dolab, bufet, altlıq, məişət əşyaları və başqa məmulatlar keçmiş ittifaq məkanında satılır və müəssisəyə yüksək gəlir gətirdi. Müəssisənin istehsal həcmi ilbəil yüksək templə artırdı. 1960-cı illə müqayisədə fabrikin istehsal həcmi 1985-ci ildə 5,9 dəfə artmışdır [3, i.2, v.4].

Heydər Əliyevin göstərişləri əsasında Xankəndində yaradılmış və inkişaf edən sənaye sahələrinin biri də "Xankəndi tikiş fabriki" idi. 1970-ci illərdə Azərbaycan hökumətinin ayırdığı xüsusi vəsait hesabına tikiş fabrikində əlavə korpuslar inşa edildi. Keçmiş dəzgahlar yeniləri ilə əvəzləndirildi.

Belə bir fabrikin Xankəndində fəaliyyəti və onun lazım olan şəraitlə təmin edilməsi Ulu öndər Heydər Əliyevin bölgəyə göstərdiyi çox böyük qayğının nəticəsi idi. Çünki həmin müəssisədə yüzlərlə əhali işləyir və lazımi əmək haqqı ilə təmin olunurdular. Fabrikin istehsal etdiyi məhsullar nəinki respublikamızda, keçmiş SSRİ məkanında hətta ittifaqın hüdudlarından kənarda da olduqca məşhur idi.

1970-1985-ci illərdə bölgədə inşa edilmiş sənaye sahələrindən biri də, Xankəndi süd kombinatının yeni pendir sexi idi. Bəhs etdiyimiz dövrdə Xankəndi şəhərində fəaliyyət göstərən süd kombinatının bütün sexləri Azərbaycan hökumətinin göndərdiyi yeni avtomat qurğularla təmin edildi və sexlər mexanikləşdirildi.

Xankəndi şəhərindəki süd kombinatında respublikada quru süd zərdabı hazırlayan yeganə sex işləyirdi. Dövlətimizin xaricdən aldığı avadanlıqlar həmin sexdə quraşdırılmışdı. Süd və süd məhsullarının adam başına düşən istehsal səviyyəsinə görə Xankəndi şəhəri Azərbaycan SSR-in şəhərləri arasında ilk yerlərdən birini tuturdu. Burada istehsal olunan məhsullar nəinki yerli əhalinin tələbatını ödəyir, hətta Ermənistana və İttifaqın digər regionlarına da göndərilirdi [7, s.16, i.2, v.5].

Azərbaycanın Yuxarı Qarabağ ərazisi tikinti-xammal materialları ilə zəngindir. Ona görə də burada yerli xammala əsaslanan inşaat materialları sənayesinin müxtəlif sahələri yaranmış və inkişaf etmişdi. 1975-1980-ci illərdə Xankəndi ərazisində yeni əhəng, taxta-şalban, kərpic, keramit sexləri yaradılmışdı [11, s.7, i.5, v.8].

1970-1985-ci illərdə Azərbaycan hökuməti Xankəndi şəhərində un və un məhsulları, şirniyyat sexləri, ət kombinatları, kolbasa sexi və başqa müəssisələr tikib əhalinin istifadəsinə verilmişdir.

Azərbaycan hökuməti Vilayətdə energetika təsərrüfatının inkişafı üçün xüsusi tədbirlər həyata keçirərək 1970-1985-ci illərdə 1300 kilometrlik yüksək voltlu elektrik xətti çəkmişdir. Dağlıq Qarabağ Azərbaycanda üçtərəfli elektrik təchizatı olan yeganə regiondur. Belə təchizat vilayətin elektrik enerjisi ilə daha yüksək dərəcədə etibarlı olmasını təmin edir [13, s.4, i.20, v.2].

Beləliklə, 1970-1985-ci illərdə Respublikamızın rəhbəri Heydər Əliyevin şəxsi təşəbbüsü, inadlı fəaliyyəti nəticəsində Azərbaycan SSR-in Xankəndi şəhərində sənaye üstün, sürətlə və dinamik inkişaf etdi. Xankəndi sənayesi 1970-ci illə müqayisədə 1980-ci ildə 249 faiz, 1985-ci ildə isə 300 faiz artdı [17].

Aparılan tədqiqatlar nəticəsində müəyyən olunur ki, bəhs etdiyimiz illərdə Xankəndi sənayesindəki göstəricilər Respublikamızın şəhərləri ilə müqayisədə üstün olmuşdur. 15 il ərzində Xankəndi sənayesi istehsal artım göstəricisinə görə ümumrespublika səviyyəsini 3 dəfə ötüb keçmişdir [9]. 1985-ci ilin sonralarında Xankəndi sənayesi istehsal fondlarının dəyəri 1980-ci illə müqayisədə 55,6 faiz artmışdır ki, bu da bütövlükdə respublika üzrə olan göstəricilərdən 46,5 faiz çoxdur. 1985-ci ildə Xankəndi sənayesində 1923-cü illə müqayisədə 50 dəfədən çox adam çalışırdı ki, bundan 52 faizi qadın idi. Əhalinin hər 10 min nəfərinə düşən sənaye işçilərinin sayına görə Xankəndi şəhəri Naxçıvan, Bərdə, Ağdam, Şamaxı, Fizuli və digər şəhərlərdən təxminən 2 dəfə artıq idi. Sənayedə məşğulluq göstəricilərinə görə Xankəndi şəhəri yalnız Bakı-Sumqayıt şəhərlərindən geri qalırdı. 1970-1985-ci illərdə Xankəndi şəhərində sənaye kompleksinin əsasını elektrotexnika, ipəkçilik, maşınqayırma, elektroenergetika, tikinti materialları, toxuculuq, mebel, ayaqqabı, ət-süd sənayesi və başqaları müvəffəqiyyətlə inkişaf etmişdi [2, i.2, v.6].

Dünya siyasətçisi Heydər Əliyev çıxışlarından birində 1970-1985-ci illərdə sənayenin inkişafına münasibətini belə ifadə etmişdi: "1970-1985-ci illərdə Azərbaycanda sənaye dinamik inkişaf etmişdi. Bu illər ərzində 213 yeni iri sənaye müəssisəsi istismara verilmiş, 250-dən çox iri zavod, fabrik və istehsalat sexləri tikilmiş, sənayedə əmək məhsuldarlığı 2,1 dəfə, məhsul istehsalı 3,3 dəfə, mənfəət 3,2 dəfə, sənaye-məhsuldar personalın fondlarla təchizatı 1,4 dəfə artmış, 451 adda məhsula dövlət keyfiyyət nişanı verilmişdir. Ölkəmizdə buraxılan sənaye məhsulları dünyanın 65 ölkəsinə ixrac olunmuş və xalqımızın maddi rifah halı xeyli yaxşılaşmışdır [38, s.9].

***Əhalinin rifah və məişətində dinamika***. Apardığımız araşdırmalardan məlum olur ki, 1970-ci illərdə adambaşına düşən məhsul istehsalının həcmi ümumrespublika üzrə 140,5 faiz, Xankəndi şəhərində 250 faiz artmışdır. Həmçinin sənaye məhsulları istehlakçının həcmi ümumrespublika üzrə 229 faiz, Xankəndi şəhərində 281 faiz, kapital xərcinin artım həcmi ümumrespublika üzrə 219 faiz, Xankəndi şəhərində 417 faiz, ticarət mal dövriyyəsinin həcmi ümumrespublika üzrə 240 faiz, Xan-

kəndi şəhərində 279 faiz, məişət xidməti işi ümumrespublika üzrə 540 faiz, Xankəndi şəhərində 550 faiz artım olmuşdur [24, s.1, i.7, v.21].

1970-1985-ci illərdə Xankəndi şəhərində ictimai istehlak fondlarında əhaliyə verilən ödənc və güzəştlərin məbləği üç dəfə çoxalmışdır [6]. Həmin illərdə qocalara, əlillərə, əmək qabiliyyətini müvəqqəti itirənlərə, əmək və müharibə veteranlarına, başçısını itirmiş uşaqlı ailələrə, tək analara maddi yardım ilbəil artmışdır. Aparılan araşdırmalardan məlum olur ki, 1980-ci ildə əhalinin hər 10 min nəfərinə düşən təqaüdçülərin sayı Xankəndi şəhəri istər ümumrespublika səviyyəsindən (14 faiz), istərsə də Naxçıvan MR ilə müqayisədə (12 faiz) üstün olmuşdur. Ayrılan təqaüdlərin həcmində də bu fərqlər müşahidə edilmişdir. Lakin DQMV XDS “sosial təminat sahəsində səlahiyyətləri”ndən çox məharətlə istifadə etmişdilər [27]. Belə ki, yerli və ittifaq əhəmiyyətli pensiyalar təyin edilərkən Vilayət Sosial Təminat Şöbəsi ikili mövqe tutmuş, faktiki xəstə olan azərbaycanlılar haqqında Tibbi Əmək Ekspertizasının rəyi həmişə mənfi olurdu.

1970-1985-ci illərdə Azərbaycan hökumətinin Xankəndi şəhərində həyata keçirdiyi mühüm tədbirlərdən biri də, burada yaşayan əhalinin istehlak tələbatı ilə təklif arasında uyğunluq yaratmaq, əhalinin ərzaq və qeyri-ərzaq mallarına olan tələbatı tam ödəməkdən ibarət olmuşdur. Xankəndi şəhərində əhalinin alıcılıq qabiliyyətinin artması istehlak malları istehsalının, ticarət və ictimai iaşə xidmətlərinin nisbətən inkişaf etməsi şəhərdə mal dövriyyəsinin çoxalmasına səbəb olmuşdur. 1971-1981-ci illərdə Azərbaycan hökumətinin ayırdığı xüsusi vəsait hesabına Xankəndi ərazisində 166 yeni ticarət və ictimai iaşə müəssisəsi tikilib əhalinin istifadəsinə verilmişdi [8]. Həmin illərdə Xankəndi şəhərində dövlət və kooperativ ticarətində, ictimai iaşə daxil olmaqla, pərakəndə mal dövriyyəsi 2 dəfə çoxalmışdır.

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1970-1980-ci illərdə istər adambaşına düşən pərakəndə ticarət dövriyyəsinin həcminə, istər ticarət müəssisələrinin miqdarına, istərsə də adambaşına düşən ticarət mağazalarının sahəsinə görə Xankəndi şəhərindəki ümumi göstəricilər həm ümumrespublika səviyyəsində, həm də Azərbaycanın digər şəhərləri ilə müqayisədə üstün olmuşdur. Məsələn, təkcə 1981-ci ildə 10 min nəfər hesabı ilə pərakəndə ticarət müəssisələrinin miqdarı ümumrespublika üzrə 28, Naxçıvan MR-da 24, Xankəndi şəhərində 42 idi. 10 min nəfər hesabı ilə mağazaların ticarət sahəsi (kvadrat kilometrlə), ümumrespublika üzrə 1127, Naxçıvan MR 1319, Xankəndi şəhərində 1743 kvadrat kilometr olmuşdur. Adambaşına düşən pərakəndə ticarət dövriyyəsinin həcmi ümumrespublika üzrə 617 manat, Naxçıvan MR 420 manat, Xankəndi şəhərində 642 manat məbləğində idi [12, s.1, i.6, v.4].

Xankəndi əhalisinin mədəni-məişət şəraitinin yaxşılaşmasında ictimai-iaşə müəssisələri böyük əhəmiyyət kəsb edirdi. 1970-1980-cı illərdə Xankəndi şəhərində yeni yeməkxana, restoran, mətbəx-fabrik, qəlyanaltı və bufetlər yaradılmasına xüsusi diqqət yetirilmişdir [14]. Bu dövrdə mövcud obyektlər yenidən qurulmuş və əsaslı təmir edilmişdir. İctimai-iaşə müəssisələrinin yerləşdirilməsi prosesi nəzərdən keçirilərkən məlum olur ki, burada da, erməni rəhbərliyi qərəzli mövqe tutmuşlar. Məsələn, 1970-1985-ci illərdə Xankəndi, Xocavənd, Hadrut, Ağdərə rayonlarında ictimai-iaşə xidməti müəssisələrinin yerləşdirilməsi və xidmət həcmi 2,5 dəfədən çox artmış, Şuşa rayonunda bu artım 1,9 dəfəyə çatmışdır [18]. Ən böyük ictimai-iaşə müəssisələri Xankəndi şəhərində yaradılmışdır.

1970-1985-ci illərdə Azərbaycan hökumətinin və dövlət başçısı Heydər Əliyevin dərin qayğısı nəticəsində Xankəndi şəhərində əhaliyə ictimai iaşə və mədəni məişət xidməti dinamik inkişaf etmişdir. Aparılan tədqiqatlara əsasən müəyyən edilmişdir ki, Xankəndi şəhərində hər sakinə düşən məişət xidmətlərinin həcmi 1966-1970-ci illərdə 13 manat olmuşdursa, 1971-1975-ci illərdə bu göstərici artaraq 18 manata, 1976-1980-ci illərdə 25 manata çatmışdır. Bu göstəricilər ümumrespublika səviyyəsindən xeyli üstündür. Belə ki, hər bir sakinə düşən məişət xidmətinin həcmi 1980-1985-ci illərdə ümumrespublika üzrə 20-30 manat olmuşdursa, Naxçıvan MR-da 15-21 manat, Xankəndi şəhərində isə 31-41 manata çatmışdır. 10 min nəfərə düşən məişət xidməti emalatxanalarının miqdarına gəldikdə isə ümumrespublika üzrə bu göstərici 1981-1986-cı illərdə 15-17 emalatxana, Naxçıvan MR-da 21 emalatxana, Xankəndi şəhərində isə 29-32 emalatxana düşürdü [16, s.1, i.9, v.4].

Apardığımız araşdırmalara görə Xankəndi ticarət müəssisələrində çalışanların təxminən 60 faizini qadınlar təşkil edirdi. İctimai iaşə və ticarət müəssisələrində işləyənlərin orta aylıq əmək haqqı 1965-ci ildəki 67 manata qarşı, 1975-ci ildə 87 manata qalxmışdır [25, s.1, i.2, v.9]. Vilayət rəhbərliyinin ayrı-

seçkilik siyasəti burada da özünü göstərmişdir. Aparılan araşdırmalardan aydın olmuşdur ki, Xankəndi şəhərində ticarət müəssisələrində çalışanların demək olar ki, 95 faizini ermənilər təşkil etmişlər [28].

Bölgənin inkişafını daim diqqət mərkəzində saxlayan Heydər Əliyev Xankəndi şəhər əhalisinin həyat səviyyəsini yüksəltmək üçün, onların artan tələbatını ödəmək baxımından bazarları müxtəlif məhsullarla doldururdu. Hətta 1985-ci ildə Xankəndində mal dövriyyəsinin həcmi 1966-cı illə müqayisədə 5,1 dəfə artmışdır. Halbuki bu rəqəm ümumrespublika üzrə 4,6 dəfəyə bərabər idi. Göstərilən dövr ərzində adambaşına düşən mal dövriyyəsinin inkişaf surəti ümumrespublika üzrə 2,7 dəfə, Azərbaycanın Xankəndi şəhərində 3,7 dəfə təşkil etmişdir [40]. Həmin illərdə mağazalarda hər 10 min nəfərə düşən ticarət sahəsi Azərbaycan üzrə 1,9 dəfə, onun tərkib hissəsi olan Xankəndi şəhəri üzrə 2,6 dəfə artmışdır. Həmçinin 1979-cu ildə ictimai iaşə müəssisələrində hər 10 min nəfərə düşən yerlərin sayı respublikamızda 731-ə düşdüyü halda, Xankəndində 805-ə çatmışdır [16, s.1, i.6, v.27].

Dövlət başçısı Heydər Əliyevin qayğısı nəticəsində 1970-1985-ci illərdə Xankəndi şəhərində yeni mikrorayonlar, qəsəbələr salınmış, çoxmərtəbəli yaşayış binaları tikilmişdir. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1970-1985-ci illərdə Xankəndi şəhərində mənzil tikintisi sahəsində əldə edilən nailiyyətlər respublikamızın bütün şəhərlərindən yüksəkdə dayanmışdır.

Apardığımız tədqiqatlardan məlum olur ki, bəhs etdiyimiz dövrdə bir sakinə düşən mənzil sahəsi keçmiş SSRİ məkanında 14,9 kvadrat metr, Ermənistan SSR-də 13,7 kvadrat metr, Azərbaycan SSR-də 10,9 kvadrat metr, Bakı şəhərində 11,7 kvadrat metr, Naxçıvan MR-da 9,5 kvadrat metr olmuşdursa [34], Azərbaycanın Yuxarı Qarabağ bölgəsində(o cümlədən Xankəndində) bu göstərici 14,6 kvadrat metrə çatmışdır [20]. Fərdi mənzil tikintisi üzərində qoyulan məhdudlaşmalar aradan götürülmüş, kreditləşmə üçün əlverişli şərait yaradılmış və tikinti işi sürətlənmişdir.

1970-1985-ci illərdə Xankəndi şəhərində əhalinin mədəni-məişət şəraitinin yaxşılaşmasını burada qazlaşdırma işinin həyata keçirilməsində də görmək olar. Keçən əsrin 70-ci illərində bölgəyə qaz çəkilişinə başlanmış 1978-ci il dekabrın 30-da isə Yevlax-Xankəndi qaz kəmərinin açılışı keçirilmişdi. 107 km uzunluğunda olan bu kəmərin bir hissəsi dağlarda, çətin şəraitdə çəkilmişdi. Artıq 1986-cı ildə Xankəndi şəhəri 100 faiz qazla təmin edilmişdi. Halbuki, ümumrespublikamız üzrə bu göstərici 96,2 faizə bərabər idi [20].

Bəhs etdiyimiz dövrdə Xankəndi şəhərinin su təchizatı sahəsində də Azərbaycan rəhbərliyi xüsusi diqqət yetirmişdir. Təsadüfi deyildir ki, Xankəndi şəhərinin içməli su ilə təchizatı məsələsi 1970-ci illərdə tamamilə həyata keçirilmişdir [15]. Bəhs olunan dövrdə Xankəndi şəhər əhalisinin mənzillərinin su kəməri ilə təchizi ümumrespublika səviyyəsindən 2 dəfə yüksəkdə dayanmışdır.

XX yüzilliyin 70-ci illərində Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Bakını Xankəndi ilə birləşdirən Ağdam-Xankəndi dəmir yolunun çəkilişinə başlanmışdı. 12 yanvar 1979-cu ildə 26 kilometrlik həmin dəmiryolu istifadəyə verildi [20]. Bəhs etdiyimiz illərdə Xankəndi şəhərində avtomobil nəqliyyatı vasitəsilə yük daşınmasının həcmi ilbəil artmışdı.

Yeri gəlmişkən onu da qeyd edək ki, 1985-ci illərdə Xankəndi şəhərində yük avtomobilləri parkı iki dəfə artmışdır. Ümumrespublika səviyyəsində isə bu göstərici 1,7 dəfəyə bərabər idi. Xalq təsərrüfatının ardıcıl inkişafı, boşdayanma hallarına yol verilməməsi ilə ardıcıl mədəni xidmət nəticəsində şəhərdə avtomobil nəqliyyatı daha da inkişaf edirdi. Xankəndi şəhərində avtomobil nəqliyyatının inkişaf etməsini onda görmək olar ki Azərbaycanın hər 1000 sakininə 17,5 avtomobil düşdüyü halda Xankəndi şəhərində 26,5 avtomobil, Naxçıvan MR-da isə 17 avtomobil düşürdü [1, s.1, i.9, v.26]. 1970-1985-ci illərdə avtomobil nəqliyyatı ilə yüklərin daşınması həcmi ümumrespublika üzrə 3,6 dəfə artdığı halda, Xankəndi şəhərində 4,8 dəfə artmışdır. Bundan əlavə sərnişinlərin avtomobildə daşınması həcmi respublikamızda 2,2 dəfə, Xankəndi şəhərində 2,6 dəfə, taksilərlə daşınma respublikamızda 2,4 dəfə, Azərbaycanın Xankəndi şəhərində 4,2 dəfə artmışdır [6, s.1, i.702, v.28]. Aparılan araşdırmalardan məlum olur ki, Xankəndi şəhərində avtobus marşrutları sıxlığı orta respublika səviyyəsindən 2,6 dəfə çox olmuşdur [28].

Xankəndi şəhərində rabitənin də inkişafı bəhs olunan dövrdə dövlət başçısının diqqətində saxladığı əsas məsələlərdən biri idi. 1980-ci illərin ortalarında adambaşına düşən rabitə məhsulların həcmi, ümumrespublika üzrə 21 manat, Azərbaycanın Xankəndi şəhərində 29,5 manat təşkil etmişdir. Bu dövrdə telefon aparatlarının sayı təxminən iki dəfə artdı. Aparılan hesablamalara görə 1985-ci ildə Xankəndi şəhərində əhalinin hər 100 nəfərinə 12,4 telefon düşürdü. Ümumrespublika səviyyə-

sində bu göstərici 7,9 bərabər idi. Həmçinin Xankəndi şəhərində ailələrin mənzil telefonları ilə təminatı 42,4 faizə çatmışdı. Naxçıvan MR-da bu göstərici 30,1 faizə [34], ümumrespublika səviyyəsində isə 31,1 faizə bərabər idi. 1970-1985-ci illərdə Xankəndi şəhərində şəhərlərarası telefon danışıqlarının sayı 2 dəfə artmışdı. Xankəndi şəhərində şəhərlərarası telefon rabitələrinin inkişafı nəticəsində adambaşına düşən şəhərlərarası telefon danışıqlarının sayı respublikamız üzrə 4,15 faiz, Azərbaycanın Xankəndi şəhəri üzrə 7,69 faiz təşkil etmişdir [8, s.1, i.648, v.189].

1970-1985-ci illərdə Xankəndi şəhərində radio-tele xəttinin çəkilişi ilbəil genişləndirilmişdi. Bakı-Şuşa və Şuşa-Naxçıvan radio-tele xəttinin çəkilişi Xankəndi şəhərində radiolaşmanın inkişafına güclü təkan verdi. 1980-ci illərdə Xankəndində televiziya studiyasının istifadəyə verilməsi Dağlıq Qarabağ əhalisinin Moskva və Respublika televiziya verilişlərinə baxmağa imkan yaratdı.

1970-1985-ci illərdə Heydər Əliyevin göstərişləri əsasında Azərbaycan hökuməti Xankəndi əhalisinin sağlamlığının qorunması sahəsində mühüm tədbirlər həyata keçirmişdi. 1970-1985-ci illərdə şəhərdə hər cür tibb avadanlıqları ilə təchiz edilmiş, yeni qadın və uşaq məsləhətxana və poliklinikaları tikilmişdi. Bu dövrdə Azərbaycan hökuməti tərəfindən Xankəndi səhiyyə idarələri dərman, tibbi məmulatları və avadanlıqlarla təmin edildi [5, s.1, i.700, v.28].

1984-cü il yanvar məlumatına görə Xankəndi şəhərində 900 çarpayılıq 9 xəstəxana, 2 dispanser, sanitariya epidemioloji stansiya, 250 həkim, 600 orta ixtisaslı tibb işçisi var idi [14, s.1, i.458, v.3]. Tədqiqatlardan məlum olur ki, bütün Dağlıq Qarabağdakı xəstəxanaların təxminən üçdən biri, çarpayıların ikidən biri, həkimlərin ikidən biri, orta ixtisaslı tibb işçilərinin üçdə biri Xankəndi şəhərində fəaliyyət göstərirdi. 1970-1985-ci illərdə Xankəndi şəhərində əhalinin xəstəxana çarpayıları ilə təminatı, bütün ixtisaslardan olan tibb işçiləri ilə təminat və başqa sahələrdə də istər ümumrespublika səviyyəsində, istərsə də Naxçıvan MR ilə müqayisədə üstün olmuşdur. Məsələn, 1985-ci ildə hər 10 min nəfərə düşən çarpayıların sayı Azərbaycan Respublikası üzrə 97,8 ədəd, Naxçıvan MR-da 94,6 ədəd [34], Xankəndi şəhərində 104,6 ədəd olmuşdur. On min nəfər hesabı ilə orta tibb işçiləri ilə təminat ümumrespublika üzrə 93,8, Naxçıvan MR-da 80,1, Xankəndi şəhərində 126,3 nəfər düşürdü. On min nəfərə düşən ali təhsilli tibb işçiləri Naxçıvan MR-da 26,2 nəfər, Xankəndi şəhərində 28,9 nəfər düşmüşdü [9, s.1, i.136, v.17].

1970-1985-ci illərdə Azərbaycan hökuməti Xankəndi şəhərində bədən tərbiyə və idmanın maddi-texniki bazasını möhkəmləndirilməsi və inkişafı üçün böyük həcmdə vəsait ayırdı. Şəhərdə idman müəssisələrinin sayı 1970-ci illə müqayisədə 1985-ci ildə 5,5 dəfə artdı [26, s.9, i.10, v.16].

Bəhs etdiyimiz illərdə Xankəndi şəhərində yeni stadion, idman meydançaları, voleybol-basketbol, tennis meydançaları, iki üzgüçülük hovuzu tikilib idmançıların ixtiyarına verildi [29]. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, adambaşına düşən stadionların və meydançaların sayına görə Xankəndi şəhəri istər ümumrespublika səviyyəsində, istərsə də Naxçıvan MR ilə müqayisədə yüksəkdə dayanmışdır [2, s.7, i.2, v.4].

Beləliklə, 1970-1985-ci illərdə Azərbaycan hökumətinin, dövlətimizin başçısı Heydər Əliyevin dərin qayğısı nəticəsində Azərbaycanın Xankəndi şəhərində əhalinin sosial-iqtisadi həyatında, məişətində, rifahında mühüm dəyişikliklər baş vermiş, gəlirlər, alıcılıq qabiliyyəti, ticarət, ictimai-iaşə, tibb, rabitə, məişət xidmətlərinin səviyyəsi yüksəlmiş, yaşayış məntəqələrinin su, qaz, kanalizasiya sistemləri ilə təchizatı yaxşılaşmışdı. Lakin bəhs etdiyimiz dövrdə bölgənin erməni rəhbərliyi məqsədli şəkildə bir strateji xətt kimi burada yaşayan azərbaycanlıların sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasına, onların intellektual səviyyəsinin yüksəldilməsinə bütün çirkin vasitələrdən istifadə etməklə mane olmaq siyasəti yeritmişlər.

***Mədəniyyətin dinamik inkişafı***. Ümummilli liderimiz Heydər Əliyev 1979-cu il yanvarın 12-də Ağdam-Xankəndi dəmir yolunun açılışındakı nitqində demişdir: "Xankəndi Azərbaycanın dinamik inkişaf edən şəhərlərindən biridir…. Qısa bir müddətdə şəhərin görkəmi tamamilə dəyişmişdi. Burada müasir memarlıq üslubunda inşa edilmiş çoxsaylı binalar, mədəniyyət abidələri ucaldılmışdır…. Xankəndi şəhərinin iqtisadiyyatı ilə yanaşı, təhsili, elmi və mədəniyyəti də böyük inkişaf yolu keçmiş, dünyəvi teatr, müasir məktəb və demokratik mətbuat yaranmış, savadsızlıq ləğv olunmuş tam orta icbari təhsil tətbiq edilmiş, təhsil müəssisələrinin inkişaf etmiş şəbəkəsi yaradılmışdır…. Tam əminliklə deyə bilərəm ki, Ağdam-Xankəndi dəmir yolunun istifadəyə verilməsi, bölgədə

məhsuldar qüvvələrin daha da inkişaf etdirilməsinə, burada yaşayan sakinlərin həyat səviyyəsinin yaxşılaşdırılmasına xidmət edəcəkdir [28, s.4. i.64, v.130].

XX yüzilliyin 70-85-ci illəri Azərbaycanın Xankəndi şəhərinin mədəniyyətinin inkişafında mühüm dövr olmuşdur. Heydər Əliyevin rəhbərliyi altında və dövlətimizin dərin qayğısı nəticəsində şəhərdə təhsil, elm, mətbuat, ədəbiyyat və incəsənət tərəqqi etmiş, kadr potensialı artmış, ali və orta ixtisas təhsili şəbəkəsi genişlənmiş, uşaq müəssisələrinin, məktəblərin maddi-texniki təhsil bazası möhkəmlənmişdir.

1970-1985-ci illərdə Xankəndi şəhərinin ictimai-iqtisadi həyatında olduğu kimi mədəni həyatında da mühüm irəliləyişlər olmuşdur. Bu dövr ərzində Xankəndi şəhərində uşaq müəssisələrinin, məktəblərin maddi-texniki və təhsil bazası möhkəmlənmiş, tədrisin keyfiyyət səviyyəsi yüksəlmişdir. Aparılan araşdırmalardan məlum olur ki, əhalinin məktəbəqədər uşaq müəssisələri ilə təminatında Xankəndi şəhəri istər ümumrespublika səviyyəsində, istərsə də Naxçıvan MR ilə müqayisədə üstün olmuşdur. Məsələn, 1985-ci ildə əhalinin məktəbəqədər uşaq müəssisələri ilə təminatı ümumrespublika səviyyəsində 20 faiz, Naxçıvan MR-da 12 faiz təşkil etmişdirsə, Xankəndi şəhərində bu göstərici 35 faizə çatmışdır [2, s.7, i.6, v.8].

Azərbaycanın başqa bölgələrindən fərqli olaraq Xankəndi şəhərində 1970-1985-ci illərdə məktəb tikintisi sürətlə getmişdir. Maraqlı cəhət ondan ibarətdir ki, Naxçıvan MR-da hər məktəbə 296 şagird düşdüyü halda, Xankəndində 177 şagird düşmüşdür. Eyni zamanda, Naxçıvan MR-da hər müəllimə 10 uşaq düşürdüsə [34], Xankəndində 8,5 uşaq düşürdü [23, s.7, i.10, v.9].

1970-1985-ci illərdə Xankəndi şəhərində sənaye, nəqliyyat, tikinti və digər işlərdə işləyən gəncləri təhsilə cəlb etmək üçün gündüz məktəbləri yanında müstəqil qiyabi məktəblər təşkil olundu. Bundan əlavə Xankəndi şəhərində məktəbdənkənar uşaq müəssisələri, pioner və məktəblilər sarayı, 50 pioner düşərgəsi, uşaq idman məktəbi, musiqi və bədii özfəaliyyət məktəbi, uşaq parkları, gənc texniklər və turistlər stansiyası, uşaq kitabxanaları fəaliyyət göstərirdi [21, s.3, i.16, v.7].

Dağlıq Qarabağın 42 məktəbində o cümlədən Xankəndi şəhərinin 8 məktəbində dövlətimizin ayırdığı xüsusi vəsait hesabına yemək verilirdi. Şagirdlərə isti yemək verilməsi sahəsində Dağlıq Qarabağ məktəblərinin təcrübəsi Azərbaycan SSR Maarif Nazirliyinin kollegiyası tərəfindən bəyənilmişdir. Çox təəssüflər olsun ki, bu təcrübə Şuşa şəhərində yalnız bir məktəbə tətbiq olunmuş, bölgənin azərbaycanlılar yaşayan kəndlərində isə tətbiq edilməmişdir.

1970-1985-ci illərdə Xankəndi şəhərində peşə təhsili sistemi də sürətlə inkişaf edirdi. Şəhərin 8 orta məktəbində şagirdlərə müxtəlif peşələr öyrədilirdi. 1970-ci illərdə Xankəndi şəhərində təsərrüfat, maarif, mədəniyyət, səhiyyə və başqa sahələr üzrə orta ixtisas kadrları hazırlayan məktəblər fəaliyyət göstərirdi. Həmin texnikumlarda mindən çox tələbə təhsil alırdı.

Heydər Əliyevin təşəbbüsü və Azərbaycan SSR Nazirlər Sovetinin 23 noyabr 1973-cü il tarixli qərarı ilə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialı əsasında Xankəndi Pedaqoji İnstitutu təşkil edildi. İnstituta hər il 500-ə yaxın tələbə qəbul olurdu ki, bundan 300-ü əyani təhsil alırdı. 1980-ci Xankəndi Pedaqoji İnstitutunda 2 min tələbə oxuyurdu. Burada tədris Azərbaycan, rus və erməni dillərində aparılırdı [27, s.4, i.19, v.1].

1970-1975-ci illərdə Xankəndi şəhərində yeni tipli kitabxana binası tikilib istifadəyə verildi [41, s.16]. 1975-ci ildə Xankəndi şəhərində kütləvi kitabxanaların sayı artdı, onların kitab fondu isə 440 minə çatdı [13, s.4, i.2, v.4]. Kitabxanalarda oxucuların sayı isə əvvəlki dövrlə müqayisədə xeyli çoxaldı. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, Xankəndi şəhərinin kitabxana ilə təminatı, adambaşına düşən kitablar və kitabxanaların sayı həm ümumrespublika səviyyəsində, həm də Ermənistanla və keçmiş SSRİ ilə müqayisədə üstün olmuşdur. 1980-ci illərin sonlarında Xankəndinin kütləvi kitabxanalarla təmin edilməsi 100 faiz olduğu halda, ümumrespublika üzrə bu göstərici 94,4 faiz, Naxçıvanda 98,4 faiz idi. Bundan əlavə əhalinin hər 10 min nəfərinə düşən kütləvi kitabxanaların sayı keçmiş SSRİ məkanında 4,8, Ermənistan SSR-də 4,1, Azərbaycanda 6 olduğu halda, Xankəndi şəhərində bu göstərici 13-ə çatmışdı. Faktlardan göründüyü kimi hər adama düşən kitabxanaların sayı Xankəndi şəhərində ümumrespublika səviyyəsini 2 dəfədən də artıq üstələmişdir [41]. Bütün bunlarla yanaşı Xankəndi şəhərində azərbaycanlılar azərbaycandilli ədəbiyyatla tam təmin edilmirdi. Aparılan tədqiqatlardan məlum olur ki, kitabxanalardakı kitabların təxmini 80 faizi erməni dilində, 10 faizi Azərbaycan və 10 faizi rus dillərində idi [7, s.16, i.128, v.31].

Bəhs etdiyimiz dövrdə Azərbaycan hökuməti Xankəndi şəhərində mədəni-maarif müəssisələri içərisində klubların inkişafına xüsusi diqqət yetirmişdir. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, əhalinin sayına görə klubların sayı Xankəndi şəhərində ümumrespublika səviyyəsindən 3 dəfə, Ermənistanla müqayisədə təxminən 4,5 dəfə artıq olmuşdur. Belə ki, 1985-ci ildə əhalinin hər 10 min nəfərinə düşən klubların sayı SSRİ məkanında 4,8-ə, Azərbaycan Respublikasında 5-ə, Ermənistanda 3,8-ə çatırdısa, Azərbaycanın Xankəndi şəhərində bu göstərici 15-ə bərabər idi [11, s.7, i.3, v.16].

Bəhs olunan dövrdə Xankəndi şəhərində 30 kinoqurğu fəaliyyət göstərirdi. Qonşu şəhərlərlə (Ağdam, Tərtər, Şuşa və sair) müqayisədə bu göstərici 2 dəfə artıq demək idi. 10 min nəfər hesabı ilə əhaliyə düşən kino qurğuların sayı keçmiş SSRİ məkanında 5,4-ə, Azərbaycan Respublikasında 3-ə, Ermənistanda 2,9-a, ümumilikdə Dağlıq Qarabağda 11,2-yə, Xankəndi şəhərində isə 12,5-ə çatmışdır [17, s.2, i.53, v.42]. Həmçinin kinoya baxış səviyyəsində də, Xankəndi şəhər birinciliyi saxlanılmışdır.

1970-1985-ci illərdə Xankəndi şəhərində əhali arasında mədəni-maarif işinin aparılmasında muzeylərin də rolu böyük olmuşdur. Dövlətimizin ayırdığı xüsusi vəsait hesabına 1970-1985-ci illər ərzində Xankəndi şəhərində 2 yeni muzey açıldı. Şəhərdə muzeylərin sayı 2-dən 4-ə çatdı. Xankəndi şəhərində şəkil qalereyası və Bakı muzeylərinin filialı açılmışdı. Muzeyə gələnlərin sayı ilbəil artırdı. Belə ki, 1970-ci ildə Xankəndi şəhərində muzeyə gələnlərin sayı 15 min nəfər idisə, 1980-ci ildə 45 min nəfərə, 1985-ci ildə isə 60 min nəfərə çatmışdı [12, s.1, i.4, v.6].

XX yüzilliyin 70-80-ci illərində Ümummilli liderimiz Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Azərbaycanda xalqın milli özünüdərk prosesi xeyli güclənmişdi. Yaradıcı ziyalılarımız üçün sərbəst düşüncə və iş şəraiti yaradılmışdır. Heydər Əliyev dövlətimizə rəhbərlik etdiyi illərdə Xankəndi şəhərinin mədəni tərəqqisinə diqqəti daha da artırdı [30].

1970-1980-ci illərdə Xankəndi şəhərində mədəni-maarif işinin ən kütləvi vasitələrindən biri teatr idi. Bəhs etdiyimiz dövrdə şəhərdə M.Qorki adına Xankəndi Dram Teatrı fəaliyyət göstərirdi. 1970-1985-ci illərdə Xankəndi şəhərində kütləvi informasiya şəbəkəsi inkişaf etməkdə idi. Əhalinin maariflənməsində, mədəni səviyyəsinin yüksəlməsində, ictimai-siyasi fəaliyyətinin artmasında mətbuat mühüm rol oynayırdı. Bəhs etdiyimiz dövrdə, Xankəndi şəhərində 6 qəzet erməni dilində, 1-i Azərbaycan dilində və 1-i rus dilində buraxılırdı [20, s.1, i.33, v.6].

Bəhs etdiyimiz dövrdə Azərbaycan Yazıçılar İttifaqının Xankəndi birliyi fəaliyyət göstərirdi. Burada nasirlər, şairlər dramaturqlar elmi yaradıcılıqla məşğul olurdular. Xankəndi şəhərində Azərbaycan hökuməti tərəfindən yaradılmış poliqrafiya idarəsi əsərlərin, müxtəlif ədəbiyyatların nəşr olunmasında mühüm rol oynayırdı. 1971-1980-ci illərdə Xankəndi şəhərində ümumi tirajı 500 min nüsxə olan 84 adda kitab buraxılmışdır ki, bundan 366 min nüsxə (66 adda) erməni dilində olmuşdur. Buraxılan əsərlərin xeyli hissəsi də rus dilində, cüzi nəşr Azərbaycan dilində idi [3, i.2, v.5].

1970-1985-ci illərdə Xankəndi şəhərində Dövlət Mahnı və Rəqs ansamblının və "Qarabağ" Dövlət estrada orkestrinin repertuarı daha da zənginləşmişdi.

XX yüzilliyin 70-80-ci illərində Xankəndi şəhərinin arxitektura siması genişləndirilmişdi. Bəhs olunan dövrdə məşhur arxitektor Q.Məcidovun layihəsi əsasında şəhərin mərkəzi meydanı olmaqla Vilayət Partiya Komitəsinin binası istifadəyə verilmişdir. 1972-ci ildə isə arxitektor N.Kəngərlinin layihəsi əsasında Vilayət İcraiyyə Komitəsinin binası tikilmişdir [42]. Çox təəssüflər olsun ki, xalqımızın zəhməti bahasına tikilmiş bu gözəl binalarda, bu gün separatçı rejimin administrasiyası yerləşir.

1970-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun əməkdaşları M.Hüseynovun rəhbərliyi altında Xankəndi ərazisində arxeoloji qazıntı tədqiqat işlərini davam etdirmiş və ərazidə tapılan qədim maddi-mədəniyyət izləri, əşyalar ibtidai insanların burada yaşamasını sübut etmişdilər.

1970-1985-ci illərdə Xankəndi şəhərində fəaliyyət göstərən elmi idarələr – Xankəndi Zona Təcrübə Stansiyası, Qarabağ Elmi Təcrübə bazası, AMEA-nın Dağlıq Qarabağ filialı, Azərbaycan Kənd Təsərrüfatı Texnikası Birliyinin Dağlıq Qarabağ filialı, Xankəndi Aqrar Sənaye Birliyi və başqa idarələr bölgədə xalq təsərrüfatı sahəsində yüksək məhsuldarlıq əldə etmək üçün yeni ixtiralar edir, səmərələşdirici təkliflər irəli sürürdülər [25, i.2, v.6].

Beləliklə, 1970-1985-ci illərdə Azərbaycanın Xankəndi şəhərində mədəniyyətin inkişafında mühüm dövr oldu. Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Xankəndi şəhərində təhsil, elm, mətbuat, ədəbiyyat və incəsənətin tərəqqisi üçün münasib imkanlar

açıldı. Şəhərin mənəvi sərvəti, kadr potensiyalı daha da artdı. Dövlətimizin dərin qayğısı nəticəsində Xankəndi şəhərində mədəniyyət dinamik inkişaf etdi. Artıq, XX əsrin 80-ci illərinin ortalarında Xankəndi şəhəri Azərbaycanın inkişaf etmiş mədəniyyətə malik şəhərlərindən birinə çevrilmişdi.

***Nəticə.*** Bu gün Dövlət başçımızla şanlı ordumuzun, xalqımızın sarsılmaz iradəsi, birliyi və qardaş Türkiyənin böyük mənəvi dəstəyi ilə 44 günlük Vətən müharibəsi Azərbaycanın böyük qələbəsi ilə sona çatmış, işğal altında olan bütün torpaqlarımız erməni terrorçulardan təmizlənmiş, Ermənistan dövləti kapitulyasiya aktını imzalamağa məcbur olmuşdur. Biz inanırıq ki, qeyri-qanuni erməni silahlı birləşmələri tezliklə cəmləşdikləri bütün əraziləri, o cümlədən Xankəndi şəhərini tərk edəcək və xalqımız Ali Baş Komandanın ətrafında sıx birləşəcək, köçkünlərimiz öz doğma yurdlarına qayıdacaqdır!

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Dövlət Arxivi. F. 89, s.1.
2. ARDA, f.411, s.7.
3. ARDA, f.27, s.1.
4. ARDSPİHA, f.1, s.200, 74, 331, 55, 169, 7, 85, 206, 233.
5. Azərbaycan Respublikası Dövlət Arxivi. F.17, s.1, i.701, v.29.
6. ARDA, f.2502, s.1, i. 55, v.2.
7. ARDA, f.456, s.16, i. 129, v.32.
8. ARDA, f.27, s.1, i. 649, v.190.
9. ARDA, f.24, s.1, i. 137, v.18.
10. ARDA, f.410, s.1, i. 11, v.45.
11. ARDA, f.411, s.7.
12. ARDA, f.271, s.1.
13. ARDA, f.13, s.4, i. 20, v.2.
14. Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi. F.461, s.1, i.4582, v.4.
15. ARDSPİHA, f.410, s.1, i.70, v.96.
16. ARDSPİHA, f.89, s.1.
17. ARDSPİHA, f.27, s.2, i.54, v.43.
18. ARDSPİHA, f.420, s.1, i.43, v.42.
19. ARDSPİHA, f.1, s.2, i.105, v.24.
20.ARDA, f. 895, s.1, i.34, v.7.
21. ARDA, f. 379, s.3.
22. ARDA, f. 410, s.1.
23. ARDA, f. 411, s.7.
24. ARDA, f. 17, s.1.
25. ARDA, f. 271, s.1.
26. ARDA, f. 1114, s.9.
27. ARDA, f. 13, s.4, i.20, v.2.
28. ARDA, f. 894, s.4, i.65, v.131.
29. Aslanova G.M. Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafında dövlət siyasəti. T.ü.f.d.-nun Avtoreferatı. Bakı, "AMEA", 2018, 26 s.
30. Hüseynova L.Ə. Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri. Bakı, "Təhsil", 2011, 216 s.
31. Məmmədov N. Azərbaycanın Xankəndi şəhərinin tarixi. Bakı, "Avropa", 1995.
32. Mahmudov Y., Şükürov K. Qarabağ tarixi. "Qarabağ suallar və faktlar". Bakı, "Təhsil", 2001, s.39.
33. Mahmudov Y., Şükürov K. Qarabağ: Real tarix, faktlar, sənədlər. Bakı, "Təhsil", 2005, 380 s.
34. Qasımov Ə.Q. Heydər Əliyevin tərəqqi strategiyası və Naxçıvan Muxtar Respublikası (XX əsrin 70-80-ci illəri). Bakı, "Təhsil", 2009.
35. DQMV-nin İpək Kombinatının illik hesabatı. Bakı, "Elm", 1987, 260 s.
36. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I-IV cildlər. Bakı, "Azərnəşr", 1997-1998. 504 s.
37. Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin astanasında. Bakı, "YNE", 2001.
38. Əliyev M.T. Azərbaycan iqtisadiyyatı. Bakı, "Turxan" NPB, 2016. -536 s.

39. Народное хозяйство Азерб. ССР в 1988 году. Баку: Азерб. Гос. Изд-во, 1989, с. 376.
40. Народное хозяйство Азербайджанской ССР к 70 летю Великого Октября. Баку, «Азернешр», 1987, с. 272.
41. Səmədzadə Z. Dağlıq Qarabağ. Naməlum həqiqətlər. Bakı, "Vətən", 1995.

**НАЗИМ МАММАДОВ**
*Институт Истории им. А.А.Бакиханова НАНА*

## ГЕЙДАР АЛИЕВ И СТРАТЕГИЯ РАЗВИТИЯ ГОРОД ХАНКЕНДИ

В 1970-1985 годах, промышленность города Ханкенди Азербайджана в результате личной инициативы, мышления, настойчивой деятельности и глубокой заботы Гейдара Алиева, развивалась превосходно, быстро и динамично. В то же время произошли важные изменения и в социально-экономической жизни, быту и благосостоянии населения города Ханкенди, повысился уровень доходов, покупательная способность, улучшилось состояние торговли, общественного питания медицины, коммуникации, бытовых услуг, снабжение водой, газом и канализацией. Эти годы стали важными в развитии культуры города Ханкенди. В результате дальновидной политики главы Азербайджанского государства Гейдара Алиева в городе Ханкенди были созданы подходящие возможности для развития образования, науки, печати, литературы и искусства. Еще более возросли духовное богатство и кадровый потенциал города. В результате глубокой заботы нашего государства и культура в городе Ханкенди развивалась динамично. Уже в середине 80-х годов XX века город Ханкенди превратился в один из культурно развитых городов Азербайджана.

*Ключевые слова:* Общенационального лидер Гейдар Алиев, Азербайджан, развитие, Ханкенди, город, культура, экономическое, стратегия.

**NAZIM MAMMADOV**
*A.A.Bakikhanov Institute of History, ANAS*

## HEYDAR ALIYEV AND STRATEGY DEVELOPMENT CITY KHANKENDI

In the years of 1970-1985, due to Heydar Aliyev's personal initiative, intellect, persistent activity and deep concern, the industry of the city Khankendi of Azerbaijan developed quickly and dynamically. At the same time, important changes took place in the socio-economic and private life, and well-being of the population in Khankendi city, the level of income, purchasing power, trade, public catering, medicine, communication, and community services had increased, water, gas and sewage systems of residential areas with improved supply had increased. Those years became an important period in the development of culture in the city of Khankendi. Owing to the farsighted policy of the head of the state of Azerbaijan, Heydar Aliyev, favorable opportunities for the progress of education, science, press, literature and art were opened in the city of Khankendi. The spiritual wealth, the personnel potential of the city increased even more. Thanks to the deep care of our state, culture was developing dynamically in the city of Khankendi. In mid of the 80s of the 20th century, the city of Khankendi had already become one of the cities with a developed culture in Azerbaijan.

*Keywords*: National leader Heydar Aliyev, Azerbaijan, development, Khankendi, city, culture, economical strategy.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*




UOT 94(479.24)

**KÖNÜL ƏLİYEVA**
*AMEA Tarix İnstitutunun dissertantı*
**konulqabilqizi@mail.ru**

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN XALQININ SOYQIRIMI PROBLEMİ

*Təqdim edilən məqalədə Cənubi Qafqazın müxtəlif bölgələrində azərbaycanlı və digər müsəlman əhalinin 1905-1906, 1917-1918-ci illərdə erməni silahlı dəstələrinin qətl və qarətlərinə, 1918-ci ilin yazından 1920-ci ilin sonuna kimi isə Ermənistan Respublikasının dövlət səviyyəsində həyata keçirdiyi etnik təmizləmə siyasətinə məruz qalmasından, eləcə də 1918-ci il Mart qırğınlarına ümummilli lider Heydər Əliyev tərəfindən verilmiş hüquqi-siyasi qiymətdən bəhs olunur. Bu məlumatların dünya ictimaiyyətinə doğru-düzgün çatdırılması soyqırımı qurbanı olmuş minlərlə insanın xatirəsinə ehtiram olmaqla yanaşı, özlərini zavallı, məzlum, soyqırımı qurbanı kimi qələmə verən erməni xalqının nümayəndələrinin əslində ən dəhşətli soyqırımlarını gerçəkləşdirmiş əliqanlı cəlladlar olduğunu ictimailəşdirmək baxımından böyük əhəmiyyətə malikdir.*

*Açar sözlər*: azərbaycanlı əhali, erməni silahlı dəstələri, soyqırımı, Heydər Əliyev.

***Giriş***. Azərbaycan tarixinin çox ağır, faciəli səhifələrindən biri XX əsrin ilk onilliklərində törədilmiş soyqırımı hadisələridir. Cənubi Qafqazın müxtəlif bölgələrində azərbaycanlı və digər müsəlman əhali 1905-1906, 1917-1918-ci ilin ilk aylarında erməni silahlı dəstələrinin qətl və qarətlərinə, 1918-ci ilin yazından 1920-ci ilin sonuna kimi isə Ermənistan Respublikasının dövlət səviyyəsində həyata keçirdiyi etnik təmizləmə siyasətinə məruz qalmışdır. Təkcə 1918-ci ilin mart-aprel aylarında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Zəngəzur, Qarabağ, Naxçıvan, İrəvanda və digər bölgələrdə bolşevik-daşnak silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdiyi dəhşətli qırğınlar nəticəsində təkcə Bakı şəhərində 12 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, bütövlükdə Cənubi Qafqazda 50 min nəfərdən çox türk-müsəlman əhali məhv edilmiş, on minlərlə insan itkin düşmüşdür. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən azərbaycanlı əhaliyə qarşı baş vermiş bu qanlı faciənin ildönümü 1919-cu və 1920-ci illərdə mart ayının 31-də ümummilli matəm günü kimi qeyd edilsə də, Sovet işğalından sonrakı 70 il ərzində bu dəhşətli tarixi unutdurmağa və xalqın hafizəsindən silməyə çalışılmışdır.

1918-ci il Mart hadisələrinə hüquqi-siyasi qiymət Azərbaycan müstəqiliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyev tərəfindən verilmişdir [1]. Ulu öndərin “Azərbaycanlıların soyqırımı haqqında” 1998-ci il martın 26-da imzaladığı fərmandan sonra hər il 31 mart azərbaycanlıların soyqırımı günü kimi dövlət səviyyəsində qeyd olunmağa başlanmışdır. Fərmanda qeyd edilmişdir ki, XIX-XX əsrlərdə Azərbaycanda baş verən bütün faciələr torpaqlarının zəbti ilə müşayiət olunaraq, erməni silahlı dəstələrinin azərbaycanlı əhaliyə qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir: “Azərbaycan Xalq Cumhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir” [1].

Bu fərman Azərbaycan xalqının soyqırımının dərindən araşdırılması, ardıcıl və sistemli şəkildə tədqiqatlar aparılması istiqamətində səyləri artırmağa hesablanmışdır. Ulu öndər 1999-cu ildə yenidən bu məsələyə diqqət ayırmış, həmin il martın 30-da "31 mart – azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciət" ünvanlamışdır. Müraciətdə xüsusi vurğulanmışdır ki, qarşımızda duran əsas vəzifələrdən biri son əsrdə xalqımıza qarşı həyata keçirilən soyqırımı haqqında indiki və gələcək nəsillərdə milli yaddaş formalaşdırmaq, bu faciələrə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə nail olmaq, onun ağır nəticələrinin aradan qaldırılmasna və bir daha belə halların təkrar olunmamasına çalışmaqdır [2, s.387].

Bundan sonra tariximizin həmin faciəli hadisələrinin öyrənilməsi sahəsində mühüm işlər görülmüş, çoxlu sayda əsərlər yazılmış, xarici dillərə tərcümə edilmişdir. Son illər bu istiqamətdə aparılmış araşdırmalar sayəsində xeyli yeni faktlar, sənədlər üzə çıxarılmış, bir sıra dəyərli faktlar elmi dövriyyəyə gətirilmişdir.

Bu sətirlərin müəllifi tərəfindən də XX əsrin ilk onilliklərində İrəvan quberniyasının İqdır (Sürməli) bölgəsində yerli azərbaycanlı əhaliyə qarşı qətliamlar araşdırılmışdır. Azərbaycanın qərb bölgəsinə – İrəvan xanlığı ərazisinə ermənilər Rusiya işğalından sonra Qacarlar dövlətindən və Osmanlı imperiyasından köçürülüb yerləşdirilmişdir. Çar məmurlarının himayəsi ilə gəlmə erməni ailələri ən yaxşı məhsuldar torpaqlarda məskunlaşdırıldı, imtiyazlı mövqe tutdu. Yerli müsəlman əhali isə minillər boyu yaşadıqları ata-baba torpaqlarında təqib olunmağa, mülklərini itirməyə,bir çox halda isə dözülməz yaşayış şəraitindən bezərək qonşu ölkələrə köçməyə məcbur qaldı. Hakimiyyət nümayəndələrinin onillər boyu yeritdiyi bu siyasət qatı millətçi qüvvələrin özgə torpaqlarına yiyələnərək, "dənizdən-dənizə böyük Ermənistan" yaratmaq niyyətlərini gerçəkləşdirməyə münbit şərait yaratdı.

Ermənilərin ilk böyük siyasi təşkilatları – Qınçak və Daşnaksutyun partiyaları yarandığı vaxtdan terrorizmi özlərinin əsas mübarizə vasitələrindən biri elan etmişdilər. Erməni kilsəsi də bu işdə çox fəal olmuş, kilsə vəsaitini silah-sursat, partlayıcı maddələr alınmasına xərcləmiş, kilsə başçıları təhrikçi moizələri ilə qatı millətçiliyi, qonşu xalqlara nifrət etməyi, onlarla düşmən kimi davranmağı təbliğ etmişdilər. XX əsrin başlanğıcında Azərbaycanın əksər bölgələrində Daşnaksutyun partiyasının və erməni qriqorian kilsəsinin yaratdıqları və maliyyələşdirdikləri erməni terrorçu dəstələrinin dinc azərbaycanlı əhaliyə qarşı qəddarlıqları, qadın və qızlara, qocalara, körpə uşaqlara vəhşicəsinə divan tutmaları, müsəlmanların evlərini, əmlakını qarət etmələri, sonra da dağıdıb xarabaya çevirmələri bir qayda olaraq cəzasız qaldı. Azərbaycanın qeyrətli ziyalılarının və ağsaqqallarının başçılıq etdikləri özünümüdafiə qurumları və silahlı dəstələri bu erməni qəddarlıqlarının daha vahiməli miqyas almasına qismən mane ola bildi. 1917-1918-ci illərdə regionda mərkəzi hakimiyyət qurumlarının təsirinin zəifləməsi, cəzasızlıq ab-havası yaradılması, xüsusən Bakıda daşnak-bolşevik işbirliyi erməni vəhşiliklərinin miqyasını dəfələrlə genişləndirməyə imkan verdi.

Həmin ağır dövrdə Bakı şəhərində, eləcə də Bakı quberniyasının digər şəhər və qəzalarında on minlərlə azərbaycanlı türk, müsəlman olduğuna görə xüsusi amansızlıqla məhv edilmiş, yaşayış məntəqələri yandırılmış, mədəniyyət abidələri, məscid və ziyarətgahlar xarabalığa çevrilmişdi. Sonrakı aylarda daha da quduzlaşan erməni silahlı dəstələri qeyri-insani əməllərini davam etdirmiş, Qarabağ, Zəngəzur, Naxçıvan, İrəvan və digər regionlarda, xüsusən də Sürməli (İqdır) bölgəsində kütləvi qətl və qarətlər, yağmalamalar və etnik zəmində cinayətlər törətmişdilər. Bununla da gəlmə ermənilər minillərboyu Azərbaycan türklərinin yurd-yuvası olan və davamlı olaraq yaşadıqları bu torpaqlarda möhkəmlənməyə çalışmışdılar.

Bütövlükdə, erməni silahlı dəstələrinin kütləvi qətliamları və Ermənistan Respublikası hökumətinin etnik təmizləmə siyasəti nəticəsində XX əsrin ilk 20 ilində İqdırda və Sürməli qəzasının digər yaşayış məntəqələrində yaşayan 80 minə qədər yerli azərbaycanlı və digər müsəlman əhali qətlə yetirilmiş, ev-eşikləri yağmalanmış və dağıdılmış, ya da erməni qaçqınları tərəfindən zəbt olunmuşdu.

1918-1920-ci illərdə Ermənistan Respublikasının qatı millətçi, qonşularına qarşı davakar siyasəti sadə erməni xalqı üçün də fəlakətlər gətirmişdi. Daşnaksutyun partiyası liderlərinin 30 aylıq hakimiyyəti dövründə erməni əhalisinin yarısı məhv olmuş [4, s.23 ], yarısı da aclıq və xəstəliklə üzüzə qalmışdı. Yerli azərbaycanlı əhalinin kütləvi məhv edilməsi və qovulması Ermənistanda tarixən əkinçilik və maldarlıqla məşğul olan əhalinin sayının kəskin şəkildə azalmasına gətirib çıxarmışdı.

Bu da öz növbəsində əkin sahələrinin becərilməsi, mal-heyvan saxlanması üçün işçi qüvvəsinin çatışmamasına, Ermənistanda ərzaq istehsalının əsaslı şəkildə azalmasına, kütləvi aclığa səbəb olmuşdu.

Bütün bu məsələlərin dərindən və hərtərəfli tədqiq edilməsi həm də ona görə mühüm əhəmiyyət kəsb edir ki, müasir dövrdə erməni təbliğatçıları və ona dəstək olan Qərbdəki havadarları ermənilərin qonşu xalqlara, dinc insanlara, xüsusən də qadın, uşaq və qocalara qarşı kütləvi soyqırımı aktlarını, "1915-ci il hadisələri"ni özlərinə sərfəli şəkildə təhrif etməklə çatdırır, öz qəddarlıqlarına haqq qazandırmağa çalışır, 1920-ci illərdə AXC və Türkiyə ictimai-siyasi xadimlərinə qarşı qətl hadisələrini "erməni fədailərinin qisas aktları" kimi təqdim edirlər.

Erməni kilsəsi və siyasi təşkilatları tərəfindən təşkil edilən və erməni silahlı dəstələri tərəfindən Şərqi Anadoluda və Azərbaycanda həyata keçirilən kütləvi qətliamların dərindən araşdırılması həm də ona görə böyük elmi əhəmiyyətə malikdir ki, hazırda dünyanın 47 ölkəsinə dağılmış 6,5 milyonluq erməni diasporunun fəal çalışması nəticəsində "Erməni soyqırımı" iddiası Qərb ölkələrində bütövlükdə anlayışla qarşılanmaqdadır. 20-dən çox ölkənin parlamenti, yerli nümayəndəli orqanları və digər qurumları uydurma "Erməni soyqırımı"nı qəbul etmişdir [3]. Siyasi mülahizələrə görə qəbul edilən bu qərarların qarşısını almaq, dünya birliyinə, beynəlxalq ictimaiyyətə əsl həqiqətləri çatdırmaq üçün ermənilər tərəfindən həyata keçirilmiş bütün soyqırımı faktlarının toplanması və tədqiq edilməsi olduqca vacibdir.

1905-1906-cı illərdə və 1918-1920-ci illərdə Azərbaycanda və Şərqi Anadoluda türk-müsəlman yaşayış məntəqələrinin qarət edilməsinə, dinc əhaliyə qarşı kütləvi qətliamlara başçılıq etmiş Dastamant Kananyan (Dro), Qaregin Njde, Andranik Ozanyan, Arşak Qafavyan (Keri), Arutyun Şaqikyan (Nitra, Atom), Ovsep Arqutyan, Qaregin Pastermacan (Armen Qaro), Murad Sebastatsi, Hamazasp Srvantsyan erməni xalqının qəhrəmanları, milli-azadlıq mücadiləsinin liderləri kimi təbliğ edilir [5, 6, 7]. Lakin bütün ilkin qaynaqlar, o cümlədən erməni tədqiqatçılarının istinad etdikləri qaynaqlar bu "xalq intiqamçıları"nın dinc insanlara, qoca, qadın və uşaqlara qarşı xüsusi amansızlıqla davranmaları, qarətçiliklə məşğul olmaları haqqında faktlarla doludur. Erməni müəllifləri üçün xarakterik cəhət Daşnaksutyun partiyasını və erməni terrorçularını tərifləmək, dinc insanların qətl edilməsini qəhrəmanlıq kimi təqdim etməkdir. Bu cür yanaşmaya nümunə kimi Edvard Ohanesyanın 1991-ci ildə Moskvada və Münhendə çap etdirdiyi ikicildlik əsərini [8, s216] göstərmək olar. Bu əsərdə erməni insan cəlladlarının qanlı əməllərindən, terrorçuluq aktlarından sevgi ilə bəhs edilmiş, terror qurbanları isə son dərəcə mənfi obrazda, öldürülməyə layiq olanlar kimi təqdim edilmişdir.

***Nəticə***. Yekunda qeyd etmək istəyirik ki, bu məlumatların dünya ictimaiyyətinə doğru-düzgün çatdırılması ilk növbədə soyqırımı qurbanı olmuş minlərlə insanın xatirəsinə ehtiramdır. Bu faktların ictimailəşdirilməsi həm də ona görə böyük əhəmiyyətə malikdir ki, özlərini zavallı, məzlum, soyqırımı qurbanı kimi qələmə verən erməni xalqının nümayəndələri əslində ən dəhşətli soyqırımlarını gerçəkləşdirmiş əliqanlı cəlladlardır.

ƏDƏBİYYAT

1. Əliyev H.Ə. "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 26 mart 1998-ci il. - https:// az.wikisource.org/wiki/ [21.04.2023].
2. Əliyev H.Ə."31 mart – azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciət". 30 mart 1999-cu il / Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 19-cu kitab. Bakı: Azərnəşr, 2006, s.385-387.
3. Gökhan, Sarı. 1915 tehcirinden 1992 Hocalı'ya soykırım iddiaları cerçevesinde ermeni sorunu // Güvenlik Bilimleri Dergisi, – Kasım 2015, № 4(2). – s.91-121
4. Ziya Zakir Acar. Görenlerin gözüyle Iğdırda ermeni katliamı. Ankara: İlkay Ofset, 2012, 23 s.
5. Мелик-Шахназарян, Л. Военные преступления Азербайджана против мирного населения Нагорно-Карабахской Республики / Л.Мелик-Шахназарян. – Ереван: Наири – 1997. – 296 с.
6. Мелик-Шахназарян, Л. Ходжалинское дело: Особая папка / Л.Мелик-Шахназарян, Г.Демоян – Ереван: изд-во Кавказского центра Иранистики – 2002. – 248 с.
7. Погромы армян в Бакинской и Елизаветпольской губернии / Сборник документов и материалов / Составители: С.Мирзоян и А.Газиян – Ереван: изд-во Кавказского центра Иранистики – 2003. – 525 с.

8. Оганесян, Э. Век борьбы: очерк 100-летней истории дашнакской партии и национально-освободительной борьбы армянского народа / – Москва-Мюнхен: изд. «Феникс», – 1991, 216 с.

**КОНУЛ АЛИЕВА**
*Диссертант Института Истории НАНА*

## ВЕЛИКИЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ И ПРОБЛЕМА ГЕНОЦИДА АЗЕРБАЙДЖАНСКОГО НАРОДА

В представленной статье рассматриваются убийства и грабежи азербайджанского и другого мусульманского населения в различных районах Южного Кавказа армянскими вооруженными формированиями в 1905-1906, 1917-1918 гг., этнические насилия, осуществленные Республикой Армения в государственном уровне с весны 1918 года до конца 1920 года с учетом политики чисток, а также правовой и политической оценки, данной общенациональным лидером Гейдаром Алиевым мартовским погромам 1918 года. Помимо чествования памяти тысяч людей, ставших жертвами геноцида, правильное донесение этой информации до мировой общественности имеет большое значение с точки зрения пропаганды того, что представители армянского народа, назвавшие себя притесняемыми, угнетенные, жертвы геноцида на самом деле являются умелыми палачами, осуществившими самые страшные геноциды.

*Ключевые слова*: азербайджанское население, армянские вооруженные формирования, геноцид, Гейдар Алиев.

**KONUL ALIYEVA**
*Dissertation student of ANAS Institute of History*

## THE GREAT LEADER HEYDAR ALIYEV AND THE PROBLEM OF THE GENOCIDE OF THE AZERBAIJAN PEOPLE

In the presented article, the murders and robberies of the Azerbaijani and other Muslim population in various regions of the South Caucasus by Armenian armed groups in 1905-1906, 1917-1918, and the ethnic violence carried out by the Republic of Armenia at the state level from the spring of 1918 to the end of 1920 subject to the purge policy, as well as the legal and political evaluation given by national leader Heydar Aliyev to the March massacres of 1918. In addition to honoring the memory of thousands of people who were victims of the genocide, the correct delivery of this information to the world community is great importance from the point of view of publicizing that the representatives of the Armenian people who described themselves as miserable, oppressed, victims of the genocide are in fact handy executioners who carried out the most terrible genocides.

*Keywords:* Azerbaijani population, Armenian armed groups, genocide, Heydar Aliyev.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 21 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*




**UOT 94(479.24)**

**HİKMƏT ƏHMƏDOV**
*t.ü.f.d., Bakı Dövlət Universiteti Tarix fakültəsi*
**hikmetahmedov00@mail.ru**

# HEYDƏR ƏLİYEVİN DÖVLƏT QURUCULUĞU SİYASƏTİNİN MÜHÜM TARİXİ ASPEKTLƏRİ

*Ümummilli Lider Heydər Əliyavin Azərbaycanın milli dövlətçiliyin inkişafına verdiyi tövhələr misilsizdir və onun irsi bu gündə möhkəm və etibarrlı bünövrə kimi özünü sübut edir. Azərbaycanda hüquqi dövlət quruculuğu Heydər Əliyevin adı ilə bağlıdır, müasir idarəçilik sisteminin qurulması və inkişaf etdirilməsi və onun dövlət quruculuğu konsepsiyasında xüsusi və əsas yer tuturdu. Zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev dövlətçilik konsepsiyasında özündə bəyan etdiyi kimi Azərbaycan Respublikasında demokratik hüquqi dövlət qurulması əsas məqsəd kimi hesab edirdi.*

*Açar sözlər*: Heydər Əliyev, dövlətçilik, hakimiyyət, millətçilik, müstəqillik, geosiyasət.

***Giriş***. Yaşadığımız dövrün yəni müasir Azərbaycan dövlətinin banisi, ölkəmizin dinamik inkişaf strategiyasının müəllifi siyasi xadim, tarixi uzaqgörənliyi, möhkəm dönməz əqidəsi qətiyyətli və əzmkarlığı ilə dövlətçiiiyimizin möhkəmlənməsi müstəqilliyimizin daimi olmasına verdiyi tövhələrə görə Azərbaycan xalqının Ümumilli Lideri adını qazanmış Ulu Öndər Heydər Əliyev dövlətşilik tariximizdə müstəsna yerə malikdir. Bu dahi şəxsiyyətin fəaliyyəti nəticəsində Azərbaycan dövləti özünün geosiyasi mövqeyini möhkəmləndirərək iqtisadi yüksəliş yoluna qədəm qoymuşdur. Şərqlə-Qərb arasında etibarlı körpü rolunda iştirak edərək müasir dünyanın ən dinamik və davamlı inkişaf edən ölkələrdən birinə çevrilmişdir.

İstər dövlət quruculuğu, istər milli siyasətimiz, istərsə də iqtisadiyyatın bütün sahələrində Heydər Əliyevin zəngin siyasi və ictimai irsinin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin dərindən öyrənməsi və geniş təbliği, dölətimizin ideoloji sahədə əldə etdiyi uğurları şərtləndirən bağlıca amildir. Azərbaycanda demokratik hüquqi və dünyəvi dövlət quruculuğu milli dövlətçilik ideyasının bərqərar olması, xalqımızın dini və milli mənəvi dəyərlərinə qayıdışı, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması, elm təhsil və mədəniyyətin inkişafı məhz bu görkəmli şəxsiyyətin adı ilə bağlıdır.

Ümummilli lider Heydər Əliyevin ürəyi daima doğma yurdu, torpağı, xalq ilə döyünən, uzaqgörən siyasəti nəticəsində xalqımız müstəqilliyə azadlığa nail oldu. Mötəbər dövlətlərin başçıları və nüfuzlu xarici şirkətlərin nümayəndələri ilə görüşləri məhz bunun nəticəsidir. Heydər Əliyevin bacarıqlı dövlət başçısı, təcrübəli siyasətçi, Azərbaycan Respublikasının dövlətçiliyini möhkəmləndirən və inkişaf etdirən qüdrətli şəxsiyyət kimi həyatı və fəaliyyəti Azərbaycan tarixində mühüm mərhələ təşkil edir.

***Heydər Əliyevin siyasi fəaliyyətinin birinci dövrü (1969-1982)***. Heydər Əliyevin fəaliyyəti bir-birinə zidd olan iki müxtəlif ictimai-siyasi sistemdən keçmiş və bunların hər ikisindən o, bacarıqla istifadə edib Azərbaycanın tərəqqisini təmin etmişdi.

1969-cu il iyulun 14-də Azərbaycanda siyasi rəhbərliyə gələn Heydər Əliyev keçmiş İttifaqın iqtisadiyyatı üçün xammal mənbəyinə çevrilmiş respublikanın yeni inkişaf strategiyasını hazırlayıb qısa müddətdə həyata keçirdi. Bunun nəticəsində əvvəllər bütün əsas göstəricilər üzrə ölkə miqyasın-

dan geri qalan Azərbaycan tezliklə İttifaqın ən inkişaf etmiş respublikalarından birinə çevrildi. 1969-1982-ci illər ərzində respublikada milli gəlirin ümumi həcmi 2,5 dəfə, sənaye istehsalı, həmçinin əmək məhsuldarlığı 2 dəfə, kənd təsərrüfatında istehsal olunan məhsulun ümumi həcmi 2,7 dəfə, xalq istehlakı mallarının istehsalı isə 3 dəfə artmışdı. Azərbaycanın iqtisadiyyatinda köklü struktur və keyfiyyət dəyişiklikləri baş vermişdi. Təhsil, elm və mədəniyyət sahələrində böyük uğurlar qazanılmışdı.

Heydər Əliyevin siyasəti nəticəsində 14 il ərzində respublikada yaranmış güclü sosial, iqtisadi və intelektual potensial Azərbaycanın müstəqilliyi üçün mühüm zəmin yaratmışdır. Müasir Azərbaycan dövlətinin inkişafı məhz həmin illərdə yaradılmış bünövrə üzərində qurulub və bu gün də uğurla davam edir.

Azərbaycan xalqını düşündürən ən ciddi problemlərdən biri də, mədəni, tarixi nümunələri məhv olmaqdan qorumaq, inkişaf etdirmək və zənginləşdirməkdən ibarət idi. Həm çarizm dövründə, həm də 20-40-cı illərdə Azərbaycan xalqının çoxlu mədəni, tarixi sərvətləri düşünülmüş şəkildə amansızlıqla məhv edilmişdi. Mədəni inqilab illərində bir sıra qədim tarixi abidələr, gözəl memarlıq inciləri dağıdılmışdı. Ümumi sovet mədəniyyəti, sovet xalqı və sovet tarixi yaradan maşın süətlə və amansız işləyirdi. Xalqı bu problemlərini həll etməyə qadir olan rəhbərə ehtiyac duyurdu. Bu da görkəmli dövlət xadimi Heydər Əliyev idi [1, s.51].

20-30-cu illərdə sovet orqanları tərəfindən milli ruhlu şair, yazıçı və incəsənət adamları həbsxanalara atılır, sürgün edilir və qəddarlıqla məhv edilirdilər. Azərbaycan xalqının zəngin tarixi keçmişini və mədəniyyətini özündə əks etdirən qədim əlyazmalar yandırılır, baxımsızlıq ucbatından məhv olurdu.

Heydər Əliyev əslində daxili aləmi düşüncələrinə görə praqmatik əməliyyatçi, strateji düşünən, lokanik danışan və işləyən millətsevər bir şəxsiyyət idi. Mövcud sovet rejimi şəraitində tam səlahiyyət sahibi olmayanadək və hətta səlahiyyət sahibi olanda belə, millətsevərlik baxışlarını biruzə vermək faciə ilə nəticələnə bilərdi. Əslində Heydər Əliyev reallığa əsaslanaraq hərəkət edən bir şəxs idi.

Beləliklə, Heydər Əliyev hakimiyyətə gələrkən Azərbaycan xalqının qarşısında duran başlıca problemləri siyasi hakimiyyət daxilində yekdilliyin olmaması, xalqla hakimiyyət arasında uçurumun dərin olması, ziyalıların siyasi hakimiyyətlə əməkdaşlıqdan kənarda qalması, milli ziyalılara öğey münasibətin mövcudluğu, milli ədəbiyyatın, milli-mənəvi dəyərlərin, mədəniyyətin sıxışdırılması, məhv edilməsi, tarixi abidələrə yad münasibət bəslənməsi, ana dilinin təsir dairəsinin məhdudlaşdırılması, milli hərbçi kadrların hazırlanmaması, xaricdə yaşayan həmvətənlərlə əlaqələrin qurulmaması, Azərbaycan xalqının ölkədə və dünyada kifayət qədər tanınmaması, xalqın düşmənlərinin bədxah niyyətlərinin qarşısının lazımınca kəsilməməsi, Cənubi Azərbaycan məsələsi, türk dünyası və Türkiyə ilə qırılmış əlaqələrin bərpa edilməməsi idi.

***Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü (1991-1993).*** Muxtar respublikada yaranmış ağır sosial-iqtisadi vəziyyəti qismən də olsa aradan qaldırmaq üçün yollar axtaran Heydər Əliyev birinci növbədə icraedici orqanların, yerli hakimiyyət strukturlarının fəailiyyətinin təkmilləşdirilməsi, onların nəzarətini artırılması, mövcud imkanlardan maksimum istifadə edilməsi üçün adekvat addımlar atmağa başladı. Muxtar respublikada Nazirlər Kabinetinə, nazirliklərə, idarələrə səriştəli və təcrübəli kadrlar irəli çəkildi. Muxtar respublikada bazar mexanizmlərinin və elementlərinin geniş tətbiqi məqsədi ilə müvafiq qanunvericilik aktları qəbul edildi.

Bununla yanaşı Heydər Əliyev iqtisadi münasıbətlərin tənzimlənməsi mexanizmini tətbiq etməklə əhalinin həyat səviyyəsinin kəskin surətdə aşağı düşməsinin qarşısını ala bildi. Əhalinin ən zəruri ehtiyaclarını ödəmək üçün çörək və çörək məhsullarının qiymətləri sabit saxlanılmışdı. Qıtlığa yol verməmək üçün bir sıra ərzaq mallarının satışına norma müəyyənləşdirilmişdi. Blokadanın yaratdığı mürəkkəb problemləri aradan qaldırmaq, muxtar respublikanın həyatı tələbatlarını ödəmək, nəqliyyat və komunikasiya əlaqələrini bərpa etmək üçün Heydər Əliyev qonşu Türkiyə və İran dövlətləri ilə münasıbətlərinin təşəkkül tapmasına və inkişafına çalışırdı. Heydər Əliyevin iştirakı ilə Naxçıvanla Türkiyə arasında körpünün açılması muxtar respublikanın dost ölkə ilə əlaqələrinin inkişafında mühüm mərhələ oldu Muxtar respublikanın müxtəlif sahələrində tələbatını ödəmək məqsədi ilə Türkiyə hökuməti Naxçıvana 100 min dollar məbləğində kredit ayırmağı öhdəsinə götürmüşdü. Əslində Türkiyə tərəfi yaxşı başa bilirdi ki, düşdüyü ağır iqtisadi və maliyyə vəziyyəti Naxçıvana bu kreditin ödənilməsində ciddi çətinliklər yaradacaqdır. Bir çox məsələlərdə tarixən öz qardaşlıq köme-

yini əsirgəməyən Türkiyənin bu dəfə ki, qardaş köməyi qarşısında, həm də "Bir millət, iki dövlət" arasında çox böyük nufuza malik Heydər Əliyev şəxsiyyəti dayanmışdı: "60 il əvvəl Mustafa Kamal Atatürk bu günü görüb, bu vəsiyyəti etmişdi. İndi bu vaxt yetişmişdir. Türkiyəyə dost və qardaş, ölkələr, millətlər öz müstəqilliklərinə nail olmuşlar. Türkiyənin ən yaxın dostu və qardaşı olan Azərbaycan da müstəqilliyə nail olmuşdur. Azərbaycan bundan sonra Türkiyə ilə dostluq və qardaşlıq münasibətlərinə daha böyük ehtiyac duyur" [5, s.418].

Heydər Əliyevin bu səfəri zamanı dövlət başçıları və hökumət nümayəndələrinin imzaladıqları 16 sənəd arasında yüksək siyasi əhəmiyyət daşıyan dostluq və əməkdaşlıq, siyasi məsləhətləşmələr haqqında müqavilələrlə yanaşı, iki dövlət arasında iqtisadi münasibətləri tənzimləyəcək bir sıra digər sənədlər də var idi. Bu sənədlər Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrində, xüsusilə Türkiyənin Azərbaycandakı enerji layihələrində yaxından iştirak etməsinə, "Əsrin müqaviləsi"nə qoşulmasına yol açdı. Ancaq bu Heydər Əliyevin hələ Türkiyəyə ilk səfəri idi. Bundan sonra Heydər Əliyevin Türkiyəyə rəsmi və işgüzar səfərləri daha müntəzəm xarakter aldı.

Sadalanan tədbirlərlə yanaşı görkəmli dövlət xadimi Heydər Əliyev Birləşmiş Millətlər Təşkilatı, Avropa Birliyi, NATO, ATƏM v. s. beynəlxalq qurumların diqqətini Naxçıvanda yaranmış vəziyyətə cəlb etməyə nail olmuşdu.

Beləliklə, Heydər Əliyevin çoxşahəli fəailiyyəti nəticəsində Naxçıvanda sosial-iqtisadi, siyasi, milli-mənəvi sahələrdə mütərəqqi nəticələr əldə edildi. Muxtar respublikanın əhalisini ağır böhrandan, aclıq və səfalətidən mühafizə etmək üçün radikal addımlar atıldı, qonşu Türkiyə və İranla iqtisadi əlaqələr yaradıldı. İqtisadi islahatların, birinci növbədə aqrar islahatların keçirilməsi, bütün daxili potensialın səfərbər edilməsi sayəsində əhalinin sosial vəziyyətini qismən yaxşılaşdırmaq mümkün oldu. Heydər Əliyevin müdrikliyi sayəsində muxtar respublikada siyasi sabitlik qorunub saxlanıldı, savadsız qüvvələrin hakimiyyət ambisiyalarına son qoyuldu, milli dövlət quruculuğu istiqamətində səmərəli addımlar atıldı. Ağır sosial- iqtisadi böhran vəziyyətinə baxmayaraq milli-mənəvi dəyərlərin bərpasında, mədəniyyətin, maarifin inkişafında da böyük uğurlar qazanıldı. Misilsiz fəailiyyəti və gərgin əməyi nəticəsində Heydər Əliyev Naxçıvan Muxtar Respublikasını özünün gözəl "əsərinə" çevirdi. Bu diyarın gələcək möhtəşəm uğurlarının bünövrəsini qoydu.

***Müstəqil Azərbaycan quruculuğu.*** Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq onu daha da möhkəmləndirməkdən, ölkədə güclü, sivil, demokratik, dünyəvi dövlət və mülki cəmiyyət qurmaqdan, sosial yönümlü sabit iqtisadiyyat yaratmaqdan, hüquqi-siyasi islahatları həyata keçirməkdən, bir sözlə, yeniləşmiş və qüdrətli Azərbaycan yaratmaqdan ibarətdir [2, s.330].

Yeni Azərbaycan Partiyasının müasir tarixində yeganə partiyadır ki, o yaranarkən öz qarşısına siyasi hakimiyyətə gəlmək, hakimiyyət uğrunda mübarizə aparmaq yox, ölkəni mövcud böhrandan çıxarmaq məqsədi qoymuşdu. Biz partiyanın nizamnaməsində yazırıq ki, partiya Azərbaycanın bu ağır dövründə, ölkəmizin ictimai-siyasi həyatında iştirak etmək və Azərbaycanı bu ağır vəziyyətdən çıxarmaq üçün yaranır.

Heydər Əliyevin böyük siyasətindəki möcüzələrdən biri, artıq bütün dünyada əfsanəyə çevrilmiş neft strateğiyasıdır. Həqiqət naminə demək lazımdır ki, məhz Heydər Əliyevin reallaşdırdığı bu strategiya sayəsində müstəqil Azərbaycan Beynəlxalq enerji siyasətini müəyyənləşdirən qabaqcıl ölkələr arasında öz yerini tutdu. Bu uğurun hansı mürəkkəb və çətin cəhdlərin, xarici və daxili təzyiqlərin dəf edilməsindən sonra əldə olunması indi müstəqil Azərbaycan tarixinin şərəfli səhifələrindən hesab olunur [3, s.170].

Dövrün gerçəkliyi ondan ibarət idi ki, dünyanın bütün qabaqcıl olkələri, onların nəhəng neft şirkətləri Azərbaycanın neftini ələ keçirməkdə maraqlı idilər. "Qara qızıl" uğrunda kəskin və ciddi mübarizə gedirdi. Azərbaycanda isə Heydər Əliyevin gəlişi ilə nisbi sabitlik yaransa da, silahlı çevrilişlər yolu ilə hakimiyyətə yiyələnmək arzusunda olanlar hələ çox idi. Heydər Əliyevi isə daha qlobal və ciddi məsələ düşündürürdü. Xəzər hövzəsində təsir gücünə yiyələnmək uğrunda gedən mübarizədə gənc, müstəqil dövlətin milli maraqlarını qorumaq və siyasəti elə qurmaq lazımdır ki, bu ancaq cari məqsəd üçün yox, həm də gələcəyin əsaslarını qoymuş olsun [4, s.580].

"Əsrin müqaviləsi" nəticəsində Azərbaycanda XXI əsrin siyasi və iqtisadi sıçrayışı baş verdi. Şübhəsiz ki, bu, ilk növbədə Heydər Əliyevin xidməti, onun zəkasının, iradəsinin, enerjisinin nəticəsi, məhsuludur. 1994-cü il fevralın 4-də Prezident Heydər Əliyev "Azərbaycanda dəniz və qaz yataq-

larının işlənməsinin sürətləndirilməsi haqqında" sərəncam imzaladı. Bu strateji sənəd ARDNŞ in dünyanın ən iri şitkətlərinin konsorsiumu ilə danışıqlarının əsasını təşkil etdi.

Qafqazda etnik nünaqişələrin, o cümlədən Azərbaycan-Ermənistan arasında Dağlıq Qarabağ uğrunda Ermənistan tərəfindən süni surətdə qızışdırılan, elan olunmamış müharibənin, həmçinin gürcü-abxaz, gürcü-osetin, çeçen-rus münaqişələrinin sülh yolu ilə həlli istiqamətində Heydər Əliyev tərəfindən müstəsna əhəmiyyətə malik təşəbbüslər irəli sürülmüş və Qafqazda sülhün sabitliyin təmin edilməsi istiqamətində Heydər Əliyev tərəfindən " Ümumi Qafqaz evi " ideyası inkişaf etdirilmişdir. Heydər Əliyevin dəmir siyasi məntiqi, cəsarəti, qətiyyətli və uzaqgörən siyasi tədbirləri sayəsində ərsəyə gəlmiş Bakı-Tbilisi – Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TRASEKA və digər lahiyələr Qafqazda sülhün, sabitliyin qorunması şərtləndirən əsas amillərə çevrilmişdir.

TRASEKA proqramı Qafqazda sülhün, təhlükəsizliyin və sabitliyin qorunmasında, beynəlxalq inteqrasiya proseslərində və investasiya mühitinin yaxşılaşdırılmasında böyük əhəmiyyətə malikdir. Geostrateji, geoiqtisadi mövqeyə malik olan , Qərblə Şərq, Cənubla Şimal arasında körpü rolunu oynayan Qafqaz regionunda TRASEKA Proqramının həyata keçirilməsi regionda mövcud olan münaqişə ocaqlarının neytralaşdırılması istiqamətində qarşılıqlı əməkdaşlığı təklif etməkdədir. Məhz buna görə bir sıra Şərq və Qərb ölkələri ilə yanaşı, Qafqaz ölkələri arasında əməkdaşlığın, böyük gələcəyi olan perspektivlərə hesablanmış TRASEKA proqramın Heydər Əliyevin dəstəklənməsinin əsas məqsədi Qafqazın təhlükəsizliyinin qorunması və regionda sülhün, sabitliyin möhkəmlənməsinə nail olmaq və iqtisadi inteqrasiya proseslərində fəal iştirak etməkdən ibarət olmuşdur.

Qafqazda sülh və əməkdaşlığın inkişafında Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Qafqazda sülhün və təhlükəsizliyin təmin olunmasında Heydər Əliyevin siyasətində Azərbaycanla Rusiya və Şimali Qafqaz respublikaları arasında əməkdaşlığın inkişaf etməsi mühüm əhəmiyyət kəsb edir Eyni zamanda ATƏT-in Zirvə toplantısında Heydər Əliyev tərəfindən "Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq Paktı"nın yaradılması ilə bağlı təşəbbüs irəli sürülməsi Qafqazda sülh prosesinə mühüm təsir göstərmişdi.

Beləliklə, Heydər Əliyev respulikanın inkişaf strategiyasında Qafqaz dövlətləri ilə icimai-siyasi, iqtisadi, mədəni əlaqələrinin genişlənməsi məsələsinə böyük önəm vermiş, bu məsələdə Heydər Əliyev ilk öncə Qafqaz dövlətləri və millətləri arasında mövcud olmuş tarixi əməkdaşlıq ənənələrindən geniş şəkildə istifadə etmiş və bununlada da, ümumi Qafqaz mədəni və mənəvi dəyərlərinin və mentalitetinin mahir bilicisi olan Heydər Əliyev Qafqazda sülh, əmin-amanlıq və təhlükəsizliyin təmin olunmasında, regional əməkdaşlığın inkişaf etdirilməsində müstəsna rol oynamışdır.

Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəailiyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrdən birinə çevrilmişdir. Azərbaycan demokratik dövlətçilik ənənələrini formalaşdıran Heydər Əliyev dühasının xalq qarşısındakı ən mühüm xidmətlərindən biridə məhz ondan ibarətdir ki, Ümummilli Liderimiz müəllifi olduğu siyasi kursun davamçılığını təmin etmiş, dərin zəkası hesabına onun gəlcək uğurlarına etibarlı təminat yaratmışdır. Ulu Öndərimizin hələ 2003-cü ilin prezident seçkiləri ərəfəsində "Mən ona özüm qədər inanıram" deməklə özünün layiqli davamçısı kimi cəmiyyətə təqdim etdiyi möhtərəm prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi dövründə əldə olunmuş böyük nailiyyətlər, Azərbaycan xalqının seçimində qətiyyən yanılmadığını bir daha təsdiqləyir. Heydər Əliyevin zəngin dövlətçilik fəlsəfəsindən bəhrələnən möhtərəm İlham Əliyev Ulu Öndərimizin mökəm təməllər üzərində formalaşdırdığı idarəçilik ənənələrini bu gündə məharətlə davam etdirir. Məhz Heydər Əliyevin uzaqgörənliyi nəticəsində Azərbaycan Respublikası möhkəm dövlət quruculuğuna əsaslanmış bir idarəetmə məktəbi yaratmışdı. Bunun nəticəsidir ki, Ulu Öndərin davamçısı sayılan İlham Əliyevin apardığı uzaqgörən və ağıllı siyasət demokratik cəmiyyətin formalaşmasında Azərbaycanı inkişaf etmiş dövlətlər sırasına yüksəltmişdir [6, s.5-6].

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətindən bəhs edərkən milli ideologiyanın yaradılması kimi əhəmiyyətli tarxi fakta da nəzər yetirmək lazımdır. Azər-

baycan xalqının Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası özündə ümumbəşəri səciyyə daşıyan və milli dəyərlərə cavab verən prinsipləri ehtiva etməklə milli həmrəyliyi təmin edən milli-mənəvi mexanizm oldu. Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması prosesi uğrula gedir, xalqla iqtidar arasında birlik vardır. Bütün təşəbbüslər xalq tərəfindən dəstəklənir, əks təqdirdə bu inkişafa nail olmaq mümkün olmazdı.

Azərbaycan rəhbərliyi dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində uzaqgörən və məqsədyönlü qərarlar ilə çox qısa müddətdə respublikada sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünliük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq sahələridir.

***Nəticə***. Heydər Əliyev dövlət müstəqilliyimizi əbədi və dönməz etdi. Ölkəmizə sabitlik, sülh və əmin-amanlıq, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yuksəliş sosial inkişaf gətirdi. Azərbaycanı tənnəzül etmiş dövlətdən, inkişaf etmiş dövlətə çevirdi. Respublikamızın beynəlxalq əlaqələrini möhkəmləndirərək gələcək inkişafa hesablanmış neçə-neçə lahiyələrin xüsusilə uğurlu neft strategiyasının təməlini qoydu. İqtisadi əməkdaşlıq və investisiya imkanları yaratdı. Ümumiyyətlə Heydər Əliyev məktəbi çox böyük məktəbdir. Hələ bundan sonra da dövlət və dövlətçilik anlamını dərk etmək üçün Heydər Əliyev irsini dərindən öyrənməyə ehtiyac duyulacaq.

## ƏDƏBİYYAT


1. Qasıml M. Heydər Əliyev: İstiqlala gedən yol. Bakı, Bakı Universiteti nəşriyyatı, 2006, 608 s.
2. Mirələmov H. Heydər Əliyev. Görkəmli adamların həyatı. Bakı, Nurlan nəşriyyatı, 2008, s.330.
3. Qasımov Ə. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi. Bakı, Turxan NPB, 2013, 264 s.
4. Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, Çaşıoğlu, 2008 , 672 s.

5 Mirələmov H. Heydər Əliyev Görkəmli adamların həyatı Bakı, Nurlan nəşriyyatı, 2008, s.418.

6. Əsgərov A. Demokratik inkişafın Heydər Əliyev modeli / Səs qəzeti, 2010, 7 may, s.5-6.



**ХИКМЕТ АХМЕДОВ**

*Д.ф.и.н., сотрудник Бакинского государственного университета*


## ВАЖНЫЕ ИСТОРИЧЕСКИЕ АСПЕКТЫ ГОСУДАРСТВЕННОГО СТРОИТЕЛЬСТВА ГАЙДЕРА АЛИЕВА


Вклад общенационального лидера Гейдара Алиева в развитие национальной государственности Азербайджана не имеет себе равных, и его наследие сегодня зарекомендовало себя как прочная и надежная основа. Правовое государственное строительство в Азербайджане связано с именем Гейдара Алиева, оно занимало особое и фундаментальное место в становлении и развитии современной системы управления и его концепции государственного строительства. Гейдар Алиев, имеющий богатый опыт государственности, главной целью считал создание демократического правового государства в Азербайджанской Республике, как он декларировал в своей концепции государственности.



*Ключевые слова*: Гейдар Алиев, государственность, власть, национализм, независимость, геополитика.



**KHIKMET AHMEDOV**

*PhD, employee of the Baku State University*


## IMPORTANT HISTORICAL ASPECTS OF HAYDER ALIYEV'S STATE BUILDING POLICY


Contribution of national leader Heydar Aliyev to the development of national statehood of Azerbaijan is unrivalled and his legacy has proved itself today as legacy along side with solid and reliable foundation. Legal state building in Azerbaijan is connected with the name of Heydar Aliyev,

it had special and fundamental place in formation and development of modern state building system and his concept of state building. Heydar Aliyev, having rich experience of statehood, considered the establishment of democratic state based on the rule of law in the Republic of Azerbaijan as the main goal, as he declared in his statehood concept.

*Keywords*: Heydar Aliyev, statehood, power, nationalism, independence, geopolitics.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*




**UOT 94(479.24)**

**АРЗУ ИМАНЛЫ**

*Бакинский Государственный Университет,*
*Исторический факультет*
**arzu_imanli@mail.ru**

# ГЕЙДАР АЛИЕВ – ГЕНИАЛЬНЫЙ СТРАТЕГ И ВЫДАЮЩИЙСЯ ДИПЛОМАТ

*Нет более трудной дороги, чем дорога независимости.*
**Гейдар Алиев**

*Гейдар Алиев был великим человеком, исторической личностью, такие люди появляются, раз в столетие и приходят в самое тяжёлое время, именно тогда, когда в них особенно нуждаются. Народ не забывает своих лидеров и героев, чья жизнь была посвящена великому служению родине, стране, народу. Гейдар Алиев при жизни был признан общенациональным лидером азербайджанского народа. Покорением этим гением вершины общенационального лидерства стало возможным благодаря его способность играть решающую роль в самые тяжёлые моменты в судьбе страны и народа направляя государство и нацию по верному пути. Гейдар Алиев был от природы неутомимым человеком, его работа над собой продолжалась всю жизнь, данные от Бога таланты развелись в стремлении познавать новое, быть всегда впереди времени.*

*Ключевые слова:* Общенациональный лидер, Великий спаситель, Независимость, Возрождение, Ататюрк нашего Отечества.

***Введение.*** Личность Гейдара Алиева является неизученным миром! Мир политики этого редкого гения можно сравнить с нескончаемым, бескрайним океаном. Способность как беспримерного государственного Деятеля найти для Отечества, для родного народа неожиданный выход из сложнейшего, кажущегося безвыходным положением. Всё это соединялось в одном качестве: Гейдар Алиев был ВЕЛИКИМ АЗЕРБАЙДЖАНЦЕМ. Он является преданным сыном и патриотом азербайджанского народа. Это редкое качество было характерно для всех периодов деятельности Гейдара Алиева [2].

***

Гейдар Алиев обладавший гениальным талантом, являлся редкой личностью, глубоко знавший проблемы родного народа, получившего прекрасное образование, в том числе глубоко овладевший историческими знаниями, владевший широчайшим кругозором. Он являлся редкой личностью, обладавшей богатым полувековым опытом государственного управления, возвышенного до уровня одного из высших руководителей такого огромного государства, как СССР. Он был обладателем железной воли. Гейдар Алиев был величайшей личностью, принимавшейся всеми и ярко выделявшейся среди лидеров, определяющих современную политику нашей планеты. Он являлся общенациональным лидером, дарованным азербайджанскому народу для спасения Родины из сложнейшего переходного периода [1, с.423-424].

Новейшая история и период возрождения Азербайджана неразрывными узами связано с именем Гейдара Алиева. В период его руководства, который начался в 1969 году и продолжался более 30 лет, Азербайджан прошёл немыслимый путь развития. Эти годы справедливо названы периодом Гейдара Алиева в нашей стране [2]. С избранием Гейдара Алиева руководителем страны изменился ритм жизни: в стране начались оживления и прогресс, масштабная созидательная работа. За короткий исторический период (с 1970 по 1985 гг.) по всей территории республики были построены редкие для того времени предприятия-заводы бытовых кондиционеров, было запущено 213 промышленных учреждений, 350 наименований продукций, производимой в Азербайджане экспортировались в 65 стран мира. Азербайджан тех лет напоминал гигантскую строительную площадку. Началось изучение глубоководных морских оснований. Были возведены здания, ставшие шедеврами архитектуры, - дворец "Гюлистан", нынешний Дворец Гейдара Алиева, заложены такие гигантские массивы, как Новые Ахмедлы, Гюнешли, микрорайоны. Многократно увеличилось производство хлопка, овощей, винограда. Как логический результат этого увеличилось благосостояние населения, Азербайджан вступил в период возрождение [7]. Одним из важнейших исторических достижений Азербайджана, достигнутых на протяжении 1970 -1985 гг. было создание мощного кадрового потенциала, а также создание армии специалистов по редким профессиям. Огромное внимание уделялось необходимости в отправке представителей коренного населения в авиационные школы, подготовка лётчиков, космонавтов. Гейдар Алиев лично сам руководил всеми этими стратегическими важными делами, направленными на будущее развитие Азербайджана ВЕЛИКИЙ АЗЕРБАЙДЖАНЕЦ опережая время, создавал мощный кадровый потенциал для Азербайджана XX века [1, с.413-415].

С приходом к власти Гейдара Алиева начался ренессанс и пробуждение национального самосознания, именно благодаря ему наша независимость обрела необратимый характер. Все эти мероприятия, осуществлённые Гейдаром Алиевым подготовили благодатную почву для принятия в 1995 году новой Конституции Азербайджанской Республики, сформированию Национальной армии, способная стоять на страже национальных интересов Азербайджана.

В период руководства Гейдара Алиева, в конце 60-70 гг. XX в., повысился интерес к историческому прошлому нашего народа. В это время одним из основных центров национального возрождения являлась Азербайджанская Энциклопедия, возглавляемая великим мыслителем Расул Рзой. В это время именно энциклопедисты поднимали важные проблемы, как вопрос о решающей роли тюркских этносов в формировании азербайджанского народа. Главная редакция Энциклопедии под редакции Расул Рзы в 1972 г. издала атлас под названием "Карты Азербайджанской ССР" (на азербайджанском и русском языке) [1, с.417-418]. В центре особого внимания Гейдара Алиева находился азербайджанский язык. Он был твёрдо убеждён в том, что только "родным языком создаётся каждый народ". Гейдар Алиев добился предоставления азербайджанскому языку статуса государственного языка, что было законодательно закреплено в Конституции 1978 года. В то время такой шаг равнялся героизму. В 2007 году (посмертно) он был удостоен премии тюркского языка имени Ататюрка [4].

Гейдар Алиев ещё при жизни стал одной из легендарных, уникальных личностей, государственных деятелей, покоривших политический Олимп. Известные люди мира и сегодня с восхищением, большим почтением говорят о Гейдаре Алиеве, называют его патриотом политического мира, личностью, способной влиять на ход истории, обладавшей стальной волей. Этот великий человек прожил жизнь, полную потрясений, тяжёлых испытаний, нескончаемой борьбы. Жизнь, которая не вмещается в понятие времени и пространства. Из всех испытаний он вышел победителем. Жизнь Гейдара Алиева – яркий образец несокрушимости человеческой воли.

В начале 90-х годов, после развала Советского Союза, Азербайджан находился на грани распада и гражданской войны. Агрессия Армении против азербайджанского народа приобрела широкий масштаб. Кризис в экономике, политике и других сферах стал серьезным испытанием. В такое трудное время из-за неопытности и отсутствия профессионализма находившегося тогда у власти руководства страны оказалась в неуправляемой ситуации. Этот период

был для Азербайджана решающим: или он станет независимым государством, или же расколется и будет уничтожен в результате раздоров и подрывной деятельности сепаратистских сил [5]. В мае - июне 1993 года в результате крайнего обострения правительственного кризиса в стране возникла угроза гражданской войны и потери независимости. Перед Азербайджаном стоял выбор: “быть или не быть”, но в этот критический момент азербайджанский народ продемонстрировал свою мудрость, призвав на помощь выдающегося политического деятеля той эпохи Гейдара Алиева. Тогдашние руководители Азербайджана были вынуждены официально пригласить Гейдара Алиева в Баку. 15 июня 1993 года Гейдар Алиев был избран председателем Верховного Совета Азербайджана. Этот день вошёл в историю как “День национального спасения”. С 24 июля 1993 года постановлением Милли меджлиса стал осуществлять полномочия Президента Азербайджанской Республики [3].

В результате всенародного голосования 3 октября 1993 года Гейдар Алиев был избран Президентом Азербайджанской Республики. И он обещал и подтвердил каждым шагом сказанное им 10 октября 1993 года на церемонии инаугурации слова: “Азербайджанский народ переживает сложнейший, трагический период своей истории. Я глубоко осознаю степень ответственности, которая возложена на меня в это сложное время, и хочу заверить, что всей своей деятельностью, всей своей жизнью постараюсь оправдать высокое доверие, надежды народа” [4].

В период правления Гейдара Алиева Азербайджан проживал свой переходный период – очень сложный и ответственный период! Имея выгодное стратегическое положение и богатые ресурсы, нефть Азербайджан всегда привлекал внимание внешних врагов. Именно поэтому азербайджанский народ вел борьбу за свободу и независимость десятилетиями и дал на этом пути тысячи шехидов. Сохранить свободу и независимость, намного же сложнее и тяжелее, чем приобрести их. Народ не имеющий государства, обречён на исчезновение.

Величайшая заслуга президента Гейдара Алиева перед нашей историей заключается в том, что в условиях острейших геополитических противоречий за обладание нашими землями спас Азербайджан от угрозы расчленения и уничтожения. А сохранение государственности означает и сохранение свободы и независимости азербайджанского народа. Вот почему Гейдар Алиев является спасителем народа и отечества! Гейдар Алиев занял верную, позицию и в вопросе о войне. Как мудрый стратег, он принял во внимание реальное положение этого периода. Он верно оценил ситуацию, добился прекращения огня и тем самым спас генофонд народа [1, с.431-432]. Были предприняты первые успешные попытки азербайджанской дипломатии по урегулированию конфликта и привлечения мирового сообщества. По инициативе Гейдара Алиева, благодаря его дальновидности, 12 мая 1994 года было подписано соглашение о перемирии с Арменией, были приостановлены военные действия, продолжавшиеся в течение 5 лет [3]. Общенациональный лидер стремился к мирному и справедливому урегулированию армяно-азербайджанского нагорного-карабахского конфликта “Дипломатия – не поле битвы, - говорил он, - здесь нужно проявлять не агрессивность, а доброжелательность и доверие к оппоненту, не отдаваться стихии страстей, а проявлять мудрость и терпение, не быть инструментом в руках политиков, а проявлять волю и стойкость в поведении самостоятельного политического курса” [4]. Такие подходы азербайджанского лидера к проблеме и сегодня являются первоочередной задачей для азербайджанской дипломатии – выработать наиболее оптимальную модель развития процессов по урегулированию конфликта и, в конечном счёте приблизить перспективы мира во всех горячих точках Южного Кавказа.

В 1994 году Азербайджан считался рискованной страной с точки зрения вложения инвестиций. Иностранные компании опасались вкладывать инвестиции в Азербайджанскую нефть. Гейдар Алиев смог убедить нефтяных магнатов инвестировать свои вклады в Азербайджанскую нефть [7]. 20 сентября 1994 года правительство Азербайджана заключило Контракт века с крупнейшими мировыми нефтегазовыми корпорациями: BP (Великобритания), Amoco, Unocal, Exxon, McDermott и Pennzoil (США), “ЛУКойл” (Россия), Statoil (Норвегия), а также Государственной нефтяной компании Азербайджана, ТРАО (Турция), Delta Nimir (Саудовская Аравия) и Ramco (Шотландия) на крупномасштабную разработку месторождений “Азери –

Чираг - Гюнещли” в азербайджанском секторе Каспия [6]. Затем появился основной экспортный нефтепровод Баку- Тбилиси-Джейхан, когда-то считавшийся несбыточной мечтой. Были реализованы такие гигантские проекты как железная дорога Баку - Тбилиси - Карс, международный коридор “Север - Юг” Завершён другой важный проект инициированный Азербайджаном, - ТАР, являющегося последним сегментом Южного газового коридора, и азербайджанский газ достиг европейского рынка. Эти транснациональные энергетические и транспортные проекты повышают роль Азербайджана в энергетической безопасности Европы и превращают нашу страну в важнейшего фактора на международной арене [7]. Надо также отметить, успешную, мудрую и дальновидную стратегию внешней политики Гейдара Алиева, связанная с Каспийским морем, его планы по превращению этого моря в море мира и стабильности! Не каждый политик способен добиться всего этого в такой богатой ресурсами и обладающей важным военно-стратегическим значением стране, как Азербайджан, где переплетаются международные интересы, в том числе интересы великих держав и соседей! Гейдар Алиев открыл коридор Восток - Запад, он искусно использовал идею возрождения Великого Шёлково пути для вывода Азербайджана из экономической блокады. Международная конференция, проходившая в Баку, 7-8 сентября 1998 года с участием представителей 32 государств и 13 международных организаций явилось одним из крупнейших событий истории внешней политики Азербайджана за весь период его существования.

Возрождение Великого Шёлково пути сыграло важную роль в возрождении экономического и духовного подъёма не только Азербайджана, но и всего тюркского мира. Одним словом, могущественный политик современности Гейдар Алиев с большой мудростью, тонкой и гибкой политикой вёл свой народ к сегодняшнему дню! [1, с.435-436].

Другой исторической победой Гейдара Алиева как великого государственного деятеля является, стабильность в стране. С установлением стабильности в стране, Гейдар Алиев, как гениальный политик, опирающийся на свою силу и опыт произнёс известное изречение: “Государственная независимость будет вечной, непоколебимой, бесповоротной” [2].

Одним из важнейших успехов внешней политики президента Гейдара Алиева являлось то, что он вывел Азербайджан из положения изоляции от общетюркского мира. Были восстановлены традиционные дружеские отношения с братским Казахстаном, Узбекистаном, Киргизией и Туркменистаном. Было восстановлено тюрко-исламское единство, была ликвидирована возможность этнических конфликтов [1, с.433]. Надо отметить высочайший уровень отношений между Азербайджаном и Турцией. Эти связи имеют глубокие исторические корни. В основе азербайджано-турецкого стратегического партнёрства лежит реальность, заключающаяся в том, что на фоне новых вызовов современного мира наши государства и народы выступают с единых позиций [8].

Общенациональный лидер Гейдар Алиев был великой личностью, а его исторические заслуги во имя укрепления связей между тюрко-язычными государствами и народами неоценима. Гейдар Алиев предпринял дальновидные шаги по формированию единого тюркского мира, реализуемые глобальные проекты, основа которых была заложена по непосредственной инициативе гениального руководителя, объединили весь тюркский мир то, что тюркский мир гордится великим лидером Гейдаром Алиевым, также является историческим признанием. Идеи Мустафы Кемаля Ататюрка “Радость Азербайджана – наша радость, его печаль – наша печаль” и общенационального лидера Гейдара Алиева “Одна нация, два государства”, - основной принцип, на который опираются азербайджано-турецкие отношения [8]. Гейдар Алиев сыграл огромнейшую роль в формировании идеологии азербайджанства и диаспорного движения, привил азербайджанскому народу гордость за свою нацию, культуру и искусство. “Народ, обладающей высокой культурой, всегда будет идти вперёд, будет жить и развиваться”, говорил Гейдар Алиев.

***Заключение.*** Жизнь Гейдара Алиева стало символом беззаветного служения своему народу. Весь свой талант организатора и дар дипломата он направил на то, чтобы независимый Азербайджан достиг новых невиданных в своём развитии высот. За 30 лет Национальная армия Азербайджана вошла в одну из пятидесяти самых могущественных армий мира, сейчас в

арсенале нашей армии самое передовое оружие. Именно такая армия положило конец 30-летней оккупации за 44 дня. Азербайджанская Республика превратилась в лидирующее государство на Южном Кавказе. Азербайджанский народ обязан гениальному спасителю – Гейдару Алиеву – Ататюрку нашего Отечества!

ЛИТЕРАТУРА

1. Yaqub Mahmudov (Mahmudlu). Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı, "Təhsil", 2011, 608 s.
2. Mahmudov Y. Ata yurdumuzun Atatürkü // Dirçəliş – XXI əsr jurnalı, 2002 №52, s.46-54.
3. Общенациональный лидер / Azərbaycan Respublikasının Nazirlər Kabineti. - https://nk.gov.az/ru/page/33/ [05.04.2023].
4. Гейдар Алиев всегда будет жить в сердцах людей. - https://azertag.az/ru/xeber/Geidar_Aliyev_vsegda_budet_zhit_v_serdcah_lyudei_1665513 [05.04.2023].
5. Азербайджан чтит память общенационального лидера Гейдара Алиева https://www.aa.com.tr/ru [05.04.2023].
6. Azərbaycanın Ümummilli lideri Heydər Əliyev. - https://wreferat.baza-referat.ru/ [05.04.2023].
7. Жизнь Гейдара Алиева –яркий пример непобедимости человеческой воли. - https:// azetag.az/ru /xeber/zhizn_Geidara_Alieva_yarkii_primer nepobedimosti_chelovecheskoi_voli_1949208 [05.04.2023].
8. Тюркский мир гордится великим лидером Гейдаром Алиевым / Xalq qəzeti. - https://old.xalqqazeti.com/ru/news/news/17838 [05.04.2023].

**ARZU İMANLI**
*Bakı Dövlət Universiteti, Tarix Fakültəsi*

## HEYDƏR ƏLİYEV DAHİ STRATEQ VƏ GÖRKƏMLİ DİPLOMATDIR

Heydər Əliyev böyük insan, tarixi şəxsiyyət idi, belə insanlar əsrdə bir dəfə meydana çıxır və ən çətin zamanda, məhz onlara ən çox ehtiyac duyulan anda gəlirlər. Xalq ömrünü vətənə, ölkəyə, xalqa böyük xidmətə həsr etmiş liderlərini, qəhrəmanlarını unutmur. Heydər Əliyev hələ sağlığında Azərbaycan xalqının ümummilli lideri kimi tanınıb. Bu dahi şəxsiyyətin milli liderlik zirvəsini fəth etməsi onun ölkənin və xalqın taleyinin ən çətin anlarında həlledici rol oynamaq, dövləti və milləti doğru yola yönəltmək bacarığı sayəsində mümkün olub. Heydər Əliyev təbiətcə yorulmaz bir insan idi, öz üzərində çalışması bütün həyatı boyu davam etdi, Tanrının ona bəxş etdiyi istedadlar, yenilikləri öyrənmək, həmişə zamandan qabaqda olmaq arzusunda qovuşdu.

*Açar sözlər*: Ümummilli lider, Böyük xilaskar, İstiqlal, Dirçəliş, Vətənimizin Atatürkü.

**ARZU İMANLI**
*Baku State University, History Faculty*

## HEYDAR ALIYEV IS A BRILLIANT STRATEGIST AND AN OUTSTANDING DIPLOMAT

Heydar Aliyev was a great man, a historical figure, such people appear once in a century and come at the most difficult time, exactly when they are most needed. The people do not forget their leaders and heroes, whose lives were devoted to the great service to the motherland, country, people. Heydar Aliyev was recognized as the national leader of the Azerbaijani people during his lifetime. The conquest of the pinnacle of national leadership by this genius became possible due to his ability to play a decisive role in the most difficult moments in the fate of the country and people, guiding the

state and nation along the right path. Heydar Aliyev was a tireless person by nature, his work on himself continued all his life, his God-given talents were shown in the desire to learn new things, to be always ahead of the times.

*Keywords*: National leader, Great savior, Independence, Revival, Ataturk of our Motherland .

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*




**UOT 94(479.24)**

**RƏŞİD MEHDİYEV**

*Bakı Dövlət Universiteti*
*Azərbaycan tarixi (humanitar fakültələr) kafedrasının doktorantı*
**mresid.1998@gmail.com**

# AZƏRBAYCAN SSR-DƏ HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTƏ GƏLMƏSİ İLƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN İNKİŞAFINDA YENİ MƏRHƏLƏNİN BAŞLANMASI

*Elmi məqalədə Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə qısa müddətdə respublikanın ictimai-siyasi, iqtisadi mədəni və mənəvi həyatında baş verən irəliləyişlər, milli-mənəvi dəyərlərimizin qorunması, zənginləşməsi sahəsində görülən işlər araşdırılmışdır. Heydər Əliyev 1969-1982-ci illərdə respublikamızda hakimiyyətdə olduğu dövrdə dilimizə, tariximizə, mədəniyyətimizə, musiqimizə, ədəbiyyatımıza məhz dövlətçilik mənafeləri baxımından yanaşmışdır. Onun məqsədi Azərbaycanı iqtisadi cəhətdən inkişaf etdirməklə, xalqın milli dirçəlişi, milli şüurunun oyanışı ilə müstəqil dövlətimizi yaratmaq olmuşdur. Heydər Əliyev milli-mənəvi dəyərləri milli ideologiyanın ən mühüm istiqamətlərindən və komponentlərindən biri kimi qiymətləndirirdi. Məqalədə milli dəyərlərin qorunması, milli mədəniyyətimizin inkişafına müsbət təsir göstərən sahələr: elm, təhsil, incəsənətin müxtəlif sahələri, mədəni irsimizin təbliği istiqamətində görülən işlər araşdırılır.*

*Açar sözlər:* Heydər Əliyev, milli-mənəvi dəyərlər, Azərbaycan mədəniyyəti, milli oyanış, milli ideologiya, mədəni irs.

***Giriş***. Azərbaycan KP Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də baş tutan Plenumu Azərbaycan tarixində böyük əhəmiyyət kəsb edən hadisə idi. Bu Plenumda Heydər Əlirza oğlu Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsi ilə respublikanın inkişafında dönüş mərhələsinin başlanğıcı qoyuldu. Heydər Əliyev 1969-cu ilin avqust ayının 5-də Azərbaycan KP MK Plenumundakı çıxışında respublikanın iqtisadi həyatını təhlil etdi, mədəni quruculuqda, ideoloji işlərdə ciddi nöqsanlar olduğunu bildirdi. Onları aradan qaldırmaq üçün dövlətdə əmək intizamını möhkəmləndirmək, respublikada mənəvi-psixoloji iqlimi sağlamlaşdırmaq vəzifələri irəli sürüldü. Azərbaycan KP-nin XXVIII (10-12 may 1971-ci il), XXIX (28- 30 yanvar 1976-cı il), XXX (28-30 yanvar 1981-ci il) qurultaylarında, MK-nın plenumlarında, müşavirələrdə respublikanın iqtisadi, mənəvi və sosial-mədəni inkişafının konkret vəzifələri, təşkilati tədbirlər müəyyən edildi [1, s.143]. Bütün dövlət hakimiyyəti orqanlarının işi xalqın iqtisadi, sosial-mədəni tərəqqisi və milli oyanış siyasətinin reallaşmasına yönəldildi. Parlamentdə respublikanın iqtisadi, mədəni inkişafı üçün hüquqi baza yaradan onlarla qanun qəbul edildi. 1978-ci il aprelin 21-də Heydər Əliyevin rəhbərliyi ilə respublika Konstitusiya Komissiyasının hazırladığı yeni "Azərbaycan SSR Konstitusiyası" qəbul edildi [3, s.426.]. Bu Konstitusiya dar imkanlar daxilində xalqın mənəvi sərvətlərinin, xüsusilə dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi əsaslarının genişləndirilməsinə imkan verirdi. Heydər Əliyevin həyata keçirdiyi çoxcəhətli siyasi-dövlətçilik fəaliyyəti sayəsində partiya, sovet, həmkarlar ittifaqları, komsomol və s. ictimai təşkilatların diqqəti respublikanın iqtisadi, kadr, mənəvi potensialının artmasına yönəldilmişdi. Seçkili hakimiyyət orqanlarında elm, mədəniyyət, incəsənət xadimləri, əmək qabaqcılları təmsil edilməyə başlamışdılar. Azərbaycan SSR Ali Sovetinə Süleyman Rüstəm, Mustafa

Topçubaşov (I-X çağırışlar), Fikrət Əmirov, Mikayıl Abdullayev) və b. tanınmış şəxsiyyətlər deputat seçildi [8, s.255.]. Mirzə İbrahimov, Rəşid Behbudov, Qara Qarayev, Həsən Abdullayev, Şamama Həsənova, Sərdar İmrəliyev kimi görkəmli şəxslər Azərbaycanı SSRİ Ali Sovetində təmsil edirdilər. Partiya, həmkarlar və komsomol təşkilatları, sovetlər xalqın mənəvi dəyərlərinin öyrənilməsinə və təbliğinə diqqəti artırmışdı. Milli mənəvi sərvətlərin tədqiqi və təbliği, tarixi araşdırmaları geniş vüsət almışdı. Heydər Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə Nizaminin, Əcəminin, Nəsiminin, Tusinin, Vaqifin, Aşıq Alının, Aşıq Ələsgərin, Üzeyir Hacıbəyovun, Müslüm Maqomayevin, Hüseyn Cavidin və başqa elm, ədəbiyyat və incəsənət xadimlərinin yubileyləri qeyd olunmuşdu. Azərbaycan professional teatrının yüz illiyi münasibətilə təntənəli tədbir keçirilmişdi. Azərbaycan tarixinə və Azərbaycan dilinə aid qiymətli araşdırmalara yüksək dövlət mükafatları verilirdi. 1977-ci ildə Nizami irsinin yenidən öyrənilməsi haqqında qərar qəbul olundu. 1982-ci ildə "pantürkist" damğası üstünə atılan Hüseyn Cavidin cəsədinin qalıqları İrkutsk vilayətindən gətirilib Naxçıvanda dəfn edildi [7, s.173]. Mehdi Hüseynzadənin Avropanın böyük antifaşist hərəkatında qəhrəmanlığının təbliğinin, haqqında əsərlər, kinofilm çəkilməsinin, ona heykəllər qoyulmasına təşəbbüs göstərildi. Minlərlə azərbaycanlı gənc SSRİ-nin aparıcı təhsil və elm ocaqlarına təhsil almağa göndərildi. Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti sayəsində Azərbaycanda milli özünüdərk prosesi xeyli güclənmiş, yaradıcı ziyalılar üçün sərbəst düşüncə və iş şəraiti yaradılmışdı. Şuşa şəhərinin tarixi abidələrinin bərpa olunmasına, yeni binaların tikilməsinə başlanıldı. 1980-1981-ci illərdə Molla Pənah Vaqifin məzarı üzərində böyük abidə qoyuldu. Üzeyir Hacıbəyovun, Bülbülün ev - muzeyləri açıldı. Natəvanın heykəli ucaldıldı. Heydər Əliyevin təşəbbüsü ilə Respublikanın ictimai-siyasi həyatında dövlət bayramları, tarixi günlər, rayonlarda məhsul bayramları qeyd edilirdi. Azərbaycanda müttəfiq respublikaların mədəniyyət, ədəbiyyat və incəsənət günlərinin, festivalların, beynəlxalq konfransların və s. keçirilməsi ilə əlaqədar tədbirlər keçirilirdi.

Heydər Əliyevin ictimai-siyasi fəaliyyətində mili-mənəvi dəyərlərin qorunmasına, təhsilə, elmə, incəsənətə, milli dilin inkişafına, tariximizin obyektiv, düzgün yazılmasına göstərilən qayğı daim mühüm yer tutmuşdur [2, s.272-299]. O, həmişə qeyd edirdi ki, "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir" [4, s.54]. Heydər Əliyevin çoxcəhətli dövlət idarəçiliyi sayəsində 70-ci illərdə və 80-ci illərin əvvəllərində Azərbaycanın ictimai-siyasi, mədəni həyatı olduqca zənginləşdi. Respublikanın iqtisadi, sosial-mədəni tərəqqisi, xalqın milli oyanışına istiqamətləndirilmiş siyasət həyata keçirilirdi. 70-ci illər Azərbaycanın ictimai-siyasi, iqtisadi mədəni və mənəvi həyatında mühüm irəliləyişlər dövrü idi. Bu illərdə uşaq müəssisələrinin, məktəblərin maddi, texniki-təhsil bazası möhkəmləndirilmiş, tədrisin səviyyəsi yüksəlmişdi. 101 min nəfərlik məktəbəqədər uşaq müəssisəsi tikildi. Daimi məktəbəqədər müəssisələrin sayı 1990-cı ildə 2185-ə çatdırıldı. Onlarda 181 min yəni 1970-ci ildəkindən 1,6 dəfə çox uşaq tərbiyə olunurdu. Bu müəssisələrdə çalışan 19,1 min tərbiyəçilərin 49,7 faizinin ali, 22 faizinin orta ixtisas təhsili vardı [1, s.172].

70-80-ci illərdə Azərbaycanda ali təhsil inkişaf edir, yeni ali təhsil ocaqları fəaliyyətə başlayırdı. 1971-ci ildə Pedaqoji Dillər İnstitutu bazasında Rus dili və Ədəbiyyatı (Bakı Slavyan Universiteti) və Pedaqoji Xarici Dillər İnstitutları (Azərbaycan Xarici Dillər Universiteti) təşkil olundu. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialları əsasında 1972-ci ildə Naxçıvan, 1973-cü ildə Xankəndi (o vaxt Stepanakert) Pedaqoji İnstitutları, 1976-cı ildə İnşaat Mühəndisləri İnstitutu, 1981-ci ildə Gəncə Texnologiya İnstitutu təşkil edildi. 80-ci illərin sonlarında respublikada 17 ali məktəb fəaliyyət göstərirdi [1, s.172]. Ali təhsilin maddi bazasının möhkəmlənməsinə diqqət yetirilirdi. Respublika ali məktəblərinin flaqmanı olan Azərbaycan Dövlət Universitetində (indi Bakı Dövlət Universiteti) 13 min tələbə təhsil alırdı. Onların təlim-tərbiyəsinə 1200 professor-müəllim heyəti çalışırdı [13, s.88]. Bu dövrdə Azərbaycan Dövlət Universiteti Azərbaycan dilinin, xalqın tarix və mədəniyyətinin qorunub saxlanılmasında, inkişaf etdirilməsində, gənclərdə milli köklərə bağlılığın möhkəmlənməsində, azadlıq ideyalarının yayılmasında mühüm rola malik idi. SSRİ-nin mərkəzi ali məktəblərində azərbaycanlı kadrlar hazırlanırdı. Əvvəllər hər il cəmi 40-50 nəfər gənc SSRİ-nin qabaqcıl ali məktəblərinə qəbul olunurdusa Heydər Əliyevin rəhbərliyi illərində bu iş geniş vüsət aldı. 70-80-ci illərdə SSRİ-nin 50-dən çox şəhərində 135 mülki, 105 hərbi ali məktəbdə 17 mindən çox mütəxəssis kadr hazırlanmışdı [7, s.195].

İnsanların biliyinin, mədəni səviyyəsinin yüksəlməsində təhsil müəssisələri ilə yanaşı, mədəni-maarif müəssisələri də mühüm rol oynayırdı.70-80-ci illərdə respublikada 1066 mədəniyyət evi və klub müəssisəsi, 111 kinoteatr fəaliyyət göstərirdi [1, s.174]. Bakıda 80-ci illərin ortalarında stereo-filmlər kinozalı ("Araz" kinoteatrında) istifadəyə verilmişdi. Respublikada 1972-ci ildə Azərbaycan xalçası və tətbiqi sənət muzeyi, Sergey Yeseninin xatirə muzeyi, 1975-ci ildə Bakıda Ü.Hacıbəyovun və S.Vurğunun, 1981-ci ildə Naxçıvanda H.Cavidin, 1982-ci ildə Bakıda C.Cabbarlının, Bülbülün ev muzeyləri olmaqla ümumilikdə 87 yeni muzey təşkil olunmuşdu. 70-80-ci illərdə respublikada dövlət teatrlarının sayı 20-yə çatmışdı. 70-80-ci illərdə kütləvi informasiya vasitələri şəbəkəsi inkişaf etməkdə idi. Azərbaycanda 1969-cu ildən "Qobustan" almanaxı, 1970-ci ildən Bakıda "Sovet Türkologiyası", 1975-ci ildən "Azərbaycan təbiəti" jurnalları çap olunmağa başladı. Dövri nəşrlərin illik tirajı 49 milyon nüsxəni keçmişdi [1, s.175].

1976-1988-ci illərdə Azərbaycan xalqının tarixində ilk oncildlik "Azərbaycan Sovet Ensiklopediyası"nın çapdan çıxması respublikanın ictimai-siyasi və mədəni həyatında çox mühüm bir hadisə idi. Sovet dövründə dörd dəfə (1934-cü il, 1938-ci il, 1959-cu il və 1965-ci il) Azərbaycan ensiklopediyası nəşr etmək təşəbbüsü olsa da heç biri baş tutmamışdı. Heydər Əliyevin rəhbərliyi ilə növbəti cəhd uğurla nəticələndi. 1975-ci il oktyabrın 24-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK-da "Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiyasının işində ciddi nöqsanlar haqqında" qərar qəbul olundu. Azərbaycan KP MK tərəfindən 1976-cı il fevralın 10-da "ASE-nin Baş redaksiyasının və elmi-redaksiya şurasının yeni tərkibi" haqqında qərar qəbul edildi. Baş redaktor akademik Cəmil Quliyev təyin olundu. Heydər Əliyevin iştirakı ilə İçəri şəhərdə ASE-nin yeni binası tikilərək, nəqliyyat (üç maşın ayrılmışdı), təsərrüfat, təchizat, maliyyə məsələləri həll olundu. ASE-nin tirajı 50 min nəzərdə tutulsa da lakin Heydər Əliyevin təşəbbüsü ilə bu rəqəm 80 minə qaldırılmışdı.

70-80-ci illərdə klassik Azərbaycan şair və yazıçılarının əsərləri külliyyatlarının, "Molla Nəsrəddin" 12 cildlik toplusunun birinci cildi, 20 cildlik "Azərbaycan Ədəbiyyatı Kitabxanası", 50 cildlik "Dünya Uşaq Ədəbiyyatı Kitabxanası", 100 cildlik "Dünya Ədəbiyyatı Kitabxanası" toplularının çap olunması xalqın milli oyanışına əhəmiyyətli təsir göstərirdi.

70-80-ci illərdə Nəsiminin 600 illiyi (1973), Nizaminin 840 illiyi (1981), Əcəminin, Tusinin 780 illiyi (1981), Vaqifin, Aşıq Alının 180 illiyi (1981), Aşıq Ələsgərin 150 illiyi (1972), Üzeyir Hacıbəyovun 100 illiyi (1984), Müslüm Maqomayevin 100 illiyi (1984), M.S.Ordubadinin 100 illiyi (1972), Zakirin 200 illiyi (1984), Hüseyn Cavidin 100 illiyi (1981), M.F.Axundovun 175 illiyi (1985), M.A.Əliyevin 100 illiyi (1984), və bir sıra ədəbiyyat, incəsənət, elm xadimlərinin, Azərbaycan teatrının 100 illiyi (1974) yubileyləri təntənə ilə qeyd olunmuşdu [1, s.176]. 1979-cu ildə Nəsiminin YUNESKO-nun himayəsi altında keçirilən 600 illik yubileyi böyük ədəbi-mədəni hadisəyə çevrildi. Nəsimi, yaradıcılığı haqqında monoqrafiyalar, elmi-tədqiqat nümunələri çap edildi, bir çox əsərləri müxtəlif dillərə tərcümə olundu. Nəsiminin Bakı şəhərində keçirilən yubiley tədbirlərinə keçmiş İttifaqın hər yerindən və 25 xarici ölkədən gəlmiş nümayəndələr qatılmışdı.

70-ci illərdə Azərbaycanın tanınmış yazıçılarının və bəstəkarlarının SSRİ-nin böyük şəhərlərində, Moskva və Leninqradda yubiley tədbirlərinin keçirilməsi bir ənənə halını almışdı. Azərbaycanda 1972-ci ildə Rusiya Ədəbiyyatı və İncəsənəti , 1975-ci ildə Sovet Ədəbiyyatı, 1979-cu ildə Ukrayna və Özbəkistan, 1987-ci ildə Leninqrad Ədəbiyyatı və İncəsənəti günləri keçirilmişdi. Azərbaycan musiqisinin və ifaçılıq sənəti nailiyyətlərinin geniş təbliğində Rəşid Behbudov, Zeynəb Xanlarova, Elmira Rəhimova, Müslüm Maqomayev və başqalarının tez-tez xarici ölkələrə qastrolları mühüm rol oynayırdı.

Bütün bu tərəqqi yönümlü nailiyyətlərə baxmayaraq, maarif sistemi kütləvi informasiya vasitələrinə güclü ideoloji təzyiq olduğundan açıq, azad və səmərəli fəaliyyət göstərə bilmirdi. 60-cı illərdə irəli sürülən "geniş kommunizm quruculuğu", 70-ci illərdə "inkişaf etmiş sosializm cəmiyyəti" haqqında uydurmalar da ideoloji təzyiq aparatının əsas ehkamları idi. Cəmiyyətdə mövcud sistemin "üstünlükləri" haqqında yəqinlik yaratmaq üçün irəliləyişlər şişirdilir, qüsurlar gizlədilirdi. Sovet cəmiyyəti, sosialist sistemi, kommunist partiyasının "rəhbər və istiqamətverici rolu" haqqında ehkamlar insanlara aşılanırdı. Xalqın bir çox adət-ənənələrini dini əlamətlər kimi qiymətləndirilirdi. İslamdan əvvəlki dövrdə xalqın məişətinə daxil olmuş, əməksevərliyi, nəcibliyi, rəhmliyi tərənnüm edən, Novruz bayramının qeyd olunması rəsmi şəkildə qadağan edilmişdi. Din açıq şəkildə sıxışdırıldığına görə

əhalinin çoxu ona gizlincə riayət edirdi. 1970-ci ildə respublikada cəmi 17 məscid və 70 nəfərə yaxın azsavadlı və yaşlı din xadimi vardı. [5, s.87]. Bütün bu səylərə baxmayaraq, ideoloji aparatın ateist təbliğatı səmərə vermirdi. Xalq milli ənənələrini qoruyub saxlayırdı. Dini bayram və mərasimlər yarımleqal şəkildə keçirilirdi. Respublikadakı yüzdən çox müqəddəs pir və ocaqlar, o cümlədən "Mir Möhsün ağa", "Əliayağı" (Bakı), "Babaratma" (Şəki), "Asəfkəf", "İmamzadə" (Babək), "Soltan xalac" (Quba) və başqaları insanlar tərəfindən fəal ziyarət olunurdu. Azərbaycanda 40-dan çox qeydə alınmamış müsəlman, habelə digər dini birliklər fəaliyyət göstərirdi. Məhərrəm ayında 30-dan çox müsəlman dini birliyi 50 gün ərzində fəaliyyət göstərirdilər [5, s.87]. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1976-cı il 13 sentyabrda dini birlikləri nəzarət altında saxlamaq üçün "Azərbaycan SSR-də dini birliklər haqqında Əsasnamə" qəbul etdi. Dini birliklərin bir neçəsi rəsmi məscidə çevrildi, qalanları isə fəaliyyətini dayandırdı. 80-ci illərin sonlarında respublikada demokratik hərəkatın artması dünyagörüşün formalaşması prosesində demokratik prinsiplərin bərqərar olunmasına kömək edirdi. Artıq dindarlara hörmət edilirdi. Təhsilin, kütləvi informasiyanın, mədəni-kütləvi tədbirlərin məzmunu zənginləşmişdi. 70-80-ci illər Azərbaycan elminin inkişafında da mühüm dövr idi. Elmi müəssisələrin (ali məktəblər də daxil olmaqla) sayı 142-dən 151-ə, elmi-tədqiqat institutları və onların filiallarının sayı 73-dən 85-ə çatmışdı [1, s.178]. 1972-ci ildə Azərbaycan Elmlər Akademiyasının Naxçıvan Elmi Mərkəzi açıldı. 1975-ci ildə "Xəzər" Elmi Mərkəzində respublikanın təbii ehtiyatlarının kosmik tədqiqi aparılmağa başlandı. 1978-ci ildə Bakı şəhərində Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyi fəaliyyətə başladı. Ali təhsil müəssisələri Elmin inkişafı sahəsində mühüm rol oynayırdı. Onların yüksək elmi potensialı həm fundamental xarakterli, həm də istehsalın konkret tələblərinin təmin edilməsinə yönəldilmiş tətbiqi xarakterli araşdırmalar aparmağa imkan verirdi. SSRİ Ali Attestasiya Komissiyasının Respublikanın elmi idarələrində və ali məktəblərində namizədlik və doktorluq dissertasiyaları müdafiəsini təşkil etmək üçün onlarla ixtisaslaşdırılmış elmi şuraları fəaliyyət göstərirdi. Hər il 350-400 nəfərdən çox gənc elmi tədqiqat işlərinə cəlb edilirdi. Bu illərdə dördcildlik "Azərbaycan dilinin izahlı lüğəti" (1964-1987), üççildlik “Müasir Azərbaycan dili" (1978-1981), üççildlik "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası" (80-ci illərdə), üççildlik "Rusca-azərbaycanca lüğət" (1970-80-ci illərdə), "Azərbaycan dilinin orfoqrafiya lüğəti" (1975), "Azərbaycan dilinin etimologiya və onomastikası məsələləri" (1990), "Sovet Azərbaycanının heykəltəraşlığı" (1973), "Azərbaycan etnoqrafiyası" (I cild, 1988), "Azərbaycan Dram Teatrı" (1974), ikicildlik "Azərbaycan teatrı salnaməsi" (1975,1983), üççildlik "Azərbaycan xalçası" (1961, 1983, 1987), "Sovet Azərbaycanı musiqi incəsənətinin oçerkləri" (1974, 1976), "Azərbaycan teatrı", "Azərbaycan dekorativ-tətbiqi sənətləri", "Cənubi Azərbaycan tarixinin oçerkləri" (1985), "Cənubi Azərbaycan tarixinin məsələləri" (1991) və başqa ümumiləşdirici əsərlər nəşr olunmuşdu.

70-80-ci illərdə Azərbaycan ədəbiyyatının inkişafında mühüm nailiyyətlər qazanılmışdı. Xalq şairi Mirvari Dilbazinin "Bənövşələr üşüyəndə" (1970), "Ana qanadı" (1972), "Dağ çiçəyi" (1977), "Yasəmən fəsli", "Seçilmiş şeirlər" (1979) şeir kitablarında Vətən məhəbbəti, ana torpağa bağlılıq ideyaları, Nigar Rəfibəylinin "Günəşdən gənclik istədim", "Bizə bahar yaraşır" kitablarında Azərbaycanın gözəl təbiət mənzərələri, Azərbaycan qadınlarının mənəvi zənginliyi, vətənpərvərlik, azadlıq ideyaları, Nəbi Xəzrinin "Dərələr" (1970), "Ulduz karvanı" (1979), "Heykəlsiz abidə" (1982), "İnam" (1982), dördcildlik seçilmiş əsərləri (1983-1985) və b. şeir kitablarında vətənin, onun təbii gözəlliklərinin, insanların nəcib arzu və idealları, xalq şairi Bəxtiyar Vahabzadənin "Muğam", "Atılmışlar" və b. poemalarında fəlsəfi poeziya tərənnüm edilirdi. Bu dövrdə Cənubi Azərbaycan mövzusunda yazılmış əsərlər xalqda milli şüurun oyanmasında xüsusi əhəmiyyəti daşıyırdı. M.İbrahimovun "Pərvanə" (1970) romanı, "Cənub hekayələri" silsiləsi cəmiyyətdə maraqla qarşılanmışdı.

Azərbaycanda musiqi, ifaçılıq, teatr və kino sənəti sahəsində də mühüm irəliləmələr baş verirdi. Bu dövrdə milli musiqi sənəti xeyli inkişaf etmiş, dünya musiqi sənətinə böyük töhvələr vermişdi. Ulu Öndər Heydər Əliyev Azərbaycan musiqisinin inkişafı barədə belə demişdir: “Üzeyir Hacıbəyovun Azərbaycanda yaratdığı musiqi məktəbi elə bir məktəb olub ki, ondan sonra xalqımız dünyaya bir çox görkəmli bəstəkarlar, musiqiçilər, mədəniyyət xadimləri vermişdir [6, s.38-51]. Fikrət Əmirovun "1001 gecə", Aqşin Əlizadənin "Babək" baletləri musiqi sənətinin mühüm nailiyyətləri sayılırdı . Arif Məlikov, Xəyyam Mirzəzadənin əsərləri simfonik musiqinin inkişafında mühüm rol oynayırdı. Şəfiqə Axundovanın "Gəlin qayası" operası (1972), Emin Sabitoğlunun "Hicran" musiqili komediya-

sı tamaşaçıların marağına səbəb olmuşdu. Emin Sabitoğlu, Polad Bülbüloğlu, Tofiq Quliyev, Süleyman Ələsgərov, Vasif Adıgözəlov, Elza İbrahimova, Cavanşir Quliyev, Ələkbər Tağıyev, Oqtay Rəcəbov və başqalarının mahnıları xalq tərəfindən rəğbətlə qarşılandı. Rəşid Behbudov, Zeynəb Xanlarova, Müslüm Maqomayev (nəvə), Firəngiz Əhmədova, Lütfiyar İmanov, Fidan və Xuraman Qasımovalar, Rauf Atakişiyev, Rübabə Muradova, Fərhad Bədəlbəyli, Vaqif Mustafazadə, Habil Əliyev, Həbib Bayramov, Hacı Məmmədovun ifaçılıq sənəti özünəməxsusluğu və təkrarsızlığı ilə seçilirdi. Azərbaycan simfonik musiqisinin inkişafı və təbliğində tanınmış dirijor Niyazi əvəzsiz rol oynayırdı. 70-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Dövlət Filarmoniyasında simfonik konsert gecələri təşkil olunurdu. Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Şəki, Şuşa, Ağdam, Lənkəran dram teatrlarının səhnəsində klassik və müasir mövzuda bir sıra maraqlı tamaşalar səhnələşdirilirdi. Həsən Turabov, Amaliya Pənahova, Səməndər Rzayev, Fuad Poladov, Səyavuş Aslan, Yaşar Nuri, Hacıbaba Bağırov, Arif Quliyev, Hamlet Xanızadə, Əliabbas Qədirov, Mikayıl Mirzə kimi istedadlı bir nəsil Azərbaycan səhnəsinə gəlmişdi. Görkəmli dramaturq İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı", "Qəribə oğlan" (1973), "Bağlardan gələn səs" (1975) lirik psixoloji ruhda yazılmış pyesləri, B.Vahabzadənin "Yağışdan sonra" (1971), "Əks-səda" (1975), Nəbi Xəzrinin "Sən yanmasan" (1972), Seyfəddin Dağlının "Mənziliniz mübarək" (1971), Səməd Vurğunun "İnsan" (1974) dram əsərləri müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. 1974-cü ildə Azərbaycan teatrının 100 illik yubileyi təntənə ilə qeyd edilmişdi. H.Cavidin 100 illiyi ilə əlaqədar olaraq 1981-ci ildə respublikanın bir çox teatrlarında onun əsərləri tamaşaya qoyuldu.

Bu dövrdə Azərbaycan kinosu da inkişaf edirdi. 1969-1982-ci illərdə 104 film çəkilmişdir. Bu illərdə Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə diqqəti və qayğısı nəticəsində “Dəli Kür”, “Bizim Cəbiş müəllim”, “Yeddi oğul istərəm”, “Axırıncı aşırım”, “Nəsimi”, “Babək”, “Dədə Qorqud”, “Şərikli çörək”, “O qızı tapın”, “Bir cənub şəhərində”, “Ulduzlar sayrışanda”, “Gün keçdi”, “Alma almaya bənzər”, “İstintaq”, “Ad günü”, “Tütək səsi”, “Nizami” və s. filmlər çəkilmişdir [12, s.615]. Rejissorlar B.Əliyev və N.Məmmədovun Azərbaycan cizgi filmlərinin yaradılmasında böyük xidmətlər göstərmişdilər. Bu illərdə Şəfiqə Məmmədova, Həsən Məmmədov, Rasim Balayev kimi istedadlı kino aktyorları nəsli yetişmişdi.

Bu dövrdə Azərbaycan memarlığı tərəqqi edir, yaşayış binalarının inşası ilə yanaşı, orijinal layihələr üzrə iri ictimai binalar da tikilirdi. Memarlar M.Hüseynovun, H.Ələsgərovun, Ə.Hüseynovun və b. layihələri ilə Bakıda və respublikanın digər şəhərlərində milli memarlıq elementlərini əks etdirən layihələr üzrə onlarla bina tikilmişdi. Bakıda "Bakı" (1970), "Azərbaycan" (1970), "Qarabağ" (1970), "Respublika" (Lenin adına sarayı) (1972), "Moskva" (1978), "Abşeron" (1985) mehmanxanaları, "Gülüstan" sarayı (1978), Gəncədə "Kəpəz", Şəkidə "Şəki", Şuşada "Şuşa" mehmanxanaları inşa edilmişdi. Bakı metropoliteninin "Nizami", "Əcəmi" və b. stansiyaları müasir və milli memarlıq elementləri əsasında inşa olunmuşdu. Azərbaycan heykəltəraşları Cəlal Qaryağdının "N.Nərimanov" (1972), Mirələsgər Mirqasımovun "C.Məmmədquluzadə" (Naxçıvan, 1974), Fuad Əbdürrəhmanovun "M.Hüseynzadə" (1973), "Y.Məmmədəliyev" (Ordubad, 1977), Tokay Məmmədov, İbrahim Zeynalovun "Nəsimi" (1979), "C.Cabbarlı" (1982), Elmira Hüseynovanın "H.Zərdabi" (1983) və bir sıra uğurlu əsərlər yaratmışdılar [12].

Azərbaycanın istedadlı fırça ustaları Tahir Salahovun "R.Rza" (1971), "D.D.Şostakoviç" (1975) portretləri və b. əsərləri, Salam Salamzadənin "Çay plantasiyası" (1970), Mikayıl Abdullayevin "İmadəddin Nəsimi" (1973), "Pianoçu F.Bədəlbəyli" (1975) portretləri boyakarlığının ən görkəmli nümunələri idi. Səttar Bəhlulzadənin "Azərbaycan nağılları" (1970), "Suraxanı atəşgahı" (1970), "Abşeron tacı" (1970), "Əfsanəvi torpaq" (1971), "Naxçıvan axşamçağı", "Ordubad bağlarında" (1974) tabloları Azərbaycan xalqının müasir həyatının çoxplanlı poetik salnaməsidir.

***Nəticə***. 70-80-ci illər Azərbaycan mədəniyyətinin inkişafında mühüm dövr olmuşdur. Heydər Əliyevin milli oyanış siyasəti sayəsində elm, təhsil, mətbuat, ədəbiyyat və incəsənətin tərəqqisi üçün mühüm imkanlar açıldı. Respublikanın mənəvi sərvətləri, kadr potensialı artdı. Xalqın mədəni irsinin, tarixinin, dilinin öyrənilməsi və təbliği geniş vüsət aldı.

Ümumilli lider Heydər Əliyev tərəfindən qorunub saxlanılan siyasi, iqtisadi, sosial-mədəni tərəqqi Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf etdirilir. Müstəqilliyimizin bərpasından sonra respublikanın daxili və xarici siyasətində əldə edilən nailiyyətlərin ümumi nəticələri xalqımızın

milli-mənəvi dəyərlərinn inkişafına müsbət təsir göstərmişdir. Prezident İlham Əliyev mədəniyyətin müxtəlif sahələrinin inkişafı ilə bağlı dövlət proqramı, 500-dən çox fərman və sərəncam imzalamışdır Bu fərmanların həyata keçirilməsi nəticəsində Azərbaycan mədəniyyəti dünya mədəniyyəti məkanında layiqli yer tutur [9, s.307]. Azərbaycan xalqının dili, dini, milli-mənəvi dəyərləri onun kimliyinin, zənginliyinin, mənəvi varlığının səviyyəsinin göstəricisidir. Dövlətimiz ölkənin ərazi bütövlüyünü, sərhədlərini qorumaqla yanaşı, həmçinin xalqın dilini, milli-mənəvi dəyərlərinin qorunmasına və inkişafına xidmət edir.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı, "Elm", 2008, 608 s. + 80 s. illüstrasiya.
2. Abdullazadə F., Ələsgərov, F., Əlirzayev, Ə., Əliyev, Ş. və başqaları. Azərbaycan Respublikası 1991-2001. Bakı, XXI – Yeni Nəşrlər Evi, 2001, 280 s.
3. Əliyev H. Müstəqilliyimiz əbədidir. IV kitab, Bakı, Azərnəşr, 1997, 528 s.
4. Əliyev Heydər. Müstəqillik yolu: seçilmiş fikirlər. Bakı, Azərbaycan Universiteti, 1997, 136 s.
5. Əhmədov A. Azərbaycanda din və dini təsisatlar. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı,1991,200 s.
6. Heydər Əliyev. Mədəni irsimizin keşiyində. I kitab. Bakı, Nurol, 2001, 440 s.
7. Qaffarov T. Azərbaycan tarixi. 1920-1991. Bakı, Mütərcim, 1999, 280 s.
8. Müstəqil dövlətimiz və parlamentimiz. Tərtibçilər: A.Babayev, H.Babayev. Bakı, Azərbaycan Respublikası Milli Məclisinin nəşri, 2001, 552 s.
9. Azərbaycan Respublikasının tarixi (2003-2016). Bakı, Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, 716 s.
10. Zeynalov, İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafı XX əsrin II yarısında. Bakı, Azərnəşr, 2004, 326 s.
11. Zeynalov, İ.X. Totalitar sovet cəmiyyəti: Tarixin ibrət dərsləri. Bakı, "Ləman nəşriyyatı poliqrafiyası" MMC, 2017, 724 s.
12. Zeynalov, İ. Azərbaycanın milli-mənəvi dəyərləri intibah dövründə (1969-1982-ci illər) // Akademik Tarih ve Düşünce Dergisi , C.9, S.3, 2022, s.606-625.
13. Народное образование и культура в Азербайджанской Республике, с.173.

**РАШИД МЕХТИЕВ**
*Докторант кафедры истории Азербайджана (гуманитарные факультеты)*
*Бакинского государственного университета*

## НАЧАЛО НОВОГО ЭТАПА В РАЗВИТИИ НАЦИОНАЛЬНЫХ И ДУХОВНЫХ ЦЕННОСТЕЙ С ПРИХОДОМ К ВЛАСТИ В АЗЕРБАЙДЖАНСКОЙ ССР ГАЙДЕР АЛИЕВА

В научной статье освещается прогресс, произошедший в общественно-политической, экономической, культурной и духовной жизни республики за короткое время после прихода к власти Гейдара Алиева, работа, проделанная в области защиты и обогащения нашего национального и были исследованы нравственные ценности. Когда Гейдар Алиев находился у власти в нашей республике в 1969-1982 годах, он подходил к нашему языку, истории, культуре, музыке, литературе с точки зрения интересов государственности. Его целью было создание нашего независимого государства путем экономического развития Азербайджана, национального возрождения народа, пробуждения национального самосознания. Гейдар Алиев расценивал национальные нравственные ценности как одно из важнейших направлений и составляющих национальной идеологии. В статье рассматриваются сферы, оказывающие положительное влияние на развитие нашей национальной культуры: наука, образование, различные области искусства, а также работа, проводимая в направлении пропаганды нашего культурного наследия.

*Ключевые слова:* Гейдар Алиев, национально-нравственные ценности, азербайджанская культура, национальное пробуждение, национальная идеология, культурное наследие.

**RASHİD MEHDİYEV**
*Doctoral student of the Department of History of Azerbaijan (humanitarian faculties) of Baku State University*

## BEGINNING OF A NEW STAGE IN THE DEVELOPMENT OF NATIONAL AND SPIRITUAL VALUES WHEN HAYDER ALIYEV CAME TO POWER IN THE AZERBAIJAN SSR

In the scientific article, the progress that took place in the social-political, economic, cultural and spiritual life of the republic in a short time after Heydar Aliyev came to power, the work done in the field of protection and enrichment of our national and moral values were investigated. When Heydar Aliyev was in power in our republic in 1969-1982, he approached our language, history, culture, music, and literature from the point of view of statehood interests. Its goal was to create our independent state by developing Azerbaijan economically, national revival of the people, awakening of national consciousness. Heydar Aliyev assessed national moral values as one of the most important directions and components of national ideology. The article examines the areas that have a positive impact on the development of our national culture: science, education, various fields of art, and the work done in the direction of the promotion of our cultural heritage.

*Keywords:* Heydar Aliyev, national-moral values, Azerbaijani culture, national awakening, national ideology, cultural heritage.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*

**UOT 94**

**AYNUR HACIQƏDİRLİ**

*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Türkdilli əlyazmaların tədqiqi şöbəsi, tar.ü.f.d., dosent*
**TarixVeOnunProblemleri@gmail.com**

# MƏHƏMMƏD PEYĞƏMBƏRİN DİNİ FƏALİYYƏTİNDƏ MƏDİNƏ MƏRHƏLƏSİ

*Məhəmməd peyğəmbər 40 yaşında ikən öz həmtayfalarını bir Allaha iman gətirməyə çağırdı. Məhəmmədin təbliğ etdiyi yeni dini həyat yoldaşı Xədicə, Əli, azad etdiyi Zeyd və Əbu Bəkr qəbul etdilər. Bundan sonra, islamı qəbul edənlər Məhəmməd peyğəmbərlə birlikdə gizli surətdə dağların yamaclarında ibadət etməyə başladılar.*

*Məhəmməd peyğəmbərin dini fəaliyyəti iki mərhələyə bölünür: Məkkə mərhələsi və Mədinə mərhələsi. Hər iki mərhələ bir-birini tamamlayır. Belə ki, birinci mərhələ peyğəmbərliyin verilməsi və onun məkkəlilərə çatdırılması, eləcə də, Məhəmmədin peyğəmbərliyinə qarşı mübarizənin başlanması, ikinci mərhələ isə Mədinədə baş verən proseslərlə səciyyəvidir.*

*Açar sözlər*: Məhəmməd peyğəmbər, Məkkə, Mədinə, karvan yürüşləri, Xudeybiyə müqaviləsi.

***Giriş.*** Dövlət və din cəmiyyətin əsasını təşkil edən iki mühüm elementdir. Birincisi qanunun aliliyini nəzərdə tutur, kincisi isə qanunun mahiyyəti-əxlaq və mənəviyyat deməkdir. Hakimiyyət, əxlaq və mənəviyyat əslində cəmiyyətin həyatında bir-birini tamamlayır [8, s.20].

Bu bir həqiqətdir ki, dünyanın qəlbi insanlığın özünü dərk etdiyi tarixdən etibarən Yaxın Şərqdə döyünməyə başlamışdır. Qədim Misirin Nil deltasından başlayaraq Ağ dənizin şərq sahilləri, Fırat hövzəsi və Mesopotamiya da daxil Bəsrə körfəzinə qədər uzanan və ərəb yarımadasının şimal sərhədlərini də özünə qatan bu bərəkətli torpaqlar (fertile-crescent) hər dövrdə böyük siyasi hadisələrə, mədəni inkişaflara səhnə olmuşdur [10, s.14].

***Əsas mətn***. Bəşər tarixinin inkişafına özünəməxsus dəyişikliklər gətirən yeni səmavi - İslam dininin banisi Məhəmməd peyğəmbər Məkkədə hakim mövqeyə malik olan qureyş tayfasından idi. Atası Abdullahın ölümündən az sonra Məhəmməd Peyğəmbər 570-ci il aprelin 20-də dünyaya gəlir. Bir çox alimlər onun 571-ci il aprelin 20-də anadan olduğunu da qeyd edirlər [4, s.75]. 6 yaşında anasını da itirən Məhəmməd əvvəl babası Əbdul Muttəlibin, daha sonra isə əmisi Əbu Talibin himayəsində böyüyür. 17 yaşına çatanda o, artıq sərbəst olaraq ticarətlə məşğul olur və Yəmənə səfər edir. Bu zaman Məhəmməd peyğəmbər Məkkənin ən varlı və nüfuzlu əsil-nəcabətli qadınlarından biri olan Xədicə ilə ailə həyatı qurur. Xədicədən Məhəmməd peyğəmbərin üç oğlu, dörd qızı dünyaya gəlir. Lakin onun oğlan övladları vəfat edir.

Özündə bəzi dəyişikliklər hiss edən Məhəmməd Hira dağında özünə ayrıca bir mağara seçdi. 610-cu il Ramazan ayının əvvəlində Hira dağında olarkən gözünə görünən Mələk ona xitabən dedi: “Oxu”. Məhəmməd - “Mən oxumaq bilmirəm” - deyə israr etdi. Üçüncü əmr qarşısında Məhəmməd titrək səslə “Nə oxuyum” - deyə soruşdu. Bu zaman Mələk müasir dövrümüzdə istifadə edilən Quranın “Ələq” surəsini buyurdu və Məhəmməd oxudu.

Xədicə hadisəni xristianlığı qəbul etmiş, Tövrat və İncili yaxşı bilən Varada ibn Nofələ danışır. O, bildirir ki, “Məhəmmədə gələn mələk Musaya və İsaya gələn mələkdir. Xristian mənbələri yeni peyğəmbərin zühurunu əvvəlcədən bildirirlər” [2, s.34].

Məhəmməd peyğəmbər 40 yaşında ikən öz həmtayfalarını bir Allaha iman gətirməyə çağırdı. Məhəmmədin təbliğ etdiyi yeni dini həyat yoldaşı Xədicə, Əli, azad etdiyi Zeyd və Əbu Bəkr qəbul etdilər. Bundan sonra, islamı qəbul edənlər Məhəmməd peyğəmbərlə birlikdə gizli surətdə dağların yamaclarında ibadət etməyə başladılar. İslamı qəbul etmiş kişilərin sayı 30-32 nəfərə çatanda müsəlmanlar namaz qılmaq üçün İslamı qəbul etmiş Əqrəmin Səfa dağının ətəyində yerləşən evində yığışmağa başladılar [9, s.114].

Əbu Sufyan başda olmaqla Məkkə əyanları Məhəmmədə qarşı çıxırdılar. Onlar qorxurdular ki, təkallahlığın təbliği Kəbənin tənəzzülünə gətirib çıxara bilər və bu nəinki zəvvarların buraya axınını azalda, habelə ticarətin zəifləməsinə gətirərək, Məkkənin siyasi və dini nüfuzunu heçə endirə bilər.

O, 12 il ərzində Məkkədə təqib, təzyiq, təhqir və qəsd cəhdlərinə baxmayaraq, İlahi tərəfindən müəyyən edilmiş bir vəzifənin yerinə yetirilməsi, yəni islam dininin yayılması uğrunda apardığı mübarizədən dönmədi. Xədicə xanım və əmisi Əbu Talibin vəfatından sonra Peyğəmbərin durumu daha da çətinləşdi.

Məhəmməd peyğəmbərin dini fəaliyyəti iki mərhələyə bölünür: Məkkə mərhələsi və Mədinə mərhələsi. Hər iki mərhələ bir-birini tamamlayır. Belə ki, birinci mərhələ peyğəmbərliyin verilməsi və onun məkkəlilərə çatdırılması, eləcə də, Məhəmmədin peyğəmbərliyinə qarşı mübarizənin başlanması, ikinci mərhələ isə Mədinədə baş verən proseslərlə səciyyəvidir.

İslam dini yarandığı ərəfədə Yəsribdə üç yəhudi qəbiləsi ilə Aus və Xəzrəc adlanan ərəb qəbilələri birlikdə yaşayırdılar. Geneoloji cəhətdən Cənubi Ərəbistan tayfalarının bir qolu olan bu ərəb qəbilələri təqribən eramızın II və ya III yüzilliklərində Yəməndə Ərim selinin baş verməsi və Məğrib səddinin dağılmasından sonra Yəsribə gəlmiş və Manat adlı bütə sitayiş edirdilər.

Yəsribdə Xəzrəc və Aus qəbilələri arasında daima qarşıdurma və qanlı döyüşlər olurdu. Xəzrəc və Aus qəbilələri öz aralarındakı ziddiyyət və çəkişmələri aradan qaldıra bilmirdi. Bu tayfalar arasındakı mübarizədə qələbə yəhudilərin hansı tərəfi dəstəkləməsinə bağlı idi. Ərəblər isə bunda özlərinə təhlükə görürdülər. Bu təhlükəni aradan qaldıra biləcək yeganə qüvvə kimi Məhəmməd peyğəmbərin missiyasına böyük ümidlər bəsləyirdilər. Yəsrib sakinləri bu üzücü və bezdirici müharibələrə son qoyub, onları vahid mərkəzdə birləşdirəcək xarici bir gücün gəlişini arzulayırdılar [6, s.531].

Yəsrib ərəbləri Məkkənin qureyş hakimlərinə qarşı düşmən mövqedən çıxış edirdilər. Bunun əsas səbəbi Məkkə qureyşilərinin Yəsrib ərəblərinin ticarətinə müdaxilə etməsi və onu nəzarət altına almaq istəməsi idi. Ona görə də, onlar təkallahlılığı təbliğ edib, qureyşilərə qarşı çıxan Məhəmməd peyğəmbəri öz sıralarına qəbul etməyə hazır idilər. Yəsrib tacirləri Məhəmməd Peyğəmbəri öz şəhərlərində yaşamağa dəvət etdilər. Onlar Peyğəmbərdən Yəsrib tayfaları arasındakı çəkişmələrə və intiqam hisslərinə son qoymaq məqsədilə münsiflik vəzifəsini üzərinə götürməyi xahiş etdilər. Nəhayət, Məhəmməd Peyğəmbər onun şərtləri qəbul ediləcəyi təqdirdə təklifə razılıq verəcəyini bildirdi.

622-ci il sentyabrın 20-də Məkkədə peyğəmbərliyə başladıqdan 12 il sonra Məhəmməd vahənin mərkəzi yaşayış məntəqəsinə – Yəsribə gəldi. Bu hadisə İslam tarixində "hicrət (köç)" adlanır. Məhəmmədin Yəsribə gəlməsindən sonra bu şəhər "Mədinət ən-Nəbi"–"Peyğəmbər şəhəri" adlanmağa başladı. Əvvəlcə peyğəmbərin məsləkdaşları – səhabələri, sonra isə o özü də yaxın dostu, ilk müsəlmanlardan biri Əbu-Bəkrin müşayiəti ilə məkkəlilərdən gizli şəkildə Mədinəyə hicrət etdi. Hicrətdən 16 il sonra, Ömər ibn əl-Xəttabın xəlifəliyi dövründə Əli ibn Əbu Talibin məsləhəti ilə Peyğəmbərin hicrət günü müsəlman təqviminin başlanğıc nöqtəsi kimi götürüldü [9, s.132].

Mədinəyə hicrət edənlər mühacirlər, islamı qəbul edən yəsriblilər və peyğəmbəri qoruyanlar isə ənsarlar adlandılar. Peyğəmbərin dini fəaliyyətində Mədinə mərhələsi xüsusi əhəmiyyət daşıyır. Mədinə də Məkkə kimi hərəm – yəni "Allahın hörmətli ərazisi" elan edildi.

Peyğəmbər Mədinə əhalisinin sayını, etnik tərkibi və dini müxtəlifliyini nəzərə alaraq, bu fərqli toplumlarla birlikdə yaşamağın şərtlərini formalaşdırmaq istəyirdi. Çünki on minə qədər əhalisi olan Mədinədə 1500-ə yaxın müsəlmanlarla yanaşı, 4000 yəhudi, 4500-ə yaxın da ərəb muşriki var idi. Buna görə də, bu müxtəlif toplumlar arasında ortaq məxrəc tapılmalı idi.

Mədinədə islamı qəbul etmiş Aus və Xəzrəc qəbilələri ilə ilk müqavilə bağlandı [6, s.532]. Müqavilə bağlayan qəbilələr Məhəmməd Peyğəmbərin qərarlarını sözsüz qəbul edəcəklərini bildirdilər. Yazılı şəkildə təsdiq edilən müqavilədə bir sıra müddəalar özünə yer almışdır. İlk olaraq, müqavilədə mühacirlərin və islamı qəbul etmiş qəbilələrin adları qeyd edilmişdi. Müqaviləyə görə, hər bir qəbilə öz aralarında tökülmüş qanın əvəzini (qanpulu, diyet) ödəməkdə iştirak edəcək, hərbi əsirlərin azad edilməsi üçün alınan fidyələr müsəlmanlar arasında ədalətlə bölünəcəkdir. Bütün qəbilələr xoş niyyətli, xeyirxah olmalı, cəmiyyətdə baş verən mənfi halları birlikdə dəf etməlidirlər. Dinindən və əqidəsindən asılı olmayaraq, pis əməllərdən çəkinməli və cinayət törədənlərin cəzalandırılmasında müştərək iştirak etməlidirlər. Müqaviləni bağlayan tərəflər Məhəmməd Peyğəmbərin göstərişlərinə əməl etməli idilər.

İkinci müqavilə, Mədinədə əhalinin 40%-dən çoxunu təşkil edən yəhudilərlə bağlandı [6, s.533]. Yəhudilər də müharibə təhlükəsinə qarşı eynilə müsəlmanlar kimi dəstək verməli idilər. Yəhudi qəbilələri dini həyatlarını sərbəst yaşadığı kimi, müsəlmanlar da eyni azadlıq şəraitində dinlərinə etiqad edəcəkdilər. Bu durum hər bir qəbilə və toplumun aşağı qolu olan kiçik qəbilələrə də şamil edilirdi. Nə qureyşilərə, nə də onlarla ortaq olanlara qapı açılmayacaq, onlardan heç kim himayə edilməyəcəkdi. Mədinə müştərək mühafizə ediləcək və müdafiədə yardımlaşmaq bir əsas olacaqdı.

Heç kim qarşı tərəfə zərər verməyəcəkdi. Haqsız yerə bir adamı öldürən və ya yaralayan kimsələrin gizlənməsinə və gizlədilməsinə yol verilməyəcək, cinayət törədənlər lazımı cəzanı alacaqdı. Müqaviləyə zidd davranışa yol verilməyəcəkdi. Müsəlmanlar Quranın hökmləri, yəhudilər də öz kitabları Tövratın hökmlərinə əsasən aralarında yaranan problemləri həll edəcək və heç kim başqasının dini anlayışına müdaxilə etməyəcəkdi. Mədinədə yaşayan yəhudi qəbilələri Məhəmməd Peyğəmbərlə bağlanan müqaviləni imzaladı. Hər iki müqavilənin sonunda qeyd edilirdi ki, Mədinədə yaşayan qəbilələr arasında hər hansı bir ixtilaf yaranarsa, bu məsələ yenə də Allahın əmrləri və Onun Rəsulu Məhəmmədin hakimliyi ilə həll olunacaqdı.

Tolerantlıq Məhəmməd Peyğəmbərin dini fəaliyətində mühüm yer tuturdu. O deyirdi: "Asanlaşdırın, çətinləşdirməyin, müjdələyin, qorxutmayın" [ 4, s.316]. Peyğəmbər dinindən, dilindən, irqindən və millətindən asılı olmayaraq, hər kəs qarşı tərəfin etiqadına və fikirlərinə hörmətlə yanaşmalıdır düşüncəsini aşılayır, insanlara münasibətlərin asanlaşdırılmasını, çətinlik yaratmamasını, qorxu-hədə ilə rəftar etməməsini tövsiyə edirdi. Peyğəmbər digər dinin daşıyıcılarına "Sizin lininiz sizin, bizim dinimiz bizim" demişdir [6, s.531]. O, Mədinədə qarşıdurma olmadan, müştərək yaşamağın üstünlüklərini mədinəlilərə təbliğ edirdi.

Peyğəmbərin evinin yanında tikilmiş ilk məsciddə namaz qılarkən müsəlmanlar üzlərini Qüdsə tərəf tuturdular. Moizələrdə yəhudilərin və müsəlmanların etiqadlarının yaxınlığı haqqında fikirlər zamanla daha geniş təbliğ edilirdi. Lakin əksinə oldu. Mədinənin bir sıra yəhudiləri Məhəmmədin birinci düşmənləri sırasında durdular. Onlar Məhəmmədi nəinki peyğəmbər kimi tanımır, hətta onun iddialarını lağa qoyur, özünü isə müqəddəs kitabları bilməməkdə günahlandırırdılar. Onlar peyğəmbərin düşmənləri ilə gizli və açıq sazişlərə girirdilər və ehtimal olunur ki, onun həyatına edilmiş bəzi sui-qəsdlərdə onların da əli olmuşdur. Buna cavab olaraq, hicrətin ikinci ilində qiblə dəyişdirildi. Bundan sonra, müsəlmanlar üzlərini Qüdsə deyil, Kəbəyə tutmağa başladılar [5, s.28]/ "Nəhcül-Bəlağə" kitabında da göstərilir: "Kəbəni ziyarət edib, həcc etmənizi də sizə məsləhət bildi". O evi xalqa məsləhət bildi" [3, s.27].

Məhəmməd Peyğəmbər yəhudilərin müsəlmanlarla bir yerdə yaşamasının əleyhinə olmamışlar. Yeddinci hicri ilinin əvvəlində Xeybərin fəthindən sonra Peyğəmbərin vəfatına qədər keçən dörd il ərzində müsəlmanlarla yəhudilər bir yerdə yaşamaq təcrübəsinin ən yaxşı nümunəsini göstərmiş oldular. Bəhs etdiyimiz dövrdə, Mədinədə kifayət qədər yəhudi ticarətlə məşğul olmuşdur. Məhəmməd peyğəmbərin dövründə Ərəbistanın müxtəlif yerlərində kifayət qədər yəhudi yaşamışdır. Peyğəmbər səhabə Zeyd bin Sabitə süryani və ibrani dillərini öyrənməyi tövsiyə etmişdi. Xeybərin fəthində Peyğəmbərlə birlikdə ona yaxın Mədinə yəhudisi də iştirak etmişdir. Xeybərin fəthi zamanı əksəriyyətinin dəmirçilik və sənətkarlıq peşəsilə məşğul olan otuza yaxın yəhudi əsir alındı. Həmin yəhudilər dəmirçilik və zərgərlik sənətlərini müsəlmanlara öyrətmələri şərtilə sərbəst buraxıldılar. Məhəmməd peyğəmbərin zirehini Mədinədə bir yəhudi saxlayırdı. Məhəmməd peyğəmbərin həyat yoldaşı Səfiyyə də yəhudi idi.

Məhəmməd Peyğəmbər Səfiyyə adlı xanımının ağladığını görərkən səbəbini soruşduqda bildirir ki, o, Peyğəmbərin digər xanımları - Ayişə və Hafisənin Peyğəmbərin həm də əmiqızları olduğunu öyrəndiyi üçün məyusdur. Onda Peyğəmbər "Gərək sən də onlara məndən çox necə fəzilətli ola bilərsiniz? Yoldaşım Məhəmməd, atam Harun, əmim də Musadır deyərdin" söyləyərək ona təsəlli vermişdir [1, s.140].

Ömərin hakimiyyəti illərində Peyğəmbərin həyat yoldaşı Səfiyyənin yəhudi qohumları ilə əlaqə saxladığı və onlara yardım etməsi də nümunə kimi göstərilmişdir.

Mədinədə mühacirlər və ənsarların yaratmış olduqları icma-umma adlanırdı. Bu qurum Ərəbistanda mövcud olan bütün icmalardan fərqlənirdi. Başlıca fərq bu icmanın üzvlərinin bir dini təlimə

itaət etmələri idi. Onun rəhbəri Allah ilə əlaqə saxlayan və cəmiyyətdə xüsusi nüfuzu olan Məhəmməd peyğəmbər idi. Ummanı Ərəbistandakı icmalardan fərqləndirən digər mühüm cəhət onun tayfa və qəbilələrarası əlaqələrdən yuksəkdə durması idi. Yəni onun qərarları hamı üçün, bütün tayfa və qəbilələr üçün həyata keçirilməsi vacib olan qərarlar kimi qəbul olunurdu. Burada yaranmış müsəlman icması Ərəbistanın gələcək birliyinin özəyi oldu.

Məhəmməd heç də Məkkənin çoxallahlığı əsas sitayiş obyekti hesab edən əyanları ilə mübarizədən əl çəkmədi. Hicrətin ilk illərində Məhəmməd peyğəmbər Mədinədəki müsəlmanların sosial durumunun yaxşılaşmasına müsbət təsir göstərən karvan yürüşlərinin edilməsini məqsədəuyğun hesab etdi. Onlar Məkkənin ticarət fəaliyyətini dondurmaq istəmiş və buna Məkkədən Suriyaya gedən yolu kəsməklə nail olmuşlar. Məkkəyə gedən həmin karvanların qarət edilməsi müsəlmanlara xeyli qənimət əldə etməyə imkan verirdi. Yürüşlər 623-cü ildən -627-ci ilə qədər davam etmişdir. Yalnız bir döyüş 625-ci ildə Uhud dağı yaxınlığında mədinəlilərin məğlub olması istisna olmaqla bütün döyüşlərdə müsəlmanlar qələbə çalmışlar. 627-ci ildə məkkəlilərin 10 minə yaxın ordu ilə Mədinəyə yürüşü də uğursuz oldu.

628-ci ildə Xeybər müsəlmanlar tərəfindən fəth edildi. Yəhudilərin başçılarından Huyey ibn Əxtəbin qızı Səfiyyə Məhəmməd peyğəmbərlə ailə həyatı quraraq, islam dinini qəbul etdi [4, s.267].

Əbu Sufyan Mədinəyə gəldi və Məkkənin təhvil verilməsinə dair danışıqlara başladı. Qərara alındı ki, Məkkə yalnız dini mərkəz olaraq qalacaqdır. Belə ki, qureyşilər islamı qəbul edirdilər, bunun müqabilində Məkkənin idarəçiliyi yenə onların əlində qalırdı.

628-ci ildə Xudeybiyə adlı yerdə aşağıdakı şərtlər əsasında müqavilə imzalandı.

1. On ilik barışıq əldə edilməli; 2. Müsəlmanların Kəbəyə ziyarətinə icazə verilməli; 3. Məhəmməd Məkkə karvanlarına hücumdan imtina etməli idi [2, s.44]. Bu müqavilə müsəlmanların ilk diplomatik uğuru hesab olunur.

Məkkəlilərlə bağılanmış müqavilənin əsas maddələrindən biri məkkəlilərin mühacir və ənsarların malik olduqları hüquq və səlahiyyətləri çərçivəsində müsəlman icmasına qəbul edilmələri oldu. Məkkənin müsəlman icmasına verilməsindən sonra müsəlman icması genişlənərək, Mədinə–Məkkə icması adlanmağa başlandı. Bundan sonra, islam dininin Ərəbistanda yayılması sürətləndi. Bununla da, peyğəmbərin dini fəaliyyətində Mədinə mərhələsi bitmiş oldu.

Məhəmməd Peyğəmbərin məkkəlilər üzərində qələbə çalmasının bir sıra səbəbləri vardı. Məhəmməd Peyğəmbər, onun dini təliminə və siyasətinə qarşı çıxan yəhudi tayfalarını Mədinədən çıxartdı. Digər tərəfdən isə, Mədinə ilə rəqabət aparan bədəvi tayfaları ilə ittifaq bağlayaraq, Məkkənin siyasi nüfuzunu zərərsizləşdirdi. Bunun nəticəsində qüvvələr nisbəti Peyğəmbərin xeyrinə dəyişmiş oldu. Yaranmış şərait Əbu Sufyan və onun tərəfdarlarını mövcud durumla barışmaq və Peyğəmbərlə danışıqlar aparmaq məcburiyyətində qoydu.

Yeni dinin ərəb cəmiyyətinə gəlməsi ilə əlaqədar, ictimai və sosial münasibətlər köklü şəkildə dəyişməyə başladı. Mədinə-Məkkə icması tədricən dövlət institutlarının fəaliyyətini həyata keçirirdi. Peyğəmbərin dini-siyasi fəaliyyətinin məntiqi nəticəsi kimi ərəblər özlərinin ilk feodal dövlətini qurmağa başladılar. Cəmiyyətdə ictimai təbəqələşmə gedirdi, sinfi münasibətlər formalaşırdı. 630-cu ildə isə əhali tamamilə onun tərəfinə keçdi və həmin ildə də ilk ərəb feodal dövlətinin əsası qoyuldu. [2, s.45] Fəaliyyətinin ilk dövrlərində islamın qəbulunu hər kəsin öz vicdanına həvalə edən, yalnız inandırma və təlqin yolundan istifadə edən Məhəmməd peyğəmbər 20-ci illərin sonu – 30-cu illərin əvvəllərində siyasi üstünlüyü əldə etdikdən sonra bütpərəstliyə qarşı qəti mübarizə elan etdi.

Artıq Ərəbistanın digər icma və tayfaları da Məhəmməd peyğəmbərlə ittifaqa girməyə cəhd göstərirdilər. Bununla da, Məhəmməd peyğəmbər öz dinini dinc formada təbliğ etmək imkanı qazandı. Yəhudilər və xristianlar isə müsəlmanların tabeliyini qəbul etməklə öz müdafiələri üçün vergi ödəməli idilər. Bütlər məhv edildikdən sonra Kəbə İbrahim və İsmayılın məbədi kimi müsəlmanların müqəddəs yerinə çevrildi. Hicrətdən on il keçdikdən sonra Məhəmməd peyğəmbərin dini fəaliyyəti öz bəhrəsini verdi. Qədim ayinlər tədricən unuduldu, yarımadanın mənəvi durumu xeyli yaxşılaşdı, tayfalar arasında qanlı ara müharibələrini belə bir təlim əvəz etdi: müsəlmanlar qardaşdırlar.

Məhəmməd Peyğəmbər müsəlmanların təhsilə, elmə yiyələnməsi üçün bir sıra tövsiyələr verməklə, onlarda böyük maraq oyatmış və bu sahədə əməli tədbirlər də həyata keşirmişdir. Bunu Məhəmməd Peyğəmbərin fikirlərindən gətirilən aşağıdakı nümunələr də bir daha sübut edir:

"Ya elm öyrən, ya öyrət, ya elm öyrədənləri dinlə, ya elm əhlini sev. Bunlardan başqa yana getsən, özünü məhv etmiş olarsan";

"Elm öyrənmək kişili-qadınlı bütün müsəlmanların borcudur";

"Mən elmin şəhəriyəm, Əli isə bu şəhərin qapısıdır";

"Elm Çində də olsa, onun ardınca gedin" və sairə [2, s.82].

Hicrətdən sonra Məhəmməd Peyğəmbər ibadət yeri ilə yanaşı tədris-təhsil mərkəzi olan Məscidi-Nəbəvini inşa etdirmişdir. Məscidə bitişik "Suffə" deyilən məkanda Peyğəmbər və digər müəllimlər tələbələrə Quran və yazı tədris edirdilər. Suffədəki tələbə sayı bəzən dörd yüzə çatırdı. Bədr müharibəsində əsir götürülən muşrik müəllimlərdən də tədrisə cəlb etmişlər. Azadlıq əldə etmək üçün pula odəyə bilməyən, lakin yazıb-oxumağı bacaran muşriklər on müsəlman uşağına yazı öyrətməklə sərbəst buraxılmışlar. Bu səbəbdəndir ki, Məhəmməd Peyğəmbər "Hikməti (elmi, biliyi) muşrikdən də olsa öyrənin" demişdir. Peyğəmbər Məscidi-Nəbəviyə elm üçün gələnləri Allah yolunda mücadilə edənlərlə bir tutmuşdur. Təhsilə marağın artması Mədinədə yeni-yeni tədris müəssisələrinin açılmasına səbəb olmuşdur. Məscidi-Nəbəvidən əlavə tədrislə məşğul olan doqquz məscid fəaliyyət göstərirdi. Onun dövründə qadın müəllimlər də var idi. Şəfa (Ummu Suleyman ibn Heysəmə) Peyğəmbərin xanımlarından Hafisəyə yazı öyrətmişdir.

Məhəmməd yazıya böyük önəm vermişdir. Qurani-Kərimdə yazı zamanı istifadə edilən qələmə və onunla yazılanlara and içilmişdir. Məhəmməd Peyğəmbərin hədislərinin birində deyilirdi: "Yazı-biliyin yarısıdır" [7, s.7]. Məhəmməd Peyğəmbərin ərəb yazısına töhfə verdiyi bildirilir. Bir-birinə oxşayan bir sıra hərflərə nöqtələrin qoyulmasını da Məhəmməd Peyğəmbərə aid edirlər.

Məhəmməd Peyğəmbərin tibbə aid hədislərindən görünür ki, o, xürafata söykənən yanlış müalicələrin əleyhinə çıxış etmişdir. O, həkim olmayanların tibbi sahəsində çalışmasını pisləmiş, hətta düzgün müalicə aparılmadıqda xəstələrin məruz qaldığı ziyanın qarşılığının ödənilməsini də zəruri hesab etmişdir. Səd ibn Vaqqas xəstələndiyi zaman onu ziyarət edən Peyğəmbər, müalicəsi üçün Sasanilər dövlətində təhsil alan təbib Haris ibn Kələdəni dəvət etməyi məsləhət bilmişdir: "Haris ibn Kələdəni çağırın. O, yaxşı həkimdir. Səni müalicə etsin" [2, s.83]. Əbu Bəkr ər-Razi və ibn Sina kimi görkəmli təbiblər elmi şərhlərində Qurani-Kərimin və Məhəmməd Peyğəmbərin tibb ilə əlaqəli hədislərinə istinad etmişlər. Bir sıra tanınmış hədis alimləri Peyğəmbərin tibb ilə bağlı hədislərinə böyük dəyər vermişlər. "Kitabut-tibb" adlı əsərin xüsusi bölmələrində Məhəmməd Peyğəmbərin tibb sahəsindəki bilgiləri öz əksini tapmışdır.

***Nəticə.*** 632-ci il martın əvvəlində Məhəmməd peyğəmbərin Məkkəyə ziyarəti onun dini və siyasi fəaliyyətinin yekun aktı idi. Belə ki, Məhəmməd peyğəmbər yeni, müsəlman həcc ibadətini qəti şəkildə təsdiq etdi. O, xeyriyyəçilik məqsədilə mal-qaranın əllidə birinin və məhsulun onda birinin ödənməsini nəzərdə tutan zəkat və sədəqə vergilərini müəyyənləşdirdi.

Məhəmməd peyğəmbər qəflətən xəstələndi və iki həftədən sonra 632-ci il iyunun 8-də Mədinədə 63 yaşında dünyasını dəyişdi. Məhəmməd peyğəmbərin vəfatı icmanı lərzəyə gətirdi, onların bir çoxu peyğəmbərin ölümünə inanmırdı və onun həyata qayıdacağına ümid edirdi. Məhəmməd peyğəmbər dünyasını dəyişən zaman tarixi ədəbiyyatlarda müsəlmanların sayının 100-120 min civarında olduğu qeyd edilir.

Məhəmməd peyğəmbərin yeni dininin ideoloji əsası və təməli o qədər güclü olmuşdur ki, ondan sonrakı iki Raşidiyyə xəlifəsinə İslam dinini Ərəbistan sərhədlərini aşaraq Egey sahillərinə yaymaq üçün cəmi 15 il lazım olmuşdur.

## ƏDƏBİYYAT

1. Aynur Hacıqədirli. Yəhudi xalqının tarixi. Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2019, 304 s.
2. Gülxanım Qarayeva, Aynur Hacıqədirli. Ərəb ölkələrinin tarixi. Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2021, 464 s.
3. Həzrət Əmir əl-Möminin Əli İbn Əbu Talib. Nəhcül-Bəlağə.Tehran, Süriş nəşriyyatı, 1995, 441 s.
4. İbrahim Sarıçam. Həzrəti Məhəmməd və Ümumbəşəri dəvəti. Bakı, İpəkyolu nəşriyyatı, 2013, 488s.
5. İslam, tarix, fəlsəfə, ibadətlər. Bakı, "Elm" nəşriyyatı, 1994, 336 s.
6. Könül taxtımızın bənzərsz sultanı Peyğəmbərimiz. Bakı, "Xəzər" nəşriyyatı, 2009, 559 s.

7. Мир-Багирзаде Самира. Исламское искусство (Коран и искусство). Баку, «Təknur MMC», 2009, 224 s.
8. Rafiq Əliyev. Dövlət və din. "Avropa" nəşriyatı, Bakı, 2006, 95 s.
9. Rafiq Əliyev. İslam. Bakı, İrşad mərkəzi, 2004, 331 s.
10. Zekeriya Kitapçı. Hz. Peyğamberin hadislerinde Türk Varlığı (Selçuklular, Moğollar, Osmanlılıar). İstanbul, Yuluğ Tekin Dizgi Merkezi, 1980, 281 s.

**АЙНУР ГАДЖИГАДИРЛИ**
*Институт Рукописей НАНА имени Мухаммада Физули*
*Научно-исследовательский отдел тюркоязычных рукописей,*
*кандидат философских наук, доцент*

## МЕДИНСКИЙ ЭТАП РЕЛИГИОЗНОЙ ДЕЯТЕЛЬНОСТИ ПРОРОКА МУХАММЕДА

Пророк Мухаммед, будучи в 40-летнем возрасте, призвал своих соплеменников верить в единого Аллаха. Новую религию, проповедуемую Мухаммедом, приняли его жена Хадиджа, Али, освобожденные ими Зейд и Абу Бакр. После этого те, кто принял ислам, стали тайно поклоняться на склонах гор вместе с Пророком Мухаммедом.

Религиозная деятельность Пророка Мухаммеда делится на два этапа: этап Мекки и этап Медины. Оба этапа дополняют друг друга. Таким образом, первый этап характеризуется дарованием пророчества и донесением его до жителей Мекки, а также началом борьбы против пророчества Мухаммеда, а второй этап - процессами, происходящими в Медине.

*Ключевые слова*: Пророк Мухаммед, Мекка, Медина, караванные походы, Худайбийский договор.

**AYNUR HAJIGADIRLI**
*ANAS Institute of Manuscripts named after Muhammad Fuzuli*
*Research department of Turkish-language manuscripts, Ph.D., associate professor*

## MEDİNA STAGE İN THE RELİGİOUS ACTİVİTY OF THE PROPHET MUHAMMAD

When the Prophet Muhammad was 40 years old, he called his fellow tribesmen to believe in one God. His wife Khadija, Ali, freed Zayd and Abu Bakr accepted the new religion preached by Muhammad. After that, those who accepted Islam began to worship secretly on the slopes of the mountains with the Prophet Muhammad.

The religious activity of the Prophet Muhammad is divided into two stages: the Mecca stage and the Medina stage. Both stages complement each other. Thus, the first stage is characterized by the giving of prophethood and its delivery to the Meccans, as well as the beginning of the struggle against Muhammad's prophethood, and the second stage is characterized by the processes taking place in Medina.

*Keywords*: Prophet Muhammad, Mecca, Medina, caravan marches, Khudaibiya treaty.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Rəyçilər:t.ü.f.d. Atamoğlan Məmmədli, t.e.d. İsmayıl Məmmədov.*

UOT 94

**VÜSALƏ VEYSƏLOVA**
*Gəncə Dövlət Universitetinin Ümumi tarix kafedrasının dosenti*
**vusala.veysalova@mail.ru**

# XIX ƏSRDƏ BOLQARISTANDA MƏDƏNİ-MAARİFİN İNKİŞAFI

*Bolqarıstanda təhsil hərəkatının yaranması Bolqarıstan mədəniyyərinin sürətli inkişafına kömək edən milli dirçəlişin parlaq təzahürüdür. Bolqar mədəni-maarif hərəkatının yolu son dərəcə çətin idi. Mədəni yüksəliş öz növbəsində ölkədə ictimai münasibətlərin inkişafına təsir göstərirdi. Mədəniyyətin yüksəlişi yeni təbəqəyəaktual məsələlərin həlli üçün mübarizədə istifadə olunan bilik və güc verir. Bolqar xalqının mədəniyyət və təhsil sahəsində nailiyyətləri olmuşdur. XIX əsrdə bolqar dirçəlişinin inkişafında təhsil hərəkatı əhəmiyyətli bir addım atdı.*

*Açar sözlər*: Milli oyanış, Bolqar mədəniyyəti, maarif, XIX əsr, sosial əlaqələr.

***Giriş***. XIX əsrin əvvəllərində Bolqarıstanda kapitalist münasibətlərinin inkişafı, iqtisadi yüksəliş, sosial, siyasi, mədəni-maarif sahəsində baş verən dəyişikliklər bolqar millətinin formalaşmasını sürətləndirdi. Bolqarıstanın elm və mədəniyyətinin inkişafı qədim yunanların, romalıların, frakiyalıların mədənyyəti ilə bağlı olmuşdur. Yadelli işğalçıların bolqar xalqının mədəni inkişafını ləngitməsinə baxmayaraq, onun lap qədimdən mövcud olan mədəni-maarif ənənələri tamamilə məhv edə bilməmişdi. Amma milli şürun mədəniyyətin formalaşmasında maarifin inkişafına böyük ehtiyac vardır. Əsrlər boyu Bolqarıstanda maarifin yeganə tədris ocağı kilsə hücrələrində yerləşən кeliyno-dini məktəbləri idi.

Bəzi məlumatlara görə həmin məktəblərin sayı 200-dən artıq olmuşdur [1, 26]. Kilsədə yerləşən bu məktəblərin ilk müəllimləri olan rahib və кeşişlər bir neçə illiк təhsil müddətində şagirdlərə кilsə-slavyan əlifba yazısı öyrədirdilər [2, 23]. Əlifbanı öyrənməklə bərabər dua kitabını əzbər bildiкdən sonra təhsil başa çatmış hesab olunurdu. Dini təhsil sisteminin XIX əsrin 30-cu illərinin ortalarına qədər davam etdiyi göstərilsə də, kəndlərdə çox da iri olmayan yoxsul sahələrdə XIX əsrin ikinci yarısınadək fəaliyyət göstərmişdir [5, 16]. 1816-cı ildə tikilmiş Presvyotoy Boqorodiç mitropolitiya kilsəsinin həyatində dini məktəb yerləşirdi. Məktəbin bərpası məqsədilə qazıntılar aparılarkən çox qədimdən bolqar memarlıq abidələrinə məxsus tapıntılar aşkar edilmişdi. Hələ milli oyanışdan xeyli əvvəl, Troyanski monastrı maarifin mərkəzi olmuşdu. Həmin monastrın nəzdində əvvəllər müstəqil kilsə uğrunda mübarizəyə səsləyən, sonralar isə yaxın və uzaq кəndlərin uşaqları üçün məktəb açılmışdı. Sviştovda dirçəliş dövrünün görкəmli maarifçiləri Emmanuil Vaskidoviç və Xristaki Pavloviç fəaliyyət göstərmişlər. Bolqarıstanda məşhur olan bütöv bir ziyalı dəstə - Aleko Konstantinov, Draqan Çankov, Dmitr Çenoviç, Aleкsadr Bojinov, Çvyatko Radoslavov, prof. İvan Şişmanov və b. burada doğulmuşlar [6, 25].

Vaxtilə Paisi öz çağrışı ilə həm müasirilərinə, həm də gələcək nəslə təsir göstəriş, milli şüurun oyanışında ilk qığılcım buraxmiş, xalqı bolqar məktəblərin yaradılmasına, mədəniyyətin inkişafını yüksıltməyə səsləmiş, vətəni, ana dilini sevməyi nəsihət etmişdi. Slavyan bolqar tarixinin milli dirçəlişin başlanğıc mərhəsində vacib sənəd olduğu qiymətləndirilmişdir [7, 13].

XIX əsrin birinci rübündə maddi cəhətdən güclənən bolqar ticarət-sənaye burjuaziyası yeni məktəblərin yaradılmasını zəruri hesab edirdilər. Bir tərəfdən dünyəvi təhsilə tələbatın artması, digər tərəfdən yunan və bolqar burjuaziyasının mübarizəsi sərbəst bolqar təhsilinin yaradılmasını tələb edirdi. Yeni məktəblərin açılması mədəni-maarif hərəkatı milli və dünyəvi xarakter daşıyırdı [9 .65]XIX əsrin əvvəllərində qədim bolqar yazılarından başqa qədim yunan və yeni yunan dillərini öyrədən məktəblər açılmışdır [10, 45].

Dirçəliş illərində Elen maarif mərkəzinə çevrilmiş və 1820-ci ildə yerli vəsaiti hesabına ilk ictimai məktəb binası tikilmişdi. Svistov məktəbində təhsili başa vuran tanınmış maarifçi Doyıno Qrammatikin oğlu Andrey Robovski burada müəllimlik etmişdir. Onun şagirdlərindən İvan Momçilov Afina və Odessada təhsili başa vurduqdan sonra, müəllimlik etməklə bərabər tədris proqramında yeniliklər etmişdir. Görкəmli xadimlər Petko Slaveyкov, Dobri Çintilov, İvan Kasabov, Niкola Kozlov və

b. burada oxumuşlar [11, 7].

Ellinizm burjuaziyanın yuxarı təbəqəsi - varlı tacir və sənətкarların arasında daha çox nüfuz qazanırdı. Şəhərin yoxsul əhalisi və kəndlilər yunan təbliğatından geri qalırdılar. Bir çox şəhərlərdə ellinizmin dayağı yaradılırdı. Məktəblərdə yunan təbliğatının güclənməsi bolqar əhalisi arasında parçalanmaya səbəb olurdu.

Bütün bunlarla yanaşı, bolqar milli oyanışında yunan təhsilinin təsirinin düzgün qiyməti və müsbət nəticəsini vermək lazımdır. Varlı bolqar gənclərinin yunan məktəblərindəкi təhsili bolqar milli oyanışına əhəmiyyətli təsiri olmuşdu. Yunan təhsilinin üstünlüklərinə baxmayaraq bolqar mədəni-maarif hərəkatını məhv edə bilmədilər [1, 16].

Bolqar tacirləri öz uşaqlarını xarici məktəb və universitetlərdə təhsil almağa göndərdiyi bir vaxtda Petr Qeroviç Beron Bolqarıstanın maarifçilik tarixində mühüm hadisə olan bolqar əlifbasını tərtib edir [11, 43]. Beron (1800-1871) Kotel şəhərində anadaıı olmuş əvvəl Safroniy Vraçanskinin dini məktəbində oxumuşdur. O, ilk bolqardı ki, avropa təhsili almışdır. Əvvəl Yunanıstanda, sonra, alman knyazlığında oxumuş 1831-ci ildə tibb elmlər doktoru dərəcəsi almış, Buxarestdə müəllimliк etmiş, sonralar ömrünün sonunadək tibb və başqa elmlərlə məşğul olmuşdur [8, 75]. Bolqar təhsilinin, maarifinin inkişafında əhəmiyyətli rol oynayan P.Beronun tərtib etdiyi ilк bolqar əlifbası «Рыбный букварь» 1824-cü ildə Braşov şəhəriıdə nəşr olunmuşdur. Əlifbanın meydana gəlməsi iqtisadi yüкsəlişlə bir vaxta düşmüş iqtisadiyyatın inkişafına, yeni burjua münasibətlərinin tələblərinə cavab verirdi. Beron elmi dini xurafatdan qorumaqla kilsə təhsil sisteminin əleyhinə çıxaraq «Lankasterska» qarşlıqlı təhsil sisteminin vacibliyini göstərmişdir İlк dünyəvi bolqar dərsliyi olan əlifba məktəblərdə çevriliş edərək müəllimləri orta əsrlərin köhnəliyindən ayırırdı, dərslər bolqar dilində tədris olunmağa başladı.

O zaman Bolqarıstanda ticarət burjuaziyası nümayəndələri yunan maarifçiliyi ilə maraqlanır, Rusiya və Rumıniyadakı bolqar mühaciləri isə rus və Qərbi Avropa mədəniyyəti təsiri altına düşmüşlər. XIX əsrin 30-cu illərində rus alimi Juri İvanovic Venelin slavyan xalqlarının ilk növbədə, Bolqarıstanın tarixi ilə tanış olmuş, ətraflı material toplayaraq bir sıra tarixi əsərlər yazmışdı. Beronun əlifbasının təsiri altıında yazdığı «Древние и нынешние болгары» kitabı 1829-cu ildə rus dilində çap olunmuşdur. Slavyan mənşəli bolqarlar və onların ruslarla yaxınlığından bəhs edəın kitab bolqar mühacirləri tərəfindən sevinclə qarşılanmışdı . Bolqar maarifinin inkişafında böyük rol oynamış Venelin kitabı Odessada yaşayan bolqar kommersantı və ictimai xadimi, ixtisasca həkim olan Vasili Aprilovun (1789-1847) aktiv fəaliyyətinə təkan verdi [7, 22].

XIX əsrin ikinci rübündə Qabrov Bolqarıstanın, əsas iqtisadi mərkəzi olmaqla bərabər əhalisi demək olar ki, təmiz bolqarlardan ibarət idi. Çoxlu sayda sənətkadar sex təşkilatında birləşərək, tacirlər, ticarət burjuaziyası ilə birlikdə maarifçiliк fəaliyyətinin inkişafı uğrunda mübarizə aparırdılar. Bolqar taciri və maarifçisi V.Aprilovun təşəbbüsü və köməkliyi sayəsində 2 yanvar 1835-ci ildə Qabrov şəhərində qarşılıqlı təhsilli ilk dünyəvi məktəb açıldı. Bu məktəb sonralar onun adını daşıyan ilk gimnaziya kimi məşhur olmuşdur. Məktəbin açılması bolqar maarifinin inkişafında xüsusi əhəmiyyəti olmuşdur. Məktəbdə dərslər yeni tələblərə uyğun şəkildə aparılırdı. Rilski rus kitabları və dərslikİərini bolqar dilinə tərcümə etmişdir. Dünyəvi elmlər əsasən bolqar dilində tədris olunurdu. İlk illər məktəbə şagirdlər Bolqarıstanın müxtəlif yerlərindən qəbul edilir və yoxsul uşaqlar pulsus təhsil alırdılar. Məktəbdə keçirilən qarşılıqlı təhsil metodu yeni məktəblər üçün müəllim kadrları hazırlamaq imkanına səbəb oludu. Təcrübəli maarifçilər Aprilov, Palauçov, Rilski ibtidai siniflərdə qarışıq təhsilin didaktiv, nəsihət verici üsulundan istifadəni məsləhət gördülər. Onların mədəni-maarif fəaliyyəti sayəsində Qabrov məktəbi tez bir zamanda maarifin inkişafına güclü təkan verdi və bütün Bolqarıstanda yayıldı. Qısa müddət ərzində qarşılıqlı təhsil metodu ilə təhsil verən 50-dən çox dünyəvi məktəb yaradıldı. Elə həmin dövrdə ilk qış məktəblərinin əsası qoyuldu. 1836-cı ildə Xristaki Pavloviç Qabrovo məktəb sisteminin təsiri altında özünün ellin-bolqar qarşılıqlı məktəbini təmiz bolqar məktəbinə çevirdi. Yenə də həmin ildə ticarət şəhəri Sviatovda yunanların 11 məktəbi slavyan-bolqar məktəbinə çevrildi. Varlı və zəngin kimi tanınan Çalıkov qardaşları 1836-cı ildə Koprivştiçdə yeni bolqar məktəbinin əsasını [2, 25]. 1836-1839-cu illərdə Petr Slaveyкovun uzun müddət müəllimlik etdiyi və XIX əsrin sonlarına qədər fəaliyyət göstərmiş Trevnenskaya məktəbi tikilmişdi.

Yerli xeyriyyəçi Hacı Stoyan Niкolovun təşəbbüsü və vəsaiti ilə 1842-1844-cü illərdə Sevliev

şəhərinin mərkəzində iki mərtəbəli dünyəvi təhsil verən məktəb tikilmişdi. Şair və inqilabçı P.Slaveykov 18 il bu məktəbdə qarşılıqlı təhsil metodunu tədris etmişdir. Hal-hazırda həmm məktəb binasında tarix müzeyi yerləşib, qarşısında isə Hacı Stoyan Nıкolovun abidəsi qoyulub [5, 25].

Qabrovo məktəbinin ardınca Kopriviştiç Panaqyrişt, Sopot, Karlov, Tırnov, Trevıı, Kazanlık, Sviştov, Kolofer, Sofiya, Kotel, Vraç, Rumuk, Elen, Pazardjik, Stara-zaqor və b. şəhərlərdə məktəblər açıldı Bu hərəkatın yaradıcısı və təşkilatçısı V.Aprilov 1840-cı ildə öz zəhmətinin bəhrəsini artıq on iki yeni bolqar məktəbiının yaradılmasında gördü. XIX əsrin ortalarında demək olar ki, bütün bolqar şəhərlərində hətta iri кəndlərdə qarşılıqlı tədris məktəbləri açıldı. 1845-ci ildə xalq məktəblərinin sayı artaraq 53-ə çatmışdı. Eyni zamanda dərsliklər də tərtib edilib geniş yayılırdı [11, 64]. 1835-ci ildən 1845-ci ilədək Bolqarıstanda qarşılıqlı təhsil verən çoxsaylı kişi məktəbləri yaradılmışdı.

XIX əsrin birinci yarısının son onilliyində qadın təhsili də inkişaf edirdi. Feodal münasibətlərinin ağalığı dövründə qadınlar azadlıqdan məhrum olmaqla bərabər ölkənin ictimai, mədəni həyatında iştirak etmək hüququna malik deyildilər. XIX əsrin 20-ci illərində az qismdə olsa da bəzi valideynlər öz qızlarının dini məktəblərdə oxumasına icazə verməl变rinə baxmayaraq, qızların məktəbə getməsi qəbahət sayılırdı. 1840-cı ildə Plevna şəhərində ilk daimi qadın məktəbi açıldı. Məktəbdə müəllimliyə başlayan Anastasiya Dimitrova Kaloferdə dini təhsil almışdı. Onun yetişdirmələrindən bir neçəsi Vratsedə (1843), Sviştovda (1845), Loveçdə və başqa şəhərlərdə qadın məktəbləri açmışdıİar. XIX əsrin ortalarında qadın məktəblərinin sayı sürətlə artırdı.

XIX əsrin ikinci rübündə yunan və bolqar burjuaziyası arasında ziddiyyətlərin kəskinləşməsi nəticəsində Yunanıstanda təhsil almağa can atan bolqar gənclərinin sayı əhəmiyyətli dərəcədə azaldı. Bolqarıstan təhsil sistemində dünyəvi məktəblərin formalaşması ilə yanaşı yunan mədəniyyəti təsirindən rus mədəniyyəti təsirinə keçilməsi halları da çoxalırdı. Artıq XIX əsrin 30-40-cı illərində Rusiyaya oxumağa gedən bolqar gənclərinə təqaüd verilməyə başladı. Bunun miqabilində də Rusiyanın təhsil ocaqlarında oxumağa gedənlərin sayı artırdı . Gənc bolqar ziyalı dəstələri əvvəllər də Rusiyada, bir qismi isə Yunanıstan, Valaxiya, Fransa, Serbiya, İtaliya və başqa ölkələrdə təhsil almışlar. Amma Rusiyanın bolqar təhsil sistemində təsirinin güclənməsinin başqa bir səbəbi də orada rus dərsliklərinin, ədəbiyyatlarının geniş yayılması olmuşdur. Bundan başqa Rusiyanın təhsil, maarif və kilsə təşkilatları bir çox bolqar təhsil miəssisələrinə, ilk növbədə qız məкtəblərinə maddi kömək göstərirdilər. 1840-1850-ci illərdə Rusiyada təhsil alanlar öz vətənlərinə qayıdaraq mədəni-maarif hərəkatrının tərəqqisinin yeni mərhələsini qoydular. Qarşılıqlı təhsil məktəblərinin yaradılmasından sonra sinif məktəblərinin əsası qoyuldu. Bolqar təhsilinin inkişafında növbəti addım olan ilk yeni tipli sinif məktəbi Rilskonun şagirdi olmuş ictimai xadim və maarifçi Nayden Qerov (1823-1900) tərəfindən 1846-cı ildə ticarət və sənətkarlıq şəhəri Koprivştiçdə açıldı. Şagirdlərin yaş səviyyəsinə əsasən siniflərə bölündüyünə görə sinif məktəbləri adlanırdı [4, 30].

1835-ci ildən sonra bolqar maarifinin inkişafı yunan təbliğat nümayəndələrini daha da qıcıqlandırdı. Bolqarıstanın bir çox daxili şəhərlərində, Makedoniya, Xaskov, Egey və Qars dənizi sahillərində və başqa yerlərdə yunan təbliğatı yüksək naliyyətlər əldə etmiş, açıq-aydın bolqar maarifinə qarşı hücuma keçmişlər. Kazanlıkda və Plovdivdə bolqar məktəbinin açılmasına yunan burjuaziyası yol verməmişdi. Daha dəhşətli mübarizə Xaskovda məktəb açılmasına qarşı olmuşdur. Xaskov əhalisi qalib gələrəк 1843-cü ildə məktəb açmaga nail olmuş və müəllim dəvət etmişlər. Təzyiqlərə baxmayaraq Nayden Qerov 1850-ci ildə Plovdivdə sinif məktəbi yaratmağa nail olmuşdur. Tırnov, Qyumyurj, Seres, Karlov, Sliven, Kotel, Pazardjik və bir çox başqa şəhərlərdə, yaxın kəndlərdə məktəb uğrunda yunan və bolqar burjuaziyası arasında fasiləsiz mübarizə davam etmişdi [1, 31].

XIX əsrin 60-70-ci illərində liberal-burjuaziya və inqilabçı demokratlar kimi ictimai-siyasi qruplar arasındakı mübarizə nəticəsində bolqar milli mədəniyyəti böyüyür və inkişaf edirdi. Milli mədəniyyətin ən iri mərкəzlərindən olan Plovdiv xalq maarifinin əhəmiyyətli mərkəzinə çevrilmişdi. Görкəmli pedaqoq H.Qerov və İ.Qruev özlərinin müəllimlik fəaliyyətini burada aparmışlar. Şəhərdə kitab nəşriyyatı da yerləşmişdi

Maarifin inkişafı, çoxlu sayda qarşılıqlı təhsil məktəblərinin açılması kitab çapına, dərslik və dərs vəsaitlərinə olan tələbatı artırırdı. Kitab milli ruhda tərbiyələndirir, maarif və mədəniyyəti yayırdı. Humanizm, maarifçiliк ideyası inkişaf etdikcə çap olunan kitabların xarakteri dəyişir, dünyəvi məzmunlu, ilк növbədə tədris-maarif ədəbiyyatları nəşr olunurdu, dərs vəsaitlərinin hazırlanıb çap edilmə-

sində təcrübəli maarifçilərin böyük xidməti olmuşdur [11, 38]. Bolqar dilində ilk kitab 1806-cı ildə Rıminkdə çap edilmişdir. «Недельник» adı altında çıxan məcmuə geniş yayılmışdı. Həmin vaxtdan sonra həyatını maarifçilik fəaliyyətinə həsr etmiş Safroniy Vraçanskinin 16 kitabı çap olunmuşdu . 1835-ci ildə Kraquevaçda Neofit Rilskinin qarşılıqlı təhsil üçün cədvəl və bolqar qrammatikası çap olunmuş, 1836-cı ildə qədim slavyan xrestomatiyasını tərtib etmiş və uzun müddət böyük bolqar lüğəti işləmişdir. Kotel şəhərinin sakini Neofit Bozvelli (1785-1848) məktəblər üçün çoxlu dərsliklər bəxş etmiş, 1835-ci ildə «Славяно-болгарская грамматика» nəşr etdirilmişdir.

1835-ci ildə bolqarlar artıq 27, 1842-ci ildə isə 77 çap olunmuş kitab əldə etmişlər. Bir çox dərslikİər tərtib etmiş Xristaki Pavloviç Duniçanın 1833-cü ildə «Arifmetika», 1836-cı ildə «Разговорник», 1836-cı ildə «Qrammatika», 1844-cü ildə «Царственник или история болгарии» və «Prava bolqarsкoy qrammatika» кitabları nəşr olunmuşdur. Bolqar dövrü mətbuatının, Smirnedə bolqar məktəbinin əsasını qoyan özü isə ticarətlə məşğul olan K.Fotinov «Землеописание» dərsliyini nəşr etdirmişdir. Boqorov «Основы болгарской граматики» (Buxarest 1944), «Греческо-болгарский разговорник» və «Болгаро-финский речник» (1871); Qerov «Fizika» (1849), «Болгарский речник» (1853), Kipilovski «Болгарская история» və s. lüğət və dərsliklər nəşr edilmişdir [9, 40].

Bu dövr Bolqarıstan tarixşünaslığının səciyyəvi cəhəti xalqın tarixi keçmişin qabarıq vermək, onu milli istiqlaliyyət uğrunda mübarizəyə ruhlandırmaq idi. Sonralar mənbələrə, fakt və xronologiyaya tənqidi münasibət əks etdirən istiqamət yarandı. Bu cərəyanın nümayəndəsi Moskva unversitetini bitirmiş, uzun müddət Xarkov unversitetinin professoru olmuş, məşhur bolqar alimi, milli tarixşünaslığın banisi Marin Drinov vətən tarixinin öyrənilməsinə elmi-nöqteyi nəzərdən yanaşmış və cənub slavyanların erkən orta əsrlər dövrünü tədqiq etmişdir. Çoxlu sayda mənbələrin tənqidi təhlilinə əsaslanaraq 1869-1876-cı illərdə indiyə qədər öz əhəmiyyətini itirməyən «Взгляд на происхождение болгарского народа и начало болгарской истории», «Заселение Балканского полуострова славянами», «Южные славяне и Византия в X веке» əsərləri dərc edilmişdi. Bu dövrdə folklor və etnoqrafiya elmi yaranır, təbiət elmlərinə maraq artırdı. İ.Q.Seliminskinin timsalında materialist görüşlər yayılmağa başlayır. Bolqar ziyalıları içərisində Avropada təhsil almış ilk həkimlər görünürdü XIX əsrin 80-cı illərin ortalarında Bolqarıstan hökuməti elmin inkişafı məsələsinə diqqət yetirir, 1895-ci ildə vətən tarixi haqqında xüsusi seriya nəşri barədə qərar qəbul edir. XIX əsrin 90-cı illərində bolqar dilində vahid orfoqrafiya yaradılır və onun lüğət tərkibi əhəmiyyətli dərəcədə genişləndirildi.

***Nəticə***. Bolqarıstanda qarşılıqlı təhsil sinif məktəbləri şəbəkələrinin yaradılması, elm və mədəniyyətin inkişafının milli-azadlıq hərəkatının genişlənməsinə böyük təsiri olmuş, bolqar xalqının siyasi azadlığı uğrunda mübarizənin güclənməsinə səbəb olmuşdur. Mədəni-maarif hərəkatı yeni yaranan sinifə bilik və güc verir, ölkənin sosial-iqtisadi münasibətlərinin inkişafına böyük təsir göstərirdi.

## ƏDƏBİYYAT

1. Формирование национальных независимых государств на Балканах (конец XVIII-70 г. XX в.) М., Наука, 1986, 430 с.
2. Франтишек Дворник. Славяне в европейской истории и цивилизации. М., Языки Славянской Культуры, 2001, 799 с.
3. История южных и западных славян. Т.1. М., МГУ, 2001, 688 с.
4. История Болгарии. В двух томах. М.: Издательство АН СССР, 1955, 576 с.
5. Косев, Димитр. Новая история Болгарии. РГО.1952 - 524 с.
6. Константинов П. Сокровища Болгарии. София, Любородие, 2003, 278 с.
7. Краткая история Болгарии. София, SQD, 2007, 34 с.
8. Лилуашвили К.С. Национально-освободительная борьба болгарского народа против фанариотского и Россия. Тбилиси, ЮЕК, 1978, 320 с.
9. Марновский Д. Болгария краткий исторический очерк. София, Varna,1982, 360 с.
10. Никитин С.А.Паисий Хилендарский Сборник статей и материалов славянского источниковедение. М., ЛНК 1965, 450 с.

**ВУСАЛА ВЕЙСАЛОВА**
*Доцент кафедры всеобщей истории*
*Гянджинского государственного университета*

## РАЗВИТИЕ КУЛЬТУРЫ И ОБРАЗОВАНИЯ В БОЛГАРИИ В XIX ВЕКА

Зарождение просветительского движения в Болгарии является ярким проявлением национального возраждения, которое помогло бурному развитию болгарской культуры. В условиях национального, политического и духовного гнёта были достигнуты серьёзные успехи в деле народного образования.

Путь болгарского культурно-просветительского движения был черезвычайно трудным. Культурный подъём в свою очередь оказал влияние на развитие социальных отношений в стране. Подъём культуры даёт новому классу знания и силу, которые используются в борьбе за разрешение назревших вопросов.

У болгарского народа были достижения в области культуры и просвещения. В целом просветительское движение в X1X в. сделал значительный шаг в развитии болгарского возраждения.

*Ключевые слова*: национальное возрождение, болгарская культура, образование, XIX век, общественные отношения.

**VUSALA VEYSALOVA**
*Associate professor of general history*
*Department of Ganja State University*

## THE DEVELOPMENT OF CULTURE AND EDUCATION IN BULGARIA IN THE XIX CENTURY

The birth of the educational movement in Bulgaria is a vivid manifestation of the national revival, which helped the rapid development of Bulgarian culture. Under the conditions of national, political and spiritual oppression, serious successes were achieved in public education.

The path of the Bulgarian cultural and educational movement was extremely difficult. The cultural upsurge, in turn, influenced the development of social relations in the country. The rise of culture gives the new class knowledge and strength, which are used in the struggle to resolve pressing issues.

The Bulgarian people had achievements in the field of culture and education. In general, the educational movement in the nineteenth century. made a significant step in the development of the Bulgarian revival.

*Keywords*: national revival, Bolgarian culture, education, the nineteenth century, social relations.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 fevral 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Rəyçi: t.ü.f.d. Saidə İmayılzadə, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94(479.24)**

**ELLARA ƏHMƏDOVA**
*T.ü.f.d., ADNSU nəzdində Sənaye və Texnologiya kolleci*
**bike787@mail.ru**

# XIX ƏSRİN SONU XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANDA XEYRİYYƏÇİLİK ƏNƏNƏLƏRİ (SXEMLİ TƏHLİL)

*XIX əsrin 70-ci illərində Şimali Azərbaycanda maarifçi Həsən bəy Zərdabinin təşəbbüsü ilə başlayan xeyriyyəçilik fəaliyyəti XX əsrin əvvəlləri sosial siyasətlə əvəzləndi. Gərginləşən siyasi, iqtisadi mühit, beynəlxalq vəziyyət, sosial həyatda çətinlik XX əsrin əvvəllərində hökuməti ictimai həyata təsir edən təşkilatların fəaliyyətini tənzimləməyə məcbur etdi. Xeyriyyəçilik qanuniləşərək idarəçilik sisteminin bir parçasına çevrildi. Xeyriyyəçi təşkilatlar Şimali Azərbaycanda XIX əsrin sonu – XX əsrin əvvəllərində ictimai – iqtisadi münasibətlərin yaranmasında əhalinin sosial - mədəni həyatına təsirində mühüm rol oynadı.*

*Açar sözlər*: millət, milli şüur, maarifçilik, xeyriyyəçilik, mesenantlıq, ənənələr.

***"Əgər hansısa bir sahibkar hansısa bir sosial məsuliyyəti öz üzərinə götürmək, habelə xeyriyyəçilik kimi mühüm tədbirlərdə fəallıqlarını artırmaq istəsə mən onu ancaq alqışlaya bilərəm".***

***Azərbaycan Prezidenti İlham Əliyev***

Mesenatların - xeyriyyəçilik fəaliyyəti, millət qarşısında xidmətləri, xalqının yaddaşında silinməz izləri - milli tarix elminin tədqiqində aktual vəzifədir. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanın neft sənayesinin inkişafında fəaliyyət göstərmiş milli sahibkarların - sahibkarlıq, xeyriyyəçilik, ictimai fəaliyyətləri ətraflı araşdırılmış və elmi dövriyyəyə daxil edilmişdir. Bu məqalədə sadəcə Quzey Azərbaycanın sosial-iqtisadi və siyasi-ictimai həyatında xeyriyyəçilik hərəkatının xarakterik xüsusiyyətləri yeni üslubda, sistemli şəkildə təhlil edilir, təşkilatların yaranmasına şərait yaradan mənəvi dəyərimizə çevrilən xeyriyyəçilik ənənələrini qorumaq, gələcək nəsillərə ötürməkdir.



XIX ƏSRİN SONU XX ƏSRİN ƏVVƏLİ

AZƏRBAYCANDA

MİLLƏTİN

MİLLİ ŞÜURUN

MİLLİ BURJUAZİYANIN

TƏŞƏKKÜLÜ BAŞA ÇATDI

- Neft sənayesində
- Sənətkar emalatxanalarında
- Ticarətə
- İqtisadiyyatın digər sahələrində

formalaşan milli burjuaziyanın dövlətin idarə olunmasında iştirak etmək cəhdi gücləndi

SƏBƏB

MİLLİ ŞÜURUN FORMALAŞMASI

Milli dövlətçiliyin olmadığı bir vaxtda milli burjuaziyanı milli azadlıq hərəkatından uzaqlaşdırmaq məqsədilə işğalçı Çar Rusiyası bir sıra tədbirlər görərək yerli sahibkarları idarəçilik sisteminə cəlb etməyə məcbur oldu. Şərait yetişdi. Sosial təbəqələşmə sürətləndi

MİLLİ BURJUAZİYADAN İSTİFADƏ ETMƏK ÜÇÜN

GÖRÜLƏN TƏDBİRLƏR

- ✓ 1872-ci ildə İltizam sisteminin ləğvi;
- ✓ 1877-ci ildə dövlət rüsumlarının azaldılması

YARANAN ŞƏRAİT

- ✓ Siyasi, iqtisadi mühitin
- ✓ Sosial ziddiyyətlərin
- ✓ Beynəlxalq vəziyyətin

gərginləşməsi;

NƏTİCƏDƏ

Çar Rusiyası kapitalizm münasibətlərinin inkişafı prosesində milli burjuaziyanı yalnız sosial sahədə yaranan çətinlikləri tənzimləmək üçün xeyriyyəçilik tədbirlərini qanuniləşdirərək, xeyriyyəçilik təşkilatlarını dövlətin idarəçilik sisteminə daxil etdi

YEKUNDA

AZƏRBAYCAN TARİXİNDƏ
MAARİFÇİLİK[1], XEYRİYYƏÇİLİK – MESENATLIQ[2] DÖVRÜ BAŞLANDI

Qeyd: 1. MAARİFÇİLİK

- Bilik və mədəniyyətin ötürülməsi, yayılması fəaliyyətidi;
- İdeyaları qədimdi*. İstiqamətləri:

- Mədəni
- Psixoloji
- Pedaqoji
- Elmi

Maarifçilik. *XIX əsr maarifçiləri Azərbaycanda (A. Bakıxanov, İsmayıl bəy Qutqaşınlı, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi və s) milli ziyalı təbəqsinin özülünü qoydu, formalaşdırdı.*

***Maarifçilik ideyası tarixən qədimdi olsada fikri cərəyan kimi XVIII əsrdə meydana gəldi***

Qeyd: 2. XEYRİYYƏÇİLİK - MESENAT

Maddi və digər yardıma ehtiyacı olan şəxslərə

- təmənnasız
- əvəzsiz

yardım göstərməklə həyata keçirilən fəaliyyətdi. İnsanlıq sevgisindən qaynaqlanan davranışdı

Yunan mənşəli terminidi, mənası "sevirəm insanları". Maliyyə dəstəyi verən şəxslərdi *"Mesenat" sözünün yaranma tarixi e.ə. I minillikdə qədim Roma ərazisində yaşamış, mənşəcə qədim türklərlə qohum hesab edilən etrusklardan olan, xeyirxah işlər görməklə yaddaşlarda qalan Messenatın adı ilə bağlıdı.

XEYRİYYƏÇİ TƏŞKİLATLAR[1]

QUZEY - ŞİMALİ AZƏRBAYCANDA [13]

XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

İCTİMAİ – İQTİSADİ MÜNASİBƏTLƏRİN YARANMASINDA

ƏHALİNİN SOSİAL-MƏDƏNİ HƏYATINA TƏSİRİNDƏ

MÜHÜM ROL OYNADI

MƏQSƏDİ

İMKANSIZ MÜSƏLMANLARA KÖMƏK ETMƏK

KASIB VƏ KİMSƏSİZLƏRİ OXUTMAQ

QOCALARI HİMAYƏYƏ GÖTÜRMƏK

DİNDARLARI *[1] XEYRİYƏ İŞLƏRİNƏ CƏLB ETMƏK

və s.

XIX ƏSRİN 70-Cİ İLLƏRİNDƏ ƏSASI QOYULAN XEYRİYYƏÇİ TƏŞKİLATLAR GETDİKCƏ

BAKI
- Bakı
- Quba
- Şamaxı
- Səlyan
- Lənkaran

YELİZAVETAPOL
- Nuxa
- Qazax
- Şuşa
- Elenedorf (qəsəbə)
- Gədəbəy (qəsəbə)

İRƏVAN
- İrəvan
- Naxçıvan

ZAQATALA
- Zaqatala (dairə mərkəzi)
- Qax (İlisu naibliyi)

QUBERNİYALARIN BƏZİ QƏZA , QƏSƏBƏ, DAİRƏ MƏRKƏZLƏRİNDƏ YARADILDI

XEYRİYYƏ TƏŞKİLATLARI İCTİMAİ MƏNAFELƏR NAMİNƏ EHTİYACI OLAN FİZİKİ ŞƏXSLƏRƏ TƏMƏNNASIZ

MADDİ | MƏNƏVİ

YARDIM FƏALİYYƏTİNƏ BAŞLADI

1. Gərginləşən siyasi, iqtisadi mühit
2. Beynəlxalq vəziyyət →
3. Sosial həyatda çətinlik →

XX əsrin əvvəllərində hökuməti ictimai həyata təsir edən təşkilatların fəaliyyətini tənzimləməyə məcbur etdi. Xeyriyyəçilik qanunilələşərək idarəçilik sisteminin bir parçasına çevrildi.

---

*1. *Quran ayələri, peyğər hədisləri insanlaradan maddi və mənəvi xeyriyyəçiliyi tələb edir. Islamın beş vacib şərtindən biri də ildə bir dəfə verilən vergi Zəkat (mal ilə edilən icbari yardım), fitrədi, tövsiyyəsi isə istəklə olan sədəqədi, xoş niyyətdir. Quranda: "Namaz qılın, zəkat verin! Özünüzdən ötrü (əvvəlcə) etdiyiniz xeyri (yaxşı əməllərin əvəzini) Allah yanında taparsınız.." [Bəqərə, 110]. "Xoş bir söz və günahları bağışlamaq əziyyətlə (minnətlə) verilən sədəqədən daha yaxşıdır" [Bəqərə, 263].*

QUZEY AZƏRBAYCANDA XEYRİYYƏÇİLİK FƏALİYYƏTİ [14,11]

BAŞLAYIR *
XIX əsrin 70-ci illəri
MAARİFÇİ
HƏSƏN BƏY ZƏRDABİNİN
TƏŞƏBBÜSÜLƏ [8, 272]

MƏQSƏD: YOXSUL UŞAQLARININ TƏHSİL, TƏRBİYƏSİNƏ ŞƏRAİT YARATMAQ VƏ MAARİFLƏNDİRMƏK

Təhsil sahəsində nailiyyətlər əldə edilsədə, çətinliklə*[1] yaranan cəmiyyətin fəaliyyəti qısamüddətli oldu. SƏBƏB:
XIX əsrin sonlarına qədər sosial təşkilatların fəaliyyəti dövlət siyasətindən kənarda qalması;

- ✓ maddi dəstəyin azalığı
- ✓ xərclərin artması
- ➢ cəmiyyətin xərcləri gəlirini üstələdi;
- ➢ cəmiyyətin fəaliyyəti 1873-cü ildə dayandırıldı; İlk Azərbaycan dilli qəzet (1875)
- ➢ Yeni tipli məktəblər (1887)
- ➢ İlk oxu evləri (1894) Həbib bəy Mahmudbəyov və Sultan Məcid Qənizadə tərəfindən

açıldı

***1. Həsən bəy cəmiyyətə üzv toplamaq üçün bütün Qafqazı gəzmişdi (1872).***

SOSİAL SİYASƏTƏ ÇEVRİLİR
XX əsrin əvvəlləri

"MÜSƏLMAN XEYRİYYƏ CƏMİYYƏTİ"
mədəni-maarif və sosial yardım sahələrində fəaliyyət göstərən könüllü* ictimai qurum

BAKIDA
1905-ci il
H.Z.Tağıyev təşəbbüsü, hökumətin razılığı ilə yaradıldı."İsmailiyyə" binasında yerləşdirildi.

MƏQSƏDİ:

- ✓ imkansız müsəlmanlara kömək;
- ✓ qocaları himayə;
- ✓ kasıb,kimsəsizlərə müavinət verib oxutdurmaq.

İlk idarə heyəti – 11nəfər
**Sədr:** H. Z. Tağıyev
**Müavin**: İsrafil Hacıyevi
**Xəzin**ədar:Hacı Mustafayev
**Katib**: Əhməd bəy Ağayev
maliyyələşdirir: Bakı mi-

GƏNCƏDƏ
1906-ci il
AZSAYLI
CƏMIYYƏT

İctimai xadim Ələkbər bəy Rəfibəylinin təşəbbüsü ilə Gəncə qubernatoru tərəfindən təsdiq edildi.

Nizamnaməyə əsasən bir il müddətinə idarə heyəti (üzvi:3) sədr, müavini, xəzinədar, katib həmçini 4 nəfər ömürlük fəxri üzv seçildi.

MƏQSƏD

Kasıb müsəlman övladlarını ölkə hüdudlarından kənarda təhsil müəssisələrində oxutmaq; xəstəxana və başqa səhiyyə ocaqlarında müalicə etmək.

Qarabağ və Zəngəzurda erməni-daşnaklar tərəfindən soyqırıma məruz qalmış türk-müsəlman əhaliyə kömək məqsədilə xeyriyyə yönümlü tamaşalar və konsertlər təşkil etdi, Gəncədə ərzaq mağazası açdı və s.

BMXC fəaliyyəti:

- ✓ muharibə (1914-1918)
- ✓ Rusiya fevral inqilabı
- ✓ AXC dövründə

genişləndi

BMXC ... siyasi, sosial və mədəni həyatında rol oynadı .

Qafqaz cəbhəsində:

- ➢ Qaçqın, əsir düşənlərə
- ➢ Yetim uşaqlara

yardım etdi;

- ➢ Qars
- ➢ Ərzurum
- ➢ Tiflisdə

xüsusi şöbələrini açdı;

- ➢ Müvəqqəti hökümətlə həmrəylik haqqında qətnamə (09 .03.1917) qəbul etdi;
- ➢ "Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkilliyin" (baş müvəkkil Xosrov Paşa bəy Sultanov) təsis etdi.
- ➢ "Fəlakət və hərbzədələrə yardım şöbəsi" yaratdı.
- ➢ Bakını azad edərkən şəhid olmuş əsgərlərin qəbri üzərində abidə qoyulması və oraya Şollar su kəməri xəttinin çəkilməsi
- ➢ Müsəlman yetimxanalarında dərzilik, çəkməçilik, xarratlıq sənətləri üzrə peşə emalatxanalarının yaradılması

təklifini irəli sürdü

***1985-ci ildən 5 dekabr BMT-nin Baş Məclisi tərəfindən Beynəlxalq Könüllülər Günü kimi qeyd edilir***

BAKIYA KÖCÜRÜLƏN XEYRİYYƏ CƏMİYYƏTİ

"MÜQƏDDƏS NİNA"

ƏSASI → 1846-CI İLDƏ TİFLİSDƏ QOYULDU

BÖLMƏSİ → 1848-Cİ İLDƏ ŞAMAXIDA AÇILDI

KÖÇDÜ*[1] → EYNİ ADLI MƏKTƏBLƏ 1861-Cİ İLDƏ BAKIYA

ŞAMAXI BÖLMƏSİNİN ÜZVLƏRİ:

- Fatma xanım Əsədbəyova;
- Hoca xanım Haqverdiyeva;
- İbrahim xanın qızı Gövhər ağa;
- Süleyman xanın həyat yoldaşı Güri xanım və başqaları.

BAKI BÖLMƏSİNİN ÜZVLƏRİ:

- Qubernator D. S. Staroselski
- Yekaterina Staroselskaya (sədr)
- Çimnaz xanım Səlimxanova, Hacı Mirzə Qulu, Hacı Hüseyn Qulu, Səfər Əli oğlu, Məlikməmməd Əliyev, Ağahüseyn Tağıyev və başqaları

MƏQSƏD:

- "Müqəddəs Nina" qızlar qimnaziya üçün Bakıda binanın tikilməsi;
- Gimnaziyanın bölmələrinin (İrəvanda, Şəkidə, Gəncədə) fəaliyyətini artırmaq.

İkimərtəbəli binana 1886-cı ildə İçərişəhərin qala divarlarına yaxın yerdə tikilməyə başladı. Binanın tikintisi Hacı Zeynalabdin Tağıyevin və bir neçə Bakı milyonçusunun vəsaiti hesabına tamamlandı*[2].

XEYRİYYƏÇİLİK HESABINA TİKİLƏN QIZ MƏKTƏBLƏRİ

XIX ƏSRİN II YARISI

- İrəvanda"Müqəddəs Ripsimi"məktəbi (1850);
- Zaqatala qız məktəbi (1864);
- Bakı qız gimnaziyası (1874),
- Şuşa qız məktəbi (1875),
- Şəfiqə Əfəndizadənin Şəkidə qız məktəbi (1894);
- Gəncə qız progimnaziyası (1899),

XX ƏSRİN ƏVVƏLLƏRİ

- Gənc qız gimnaziyası (1902);
- Gəncə rus-Azərbaycan məktəbi nəzdində qız şöbəsi (1901);
- Bakıda ilk rus-Azərbaycan qız məktəbi (Hacı Zeynalabdin Tağıyevin qız məktəbi) və s

*1. 1859-cu ildə Şamaxıda zəlzələ baş verdiyinə görə Şamaxı quberniyası Bakı quberniyası ilə əvəzləndi. "Müqəddəs Nina" qadın məktəbi əsasən, xristian dininə mənsub olanlar üçün idi. 1894-cü il ərzində məzunların arasında 128 rus, 36 erməni, 5 gürcü, 3 tatar olmuşdu. Gimnaziya öz fəaliyyətini 1918-ci ilədək davam etdirə bildi. *2. Bina ADR dövründə (1918-1920) hərbi akademiyanın ixtiyarına verildi.

**XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BAKIDA FƏALİYYƏT GÖSTƏRƏN CƏMİYYƏTLƏR**

***"HİDAYƏT" CƏMİYYƏTİ (1904)***

Bakıda ruhanilərin və ziyalıların təşkilatçılığı və general-qubernator Fadeyevin icazəsi ilə yaradıldı. MƏQSƏD: cinayətkarlıq və dini fanatizmlə mübarizə. ÜZVÜ: H.Z.Tağıyev, İsa bəy Hacınski, Bakı qazısı Mir Məhəmməd Kərim, ruhani - alim, axund Molla Ruhulla, Mustafa bəy Əlibəyov

NİZAMNAMƏDƏ: Cəza tədbiri görmək üçün əhalini incidən qoçuların adlarını müəyyən edib general-qubernatora təqdim etmək; dini fanatizmə və xurafata qarşı çıxmaq; maarifləndirmək

XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

BAKIDA 30-DAN ARTIQ XEYRİYYƏ CƏMİYYƏTİ FƏALİYYƏT GÖSTƏRİRDİ
İMKANSIZ UŞAQLARI MAARİFLƏNDİRƏN XEYRİYYƏ CƏMİYYƏTLƏRİ [8]

**"Nəşri-savad və maarif"-"Nəşri-maarif" xeyriyyə cəmiyyəti.** **MƏQSƏDİ:**

Bakı və ətrafında yaşayan müsəlmanlara Azərbaycan və rus dillərində təhsil vermək; türkcəsində savadı yaymaq
sədri:,Bakı Müsəlman Şiə Ruhani İdarəsinin sədri Axund Mir Məhəmməd Kərim Mircəfərzadə
Katibi: Əhməd bəy Ağayev. Fəxri və ömürlük üzv: H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, M.Muxtarov, Y. Dadaşov, A.Tağıyev seçildi.

1906-cı il*

- Qars
- Oltu
- İğdırda

→ şöbələri açıldı Azərbaycana gətirilmiş türk kimsəsis övladlarının təlim - tərbiyəsilə məşğul oldu.

- Saratovda
- Həştərxan quberniyasında
- Moskvad
- Rumıniyada

→ şöbələri fəaliyyətə başladı

- Bakı şəhərində və onun kəndlərində 20 məktəb; mərkəzdə bir sinifdən ibarət 3 məktəb açdı.
- Balaxanıda 4
- Əmircanda 3
- Buzovnada 3

  sinifli pulsuz, kitab, tədris ləvazimatı, paltar ilə təmin edilən məktəbləri təsis etdi. Əmircan və Buzovnadakı məktəblər sonralar müvəqqəti də olsa bağlandı. SƏBƏB: → maddi imkanlarının tükənməsi
- ali məktəblərdə təhsil alan zəif imkanı tələbələrə təqaüdlər ayırdı;
- gənclərin xarici ölkələrdə təhsil almalarını təmin etdi;
- pedaqoji kadr çatışmazlığını aradan qaldırmaq üçün "Darül-muallimin" (1907),"İslam" 1908-1909) adlanan seminariyaları təşkil etdi. Müdir İstanbuldan dəvət olunmuş Məhəmməd Cövdət bəy idi. 3 il ərzində seminariya ibtidai məktəb müəllimi dərəcəsi olan 28 müəllim kadrı hazırladı. Seminariya sonralar maliyyə çətinlikləri üzündən bağlandı; [5]
- ana dilində dərsliklərin yazılmasına şərait yaratdı;
- ilk böyük kitabxana "Nur" kitabxanası Balaxanıda (1911-ci ildə)
- Bakıda böyük kitab anbarı (1914-cü ildə) → açdı
- milli-mədəni tədbirlər - teatr tamaşaları, "Müsəlman axşamları" keçirdirdi.

*Cəmiyyət 1912-ci il oktyabrın 19-da əlavələr və dəyişikliklərlə ikinci dəfə qeydiyyatdan keçdi. bəzi mənbələrə görə 1917-ci ildə bəzi mənbəlrə görə isə 1920-ci ildə fəaliyyətini dayandırdı

***"NİCAT CƏMİYYƏTİ"-*** 1906-cı ilin avqust ayının 22-də təsdiq edildi. Sədr: Məmmədəli bəy Səlimbəyov (1906-1907). 1916-cı ildə isə Murtuza Muxtarov cəmiyyətin fəxri sədri seçildi

**MƏQSƏDİ:**

- xalq arasında savadsızlığı aradan qaldırmaq; maarifçilik işinin yaymaq;
- imkansız, istedadlı uşaqların ibtidai, orta və ali təhsil almalarına yardımçı olmaq;
- ana dili və ədəbiyyatın, teatrın inkişafına kömək etmək;

**FƏALİYYƏTİ:**

- Bakı və ətraf kəndlərdə, ölkənin digər şəhər və bölgələrində yeni təhsil ocaqları, qiraətxana və kitabxanalar açdı; Azərbaycan müəllimlərinin ilk qurultayını (1906) keçirtdi; Qurultayda müəllimlərin statusunu, məktəblərədə müsəlman uşaqlarının sayının iki dəfə artırımaq; şəhər və kənd məktəblərində sənət verən şöbələri, şəhərlərdə qız rus-tatar məktəbini açmaq; Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini müəllimlər seminariyasına çevrilməsk və s. tələblər irəli sürdü; "Nicat" maarif cəmiyyətinin qadın şöbəsi açıldı (1908)
- "Leyli və Məcnun" operasının ilk tamaşasını hazırladı (1908); "Nicat" (1910), qadın şöbəsinin "İşıq" (1911) adlı qəzetlərini nəşr etdirdi; bir və ikisinifli məktəblərin sayını artırdı.
- Keşlə, Gəncə, Şamaxı, Quba və s. yerlərdə bölmələrini açıdı. I Dünya Müharibəsi zamanı döyüş bölgələrində zərər görmüş Anadoluya humanitar yardım göndərdi. 1917-ci ildə fəaliyyəti dayandı

XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

«BAKI MÜSƏLMAN RUHANİ CƏMİYYƏTİ "SƏADƏT"» *[1] [6, 228]
1907-ci il

MƏQSƏD
MÜSƏLMAN RUHANİ DİNİ
MƏKTƏB VƏ MƏDRƏSƏLƏRİN YENİ ƏSASLARLA TƏŞKIL ETMƏK

SƏDR: Axund Molla Ələkbər Abbasquluzadə
SƏDR MÜAVİNİ: Axund Molla Ağa Əlizadə
İDARƏ HEYƏTİ: 14 nəfər

Digər xeyriyyə cəmiyyətlərindən fərqli olaraq cəmiyyətin üzvləri yalnız dindar müsəlmanlardan və seyidlərdən ibarət idi.

- Azərbaycanda elmin və maarifin yayılmasında,
- Azərbaycanlıların təhsil alması və savadlandırılmasında

} böyük rol oynayan cəmiyyətin

VƏZİFƏSİ

YENİ DİNİ TƏHSİL

MÜƏSSİSƏLƏRİNİ | MÜƏLLİM İNSTİTUTLARINI | ALİ MƏKTƏBLƏRİNİ

AÇMAQ

TÜRKÇÜLÜK VƏ ISLAMÇILIQ TƏBLİĞ EDƏN "SƏADƏT"
CƏMİYYƏTİNİN FƏALİYYƏTİ

- ✓ 1907-ci ildə dini elmlərlə yanaşı dünyəvi elmləri tədris edən, məzunlarına gimnaziya və realnı məktəbdə oxumaq hüquq verən, ana dilindən başqa beş xarici dil öyrədən "Mədrəseyi- səadət" adlı fərqli bir məktəbin *[2] əsasını qoydu;
- ✓ 1910-cu ildə cəmiyyət:
  - ➢ "Şah məscidi"-nin nəzdində iki sinifdən ibarət əlifba
  - ➢ "Səmədiyyə"*[3]
  - ➢ Hacı İmamverdi məscidinin tərkibində "Nur"

  } adlı şöbələri fəaliyyətə başladı;
- ✓ Mədrəsənin nəzdində axşam kursları, kitabxanalar, Azərbaycanın bir sıra şəhərində məktəb və mədrəsələr açdı;
- ✓ Cənubi Azərbaycandan gəlmiş fəhlələrin uşaqları üçün Bakıda "İttihad", Tiflisdə isə "İttifaq" məktəbi təşkil etdi.

*1. Cəmiyyətin yaranması və fəaliyyətində görkəmli xeyriyyəçi, maarifpərvər Hacı Zeynalabdin Tağıyevin böyük rolu olmuşdur.*2. "Səadət" məktəbində Fərhad Ağazadə, Üzeyir və Ceyhun Hacıbəyli qardaşları, Axund Molla Ağa Əlizadə, Molla Qədir İsmayılzadə, Məmməd Hənəfi Terequlov, Əli Hüseynov, Kərim bəy Məlikov və b. müəllimlik edirdi. *3. Şöbə Hacı Səməd Heydərov adlı xeyirxah şəxsin məktəbə bağışladığı binada yerləşdirildi.*

MÜSƏLMAN QADIN XEYRİYYƏ
CƏMİYYƏTİLƏRİ

1908-Cİ İLDƏ BAKIDA | 1910-CU İLDƏ TİFLİSDƏ

ZİYALI QADINLARININ *[1]TƏŞƏBBÜSÜLƏ YARADILDI

MƏQSƏDİ
- ➢ qiz məktəblərinin açmaq;
- ➢ savadli müsəlman qadınlarının sayını artırmaq;
- ➢ sağlam düşüncəli cəmiyyətin bünövrəsini qoymaq

MÜSƏLMAN QADIN XEYRİYYƏ CƏMİYYƏTİLƏRİ [3]

BAKI (İLK (1908))*[1]

TİFLİS (1910)*[2]

MÜSƏLMAN QADIN XEYRİYYƏ CƏMİYYƏTİ

ƏSASINI
HƏSƏN BƏY ZƏRDABİNİN HƏYAT YOLDAŞI
HƏNİFƏ XANIM MƏLİKOVA

ƏSASINI
SOFİYA ŞAHTAXTİNSKAYA

ƏTRAFLARINA MÜSƏLMAN QADINLARINI TOPLAYARAQ QOYDULAR

Sədr: Murtuza Muxtarovun həyat yoldaşı
Liza xanım Muxtarova*

Sədri: Gövhər xanım Qacar
Müavin: Həmidə xanım Cavanşir
Xəzinədar: Mina xanım Talışinskaya *[3]

HƏYATA KEÇİRİLƏN TƏDBİRLƏR:

- Cəmiyyətin nəzdində bir neçə qız məktəbi yaradıldı;
- qadınlardan ibarət dram dərnəkləri → } təşkil etdi;
- qız məktəbində tamaşalar → } təşkil etdi;
- Bakıda yoxsul qızlar üçün peşə məktəbi açdı (1917);
- Bakı müsəlman maarifçilik cəmiyyəti "Nicat"la əməkdaşlıq əlqələrini genişləndirdi, xüsusi uşaq xəstəxanasının yaradılmasında həm maddi, həm də təşkilati cəhətdən yardım göstərdi.

**1. Liza xanım cəmiyyətin sıralarında Rəhilə Qaziyeva, Sara Vəzirova, Pəri Topçubaşova və bir çox başqa qadınlarıda sıralarına cəlb edə bildi *2.1918-ci il mart soyqırımından sonra "Bakı müsəlman qadın xeyriyyə cəmiyyəti" fəaliyyətini dayandırmağa məcbur oldu. *2. Həmin ilin əvvəlində (1910) Tiflisdə Qafqaz Müsəlman Qadınlarının Xeyriyyə Cəmiyyətinin əsası qoyuldu. *3. Cəmiyyətin daimi üzvü: Gövhər xanım Qacar, Nigar xanım Şıxlinskaya, Məsimə xanım Talışinskaya və Səltənət xanım Əhmədova*

1995–ci il dekabrın 12–də dünya ictimaiyyəti Türkmənistanı yeni neytral dövlət statusunda tanımışdır. Dünyanın 185 ölkəsinin nümayəndəsi BMT – nin Baş Assambleyasının Türkmənistanın daimi neytrallıq statusunu tanıyan və dəstəkləyən qərarına yekdilliklə səs vermişdir [24].

2010–cu il noyabrın 4–də Türkmənistanın Azərbaycanda Mədəniyyət Günləri keçirilmişdir. Tədbirdə Türkmənistanın mədəniyyət və incəsənət ustalarının iştirakı ilə geniş konsert proqramı təqdim olunmuşdur [2, s. 9].

TÜRKSOY – un təşəbbüsü ilə 2014 cü ildə Məxdumqulu Fəraqi ili, 2015–ci ildə isə Türkmənistanın Marı şəhərinə "Türk dünyasının mədəni paytaxtı" fəxri statusu verilməsi ilə əlaqədar müəyyən tədbirlər keçirilmişdir. "Qədim Mərv" Dövlət Tarix – Mədəniyyət Qoruğuna səfər də təşkil edilmişdir.

Türkiyə ilə Türkmənistan arasında 2021 – ci ilin noyabrında 8 maddədən ibarət sənəd, 2022–ci ilin iyul ayında isə 72 maddədən ibarət mədəniyyət – təhsil sahəsində müqavilə imzalanmışdır [22, s. 42 – 43].

2001 – ci ilin aprel ayında "Ekosal" Beynəlxalq Fondu və Özbəkistan Beynəlmiləl Mədəniyyət Mərkəzinin Daşkənddə Torpaq Günü münasibətilə keçirdiyi festivalda Azərbaycan da iştirak etmişdir. Azərbaycan pavilyonunda ölkəmizin maddi nemətlərindən nümunələr sərgilənmiş və Azərbaycan musiqisi səslənmişdir. Azərbaycan və Özbəkistan arasında mədəni əməkdaşlıq sahəsində 2001-ci il aprelin 13-də "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında 2001–2006–cı illərdə elm, mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq proqramı" imzalanmışdır.

Proqrama əsasən iki dövlət arasında mədəniyyətin bütün sahələrində ikitərəfli və çoxtərəfli əlaqələrin qurulması prioritetə çevrilmişdir. Mədəni əməkdaşlığın inkişafında 2004 – cü il mart ayının 23 – də Azərbaycan və Özbəkistan prezidentlərinin Daşkənd şəhərində rəsmi görüşləri zamanı imzalanan sənədlər mühüm rol oynamışdır. "Azərbaycan Respublikası hökuməti ilə Özbəkistan Respublikası hökuməti arasında elmi – texniki əməkdaşlıq haqqında" saziş də imzalanmışdır.

2004 – cü il martın 23 – də Daşkənd Pedaqoji Universitetinin qarşısında Nizami Gəncəvinin abidəsi açılmışdır.

2009 – cu ilin iyun ayında qüvvəyə minmiş Azərbaycan və Özbəkistan Respublikaları arasında humanitar əməkdaşlıq haqqında razılaşma göstərir ki, bu xalqlar arasında ədəbi – bədii əlaqələr inkişaf edir.

2010 – cu il sentyabrın 27 – də Daşkənddə Azərbaycanın Özbəkistandakı səfirliyi nəzdində H.Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı olmuşdur. Mədəniyyət Mərkəzinin Sərgi salonunda Səmərqənddə yaşamış Azərbaycanlı heykəltəraş Eynulla Əliyevin əsərlərindən ibarət sərgi təşkil edilmişdir. Mədəniyyət sahəsində Özbəkistan Milli Teleradio Şirkəti və Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti arasında əməkdaşlıq haqqında, Özbəkistan Rəssamlıq Akademiyası və Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu arasında əməkdaşlıq haqqında müqavilə imzalanmışdır.

M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir, C.Cabbarlı, S.Vurğun, M.İbrahimov, M.Hüseyn, B.Vahabzadə, X.Rza və Anarın əsərləri bu gün də Özbəkistanda oxunur. Aybək, Həmzə Həkimzadə, Həmid Əlimcan, Zülfiyyə və Ş.Rəşidovun əsərləri müasir dövrdə böyük maraq doğurur və Azərbaycanda tanınır.

2012 – ci ildə Özbəkistan Prezidentinin Azərbaycan Respublikasına rəsmi səfəri zamanı Bakıda Ə.Nəvainin abidəsinin açılışı və Azərbaycan paytaxtında küçələrdən birinə M.Uluqbəyin adının verilməsi azərbaycanlılar və özbəklər arasında qarşılıqlı hörmətin nümunəsidir. AMEA Respublika Əlyazmaları Fondunda Ə.Nəvainin 61 əlyazması saxlanılır. Özbəkistanın N.Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetində N.Gəncəvi adına Elmi – Tədqiqat Mərkəzi, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetində, M.Füzuli adına Azərbaycan Mədəniyyəti, Təhsil və Tədqiqatlar Mərkəzi, Özbəkistan Sənət və Mədəniyyət İnstitutunda, Q.Qarayev adına Azərbaycan Mədəniyyət və İncəsənət Mərkəzi, Özbəkistan Dövlət Konservatoriyasında, Ü.Hacıbəyov adına Özbəkistan – Azərbaycan Mədəniyyəti Mərkəzi yaradılmışdır. AMEA – nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutunda Azərbaycan – Türkmənistan – Özbəkistan ədəbi əlaqələri şöbəsi nəzdində Ə.Nəvai adına Ədəbiyyatşünaslıq Mərkəzi açılmışdır.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY – un "Türk dünyası öncülləri" layihəsi çərçivəsində keçirdiyi tədbirlər ənənəyə çevrilmişdir. TÜRKSOY 2018 – ci il martın 12 – də Ə.Nəvaiyə həsr olunmuş konfrans keçirmişdir. Konfransda Özbəkistanın Ankaradakı səfiri Əlişir Aqzamkacayev və azərbaycanlı Qafqaz Araşdırmaları Mərkəzinin müdiri Kamil Vəli Ə.Nəvai haqqında çıxış etmişdir. Qırx mindən çox azərbaycanlı Özbəkistan cəmiyyətinin sosial, ictimai, iqtisadi və s. sahələrində iştirak edir.

Qədim tarix və mədəni irsə malik olan Özbəkistan türk xalqları ilə mədəni əlaqələrdə fəal iştirak edir [3, s. 248 – 249].

Türk xalqlarının mənəvi birliyinin möhkəmləndirilməsi, qarşılıqlı şəkildə inkişaf etdirilməsi və tətbiq edilməsi məqsədilə 1992 – ci ilin ortalarında "Türk Ölkələrinin Mədəniyyət Nazirləri Daimi Konseyi" mühüm rol oynamışdır.

1996 – cı ilin oktyabrında "Türkiyə – Azərbaycan Dostluq Vakfı" təsis edilmişdir. 2001 – ci ilin mart ayında Azərbaycanda Atatürk Mərkəzi yaradılmışdır [1, s. 480].

2002–ci ildə Azərbaycanda Dünya Kinosunun 100 illiyi Fondu və Respublika Kinematoqrafçılar İttifaqı Müstəqil Dövlətlər Birliyi və Baltikyanı ölkələrin Kinematoqrafçıları Konfederasiyalarının dəstəyi ilə ənənəvi Bakı "Şərq – Qərb" kinofestivalı təşkil edilmişdir. Tədbirdə Türkiyə, Özbəkistan, Qırğızıstan, Azərbaycan və s. ölkələrdə istehsal olunmuş filmlər nümayiş etdirilmişdir [1, s. 482].

2001 – ci ilin noyabrında Bakıda Dünya azərbaycanlılarının I qurultayı keçirilmişdir. Qurultayda digər məsələlərlə yanaşı, "Mədəniyyət", "Elm və təhsil", "Kütləvi informasiya vasitələri

və informasiya mübadiləsi" komissiyaları tərəfindən hazırlanmış sənədlər əsasında qətnamə və bütün Dünya azərbaycanlılarına müraciət qəbul edilmişdir [1, s. 479].

2020 – ci il martın 11 – də Bakıda Türkmənistanla "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə Türkmənistan Dövlət Televiziya, Radio Verilişləri və Kinematoqrafiya Komitəsi arasında əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Milli Kitabxanası ilə Türkmənistan Mədəniyyət Nazirliyinin Dövlət Mədəniyyət Mərkəzinin Dövlət Kitabxanası arasında kitabxana işi sahəsində Anlaşma Memorandumu", "Bakı Dövlət Universiteti ilə Məxdumqulu adına Türkmən Dövlət Universiteti arasında əməkdaşlıq haqqında Protokol", "Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Türkmənistan Elmlər Akademiyasının Məxdumqulu adına Dillər, Ədəbiyyat və Milli Əlyazmalar İnstitutu arasında əməkdaşlıq haqqında Saziş" imzalanmışdır [15].

2021 – ci ilin iyun ayında Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında Şuşa bəyannaməsi imzalanmış və əlaqələrimiz müttəfiqlik səviyyəsinə qaldırılmışdır. Türkiyə şirkətləri həmçinin regionda gedən bərpa işlərində iştirak edir.

Özbəkistan Respublikası işğaldan azad edilmiş Füzuli rayonunda məktəb inşa etmişdir [17].

Azərbaycan nəinki müstəqil türk dövlətləri ilə əlaqə saxlayır, o həm də Rusiya Federasiyasının tərkibində olan subyektlərlə də təmas qurur. 2011, 2015 və 2022 – ci illərdə Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanov Azərbaycanda rəsmi səfərdə olmuşdur. Tatarıstan nəşriyyatları 28 – 30 sentyabr 2017 – ci tarixində Azərbaycanda keçirilmiş V Bakı Beynəlxalq Kitab Sərgi – Yarmarkasında iştirak etmişdir [14].

Krım ilə də Azərbaycan dövlətinin əlaqələri vardır. Krımda 10 minədək azərbaycanlının yaşaması göstərilir. Azərbaycanlıları həkim, müəllim, hüquqşünas, jurnalist, nəqliyyat və digər iş yerlərində görmək mümkündür. Krımın Yalta şəhəri ilə Azərbaycanın Xaçmaz şəhəri arasında dostluq əlaqələri də yaranmışdır. Kurortlar və Turizm Nazirliyinin Bakı şəhərində ofisi açılmışdır. Azərbaycan və Krım arasında əlaqələr 2011 – ci ildən etibarən daha da inkişaf etməyə başlamışdır. 2013 – cü il oktyabrın 9 – da Türkiyənin Əskişəhər Osmanqazi Universitetində III Uluslararası Tatarların tarixi mirası konfransına Türkiyə, Azərbaycan, Macarıstan və s. ölkələrdən 40 – dək türkoloq qatılmışdır. Konfransda Krım və Kazan tatarlarının tarixi keçmişi və bu günü ilə bağlı məruzələr edilmişdir. Həmçinin qeyd olunmuşdur ki, çar Rusiyası dövründə Krım və Kazan tatarları Azərbaycana köç etmişlər. Müasir dövrdə Krımın simvoluna çevrilən "Qaranquş yuvası" da azərbaycanlıların vəsaiti hesabına tikilmişdir [5, s. 182].

***1.2. TÜRKSOY***. 1993 – cü ilin əvvəllərində TÜRKSOY fəaliyyətə başlamışdır. Həmin il yanvarın 13 – də Türkiyənin paytaxtı Ankara şəhərində TÜRKSOY – un Baş Direktorluğunun açılışı olmuşdur. Bu təşkilatın rəsmi dili türk dilidir. Təşkilat struktur etibarı ilə iki komitəyə bölünmüşdür: Mədəniyyət və incəsənət tədbirlərinin birgə keçirilməsi üzrə Komitə, inzibati və hüquqi təmsilçilər üzrə Komitə. 1996 – cı ildə bağlanmış müqaviləyə əsasən YUNESKO TÜRKSOY – u tanımış və dəstəkləməyə başlamışdır. Qırğız Respublikasının sabiq Mədəniyyət naziri, xalq yazıçısı və teatr xadimi Sultan Rayev TÜRKSOY – un yeni baş katibi seçilmişdir. Tədbirdə Türkiyə Cümhuriyyətinin baş naziri, TİKA (Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyi) nümayəndələri, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Makedoniya, Bosniya və Hersoqovina, Macarıstan, Bolqarıstan və Qaqauziyanın (Moldova), Rusiya Federasiyasının türk subyektləri – Tatarıstan, Başqırdıstan, Xakasiya, Tuva, Saha – Yakutiya və Altay Diyarının nümayəndə heyətləri, bir sıra ölkələrin mədəniyyət sahələrinin rəhbərləri iştirak etmişlər. Azərbaycanın incəsənət ustaları, "Cəngi" rəqs qrupu, Türkiyənin Əskişəhərindən folklor ansamblı, Qazaxıstanın "Ak jayın" musiqi kollektivi çıxış etmişdir. Türkmənistanın dekorativ – tətbiqi sənət nümunələri və foto əsərlərinin beynəlxalq sərgisi olmuşdur. Ekspozisiyada Azərbaycan, Türkiyə, Makedoniya və Türkmənistan rəssamları, keramika və foto ustalarının işləri nümayiş etdirilmişdir [23].

1993 – cü ilin yanvarında Türkiyədə dahi Azərbaycan bəstəkarı və dirijoru Niyazinin xatirə gecəsi keçirilmişdir. İyunun 7 və 11 – də Ankarada türk yazıçılarının qurultayının keçirilməsi Türk dünyası ədəbi mühitinin formalaşması baxımından əhəmiyyətlidir. YUNESKO xətti ilə keçirilən Azərbaycan şairi Füzulinin 500 illik yubileyi TÜRKSOY – un təşəbbüsü ilə bütün Türk Dünyasında qeyd olunmuşdur.

1995 – ci ilin 29 – 30 iyununda Manas eposunun 1000 illiyinə həsr olunmuş beynəlxalq simpozium keçirilmişdir. TÜRKSOY bu tarixlə əlaqədar nəfis tərtibatlı “Manas” kitabını nəşr etdirmişdir.

1996 – cı il iyunun 15 – də Ankarada tatar şairi Qabdulla Tukayın anadan olmasının 110 illiyi qeyd olunmuşdur. TÜRKSOY 2011 – ci ili "Qabdulla Tukay ili" elan etmişdir.

1996 – cı il noyabrın 6 – 8 – də TÜRKSOY – un Bakıda keçirilən iclasına Tuva Respublikası və Xakasiya Respublikası müşahidəçi qismi ilə qoşulmuşdur.

TÜRKSOY – un fəaliyyətinin tərkib hissəsi kimi kitab və məcmuə nəşrini qeyd etmək mümkündür. Məsələn, Abayın seçilmiş əsərləri, Altaydan Dünyaya qədər türk mədəniyyətinin ümumi motivləri, Başqırd xalq eposu “Ural Batır”, Türkmənistan poeziyasının ontologiyası, Türkdilli ölkələrin memarlıq abidələri, Böyük Türk Xaqanlığının tarixi, Muxtar Auezovun seçilmiş əsərləri, ”Dədə Qorqud” ensiklopediyası və s.

1999 – cu il iyulun 7 – də YUNESKO – nun Parisdə yerləşən mənzil qərargahında ”Dədə Qorqud” eposunun 1300 illiyinə həsr olunmuş tədbir keçirilmişdir. 2012 – ci ildə Astana şəhəri Türk Dünyasının Mədəniyyət Paytaxtı elan olunmuşdur. Türk dövlətlərinin paytaxtları arasında ən gənc olan Astana şəhəri ilboyu türk dünyasının mədəniyyət mərkəzinə çevrilmişdir [16]. TÜRKSOY Daimi Şurasının qərarına əsasən, Rusiya Federasiyası Tatarıstan Respublikasının Kazan şəhəri 2014 – cü ildə “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilmişdir [9].

***Nəticə***. Türkiyə, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Azərbaycan dövlətlərinin mədəni əməkdaşlığı diqqət mərkəzində olmuşdur. Türkiyə Cümhuriyyətinin yeni müstəqilliyə qovuşmuş dövlətlərlə əlaqəsi, eyni zamanda həmin dövlətlərin bir – biri ilə mədəni əməkdaşlığı məqalədə əks olunmuşdur. Rusiya Federasiyasının tərkibində olan türk subyektləri ilə mədəni əlaqələr də verilmişdir.

Diqqətəlayiq tədbirlərdən biri mədəniyyət sahəsində əməkdaşlıqda xüsusi rolu olan TÜRKSOY – un fəaliyyətinin tədqiqata cəlb edilməsidir. TÜRKSOY – un mədəniyyət sahəsində YUNESKO ilə əlaqələri də burada öz əksini tapmışdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. VII cilddə. Yeddinci cild. Bakı: Elm, 2003. – 676 s.
2. Azərbaycanda Türkmənistan Mədəniyyət Günlərinin təntənəli açılışı olmuşdur // Azərbaycan. – 2010. – 5 noyabr. – S. 9.
3. Mehdiyeva N.C. Azərbaycan – Özbəkistan əlaqələri (1991 – 2020 – ci illər) // Dünya azərbaycanlıları: tarix və müasirlik. IV Beynəlxalq konfransın tezisləri. 29 – 30 dekabr 2021. Bakı, Azərbaycan. Bakı: Bakı Universiteti nəşriyyatı, 2022, s. 244 – 250.
4. Mehdiyeva N.C. Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəni əlaqələri (1960 – 1980 – ci illər). Bakı: Azərnəşr, 1991. – 130 s.
5. Mehdiyeva N.C. Krım tatarları və Azərbaycan // – Bakı: Pedaqoji Universitet Xəbərləri, Humanitar elmlər bölməsi, – 2015. № 1, – s. 179 – 183.
6. Mehmet Saray. Kazaklar ve Kazakistan Cumhuriyeti Tarihi. İstanbul: KESİT YAYINLARI, 2022. – 471 s.
7. Mehmet Saray. Kırgızlar ve Modern Kırgız Devleti`nin Kuruluşu. İstanbul: KESİT YAYINLARI, 2022. – 438 s.
8. Mehmet Saray. Yeni Türk Cumhuriyetleri Tarihi. Ankara: Türk Tarih Kurumu, 2014. – 513 s.
9. Mehparə. “Türk dünyasının mədəniyyət paytaxtı”. Kazan şəhərində təntənəli açılış mərasimi keçirilib // Mədəniyyət. – 2014. – 2 may. – S. 7.
10. Məmmədli N. Mərkəzi Asiyanın türk dövlətləri və Türkiyə. Bakı: AzAtaM, 2005. – 321 s.
11. Muxtarov K. Türk xalqları XXI əsrin astanasında // “Azərbaycan XXI əsrin astanasında”. İkinci Respublika elmi – praktiki konfransının materialları. Bakı: Şərq – Qərb, 1998, s. 696 – 698.
12. В Казахстане состоялась сессия, посвященная Низами Гянджеви // Turkic Weekly. – 2021, 247. – S. 11.
13. В Кыргызстане стартовали дни культуры Казахстана. Turkic Weekly. – 2021, 247. – S. 9.
14. Azərbaycan – Tatarıstan münasibətləri [Elektron resurs]: Vikipedia. Azad ensiklopedia. – Giriş rejimi: az.wikipedia.org/wiki/ Azərbaycan – Tatarıstan_ münasibətləri [25.04.2023].

15. Azərbaycan – Türkmənistan sənədləri imzalanıb. [Elektron resurs]: – URL: https://ikisahil.az/post/azerbaycan-turkmenistan-senedleri-imzalanib [25.04.2023].
16. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı [Elektron resurs]: Vikipedia. Azad ensiklopedia. – Giriş rejimi: az.wikipedia.org/wiki/Beynəlxalq_Türk_Mədəniyyəti_Təşkilatı [25.04.2023].
17. İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə iştirak edib. [Elektron resurs]: – URL: https://president.az/az/articles /view/59186 [25.04.2023].
18. İsmayılova T. Azərbaycan – Qazaxıstan münasibətləri yeni mərhələdə... [Elektron resurs]: – URL: http://www.dia.az/8/373215-azerbaycan-qazaxistan-munasibetleri-yeni-merhelede.html [25.04.2023].
19. Qırğız Respublikasının Prezidenti Azərbaycana rəsmi səfərə gəlib. [Elektron resurs]: – URL: https://azpolitika.info/?p=671725 [25.04.2023].
20. İlham Əliyev: Şuşa şəhərinin bərpası üzrə planlarımız fəal icra olunur və icra olunacaq. [Elektron resurs]: – URL: https://news.milli.az/politics/1036520.html [25.04.2023].
21. “Manas” Qırğızıstan – Türkiyə Universiteti [Elektron resurs]: Vikipedia. Azad ensiklopedia. – Giriş rejimi: az.wikipedia.org/wiki/“Manas”_ Qırğızıstan_ Türkiyə_ Universiteti [25.04.2023].
22. Sedanur ŞEYBAN. Türkiye’nin Orta Asya türk devletlerine yönelik politikaları: iki taraflı ve çok taraflı ilişkilerde dönüşen iş birliği. [Elektron resurs]: – URL: http://acikerisim.karabuk.edu.tr:8080/xmlui/bitstream/handle/123456789/2368/10513169.pdf?sequence=1&isAllowed=y [25.04.2023].
23. Yeni paytaxt – Marı. “Türk dünyasının mədəni paytaxtı” Marı şəhəri seçilib. [Elektron resurs]: – URL: http://anspress.com/index.php?a= 2&1ng=az &cid=15& nid=322927 [25.04.2023].
24. История Туркменистана. – Эл. ресурс. – URL: https:www.orexca.com/rus/ turkmenistan/history.htm [25.04.2023].

**НИСБАТ МЕХТИЕВА**
*Профессор Бакинского Государственного Университета*

## КУЛЬТУРНЫЕ СВЯЗИ ТЮРКСКИХ ГОСУДАРСТВ (2004 – 2022)

Существуют политические, экономические и культурные связи между тюркскими государствами. Реализация культурных связей является залогом их сплоченности. Это сотрудничество также сближает тюркские государства друг к другу и развивает. Количество мероприятий, реализуемых в разных сферах культуры, неустанно растет. Тюркские государства сыграли важную роль в развитии мировой культуры. В настоящее время их достижения также растут.

*Ключевые слова*: Тюркские государства, культура, образование, наука, литература, искусство.

**NISBAT MEHDIYEVA**
*Professor of Baku State University*

## THE CULTURAL RELATIONS OF THE TURKISH STATES (2004 – 2022)

There are the political, economic and cultural relations between the Turkish states. The realization of cultural collaborations is the guarantee for their union. This cooperation also becomes the Turkish states friends and develops. The number of events realized in different spheres of culture also continuously increases. The Turkish states took the special part in the development of culture all over the world. During the modern period the achievements gained by them also increased.

*Keywords:* Turkish states, culture, education, science, literature, art.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Rəyçilər: t.e.d. İsmayıl Məmmədov, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**ELLADA KƏRİMOVA**
*Milli Aviasiya Akademiyası*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**ellada64.karimova@gmail.com**

# ZƏFƏR MÜHARİBƏSİ VƏ AZƏRBAYCANIN DÖVLƏTÇİLİYİNİN MÖHKƏMLƏNMƏSİNİN YENİ MƏRHƏLƏSİ

*44 Günlük Müharibə nəinki Cənubi Qafqaz bölgəsində regional təhlükəsizlik sistemini, habelə burada maraqları toqquşan böyek güclər arasında qüvvələr nisbətini əsaslı şəkildə dəyişdi. 2020-ci il 44 günlük Zəfər müharibəsi Milli Ordumuzun və Ali Baş komandanımızın misilsiz hünəri olmaqla yanaşı Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun hədsiz dərəcədə artması demək idi. Azərbaycan Prezidenti İlham Əlyev 2020-ci il Zəfər müharibəsi ərəfəsində və gedişində yüksək səviyyəli siyasətçi və sərkərdə kimi özünü bütün dünyada tanıtdı. Bununla da milli dövlətçilik tariximizdə yeni səhifə yazıldı, intibah mərhələsi başladı. Azərbaycanın ikinci Qarabağ müharibəsində qələbəsi müasir Azərbaycan tarixində fundamental əhəmiyyət kəsb edir və yeni dünya düzəninin formalaşmasında əhəmiyyətini artıran bütün regionun inkişafında dönüş nöqtəsidir. Hətta milli rəmzlər - Şuşanın qayıdışı, Qələbə günü və Dövlət Bayrağı Günü -Azərbaycanın Qələbəsinin vahid konsepsiyasına çevrilmiş oldu. Bu gün azad edilmiş ərazilər bütün region üçün müsbət dəyişikliklərin simvolu və əsas amilə çevrilmişdir. Regionda yeni quruculuq reallığının yaradıcısı ilk növbədə Azərbaycandır və Azərbaycan xalqının, ordusunun və rəhbərinin səyi ilə əldə edilən qələbənin fundamental əhəmiyyəti hər növbəti dəfə öz təsdiqini tapacaqdır. Bu həm də dövlətçilik tariximizdə yeni, daha yüksək mərhələnin başlanması deməkdir.*

*Açar sözlər*: İlham Əliyev, Zəfər Müharibəsi, dövlətçilik, yeni mərhələ, mübarizə.

***Giriş.*** 27 Sentyabr – 10 Noyabr 2020 tarixlərində baş verən 44 Günlük Müharibə nəinki Cənubi Qafqaz bölgəsində regional təhlükəsizlik sistemini, habelə burada maraqları toqquşan böyek güclər arasında qüvvələr nisbətini əsaslı şəkildə dəyişdi. 30 ilə yaxın davam edən Ermənistan – Azərbaycan münaqişəsinin dinc yolla aradan qaldırılması istiqamətində Azərbaycan tərəfinin bütün cəhdləri nəticəsiz qaldı. Bu azmış kimi, 2016-cı ildə Ermənistanın qondarma "inqilabi hökumət"in Azərbaycana qarşı siyasi və hərbi təxribatlara başlayaraq onilliklər ərzində əldə edilmiş razılaşmalar və prinsipləri rədd etməsi ilə ATƏT-in Minsk Qrupunun apardığı danışıqlar prosesinin davamını mümkünsüz etdi. 2016-cı il apreldə növbəti erməni təcavüzü, 2020-ci il yayda Tovuz hadisələri cəbhədə gərginliyi daha da artıraraq məsələnin hərbi yolla həllini zəruri etdi. 2020-ci il noyabrın 9-da bitən və tarixə 44 günlük müharibə kimi düşən genişmiqyaslı hərbi əks hücum əməliyyatları Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələndi.

Zəfər müharibəsinin nəticələri və əhəmiyyəti barədə indiyədək müxtəlif cəpkili yazılara rast gəlinsə də, ancaq qələbənin dövlətçiliyimizin daha da möhkəmlənməsinə təsiri o qədər də geniş araşdırılmamışdır. Məqalənin yazılmasından məqsəd bu sahədəki vəziyyəti dəyişməkdir.

***Müharibənin zəruriliyi və ona hazırlıq.*** 2020-ci il 44 günlük Zəfər müharibəsi Milli Ordumuzun və Ali Baş komandanımızın misilsiz hünəri olmaqla yanaşı Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun hədsiz dərəcədə artması demək idi. Azərbaycan Prezidenti İlham Əlyev 2020-ci il Zəfər müharibəsi ərəfəsində və gedişində yüksək səviyyəli siyasətçi və sərkərdə kimi özünü bütün dünyada tanıtdı. Bununla da milli dövlətçilik tariximizdə yeni səhifə yazıldı, intibah mərhələsi başladı [5, s.130].

Bu möhtəşəm qələbənin ardınca Prezident dövlət qarşısında genişmiqyaslı, iddialı vəzifələr qoymuş, buna paralel olaraq, güc sahəsinin yenilənməsi, institusional islahatların həyata keçirilməsi istiqamətində çətin işlərin icrasına başlamaqla dövlətçilik tariximizdə yeni yüksək inkişaf mərhələsini başlatmışdır.

44 günlük Vətən Müharibəsində Azərbaycanın qələbəsinin çox mühüm nəticələri olmuşdur. Bu qələbə bütün regionun qələbəsinə çevrildi. Azərbaycan regional və regionlararası səviyyədə sülh və

əməkdaşlıq üçün güclü potensial açaraq müharibəyə aparırdı. Cənubi Qafqazda formalaşan yeni reallığın mənasını və perspektivlərini dərk edən ölkələr Azərbaycan dövlətinin başçısının irəli sürdüyü iqtisadi proqramlara, uzunmüddətli strateji təşəbbüslərə qoşulmuş və qoşuldular.

Prezident İlham Əliyev elə nadir siyasi liderlərdən biridir ki, böhrandan çıxış yollarını təklif etməklə yanaşı, həm də böyük geosiyasi və geoiqtisadi məkanın inkişaf strategiyasını formalaşdırmağa nail oldu. İlham Əliyevin bu istiqamətdə səyləri bir sıra dünya və regional güclərin liderləri tərəfindən diqqət və onun təşəbbüslərinə dəstək verir.

Azərbaycan Prezidentinin müəyyən etdiyi genişmiqyaslı qarşılıqlı faydalı əməkdaşlıq perspektivləri əsasında opponentlərin səyləri getdikcə dəyərdən düşür. Bu gün biz Prezident İlham Əliyevin rəhbərlik etdiyi çevik, ağıllı diplomatiyanın və Azərbaycanla qarşıdurmadan daha çox əməkdaşlığın təqdim etdiyi imkanlar ən çətin opponentləri belə mövqelərini yumşaltmağa və Azərbaycanla dialoqu normallaşdırmağa çalışmalı olur.

Bu gün azad edilmiş ərazilər bütün region üçün müsbət dəyişikliklərin simvolu və əsas amilə çevrilmişdir. Regionda yeni quruculuq reallığının yaradıcısı ilk növbədə Azərbaycandır və Azərbaycan xalqının, ordusunun və rəhbərinin səyi ilə əldə edilən qələbənin fundamental əhəmiyyəti hər növbəti dəfə öz təsdiqini tapacaqdır.

Müharibə nəticəsində yaranmış yeni reallıqların tarixi əhəmiyyəti artıq Azərbaycanın qələbəsindən keçən 2 ilin yekunları bölgədəki hər bir ölkə, xüsusi ilə də region və dünya üçün tarixi ədalətin təntənəsi, Azərbaycanın ərazi bütövlüyünün bərpası, münaqişəyə son qoyan Azərbaycanın dövlət yetkinliyinin, digər tərəfdən təxribatların, müharibələrin mənbəyinə çevrilmiş Ermənistan dövlətçiliyinin iflasa uğramasının sübutu, beynəlxalq auditoriyanın qavrayışında stereotiplərin qırılması, Ermənistan Qarabağ münaqişəsində qurban deyil, münaqişənin təşəbbüskarı, işğalçı ölkə olduğunu, ultra müasir Azərbaycan ordusunun region üçün təhlükəli olan erməni revanşizminin və separatizminin qarşısını alan əsas amillərdən biri olduğunu, Ermənistan elitasının təxribatçı hay-küyü, məsuliyyətsizliyi fonunda Prezident İlham Əliyevin simasında Azərbaycan rəhbərliyinin səlahiyyəti, gücü, adekvatlığının sübutu idi.

Müxtəlif subyektiv səbəblərdən öz qətnamələrinin icrasını təmin edə bilməyən və ya təmin etmək istəməyən beynəlxalq hüququn və beynəlxalq təşkilatların imicinin reabilitasiyası, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli də fikirlərimizi bir daha təsdiq edir.

***Azərbaycanın BMT TŞ-nin 4 qətnaməsini icra etməsi.*** İlham Əliyev demişdir ki, "əgər Azərbaycan BMT Nizamnaməsinin özünümüdafiə hüququnu nəzərdə tutan 51-ci maddəsindən istifadə edərək öz ərazi bütövlüyünü bərpa etməsəydi, o zaman bu qətnamələr daha 27 il kağız üzərində qalardı" [6].

Rusiya və Türkiyə liderləri üçtərəfli səylərlə regional əməkdaşlıq sistemində güclü dominant ox yaradaraq Azərbaycan Prezidentinin mövqeyini dəstəkləyirlər. Ümid var ki, İran da istəsə, Azərbaycan, Türkiyə və regionun digər ölkələri ilə iqtisadi qarşılıqlı fəaliyyət üçün sərfəli məkan yaratmaq imkanı əldə edərək "6" platformasında öz perspektivlərini qiymətləndirəcək.

Bundan əlavə, gələcəkdə Qarabağ münaqişəsinin həlli Rusiya ilə Gürcüstan arasında münasibətlərin normallaşmasının başlanmasına müsbət təkan verə bilər. Azərbaycanın həyata keçirdiyi iqtisadi layihələr, xüsusi ilə də Cənub Qaz Dəhlizi Avropa tərəfdaşları ilə siyasi dialoqda iqtisadi əlaqələr və daha geniş anlaşma üçün praqmatik əsas rolunu oynayır. Öz növbəsində, Zəngəzur dəhlizi Şərq-Qərb dəhlizinin əsas fraqmentlərindən birinə çevrilərək region ölkələri arasında başdan-başa kommunikasiyalar açacaq.

Ermənistana gəlincə, Azərbaycan da bu ölkənin qonşu dövlətlər və xalqlarla sağlam dinc yanaşı yaşama yoluna qədəm qoyması şansı verərək, iqtisadi böhrandan çıxmaq üçün imkanlar yaratmışdır. Ermənistan rəhbərliyinə 7000-ə yaxın qurban və onların tamamilə acınacaqlı vəziyyətdə olduğunu anlamaq üçün 44 gün lazım oldu. Noyabrın 9-dan 10-na keçən gecə Ermənistan təslim aktını imzalaması və müharibənin başa çatmasının ardınca [3, s.287] erməni qəsbkarları tərəfindən dağıdılan və bombardman edilən şəhər və kəndləri xarabalıqlardan qaldırmaq, aeroportlar tikmək, infrastruktur yaratmaq, yeni texnologiyalar tətbiq etmək, məbədləri bərpa etmək, mədəniyyəti dirçəltmək üçün Azərbaycana cəmi bir il lazım oldu.

Azərbaycanın ikinci Qarabağ müharibəsində qələbəsi müasir Azərbaycan tarixində fundamental əhəmiyyət kəsb edir və yeni dünya düzəninin formalaşmasında əhəmiyyətini artıran

bütün regionun inkişafında dönüş nöqtəsidir. Hətta milli rəmzlər - Şuşanın qayıdışı, Qələbə günü və Dövlət Bayrağı Günü -Azərbaycanın Qələbəsinin vahid konsepsiyasına çevrilmiş oldu.

***Qələbənin başlıca siyasi əhəmiyyəti.*** İlham Əliyev tarixi qələbəmizlə yeni Azərbaycan yaratdı. Həm tərəfdaşlar, həm də opponentlər tərəfindən qəbul edilən, turistlərin ziyarət etmək istədikləri, sabit və təhlükəsiz, özünəməxsus mədəniyyəti və xüsusi sivilizasiya missiyası ilə tanınan Azərbaycan artıq reallığa çevrilmişdir. Müdrik və uzaqgörən Prezidentin rəhbərlik etdiyi Azərbaycanın topladığı bütün nailiyyətlər bizi əsas məqsədlərdən birinə - dövlətin ərazi bütövlüyünün bərpasına qovuşdurdu.

Prezident İlham Əliyev qələbəmizlə çətin və ziddiyyətli şəraitdə həm xarici, həm də daxili ciddi risk və təhdidlərdən yan keçərək Azərbaycanı öz inkişafının yeni mərhələsinə ağrısız çıxara bildi. Bu, cəmiyyət üçün təhlükəli sarsıntıların qarşısını almaq üçün Prezident tərəfindən incə və ardıcıl həyata keçirilən ölkənin çoxsəviyyəli təkamül transformasiyası prosesi idi.

Zəfər müharibəsi müasir hərbi tarixdə paraleli olmayan müharibə idi. Düşmən itki verdi, dünya heyrətdən dondu. Müharibə başa çatan kimi Qarabağın bərpasına başlanıldı. Eyni templə, eyni əzmlə. Cəmi bir il əvvəl şiddətli döyüşlərin getdiyi yerlərdə asfalt yollar, iki beynəlxalq hava limanı, “ağıllı kəndlər” salınmışdır. 44 günlük Vətən Müharibəsi kimi, bu iki illik bərpa dövrü də bir fenomendir. Bu, Azərbaycanın qüdrətinin, xalqımızın qurub-yaratmaq istəyinin göstəricisidir.

Onlar qan tökülməsini, insanların ölməsini istəmirdilər. Amma, necə deyərlər, səbr kasası dolub-daşırdı. Xalq və ordu hücuma keçmək üçün Ali Baş Komandanın əmrini gözləyirdi. Nəhayət, çoxdan gözlənilən an gəlib çatdı.

Ermənilərin Qarabağa köçürülməsindən başlayan iki yüz illə bağlı düyünlər 44 gündə açıldı. Azərbaycan BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan dörd qətnaməsini təkbaşına yerinə yetirərək, öz ərazi bütövlüyünü təmin etdi.

Bütün məqamları - müasir silahları, əsgərlərin şücaətini, mübarizlik və vətənpərvərlik ruhunu, xalqın qələbə istəyini və digər mənəvi-psixoloji cəhətləri nəzərə alsaq, fəxrlə deməliyik ki, 44 günlük Vətən Müharibəsi tarixi hadisədir.

Döyüşdə qələbəni təmi mühüm amil Ali Baş Komandanın istedadı, xalqın və ordunun ona olan inamı olmuşdur. Müharibənin ilk günlərində dəqiq planlaşdırılmış əməliyyat nəticəsində düşmənin 30 ilə yaxındır tikdiyi və möhkəmləndirdiyi ilk müdafiə xəttini yarıldı. Düşmənə vurulan sarsıdıcı zərbə Azərbaycan əsgərinin nəyə qadir olduğunu göstərdi, düşməni qorxuya saldı, xalqımızda böyük ruh yüksəkliyi yaratdı, mənəvi-psixoloji baxımdan müstəsna rol oynadı.

***Üç cəbhədə müharibənin qəhrəmanı.*** Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev müharibənin 44 günündə üç cəbhədə döyüşmüşdü: hərbi əməliyyatlara rəhbərlik etmiş, siyasi-diplomatik müstəvidə, həm də informasiya müstəvisində döyüşmüşdü [7].

Vətən Müharibəsi salnaməsi Azərbaycan Liderinin həm döyüş meydanında, həm də siyasi arenada müdrik, qətiyyətli, ardıcıl, bir-birini tamamlayan gedişləri ilə zəngin uğurlu müharibə tarixi təəssüratı yaratdı. Qarabağda qazanılan qələbə - 44 gündə 5 böyük şəhərin, 4 qəsəbənin, 286 kəndin işğaldan azad edilməsi faktı öz sözünü deyir [7].

Müasir müharibədə uğuru təmin edən digər mühüm amil informasiya döyüşündə əldə edilən üstünlükdür. Biz bunu Vətən Müharibəsi illərində aydın görə bildik. Bütün dünya gördü ki, erməni təbliğat maşını necə işləyir, Azərbaycan buna necə cavab verir. Ümumiyyətlə, müharibə illərində Prezidentimiz müasir diplomatiya tarixinə düşəcək nümunələr göstərdi. 44 gündə dünyanın aparıcı mediası ilə 30-dan çox müsahibəsində Prezident İlham Əliyev Ermənistanın hərbi-siyasi rəhbərliyinin cinayətlərini faktlarla sübut edərək erməni faşizminin əsl simasını üzə çıxardı. O, Azərbaycana qərəzli yanaşan bəzi xarici müxbirlərin dezinformasiya məqsədi güdən, ittiham xarakteri daşıyan suallarını da təmkinlə cavablandırıb, həqiqəti dünyaya çatdırdı. Beləliklə, erməni təbliğat maşını, erməni diasporunun onilliklər ərzində formalaşdırdığı saxta ideyalar dağıdıldı.

Münaqişə başlayandan erməni tərəfi yalan məlumatlar yayaraq dünyanı aldadırdı. Lakin İlham Əliyevi diplomatik fəaliyyəti nəticəsində 44 günlük müharibə zamanı bir neçə ermənipərəst ölkə istisna olmaqla, dünya birliyi münaqişə ilə bağlı ədalətli mövqe tutdu. Bu da öz növbəsində Qarabağda Qələbənin əsas rıçaqlarından birinə çevrildi.

Qalib Ali Baş Komandan İlham Əliyev rəşadətli Ordusu ilə döyüş meydanında, diplomatik və informasiya müstəvisində döyüşü isə təkbaşına, ağlının, istedadının gücü ilə qazandı.

***Ədalətli sonluq.*** Dediklərimizin nəticəsi, qələbəmizin zirvəsi, təbii ki, Şuşanın azad edilməsi oldu. İlham Əliyev demişdir ki, Şuşaya gedən yol 27 sentyabr tarixindən başlanmışdır. Müharibənin ilk günündən son gününədək zərbaycan Silahlı Qüvvələri yalnız irəli gedirdi" [2, s.178].

Prezidentin, Zəfər Ali Baş Komandanı Şəhidlər Xiyabanıdan xalqa verilən bu sevincli xəbər, sözün yaxşı mənasında, bütün Azərbaycanı ayağa qaldırdı. Şuşanın qurtuluş günü - 8 noyabr tariximizə Qələbə günü kimi daxil oldu [1, s.14].

Müharibə hələ bitməsə də, hamı tam qələbənin çox yaxın olduğunu hiss edirdi. Şuşanın azad edilməsi düşməni darmadağın etdi, müharibənin nəticəsi mahiyyətcə həll olundu. Ertəsi gün təslim aktını imzalamağa məcbur olan Ermənistan işğal etdiyi digər rayonlarımızdan qoşunlarının çıxarılması tarixini açıqladı. Ağdam, Kəlbəcər və Laçın bir güllə dəymədən, itkisiz azad edildi.

***Tarixi qayıdış.*** Vətən Müharibəsindəki Qələbəmiz dünyanı heyrətə gətirdiyi kimi, azad edilmiş torpaqlara həyatın bu qədər sürətlə qayıtması da eyni şəkildə heyrətləndiricidir. Hər iki halda uğurun əsasında Prezidentlə xalqın sarsılmaz birliyi, Liderə sonsuz inam və inam dayanır. Bu birlik və həmrəylik sözün əsl mənasında böyük dəstəkdir.

Qarabağın kimə məxsus olduğunu sübut etmək üçün tarixin dərinliyinə varmağa ehtiyac yoxdur. İşğaldan azad edilmiş torpaqlar, "Qafqazın Xirosiması" adlanan Ağdamdakı mənzərə, bayraq ucaltmaq üçün bir dənə də olsun tikili tapılmayan Füzuli, yerlə-yeksan edilmiş Cəbrayıl, Qubadlı, Zəngilan, Şuşa 30 ildir ki, baxımsız qalmışdır. Talan meşələr, qurumuş bulaqlar, zəhərlənmiş çaylar. Prezidentimizin dediyi kimi, sanki bu yerləri vəhşi tayfa keçmişdir [7].

Müharibə başa çatan kimi Qarabağda bərpa və quruculuq işlərinə başlanıldı. Düşmən də yəqin ki, bilirdi ki, bu torpaqları sona qədər saxlaya bilməyəcək, gün gələcək, Qarabağın əsl sahibləri qayıdacaq, biz də qayıtdıq, həmişəlik qayıtdıq.

***Böyük mənəvi-siyasi dəstək.*** Qarabağda qələbəni şərtləndirən mənəvi-psixoloji amillərdən biri də şübhəsiz ki, Türkiyənin qardaş dəstəyi ilə bağlıdır. Hörmətli Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyənin siyasi və hərbi rəhbərliyi müharibənin ilk dəqiqələrindən dünyaya birmənalı mesaj verdi: Azərbaycan tək deyil! Beləliklə, gözümüzün qabağında qardaşlıq dastanının gələcək nəsillərin hətta əsrlər sonra da fəxr edə biləcəkləri yeni fəsilləri yazılıb və yazılmaqdadır.

Tarix Azərbaycan-Türkiyə qardaşlığının çoxlu nümunələrini bilir və uzağa getməyə ehtiyac yoxdur. Bu qardaşlığı yüz il bundan əvvəl baş vermiş Çanaqqala döyüşləri və Bakının daşnak-bolşevik işğalından azad etmək uğrunda gedən döyüşlər də sübut edir.

İkinci Qarabağ müharibəsinə gəlincə, Türkiyənin mənəvi və siyasi dəstəyi bizim gücümüzü artırdı. Türkiyə yenə bizimlədir. Bu dəfə qardaşlarımız Qarabağın bərpasında bizimlə çiyin-çiyinə çalışırlar. Prezident Rəcəb Tayyib Ərdoğanın işğaldan azad edilmiş torpaqlara səfərləri, Şuşada imzalanan tarixi Bəyannamə əbədi və sarsılmaz qardaşlığın daha bir sübutu demək idi [5, s.136].

***Böyük qayıdış üçün.*** Müharibə dövlət quruluşu, dövlət idarəçiliyi və xalqın iradəsi üçün güc sınağıdır. Dövlətimiz, xalqımız bu sınaqdan ləyaqətlə çıxdı, öz torpağını qoruya bildi, gücünü bütün dünyaya nümayiş etdirdi. Bu gün qarşıda işğaldan azad edilmiş ərazilərin bərpası, keçmiş məcburi köçkünlərin tezliklə öz doğma yurdlarına qayıtması kimi mürəkkəb, genişmiqyaslı işlərdən başqa heç bir çətin sınaq yoxdur.

Prezidentimiz dedi ki, Qarabağ nəyin bahasına olursa olsun azad olunacaq. Və belə də oldu. Prezident deyir ki, düşmən tərəfindən viran qoyulan bu yerlər cənnətə çevriləcək. Belə də olacaq. Biz tarixin bu sınağından şərəf və ləyaqətlə çıxacağıq.

Qarabağın bərpasından danışarkən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın mətbuata açıqlamasında dediyi kimi: "Azərbaycanın işğaldan azad edilmiş bölgələrinin necə dirçəldilməsini, qısa zamanda necə sürətlə inkişaf etdiyini görürük. Hər cəsur insan, hər siyasətçi buna qadir deyil. Bu qədər qısa müddətdə sərmayə qoymaq, bu işi görmək, əminəm ki, doğma torpaqlarını tərk etmək məcburiyyətində qalan azərbaycanlı qardaşlarımıza müjdəmizi çatdıraq" [4, s.305].

2020-ci il dekabrın 10-da Ermənistanla müharibədə möhtəşəm qələbənin xatirəsini yad etmək üçün Bakıda iki qardaş ölkə liderlərinin iştirakı ilə hərbi parad keçirildi və burada Ermənistan ordusundan əsir götürülmüş hərbi texnika nümunələri nümayiş etdirildi [1, s.242].

***Nəticə.*** Zəfər müharibəsində qələbə nəticəsində Azərbaycan xalqının əhval-ruhiyyəsi və ölkə Prezidenti İlham Əliyevin nüfuzu hədsiz dərəcədə yüksəlmişdir. İkinci Qarabağ müharibəsində Türkiyənin mənəvi və siyasi dəstəyi bizim gücümüzü artırdı. Türkiyə yenə bizimlədir. Bu dəfə qardaşlarımız Qarabağın bərpasında bizimlə çiyin-çiyinə çalışırlar.

Bu gün azad edilmiş ərazilər bütün region üçün müsbət dəyişikliklərin simvolu və əsas amilə çevrilmişdir. Regionda yeni quruculuq reallığının yaradıcısı ilk növbədə Azərbaycandır və Azərbaycan xalqının, ordusunun və rəhbərinin səyi ilə əldə edilən qələbənin fundamental əhəmiyyəti hər növbəti dəfə öz təsdiqini tapacaqdır. Bu həm də dövlətçilik tariximizdə yeni, daha yüksək mərhələnin başlanması deməkdir.

ƏDƏBİYYAT

1.Əliyev İlham. İnkişaf məqsədimizdir. Yüz səkkizinci kitab. noyabr 2020 – dekabr 2020. Azərnəşr, Bakı: - 2021. – 392 s.
2.Əliyev İlham. İnkişaf məqsədimizdir. Yüz iyirmi üçüncü kitab. okyabr 2022 – noyabr 2022. Azərnəşr, Bakı: - 2022. - 392 s.
3.Əliyev İlham. İnkişaf məqsədimizdir. Yüz on beşinci kitab. okyabr 2021 – noyabr 2021. Azərnəşr, Bakı: - 2022. - 392 s.
4.Əliyev İlham. İnkişaf məqsədimizdir. Yüz on ikinci kitab. may 2021 – iyun 2021. Azərnəşr, Bakı: - 2021. - 392 s.
5.Hüseynova İ.M. İlham Əliyev və zəfər tariximizin şanlı səhifələri. Bakı, "Füyuzat", 2021, 224 s.
6.Nəsirzadə X. İ.Əliyev: Azərbaycan BMT-nin Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutaraq öz ərazi bütövlüyünü bərpa etdi //http://interfax.az/view/843194/az [05.04.2023].
7.Асланов Аслан. Формула Победы: Мудрый полководец, железный кулак, решительный народ.- https://azertag.az/ru/xeber/Formula_Pobedy_Mudryi_polkovodec_zheleznyi_kulak_reshitelnyi_narod-1918898 [05.04.2023].
8.Мамедзаде Гюльнара. Ильхам Алиев доказал свою состоятельность в качестве политика высокого уровня. - https://www.politrus.com/20180206/gulnara-mamedzade/ [05.04.2023].
9.Мамедзаде Гюльнара. Победа Азербайджана изменила будущее всего региона – ситуация развивается по стратегическим планам Президента Ильхама Алиева. - https://www.trend.az/azerbaijan/politics/3509230.html [05.04.2023].

**ЭЛЛАДА КЕРИМОВА**
*Доцент Национальной авиационной академии,*
*кандидат исторических наук*

## ПОБЕДОНОСНАЯ ВОЙНА И НОВЫЙ ЭТАП УКРЕПЛЕНИЯ ГОСУДАРСТВЕННОСТИ АЗЕРБАЙДЖАНА

В результате победы в победоносной войне чрезвычайно возросло настроение азербайджанского народа и авторитет Президента страны Ильхама Алиева. Моральная и политическая поддержка Турции во второй карабахской войне увеличила наши силы. Турция снова с нами. На этот раз наши братья работают плечом к плечу с нами в восстановлении Карабаха.

Сегодня освобожденные территории стали символом и ключевым фактором позитивных перемен для всего региона. Творцом новой строительной реальности в регионе является прежде всего Азербайджан, и фундаментальное значение победы, достигнутой усилиями азербайджанского народа, армии и лидера, будет подтверждаться каждый следующий раз. Это и означает начало нового, более высокого этапа в истории нашей государственности.

*Ключевые слова*: Ильхам Алиев, Победоносная Война, государственность, новый этап, борьба.

**ELLADA KARİMOVA**
*Associate Professor of the National Aviation Academy,*
*Candidate of Historical Sciences*

## VICTORIOUS WAR AND A NEW STAGE OF STRENGTHENING THE STATEHOOD OF AZERBAIJAN

As a result of the victory in the victorious war, the mood of the Azerbaijani people and the authority of the President of the country, Ilham Aliyev, have increased tremendously. The moral and political support of Turkey in the second Karabakh war increased our strength. Türkiye is with us again. This time our brothers are working shoulder to shoulder with us in the reconstruction of Karabakh.

Today, the liberated territories have become a symbol and a key factor in positive change for the entire region. First of all, Azerbaijan is the creator of a new building reality in the region, and the fundamental significance of the victory achieved through the efforts of the Azerbaijani people, the army and the leader will be confirmed every next time. This means the beginning of a new, higher stage in the history of our statehood.

*Keywords*: Ilham Aliyev, Victory War, statehood, new stage, struggle.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Rəyçilər: t.e.d. Fazil Baxşəliyev, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**ZƏMİNƏ ƏSGƏROVA**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun*
*"Azərbaycanın beynəlxalq əlaqələri tarixi" şöbəsinin böyük elmi işçisi,*
*tarix üzrə fəlsəfə doktoru*
**zaminamamed@gmail.com**

# ELMİ DİASPORUN MİLLİ ELMİN İNKİŞAFINA TƏSİRİ

*Azərbaycan elminin və təhsilinin inkişafında elmi diasporun rolu böyükdür. Bu istiqamətdə atılan addımlardan biri də milli elmi xarici ölkələrdə elmi diasporun ayrı-ayrı nümayəndələri ilə əlaqələrin qurulması və əməkdaşlığı məsələsidir. Məqalədə Azərbaycan diasporunun elmi fəaliyyəti, diasporun milli elmin inkişafı naminə gördüyü tədbirlər – mədəniyyət mərkəzlərin, cəmiyyətlərin fəaliyyətin tərkib hissəsini təşkil edən konfranslar, qurultaylar araşdırılmışdır.*

*Açar sözlər:* beyin axını, elmi diaspor, vətən tarixi, milli elm.

***Giriş.*** Beyin axını – mütəxəssis, alim və ixtisaslı işçilərin siyasi, iqtisadi, elmi və digər səbəblərdən ölkə və regiondan kütləvi surətdə miqrasiya etməsidir. «Beyin axını» («Brain drain») anlayışı elmi ədəbiyyata ilk dəfə Britaniya Kral Cəmiyyətinin hazırladığı hesabatdan sonra daxil edilmişdir. 1963-ci ildə bu anlayış mühəndis, texnik və alimlərin Böyük Britaniyadan ABŞ-a miqrasiya etməsindən sonra istifadə edilməyə başladı [9].

«Beyin axını» prosesi Azərbaycandan da yan keçməməsidir. Azərbaycan alimlərinin dünya elmində özünəməxsus və əvəzedilməz yerləri var. Tarixdən bu günümüzə kimi azərbaycanlı alimlər elmi təfəkkürün müxtəlif sahələrində yaratdıqları əsərləri ilə bəşəriyyətin elmi-mədəni yüksəlişinə böyük xidmətlər göstərmişlər. Son illərdə "beyin axını" nəticəsi olaraq "elmi diaspora" anlayışı meydana çıxıb. Azərbaycandan xarici ölkələrə beyin axını elmi diasporun fəaliyyətinin öyrənilməsi üçün azərbaycanlıların yayılma coğrafiyasının araşdırılmasını zərurətə çevirmişdir.

Elmi diaspor xarici ölkələrdə mövqe qazanmış alimlər, mühəndislər, yüksək ixtisaslı və yüksək rəqabət qabiliyyətli bir insan qaynağıdır. Ümumilikdə, elmi diaspora kəşflər etməyə və problemləri birlikdə həll etməyə imkan verəcək bir əməkdaşlıq arxitekturasıdır. Beləliklə, elmi diaspora milli elmin müxtəlif sahələrinə dair dünya təcrübəsinin öyrənilməsi, əməkdaşlıq əlaqələrinin qurulması və təcrübə mübadiləsinin aparılması baxımından mühüm əhəmiyyət kəsb edir.

***Azərbaycan diasporunun elmi fəaliyyəti.*** Bu gün xarici ölkələrdə "azərbaycanlı" adını şərəf və ləyaqətlə daşıyan neçə-neçə dünya şöhrətli alimlər, ziyalılar, incəsənət xadimləri, iş adamları vardır və onlar yaşadıqları ölkələrin ictimai-siyasi həyatında yaxından iştirak edirlər. Azərbaycanlıların siyasi, iqtisadi, sosial-mədəni və elmi fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait mənəvi dəyərlər kimi bir-birindən fərqlənir.

Təsadüfi deyil ki, bu gün kifayət qədər Azərbaycan alimləri bir çox dünya ölkələrində geniş elmi fəaliyyətlə məşğuldurlar. Ziyalılarımız öz elmi fəaliyyətləri ilə çalışdıqları ölkələrin ictimaiyyətində, böyüyüb boya-başa çatdığı vətəni də təmsil edirlər. Lakin hazırda xarici ölkələrdəki azərbaycanlı mütəxəssislərin Azərbaycan diasporunun tərkib hissəsi olan elmi-texniki diasporla əlaqələri istənilən səviyyədə deyil. Alim-tədqiqatçı soydaşlarımızın təcrübəsindən ölkəmizin beynəlxalq elmi-texniki əməkdaşlığının inkişafında istifadə olunması isə ölkəmiz üçün böyük əhəmiyyətə malikdir. Azərbaycanın dünya birliyinə inteqrasiyası üçün xarici ölkələrdə yaşayan müvəqqəti və ya daimi yaşayan alimlərin, tədqiqatçıların fəaliyyətindən istifadə edilməsi üçün son illər bir çox addımlar atılıb. Əsas məqsəd bu elm adamlarını bir araya gətirmək, koordinasiyalı şəkildə fəaliyyət göstərmələrini təmin etməkdir. Bu istiqamətdə atılan addımlardan biri də elmi diaspor şəbəkəsinin yaradılmasıdır. Bu layihəni irəli sürən "Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər" təşkilatı elmi diaspor fəaliyyətinin qurulmasında mühüm addımlar atıb.

Qeyd edək ki, Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər təşkilatı 1994-cü ildə Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Təşkilatın üzvləri 1970-1980-ci illərdə respublikamızdan kənarda, keçmiş SSRİ-nin aparıcı ali məktəblərində təhsil almış mütəxəssislərdir. Təşkilatın 2000-

dən artıq üzvü var. Üzvlərdən iyirmi beş nəfəri elmlər doktoru, yüz səksən nəfəri elmlər namizədidir. Yüz qırx bir nəfər Moskva Dövlət Universitetinin məzunudur [11].

AKTAM təşkilatının əsas məqsədi öz üzvlərinin elmi, texniki, mədəni potensialından və əlaqələrindən istifadə etməklə, Azərbaycan Respublikasının müxtəlif sahələrində elmi problemlərin həllinə yardım etməkdir. Təşkilatın həyata keçirdiyi layihələr təhsilin problemləri, informasiya texnologiyalarının təhsildə tətbiqi, informasiya texnologiyalarının dövlət xətti ilə xaricdə təhsil alan tələbələrin təhsilinə nəzarət üçün tətbiqi və aqrar sektorun idarə olunmasında informasiya texnologiyalarının tətbiqinə aiddir. Ölkədən kənarda yaşayan və çalışan elm adamlarını bir arada birləşdirən təşkilatın elmi diasporla bağlı layihəsinin əsas məqsədi isə xarici ölkələrdə alimlərin, tədqiqatçıların müasir texnika və texnologiya sahəsində qabaqcıl mütəxəssislərin informasiya analitik məlumat bankını yaratmaqdır.

Azərbaycanın dünya birliyinə inteqrasiyası üçün onun beynəlxalq aləmlə yeni əlaqə mexanizmləri yaradılmalıdır. Bu məqsədlə xaricdə müvəqqəti və ya daimi yaşayan alimlər, tədqiqatçılar haqqında məlumat bankının yaradılması və daimi yeniləşdirilməsi çox aktualdır.

Azərbaycan Respublikasının Diasporla İş Üzrə Dövlət Komitəsi haqqında əsasnaməsinə görə Komitənin əsas fəaliyyət istiqamətlərindən biri azərbaycanlıların "öz milli varlığını yaşatmasına və inkişaf etdirməsinə, ana dilini öyrənməsinə və tətbiqinin genişləndirilməsinə" [3, s.3] köməklik göstərməkdir. Komitənin əsas vəzifələrinə isə milli elmin inkişafına xidmət məqsədi də daxildir.

- Xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasının tədris müəssisələrində təhsil almasına, elmi və digər yaradıcılıq fəaliyyəti ilə məşğul olmasına yardım etmək

-Xaricdə yaşayan azərbaycanlılar, onların məktəb və digər mərkəzləri üçün ana dili dərsliklərinin, müvafiq tədris proqramlarının və vəsaitlərinin hazırlanmasında iştirak etmək [3, s.4-8].

Qeyd edilən vəzifələrin icrası milli elmin inkişafı üçün böyük töhfələr verə bilər. Azərbaycan diasporunun milli elmin inkişafı naminə gördüyü işlərdə təşkilatların, mərkəzlərin, cəmiyyətlərin açılmasında müşahidə olunur. Diasporun elmi fəaliyyətinin milli elmin inkişafında roluna birbaşa təsir edən mədəniyyət mərkəzlərinin, cəmiyyətlərin fəaliyyətlərinin tərkib hissəsini təşkil edən konfransların, Dünya Azərbaycanlılarının qurultaylarının əhəmiyyətini də qeyd etmək yerinə düşər. Qeyd edək ki, bu günə qədər Dünya Azərbaycanlılarının 5 qurultayı keçirilib.

"Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2001-ci il tarixli, 724 nömrəli Sərəncamına əsasən 2001-ci il noyabr ayının 9-10-da Bakı şəhərində keçirilmişdir [5]. Qurultayın keçirilməsi müxtəlif ölkələrdə Azərbaycan icmalarının, cəmiyyətlərinin mütəşəkkilliyi və fəallığının artmasına ciddi təsir göstərdi. Azərbaycan Prezidentinin 2002-ci il 5 iyul tarixli fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin yaradılması, həmin il dekabrın 27-də "Xaricdə Yaşayan Azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının təşkilatlanması prosesini gücləndirdi. Bu işlərin aparılmasının həvalə olunduğu Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası diasporun formalaşması istiqamətində mühüm sayılan işlərin reallığa çevrilməsində həlledici rol oynadı.

2006-cı il martın 16-da Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən Dünya Azərbaycanlılarının II Qurultayı isə xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım oldu [6].

Qeyd edək ki, I, II qurultaydan sonra ardıcıl olaraq 2011, 2016 və 2022-ci illərdə daha 3 qurultay keçirildi. Bu mötəbər tədbirlər dünyanın müxtəlif ölkələrində diaspor təşkilatlarının sayının artmasına səbəb oldu. İlk illərdə ayrı-ayrılıqda fəaliyyət göstərən təşkilatlar zəka axını prosesinin tanınan simalarının rəhbərlik etdiyi konqreslər ətrafında toplandılar. Dünya Azərbaycanlıları Konqresi, Ukrayna Azərbaycanlıları Konqresi, Amerika Azərbaycanlıları Konqresi, İsveç-Azərbaycan Federasiyası, Türkiyə-Azərbaycan dərnəkləri Federasiyası, Almaniya-Azərbaycan Cəmiyyətləri Federasiyası və s. birliklərin aparıcı simaları tanınan azərbaycanlı ziyalılar, alimlər, müəllimlərdən və s. ibarətdir.

Ətrafında sıx olaraq ziyalıların birləşdiyi qurumlar içərisində Azərbaycan-Alman Akademiyası (Berlin, 1986), Azərbaycan Akademik Dərnəyi (Avstriya, 2002), Amerika-Türk Assosiasiyalar Assambleyası (ABŞ), Azərbaycan Təhsil və Mədəniyyət Mərkəzi (Kanada), Nizami Gəncəvi adına Azərbaycan Mədəniyyət Mərkəzi (Almaniya) Elm və Mədəniyyət Avropa – Qafqaz Mərkəzi (Hollandiya) Azərbaycan-Amerika Təhsil və Mədəniyyət Fondu (ABŞ), İzmir-Azərbaycan Tələbə Birliyi (Türkiyə) və s. təşkilatların adlarını xüsusi qeyd etmək olar [10].

Təşkilatı strukturlaşma baş verdikcə nəzərdən qaçan məqamlar da çoxalır, xüsusən, elm və təhsil səviyyəsinə görə seçilən azərbaycanlı zəkaların xarici ölkələrdə pərakəndə fəaliyyət göstərməsinin qarşısını almaq üçün mütləq Düşüncə Mərkəzlərinin diaspor birliklərinin nəzdində yaradılmasıdır. Elmi-nöqteyi nəzərdən müsbət nəticələr verən belə təcrübənin Azərbaycan diasporunda tətbiq edilməsindən Azərbaycan dövləti yararlana bilər və bu, atılması zəruri olan addımlardan sayılır.

Qurultaylarla yanaşı diasporun elmi fəaliyyətinin milli elmin inkişafında roluna birbaşa təsir edən forum və konfransların da əhəmiyyəti qeyd edilməlidir. Konfrans hər bir qurumun təşkilat və cəmiyyətin fəaliyyətinin hansı səviyyədə olmasının xarici aləmə təcəssümüdür. Məsələn, 2010-cu il iyun ayının 6-da Türkiyə Respublikasında Azərbaycan Dərnəkləri Federasiyası ilə Kocaeli-Azərbaycan Evinin "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Cənubi Qafqazda dondurulmuş münaqişələrin dünyada sülhə və təhlükəsizliyə yaratdığı real təhditlər" mövzusunda elmi praktik konfransı keçirilmişdir. Konfransda etnoqraf alimlər, politoloqlar çıxış edərək Qarabağ münaqişəsinin səbəbləri, Emənistanın ölkəmizə təcavüzü nəticəsində on minlərlə insanın qətlə yetirilməsi törətdiyi vəhşilikləri və bir çox problemlərindən danışaraq dünya birliyini bu problemlərə lazımi siyasi-hüquqi qiymət verməyə çağırmışlar [8 s. 135]. Daha bir konfrans 2010-cu ildə Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzi (ATXƏM) Türkiyə Beynəlxalq Əlaqələr və Strateji Araşdırmalar Mərkəzi (TÜRKSAM) ilə birlikdə "Dağlıq Qarabağ Probleminin həllində Türkdilli dövlətlərin ictimai və diaspor təşkilatlarının dəstəyinin artırılması" layihəsi əsasında Beynəlxalq elmi konfrans Ankarada təşkil olunmuşdur.

Beləliklə, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız 2002-ci ilin əvvəllərində icma və cəmiyyətlər şəklində birləşərək Azərbaycan diasporunu təmsil etdikləri halda, artıq bir neçə il sonra, daha geniş formatlı qurumlar, konqres və federasiyalar, assambleyalar təsis etməyə başladılar.

Azərbaycan diasporunun əsas qanadını təşkil edən ziyalılar: mühəndis, iqtisadçı, həkim, texnoloq və s. peşələrdə çalışan soydaşlarımız öz sahələrində mütəxəssis hesab olunurlar. Akademik təhsilə maraq böyük olduğundan, hazırda diasporumuzda ziyalılar təbəqəsi çoxluq təşkil edir. Ədəbiyyat, riyaziyyat, din, tarix, biologiya, iqtisadi elmlər sahəsində daha çox uğurlar əldə edən soydaşlarımız Qərb və Şərq ölkələrinin nüfuzlu ali və orta məktəblərində dərs deyir, elmi dairələrində tanınırlar. Ziyalılarımızın elmi, bədii əsərləri Qərb və Şərqdə sevilən, oxunan əsərlər olmaqla elmi, araşdırmalar məqsədilə də istifadə olunur.

Şübhəsiz, alimlərimizin xarici ölkələrdə apardıqları elmi tədqiqatlar Azərbaycanda da elmin inkişafına təkan verir. Bir çox gənc alimlər vətənə zəngin yeni bilik ehtiyatı və ideyalarla qayıdır, dünya elminin nailiyyətlərini elmimizin müxtəlif sahələrinə nəzəri və fundamental tədqiqatlara və istehsalata tətbiq edirlər. Alimlərimizin xarici ölkələrdə işləməsi dünya elmində lobbizmi yaratmaq vəzifəsinə də xidmət edir. Bu ilk növbədə, Azərbaycanın özündə elmi tədqiqatların və layihələrin təmin edilməsi üçün maliyyə və texniki vəsaitin cəlb olunmasına, imkan daxilində, daha çox gənc alimi dünyanın aparıcı elmi müəssisələrində nəzəri və təcrübi məktəb keçməsinə, tədqiqatla məşğul olmasına kömək edir. Lobbi yaradılmasının həm də siyasi əhəmiyyəti var. Alimlər birləşərək, daha yaxşı təşkilatlanar, vətənin onlara qayğısını hiss edib, onun mənafelərini daha uğurla qoruyarlar. Belə təşkilatlardan biri 2001-ci il Almaniyanın Boxum şəhərində yaranmış "Azərbaycan Akademik Birliyi"-dir. Əsas üzvləri, ziyalılardan ibarət olan bu birlik Azərbaycan mədəniyyəti, dili, tarixi sahəsində akademik tədris və tədqiqat, elmi konfranslar həyata keçirir. Bu istiqamətdə elmi tədqiqatları dəstəkləyir [12].

Daha bir təşkilat 2006-cı ilin noyabrında ABŞ-da Amerika Azərbaycan Tədqiqatçılar İnstitutu təsis edildi. İnstitutun yaranmasının əsas məqsədi Azərbaycanla ABŞ arasında münasibətlərin inkişafına dəstək vermək, Amerika ictimaiyyətinin Azərbaycanın qədim tarixi, zəngin mədəniyyəti və müasir ictimai-siyasi həyatı barədə məlumatlandırmaqdan ibarətdir.

2006-cı ilin noyabrında Türkiyədə təsis edilmiş Türkiyə-Azərbaycan Strateji Araşdırmalar Mərkəzi, Almaniyada yaradılmış Avropa Azərbaycan Strateji Araşdırmalar Mərkəzi Berlin-Brandenburq Atatürkçü Düşüncə Dərnəyi, Almaniya Türk-Azərbaycan Birliyi qeyd olunan prinsipləri əsas götürmüşdür.

Xalqın taleyinin həll olunduğu bütün məqamlarda həlledici sözü demək səlahiyyəti Azərbaycan ziyalısına məxsusdur. Belə bir dövrdə 2006-cı ilin iyun ayının 5-də Türkiyənin Antalya şəhərində keçi-

rilmiş Dünya Azərbaycanlı Ziyalılarının Forumu müxtəlif ölkələrdə yaşayan azərbaycanlı elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil dövlətimizə bağlılığını nümayiş etdirməsidir [2, s.321]. Forum Azərbaycan dövlətinin xarici ölkələrdə yaşayan nüfuzlu Azərbaycanlı ziyalılarının diaspor quruculuğu işinə, milli elmin inkişafına daha geniş cəlb olunmasına xüsusi önəm verdiyini bir daha təsdiqlədi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Foruma göndərdiyi təbrik məktubunda diasporun formalaşmasında ziyalıların rolunun nə dərəcədə əhəmiyyətli olduğunu aşkar bildirib: "İnamla qeyd edə bilərəm ki, Azərbaycan diasporunun son illərdə keçdiyi inkişaf yolu onun böyük potensiala malik olduğunu göstərir. Bu potensialın əsas daşıyıcısı xaricdə yaşayan həmvətənlərimizin mütəşəkkil hissəsini təşkil edən elm, təhsil, mədəniyyət və incəsənət xadimlərindən ibarət ziyalılarımızdır. Müxtəlif sahələrdə çalışan ziyalılar dünyanın elm və mədəniyyət xadimləri, ictimai və siyasi təşkilatların nümayəndələri, dövlət orqanlarının təmsilçiləri ilə əlaqələrini daha da gücləndirməli, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə dolğun surətdə çatdırılması və xalqımızın mənafelərinin layiqincə qorunması üçün ardıcıl səylər göstərməlidirlər [2, s.107]. Forum Azərbaycan həqiqətlərinin xalqımızın zəngin, mənəvi irsinin dünya ictimaiyyətinə çatdırılmasına xidmət edən bədii əsərlərin, incəsənət nümunələrinin yaradılmasını və xarici ölkələrdə təbliğini, eyni zamanda bu istiqamətdə elmi araşdırmaların nəticələrinin yayılmasını ideoloji mübarizədə əsas amil hesab edir və ziyalılara lazımi dəstəyi verəcəyinə əminliyini bildirmişdir. Forumda müzakirə olunan məsələlər və qəbul edilmiş sənədlər Azərbaycan ziyalılarının diaspor quruculuğu işinə, milli elmin inkişafına verdiyi yüksək qiymətin təzahürü kimi tarixə düşmüşdür.

Məlumdur ki, Azərbaycan elmi diasporunun tərkib hissəsini elm xadimləri ilə yanaşı xarici ölkələrdə təhsil alan tələbə gənclər də təşkil edir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci ildə təsdiq etdiyi "Azərbaycan Gəncliyi Dövlət proqramı (2003-2009)" Sərəncamından irəli gələn xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin təşkilatlanması, onların hüquqlarının müdafiəsi məsələsində müvafiq olaraq zəkaların qorunmasına xüsusi diqqət verilməlidir. Bu proqrama uyğun olaraq 2010-cu ilin noyabr ayında Almaniyanın Frankfurt şəhərində Dünya Azərbaycanlı Gənclərinin I Konqresi keçirildi [2, s.312].

Konqresin qətnaməsinə uyğun olaraq "Dünya Azərbaycanlı Gənclər Birliyi"nin təsis edilməsi ilə bağlı təşəbbüs qrupu yaradıldı. 2011-ci il, iyul ayının 5-də Bakı şəhərində keçirilmiş Dünya Azərbaycanlılarının III qurultayının qətnaməsində Dünya Azərbaycanlı Gənclər Birliyinin təsisi ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsinin zəruriliyi qeyd olundu. Bununla da dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən gənclər təşkilatlarının vahid bir qurumda birləşdirilmə və fəaliyyətinin koordinasiya olunması istiqamətində mühüm bir platformanın əsası qoyuldu. Beləliklə, xarici ölkələrdə fəaliyyət göstərən 50-dən çox azərbaycanlı gənclər təşkilatını birləşdirən Dünya Azərbaycanlı Gənclər Birliyinin təsis qurultayı 2012-ci il 12 mart tarixində Bakıda keçirildi [4, s.118]. Birliyin əsas məqsədi Azərbaycan Respublikasında və xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin hərtərəfli inkişafının elm, idman, təhsil mədəniyyət və vətənpərvərlik sahəsində fəaliyyətin qurulması istiqamətində işlərin aparılması dünya azərbaycanlılarının milli, mənəvi dəyərlər əsasında səfərbər olmasıdır. Və aşağıdakı müddəalar müəyyən olunmuşdur:

- Ölkədən kənarda təhsil almış vətəndaşlarımızın uyğun fəaliyyətlərini təşkil etmək, gənc kadrlar bazasının təşkili, ölkədən kənarda yaşayan azərbaycanlı gənclərin şəbəkələşmə işinin təşkil edilməsində fəal rol oynamaq.
- Xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin yaşadıqları cəmiyyətə inteqrasiyası, ictimai-siyasi həyatda daha fəal iştirakının təmin olunması, məqsədilə layihələr həyata keçirmək, habelə bu cür layihələrin həyata keçirilməsinə dəstək vermək [2, s.312].

Qurultay Azərbaycan gəncliyinin tarixində mühüm əhəmiyyət kəsb etmişdir.

Təqdirəlayiq haldır ki, Azərbaycanın milli sərvəti olan elmi potensialın qorunması, inkişaf etdirilməsi dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir. Bu istiqamətdə 2014-cü il 19 dekabr tarixində Bakıda Azərbaycan alimlərinin I qurultayı keçirilmişdir. Qurultayda ABŞ, Rusiya Federasiyası, Almaniya, Türkiyə və başqa ölkələrdə fəaliyyət göstərən 15 azərbaycanlı alim ABŞ-ın Kolinforniya Beruli Universitetinin professoru Lütfi-Zadənin, Avstraliya Federativ Universitetinin professoru Adil Bağırovun video müraciətləri dinlənilib.

Qurultayda qeyd olunub ki, Azərbaycanın akademik təhsil, biznes və vətəndaş cəmiyyəti sektorlarında çalışan alim və tədqiqatçılar, o cümlədən xarici ölkələrdə yaşayan azərbaycanlı alimlər arasında qarşılıqlı münasibətləri inkişaf etdirmək və ümumilli əhəmiyyətə malik elmi problemlərin müzakirəsində ictimai konsesusa nail olmaq baxımından eləcə də elmin bütün sahələri üzrə həmrəyliyin, qarşılıqlı əməkdaşlıq əlaqələrinin yaradılmasında qurultay böyük əhəmiyyətə malikdir.

Sonra Azərbaycan alimlərinin I qurultayının Bəyannaməsi qeyd olunub. Bəyannamədə son illər respublikanın müxtəlif sosial sferalarında İKT-nin geniş tətbiq olunduğu, informasiya cəmiyyətinin formalaşdığı qeyd edilir. Bu sahədə işlərin daha da inkişaf etdirilməsi üçün elm və təhsil şəbəkə infrasturukturlarının yaradılması, elmi informasiya resurslarının yaradılması, beynəlxalq elmi mühitə inteqrasiya və başqa istiqamətlərdə elmi tədqiqatların həyata keçirilməsinin zəruriliyi vurğulanır.

Hazırda elmi potensialın milli tərəqqi naminə maksimum dərəcədə səmərəli istifadə olunması Azərbaycan dövlətinin və cəmiyyətinin qarşısında duran əsas vəzifələrdən biridir.

Prezident İlham Əliyevin elmin inkişafı ilə bağlı qəbul etdiyi çoxsaylı qərarlar sırasında "2009-2015-ci illərdə Azərbaycan Respublikasında elmin inkişafı üzrə Milli Strategiya", "Azərbaycan-2020; gələcəyə baxış" inkişaf konsepsiyası qəbul olunub. İntellektual inkişaf modeli əsaslandırılıb və biliklər cəmiyyətinin qurulması ölkəmizin strateji inkişaf xətti kimi bəyan edilib [1].

Bu qərarlar ölkədə digər sahələrlə yanaşı həmçinin Azərbaycan elmi qarşısında da mühüm vəzifələr qoyub. Bu baxımdan Azərbaycan alimləri "Azərbaycan Milli Elmlər Akademiyası-2020" inkişaf konsepsiyasını işləyib hazırlayıblar. Konsepsiyada ölkənin, elmi-texniki, innovativ inkişafının müasir, fəal sisteminin, eləcə də vətəndaş cəmiyyətinin vacib amili olan sosial-iqtisadi dəyişikliklərin elmi əsaslarının yaradılması nəzərdə tutulur.

Bu qərarlar Azərbaycan elmi diasporunun da qarşısına vəzifələr qoyur. Bu məqsədlə 2010-cu il martın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətində "Azərbaycanda elmin, təhsilin inkişafında diasporun rolu" mövzusunda tədbir keçirilmişdir.

Tədbiri "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"ya uyğun olaraq Azərbaycandan kənarda təhsil almış Mütəxəssislər Təşkilatı (AKTAM) təşkil etmişdir. Tədbirdə Azərbaycandan kənarda təhsil almış Mütəxəssislər Təşkilatı, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Diasporla iş üzrə Dövlət Komitəsi, Azərbaycan Texniki Universiteti, AMEA-nın İnformasiya Texnologiyaları İnstitutu və Azərbaycan Turizm İnstitutu ilə birgə reallaşdırdığı "Azərbaycanın elmi diasporu" layihəsi çərçivəsində fəaliyyətə başlayan internet portalın (www.elmi diaspora internet.az) təqdimatı olmuşdur [7].

Tədbirdə Azərbaycan elminin, təhsilin inkişafında elmi diaspor amilinin mühüm əhəmiyyət kəsb etdiyini və bu baxımdan layihənin böyük əhəmiyyətə malik olduğu qeyd edilmişdir.

Layihəyə əsasən xaricdə yaşayan həmvətənlərimizin alimlərin, tədqiqatçıların müasir və texnologiya sahəsində qabaqcıl mütəxəssislərin informasiya-analitik məlumat bankı yaradılmış (onlar haqqında ümumi məlumatlar, əlaqə ünvanları, elektron poçt ünvanları, nəşr olunmuş elmi əsərlərin siyahısı və s.), Azərbaycan elmi diasporu haqqında internet portalı hazırlanmışdır. Layihə həm də xaricdə yaşayan, elmi-tədqiqat, innovasiya fəaliyyəti ilə məşğul olan alim həmvətənlərimizlə respublikamızda fəaliyyət göstərən alimlərin internet şəbəkəsində daimi, dialoqun yaradılmasına kömək edəcəkdir. Layihə respublikamızla yanaşı, dünyanın 56 ölkəsində, o cümlədən Azərbaycanın diaspor təşkilatlarının fəaliyyət göstərdiyi 40 dövlətdə həyata keçirilir [7].

***Nəticə.*** Azərbaycanın qısa vaxt ərzində iqtisadi baxımdan inkişaf etməsi nəticəsində bu gün ölkədə elmə diqqət artmaqdadır. Belə bir məqamda xarici ölkələrdə çalışan elm adamları ilə əlaqələrin böyük əhəmiyyəti vardır. Bu baxımdan dünyada öz elmi işləri ilə tanınan azərbaycanlı alimlərin elmi diasporda birləşmələrinə ehtiyac yaranır. Bir sözlə, Azərbaycan milli və dövlət maraqlarının eyni şəkildə uğurlu inkişafı, dövlətlə elmi diasporun hərtərəfli qarşılıqlı fəaliyyətindən asılıdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan-2020: Gələcəyə baxış konsepsiyası qarşıya yeni məqsədlər qoyur. Zaman, 2013 – 5mart. –IV. s.12
2. Azərbaycan diasporu; Ensiklopedik məlumatlar toplusu. Bakı; Diasporla İş üzrə Dövlət Komitəsi, 2012, 654s.

3. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə. Bakı: Qanun, 2009, 12 s.
4. Azərbaycan diasporu: Transmilli əlaqələr. Bakı, Avropa, 2018, 200s.
5. Dünya Azərbaycanlılarının I qurultayı. 9-10 noyabr, 2001-ci il. Bakı: Azərbaycan, 2002, 351 s.
6. Dünya Azərbaycanlılarının II qurultayı. Bakı, Çaşıoğlu, 2006, 191s.
7. Əkbərova H. "Azərbaycanın elmi diasporu" layihəsi çərçivəsində internet portalı yaradılıb. Azərbaycan müəllimi qəzeti, 5 mart, 2010-cu il.
8. Əsgərova Z. Türkiyədə Azərbaycan Diasporunun formalaşması XX əsr. Bakı: AFPoliqraf, 2021, 161 s.
9. Əliyev Z. "Beyin axını" intellektual təhlükəsizlik kimi. - Newtimes.az [18.01.2023].
10. Xaricdə diaspor təşkilatları. - https://www.azerbaijans.com [18.01.2023].
11. AKTAM-Wikipedia. - http. s//www wiki.az-az/nina/az [18.01.2023].
12. http:www.az.wikipedia orq. "wiki" AKT/ [18.01.2023].

**ЗАМИНА АСКЕРОВА**
*Старшый научный сотрудник*
*«Отдел истории международных связей Азербайджана»*
*Института Истории имени А.А.Бакиханова НАНА*

## ВЛИЯНИЕ НАУЧНОЙ ДИАСПОРЫ НА РАЗВИТИЕ НАЦИОНАЛЬНОЙ НАУКИ

Велика роль научной диаспоры в развитии азербайджанской науки и образования. Одним из шагов, предпринятых в этом направлении, является вопрос установления связей и сотрудничества с отдельными представителями научной диаспоры зарубежных стран. В статье рассматривается научная деятельность азербайджанской диаспоры, меры, предпринимаемые диаспорой для развития национальной науки – конференции и съезды, являющиеся частью деятельности культурных центров и обществ.

*Ключевые слова:* утечка мозгов, научная диаспора, отечественная история, отечественная наука.

**ZAMINA ASKEROVA**
*Department of the History of International Relations of Azerbaijan*
*Institute of History named after A.A.Bakikhanov of ANAS*

## THE INFLUENCE OF THE SCIENTIFIC DIASPORA ON THE DEVELOPMENT OF NATIONAL SCIENCE

The role of the scientific diaspora in the development of Azerbaijani science and education is great. One of the steps taken in this direction is the issue of establishing links and cooperation with individual representatives of the scientific diaspora of foreign countries. The article deals with the scientific activities of the Azerbaijani diaspora, the measures taken by the diaspora for the development of national science – conferences and congresses, which are part of the activities of cultural centers and societies.

*Keywords: brain drain,* scientific diaspora, patriotic history, national science.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. İqbal Ağayev, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 32:93/94**

**HƏSƏN BEHBUDZADƏ**
*Bakı Dövlət Universitetinin Beynəlxalq Münasibətlər və İqtisadiyyat fakultəsinin Dünya İqtisadiyyatı kafedrasının əməkdaşı İ.Ü.F. doktoru*
**TarixVeOnunProblemleri@gmail.com**

# İQTİSADİ TƏHLÜKƏSİZLİYİN MAKROİQTİSADİ PROBLEMLƏRİ VƏ ONUN ARADAN QALDIRILMASI YOLLARI

*Məqalədə Azərbaycan Respublikasının ölkə daxilində və xaricində iqtisadiyyatda baş vermiş bəzi məsələlərin aradan qaldırılmasında dövlətin yeritdiyi iqtisadi və siyasi məqsədlərin uğurla həyata keçirilməsində iqtisadi təhlükəsizliyə qarşı mübarizə tədbirləri öz əksini tapmışdır.*

*Azərbaycan Respublikasında iqtisadi təhlükəsizliyin təmin olunması üçün dövlətin yeritdiyi iqtisadi siyasətin həyata keçirilməsinin mühüm əhəmiyyəti vardır. Bu baxımdan İqtisadi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsi kimi Makroiqtisadi sabitliyin qorunmasının dinamik inkişafına təsir edən əsas amil kimi qorunması, davamlı iqtisadi inkişafın təmini və sosial gərginliyin azaldılması, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması milli-mənəvi dəyərlərin fəaliyyətinə təminat verən iqtisadi qanundur.*

*Açar söz*lər: Milli iqtisadiyyat, iqtisadi təhlükəsizlik, makroiqtisadiyyat, əhalinin həyat səviyyəsi.

***Giriş***. XVII-XVIII əsrlərdə əmtəə-pul münasibətlərinin inkişafı ilə əlaqədar olaraq bazar iqtisadiyyatının formalaşması dövlətin məqsədlərinin dəyişməsinə nail olmuşdur. Bununlada dövlətin təhlükəsizliyi əsas məsələ kimi nəzərə alınmış və onun qanunlarında yeni məsələlər həyata keçirilmişdir. Beləliklə ölkənin daxilində əsayışın təmin olunması, insanların fiziki və mənəvi təhlükələrdən qorumaq, siyasi və iqtisadi sahələrin təhlükəsizliyini təmin etmək kimi məsələlərdə aid edilmişdir.

Təhlükəsizlik hər halda vətəndaşların cəmiyyətin və dövlətin mühüm həyatı mənafelərini əhatə edir. Onların təhlükəsizliyinin təmin olunmasında dövlətin mühüm əhəmiyyəti vardır. Təhlükəsizliyə eyni zamanda həyat tərzidə daxildir. Beynəlxalq iqtisadi əməkdaşlıq və dünya birliyinin geniş miqyas aldığı bir vaxtda insanların, vətəndaşların, cəmiyyətin dünya səviyyəsində təhlükəsi getdikcə artmağa başlamışdır və əxlaqın qorunub saxlanması dövlətin qarşısında duran əsas məsələ və şərtlərdəndir.

İqtisadi təhlükəsizlik-milli iqtisadiyyatın müstəqilliyi onun sabitliyi və dayanıqlığı, daim təkmilləşməyə onun tarazlığını təmin olunmasını şərtləndirən amillərin məcmusudur.

Milli iqtisadi təhlükəsizlik iqtisadiyyatı əhatə edən ən mühüm zəruri xüsusiyyətləri özündə əks etdirir.

Milli təhlükəsizlik mahiyyətcə iqtisadi təhlükəsizlik anlayışından daha genişdir. Milli təhlükəsizliyə hərbi ekoloji, informasiya enerji insanların həyat səviyyəsinin mühafizəsi, ölkə daxilində baş verən təxribatların qarşısının alınması və s. daxildir.

Dövlətin iqtisadi təhlükəsizliyi ilk növbədə iqtisadiyyatın və onun təşkilalatlarının müəssisələrin elə vəziyyəti başa düşülür ki, bu milli mənafeləri müdafiə etməyə, aparılan siyasətin-sosial yönümlüyünə, iqtisadiyyatın, ölkənin müdafiə qabiliyyətinin tələb olunan səviyyədə olmasına imkan yaratsın. İqtisadi təhlükəsizlik sosial-iqtisadi vəziyyətin dayanıqlığının əsaslarından biridir. İqtisadiyyatın dayanıqlığı maliyyə sisteminin dayanıqlığına əsaslanır. Bu göstərici bank sistemi, büdcə kəsirinin səviyyəsi, milli valyuta, əmanətlərin maraqlarının müdafiəsi, qızıl-valyuta ehtiyatı, maliyyə, qiymətli kağızlar xarici və daxili borcun miqdarı ilə müəyyənləşdirilir.

Maliyyə təhlükəsizliyi sisteminin nəzəriyyəsi tək maliyyə sisteminin, eyni zamanda ölkənin bütövlükdə iqtisadi-maliyyə sisteminin tərkib hissələrinin təhlükəsiz fəaliyyətini özündə əks etdirir. Maliyyə dayanıqlığı-maliyyənin balanslaşdırılmasında, aktivlərin kifayət qədər aktivliyində, zəruri ehtiyatların mövcudluğunda ifadə onunan sabitlikdir.

Dayanıqlı inkişaf dedikdə, elə inkişaf başa düşülür ki, indiki, nəsillərin tələbi ödənilir, lakin gələcək nəsillərin maraqları-təhlükə altına alınmır.

Dünya səviyyəsində dayanıqlı inkişaf müxtəlif səviyyəli iqtisadi sistemlərin dinamik müvazinatın gözlənilməsini tələb edir. İqtisadi sistemlərin dinamik müvazinatı onların inkişafı prosesində müəyyən nisbətlərin gözlənilməsini tələb edir (3, 769).

Dayanıqlı inkişaf konsepsiyasının əsas ideyası sosial-iqtisadi inkişaf üçün şərait və mexanizmlərin yaradılmasıdır.

İqtisadi təhlükəsizlik dedikdə; dövlət tərəfindən yaradılan ölkə iqtisadiyyatına daxili və xarici təhlükələr nəticəsində törədə biləcək zərərlərin qarşısının alınması, şirkətlərin, müəssisə və təşkilatların, mənfi gizli iqtisadi məlumatların axınının, yayılmasının, iqtisadi qarşıqlığın yaradılmasının qarşısının alınması başa düşülür.

İqtisadi təhlükəsizlik, ölkənin sosial, hərbi, maliyyə, inventesiya, qiymətli kağızlar, vergi və s. dairələrində dəqiq səviyyəni və ümumilikdə iqtisadi inkişaf səviyyəsini təmin edən, iqtisadiyyatını daxili və xarici mənfi amillərdən müdafiə edən iqtisadi və ya hakimiyyət idarəçiliyi tərəfindən ölkə iqtisadiyyatının milli maraqlarının müdafiə olunması, eyni zamanda cəmiyyətin sosial-iqtisadi sabitliyinin təmin olunması üçün yaratdıqları qanunlardır.

Maliyyə təhlükəsizliyini əhatə edən bütün iqtisadiyyatda, maliyyə və büdcə vəsaitlərinin dövriyyəsinin şəffavlığı lazımi səviyyədə təmin olunmalıdır.

Kapitalın xaricə çoxlu axınına imkan verilməli, dinamik inkişaf nəticəsində sabit iqtisadi artıma nail olunmalıdır.

Milli iqtisadiyyatın dayanıqlı inkişafının genişmiqyaslı şərtləndirmə sosial aşağıdakıları şamil etmək məqsədəuyğundur. Sosial yönümlü bazar istisadiyatının təşkili və iqtisadi həyatın liberallaşması, əhalinin maddi-rifahının yüksəlişi təbii sərvətlərdən səmərəli istifadə, ətraf mühütin mühafizəsi və inkişaf etdirilməsi.

İqtisadi təhlükəsizlik anlayışı iqtisadi nəzəriyyə və digər elmlərlə poltologiya ilə əlaqədə olan kateqoriyadı. İqtisadi təhlükəsizlik, milli iqtisadi təhlükəsizliyi eyni zamanda ölkə daxilində müəssisələrin, təşkilatların, sahibkarların, hüquqi və fiziki şəxslərin fəaliyyətini bir-birindən fərqləndirmək məqsədə uyğundur.

İqtisadi təhlükəsizlik milli iqtisadiyyatın elə bir əsasıdır ki, onun dinamik inkişafına sosial məsələlərin əlverişli şəraitdə yerinə yetirilməsinə zəmin yaradır.

İqtisadi təhlükəsizliyin təmin olunmasında və inkişaf etdirilməsində bütövlükdə istehsal sərmayəsi, maliyyə bank vəsaitlərinin müqayisəsi nə qədər dayanıqlıdırsa, iqtisadi təhlükəsizlik səviyyəsi də bir o qədər yüksəkdir.

Amerika iqtisadçılarının fikrinə görə iqtisadi təhlükəsizlik əsas iki şərtə malik olmalıdır:

1. Ölkənin iqtisadi müstəqilliyinin saxlamaq üçün təsərrüfatın inkişafına aid, proqramların, qərarların qəbuliyyətini saxlamaq.

2. Əhalinin həyat səviyyəsini qorumaq və onu yüksəltmək imkanı.

Beləliklə iqtisadi təhlükəsizliyi səciyyələndirən əsas göstəricilərin tamlığına ÜDM-nin həcmi, həyat səviyyəsi, infilyasiyanın səviyyəsi, büdcə kəsri, dövlət borcları, mənfəət, qızıl və valyuta ehtiyatlarının həcmi işsizlik, pul kütləsi axını yoxsulluğun səviyyəsi sərmaye qoyuluşunun ÜDM-ə nisbəti və iqtisadiyyatın rəqabət qabiliyyəti və s. daxildir.

İqtisadi təhlükəsizliyə mənfi təsir göstərən bir amillər mövcuddur ki, bunlardan lombartlarda baş verən özbaşınalıqlardır. Lombart İtalyan şəhəri olub kredit və sələm verməklə məşğul olan kredit təşkilatı olubdur.

Dayanıqlı iqtisadi inkişaf təhlükəsizlik məsələlərinə dinamik yanaşmanı tələb edir. Bunu belə qeyd etmək lazımdır ki, iqtisadi təhlükəsizlik göstəriciləri zaman keçdikcə dəyişir. Bu da dialetkanın qanunudur. Daxili və xarici təhlükənin nəticəsi göstərir ki, iqtisadi dayanıqlıq baxımından daxili təhlükə daha böyük əhəmiyyətə malikdir. İqtisadi təhlükəsizliyin təmin edilməsi üçün aşağıdakı göstəriciləri şamil etmək məqsədyönlüdür.

Adam başına düşən ÜDM-ə, onun dinamikası. Sərmayelərin ÜDM-ə nisbəti, xərclərin ÜDM-ə nisbəti emaledici sənmayenin ÜDM-ə xüsusi şəkisi, idxal asılılığın ÜDM-ə nisbəti faizlə, inflasiyasının illik göstəricisi, yoxsulluq və işsizlik səviyyəsi elmi təhqiqat, lahiyəyə təcrübə quraşdırma işləri üzrə ÜDM-ə nisbəti Dövlət borcu, onun ÜDM-ə büdcə gəlirlərinin fərqi faizlə korrupsiyasının, kölgə iqtisadiyyatının, keyfiyyəti kənd təsərrüfatın məhsullarının keyfiyyətsiz dərman məmulatlarının əha-

linin sağlamlığına ziyan vuran digər yeyinti məhsullarının ölkəyə daşınması kimi göstəricilərin araşdırılması və təhlil edilərək nəticə çıxarılması təqdirə layiqdir.

Şəbəkənin 3 qiymətləndirmə raundunu uğurla keçəməsi də məhz sadalanan həmin istiqamətlərdə reallaşdırdığı layihələrin uğurlu həlli ilə bağlıdır. Onu da deyək ki, ölkəmizin əldə etdiyi belə bir uğurlu göstərici korrupsiyaya qarşı sərt mübarizənin Avropa standartlarına uyğunluğunun indikatoru deməkdir.

Qeyd edək ki, bütün dünyada olduğu kimi, Azərbaycanda da korrupsiyaya qarşı mübarizə, ilk növbədə, ədalətli cəmiyyət quruculuğunun reallaşması, sabitlik və əmin-amanlığın qorunması prinsiplərinə əsaslanır. Digər tərəfdən bu, respublikamızın beynəlxalq aləmdə mövqelərini möhkəmləndirir, nüfuzunu gücləndirir. Nəhayət, ölkədə xalq-iqtidar birliyini şərtləndirir. Sirr deyil ki, Vətən müharibəsində möhtəşəm qələbəmizi gerçəkləşdirən əsas amillərdən biri də son 19 ildə dövlətimizin başçısı tərəfindən bu təhlükəli bəlaya qarşı sərt mübarizə tədbirlərinin həyata keçirilməsidir.

Əlbəttə, dövlətimizin başçısının rəhbərliyi ilə korrupsiya və rüşvətxorluğa qarşı davamlı mübarizə tədbirləri BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa Şurasının antikorrupsiya monitorinq orqanı – Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), MONEYVAL Komitəsi kimi aparıcı beynəlxalq təşkilatlar tərəfindən yüksək dəyərləndirilib. Məsələn, Korrupsiyaya qarşı Dövlətlər Qrupunun hesabatında Azərbaycanın korrupsiyaya qarşı ardıcıl mübarizəsi digər ölkələrə nümunə kimi qiymətləndirilib.

Makroiqtisadi səviyyədə iqtisadi təhlükəsizliyin təhlilinin ən mühüm çətinliyi onun üç əsas meyarının müəyyənləşdirilməsidir. Böhran, keçid proseslərinin müxtəlifliyi şəraitində habelə meyar kimi cəmiyyətə, iqtisadiyyata, həmçinin insana vurulan məcmu zərərin minimumu ola bilər. Belə yanaşmanın qısası qismində təhlükəsizliyin xüsusi sərhəd həddi çıxış edir ki, onun hüdudlarından kənarda sistemin uğursuzluğu və dağılması təhlükəsi yaranır. İqtisadi təhlükəsizliyin təmin edilmə üsulları hər dəfə xəbərdarlıq edici və kompensəedici səciyyəli tədbirlərin “minumumu zərər və ya minumum məcmu itkilər və xərclər” meyarlarından çıxış edərkən araşdırılmalıdır. Belə yanaşma öz əksini müvafiq göstəricilər sistemində tapır ki, bunu üç qrupda birləşdirmək olar.

Birinci qrupun göstəriciləri cəmiyyətin cari iqtisadi sosial və ekoloji potensiyalını və baş verən qısa və ortatəcililikli proseslərin qiymətləndirilməsi üçün istifadə olunur. İkinci qrupun göstəriciləri uzunmüddətli əks sabitləşdirmə amillərinin aşkarlanması və dərəcələndirilməsi və onların təqribi həddi göstəricilərinin qiymətləndirilməsinə yönümlənir.

Üçüncü qrupun göstəriciləri zərərin qarşısının alınması və kompensasiya edilməsinin mövcud imkanlarında əks etdirilməlidir. Azərbaycanda lombartların özbaşınalığa vətəndaşlara göstərilən xidmətlərin yarıtmaz halların mövcuddur ki, buda insanlarda qəbul edilən ziynət əşyalarının və daş-qaşlarının qızıl və gümüş məmulatlarının dəyərindən olduqca aşağı qəbul edərək onlara cüzi pul vəsaiti verməklə ziyan vururlar. Bu təşkilatların qanunu nizamnaməsi demək olarki yoxdur və vergidən yayınma halları mövcuddur ki, buda dövlətin iqtisadi fəaliyyətinə ziddir. Odur ki, lombardların kredit təşkilatlarında, bank həmin vətəndaşlara ziyan dəyir və eyni zamanda vergidən yayınma kimi kölgə iqtisadiyyatına bənzər iqtisadi təhlükəyə zəmin yaranır buda ziddiyyətli narazılıqlara səbəb olur. İqtisadi təhlükəsizlik həm sırf iqtisadi metodlarla, həm də qeyri-iqtisadi səciyyəli-siyasi, hərbi və sair vasitələrlə təmin edilir. İqtisadi təhlükəsizlik-milli iqtisadiyyatın müstəqilliyi, onun sabitliyi və dayanıqlığı, daimi təkmilləşməyə qabiliyyətini təmin edən şərtlər və amillərin məcmusudur. İqtisadi təhlükəsizlik-iqtisadiyyatın milli dövlət maraqlarının ardıcıl həyata keçirilməsini, təsərrüfat fəridlərinin dayanıqlı iş qabiliyyəti, insanların normal həyat şəraitini daim saxlamaq qabiliyyətini aydınlaşdırır. Eyni zamanda o təsərrüfatçılığın müxtəlif baxışlarını müəyyənləşdirir: bura aiddir: maliyyə, xarici ticarət, ərzaq, sahə region və s. sahələrini əhatə edir. Xarici iqtisadi təhlükəsizliyin satış edilməsi üçün əsas zəmin ölkədə istehsal olunan məhsullarının dünya bazarlarında rəqabət qabiliyyətidir. Ölkənin iqtisadi təhlükəsizliyinə xarici və daxili təhlükələri fərqləndirmək lazımdır. Milli iqtisadi təhlükəsizliyin daxili quruluşunu aşağıdakı mühüm tərkibdə fərqləndirmək vacibdir.

Dövlətin milli vəsaitlər üzərində nəzarəti imkanı, milli iqtisadiyyatın sabitliyi və dayanıqlığı, ölkənin sosial-iqtisadi tərəqqisinin əsas göstəricisi kimi elm və təhsil inkişafının qeyd etmək vacibdir;

İqtisadi təhlükəsizlik səviyyəsinin təhlili əsas üsul olmaqla üst səviyyəli göstəricilər sistemindən istifadə edilməsi vacibdir. Birinci səviyyə dayanıqlı iqtisadi artıma çatılması üçün iqtisadi siyasətin aparılmasında əsas əhəmiyyət kəsb edir. İkinci səviyyəsi iqtisadi sistemin tənəzzül şəraitində mövcud ola biləcəyi meyar kəmiyyətləridir.

İkinci səviyyə göstəriciləri ilə müqayisədə real göstəricilərin pisləşməsi böhranın dahada dərinləşməsi ilə nəticələnə bilər. Burada dövlət bank vəsaitlərinin tükənməsi, milli valyutanın devalizasiyası, dövlət borcları xidmət şərtlərinin İqtisadi təhlükəsizliyinin fərqləndirici xüsusiyyətlərindən biri onunla əlaqədardıki onu təkcə metodlarla deyil, həm də qeyri-iqtisadi vasitələrlə: siyasi, hərbi, ideoloji, mənəvi, hüququ, dini amillərlə təmin edilir. Ona görə də iqtisadi təhlükəsizliyin təmin olunmasında bilavasitə dövlət maraqlarının vacibliyi meydana gəlirsə tənzimlənmə mexanizmi ilə həyata keçirilir. Milli və regional iqtisadi inkişafın tarazlaşdırılmasının zəruriləşdiyi və sərt milli iqtisadi inkişaf modelinin formalaşdığı bir şəraitdə bazar iqtisadi sistemi şəraitində iqtisadi təhlükəsizliyin və milli mənafelərin qorunmasının və təmin olunmasının nəzəri və əməli məsələləri yeni iqtisadiyyat baxışlarından öyrənməlidir. Milli iqtisadi inkişaf modelinin qorunması və iqtisadi təhlükəsizliyin təmin olunması problemlərindən meydana gələn xüsusiyyətlərinin üzə çıxarılması, mövcud iqtisadi səmərəli inkişafdan istifadə olunması in\mkanlarının araşdırılması, ölkə ərazisinin bütövlüyünün bərpası istiqamətində iqtisadi gücün artırılmasını və dinamizminin saxlanılmasını şərtləndirir. İqtisadi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsi kimi əhalinin normal həyat fəaliyyətinə təminat verən iqtisadi sistemin səmərəliliyinin qorunması amili kimi təzahür edir (1, s.417-418).

Hal-hazır ki, dövrdə ekoloji təhlükəsizlik kənd təsərrüfatı məhsulu anlayışı sağlam və əlverişli həyat mühitində insanların təbiətlə vəhtəti şəraitində yaşamaq hüququna əsaslnaraq təyin olunmuş ümumi gigiyena, texnoloji və tosikoloji normativlərə uyğun gələn, insan və heyvan sağlamlığına və ətraf mühitin vəziyyətinə mənfi təsir göstərməyən məhsul nəzərdə tutulmalıdır. Bunun üçün kifayət qədər resurslar vardır və onların istifadəsi üçün qərarlar və texnologiya hazırlansada təəssüflər olsun ki, icra olunmur, həyata keçirilmir (12, s.456-700).

İnsan sağlamlığına mənfi təsir göstərən amillərdən biridə keyfiyyətsiz dərman məhsullarının istehsalı satışıdırki bu məsələ hələ aradan qaldırılmır və tədbir görülmür ki, buda müxtəlif xəstəliklərin artmasına və ömür müddətinin azalmasına səbəb olur.

Milli təhlükəsziliyin tərkib hissəsi kimi, iqtisadi təhlükəsizliyin təmin olunması zərurəti böhranlı inkişaf fazasında xeyli artır. İqtisadi sistemin bu keyfiyyətinin, onun amilləri və meyarlarının lazımınca dəyərləndirilməsi cəmiyyətdə sabitliyin saxlanma qanunlarının hamısına mənfi təsir edə bilər və həyata keiçirilməsi imkanlarını məhdudlaşdırır. İqtisadi təhlükəsizliyin makroiqtisadi cəhətlərinin əhəmiyyəti böyük milli dövlət dəyişiklikləri şəraitində xeyli artır. İqtisadi təhlükəsizlik xeyli mürəkkəb daxili quruluşa malik olmaqla ölkənin və xarici təcrübənin nəzərdən keçirilməsi onun üçün mühüm təkib hissəsini fərqləndirməyi imkan verir ki, bura aiddir:

İqtisadi müstəqillik, Milli iqtisadiyyatın sabitliyi və dayanıqlığı;

Özünü inkişafa və tərəqqiyə qabil olma, İqtisadi təhlükəsizlik milli iqtisadiyyatın müstəqilliyini, onun sabitliyi və dayanıqlığını, daim yeniləşmə və özütəkmilləşmə qabiliyyətini təmin edən şərtlərin və amillərin məcmusudur (2, 639 s.) pisləşməsi, xarici ticarət şərtlərinin və qaydalarının dəyişməsi, vergi yükünün artması və s. ola bilər. Üçüncü səviyyəsi iqtisadi təhlükəsizliyin onlara yaxınlaşmasının ciddi quruluş böhranını bildirən hədd göstəricilərini səciyyələndirir. Milli iqtisadi təhlükəsizlik göstəricilərinin səciyyələrinə və sistemınə yanaşmanın bir çox əlamətləridə mövcuddur: Xarici iqtisadi təhlükəsziliyinin vəziyyəti və dəyişməsi bütövlükdə aşağıdakı göstəricilər əlamətləri ilə səciyyələndirmək olar.

1. Ticarət şərtləri indeksi, yəni beynəlxalq ticarətdə ixrac və idxal qiymətlərinin nisbəti:
2. Daxili bazarda xarici rəqabətin miqyası, yəni nidxalın istehlakda, əmtəələr və iri firmalar kəsiyində, xüsusilədə istehsalı üçün ölkənin kifayət qədər imkanları olan məhsulları üzrə payı.
3. Xarici ticarət dövriyyəsinin texniki tutumluq səviyyəsi, yəni ixrac və idxalda maşın və avadanlıqların, icazələrin, lizinq icarəsi və onun xüsusi şəkisi və dəyəri.
4. Xarici borc xidmət əmsalı yəni onun ödənilməsi üçün hər il ödənilən məbləğlə bu və ya digər il üçün ixracdan satış pulunun fazilərinin nisbəti.

5. Qızıl və valyuta ehtiyatları kəmiyyətinin idxalın həcminə və ya xarici borcun ödənilməsi üçün ödənişlərin məbləğinə və hər hansı bir il üçün faizlərə nisbəti (3, s.1003).

Sosial təhlükəsizlik – sosial sistemin funksiyasının, təkrar istehsalının və inkişafının optimal təhlükəsizlik səviyyəsinə çatmasının vəziyyəti və səciyyəsi olub dövlət və cəmiyyət tərəfindən həyata keçirilən və ölkədə mövcud konstitusiya quruluşçunu, sosial sabitliyi saxlamağa imkan verən siyasi, hüquqi, iqtisadi, ideoloji, təşkilati və sosial-psixoloji tədbirlərin məcmusu ilə təmin olunur.

***Nəticə.*** Sosail təhlükəsizlik sosial subyektlərin həyat təminatı və inkişafını nəzərdə tutan amillərin vəziyyəti kimi başa düşülə bilər ki, bunun nəticəsində onların həyat fəaliyyəti və inkişafına minimal dərəcədə də olmasına zəmanət verilir. Bu amillər arasında ən mühümləri bunlardır: demoqrafik vəziyyət, əhalinin işlə təminatı, münasib həyat səviyyəsi və keyfiyyəti, mənzil təminatı, səhiyyə, ümumi və peşə təhsili, informasiya və mədəni dəyərlərdən istifadə, vətəndaşların şəxsi təhlükəsizliyi, ekoloji cəhətdən sağlam ətraf mühit.

Təhlükəsizlik aşağıdakıları nəzərdə tutur:

Sosial sistemin mövcudluğu və funksiyası üçün təhlükənin və ya təhdidin olmaması;

Təhlükələrə qarşı kifayət qədər möhkəmlilik və dözümlülüyün olması;

Təhlükədən sovuşmaq və onu aradan qaldırmaq üçün gücün, bacarığın və vəsaitlərin mövcudluğu.

Sosial təhlükəsizlik müvafiq məqsədlərin və cəmiyyətin inkişafının istiqamətinin təmin olunmasına, humanizm və harmoniya prinsipləri əsasında şəxsiyyətin tələbatlarınn təmçin edilməsi üsullarına və onun maraqlarının müdafiəsinə, destruktiv hadisə və proseslərin aradan qaldırılmasına istiqamətlənməlidir.

## ƏDƏBİYYAT


1. M.X.Meybullayer. Makroiqtisadiyyata giriş. Bakı, İqtisad Universiteti, 2011, 480 s.
2. İqtisadi Nəzəriyyə Makroiqtisadiyyat 1.2. Müəlliflər birliyi Q.P.Yuravlya. Moskva, 2008, 868 s.
3. A.B.Sidorovic. İqtisadi nəzəriyyə kursu. Moskva, “Delo Servis”, 2007, 1082 s.
4. E.Ə.Balayeva İqtisadi təhlükəsizlik və inkişafı maliyyə problemləri. Bakı, Elm, 2011, 381 s.
5. Respublika Prezidenti İ.Əliyevin Korrupsiya və rüşvətxorluğa qarşı mübarizəyə dair çıxışı / Xalq qəzeti, 24 dekabr 2022.
6. S.V.Salahov Aqrar sahənin dövlət tənzimlənməsi problemi. Bakı, Nurlan nəşriyyatı, 2004, 494 s.
7. Oktay Məmmədli. Milli iqtisadiyyatın tənzimlənməsi Bakı, [s. n.], 2014, 618 s.
8. Rafayıl Həsənov. Sosial siyasət. Bakı, Avropa nəşriyyatı, 2016, 298 s.
9. Боромолов Б.А. Экономическая безопасность. М., YMYNUMU-Dana, 2010, 295 s.
10. A.S.Şəkərəliyev. İqtisadiyyatın Dövlət tənzimlənməsi. Bakı, İqtisad Universiteti nəşriyyatı, 2010, 570 s.
11. Qorxmaz İmanov, Yadulla Həsənli. Azərbaycanın sosial-iqtisadi inkişafının modelləri. Bakı, Elm, 2001, 248 s.
12. Qəribov. Ekoloji təhlükəsizlik məhsulun istehsalı. Bakı, 2018, 700 s.


**ГАСАН БЕХБУДЗАДЕ**

*Сотрудник кафедры мировой экономики Бакинского государственного университета, доктор философии по экономике*

# СУЩНОСТЬ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ И МАКРОЭКОНОМИЧЕСКИЕ ПРОБЛЕМЫ

Для обеспечения экономической безопасности в Азербайджанской республике важное значение имеет осуществление экономической политики, проводимой государством. В связи с этим важна экономическая безопасность как ключевой фактор, влияющий на динамичное развитие защиты макроэкономической стабильности как составляющей национальной безопасности. Экономическая безопасность – это экономический закон, гарантирующий функциони-

рование национальных и нравственных ценностей, защищающий устойчивость национальной экономики, обеспечивающий устойчивое развитие экономики и снижающий социальную напряженность, повышающий уровень жизни населения.

*Ключевые слова:* Национальная экономика, экономическая безопасность, макроэкономика, уровень жизни населения.

**HASAN BEHBUDZADEH**
*PhD, Lecturer at the faculty of International Relations and Economy of BSU*

## THE ESSENCE OF ECONOMİCAL SECURİTY AND İTS MİCROECONOMİCAL PROBLEMS

For the realization of economical security in the Republic of Azerbaijan, the realization of economical policy that the state carries out has great importance. From this point of view economical security as a part of national security influences the micro economical stability and its dynamic development. Economical security, protection of stability of national economy, quarantec of duarable economical development, reducing of social tension, improving of life level of people and protecting of national and spiritual values of nations have great importance as well.

*Keywords*: National economy, economic security, macroeconomics, standard of living of the population.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Rəyçilər: t.e.d. Zeynal Həsənalıyev, t.e.d. Qabil Əliyev.*

**UOT 32:93/94**

**NƏRGİZ NAĞIYEVA**
*siyasi elmlər üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin dosenti*
**nargiz_nagiyeva@mail.ru**

## CƏNUBİ QAFQAZ REGİONUNDA İCTİMAİ-SİYASİ PROSESLƏR

*Təqdim olunan məqalədə Asiya ilə Avropanın, Qərblə Şərqin kəsişdiyi yerdə yerləşən Cənubi Qafqaz regionu dünyanın böyük dövlətləri üçün xüsusi geosiyasi və geoiqtisadi əhəmiyyətindən bəhs olunur. Hal-hazırda Qərb dövlətləri ilk növbədə enerjidaşıyıcılarının təminatı və daşınması sahəsində təhlükəsizliyi baxımından öz şəxsi maraqlarını təmin etmək üçün bu ərazidə siyasi sabitliyin qorunmasında maraqlıdır. İlk növbədə qeyd etmək lazımdır ki, Rusiyanın Cənubi Qafqaz siyasəti Qərbin siyasətinə uyğun gəlmir.*

*Açar sözlər*: Cənubi Qafqaz, Avropa İttifaqı, inteqrasiya, Rusiya, Türkiyə.

***Giriş***. Yetmiş ildən artıq hökmranlıq edən sovet imperiyası nəhayət üçüncü minilliyin astanasında çökdü ve onun xarabalıqları üzərində çoxsaylı ağır siyasi və iqtisadi miras qaldı. Lakin sovet imperiyasının dağılmasına baxmayaraq, bugünkü postsovet məkanının onlarca ölkəsində, o cümlədən də Cənubi Qafqazda, Ukraynada, Moldovoda, Qazaxstanda və Orta Asiyada bu günə qədər öz həllini tapmayan milli münaqişə zəminində bir sıra problem qalmaqdadır. Əslində, bu problemlər məhz həmin ərazilərdə xüsusi geosiyasi, iqtisadi və strateji maraqları olan Qərbin, İranın və Rusiyanın siyasi dairələri tərəfindən yaradılmış və bu günə qədər də bu münaqişələrin həll olunmamasında həmin dövlətlər başlıca rol oynayır. Bu gün, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın düçar olduğu bir sıra problem həll olunsa da hələ yenə də öz həllini gözləyən müəyyən məqamlar qalmaqdadır. Son illərdə Cənubi Qafqazda baş verən siyasi və hərbi hadisələr nəticəsində Azərbaycanla bağlı xüsusi maraqları olan siyasi aktorların çoxluğu Rusiyanı, bəzi mərkəzi Avropa ölkələrini, ABŞ-ı İranı narahat etməkdədir.

Sovet imperiyasının çöküşündən sonra Azərbaycan nəhayət ki, uzun əsrlərdən bəri uğrunda mübarizə apardığı müstəqilliyə qovuşdu. Doğrudur, Sovet İttifaqına daxil olan bütün başqa respublikalar da müstəqillik qazandılar, amma bu prosesdən Azərbaycan daha böyük itkilər hesabına çıxdı. Keçən əsrin əvvəlindən başlayaraq əsrin sonlarına qədər davam edən, ruslar və ermənilər tərəfindən mərhələ-mərhələ həyata keçirilən deportasiya siyasəti nəticəsində yüz minlərlə soydaşımız öz tarixi vətənindən - Qərbi Azərbaycandan didərgin salındı. Sovet ordusu 1990-cı il yanvar ayında görünməmiş vəhşiliklə öz azadlığı uğrunda mübarizəyə qalxan yüzlərlə günahsız vətəndaşlarımızı qətlə yetirdi, dağlıq və aran Qarabağda erməni daşnakları azərbaycanlılara qarşı əsl soyqırım və etnik təmizləmə siyasəti aparmağa başladı, əvvəlcə sovet, sonra isə onun birbaşa varisi olan rus ordusunun rəhbərliyi və bilavasitə iştirakı nəticəsində torpaqlarımızın 20 faizi erməni-rus hərbi birləşmələri tərəfindən zəbt edildi, bir milyondan artıq Azəraycan vətəndaşı öz doğma yurd-yuvasından qaçqın düşdü. Bu hadisələri təhlil edən məşhur amerikan alimi Samyuel A.Uymz yazır: «1992-ci ildə Ermənistan heç bir əsası olmadan hücuma keçərək müsəlman Azərbaycanın ərazisinin 20 faizini işğal etdi. Ermənilər heç bir kompensasiya ödəmədən bir milyondan çox müsəlmanı ev-eşiyindən qovdular və onları zığlı-palçıqlı qaçqın düşərgələrindəki çadırlarda yaşamağa vadar etdilər. Ruslar Ermənistana bir milyard dollarlıq hərbi silah-sürsat və avadanlıq bağışladılar. Birləşmiş Ştatlar Konqresinin hesabatına əsasən son on il ərzində ABŞ Ermənistana 1.4 milyard dollarlıq yardım göstərmiş, eyni zamanda müsəlman Azərbaycanının xarici yardımını kəsməklə ayrı-seçkiliyə yol vemişdir» [1, 13]. Nəticədə, xalqımıza dəymiş mədəni, maddi və mənəvi zərərləri heç bir ölçü vahidinə sığışdırmaq mümkün deyil.

2020-ci ilin 27 sentyabr tarixindən etibarən Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunun cəbhəboyu zonada dinc əhaliyə, həmçinin hərbi obyektlərə qarşı həyata keçirdiyi silsilə təxribatlara cavab olaraq 30 ilə yaxın erməni işğalı altında olan Qarabağın dağləq hissəsində və Azərbaycan Respublikasının işğal olunmuş digər rayonlarda qəsbkara qarşı anti-terror əməliyyatına başlamışdır. Azərbaycan Ordusu hərbi əməliyyatın ilk günlərindən etibarən misilsiz rəşadət, yüksək peşəkarlıq

nümayiş etdirərək təcavüzakara ağır zərbələr endirmiş, Ermənistan hərbçilərinin nəzarətindəki Vətənimizin bir çox yaşayış məntəqələrini, həmçinin strateji yüksəklikləri işğaldan azad etmişdir.

44 ginlük Vətən müharibəsi zamanı məğlub olmaqda olan Ermənistanın hərbi-siyasi rəhbərliyi döyüş meydanında uğradığı rüsvayçı məğlubiyyətlərin qisasını dinc azərbaycanlılardan almaq qərarına gəlmiş və Azərbaycanın cəbhə bölgəsindən kənarda yerləşən Gəncə, Bərdə, Ağcabədi, Naftalan, Mingəçevir və digər şəhər və bölgələrində yaşayan mülki əhalini, infrastruktur obyektlərini hədəfə almaqla öz terrorçu mahiyyətini bir daha nümayiş etdirmişdir. 27 sentyabr - 11 oktyabr tarixlərində Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı həyata keçirdiyi hücumlar nəticəsində 40-a qədər dinc insan öldürülüb, onlarla şəxs yaralanıb, şəxsi və dövlət mülkiyyətinə külli miqdarda zərər dəyib. 2020-ci ilin 10 oktyabr tarixində Moskvada, Rusiyanın vasitəçiliyilə Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında imzalanmış humanitar atəşkəsə baxmayaraq, erməni tərəfi bu günədək dinc sakinlərə, həmçinin ordumuzun bölmələrinə qarşı hücum əməliyyatlarını dayandırmamışdır. Bu azmış kimi, Moskva danışıqlarından dərhal sonra Ermənistan rəhbərliyi bütün dünyanın Azərbaycan ərazisi kimi tanıdığı Qarabağın heç vaxt ölkəmizə məxsusluğunu qəbul etməyəcəklərinə dair aqressiv bəyanatlar vermiş, sülh tərəfdarı olmadıqlarını etiraf etməkdən çəkinməmişlər.

44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində Qarabağda qurduğu bir neçə qatdan ibarət olan maneələri darmadağın etdi, Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavənd rayonunun böyük hissəsini, Laçın rayonunun bir sıra kəndlərini işğaldan qurtardı. Bu müddət ərzində ümumilikdə, 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad edildi.

Noyabrın 8-də isə 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Şuşa azad edildikdən dərhal sonra – noyabrın 9-da Ali Baş Komandın, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad edildiyi barədə ölkə ictimaiyyətini məlumatlandırdı. Şuşanın işğaldan azad edilməsi Ermənistanı tam tərk-silah etdi, onun bütün manevr imkanları çökdü, ölkə və dünya ictimaiyyətini aldatmaq taktikası mənasını itirdi. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya aktına imza atmaqdan başqa çıxış yolu qalmadı. Dünya hərb tarixi də göstərir ki, belə itkilərə məruz qalmış tərəf məğlub hesab olunur, təslim olur və hərbi əməliyyatlar dayandırılır.

Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş nazirinin birgə imzaladıqları bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməyə məcbur oldu və kapitulyasiya şərtləri ilə razılaşmalı oldu.

Dövlət başçısı da hər zaman bəyan edib ki, Azərbaycan mülki insanlarla müharibə aparmır və Ermənistandan fərqli olaraq etnik təmizləmə həyata keçirmək niyyətində deyil. Hərbi baxımdan Xankəndi və ətraf məntəqələrin götürülməsi Azərbaycan Ordusu üçün heç də çətin deyildi. Erməni təbliğatı da bu məqamı gözləyirdi ki, Azərbaycanı etnik təmizləmə törətməkdə günahlandırsın, ancaq buna nail ola bilmədi.

Azərbaycan həmişə Dağlıq Qarabağda sülh şəraitində birgəyaşayışın mümkünlüyünü bəyan etmişdi.

Ən mühüm amillərdən biri də budur ki, bu proses çərçivəsində Naxçıvan da blokadadan azad oluna bilər. Rusiya tərəfi Ermənistan ərazisi ilə Naxçıvan ilə Zəngəzur dəhlizinin yaradılmasını öz üzərinə götürür.

Azərbaycan isə hərb tarixinə yenilik kimi düşən strategiya tətbiq edərək, ən müasir silahlardan istifadə etməklə, habelə minimal itkilər verərək qısa müddət ərzində düşmənin əsas hərbi texnikasını məhv etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Azərbaycan Ordusunun yüksək peşəkarlıqla apardığı işğaldan azadetmə əməliyyatı dünya üzrə müharibələrin aparılması doktrinasında ciddi dəyişikliklərə səbəb olacaq. Yüksək dağlıq şəraitdə həyata keçirilən Şuşanın azad edilməsi əməliyyatı Azərbaycanın hərb tarixinin ən parlaq səhifəsidir.

Azərbaycan yerləşdiyi geosiyasi məkan, burada olan karbohidrogen ehtiyatlarının və digər təbii sərvətlərin zənginliyi bu bölgənin dünya siyasətinin diqqət mərkəzində olmasını şərtləndirmişdir ki, bu əraziyə xüsusi diqqət yetirən subyektlər içərisində Avropa ölkələri xüsusi yer tutur.

Məlum olduğu kimi, bu gün dünyanın demək olar ki, bütün inkişaf etmiş, sivil ölkələrində qloballaşma prosesləri getməkdədir. Müasir dünyada mövcud olan bir sıra qlobal problemləri həll etmək üçün dünya xalqları inteqrasiya yolunu tutaraq təbii fəlakətlərə, siyasi və iqtisadi problemlərə qarşı birgə mübarizə aparmaq qərarına gəlmişdir. Sovet (rus) siyasətinin əsl simasını görən Azərbaycan da müstəqillik yoluna qədəm qoyduğu gündən etibarən üzünü Qərbə çevirdi və öz xarici siyasətində daha inkişaf etmiş bu regiona inteqrasiyaya üstünlük verdiyini həm sözdə, həm də əməldə reallaşdırmağa başlamışdır. Son illərdə respublikamızda aparılan bir sıra iqtisadi, siyasi və mədəni islahatlar Azərbaycanın günbəgün Rusiyanın nüfuz dairəsindən uzaqlaşdığını və Qərbə yaxınlaşdığını əyani şəkildə göstərməkdədir.

Nəzərə alsaq ki, bu gün hələ də Azərbaycanda sovet dövründən bir sıra ağır miraslar qalmaqdadır və respublikamızın bu miraslardan yaxasını qurtarması elə də asan iş deyildir, onda bizim Avropaya və ümumiyyətlə Qərbə inteqrasiya etməyimiz, ümumdünya qloballaşma prosesində tam gücü ilə iştirakımızın uzunmüddətli bir şəraitdə baş verəcəyini proqnozlaşdırmaq o qədən də çətin deyildir.

Son illərdə Azərbaycanın Qərbə inteqrasiyası prosesində müəyyən irəliləyişlər müşahidə olunmaqdadır. Bu ilk növbədə ABŞ-da baş vermiş 2001-ci il 11 sentyabr terror hadisəsindən sonra dünya siyasətində baş vermiş dəyişikliklərlə bağlıdır. Məhz həmin facię nəticəsində ABŞ strateqləri Yaxın Orta Şərq layihəsini irəli sürdülər və reallaşdırılmasına başladılar. Avropa İttifaqı isə Yeni qonşuluq siyasəti strategiyasına üz tutmalı oldu, strategiyada baş vermiş belə dəyişiklik ilk növbədə milli və regional təhlükəsizliyin xarici faktorları ilə bağlı idi.

2003-cü ilə qədər ərazilərində milli münaqişələr olduğuna görə Cənubi Qafqaz respublikalarını yaxına buraxmaq istəməyən Avropa İttifaqı, nəhayət, bu regionla bağlı siyasətini korrektə etməli oldu. Beləliklə, 2004-cü ilin iyun ayının 14-də Avropa İttifaqının üzv ölkələrinin xarici işlər nazirləri Lüksemburq görüşündə Azərbaycan, Gürcüstan və Ermənistanın "Avropanın genişləndirilməsi: yeni qonşular" proqramına daxil edilməsi barədə qərar qəbul etdilər və bu qərar Avropa İttifaqının 17 iyunda Brüsseldə keçirilmiş sammitində təsdiq edildi. Nəticədə, Cənubi Qafqaz demək olar ki, Avropa İttifaqına tamamilə yaxınlaşdı.

Azərbaycanın digər qonşu Cənubi Qafqaz respublikaları ilə müqayisədə öz təbii sərvətləri, xüsusilə də bu gün Qərbi daha çox maraqlandıran zəngin karbohidrogen ehtiyatları, yenə həmin ehtiyatlarla zəngin olan Orta Asiya respublikaları ilə Avropa arasında (Rusiyadan yan keçməklə) nəqliyyat dəhlizi olması, Azərbaycanın da daxil olduğu Xəzər akvatoriyasının Yaxın Şərqdə tutduğu xüsusi geosiyasi mövqe respublikamızı Qərb dünyası üçün daha cəzbedici edir. Amma, təbii olaraq, Cənubi Qafqazla əlaqədar daha çox meylli mövqe tutan rus politoloqları Azərbaycanın karbohidrogen ehtiyatlarının əhəmiyyətini gözdən salmağa çalışır, burada enerji daşıyıcılarının elə də zəngin olmadığını və bu amilin Qərb üçün guya elə də böyük əhəmiyyət kəsb etmədiyini vurğulayırlar. Rus politoloqlarından A.Krılovun mülahizələrində bu özünü açıq-aydın göstərir. O, yazır: "Regional neft istehsalı bazarında vəziyyət bir qədər yaxşı görünür, ancaq bununla belə movcud olan neft ehtiyatları Azərbaycanın dünya neft bazarında əhəmiyyətli oyunçuya çevrilməsi üçün kifayət deyil. Ona görə də, Cənubi Qafqaz ABŞ-ı və Aİ-ni ilk növbədə enerji daşıyıcalarının təhcizatçısı kimi deyil, Rusiyadan və İrandan yan keçməklə Mərkəzi Asiyanın karbohidrogen ehtiyatlarının dünya bazarına daxil olmasının təmin edilməsinə imkan verən tranzit bölgə kimi maraqlandırır" [2, 1]. Göründüyü kimi, problemin geosiyasi tərəflərinin Rusiyanı necə narahat etdiyini izah etmək üçün əlavə şərhə ehtiyac belə yoxdur.

Ümumiyyətlə, uzun əsrlər boyu Rusiya (keçmiş SSRİ) ilə ABŞ-ın mövqeləri daim toqquşmuşdur. Geosiyasətdə dualizm adlanan bu Avroasiya və atlantizm mövqelərinin toqquşması Cənubi Qafqaz siyasətində də özünü açıq-aydın büruzə verir. Geosiyasi mövqedən çıxış edərək həm atlantizmin, həm də Avrasiyanın Qafqaz regionundakı məqsədlərini aydın formulə etmək olar. Avrasiyanın məqsədi bu regionu Moskvanın nəzarəti altına salmaq, Rusiyanın mövqeyini burada möhkəmləndirməkdən və onun strateji iştirakını qoruyub saxlamaqdan ibarətdir. Atlantistlər isə bunun tam əksində maraqlıdırlar. Yəni ABŞ-ın geosiyasi məqsədi, bütün bu əraziləri Moskvanın təsir dairəsindən çıxarmaq və Qafqazda Qərbin ondan maksimum istifadəsi üçün yararlanmasına şərait yaratmaqdan ibarətdir.

Bu gün Cənubi Qafqazda qalmaqda olan milli münaqişələrin tənzimlənməsi, şübhəsiz ki, xü-

susi geostrateji əhəmiyyət daşıyan bu regionda sabitliyin qorunub saxlanılması üçün çox vacibdir. ABŞ-ın və Avropa İttifaqının xüsusi fəaliyyəti nəticəsində Cənubi Qafqaz regionu günbəgün Qərb dünyasına inteqrasiya edir ki, bu da, təbii olaraq burada öz geosiyasi və geostrateji dayaqlarını itirməkdə olan Rusiya və İran kimi qonşu dövlətləri narahat etməyə bilməz və bu dövlətlər Cənubi Qafqazda sabitliyin bərqərar olunmasında heç də maraqlı deyillər. Həmin dövlətlərin rəsmiləri bu faktı açıq-aşkar etiraf etməsələr də, onların (xüsusilə Rusiyanın) siyasi dairələrində ara-sıra bu fikri ifadə edən bəyanatlar səslənir. Rus politoloqu A.Duqin bu məsələyə münasibətini bildirərək, bu böyük dövlətin Qafqazda apardığı son əməliyyatları və bu regionla bağlı gələcək planlarını açıqlayaraq Rusiyanın mövqeyini belə ifadə edir: «Bütün bu addımlar tək bir geosiyasi məqsədə – Avrasiya tellurokratik kompleksinin möhkəmlənməsinə və atlantizmlə dueldə onu planetar zəfərə hazırlamağa istiqamətləndirilib» [6, 351]. A.Duqin Qafqazı iki geosiyasi səviyyəyə - şimali Qafqaz və üç Cənubi Qafqaz respublikasının ərazisinə - Ermənistan, Gürcüstan və Azəbaycana ayırır. Bütün bu region, xüsusilə, atlantist Türkiyə ilə həmsərhəd olan Azərbaycan, Rusiya üçün mühüm strateji əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, məhz bu ərazi heartland-Rusiya ilə rimland İran və Türkiyə arasında daim kəskin hərbi toqquşmalar meydanı olmuşdur. Qafqaz üzərində nəzarət ilk növbədə "isti dənizə" çıxış və sərhəddin cənuba doğru genişlənməsi bütün qitə üçün uduş hesab olunur.

Z.Bjezinski qeyd edir ki, əvvəl Rusiya imperiyasının nəzarətinə daxil olan Cənubi Qafqaz regionu hazırda İran, Rusiya və Türkiyə arasında təsir dairəsi yaratmaq üçün mübarizə obyektidir. Lakin bu üç ənənəvi namizəddən heç biri burada dominiantlıq edəcək gücə malik deyil. Belə ki, bu regionda bu üç dövlətdən əlavə daha iki böyük fiqurun da silueti görünür - Türkiyənin aparıcı üzvlərindən biri olduğu NATO vasitəsilə ABŞ və Türkiyənin təkidlə üzv qəbul olmağa çalışdığı Avropa İttifaqı [3, 134].

***Nəticə***. Soyuq Müharibədən sonrakı dövrdə Mərkəzi Asiya və Qafqazın coğrafiyasını geosiyasi baxımdan ön plana çıxaran ən mühüm məsələlərdən biri də regiondakı zəngin neft və təbii qaz ehtiyatları və bu resursların dünya bazarına çıxarılması yollarıdır. ABŞ-ın və Avropa İttifaqının bu regionda enerji dəhlizi yaratmaq üçün bir necə problemi həll etməli olduğunu vurğulayan A.Krılov, belə problemlərdən birinin də bu ərazidə baş qaldıra biləcək "genişmiqyaslı hərbi əməliyyatların" qarşısının alınmasında görür. Təbiidir ki, bu yarana biləcək "genişmiqyaslı hərbi əməliyyatlar" məhz bu regionda xüsusi geosiyasi marağı olan Rusiya tərəfindən törədilə bilər və rus politoloqu üstüörtülü də olsa bu fikri vurğulayır. O, yazır: "Bundan başqa, Qərb gərək tranzit ölkələr olan Azərbaycanda və Gürcüstanda sabitliyin pozulmasına imkan verməsin. Nəhayət, yeni enerji dəhlizinin etibarlı fəaliyyət göstərməsi yalnız o zaman mümkün olar ki, bu iki tranzit dövlət arasında münasibətlər sabit səciyyə daşımış olsun. Bütün bunları təmin etmək isə elə də sadə iş deyil" [2, 2]. Rus politoloqunun bir qədər hədə-qorxu səciyyəsi daşıyan bu sözləri pərdə arxasında gələcəkdə Azərbaycanla Gürcüstan arasında da hansısa münaqişə yaratmaq planlarının mövcudluğundan xəbər verir.

Müstəqil Azərbaycan Qərbin Xəzər dənizinə və Orta Asiyanın zəngin enerji yataqlarına çatması üçün yol ola bilər. Azərbaycanın Rusiyadan və ya hansısa bir dövlətdən asılılığı isə Orta Asiyanın dünyadan təcrid olunması deməkdir. Milli nöqteyi-nəzərdən Orta Asiyada daha çox əhalisi olan Özbəkistan Rusiyanın bu regionda nəzarəti üçün ən böyük əngəldir (6, 146). Rəsmi Vaşinqton hesab edir ki, Cənubi Qafqaz, NATO-nun genişlənməsində növbəti mərhələ olmalı, ən yaxşı halda isə Azərbaycan, Ermənistan və Gürcüstan eyni vaxtda təşkilata üzv olmalıdır. Müasir şəraitdə isə Gürcüstanla yanaşı, Azərbaycan da Şimali Atlantik alyansına üzv olmaq istəklərini açıq şəkildə bildirmişlər. Z.Bjezinski hesab edir ki, bu zaman Ermənistanı da kənarda qoymaq olmaz. Nəticə etibarilə bu cür şərait türk-erməni münasibətlərinin də normallaşmasına gətirib çıxarar ki, bu zaman NATO-nun Ermənistana da qapıları açılar. Azərbaycan rəhbərliyi NATO ilə əməkdaşlıq haqda daim elan edir ki, bizim əməkdaşlığımız daimi xarakter daşıyır və biz artıq çoxdan "həqiqi demokratiyanın", Avroatlantizmin xeyrinə öz seçimimizi etmişik.

Ermənistan-Azərbaycan münaqişəsinin müəyyən mənada bu regionda olan İran İslam Respublikasının da xarici siyasətinin tərkib hissəsini təşkil edir. Belə ki, bu ölkənin Ermənistanla bağlı bütün siyasi addımları göstərir ki, bu müsəlman dövləti bütün varlığı ilə «xristian» Ermənistanı dəstəkləyir və bu yolla müstəqil Azərbaycan Respublikasının iqtisadi inkişafına əngəl olmağa çalışır. Bunun sə-

bəblərini isə Z.Bjeziniski çox düzgün və aydın şəkildə ifadə edərək yazır: «Ərazisindən neft xətləri keçən və uzanaraq etnik qohum olan və ona siyasi cəhətdən yardım edən Türkiyəyə uzanan, müstəqil türkdilli Azərbaycan Rusiyaya regionda monopoliya yaratmağa mane olar və beləliklə, onu Orta Asiya respublikalarının siyasətinə əsas təzyiq vasitəsindən məhrum edə bilər. Bununla belə, Azərbaycanın çox asanlıqla şimaldan nəhəng Rusiyanın və cənubdan İranın təzyiqlərinə məruz qalmaq imkanı var. İranın şimal-qərbində Azərbaycanını öz ərazisindən iki dəfə çox azərbaycanlı yaşayır (bəzi hesablamalara görə, 20 milyona yaxın). Bu, İranı onun ərazisində yaşayanların arasında olan azərbaycanlıların separatizmindən qorxmağa məcbur edir və ona görə də İranda, bu iki millətin müsəlman olmalarına baxmayaraq, Azərbaycanın suveren statusuna ikili münasibət formalaşıb. Bu baxımdan, Azərbaycan Qərblə işgüzar münasibətlər yaratmasın deyə həm Rusiya, həm də İran tərəfindən təzyiq obyekti olmuşdur» (6, 155-156).

ƏDƏBİYYAT

1.Samyuel A. Uimz. Ermənistan – terrorçu «xristian» ölkənin gizlinləri. Ermənilərin böyük fırıldaq seriyaları. İngilis dilindən tərcümə edən Z. Ağayev, I cild, Bakı, 2004. – 387 s.
2.Крылов А. Россия, ЕС и США на новом витке борбы за стратегический регион. Газета СНГ, http://www.gazetasng.ru [10.02.2023].
3.Бжезинский Зб. Великая шахматная доска. Господство Америки и его геостратегические императивы, М.: Международные отношения, 1999. –256 с.
4.На саммите Евросоюза В Берлине подписана Берлинская декларация. http:www.newsru.kom/world/25mar2007/sammit.html [10.02.2023].
5.Кара-Мурза С.Г. Европоцентризм: эдипов комплекс интеллигенции, Серия «Тропы практического разума», М.: Алгоритм, 2002. – 630 с. (İnternet versiyası)
6.Дугин Александр. Основы геополитики. Геополитическое будущее России. Мыслить пространством. Изд. 3-е, дополн., М.: АРКТОГЕЯ – центр, 1999. – 928 с.
7. Balcı A. Ortadoğu və Postkolonializm. İstanbul: Pınar Yayınları, 2018, s.204
8. Young R.J. Postkolonyalizm. İstanbul, 2016, 652 s.
9. Özdemir M. Post-kolonyalizm nedir? Dünyalar arasında və Türkiyede Bilim, Kavram və Teorilerin İşlevleri. İstanbul, 2017, 299 s.
10. Chibber V. Post-Kolonyal Teori ve Kapitalizmin Hayaleti. Çeviren Afife Yasemin Yılmaz. İstanbul, 2016, 462 s.
11.Tanilli S. Yüzyılların Gerçeyi ve Mirası. VI. Cilt 20. Yüzyıl: Yeni Bir Dünyanın Aranışında. İstanbul, 2019, 656 s.

**НАРГИЗ НАГИЕВА**
*Доцент Бакинского Государственного Университета,*
*доктор философии по политическим наукам*

## ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ ПРОЦЕССЫ В РЕГИОНЕ ЮЖНОГО КАВКАЗА

Регион Южного Кавказа, расположенный на пересечении Азии и Европы, Запада и Востока, имеет особое геополитическое и геоэкономическое значение для великих держав мира, и именно поэтому великие западные державы, прежде всего, с точки зрения безопасности и транспортировки энергоносителей, в целях обеспечения их личных интересов в защите политической стабильности в этой сфере представляет интерес. Прежде всего, следует отметить, что политика России на Южном Кавказе не соответствует политике Запада.

*Ключевые слова*: Южный Кавказ, Европейский Союз, интеграция, Россия, Турция.

**NARGIZ NAGIYEVA**
*Associate professor of Baku State University,*
*Doctor of Philosophy in Political Science*

## SOCIO-POLITICAL PROCESSES IN THE SOUTH CAUCASUS REGION

The South Caucasus region, located at the intersection of Asia and Europe, between the West and the East, has special geopolitical and geo-economic importance for the great powers of the world, and therefore the great Western states are primarily responsible for maintaining their political interests in order to ensure their personal interests in the field of security and transportation of energy carriers interesting. It is primarily necessary to mention that policy of Russia in the South Caucasus does not correspond to the policy of the west.

*Keywords*: South Caucasus, Europe Union, integration, Russia, Turkey.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 fevral 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Rəyçilər: s.e.d. Adil Mirabdullayev, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 94, 021**

**AYBƏNİZ ƏLİYEVA-KƏNGƏRLİ**
*Azərbaycan Milli Elmlər Akademiyası*
*M.Füzuli adına Əlyazmalar İnstitutunun dosenti, elmlər doktoru*

**TAHİR SADIQOV**
*Azərbaycan Milli Elmlər Akademiyası*
*M.Füzuli adına Əlyazmalar İnstitutunun dissertantı*
**baku_2007@mail.ru**

# MÜASİR KİTABXANALARIN VİRTUAL MƏKANDA FƏALİYYƏTİ VƏ ƏHƏMİYYƏTİ

*Məqalənin əsas məqsədi müasir kitabxanaları araşdırmaqdır. Məqalədə kitabxanalarda yeni innovativ texnologiyaların tətbiqindən və virtual məkanda kitabxanaların fəaliyyətindən bəhs edilir. Kitabxanaların fəaliyyətini virtual məkanda səmərəli formada təşkil etmək, istifadəçilərin fəallığını və onların mütaliəyə maraqlarını artırmaq məqsədilə görülən işlər, islahatlar məqalədə işıqlandırılmışdır. Tədqiqat aparılarkən müxtəlif dillərdə yazılan ədəbiyyatlar elmi dövriyyəyə gətirilmişdir. Məqalə yazılarkən təhlil və müqaisə metodlarından istifadə edilmişdir. Tətbiqi əhəmiyyəti: material ali təshil müəssisələrində mühazirə və seminarlarda istifadə oluna bilər. Məqalə kitabxanaçılıq, təhsil sahəsi ilə maraqlananlar üçün də faydalıdır.*

*Açar sözlər:* Sosial şəbəkələrdə kitabxana fəaliyyəti, e-kitabxanaçılıq, virtual informasiya məkanı, innovativ kitabxanaçılıq.

***Giriş***. Ənənəvi kitabxana-informasiya xidmətinin təşkili ilə yanaşı kitabxanalar müasir innovasiyaların öyrənilməsi və tətbiqi ilə məşğul olur, ictimai mütaliənin hələdə mərkəzi olaraq qalır, distant təhsildə iştirak edir, qlobal informasiya məkanında inteqrasiya proseslərinin iştirakçısı olur, yeni məhsullar istehsal edir, sosial şəbəkələrdə yayın və təbliğat işləri həyata keçirir.

Bu baxımdan respublikada fəaliyyət göstərən Gənclər kitabxanalarının virtual məkanda, xüsusilə də sosial şəbəkələrdə aktiv iştirakı çox əhəmiyyətlidir.

Gənclərin sosial şəbəkələrdə vaxtlarının çoxunu keçirdikləri reallığından çıxış edərək və virtual məkanda kitabxananın geniş imkanlarının mövcud olduğunu nəzərə alaraq bu istiqamətdə diqqətimiz informasiya təbliği problemlərinə yönəlir.

Hazırda Azərbaycan gəncləri virtual məkanda mövcud olan sosial şəbəkələrdən - Linked, Adnaklasnik, Feyzbuk, İnstaqram, Moy mir, Twitter, Tanqo və Vkontakte kimi müxtəlif sosial şəbəkələrin iştrakçılarıdır. Gənclər Feyzbukda daha çox zaman keçirir və burada geniş sosial aktivlik müşayiət olunur.

Türkiyədə və Rusiya Federasiyasında gənclərin virtual məkanda aktivliyi, informasiya tələbatı, və bu təlabatın ödənilməsi texnologiyası türk və rus həmkarlarımız tərəfindən öyrənilməkdədir. Türkiyə Cumhuriyyəti gəncələrinin Facebookla yanaşı Twitterdə, Rusiya Federasiyasında isə Facebookla yanaşı Vkontakte sosial şəbəkələrində gənclərin daha çox zaman keçirməsi və aktiv informasiya mübadiləsi etməsi faktları müəyyənləşdirilmişdir. Həmkarlarımızın bu sahədə əldə etdikləri təcrübə diqqəti cəlb edir. Azərbaycan gənclərinin üstünlük verdiyi sosial şəbəkə əsasən Facebook hesab edilir. Mövcud təcrübəni öyrənərək bu sosial şəbəkədə diqqətimizi təmərküzləşdirdik.

***Əsas mətn***. 2016-cı ilin ilk altı ayının nəticələri göstərdi ki, gənclər böyük həvəslə kitabxananın dostluğunu qəbul edir, gündəm yaradan materiallarla tanış olur, bəyənir, paylaşır və şəxsi fikirlərini ifadə edirlər. Bu yolla kitabxana öz informasiya siyasətini -yeni nəşrləri, təqdimatları, görüşləri, sərgiləri daha geniş oxucu auditoriyasına çatdırmaq imkanı əldə edir və əsas məqsədinə daha artıq uğurla çatmış olur.

***Metodlar.*** Məqalə yazılarkən təhlil və müqaisə metodlarından istifadə edilmişdir.

Gənclər Kitabxanası olaraq hər şeydən əvvəl sosial şəbəkələrdə iştirakımızın tezislərini aşağıdakı kimi müəyyənləşdirdik:

- Gənclərin mütaliəsinə dəstək olacaq ədəbiyyatın təqdim və təbliği;

-Azərbaycanın və dünyanın görkəmli elm və ədəbiyyat xadimlərinin təqdimi və yayımı;
- Şəxsi təhsil ilə əlaqədar materialların və üsulların (alətlərin) təqdim və təbliği;
- Təhsil və ixtisas seçimi ilə əlaqədar materialların seçimi və yayımı;
- Mədəniyyət və incəsənətə dair materialların təqdimi və təbliği;
- Milli vətənpərvərlik mövzularında materialların təqdimi və təbliği;
- Kitabxananın mövcud fəaliyyətinin mütəmadi sosial şəbəkədə işıqlandırılması.

Sosial şəbəkədə C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının səhifəsində ilin birinci altı ayı dostların sayı 2000 - 1900 nəfər arasında dəyişib. Onların 1150 nəfərini fiziki, 670 nəfərini hüquqi şəxslər təşkil edib. Fiziki şəxslərdən aktiv olanı — 580, passiv-560 nəfəri təşkil etmişdir ki, bu əhəmiyyətli göstərici hesab edilir.

Hüquqi şəxslərdən aktiv olanı - 650, passiv olanı- 18 vahiddir. Bunlardan - 662 informasiya müəssisəsidir ki, buraya tərəfdaş kitabxanalar, mətbuat müəssisələri, ictimai birlik və təşkilatlar daxildirlər. Qeyd etmək lazımdır ki, kitabxananın sosial şəbəkədə dostları sırasında Azərbaycanın müxtəlif kitabxanaları ilə yanaşı Rusiyanın, Türkiyənin və Ukraynanın kitabxanaları da mövcuddur ki, onların vasitəsi ilə vaxtaşırı kitab, kitabxana, mütaliə və müasir informasiya texnologiyalarına həsr edilmiş diqqətəlayiq materiallar dövriyyəyə daxil olur və istehlakçıların marağına səbəb olur. Əlbəttə, fəaliyyətimizin əsas istiqaməti Azərbaycandilli auditoriya olduğundan sosial şəbəkələrdə regional və beynəlxalq təsirliliyi öyrənməyi qarşıya məqsəd qoymamışıq. Lakin qeyd olunmalıdır ki, Azərbaycandilli auditoriyadan kənarda rusdilli auditoriyaya, türkdilli auditoriyaya və ingilisdilli auditoriyaya informasiya yayımı etmək iqtidarındayıq və bu istiqamətdə də layihələr nəzərdə tutulur.

Altı ay ərzində vizual materiallardan 10300 vahid, 100 adda sənəd və informativ mətnlər, 55 adda multimedia materialı yayım olunmuşdur. Bu materiallara 7 min bəyənmə və 250 paylaşma olmuşdur ki, bunlardan 150-i 71 daxili paylaşma, 100 vahid isə kənar paylaşmalar təşkil edir.

***Keçirilən Forumlar.*** Bu müddətdə 2 forum keçirilmiş və bu forumlarda iştirakçıların 990 şərhi (komentariyası) daxil olmuşdur. Eləcə də müxtəlif məqsədli və məzmunlu 300 təqdimat keçirilmişdir ki bu təqdimatlarda iştirakçılar 950 şərh (komentariyalar) etmişdilər. Bu müddətdə sosial şəbəkə vasitəsilə kitabxanaya 150 sorğu və 10 oxucu təklifi verilmişdi ki, kitabxana personalı bu sorğulara operativ reaksiyalar vermişdi. Virtual məkanda kitabxana-informasiya xidmətinin yeni forma və üsulları yeni texnologiyaların tətbiqi ilə təkmilləşir. Hazırda sosial şəbəkələrdə kitabxanaların həm mədəni, həm də pedaqoji funksiyalarını uğurla yerinə yetirmək imkanları yaranmışdı. Belə ki, informasiya kütlələrini yaymaq və təbliğ etmək, oxucu marağını öyrənmək və sorğuları qəbul etmək, eyni zamanda sorğuları ödəmək və tövsiyələr etmək üçün vahid platforma formalaşır. Bu platforma istehlakçı zamanına maksimum qənaət şəraitində xidmət işini təşkil etmək, eləcə də istehlakçı oxucuların daima yanında olmaq imkanı yaradır.

Onlayn informasiya xidməti yaxın gələcəyin ən böyük nailiyyətlərindən hesab edilir. Bu baxımdan yaxın zamanlarda kitabxanainformasiya xidmətinin təşkilini həyata keçirəcək mütəxəssislərin informasiya resursları və mötəbər informasiya mənbələri barədə yüksək peşəkarlığı tələb olunur.

Məsələ burasındadır ki, virtual məkanda yüzlərlə mediya qrumları fəaliyyət göstərməkdədirlər. Bu media qrumlannın sosial, siyasi, mədəni orientasiyasını müəyyənləşdirmək bəzən peşəkarlar üçün belə çətin olur. Hər gün informasiya küyü yaratmaqla məşğul olan bir çox media qrumları xüsusilədə gənclərin informasiyalaşmasında ziyanlı rol oynayır. Etiraf edər ki, virtual məkanda ziyanlı informasiya kütləsi ilə yanaşı çox böyük təxribat xarakterli informasiya kütlələri də mövcuddur. Hazırda belə təxribat xarakterli informasiyalardan qorunmağın yeganə yolu mötəbər informasiya müəssisələrinin sosial şəbəkələrdə iştirakını artırmaq və mötəbər informasiyanın mövcudluğunu təmin etməkdir.

Sosial şəbəkələrdə informasiya küyü müasir virtual məkanın mühüm xüsusiyyətidir və bu da ən çox gənclərə təsir edir. Həm sosioloqların, həm də psixoloqların gəldiyi qənaətə görə, gənclər müxtəlif növ informasiya təsirlərinə asanlıqla məruz qalır və bu zaman informasiyanın mötəbərliyi arxa plana keçir. İnformasiya hücumu və informasiya müharibələri də məhz informasiyanın bu kimi xassələrinə əsaslanır. Son onilliklərin təcrübəsi göstərir ki, məqsədəuyğun informasiya siyasəti yanlışları həqiqətə, həqiqəti isə yanlışa çevirə bilir. Qlobal informasiyalaşma şəraitində informasiya küyünün aradan qaldırılması mümkün olmasada onun kütləsinin əsaslı şəkildə azalması mümkündür. Bu baxımdan kitabxana-informasiya fəaliyyəti ilə məşğul olan müəssisələrimiz virtual məkanda, xüsusilə

də sosial şəbəkələrdə fəaliyyətlərini artırmalıdırlar ki, bu da informasiya küyünün kütləsinin azalmasına gətirib çıxarar.

Məlumdur ki, gənclər çox böyük həcmdə informasiya istehlakçılarıdırlar. Qlobal informasiya şəbəkəsində sirkulyasiya edən informasiya proseslərinin əsas iştirakçıları gənclərdir. Dünyagörüşü, şəxsi və təhsil ehtiyacları, tədqiqat məqsədli, eləcə də ədəbi mütaliəsi məqsədi ilə gənclərin çox böyük əksəriyyəti hər gün bu informasiya kanallarına müraciət edirlər. Müasir kommunikasiya vasitələrindən uğurla istifadə edə bilmək bacarığı hələ düzgün informasiya kanallarını müəyyənləşdirə bilmək demək deyildir. Təcrübə göstərir ki, düzgün informasiya kanallarından istifadə edə bilmək, konkret sorğuların təmin olunması üçün lazım olan alətlərdən istifadə edə bilmək vərdişləri, informasiyanın həm elmi, həm də sosial dəyərinin qiymətləndirilməsi vərdişləri gənc instehlakçılarda tədricən formalaşır və bu işdə gənclər kitabxanasının, eləcə də gənclərə kitabxana-informasiya xidməti göstərən digər kitabxanaların da üzərinə əhəmiyyətli missiya düşür.

***Nəticə.*** Azərbaycanda elektron kitabxanaşünaslıq problemlərini hələ 10 il öncə professor A.A. Xələfov elmi-nəzəri planda öz əsərlərində təhlil etmiş və əsaslandırmışdır. Hazırda elektron kitabxanaçılığın tətbiqi məsələlərinin öyrənilməsi və qabaqcıl təcrübənin təbliği əhəmiyyətlidir. Bu istiqamətdə C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası olaraq fəaliyyətimizi genişləndirmək və innovasiyaların öyrənilməsinə qərarlıyıq.

## ƏDƏBİYYAT

1. Xələfov A.A. Kitabxana və cəmiyyət. Bakı, Azərnəşr, 2012, 305 s.
2. Xələfov A.A. Qurbanov A.İ. Kitabxanaların kompüterləşdirilməsi. B., BDU nəşri, 2016, 320 s.
3. Əhmədov E.Y. Uşaq və gənclərin kitabxana-informasiya təminatı. – Monoqrafiya. Mütərcim, 2016, 245 s.
4. Казими П.Ф. Информационная инженерия в библиотечной деятельности. научно-теоретический и практический журнал. Оралдыц гылым жаршысы, № 8 (87) 2014. Серия: экология. физика. география и геология. современные информационные технологии.Технические науки. уралнаучкнига. город Уральск, с.100-106.
5. Оценка информации в библиотечно-информационной деле. Тольяттинский Государственный Университет,Вектор науки, 2013, №1(12), с.58-60.
6. Kazimi P.F., Gurbanov A. Evaluation of information in Library and Information Activities 47-49. Iceecat'14. International conferenceon electronic, computer and automation technologies (may 9-11, 2014 Selcuk University Iltek - Konya, Turkey) proceedings book. 9 - 11 May, 2014. Konya, Turkiye. ekotek.selcuk.edu.tr
7. Sadıqov T. Milli irsin təbliğində Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının rolu. Bakı, Şərq, 2016, 168 s.
8. Sadıqov T. Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası:Elmi, metodiki və təcrübi fəaliyyətin təhlili. Bakı, Apastrof, 2015, 272 s.

**АЙБЕНИЗ АЛИЕВА-КАНГЕРЛИ**
*Азербайджанская Национальная Академия Наук*
*Институт рукописей им. М. Физули, доцент, доктор наук*

**ТАИР САДЫГОВ**
*Диссертант Института Рукописей имени М.Физули*
*Национальной Академии Наук Азербайджана*

# СОВРЕМЕННЫЕ БИБЛИОТЕКИ В ВИРТУАЛЬНОМ ПРОСТРАНСТВЕ

Статья посвящена новым, инновативным направлениям библиотечной деятельности. В этом контексте изучается практика библиотечно-информационной деятельности в виртуаль-

ном пространстве. В статье освещаются работа и реформы, проводимые с целью эффективной организации деятельности библиотек в виртуальном пространстве, повышения активности пользователей и их интереса к чтению. При написании статьи использовались методы анализа и сравнения. В научный оборот введена литература, написанная на разных языках. Актуальность применения: материал может быть использован на лекциях и семинарах в высших учебных заведениях. Статья также полезна для тех, кто интересуется библиотечным делом и образованием.

*Ключевые слова*: Библиотечное деятельность, библиотековедение, виртуальная информационная пространства, инновационная библиотечная работа.

**AYBENIZ ALIYEVA-KANGERLI**
*associate professor of Azerbaijan National Academy of Science Institute of Manuscripts named after M. Fuzuli, doctor of sciences*

**TAHIR SADIGOV**
*Dissertation student of the Institute of Manuscripts named after M. Fuzuli of the Azerbaijan National Academy of Sciences*

## MODERN LIBRARIES IN VIRTUAL SPACE

The main purpose of the article is to investigate the issue of awareness of the youth regarding electronic libraries in Azerbaijan. The article is devoted to new, innovative directions of library activity. In this context, the practice of modern libraries and its activities in the virtual space and mainly in social networks is being studied. The work and reforms carried out in order to effectively organize the activities of libraries in the virtual space, to increase the activity of users and their interest in reading, are highlighted in the article. Literatures written in different languages have been attracted into scientific circulation. Analysis and comparison methods were used while writing the article. Application importance: the material can be used in lectures and seminars in higher education institutions. The article is also useful for those interested in librarianship and education.

*Keywords*: Library activity in social networks, e-library science, virtual information space, innovative library work.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Samirə Məmmədova, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24); 3356.01**

**SEVDA KƏRİMOVA**
*Bakı Dövlət Universiteti,*
*Sənəd-informasiya menecmenti fakültəsinin*
*Sənəd menecmenti kafedrasının müəllimi*
**sevda.kerimova1@gmail.com**

# BİZNES MÜHİTİNƏ İNFORMASİYA DƏSTƏYİ SAHƏSİNDƏ KİTABXANALARIN ELEKTRON RESURSLARININ ROLU

*Məqalədə biznes mühitinin kitabxana-informasiya təminatında xüsusi rola malik olan elektron resurslar – məlumat bazaları araşdırılmışdır. Məlumat bazalarının bölündüyü biblioqrafik, faktoqrafik, qarışıq və tammətinli bazalar tədqiq olunmuş, Azərbaycanda və dünyada tanınmış və nüfuza malik olan bazalar haqqında ətraflı məlumatlar verilmişdir. Bazaların yaranma tarixində rəqəmsal texnologiyaların meydana gəlməsi və inkişafının xüsusi rolu olduğu aşkarlanmışdır. Eyni zamanda, bu bazaların yaradılması zamanı diqqət edilməli olan məqamlar və bazaların yaradılma yolları izah olunmuşdur. Ölkəmizdə də milli məlumat bazalarının yaradılması istiqamətində təkliflər verilmişdir.*

*Açar sözlər:* məlumat bazaları, elektron resurs, internet, biznes, informasiya, kataloq.

***Giriş***. Cəmiyyətin müntəzəm dəyişikliyi müasir dövrdə onun inkişafının əsas əlamətidir. XXI əsrin əvvəllərində kompüter texnologiyalarının inkişafı ilə əlaqədar olan dərin nüfuzedici dəyişikliklər baş verdi. Bu dəyişikliklər informasiyanın çatdırılması formalarında da nəzərə çarpmağa başladı. Ənənəvi kitabxanalar cəmiyyətdə baş verən ləng dəyişikliyi təqdim edirdi. Yeni sənəd formatlarının yaranması isə kitabxana xidmətinin yeni növünün meydana gəlməsini tələb edirdi. Elə bu tələb də, qısa tarixi müddətdə böyük dəyişikliyə səbəb oldu. Kompüterlərin ixtirası və kitabxana işində istifadə edilməsi kitabxana fondlarının tərkibinə də öz güclü təsirini göstərdi. XX əsrin sonlarında rəqəmsal texnologiyalardan istifadə bütün kitabxana sahələrinə nüfuz etdi.

***Mövzunun aktuallığı***. İnternet şəbəkəsi yarandıqdan sonra informasiya xidmətinin təşkilində yeni mərhələ başlandı. Hazırda ən vacib telekommunikasiya vasitəsi olan internet şəbəkəsi vasitəsilə istənilən məlumatlar dərhal dərc olunur, əvvəllər əldə edilməsi qeyri-mümkün olan iri həcmli informasiya tez müddətdə işlənilərək təhlil olunur. Kompüter texnologiyaları və qlobal şəbəkə vasitəsilə məlumatların dərhal çatdırılması və yayılması həyata keçirilir. İnternet şəbəkəsinin yaranması biznesin müxtəlif sahələrinin, yəni, marketinq, məhsula nəzarət, istehsalçılar və alıcılar arasında razılaşma sisteminin inkişaf etməsinə səbəb oldu.

1990-cı illərin ortalarına qədər internet şəbəkəsinə biznes və ictimai maraq olmamışdır. İlk vaxtlar bizneslə məşğul olan şirkətlər internet şəbəkəsinə öz reklam aksiyalarının həyata keçirilmə vasitəsi kimi yanaşırdılar. Bəzi şirkətlər əvvəllər çap etdirdikləri reklam və elanları əks etdirən veb-saytlar yaratmışdılar. Bu, istehlakçıya lazım olan məlumatlarla lazım olan anda yerindəcə tanış olmaq imkanı yaradırdı. Bu zaman istehsalçı şirkət əvvəllər elan və reklamların çapına, poçtla çatdırılmasına xərclədiyi vəsaitdən dəfələrlə ucuz qiymətə istehlakçıya öz məhsullarını təqdim edirdi.

Kitabxana kataloqlarının eramızdan 100 il öncə yaradılmasına baxmayaraq, müasir dövrdə də axtarış aparmaq, kataloqlaşdırma və fondun təşkili kimi kitabxana fəaliyyətinin əsası hesab edilir. Ənənəvi kataloqlar kitabxana fonduna daxil olan sənədlərlə lokal şəraitdə tanış olmaq imkanı verirdi, elektron kataloqlar isə dünyanın istənilən nöqtəsindən internet vasitəsilə bu sənədlərlə tanış olmağa şərait yaradır. İnternetin sürətli inklişafına qədər də, bəzi kitabxana proseslərində irəliləyişlər baş vermişdir. Bunlar əsasən iki yeni kompüter texnologiyası olan məlumat bazaları və CD-ROM optik diskləri ilə əlaqədar idi. 1970-1980-ci illərdə kompüter məlumat bazalarının inkişafı kitabxana proseslərinin də avtomatlaşdırılmasına və idarə olunmasına zəmin yaratdı. Kataloq kartoçkalarının məlumat bazaları ilə əvəz olunması kağız üzərində icra edilən bir çox prosesləri sıradan çıxardı.

***Tədqiqatın obyekti.*** Azərbaycan Respublikasında biznes mühitinə elektron resurslar vasitəsilə kitabxana-informasiya dəstəyi.

***Tədqiqatın predmeti.*** Azərbaycan Respublikasının kitabxanalarında biznes və iqtisadiyyatın digər sahələri üzrə elektron informasiya ehtiyatlarının yerləşməsi, quruluşu və istifadə dərəcəsinin müasir vəziyyətinin tədqiqi.

***Tədqiqatın məqsədi.*** İdarəetmə və biznes sahəsində informasiya təminatının rolunu, kitabxanaların elektron resurslarının quruluşunu təhlil etmək.

***Tədqiqatın elmi yeniliyi.*** Biznesə dair elektron resursların inkişafında bu sahə üzrə dünyada nüfuza malik və Azərbaycanda mövcud olan məlumat bazalarının fəaliyyəti ilk dəfə araşdırılmışdır. Biznes strukturlarına informasiya dəstəyi sahəsində kitabxanaların fəaliyyətinin səmərəliyinin artırılması yolları və biznes mühitinin informasiya təminatının təkmilləşdirilməsi problemləri ilk dəfə tədqiqata cəlb edilmişdir. Respublikamızda biznes və iqtisadiyyatın digər sahələri üzrə məlumat bazalarının yaradılması üçün ilk dəfə olaraq təkliflər irəli sürülmüşdür.

Rəqəmsal texnologiyaların inkişafı 1960-cı illərin ortalarında informasiya bazarının formalaşmasında da keyfiyyət dəyişikliklərinə səbəb oldu. Həmin dövrdə başlıca məlumat mənbələri dövlət məlumat xidməti, təhsil müəssisələri, kitabxanalar və ictimai təşkilatlar idi. İnformasiya tələbatçılarına biblioqrafik, referativ və analitik məlumatlar təqdim olunurdu. İlk məlumat axtarış sistemləri (MAS) EHM-lər yarandıqdan sonra meydana gəlmişdir.

Daha sonralar yaradılan faktoqrafik informasiya sistemlərində məlumatlar sənəd və referatların biblioqrafik təsvirlərinin də saxlanıldığı məlumat bazaları şəklində təşkil olunmuşdu. Hazırda dünyada 8.000-dən çox nəhəng informasiya korporasiyası fəaliyyət göstərir. Referativ nəşrlərin hazırlanması məqsədilə, ilk maşınla oxuna bilən məlumat bazaları 1960-cı illərdə ABŞ-da, 10 ildən sonra isə Rusiyada meydana gəlmişdir. Həmin maşınla oxuna bilən bazalar maqnit lentlərdə hazırlanaraq yayılırdı. Onlar nəşr olunmuş mənbələrin biblioqrafik təsvirini əhatə edən biblioqrafik məlumat bazaları idi [1, s.65].

Dünyanın istənilən yerindən məlumatlara tez və etibarlı girişin təminatçısı olan virtual aləm elektron biznesin müxtəlif formalarının inkişafında katalizator rolunu oynamışdır. İlk öncə internet şirkətlər müxtəlif məlumat bazalarının istehsalı və satışı üzrə ixtisaslaşmışdır. Həmin dövrdə əsasən statistik məlumatları əks etdirən faktoqrafik, sənədlər haqqında biblioqrafik və kitab, qəzet, jurnal, məcmuə məqalələrinin tam mətnlərini əhatə edən tam mətnli məlumat bazaları mövcud idi. "İnternetə qədər"ki dövrdə məlumat bazalarının istehsalçılarından 1979-cu ildə ABŞ-da yaradılmış və 33 min informasiya mənbəyini əhatə edən LEXIS/NEXIS, 1972-ci ildə ABŞ-da yaradılmış və 900 bazanın, həmçinin, 1.4 milyard sənədin daxil olduğu Dialog, Silver Platter, EBSCO Information Services, STN Internetional, H.W.Wilson, UMI (əvvəl ProQuest adlanırdı) diqqəti cəlb edirdi. İnformasiya istifadəçilərə əvvəllər maqnit lentlərində, 80-ci illərin ikinci yarısından başlayaraq isə CD-ROM-larda çatdırılırdı [3, s.249].

Biznes sahəsinə dair elektron resursların əsas hissəsini məlumat bazaları təşkil edir. Onların əhəmiyyəti informasiya təminatına və informasiya xidmətinə tələbatın yüksək olduğu cəmiyyətin informasiyalaşdırılması şəraitində daha da yüksəlir. Belə cəmiyyətdə istehsalın əsas məhsulu, eyni zamanda daxili və beynəlxalq əhəmiyyətə malik mühüm əmtəə informasiyadır. Cəmiyyətin informasiyalaşdırılması konsepsiyasının yaradılmasının mühüm istiqamətlərindən biri məlumat bazalarının yaradılmasına elmi yanaşmanın işlənilməsinin vacibliyidir. Əlyetərliliyə malik olan məlumat bazalarının sayı cəmiyyətin informasiya səviyyəsinin inkişafının əsas göstəricilərindən biridir.

İnformasiyalaşdırma şəraitində məlumat bazaları konsepsiyasının yaradılması həlledici əhəmiyyət kəsb edir. Məlumat bazalarının yaradılması konsepsiyasında ən əsas problemlərdən biri onların təşkili prinsiplərinin elmi əsaslandırılmasıdır. Bu zaman məqsəd və oxucu istiqaməti, sənədlərin seçimi, sənəd axınının fərqləndirilməsi və s. kimi problemlərin həllinin tapılması çox vacibdir. Məlumat bazalarının təşkili konsepsiyasının yaradılması probleminin həlli informasiya xidmətinin avtomatlaşdırılmış vasitələrinin fərqləndirilməsi haqqında məsələnin nəzərə alınmasının vacibliyini ehtimal edir. "Biblioqrafik məlumat bazaları" və "elektron kataloq" anlayışlarının müəyyən edilməsində bu vasitələrin müqayisəli təhlili zamanı informasiya xidmətinin biblioqrafik göstəricilər və müxtəlif anbarların kataloqları kimi vasitələrin fərqli xüsusiyyətlərindən çıxış etmək lazımdır. Təəssüf ki, informasiya

nəzəriyyəsi və təcrübəsində çox vaxt "biblioqrafik məlumat bazaları" və "elektron kataloq" anlayışlarını eyniləşdirirlər. Bu isə informasiya xidmətinin mahiyyət etibarilə müxtəlif vasitələrinin yaradılmasında özünəməxsus xüsusiyyətlərin olmamasına gətirib çıxarır.

Biznes və iqtisadiyyatın digər sahələri üzrə məlumat bazalarını növbəti əsas qruplara bölmək olar: biblioqrafik, faktoqrafik, qarışıq və tammətinli.

Məlumat bazalarının mövzuları müxtəlifdir: biznes, idarəetmə, marketinq, iqtisadi elmlər, dünya iqtisadiyyatı, beynəlxalq iqtisadi münasibətlər, xüsusi və sahəvi iqtisadi elmlər və aktual iqtisadi problemlər [2, s.124].

Respublikamızda biznes və iqtisadiyyat üzrə ən böyük məlumat bazasının təşkili ilə 2002-ci ildən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi məşğul olur. Komitənin "Statistik məlumat bazası" 3 bölmədən ibarətdir: "Demoqrafik və sosial statistika", "İqtisadi statistika" və "Digər sahələr". Bunların arasında ən irisi "Milli hesabatlar", "Kənd təsərrüfatı", "Sənaye", "Energetika", "Tikinti", "Daxili ticarət", "Xarici ticarət", "Rabitə", "Nəqliyyat", "Maliyyə və bank", "Qiymət", "İaşə", "Xidmət" və "Turizm" kimi 14 alt bölmədən ibarət olan "İqtisadi statistika" məlumat bazasıdır. Bunlardan başqa, "Digər sahələr" adlı bölmədə iqtisadi məlumatların əks olunduğu "Yaşıl iqtisadiyyat" adlı alt bölmə də vardır. "Demoqrafik və sosial statistika" bölməsi "Demoqrafiya", "Əmək bazarı", "Təhsil", "Elm", "Mədəniyyət", "Səhiyyə", "Sosial müdafiə", "İdman", "Mənzil şəraiti" və "Hüquqpozmalar" adlı alt bölmələrdən ibarətdir.

Dövlət Statistika Komitəsinin rəsmi saytında "Statistik məlumat bazası"ndan başqa "İnteraktiv cədvəllər", "Aylıq makroiqtisadi göstəricilər" və "BVF üzrə MYXS (SDDS)" adlı bazalar mövcuddur. "İnteraktiv cədvəllər" bazasında "Demoqrafik və sosial statistika", "İqtisadi statistika" və "Digər sahələr" üzrə göstəricilərə dair metaməlumatlar cədvəllər şəklində öz əksini tapmışdır. "Aylıq makroiqtisadi göstəricilər" bazasında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri əks olunmuşdur. "Məlumatların yayılmasının xüsusi standartı (MYXS)" bazası 1996-cı ildə makroiqtisadi siyasətin aparılmasına dəstək məqsədilə dünyada iqtisadi ekspertlərin tam və vaxtında məlumat alması üçün yaradılmışdır. Burada "Milli hesabatların əsas göstəriciləri", "Sənaye istehsalı indeksi", "Əhali", "Əmək bazarı", "Xarici ticarət", "Qiymət indeksləri" haqqında məlumatlar cədvəllər şəklində verilmişdir [6].

Komitənin elektron kitabxanasında 5.329 adda Azərbaycan, rus, ingilis, alman, türk, ukrayn, bolqar, fin, Niderland, polyak, Norveç, tacik, fars və digər dillərdə müxtəlif iqtisadi ədədbiyyatların və statistik məlumatların tam mətni "pdf." fayl formasında istifadəçilərin ixtiyarına verilmişdir [5].

Biblioqrafik məlumat bazaları mövzu, əks olunan sənədlərin növləri, dil, coğrafi və xronoloji əlamətlər üzrə təsnifləşdirilir. Xüsusi biblioqrafiya çərçivəsində biblioqrafik məlumat bazalarının təsnifləşdirilməsinin iki səviyyəsini fərqləndirmək olar: 1) sahəvi; 2) regional. Onların hüdudları daxilində çoxsahəli, sahələrarası, sahəvi və kompleks biblioqrafik məlumat bazaları fəaliyyət göstərir. Müasir dövrdə bir çox ölkələrdə əsasən sahəvi məlumat bazaları fəaliyyətdədir.

Məlumat bazaları ilə işdə növbəti linqvistik vasitələrdən istifadə olunur: iqtisadiyyat və demoqrafiya üzrə qaydaya salınmış leksik siyahı (deskriptorlar), iqtisadiyyat və demoqrafiya üzrə rubrikator, köməkçi fasetlər: bərpa olunan təbii ehtiyatlar, pul vahidləri, beynəlxalq təşkilatlar, xalq təsərrüfatının sahələri, sənaye sahələri, kənd təsərrüfatı sahələri, faydalı qazıntılar və sənaye məhsulları, siyasi-coğrafi faset (ölkənin və regionların adı), siyasi partiyalar, həmkarlar ittifaqları, kənd təsərrüfatı məhsulları. BIBNEW biznes, iqtisadiyyat və demoqrafiya üzrə 1982-1987-ci ilədək sənədləri əks etdirən, BIBLIO 1980-1982-ci illərin sənədlərini əhatə edən məlumat bazaları, BIBSOS, LATANER, AFRASI, HISTORY isə qarışıq məzmunlu məlumat bazalarıdır.

Marketinqə dair faktoqrafik məlumat bazaları məhsullar, avadanlıqlar, materiallar, ünvanlar haqqında kommersiya məlumatlarını əhatə edir. Faktoqrafik məlumat bazalarının mövzu əhatəsi müxtəlifdir: maliyyə strukturları, ticarət, ictimai qida, məişət xidmətləri, özəlləşdirmə, dünya bazarında mövcud qiymətlər, pul ehtiyatları, banklar, emissiya-kassa əməliyyatlarının idarə edilməsi və s.

Peşəkar informasiya fəaliyyəti sahəsində tammətnli məlumat bazaları daha çox maraq kəsb edir. Bu bazalar kitabların, qəzet və jurnal məqalələrinin, müxtəlif informasiya agentliklərinin məlumatlarının, müxtəlif müəssisələrin analitik hesabatlarının və digər sənədlərin tam mətnlərini əks etdirirlər. Tammətnli bazaların yaradılmasında 2 üsuldan istifadə olunur:

1) Çap məhsullarının orijinalları skan edilir və sənədlərin "pdf." formatında mövcud olan elektron surətləri əldə olunur. Bu sənədlər internet vasitəsilə əldə edilə bilən "Acrobat Reader" proqramının köməyi ilə oxunur. Çap əsərlərinin skan edilməsi vasitəsilə kitabxana fondlarındakı sənədlər rəqəmsal formaya çevrilir.

2) Kitab, qəzet və ya jurnalın elektron surəti nəşriyyatdan alınır, sənədin nəşr olunduğu müddətdə və ya ondan əvvəl sistemə yüklənir. Bazaya fiziki olaraq yükləndikdən sonra məlumatın axtarışı artıq mümkün olur.

Tammətnli məlumat bazaları istifadəçilər üçün yüksək səviyyəli xidməti təmin edir. Axtarış mexanizmi müxtəlif sahələr üzrə çoxaspektli axtarışın həyata keçirilməsinə imkan yaradır. ABŞ-ın ən nüfuzlu şirkətlərindən biri olan "EBSCO" dünyada fəaliyyət göstərən aparıcı nəşriyyatların elmi resurslarının ən iri aqreqatorudur. Şirkət 14 elm sahəsi üzrə sənədlərin 5 iri məlumat bazasına girişi təqdim edir. "EBSCO" vasitəsilə 375-dən artıq elmi-tədqiqat müəssisələrinin resurslarına, həmçinin 550 min elektron kitaba və 360 min elmi jurnala vahid nöqtədən çıxış əldə etmək mümkündür. Şirkətin təqdim etdiyi "Regional Business News" adlı məlumat bazası 80-dən çox regional biznes nəşrlərinin tam mətnlərini təqdim edir. "Business Source Elite" adlı baza isə 1985-ci ildən başlayaraq biznesə dair 1.000-ə yaxın biznes nəşrini əhatə edir və daim yenilənir.

Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun (AzKİK) üzvləri olan respublika elmi, sahəvi və regional kitabxanalar abunə yolu ilə "EBSCO"-nun məlumat bazalarından istifadə etmək hüququna malikdirlər. Konsorsiumun məqsədi üzvləri arasında informasiya mənbələrinin bərabər paylanması, əldə edilən elektron ehtiyatların miqdar və keyfiyyətinin artırılması, üzvlərinin sayının çoxalmasıdır. Həmin kitabxanalar Kembric Universiteti Nəşriyyatının, Blackwell Nəşriyyatının, ProQuest-in və digər nüfuzlu təşkilatların tam mətnli elektron nəşrləri ilə təmin olunur.

2000-ci ildə başlamış "EconBiz" layihəsi iqtisadiyyat və biznes araşdırmaları üçün mövzu portalı olmaqla, İqtisadiyyat və Biznes üçün Virtual Kitabxana (Virtual Library for Economics and Business Studies), Alman Milli İqtisadiyyat Kitabxanası (German National Library of Economics-ZBW), Köln Universitet və Bələdiyyə Kitabxanası (University and Municipal Library of Köln-USB Cologne) tərəfindən dəstəklənən ortaq bir layihədir. O, mühüm alman və beynəlxalq məlumat bazaları üzrə axtarışı təmin edir. "EconBiz" vasitəsilə internetdə sənədlərin ödənişsiz tam mətnlərini əldə etmək mümkündür [4]. Bu layihə Alman Araşdırma Vəqfi (German Research Foundation-DFG) və Avropanın "EconBiz"in ortaqları tərəfindən dəstəklənməkdədir.

Qarışıq məlumat bazaları sənədli və faktoqrafik, biblioqrafik, tammətnli və s. kimi müxtəlif məlumat bazalarının uyğunlaşdığı bazalardır. Biblioqrafik-faktoqrafik məlumat bazalarına misal olaraq ABŞ-a məxsus olan "PROMT" beynəlxalq iqtisadi bazasını göstərmək olar. Baza 1972-ci ildə yaradılmışdır. Hər il bazaya müxtəlif mövzular üzrə 300 min biblioqrafik təsvir və referatlar daxil edilir. Materiallar 10 dildə təqdim olunur. PROMT müxtəlif istehsal sahələrinə dair (maşınqayırma, metallurgiya, cihazqayırma, elektronika, hesablama texnikası, rabitə, yüngül və yeyinti sənayesi, kənd təsərrüfatı, nəqliyyat, bank işi, sığorta və s.) biznes və ticarət-iqtisadi məlumatları əhatə edir.

***Nəticə***. Tədqiqat nəticəsində müəyyən olundu ki, bəhs edilən sahə üzrə elektron resursların yerləşməsi ölkə göstəriciləri ilə müqayisədə aşağıdır. Bütün qeyd olunan məsələləri nəzərə alaraq bildirmək lazımdır ki, məlumat bazalarının təşkili və inkişafı milli elektron və çap məhsullarının qorunub saxlanılmasının, istifadəçilərə çatdırılmasının vacib üsulu kimi həll ediləcək prioritet məsələlərdən biri olmalıdır.

Fikrimizcə, biznesin ayrı-ayrı sahələri üzrə dünya əhatəli, müxtəlif dilli resursları əhatə edən tammətnli məlumat bazalarının yaradılması vaxtı çatmışdır. Belə məlumat bazaları biznes mühitinin informasiya təminatı sistemini zənginləşdirə bilər. Biznesə dair məlumat bazalarının yaradılmasının və bu sahədə müvafiq tədqiqatların aparılmasının düzgün yolu məsələlərin milli səviyyədə həll edilməsidir. Bu sahədə görüləcək işlər çox profilli olduğu üçün linqvistika, iqtisadiyyat sahələrinin mütəxəssislərini və rabitə texnikalarını əhatə etməlidir. Həyata keçirilməli olan məsələlər, eyni zamanda böyük həcmdə maddi vəsait və əlaqələndirmə tələb edir. Bunun üçün beynəlxalq təcrübəyə əsaslanaraq tətbiqi, elmi-nəzəri araşdırmalar və təhlillər aparılmalı, məlumat bazalarının fəaliyyət prinsipləri və inkişaf perspektivləri müəyyənləşdirilməli, səmərəli qərarların qəbul edilməsi məqsədilə mexanizmlər işlənilib hazırlanmalıdır.

## ƏDƏBİYYAT

1. Kərimova, S. Kommersiya tipli tammətnli verilənlər bazalarının formalaşması, xüsusiyyətləri və problemləri // – Bakı: İnformasiya cəmiyyəti problemləri: elmi-praktiki jurnal, – 2012. №2 (6), – s.64-67.
2. Семенова, Г.Г. Библиографическое обеспечение экономики на современном этапе. Учебное пособие / Г.Г. Семенова. – Москва: МГУК, – 1997. – 148 с.
3. Уайт, Э. Статистические методы работы с электронными документами в библиотечной сфере, или Э-метрики / Э.Уайт, Э.Камаль. – Москва: Омега, – 2006. – 260 с.
4. Journals, Working Papers & Conferences in Business Studies and Economics: [Electronic resource] / "EconBiz" digital library. – URL: https://www.econbiz.de/ [30.03.2023].
5. Dövlət Statistika Komitəsinin Kitabxanası. - https://www.azstat.org/Kitweb/ [30.03.2023].
6. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. - www.stat.gov.az [30.03.2023].

**СЕВДА КАРИМОВА**
*Преподаватель Бакинского Государственного Университета*

## РОЛЬ ЭЛЕКТРОННЫХ РЕСУРСОВ БИБЛИОТЕК В СФЕРЕ ИНФОРМАЦИОННОГО ОБЕСПЕЧЕНИЯ БИЗНЕС-СРЕДЫ

В статье рассматриваются электронные ресурсы - базы данных, которым принадлежит особая роль в библиотечно-информационном обеспечении бизнес-среды. Были изучены библиографические, фактические, смешанные и полные базы данных, на которые делятся базы данных, и дана подробная информация об известных и авторитетных базах данных в Азербайджане и мире. Выявлено, что особую роль в истории БД сыграло появление и развитие цифровых технологий. При этом были разъяснены моменты, на которые следует обратить внимание при создании этих баз и способы создания баз. Внесены предложения по созданию национальных баз в нашей стране данных.

*Ключевые слова:* базы данных, электронный ресурс, интернет, бизнес, информация, каталог.

**SEVDA KARİMOVA**
*Lecturer of Baku State University*

## THE ROLE OF ELECTRONİC RESOURCES OF LİBRARİES İN THE FİELD OF İNFORMATİON SUPPORT TO THE BUSİNESS ENVİRONMENT

The article examines the electronic resources - databases that have a special role in the library-information provision of the business environment. The bibliographic, factual, mixed and complete databases, into which the databases are divided, were studied, and detailed information was given about the well-known and reputable databases in Azerbaijan and the world. It was found that the emergence and development of digital technologies played a special role in the history of the database. At the same time, the points that should be paid attention to during the creation of these bases and the ways of creating the bases were explained. In our country, proposals have been made for the creation of national databases.

*Keywords*: databases, electronic resource, Internet, business, information, catalog.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 30 mart 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Rəyçilər: p.ü.f.d. Nadir İsmayılov, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 32:93/94**

**SEVİNC NƏSİROVA**
*Milli Azərbaycan Tarixi Muzeyi, tarix üzrə fəlsəfə doktoru*
**sevinc.akifqızı@gmail.com**

**ANARA MƏMMƏDOVA**
*Bakı Dövlət Universiteti, bakalvr məzunu,*
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının magistr məzunu*
**a.mammadli1986@gmail.com**

# AZƏRBAYCAN RESPUBLİKASI VƏ ÇİN XALQ RESPUBLİKASI MÜNASİBƏTLƏRİ, GƏLƏCƏK PERSPEKTİVLƏR

*Bu məqalədə yenidən müstəqilliyimizi əldə etdikdən sonra Azərbaycan Respublikası və Çin Xalq Respublikası (ÇXR) arasındakı qarşılıqlı münasibətlər və çoxtərəfli əməkdaşlıq mənbələrə istinad edilərək araşdırılmağa çalışılmışdır. İki ölkə arasındakı rəsmi münasibətlər öz başlanğıcını 1991-ci il dekabrın 27-dən, yəni Çin Xalq Respublikasının Azərbaycan Respublikasının müstəqilliyini rəsmən tanımasından götürmüş və bu günə qədər də daim irəliyədönük, perspektivli qarşılıqlı münasibətlər və əməkdaşlıq fonunda uğurla davam etdirilməkdədir. Ölkələr arasında qarşılıqlı münasibətlərin bir çox sferalarında sabit və dayanıqlı əsaslara nail olunmuşdur. Məlumdur ki, Çin mövcud regionda siyasi-iqtisadi baxımdan söz sahibi bir dövlətə çevrilməkdədir. Məhz Çin kimi bir etibarlı tərəfdaş ilə proqressiv və sabit qarşılıqlı münasibətlər respublikamıza müəyyən üstünlüklər qazandıracaqdır və bu prosesin özü isə bütövlükdə beynəlxalq münasibətlər sisteminə böyük töhfə verəcəkdir.*

*Açar sözlər:* Azərbaycan Respublikası, Çin Xalq Respublikası, Bakı, Pekin, qarşılıqlı əməkdaşlıq, çoxtərəfli əlaqələr.

***Giriş***. Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ikitərəfli münasibətlərin tarixi qədim İpək Yoluna qədər uzanır. Belə ki, təqribən 2500 il bundan əvvəl yəni e.ə. II əsrdə dünya ticarət yollarına Çindən başlayaraq Avropaya qədər uzanan ticarət yolu da qoşuldu. Bu yolla Yaxın Şərq ölkələrinə və Aralıq dənizi hövzəsinə içərisində ipək əsas yeri tutmaqla müxtəlif məhsullar gətirilirdi. Beləliklə, bu yol zamanla "İpək yolu" adlandırıldı. Bu yol Çindən Şimali Afrikaya və İspaniyaya qədər bütün dövlət və xalqları ümumi ticari maraqlar ətrafında birləşdirirdi. Bu yolun mühüm xətlərindən biri də məhz Azərbaycan ərazisindən keçirdi (1, s.70).

1991-ci ilin oktyabrın 18-də ikinci dəfə müstəqilliyimizi elan etdikdən sonra müstəqilliyimizi tanıyan ilk dövlətlərdən birisi də Çin Xalq Respublikası olmuşdur.

1991-ci il dekabrın 27-də müstəqilliyimizi tanıdıqdan sonra iki dövlət arasında diplomatik səviyyədə əlaqələr 1992-ci il aprelin 2-də qurulub. Həmin ilin avqust ayında isə Çin Xalq Respublikasının Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində səfirliyi açılmış, 1993-cü ilin dekabrın 1-də ÇXR-in ölkəmizdəki ilk fövqəladə və səlahiyyətli səfiri təyin olunmuşdur. Azərbaycan Respublikası Milli Məclisinin Qərarına əsasən 1993-cü ilin 3 sentyabr tarixində Azərbaycan Respublikasının Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində səfirliyinin təsis edilməsi qərara alınmışdır (2).

Əgər Azərbaycan və Çin münasibətlərini mərhələlərə ayırmalı olsaq, burada şərti olaraq iki mərhələni ayırd edə bilərik:

1. Mərhum Prezident, Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Respublikası və Çin Xalq Respublikası münasibətləri mərhələsi. Bu dövr 1994-2003-cü illəri əhatə edir. Bu zaman kəsiyi artıq əsası qoyulmuş həm diplomatik əlaqələrin, həm də yeni-yeni təməlləri atılmaqda olan müxtəlif sahələr üzrə əməkdaşlıqların möhkəmləndirilməsinə xidmət etmişdir. Müstəqil ölkə kimi Çinə ilk rəsmi səfər 1994-cü ilin mart ayında həyata keçirilmişdir. Bu səfər bu günə qədər uğurla davam etdirilən ikitərəfli əlaqələrin genişləndirilməsinə və inkişaf etdirilməsinə mühüm töhfə vermişdir (3, s.17).

2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycan və ÇXR münasibətləri mərhələsi. Bu dövr isə 2005-ci ildən başlayaraq bu günə kimi uğurla və yük-

sələn xətlə inkişaf etdirilməkdədir. Belə ki, Prezident İlham Əliyev tərəfindən 2005, 2015 və 2019-cu illərdə ÇXR-ə 3 dəfə rəsmi səfər təşkil edilmişdir. Bundan əlavə isə müxtəlif zamanlarda 3 dəfə beynəlxalq səviyyəli tədbirlərdə iştirak məqsədilə bu ölkəyə səfərlər olunmuşdur. Çin Xalq Respublikasından isə ölkəmizə 1996, 2004, 2010, 2019-cu illərdə xarici işlər naziri səviyyəsində səfərlər həyata keçirilmişdir (4).

***Əsas hissə***. Çin Xalq Respublikası və Azərbaycan Respublikası qarşılıqlı şəkildə bir-birinin suverenliyini və torpaqlarının toxunulmazlığını tanıyır. BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən olan ÇXR hər zaman Azərbaycanı dəstəkləyən mövqeyini ortaya qoymuşdur. Azərbaycanın da Tibet, Tayvan və Şərqi Türküstan məsələlərində Çinin mövqeyini dəstəkləyən xarici siyasətini qarşı tərəf yüksək qiymətləndirmişdir (5). İki dövlət arasında siyasi, iqtisadi, hərbi və mədəni sahələrdə yüksək səviyyəli ikitərəfli əlaqələr qurulmuşdur. İstərdim ki, sadaladığım mövcud sahələrdəki əlaqələr və onların inkişaf perspektivləri haqqında məlumat verim.

***İqtisadi əlaqələr.*** Azərbaycan-Çin dövlətlərarası əlaqələrində iqtisadi aspekt hər zaman ön planda olmuşdur. Məlumdur ki, Çin özünə aid konflikt situasiyaları istisna olmaqla dünyadakı münaqişələrə adətən müdaxilə etmir, onların həllində rol almır və öz nüfuzunu iqtisadi alətlərlə, "yumşaq güc" üsulları ilə yaymağa çalışır (6).

Yuxarıda 2005-ci ildən sonrakı dövrü Azərbaycan-Çin münasibətlərinin inkişaf və çiçəklənməsi dövrü kimi xarakterizə etmişdik. Məhz bu proseslərin gedişində iqtisadi sahədə uğurların əldə olunmasında 2005-ci ilin 17 mart tarixində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Çində rəsmi dövlət səfərində olduğu zaman Çin Xalq Respublikası və Azərbaycan Respublikası arasında imzalanan Birgə Bəyannamə mühüm rol oynamışdır.Bu bəyannamənin iqtisadi sahədə əməkdaşlığın əhəmiyyətini vurğulayan 4-cü bəndinə əsasən tərəflər neft, neft-kimya sənayesi, yüngül sənaye, maşınqayırma, kənd təsərrüfatı, nəqliyyat, telekommunikasiya və infrastrukturun digər sahələrində hər iki ölkənin müəssisələri arasında bərabərlik və qarşılıqlı fayda əsasında əməkdaşlığın genişləndirilməsini təşviq edir və dəstəkləyirlər (6, bənd 4). Həmçinin mövcud bəyannamənin 6-cı bəndinə görə isə tərəflər arasında Avropa-Qafqaz-Asiya (TRACECA) nəqliyyat dəhlizi layihəsinin inkişafı naminə iki ölkə arasında nəqliyyat və bütün növ yük daşımaları istiqamətində həm regional çərçivədə, həm də ikitərəfli formatda əməkdaşlığın gücləndirilməsinin zərurəti ön plana çəkilmişdir (6, bənd 6). İqtisadi əməkdaşlığın irəliləməsi yolunda digər mühüm sənəd isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 8-11 dekabr tarixlərində Çində rəsmi səfərdə olarkən imzalanan Azərbaycan Respublikası və Çin Xalq Respublikasının dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında Birgə Bəyannamə olmuşdur. Bu bəyannamə çərçivəsində Çin lideri Si Tszinpin tərəfindən 2013-cü ildə irəli sürülən məşhur "Bir kəmər – bir yol" təşəbbüsünə əsasən İpək Yolu İqtisadi kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorondumu imzalanıb (7, bənd 4). Daha sonra iki ölkə arasında iqtisadi əməkdaşlığın uğurlu inkişafının göstəricisi olan digər mühüm hadisə 2019-cu ilin 24-27 aprel tarixlərində baş tutan Prezident İlham Əliyevin başçılıq etdiyi nümayəndə heyətinin ikinci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdşlıq Forumunda iştirak etmək məqsədilə Çinə işgüzar səfər etməsi oldu. Bu forum çərçivəsində Azərbaycan və Çin şirkətləri arasında ümumi dəyəri 821 milyon ABŞ dollar olan müxtəlif istiqamətlər üzrə 10 sənəd imzalanmışdır (8).

Hal-hazırda respublikamızda ticarət, kənd təsərrüfatı, nəqliyyat, kommunikasiya və s. sahələrdə qeydiyyatdan keçən 195 Çin şirkəti fəaliyyət göstərməkdədir (9). Hətta bir sıra iri Çin şirkətləri işğaldan azad olunmuş ərazilərin yenidən qurulması prosesində fəal işrirak etmək niyyətlərini də ortaya qoymuşlar. Nümunə olaraq onu deyə bilərik ki, "Huawey" şirkəti Qarabağ bölgəsində "ağıllı şəhər"lərin yaradılması prosesində fəal iştirak edir (9).

Bütün bunlar hələ son deyil. Əminliklə deyə bilərik ki, qarşıdakı onilliklər Azərbaycan-Çin əlaqələrinin perspektivlərinin carçısıdırlar.

***Siyasi əlaqələr.*** Azərbaycan Respublikası öz xarici siyasətini qurarkən tərəfdaş hesab etdiyi ölkələrin beynəlxalq hüququn əsas prinsiplərindən olan ərazi bütövlüyü və mövcud sərhədlərin toxunulmazlığı prinsiplərinə nə dərəcədə dəstək verdiyinə xüsusi diqqət yetirir. ÇXR də öz növbəsində Şərqi Türküstan və Tibet muxtar bölgələrindəki problemlər və Tayvan məsələsi ilə əlaqədar çox ciddi həssaslıq nümayiş etdirir ə eyni zamanda da özünə tərəfdaş hesab etdiyi ölkələrdən də bu məsələ-

lərdə onun maraqlarına uyğun mövqe nümayiş etdirmələrini istəyir. Vurğuladığımız bu amillər nəzərə alınarsa, ərazi bütövlüyü məsələsində Azərbaycan və Çinin maraqlarının üst-üstə düşdüyünü söyləmək olar. Bu məqamlar öz əksini beynəlxalq əhəmiyyətli sənədlər hesab olunan məlum 2005-ci il birgə Bəyannaməsinin 9 və 11-ci bəndlərində, 2015-ci il Bəyannaməsinin isə 2-ci və 6-cı bəndlərində tapmışdır. 2005-cil Bəyannaməsinin 9-cu bəndinə əsasən Azərbaycan tərəfi təsdiq edir ki, ÇXR Çini təmsil edən yeganə qanuni dövlətdir, Tayvan isə onun ayrılmaz hissəsidir. Azərbaycan tərəfi Tayvanla hər hansı formada rəsmi münasibətlər qurmayacaq, onunla hər hansı rəsmi xarakterli təmaslarda olmamağa sadiq qalacaqdır. Bir sözlə, Azərbaycan Respublikası ümumilikdə Asiaya-Sakit Okean regionunda sülhün və əmin-amanlığın təmin edilməsi və möhkəmləndirilməsində Çinin səylərini dəstəklədiyini ortaya qoyur (6, bənd 9). 11-ci maddədə isə Çin tərəfi də öz növbəsində Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə dəstək verdiyini təsdiqləyir, dünya birliyini BMT Təhlükəsizlik Şurasının Dağlıq Qaarabağ münaqişəsinə dair qətnamələrinə əməl edilməsinə çağırır (7, bənd 11). 2015-ci il Bəyannaməsinin 2 və 6-cı bəndləri də eyni ilə 2005-ci il Bəyannaməsindəki mövcud məsələlərlə bağlı tərəflərin qəti mövqeyini yenidən sərgiləyir.

Azərbaycan-Çin siyasi ələqələrinin inkisafında parlamentlərarası əlaqələrin də mühüm rolu vardır. Azərbaycan Respublikası Milli Məclisində 1997-ci ildən Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir.

***Hərbi sahədə əməkdaşlıq.*** Məlumdur ki, son illər ərzində Çin Hərbi Sənaye Kompleksi sürətlə inkişaf etməkdədir və dünyada ABŞ-dan sonra ən müasir 5-ci nəsil qırıcılara sahib ikinci ölkədir (10). Çinin öz hərbi texnikalarını modernləşdirməsi sahəsində əldə etdiyi ciddi irəliləyişlər Azərbaycanı da öz müttəfiqinin hərbi nailiyyətlərindən yararlanmağa sövq etmişdir. Hal-hazırda respublikamız Çinin istehsal etdiyi hipersəs təyyarə, süni intellekt sistemləri, lazer silahları, relsli aparatlar və s. kimi müasir silahların alıcıları sırasındadır (10). Hərbi sahədə əməkdşlıq mütamadi olaraq qarşılıqlı səfərlərin həyata keçirilməsi, hərbi-texniki və hərbi təhsil sahələrində təcrübə mübadilələrinin aparılması ilə müşayiət olunmaqdadır. Hərbi təhsil sahəsində bu gün iki dövlət arasında əlaqələr yüksək səviyyədədir. Bu sahədə əldə olunan razılaşmaya əsasən Azərbaycan Ordusunun nümayəndələri vaxtaşırı Çinin "Yüksən strateji komandanlıq" kursunda rusdilli qupların tərkibində təhsil almaqdadırlar. Kursda iştirak yüksək hərbi bacarıqlara yiyələnməklə yanaşı, kurs iştirakçılarına Çinin tarixi, hərbi sahədəki yenilikləri, elmi-tədqiqat mərkəzləri, hərbi sənaye kompleksləri haqda məlumatların əldə edilməsi, hərbi hissələrə, hərbi tədris müəssisələrinə, muzeylərə təşkil olunan gəzinti və ekskursiyalar baxımından da çox böyük əhəmiyyət kəsb etmişdir (11).

***Mədəniyyət sahəsində əməkdaşlıq.*** Azərbaycan Respublikası və Çin arasındakı mədəni əlaqələrinin qədimliyi tarixin dərinliklərinə qədər uzanır. Müasir dövrdə müstəqilliyimizi əldə etdikdən sonra isə bu münasibətlər forma və məzmun cəhətdən yeni bir mərhələyə qədəm qoymuşdur. Çin müasir dövrdə dünyada öz nüfuzunu zorakı üsullarla deyil, "yumşaq güc" hesabına yaymağa çalışır. Bu "güc"ün əsas aləti isə Konfutsi institutlarıdır. Dövlət tərəfindən yaradılmış bu qeyri-kommersiya təşkilatının əsas məqsədi dünyada Çin dilini və mədəniyyətini yaymaq və məşhurlaşdırmaqdır (12). Hazırda ölkəmizdə 2011-ci ildə BDU-da və 2016-cı ildə ADU-da yaradılan 2 Konfutsi institutu fəaliyyət göstərməkdədir. Mədəni əlaqələrdən danışarkən iki ölkə arasındakı təhsil sahəsindəki münasibətlərə toxunmamaq düzgün olmazdı. BDU-da 1997-ci ildən Şərqşünaslıq fakültəsində Çin dili ixtisası fəaliyyət göstərməkdədir, 2002-ci ildə ÇXR Təhsil Nazirliyinin dəvəti ilə Azərbaycan Respublikası təhsil Nazirliyinin nümayəndə heyətinin Çinə səfəri zamanı imzalanmış əməkdaşlıq haqqında sazişə əsasən ikitərəfli tələbə mübadilləsi həyata keçirilməkdədir (4).

***Nəticə.*** Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında diplomatik əlaqələrin qurulmasından 30 ildən artıq zaman keçmişdir. Bu müddət ərzində də Azərbaycan-Çin əlaqələri daim proqressiv inkişaf xətti izləmişdir. Diplomatik münasibətlər iki ölkə arasındakı çoxistiqamətli qarşılıqlı münasibətlərin inkişafı fonunda daha da möhkəmlənmiş və əminliklə deyə bilərik ki, gələcəkdə də dayanıqlı əsaslar üzərində inkişaf edəcəkdir.

Tarixin müəyyən dönəmlərində beynəlxalq vəziyyətin qeyri-sabit olmasına baxmayaraq Azərbaycan Respublikası və ÇXR hər zaman bir-birlərini dəstəkləmiş, bir-birlərinin ərazi bütövlüyü və suverenliyinə hörmətlə yanaşmışlar. Bu gün ölkələrimizi hər sahədə əsl strateji tərəfdaş hesab edə bilərik. Azərbaycan Respublikası "vahid Çin" prinsipinə hər zaman sadiqdir, Çinin daxili işlərinə

qarşı həyata keçirilə biləcək hər hansı bir müdaxilənin, ölkə daxilində ola biləcək ərazi ayrılmalarının qəti əleyhinədir. ÇXR də öz növbəsində ölkəmizin bu mövqeyini yüksək qiymətləndirir və eyni yanaşmanı da bizə qarşı sərgiləməkdədir, beynəlxalq hüququn əsas norma və prinsiplərini qorumaq, regionda və dünyada sülhü və stabilliyi qorumaq üçün bizimlə əməkdaşlığa hər zaman hazırdır.

## ƏDƏBİYYAT

1. Ümumi tarix. 6-cı sinif üçün dərslik. Bakı, "Aspoliqraf LTD" MMC, 2017, 128 s.
2. Azərbaycan Respublikasının Çin Xalq Respublikasında səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı. Bakı şəhəri, 3 sentyabr 1993-cü il № 696.
3. Rafiq Abbasov. Heydər Əliyev və Çin. Bakı, "Mütərcim", 2021, 224 s.
4. Şahin Cəfərli. Azərbaycan- Çin əlaqələri/ Baku Research İnstitute, 12 sentyabr 2020. - https://bakuresearchinstitute.org/azerbaijan-china-relations/ [Müraciət tarixi: 11.04.2023].
5. Azərbaycan-Çin münasibətləri/ "Heydər Əliyev İrsi" Beynəlxalq Elektron Kitabxana, 2020-ci ilin mayında yenilənib. - https://lib.aliyevheritage.org / [Müraciət tarixi: 11.04.2023].
6. Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında Birgə Bəyannamənin təsdiq edilməsi haqqında Azərbaycan Respubliaksının qanunu. Bakı şəhəri, 14 iyun 2005-ci il № 928-IIQ (Bəyannamə 2005-ci il martın 17-də imzalanmışdır).
7. "Azərbaycan Respublikası və Çin Xalq Respublikasının dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında" Birgə Bəyannamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 1 fevral 2016-cı il № 113-VQ (Bəyannamə 2015-ci il dekabrın 10-da imzalanmışdır).
8. Azərbaycan və Çin şirkətəri 821 milyon dollarlıq sənədlər imzalayıb/ report.az, 24 aprel 2019-cu il. - https://report.az/biznes-xeberleri/azerbaycan-ve-cin-sirketleri-821-milyon-dollarliq-senedler-imzalayib/ [Müraciət tarixi: 11.04.2023].
9. Seymur Mammadov. Azerbaijan-China: 30 years of cooperation that can become an example for the world/ chinadaily.com.cn / 2 aprel 2022-ci il. - https://www.chinadaily.com.cn/a/202204/02/WS62484315a310fd2b29e54ead.html/ [Müraciət tarixi: 11.04.2023]
10. Ədalət Verdiyev. Strateji səfər: Azərbaycan-Çin hərbi-texniki əməkdaşlığı nələr vəd edir? – ANALİZ / ordu.az. - https://ordu.az/az/news/131310/strateji-sefer--azerbaycan-cin-herbi-texniki-emekdasligi-neler-ved-edir-%E2%80%93-analiz-/ [Müraciət tarixi: 11.04.2023]
11. Yaşar Kərimov. Azərbaycan-Çin əlaqələrində yeni mərhələ / mod.gov.az / 12 yanvar 2019-cu il. - https://mod.gov.az/az/pre/25450.html / [Müraciət tarixi: 11.04.2023].
12. Walk into the Confucius Institute / https://www.cief.org.cn/kzxy https://www.cief.org.cn/zjkzxy / [Müraciət tarixi: 11.04.2023].

**СЕВИНДЖ НАСИРОВА**
*Национальный Музей Истории Азербайджана, доктор философии по истории*

**АНАРА МАМЕДОВА**
*Выпускница бакалавриата Бакинского Государственного Университета,*
*Выпускница магистратуры Академии государственного управления*
*при Президенте Азербайджанской Республики*

# ОТНОШЕНИЯ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И КИТАЙСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКОЙ, ПЕРСПЕКТИВЫ НА БУДУЩЕЕ

В этой статье исследованы взаимоотношения и многостороннее сотрудничество между Азербайджанской Республикой и Китайской Народной Республикой (КНР) после восстановления нашей независимости ссылаясь на источники. Официальные отношения между двумя странами начались 27 декабря 1991 года, то есть когда Китайская Народная Республика офи-

циально признала независимость Азербайджанской Республики, и по сей день успешно продолжаются на фоне дальновидных, многообещающих взаимных отношений и сотрудничества. Во многих сферах взаимоотношений между странами достигнуты прочные и устойчивые основы. Известно, что Китай становится гегемонистским государством в нынешнем регионе с политической и экономической точек зрения. Поступательные и стабильные взаимоотношения с таким надежным партнером, как Китай, принесут определенные преимущества нашей республике, а сам этот процесс внесет большой вклад в систему международных отношений в целом.

*Ключевые слова*: Азербайджанская Республика, Китайская Народная Республика, Баку, Пекин, взаимное сотрудничество, многосторонние отношения.

**SEVINJ NASIROVA**
*National Museum of History of Azerbaijan, doctor of philosophy in history*

**ANARA MAMMADOVA**
*Bachelor graduate of Baku State University,*
*Master's graduate of the Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan*

## RELATIONS BETWEEN THE REPUBLIC OF AZERBAIJAN AND THE PEOPLE'S REPUBLIC OF CHINA, FUTURE PROSPECTS

In this article, mutual relations and multilateral cooperation between the Republic of Azerbaijan and the People's Republic of China (PRC) after regaining our independence have been tried to be investigated by referring to the sources. Official relations between the two countries began on December 27, 1991, that is, when the People's Republic of China officially recognized the independence of the Republic of Azerbaijan, and to this day it is successfully continued on the background of forward-looking, future-promising mutual relations and cooperation. Stable and sustainable foundations have been achieved in many spheres of mutual relations between the countries. It is known that China is becoming a powerful state with in the current region on a political and economic point of view. Progressive and stable mutual relations with a reliable partner like China will bring certain advantages to our republic, and this process itself will greatly contribute to the international relations system as a whole.

*Keywords*: Republic of Azerbaijan, People's Republic of China, Baku, Beijing, mutual cooperation, multilateral relations.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 11 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Rəyçilər: s.e.d. Adil Mirabdullayev, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 94**

**GÜNAY QULİYEVA**
*Azərbaycan Dövlət Aqrar Universiteti*
**gunkakuliyeva@yahoo.com**

# 1950-1980-Cİ İLLƏRDƏ TÜRKİYƏ-İRAN ARASINDA İCTİMAİ-MƏDƏNİ ƏLAQƏLƏR

*Tarixin bütün dövrlərində Türkiyə ilə İran arasında sosial və mədəni əlaqələri görə bilərik. Mədəni əlaqələr xüsusilə bu ölkələr arasında tələbə mübadiləsində özünü göstərirdi. Elmi sahədəki fəaliyyətlərlə yanaşı, konfranslar, sərgilər bu ölkələrin mədəni əlaqələrini nümayiş etdirir.*

*Açar sözlər*: Türkiyə,İran,mədəni əlaqələr,ictimai əlaqələr.

***Giriş***. İkinci Dünya Müharibəsinə qədər iqtisadi və siyasi münasibətlərə dair anlaşmaların həyata keçirildiyi müddətdə mədəniyyət sahəsində də bir sıra irəliləyişlər müşahidə edilirdi. Türkiyə ilə İran dövləti arasında 1936-cı ildə təhsil və mədəniyyət sahəsində qarşılıqlı əməkdaşlığın artırılması məqsədilə bir anlaşma imzalanmışdı. Bu anlaşmanın maddələri arasında bütün təhsil və yaşama xərcləri ödənilməklə İrandan Türkiyəyə tələbələrin gətirilməsi məsələsi də yer alır. Lakin bu anlaşma maddəsi İran tərəfinin zəruri hüquqi addımları atmaqda gecikməsi səbəbilə uzun müddət həyata keçməmişdi.

Türkiyə Murahhas Heyəti Başkanı Cemal Hüsnü Tarayın bildirdiyinə görə, 3 yanvar 1936-cı ildə baş tutan ikitərəfli görüş zamanı İran tərəfi iki ölkə arasındakı mədəni əlaqələrin inkişafı məqsədilə aşağıdakı maddələr şəklində bildirilən təkliflər etmişdir:

1.İki ölkə universiteləri arasında tələbə mübadiləsi;
2.Türk və İran universitet professorları tərəfindən qarşılıqlı konfransların keçirilməsi;
3.Hər iki ölkədəki arxeoloji qazıntılarda tapılan bəzi qədim əsərlərin mübadiləsi;
4. İki ölkənin tarix, arxeoloji və ədəbiyyat professorları arasında əməkdaşlıq;
5.Hər iki ölkədəki nəşriyyatın mübadiləsi.(1, 420).

Cemal Hüsnü Taray hər iki ölkə arasında baş tuta biləcək mədəniyyət və təhsillə bağlı mövzulara dair təkliflərini İran Maarif nazirliyinə 12 yanvar 1937-ci ildə bir məktubla bildirmişdi.

Taray bu məktubda hər iki ölkə arasında Türk və İran darülfünunlar arasında tələbə mübadiləsi, professorların qarşılıqlı konfranslar keçirməsi, arxeoloji əsərlərin mübadiləsi, tarix, arxeoloji və ədəbiyyat professorları arasında əlaqənin qurulması, müəllif əsərlərinin paylaşılmasının faydalı olacağını, bunun üçün də hər iki ölkənin Maarif nazirlikləri arasında bir anlaşmanın zəruri olduğu vurğulanmışdır. Taray həmin məktubda mövzunu türk maarif nazirliyinə çatdırdığını və nazirlikdən onun özünə açıqlama yazıldığını bildirmişdir. Bu açıqlamaya görə, İrandan göndəriləcək 10 nəfərlik tələbənin Ankaradakı "Dil, Tarix, Coğrafiya Fakültəsinə və İstanbul ədəbiyyat fakültəsinə" qəbul edilə biləcəyi, bu tələbələrin yaşamaq və məişət ehtiyaclarının Nazirlik tərəfindən qarşılanacağı bildirilmişdi. Bundan əlavə, hər iki ölkə arasında professorların qarşılıqlı elmi fəaliyyətdə olması, əsərlərin mübadiləsi, tarix, ədəbiyyat sahələrində əsərlərin paylaşılmasının faydalı olduğu vurğulanmışdı. 24 fevral 1937-ci ildə İran Maarif Naziri Hikmət tərəfindən göndərilən cavab məktubunda mövzunun müzakirə edildiyini hazırlanacaq bir layihə ilə bu prosesin həyata keçirilməsinin faydalı olacağı bildirilmişdir. (2, 473).

31 mart 1937-ci ildə İran maarif nazirliyi adından Vəliullah tərəfindən göndərilən rəsmi məktubda hər iki ölkə arasında reallaşa biləcək əməkdaşlığa aid görüş haqqında məlumat verilmişdi. Buna görə, İranın ölkədən xaricə tələbə göndərmə məsələsində hal-hazırda hər hansı bir razılaşmaya getmədiyi, bu səbəblə tələbə mübadiləsi mövzusunun gələcəkdə mümkün ola biləcəyi, lakin digər mövzularda bildirilən məsələlərdə iştirak edəcəyi bildirilmişdir. Hər iki ölkə arasında inkişaf edən iqtisadi, siyasi və mədəni əməkdaşlıq addımları İkinci Dünya Müharibəsinin başlaması ilə dayandırılmışdı (2, 473-474). İki ölkə arasındakı haqqında danışılan tələbə anlaşması ilə bağlı olaraq 1942-ci ilə qədər hər hansı bir irəliləyiş olmadığı görünür. Lakin bu tarixdən sonra İrandan Türkiyəyə sayları hər il artan tələbənin gəldiyi müəyyən sənədlərdə təsbit edilmişdir. Xüsusilə 1943-cü ilin sonu ilə 1944-cü ilin əvvəllərində və az sayda olsa da 1945-ci ildə Türkiyəyə İrandan çox sayda tələbənin iki ölkə arasındakı anlaşma çərçivəsində gəldiyi görünür.

İranlı tələbələrin Türkiyədəki məktəblərdə oxuması məsələsindəki addımların 1942-ci ildə nəticə verməyə başladığı dövrün Hariciye Vəkili Numan Menemencioğlunun CHP baş katibliyinə yazdığı 31 avqust 1942-ci il tarixli bir yazıdan anlaşılır. Bu yazıda ifadə edildiyinə görə, Tehran səfirliyi iranla mədəni əlaqələrin genişləndirilməsi üçün səfirlik tərəfindən seçiləcək on tələbənin Türkiyədəki lisey və ali məktəblərdə pulsuz oxuya bilmələrinin təmin edilməsini rica etmiş və bu məsələ ilə bağlı lazım olan addımların atılmasını ərz etmişdir. Lakin CHP Baş Katibi adına Zonquldaq millət vəkili H.Türkmen imzası ilə Hariciye Vəkili Numan Menemencioğluna 10 sentyabr 1942-ci ildə göndərilən cavab məktubunda isə: həmin ildəki büdcədə tələbə yardım işləri üçün ayrılan vəsaitin yetərli olmadığından bəhs edərək yalnız iki iranlı tələbənin CHP himayəsində oxutdurula biləcəyi bildirilmişdir. Bu səbəbdən tələbə mövzusunda Tehran səfirliyinin istədiyi qədər kadr ayrılmamış və vəziyyət 10 sentyabr 1942-ci ildə göndərilən bir məktubla Türkiyə Cümhuriyəti Tehran səfirliyinə də bildirilmişdir. Bir müddət sonra Türkiyədə oxutdurula biləcək tələbə sayısındakı qeyri-müəyyənliyin aradan qaldırılması ilə Tehran səfirliyi, Türk Xarici İşlər Nazirliyinə bir məktub göndərmişdi. Bu sənəddə Türkiyədə təhsil alması üçün Rumiye (Urmiya) şəhərində yaşayan və əslən azəri türkərindən olan Yahya Teyidi (Taidi) və Cəlal Hamidinin adları məsul şəxslərə bildirilmişdir. Bundan sonra türk tərəfində rəsmi işlər və zəruri hazırlıqlar yekunlaşmış və qeyd edilən iranlı tələbələr 27 dekabr 1942-ci ildə Rumiyedən Ərzurum üzərindən Ankaraya çatmaq üçün yola çıxmışdılar (1, 422).

1943-cü ilin əvvəllərində Türkiyəyə gətirilən və partiyanın himayəsində Oğlan Tələbə Yurduna yerləşdirilib mühəndislik üzrə təhsil alan Yahya Taidi bir il boyunca dərslərində müvəffəqiyyət qazanıb kursu keçərkən tibb üzrə təhsil alan Celal Hamidi isə imtahanlara girə bilməyib kursda qaldığından ona göstərilən hərcür yardım kəsilmiş və qaldığı yurdla əlaqəsinə 28 noyabr 1943-cü ildə son verilmişdi. (1, 425).

İrandan Türkiyəyə tələbələrin gətirilə bilməsi üçün Türk Xarici İşlər Nazirliyi və Tehran səfirliyi fəaliyyətini 1943-cü ilin sonlarına doğru sürətləndirdilər. Bu fəaliyyətlərin nəticəsi olaraq Türkiyəyə gedəcək tələbə sayında 1944-cü ildə artım olmuşdur. Hariciyə Vəkalətindən CHP Baş katibliyinə göndərilən 27 noyabr 1943-cü il tarixli bir yazıdan məlum olur ki, 1944-cü ildə Türkiyədə pulsuz təhsil almaq üçün İrandan 115 tələbənin gətirilməsi planlaşdırılır. 1944-cü ildə bu tələbələr Tehran səfirliyi ilə əlaqəli bir şəkildə 25 nəfərlik qruplar şəklində Bəsrə-Bağdad-Mosul-Hələb yolu ilə Türkiyəyə getmişdi. Bu dövrdə səyahət üçün müəyyən olunan yollar üzərindəki vilayətlər və Ankaradakı məsul şəxslər lazım olan hər cür hazırlığı görmələri üçün təlimatlandırılmışdılar (1, 425).

İranlı tələbələrin önəmli bir hissəsi dərslərində müvəffəqiyyət qazanıb kursları keçmiş və məzun omuşdular. Lakin bəziləri də ya akademik uğursuzluq, ya da maddi səbəblər üzündən və yaxud da sağlamlıq problemləri səbəbilə Türkiyədəki təhsillərini yarıda qoyaraq İrana qayıtmışdılar (1, 447-448).

Dövrün CHP Zonquldaq millət vəkili H.Türkmenin dediyinə görə, iranlı tələbələrin Türkiyədə oxutdurulmasının siyasi bir hədəfi vardı. Bu səbəblə İrandan gedən tələbələrin dərslərində müvəffəqiyyət qazanaraq məzun olmaları və ölkələrinə qayıtdıqda Türkiyə Cümhuriyətinə dost olaraq dövlətlərinin müxtəlif qurumlarında vəzifə tutmaları istənilirdi. Bundan əlavə, Türkiyəyə gedən tələbələrin içində kifayət qədər İran türkünün olması bu ölkədəki soydaşlarla olan mədəni bağları gücləndirmə cəhdi olaraq da qiymətləndirilə bilər. Bununla yanaşı, dövrün İkinci Dünya Müharibəsi illəri olması və 1941-ci ildə Sovet Rusiyası və İngiltərənin İranı işğal etməsi Türkiyəni bu bölgədən oxşar bir təhlükə ilə qarşı qalma narahatlığına səbəb olmuş və tədbir məqsədilə bəzi addımlar atmağa sövq etmişdi. Bu baxımdan bu tələbələrin Türkiyəyə aparılması ilə daxildə müxtəlif şəkillərdə İran türkləri ilə əlaqələri genişləndirmək hədəf olaraq qarşıya qoyula bilər. Tibb üzrə təhsilini İstanbulda alan və daha sonra məşhur bir həkim olan Cavad Heyət və Hüquq üzrə doktorluğunu İstanbulda tamamlayıb sonralar öz sahəsində olduqca nailiyyət qazanmış Hamit Nutkinin vəziyyəti haqqında əlimizdə olduqca önəmli məlumatlar mövcuddur. Hər ikisi də İranda türkologiya, türk dili və mədəniyyəti sahəsində dünyada məşhur olan araşdırmalar aparmış, Varlıq jurnalının nəşr olunmasında əmək sərf etmiş və Türkiyə ilə İran türkləri arasındakı əlaqələrin inkişafına böyük töhfə vermişlər. Bu iki nümunə illər əvvəl Türkiyəyə aparılan iranlı tələbələrə dair hədəflərin qismən də olsa həyata keçdiyi şəklində qiymətləndirilə bilər (1, 448).

14 may 1950-ci ildə Demokratik Partiyanın hakimiyyətə gəlməsi ilə İranda Türkiyədəki prosesləri nümunə götürən qəzetlərdə müəyyən yazıların yazıldığı müşahidə edilmiş, hökümətlər arasında əməkdaşlığın inkişafı və genişləndirilməsi məqsədilə addımlar atılmışdır. Mədəniyyət sahəsində əməkdaşlıq etmək və inkişaf etdirmək və təhsil sahəsində mücadilə üçün heyətlər yaratmaq məsələsində müəyyən qərarlar alınmışdır. Lakin İranda Şah müxalifətçilərin təzyiqi qarşısında Baş Nazir olaraq Müsəddiqi təyin etmək məcburiyyətində qalmış, bu mərhələdəki hərəkətlər Şah və Müsəddiq arasındakı gərginliyə səbəb olmuşdur. Müsəddiqin xüsusilə neftlə bağlı milliləşdirmə istiqamətində müdaxilələri və islahatlar həyata keçirtmə cəhdləri İranın daha çox daxili siyasətə yönəlməsinə səbəb olmuşdur. İranda yaşanan bu daxili siyasət mücadiləsi 1953-cü ildə hərbi müdaxilə ilə nəticələnmiş və Şah bu yeni dövrdə ABŞ yönümlü siyasətə qayıtmışdır. Türkiyədə 1950-ci il seçkilərlə hakimiyyətə gəlmiş Demokrat Partiyasının lideri Adnan Menderes və prezident Celal Bayarın müsbət yanaşması və İranın göstərdiyi isti münasibət iki ölkə arasındakı münasibətlərin gərginləşməsinə mane olmuşdur (2,474).

1970-1971-ci tədris ilində Türkiyədə 1133 iranlı tələbə təhsil alırdı (3, 49).

1970-ci ildə dörd iranlı müxbir Türkiyəni və səkkiz türk müxbir İranı ziyarət etdi (3, 49).

1970-ci ilin iyun ayında Cənab Nasir Üveysi mədəniyyət proqramları çərçivəsində Ankarada öz əsərlərindən ibarət sərgi təşkil etdi və bu, Türkiyənin Baş Naziri vasitəsilə açıldı və çox yaxşı qarşılandı (3, 49).

Türkiyə iranşünasları Məşhəd və Pəhləvi Universitetlərində təşkil olunmuş bayram tədbirlərində iştirak etdilər. Cənab Əbdülqadir Karahan İstanbul Universitetinə Türk dili və ədəbiyyatı kafedrasının professoru Məşhəd univeristetinin dəvəti ilə Şeyx Tusinin minillik yubileyi tədbirində iştirak etdi (3, 49).

Türkiyənin məşhur iranşünaslarından olan və Hafizi türk dilinə tərcümə etmiş Rüştü Şardağ İnformasiya Nazirliyinin dəvətilə İranı ziyarət etmişdi. Mərkəzi Peyman Təşkilatının texniki əməkdaşlığı və regional abadlaşdırma əməkdaşlığı proqramları çərçivəsində iki ölkənin mütəxəssislərindən ibarət bir neçə qrup kənd təsərrüfatı, suvarma təsisatları sahəsində İran və Türkiyənin müxtəlif müəssisələrini gəzmiş və bu sahələrlə bağlı araşdırmalar aparmışlar. Şah dövləti 1970-ci il oktyabr ayının 16-dan bir həftə müddətində Ankarada Türkiyənin Mədəniyyət Nazirliyinin incəsənət qalereyasında keçirilmiş beynəlxalq uşaq kitabı sərgisində iştirak etdi. 1970-ci il ərzində İran filmləri İran mədəniyyət evlərində nümayiş edildi və arzu edənlər üçün fars dili dərsləri təşkil edildi (3, 50).

1970-ci ilin iyul ayının 17-də İran sənətkarlarından ibarət 27 nəfərlik bir qrup Bursa şəhərindəki festivalda iştirak etmək üçün Türkiyəyə ezam edildi (3, 51).

İran dövləti tərəfindən Türk dövlətinə verilən bursların sayı aşağıdakılardır:

- Tehran Universiteti tərəfindən iki burs;
- Şirazın Pəhləvi universiteti tərəfindən iki burs;
- Qondişapur universiteti tərəfindən iki burs;
- Mədəniyyət nazirliyi tərəfindən iki burs.

1970-ci ildə 12 burs Türkiyə dövləti tərəfindən İran dövlətinə verilmişdi.

1970-ci ilin ilk on ayında 697 cild kitab və 2139 nüsxə müxtəlif elmi və ədəbi jurnal, 1405 müxtəlif broşüralar və farsdilli şairlərin kitablarından 26 nüsxə professorlar, elm və mədəniyyət xadimləri və habelə Türkiyənin məşhur kitabxanaları arasında paylandı. Antaliyada keçirilən CENTO ölkələrinin filmləri festivalında İran filmləri də iştirak edirdi (3, 53).

Mərhum professor Necati Hüsnü Luqalın ildönümü münasibətilə 15 may tarixində Ankarada İranın mədəniyyət evində anım mərasimi keçirildi. Mərhum professor məşhur iranşünaslardan idi və uzun illər Ankara, Bon, Hamburq və Frankfurt universitelərində fars dili və ədəbiyyatı kafedrasına rəhbərlik etmişdi və Firdovsinin Şahnamə əsəri də bu professor tərəfindən türk dilinə tərcümə edilmişdi (3, 53).

1971-ci il iki ölkə arasında mədəni və ictimai münasibətlərin inkişafı baxımından önəmlidir. Bu ildə Türkiyənin bir neçə elm və mədəniyyət xadimi İrana getmişdir:

- iranşünasların konqresində və şahənşah bayram mərasimlərində iştirak etmək məqsədilə 13 nəfər türk iranşünas və professorun səfəri;
- Hafiz konqresində iştirak etmək üçün məşhur türk iranşünası və Hafizin divanının tərcüməçisi Rüştü Şardağın 1971-ci ilin aprel ayında səfəri;

- 1971-ci ilin 29 oktyabr ayında İstanbul Tibb fakültəsinin dekanı Səfa Karatayın səfəri;
- Ankara ədəbiyyat fakültəsinin dosenti Yaşar Yucelin səfəri;
- İstanbul universitetinin professoru doktor Versanın səfəri.

və qarşılıqlı olaraq Tehran universitetinin professoru Cəmal Rezayi Türkiyəyə səfər etmişdi.

1971-ci ildə Türkiyədən iki futbol komandası Aryamehr və Kir kubok yarışlarında iştirak etmək üçün İrana səfər etdilər və iran çempionlarından üç nəfər beynəlxalq qılıncoynatma yarışlarında iştirak və İran tenisçilərindən bir neçə nəfər yarışlarda iştirak etmək üçün Türkiyə tenisçilərinin dəvətilə Ankaraya getdilər.

Həmin ildə İran mədəniyyəti və incəsənətini təqdim etmək üçün 11 müxtəlif tədbirlər təşkil olundu ki, onlardan ən əhəmiyyətliləri aşağıdakılardır:

- Şair və türk iranşünası Şardağ tərəfindən Hafizin divanının tərcüməsi və çap edilməsi münasibətilə İranın mədəniyyət evində qonaqlıq və təşəkkür medalının təqdim edilmə məclisi;
- İran və türk qadınlarının dostluq və mədəniyyət cəmiyyətinin iclası və professor Məlihe Əmbarcioğlunun mədəniyyətin genişlənməsi və yayılmasında qızların rolu haqqında nitqi (4, 77);
- Mədəniyyət evində qonaqlıq və İstanbul universitetinin professoru Karanın Firdovsi və Şahnamə nöqteyi-nəzərindən qədim İran tarixi haqqında çıxışı;
- Ankara ilahiyyat fakültəsinin dosenti Bəhriye Uçukun İranın tarix və ədəbiyyatında rolu çıxışı;
- Savadsızlıqla mübarizə günü münasibətilə şahlıq səfirliyində nitq və ziyafət məclisi (4, 78).

Bu il ərzində 987 cild kitab, 2366 nüsxə müxtəlif jurnal, 265 nüsxə broşüra və poster və sairə Türkiyənin elm və mədəniyyət xadimləri, iranşünasları və kitabxanalar arasında paylanmışdır. Ankarada tərtib olunan beynəlxalq uşaq sərgisində 300-dən artıq İranda çap olunmuş uşaq kitab və jurnalları sərgiyə çıxarılmışdır (4, 78).

1972-ci ildə iki ölkənin mədəni əlaqələrinin əvvəlkindən daha çox genişləndirilməsi və inkişaf etməsi üçün atılmış ən vacib addımlardan biri İran və Türkiyə müştərək mədəniyyət komissiyasının təşkil edilməsi və iki ölkə arasında illik mədəni mübadilələr proqramının təsdiq edilməsi oldu. 28 iyun 1972-ci il tarixində Türkiyənin ilk mədəniyyət heyəti bu ölkənin Xarici İşlər Nazirliyinin Mədəniyyət işləri üzrə müdirinin rəhbərliyi ilə İrana səfər etdi. Bu heyət İran heyəti ilə birlikdə İran və Türkiyə müştərək komissiyasının ilk iclasını keçirtdilər və 30 iyun 1972-ci ildə iki ölkədə fars və türk dillərinin tədrisi işində qarşılıqlı asanlaşmaların yaradılması, universitetlər arasında müəllim mübadiləsi imkanlarının nəzərdən keçirilməsi və hər iki dövlətin burs sayının artırılması, dərslik və elmi nəşrlərin mübadiləsi, incəsənət və mədəniyyət sahələrində sərgilərin təşkil edilməsi, konfranslarda çıxış etmək üçün alimlər və səfirlərin çıxış etməsi üçün imkanların yaradılması, jurnalist mübadiləsi, sənət qruplarının mübadiləsi, iki ölkədən birində təşkil olunan kino festivallarında çıxış etmək və elmi araşdırmaların aparılması ilə bağlı olan maddələri əhatə edən iki ölkənin mədəniyyət mübadilələri proqramını təsdiq etdilər (5, 40).

1972-ci ilin noyabr ayının 21-də Xanım Fəridə Diba Türkiyənin Xarici İşlər Nazirinin xahişi ilə on iki günlük rəsmi səfər üçün Ankaraya getdi və bu səfər ərzində Ankara, Konya, İzmir və İstanbul şəhərlərində muzeylər, abidələr, mədəniyyət və xeyriyyə müəssisələrini ziyarət etdi və bir sıra ziyafətlərdə iştirak etdi (5, 40).

Türkiyənin Təhsil Nazirliyi tərəfindən İran Şahlığının 2500 illiyi münasibətilə keçirilmiş inşa müsabiqəsinin birinci və ikinci yer qalibləri 1972-ci ilin avqust ayında İrana səfər etdilər və Tehran, İsfahan, Şiraz şəhərlərini ziyarət etdilər (5, 40).

1972-ci ilin avqust ayında Tehran universitetinin professorlarından biri İstanbulda təşkil olunan Orta və Yaxın Şərq Tibb konqresində iştirak etmək məqsədilə Türkiyəyə səfər etdi. Noyabr ayında Ankara universitetinin professorlarından biri Mədəniyyət və İncəsənət nazirliyinin dəvətilə İrana getdi və İranın tarix və mədəniyyət konqresində iştirak etdi (5, 40).

Məşhur türk sənətkarlarından bir qrup Şirazın incəsənət bayramı komitəsinin dəvəti ilə İrana səfər etdi və Şirazın altıncı sənət bayramında iştirak etdi. 1972-ci ilin sentyabr ayında türk jurnalistlərindən dörd nəfər İrana səfər etdi və Tehranda mətbuat müəssisələrini ziyarət edərkən İsfahan və Şiraz şəhərlərinə də səfər etdilər. Bu heyətin səfəri ilə yanaşı iranlı jurnalistlərdən dörd nəfər də Türkiyəyə səfər etmiş və Konya, İstanbul və Ankara şəhərlərini ziyarət etmişlər (5, 41).

Mərkəzi Peyman Təşkilatının dəvəti ilə cənab Huşəng Nəhavəndi Tehran universitetinin rektoru 1972-ci ilin fevral ayında Ankaraya səfər etdi. Rektor bu səfər zamanı Ankaranın mədəniyyət və elm sahələrini ziyarət etdi.

İdman görüşləri çərçivəsində 1972-ci ildə iki velosipedçi komanda – Şah silahlı qüvvələrinin sərbəst güləş komandası – yüngül atletika və futbol komandaları və tenis komandası yarışlarda iştirak etmək üçün Türkiyəyə səfər etdilər (5, 41).

1974-cü ilin aprel ayında Ankaranın incəsənət qurultayında Türkiyə prezidentinin həyat yoldaşı tərəfindən İran şahının həyat yoldaşının rəsm əsərlərindən ibarət xüsusi sərgisi keçirildi. Bu sərgi bir həftə müddətində, həmin ilin may ayında İstanbul şəhərində təşkil olundu.

27 aprel 1974-cü ildə türk iranşünas alim professor Əli Gəncəli və iki türk alim Şirazda Sübəveyhinin anım konqresində iştirak etmək məqsədilə İrana səfər etdi.

Cənab Səmin Bağçaban İran bəstəkarı hər il iyun ayının üçündən iyul ayının 24-ə qədər Türkiyədə keçirilən Moral beynəlxalq musiqi festivalında iştirak etdi.

Cənab Huşəng Nəhavəndi Tehran universitetinin rektoru 29 iyun 1974-cü ildə Tehran universitetinin təlim və araşdırma müavini ilə birlikdə İran və Türkiyə universitet rəhbərlərinin daimi komitə iclaslarında iştirak etmək üçün Ankaraya getdi (6, 40).

Cənab Nəhavəndi bir dəfə də Hacət Təpə universitetinin rəsmi dəvətilə 1974-cü ilin fevral ayının 2-də Ankaraya getdi. Tehran universitetinin rektoru bu səfərdə Hacət Təpə universiteti tərəfindən fəxri doktor adına layiq görüldü (6, 40).

20 sentyabr 1974-cü ildə Türkiyə fəhlələr nümayəndə heyəti iki günlük qalmaq və İran fəhlələrinin fəaliyyətlərini müşahidə etmək üçün Tehrana səfər etdi.

1974-cü ildə İran universitetlərinin tələbələrindən ibarət yeddi qrup və Xarəzm mədəniyyət qrupunun ən yaxşı şagirdlərindən ibarət bir qrup Türkiyəni görmək məqsədilə o ölkəyə səfər etdi. Bu arada Türkiyə professorlarından bir qrup tarixi abidələri görmək məqsədilə İrana səfər etdi.

Türkiyə mühəndisləri və yollar məntəqə rəislərindən ibarət dörd nəfərlik bir heyət 5 noyabr 1974-cü ildə İranda yolların, tunel və körpülərin tikintisində tətbiq olunan müasir üsullarla tanış olmaq və ölkənin yol salma fəaliyyətlərini görmək və zəruri təlimlər keçmək məqsədilə on günlük İrana səfər etdi (6, 40).

İnformasiya və turizm nazirliyi 1974-cü ilin dekabr ayının 20-dən 26-a qədər İstanbulda keçirilən Səyahət Agentliklər İttifaqlarının Dünya Federasiyasının illik konqresində iştirak etdilər. İranın inkişafını və turizm mərkəzlərini tanıtmaq üçün təşkil olunmuş İran guşəsi xüsusi medalla təltif olundu (6, 41).

İran 15 oktyabr 1974-cü ildə bir həftə müddətində Ankarada keçirilən beynəlxalq uşaq rəsm əsərləri sərgisində iştirak etdi və beş itanlı uşağa aid beş əsər iki qızıl, iki gümüş və bir bürünc mükafata layiq görüldü (6, 41).

İran 1974-cü ilin noyabr ayında Ankarada keçirilən 28-ci beynəlxalq uşaq kitabları sərgisində iştirak etdi (6, 41).

***Nəticə***. Yuxarıda deyilənlər belə nəticəyə gəlməyə əsas verir ki, Türkiyə və İran arasındakı əlaqələr necə olursa olsun iki qardaş və qonşu millət arasında mədəni münasibətlər, demək olar ki, öz axarı ilə davam etmişdir. Şübhəsiz, iki ölkə arasındakı ictimai və mədəni münasibətlərin inkişafında əsas rolu məhz iki millətin bir-birinə yaxın mədəniyyətləri, adət-ənənələri və tarixi oynamışdır.

## ƏDƏBİYYAT

1.Barış Metin. Türkiyede Burslu Olarak okuyan İranlı Öğrenciler (1934-1950). 417-452, Cumhuriyet Tarihi Araştırmaları Dergisi, Yıl 15, sayı 30, 2019.

2.İbrahim Erdal. 1950-1980 Dönemi Türk-İran ilişkileri bağlamında kurulan Dostluk Cemiyetleri. 471-480, Genel Türk Tarihi Araştırmaları Dergisi, cilt 2, sayı 4, 2020.

3. روابط خارجی ایران در سال ۱۳۴۹، گزارش سالیانه وزارت امور خارجه. چاپ کیهان، ۳۲۸ ص.

4. روابط خارجی ایران در سال ۱۳۵۰، گزارش سالیانه وزارت امور خارجه. چاپ کیهان، ٤۲٦ ص.

5. روابط خارجی ایران در سال ۱۳۵۱، گزارش سالیانه وزارت امور خارجه. چاپ کیهان، ۲۹۲ ص.

6. روابط خارجی ایران در سال ۱۳۵۳، گزارش سالیانه وزارت امور خارجه. چاپ کیهان، ۳۱۹ ص.

**ГЮНАЙ ГУЛИЕВА**
*Азербайджанский Государственный Аграрный Университет*

## СОЦИАЛЬНО-КУЛЬТУРНЫЕ ОТНОШЕНИЯ ТУРЦИИ И ИРАНА В 50-80-Е ГГ.

Мы можем видеть социальные и культурные отношения между Турцией и Ираном во все периоды истории. Культурные отношения особенно имели место в обмене студентами между этими странами. Помимо деятельности в научной сфере, конференции, выставки иллюстрируют культурные связи этих стран.

*Ключевые слова*: Турция, Иран, культурные отношения, социальные отношения.

**GUNAY GULIYEVA**
*Azerbaijan State Agrarian University*

## SOCIAL AND CULTURAL RELATIONSHIPS BETWEEN TURKEY AND IRAN IN 50-80$^{th}$ YEARS

We can see the social and cultural relationships between Turkey and Iran in all periods of history. The cultural relationships especially took place in student exchange between these countries. Besides the activities in the scientific spheres, conferences, exhibitions illustrate the cultural relationships of these countries.

*Keywords*: Turkey, Iran, cultural relationships, social relationships.

*Məqalənin redaksiyaya daxil olduğu tarix:10 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Rəyçilər: t.e.d. Əsməd Muxtarova, t.e.d. İsmayıl Məmmədov.*

UOT 94(479.24); 02

**DAŞQIN MƏHƏMMƏDLİ**
*Bakı Dövlət Universitetinin*
*Kitabxanaçılıq-informasiya fakültəsinin dekan müavini,*
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müəllimi, doktorant*
ORCİD: 0000-0002-6875-8091
**dashqin.muhammedli@mail.ru**

**HACI QASIMLI**
*Bakı Dövlət Universitetinin*
*Kitabxana resursları və informasiya-axtarış sistemləri*
*kafedrasının doktorantı*
ORCİD: 0000-0001-8246-1959
**haci_qasimli@list.ru**

# AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏKİ-ZAQATALA İQTİSADİ REGİONUNUN KİTABXANALARINDA TURİZMƏ DAİR İNFORMASİYA RESURSLARININ SPESİFİK XÜSUSİYYƏTLƏRİ

*Müasir dövrdə turizm inkişaf edən fəaliyyət sahələrindən biridir. Ona görə də respublikanın kitabxana-informasiya müəssisələrində turizmlə bağlı mövcud informasiya ehtiyatlarından istifadə bilavasitə bu sahədə çalışan informasiya istifadəçilərinə xidmət edir. Məqalədə Azərbaycanın iqtisadi rayonlarından: Şəki-Zaqataladan mövcud olan kitabxana-informasiya müəssisələri haqqında məlumat verilmiş, onların fondlarında olan turizm informasiya ehtiyatları hərtərəfli öyrənilmişdir. İqtisadi rayon olan Şəki-Zaqatala inzibati rayonlarının mərkəzləşdirilmiş kitabxana sistemlərinin ölkənin ümumi kitabxana-informasiya şəbəkəsi sistemindəki yeri və rolu da müqayisəli şəkildə öyrənilmişdir.*

*Açar sözlər*: Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionu, kitabxana, regional kitabxana şəbəkəsi, informasiya tələbatı, turizm, sənəd axını, diyarşünaslıq fondları.

***Giriş.*** Azərbaycan Respublikasının iqtisadi regionları sırasında özünəməxsus spesifik tarixi ənənələrə malik olan Şəki-Zaqatala iqtisadi regionunun tərkibinə daxil olan Qəbələ, Şəki, Qax, Oğuz, Zaqatala və Balakən inzibati rayonlarının kitabxana-informasiya infastrukturu sistemində də quruluşuna, tematikasına, məlumat-axtarış aparatının özünəməxsusluğu ilə səciyyələnən zəngin diyarşünaslıq informasiya resurlarına malik diyarşünaslıq ədəbiyyatı fondları mövcuddur. Ölkəmizə gələn turistlərə yüksək standartlara uyğun xidmətin göstərilməsi bir çox faktorlardan asılıdır. Bu baxımdan turizm-ekskursiya işinin təşkilində bələdçilərin, bələdçi-tərcüməçilərin rolunu xüsusi qeyd etmək lazımdır. Turizm sektorunda ekskursiya xidməti mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının multukiltural-mədəni və turizm-iqtisadi baxımdan zəngin resursları ilə səciyyələnən bölgələrindən olan Şəki-Zaqatala iqtisadi regionu Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala, Şəki inzibati rayonlarının ərazisini əhatə etməklə Azərbaycanın şimal-qərbində, Böyük Qafqaz dağlarının cənub yamacında yerləşir. Ərazisinin ümumi sahəsi 8,96 min kv.km (ölkə ərazisinin 10,3 faizi), əhalisinin ümumi sayı531,9 min nəfərdir. İqtisadi regionda 764 kitabxana var. Bu kitabxanalar ölkə üzrə kitabxana resurslarının 9 %-ni əhatə edir. Kitabxanaların 125-i (16,4 %) şəhərdə, 639-u (83,6 %) kənd yerlərindədir. Kitabxana fondunun həcmi 5515558 nüsxədir. Kitabxana mütəxəssislərinin sayı 640 nəfərdir. Onlar ölkə üzrə kitabxana kadr korpusunun 7,3 %-ni təşkil edirlər. Kitabxana işçilərinin 42 nəfəri ali ixtisas, 51 nəfəri ali qeyri-ixtisas, 189 nəfəri orta ixtisas, 155 nəfəri orta qeyri-ixtisas, 203 nəfəri ümumi orta təhsillidir [1].

Respublikada mövcud olan kitabxanaların əsas bazasını sənəd- informasiya resursları təşkil edir. Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionunun kitabxanalarında turizmin təbliği ilə əlaqədar müxtəlif sərgi və guşələrin, məsləhət vitrinlərinin hazırlanması, diyarşünaslıq kartotekasının yaradılması, təqdimat mərasimlərinin keçirilməsi, sual-cavab gecələrinin, söhbətlərin təşkili, konfransların keçirilməsi məqsədəuyğun olardı. Respublikada turizmin inkişafı bu sahə üzrə daha geniş miqyasda ədəbiyyatın yaranmasına səbəb olmuşdur. Turizmin təbliği məqsədilə Azərbaycan, rus, ingilis

dillərində müxtəlif elmi-kütləvi ədəbiyyat, fotoalbomlar, bələdçi kitabçalar, buklet, prospekt, atlas və xəritə-sxemlər (“Azərbaycan”, “Азербайджан”, “Welcome to Sheki”, “Qəbələ”, “Böyük İpək Yolu”, “Azərbaycan turizm regionları”, “Azərbaycan tarix və arxitektura abidələri”, “Qaxın otelləri”, “Şəkinin əyləncə mərkəzləri və restoranları” və s.) nəşr edilmişdir. “Turizm yenilikləri” qəzeti, “Azerbaijan review” jurnalının buraxılması regionun turizm-iqtisadi potensialının öyrənilməsi baxımdan ciddi elmi-kütləvi informasiya əhəmiyyətinə malikdir.

***Əsas hissə.*** Turizmlə əlaqədar olaraq Azərbaycan Şəki-Zaqatala iqtisadi regionunun kitabxanalarında diyarın təbliği məqsədilə guşələrin yaradılması məqsədəuyğun olardı. Belə ki, guşədə əlavə olaraq kartoteka, qəzet, jurnal materialları, tövsiyə ədəbiyyat siyahıları, mövzuya uyğun bir sıra sənədlər və şəkillər də öz əksini tapmalıdır. Guşələrin təşkilində əsas məqsəd turizmin təbliği ilə əlaqədar ədəbiyyatı, diyarı təbliğ etmək, oxucuya axtardığı materialları asanlıqla tapmaqda kömək etməkdən ibarətdir. Şəki-Zaqatala iqtisadi regionunun tərkibinə daxil olan Qəbələ, Şəki, Qax, Oğuz, Zaqatala və Balakən inzibati rayonlarının kitabxana-informasiya müəssisələri haqqında qısa məlumat verək.

***Azərbaycanın Şəki-Zaqatala iqtisadi regionunun kitabxanalarında turizmə dair mövcud olan diyarşünaslıq ədəbiyyatı fondlarının statistikası***




Şəkilin adı altında yazılmalı və rayonlar üzrə faizlər göstərilməlidir! Bəlli deyil, kitabxananın ümumi fondundan, yoxsa turizmə dair ədəbiyyat fondundan söhbət gedir.

Yuxarıdakı dioqramdan göründüyü kimi Azərbaycanın Şəki-Zaqatala iqtisadi regionunun (Şəki-Zaqatala iqtisadi regionu başqa respublikada da var?) kitabxanalarında mövcud olan diyarşünaslıq fondlarının statistikasında turizmə dair ədəbiyyatlar Qəbələ inzibati rayonunun kitabxana-informasiya müəssisələrində 40%, Şəki şəhərinin kitabxana-informasiya müəssisələrində 30%, Qax inzibati rayonunun kitabxana-informasiya müəssisələrində 10%, Oğuz inzibati rayonunun kitabxana-informasiya müəssisələrində 10%, Zaqatala inzibati rayonunun kitabxana-informasiya müəssisələrində 6% və Balakən inzibati rayonunun kitabxana-informasiya müəssisələrində 4% təşkil edir.

***Qəbələ rayon Mərkəzi Kitabxana Sisteminin kitabxanası*** 1930-cu ildə yaradılmışdır. 1977-ci ildən rayonda fəaliyyət göstərən kitabxanalar mərkəzləşdirilərək Qəbələ rayon MKS-i kimi fəaliyyətə başlamışdır."Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının 2.1/5 bəndinin icrasını təmin etmək məqsədi ilə Qəbələ rayon İcra Hakimiyyəti başçısının 01 iyun 2009-cu il 77 saylı sərəncamı ilə rayonda olan 68 kitabxana filial 26 kitabxana filala birləşdirilmişdir. Hazırda MKS - nin tərkibində 1 Mərkəzi,3 şəhər və 23 qəsəbə, kənd kitabxana filialı vardır. Mərkəzi kitabxanada 27 kitabxanacı fəaliyyət göstərir.11 oktyabr 2011-ci ildə Azərbaycan Respubilkası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş

kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu və ştat vahidləri" nin təsdiq edilməsi haqqında 162 saylı Qərarından sonra Qəbələ rayon MKS-nin strukturu və ştat vahidlərində bir sıra dəyişikliklər olmuşdur. Belə ki, mərkəzi kitabxanada olan Vahid fondun təşkili və istifadəsi şöbəsi və avtokitabxana ləğv olunmuş, əvəzində 2 (iki) yeni şöbə yaranmışdır: 1.Kitabxana - biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi. 2 İnformasiya - resurs şöbəsi.

Bələliklə, mərkəzi kitabxanada yeni dəyişikliyə əsasən 2012-ci ilin yanvar ayından 6 (altı) şöbə fəaliyyət göstərir: 1. Oxuculara xidmət şöbəsi; 2. Komplektləşdirmə və kitabişləmə şöbəsi; 3. Metodika və biblioqrafiya şöbəsi; 4. Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi; 5. İnformasiya – resurs şöbəsi; 6. Uşaq şöbəsi. Qəbələ rayon MKS kitabxanasının kitab fondu 165982 nüsxə (83800 nüsxəsi latın qrafikası ilə) təşkil edir. İqtisadi regiona daxil olan Qəbələ inzibati rayonunun Mərkəzləşdirilmiş Kitabxana Sistemində diyara dair aşağıdakı diyarşünaslıq ədəbiyyatı fondları formalaşdırılmışdır:

“Ulu öndər Heydər Əliyev və Qəbələ”, “Qəbələnin tərəqqisinin memarı İlham Əliyev”, “Qədim Qəbələ”, “Qəbələ Qafqaz Albaniyasının paytaxtı”, “Qəbələnin təbiəti”, “Qəbələlilər”, “General Polad Həşimov”, “Qəbələ şəhidləri”, “İsmayıl bəy Qutqaşınlı”, “Gözəl Qəbələ” və s [19]. Beləliklə, Qəbələ inzibati rayonuna dair yuxarıda adları qeyd olunan diyarşünaslıq fondları rayonun kompleks elmi-nəzəri diyarşünaslıq mənbələri rolunu oyanaraq, qədim Qəbələnin keçmişini, bu gününü və gələcəyinə dair təhlilləri işıqlandıran unikal informasiya vasitələrinin kommunikativ keçiricisi rolunda çıxış edir.

***Qax rayonunda ilk kitabxana*** arxiv sənədlərinə əsaslanaraq demək olar ki, 1906-cı ildə “Qiraət koması” şəklində “İçəri bazar” ərazisində o dövrün maarifçi ziyalılarından olan, Tiflisdəki “Zaqafqaziya” qəzetinin Azərbaycan bölməsinin müdiri Həmzət bəy Qəbulov Şirvanskinin evində fəaliyyət göstərmişdir. H.Qəbulov Şirvanski o dövrün mütərəqqi insanlarını da bu işə cəlb etmiş, onların öz hesablarına kitabxanaya kitab almalarını təvəqqe etmişdi. Tarixi mənbələr və araşdırmalar göstərir ki, 1906- cı ildən bu günə qədərki dövrdə ziyalılarımızın səyi ilə yaradılan mədəni-maarif ocaqları olan kitabxanalar ləğv olunmamış, inkişaf etdirilərək bu günkü səviyyəyə çatdırılmışdır. Qaxda kitabxanalar 1920-ci ildən 1945-ci ilədək Xalq Maarif şöbəsinin nəzdində fəaliyyət göstərmişdir. 1945-ci ildə rayonlarda Mədəniyyət şöbələri təşkil edilərkən bütün mədəni-maarif müəssisələri, o cümlədən kitabxanalar mədəniyyət şöbəsinin nəzdinə keçmişdir. 1979-cu ildən Qaxda kitabxanalar Mərkəzləşdirilmiş Kitabxana Sistemi şəklində fəaliyyət göstərməyə başladı. Mərkəzi kitabxana digər kənd kitabxanaları üçün metodik mərkəz rolunu oynayır.1979-cu ildən Mərkəzi kitabxana görkəmli Azərbaycan dramaturqu, şairi və nasiri C.Cabbarlının adını daşıyır. Qax MKS-i 2003, 2005, 2007-ci illərdə ABŞ-nın Azərbaycanda fəaliyyət göstərən Səfirliyi tərəfindən təşkil edilən kitabxana layihələrində iştirak etmişdir. 3 il “Regional Kitabxana Məlumat Mərkəzi”, “Regional Kitabxanaların İnkişafı” Proqramı kitabxanada fəaliyyət göstərmişdir (2005-2008) . Bu zaman kitabxana işçiləri kompüter kursları keçmiş və kompüerdə işləməyi öyrənmişlər. Şəki-Zaqatala iqtisadi regionuna daxil olan Qax inzibati rayonunun Mərkəzləşdirilmiş Kitabxana Sistemində aşağıdakı diyarşünaslıq ədəbiyyatı fondları formalaşdırılmışdır:“Tarixi Qax”, “Ulu öndər Heydər Əliyev və Qax”, “Qaxın müasir inkişafı və Prezident İlham Əliyev”, “Şeyx Şamil”, “Qaxın təbiəti”, “Qaxlılar”, “Qax şəhidləri”, “Qaxın tarixi abidələri”, “İlisu”, “Qax meşələri”, “Qaxın coğrafiyası və iqlimi”, “Qaxın əhalisi” və s [21]. Bu mənbələr Qax inzibati rayonunun tədqiqatçıları, rayona dair lokal informasiya tələbatçıları, rayonun kompleks istiqamətlər üzrə problem və perspektivlərinin elmi-nəzəri problemləri ilə məşğul olan oxucu qrupları üçün əvəzsiz informasiya resursları kimi xüsusi aktuallıq kəsb etməkdədir.

***Şəki şəhər MKS-nin strukturunu*** 1 mərkəzi kitabxana və 64 kitabxana filialı təşkil edir. MKS-nin ümumi kitab fondu 570696 nüsxədir. Onlardan 664 ədədi elektron nəşrlərdir. Oxucuların sayı isə 51 min nəfərdir. Kitab verilişi 834750 nüsxə təşkil edir. İl ərzində MKS üzrə 2053 kütləvi tədbir keçirilmişdir. Hazırda MKS-nin 20 kitabxana filialında multimedia xidməti təşkil olunmuşdur. Şəki şəhərinin mərkəzi kitabxanası 1920-ci ildə ictimai qiraətxana kimi fəaliyyətə başlamışdır. Kitabxana XIX əsrdə mehmanxana kimi inşa olunmuş qədim memarlıq abidəsinin binasında yerləşir. Sahəsi 600 kv/m-dir. 1940-cı ildə bu kitabxanaya XIX əsrin qüdrətli söz ustalarından biri olan İsmayıl bəy Sədrəddinbəyovun (Nakamın) adı verilmişdir. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə

2012-ci ildə bu kitabxanada əsaslı bərpa işləri aparılmışdır. Kitabxana yeni istilik sistemi ilə təchiz olunmuş, müasir avadanlıqlarla təmin edilərək oxucuların istifadəsinə verilmişdir. Mərkəzi kitabxananın 54500 nüsxə kitab fondu vardır. Onlardan 349 nüsxəsi audioviziual sənədlərdir. Kitabxananın 6117 nəfər oxucusu var və onlara 80 mindən yuxarı ədəbiyyat verilmişdir. İl ərzində kitabxanada 200-dən artıq kütləvi tədbir təşkil olunmuşdur.

Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionuna daxil olan Şəki inzibati rayonunun (şəhərinin) Mərkəzləşdirilmiş Kitabxana Sistemində formalaşdırılan aşağıdakı diyarşünaslıq ədəbiyyatı fondları mövcuddur: "Ulu öndər heydər Əliyev və Şəki", "Gözəl diyar Şəki", "Prezident İlham Əliyev və Şəki", "Hacı Çələbi Xan", "Hüseyn xan Müştaq", "Əbdülqəni əfəndi Nuxəvi Xalisəqarızadə", "Mirzə Fətəli Axundov", "Məhəmməd Şakəvi", "Qasım bəy Nəbibbəyov", "Şəki şəhəri xalqımızın elm, maarif və mədəniyyət mərkəzi kimi", "Salman Mümtaz", "Bəxtiyar Vahabzadə", "Sabit Rəhman", "Şəfiqə Axundova", "Yaqub Mahmudov", "Cövdət Hacıyev", "Rasim Ocaqov", "Lütvəli Abdullayev", "İsmayıl Osmanlı", "Şəki Xan Sarayı", "Fuad Əbdürrəhmanov", "Cəlil Hüseynov", "Cəbrayıl Hüseynov", "Məcid Rəsulov", "Heydər Əfəndiyev", "Zülfüqar Zülfüqarov", "Mahmud İsmayılov", "Şəki karvansaraları", "Niyazi Səmədov", "Qurban Cəlilov", "Əbdüləzəl Dəmirçizadə", "Şəki mətbəxi", "Mikayıl Cəbrayılov", "İsmayıl bəy Nakam", "Əhmədiyyə Cəbrayılov", "Rəşid bəy Əfəndiyev", "Yaşar Qarayev", "Şəki: 44 günlük Vətən müharibəsində" və s [22].

***Azərbaycan turizmindəki irəliləyişlər***

| Göstərici | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| Qəbul edilmiş turistlər (nəfər) | 17641.0 | 18840.0 | 23440.0 | 10605.0 | 10657.0 | 2009.0 | 8949.0 |

*Mənbə:* Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin
2021-ci il məlumatlarıəsasında müəlliflər tərəfindən hazırlanmışdır.

Cədvəldən də göründüyü kimi, ən çox turist qəbulu 2016-ci ildə olmuşdur. Müqayisə apararkən görürük ki, 2016-ci ildə ən çox sayda turist qəbulu olduğu halda, 2020-cı ildə bu göstərici təxminən 11 dəfə azalmışdır. 2016-ci il üzrə göstəricinin belə çox olmasına səbəb isə həmin ölkəmizdə böhrandan öncəki vəziyyətlə bağlıdır. Bu zaman çoxlu sayda turist gəlmişdir. Bununla yanaşı, növbəti illərdə bu rəqəmlərin daha da artacağı gözlənilir. Ümumiyyətlə, Azərbaycanda beynəlxalq səviyyədə turizm iqtisadiyyata, mədəniyyətə və cəmiyyətə geniş səviyyədə təsir göstərərək ölkəyə hərtərəfli üstünlüklər gətirir.

***Qəbul edilmiş və göndərilmiş turistlər***

| | **2021** |
|---|---|
| **Ölkə üzrə Qəbul edilmiş və göndərilmişturistlərin sayı, nəfər** | **53 999** |
| o cümlədən: | |
| qəbul edilmiş | 8 949 |
| göndərilmiş | 45 050 |
| **Qəbul edilmiş və göndərilmiş tur-günlərin sayı, adam-gün** | **349 496** |
| o cümlədən: | |
| qəbul edilmiş | 33 054 |
| göndərilmiş | 316 442 |

*Mənbə*: Azərbaycan Dövlət Statistika Komitəsinin
2012-ci il məlumatları əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

Ölkəyə gələn turist sayını artırmaq məqsədilə son illərdə regionda bu sahədə önəmli işlər yerinə yetirilmişdir. Yeni otellər istifadəyə verilmiş, nəqliyyat infrastrukturu daha da təkmilləşdirilmiş, yeni yollar salınmış, gələn turistlərin qarşılanması, yerləşdirilməsiüçün kadr hazırlığı artırılmışdır.

***Şəkidə fəaliyyət göstərən turizm obyektləri***

| **Turizm obyektləri** | **Nömrələrin sayı** |
|---|---|
| 1. Şəki Olimpiya İdman Kompleksi | 100 |
| 2. "Şəki-Saray" Otel | 34 |
| 3. "Şəki" Otel | 10 |
| 4. “Sahil” otel | 10 |
| 5. “Panorama” otel | 7 |
| 6. “Şəki-Karvansaray” mehmanxana kompleksi | 37 |
| 7. “Məkan” motel | 4 |
| 8. “Marxal” istirahət mərkəzi | 11 |
| 9. “Narınqala” istirahət mərkəzi | 22 |
| 10. “Gələrsən-Görərsən” istirahət mərkəzi | 12 |
| 11. “Cənnət bağı” istirahət mərkəzi | 5 |
| 12. “Ümid” istirahət mərkəzi | 3 |
| 13. “Şam bağı” istirahət mərkəzi | 5 |

Ümumiyyətlə, Şəkidə turizm hər istiqamət üzrə inkişaf etməkdədir. Buranın qədimliyi, tarixiliyinə, hətta küçə görünüşünə görə tarixi turizm, dini turizm, atçılıq turizmi, istirahət turizmi və s. kimi turizm növləri inkişaf etmişdir. Öz tarixiliyi ilə tanınan Şəkidə tarixi abiələrin mövcudluğu, şəhərin görünüşündə qədimliyin qorunub saxlanması onu Azərbaycanın digər regionlarından fərqləndirən əsas xüsusiyyətlərdən biridir.

Qədim Şəki diyarına dair adları çəkilən zəngin diyarşünaslıq ədəbiyyatı fondları diyarın tarixi-mədəni, sosial-iqtisadi, siyasi-ictimai keçmişinə və bu gününə dair faktik və gələcəyə dair proqnostik təhlilləri özündə əks etdirən unikal sənədlərlə zəngindir. Bu sənədlər informasiya kommunikasiyaları sistemində qədim Şəki diyarına dair minlərlə resursların maneəsiz və optimal dövriyyəsinin təşkilinə xidmət edərək, ümumən informasiya tələbatçılarına kompleks kitabxana-biblioqrafiya və informasiya xidmətini təşkil edən funksional obyektlər kimi təhlil edilir.

Əsası 1923-cü ildə qoyulan Zaqatala rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi ötən dövr ərzində xalqımızın maariflənməsində, ölkəmizin elmi, iqtisadiyyatı, mədəniyyəti və təhsilinin inkişafında öz müstəsna rolunu nümayiş etdirmiş, cəmiyyətin mühüm informasiya infrastrukturu kimi onun intellektual potensialının inkişafına səmərəli təsir göstərən zəngin bilik xəzinəsinə çevrilmişdir. Rayon Mərkəzi kitabxanası Azərbaycanın dahi şairi Nizami Gəncəvinin adını daşıyır. Bütün Azərbaycanda olduğu kimi Zaqatala rayonunda da 1974-cü ilde kitabxananın mərkəzləşdirilməsi işi həyata keçirildi. 1976-cı ildə Zaqatala MKS-i formalaşmış, 79 kitabxana filialı ve 1 rayon Mərkəzi kitabxanası fəaliyyət göstərməyə başlamışdır. 2011-ci il oktyabr ayında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 162 №-li qərarına əsasən “Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil

kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu və ştat vahidlər"nə dair təlimatına görə respublika kitabxanalarında struktur dəyişiklikləri yarandı. Bu qanuna əsasən müasir şəraitdə kitabxana oxucu xidmətinin müasir informasiya texnologiyası ilə təmin edilməsi sahəsində xeyli tədbirlər görülmüşdür. Kitabxanaların internet şəbəkəsinə qoşulması, oxucular üçün ümumaçıq informasiya məkanının formalaşdırılması, xidmət prosesində elektron sənədləri və kataloqları, elektron poçtu, CD ROM və s. informasiya texnologiyasının tətbiqini təmin edən tədbirlər həyata keçirilir. Kitabxanalar xalqımızın tarix boyu yaratdığı sərvətdir. Kitabxananın fəaliyyətinin əsas məqsədi oxucu tələbatını ödəməkdən ibarətdir. Rayonun kitabxanaçıları öz qarşılarında duran vəzifələri yerinə yetirmək üçün bütün imkanlardan istifadə edirlər. 2012-ci ildən başlayaraq kitabxanalarda ixtisarlar və birləşmələr başlandı. 2017-ci ildə 10 müəssisə bağlandı və nəticədə Mərkəzi kitabxana olmaqla 44 filial kitabxanası ümumilikdə rayon üzrə 45 kitabxana fəaliyyət göstərir. Kitabxananın əməkdaşları bu illər ərzində Bakı şəhərində keçirilən müxtəlif treninq və konfransların iştirakçısı olmuşlar. 2009-cu ilin noyabr ayının 16-20-də Zaqatala rayon MKS-nin direktoru Gülniyar xanım Məmmədova Moskvanın "Erşavo" sağlamlıq mərkəzində "İnformasiya texnologiyası, komputer sistemi və kitabxanalar üçün materiallar" mövzusuna həsr olunmuş "İLBCOM-2009" 13-cü Beynəlxalq konfrans sərgisində müxtəlif seminarlarda ("Kitabxana menecmenti və kitabxana innovatikası", "Müasir dövrdə ekologiya informasiyası", "Avtomatlaşdırılmış kitabxana sistemində "İRBİS-64" proqramından istifadə və təkminləşdirilməsi") iştirak etmişdir. Həmin konfransda Zaqatala Mərkəzi kitabxanası Yeni İnformasiya Texnologiyaları ilə Elektron kitabxanaların İşçiləri və İstifadəçilərinin Beynəlxalq Asossasiyasının üzvü seçilmişdir.

1 aprel 2014-cü il tarixində Zaqatala rayon MKS-nin direktoru Gülniyar Məmmədova və informasiya-resurs şöbəsini müdiri Almaz Məmmədova "Kitabxana-informasiya" sahəsində əldə edilmiş nəzəri və təcrübi nəaliyyətlərin tətbiqi" mövzusunda ADA Universiteti kitabxanasının I Beynəlxalq Elmi konfransında iştirak etmişdir. 19 noyabr 2015-ci il tarixində MKS-nin direktoru Gülniyar Məmmədova və kitabxananın informasiya texnologiyaları üzrə mütəxəssisləri Leyla Məmmədova və Ülkər Hacıyeva Zaqatalaya həsr olunmuş "Bölgələrdən paytaxta" layihəsində iştirak etmişdir. Həmin layihədə kitabxananın öz kitab sərgiləri də nümayiş etdirilmişdir. Kitabxana son 10 il ərzində müxtəlif səpkili çoxsaylı kütləvi tədbirlər keçirmişdir. Son 10 il ərzində kitabxananın uğurları 2 yeni şöbənin açılması, müxtəlif mövzularda metodiki vəsaitlərin hazırlanması, 2006-cı ildə Zəlimxan Yaqubla görüş, həmçinin yerli yazarlardan olan Mustafa Camal, Həşim İsmayılov, Aşıq Valeh, Vəli Hüseynov, Şirin Qəlbinur və başqaları ilə oxucuların görüşləri, kecirilmiş, Ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə keçirilmiş Kitab bayramları artıq ənənə halını almış, 2015-ci ildə VII kitab bayramı keçirilmişdir. Mədəniyyət və Turizm Nazirliyinin, Rusiya Federasiyası Mədəniyyət və Kinematoqrafiya üzrə Federal Agentliyinin, Rusiya Federasiyası İncəsənət, Mədəniyyət və Turizm İşçilərinin Yenidən Hazırlanma Akademiyasının və Zaqatala Rayonu İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Ekoloji tərbiyə və ekoloji problemlər: kitabxanaların rolu" mövzusunda beynəlxalq konfrans ,"12 dekabr yaddaşımızda necə yaşamalı və yaşadılmalıdır" mövzusunda elmi-praktik konfrans (2008), "Kitab və müəllif hüquqları günü" adlı tematik gecə (2009) keçirilmiş, "Zaqatala böyük vətən müharibəsində" ,"Zaqatalalıların şəxsi kitabxanaları" adlı məlumat topluları (2011) yaradılmışdır. "Zaqatala ölkə mətbuatında" (2011) , "Zaqatala rayonunun ədəbi mühiti" (2011) adlı məlumat bülletenləri hazırlamışdır.

Kitabxanalara daha çox oxucu cəlb etmək məqsədilə Zaqatala Rayon Mədəniyyət evində "Mütaliə günü" keçirilmişdir (2011). 2012-ci ilin "İdman ili" elan olunması ilə əlaqədar kitabxanada yerli idmançılarla oxucuların görüşü təşkil olunmuşdur. 2013-cü ildə "Uşaq Hüququ aylığı" münasibətilə "Mənim hüquq və vəzifələrim" adlı inşa müsabiqəsi keçirilmişdir. 2014-cü ildə görkəmli tibb alimi, akademik Zərifə xanım Əliyevanın doğum günü münasibətilə "Azərbaycan qadınının həyat yolu" adlı konfrans, "Laylalı, bayatılı axşamlar" adlı ədəbi-bədii gecə keçirilmişdir. 2015-ci ildə 2 Aprel Beynəlxalq Uşaq Kitab Günü münasibəti ilə "Kitab nəsillərin vəsiyyətidir" mövzusunda ədəbi-bədii gecə, Heydər Əliyev mərkəzində Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilliyi Aparatından Mərkəzi kitabxanaya 2015-ci ildə daxil olmuş yeni ədəbiyyatın təqdimat mərasimi, "Dövlət Müstəqilliyinin 24–cü

ildönümü"nə həsr olunmuş şeir müsabiqəsi, "Kitabi-Dədə-Qorqud" dastanının alman dilindən tərcümə edilməsinin 200 illik yubileyi ilə əlaqədar "Qopuzdan-saza" adlı ədəbi-bədii gecə keçirilmişdir. Kitabxananın baş biblioqrafı tərəfindən soraq biblioqrafiya aparatı yaradılmış, Ölkəşünaslıqla (diyarşünaslıqla) bağlı sərgi və kartoteka hazırlanmışdır. Əlamətdar və tarixi günlər, görkəmli şəxsiyyətlərin yubileyləri ilə bağlı kartotekalar təşkil edilmişdir. Kitabxanalarda oxuculara soraq-biblioqrafiya xidmətinin təşkilinə və biblioqrafik icmalların hazırlanması və keçirilməsinə nəzarət edilmişdir. "Azərbaycanşünaslıq" kartotekanı təşkil etmişdir. Baş biblioqraf tərəfindən "Diyarşünaslıq", "Zaqatalanın görkəmli şəxsiyyətləri","Zaqatalanın təbiəti və turizmi"."Zaqatalanın ədəbi mühiti" adlı qovluqlar hazırlamış, ən zəruri materiallar bu qovluqlarda toplanmışdır. Baş biblioqraf 2012-ci ilin may ayından başlayaraq məqalələrin sistemli kartotekasını, diyarşünaslıq və mövzu kartotekasını "İRBİS-64" proqramında işləmişdir. Bu proqramda "Elektron kartoteka", "Diyarşünaslıq",və "Diyarşünaslıq kitablar" bazalarında 8000-dən artıq kartoteka yazmışdır. Hər il müntəzəm olaraq "Zaqatala ölkə mətbuatında" biblioqrafik göstəricilərini və digər metodiki vəsaitləri tərtib edilmişdir. "Zaqatala turizm diyarıdır" guşəsini təşkil etmiş, 2015-ci ildə Mərkəzi kitabxana əsaslı təmir olunmuş, yeni inventar avadanlıqları ilə təmin olunmuşdur. Hal-hazırda Mərkəzi Kitabxanada 17 komputer, filial kitabxanalrında isə 21 komputerdən istifadə olunur. Kitabxanada 2012-ci ildən 2 yeni şöbə - "İnformasiya-resurs" və "Kitabxana-biblioqrafiya prosseslərinin avtomatlaşdırılması" şöbələri yaradılmışdır. Həmin ildən kitabxanada "İRBİS-64" proqramı tətbiq olunur. İRBİS-64 proqramında 12988 adda 123262 kitabın elektron kataloqu yaradılmışdır. 2015-ci ilin ikinci yarısından kitabxanada yeni proqram – "ALİSA" proqramı tətbiq olunur. Bununla əlaqədar "Kitabxana-biblioqrafiya prosseslərinin avtomatlaşdırılması" şöbəsi işini bu proqram əsasında qurur. Kitabxanada yaradılmış www.zaqatala.cls.az web saytına İnformasiya-resurs şöbəsi tərəfindən nəzarət olunur, operativ yenilənir, əlavə və dəyişikliklər edilir. Kitabxananın facebook və instagram saytları fəaliyyətə başlamışdır. Gənclərimizin ən cox istifadə etdiyi bu saytlar vasitəsi ilə kitabxanada olan kitab, qəzet, jurnal məqalələri, həmçinin kitabxanada baş verən yeniliklər haqqında oxuculara məlumatlar verilmişdir. Bu saytlar vasitəsilə oxucu sorğularının ödənilməsi də həyata keçirilmişdir.

Balakən rayonunda 1947-ci ildə ilk dəfə Mərkəzi Kitabxana yaradılmış və onun 2 işçisi olmuşdur. 1979-cu ildən etibarən rayonun kitabxanaları Mərkəzləşdirilmiş halda fəaliyyət göstərməyə başlamışdır. Hal-hazırda Balakən MKS-i özündə 1 Mərkəzi, 1 Şəhər, 1 Qəsəbə, 24 kənd kitabxana filialını birləşdirir. Bu kitabxanalarda texniki işçilər istisna edilməklə 62 nəfər çalışır. Onların 5 nəfəri ali ixtisas, 5 nəfəri ali qeyri-ixtisas, 25 nəfəri orta ixtisas, 4 nəfəri orta qeyri ixtisas, 23 nəfəri isə ümumi orta təhsillidir. Balakən MKS – də 6 şöbə - "Xidmət", "Komplektləşdirilmə və kitabişləmə", "Metodika və biblioqrafiya", "Kitabxana – biblioqrafiya proseslərinin avtomatlaşdırılması", "İnformasiya – resurs", "Uşaq" şöbələri fəaliyyət göstərir.

Müasir dövrdə yeni texnologiyaların kitabxana işinə tətbiqi nəticəsində bir çox kitabxanaların veb saytı yaradılmış, bəzi kitabxanalarda elektron kataloq, elektron kitabxana yaradılmasına başlanmış, oxuculara yeni xidmət üsulları təqdim edilmişdir. Hər bir mədəniyyət müəssisəsi: muzey, kitabxana öz doğma diyarını təbliğ etmək məqsədilə saytında turizmə aid məlumat bazaları, reklam və tanıtım çarxları, məsləhət vitrinləri yarada bilər. Turizmin təbliği ilə əlaqədar istər kitabxanada ənənəvi üsulla, istərsə də saytda elektron formada məsləhət vitrininin yaradılması məqsədəmüvafiq olardı. "Doğma diyar-Azərbaycan", "Şəhərimizdə (rayonumuzda) turizm", "Soruşun cavab verək" (regionun turistik obyektləri haqqında), "Öz şəhərini tanıyırsanmı?", "Şəhərinin tarixini bilirsənmi?" və bir çox başqa adlarda təşkil etmək olar. Belə vitrinlərdə əsas məqsəd rayonun, şəhərin və ümumilikdə Azərbaycanın turizm obyektlərinin təbliği, həm yerli əhaliyə, həm də turistlərə doğma diyarımızın gözəlliklərinin təqdim edilməsidir. Nümunə üçün "Şəhərimizin (rayonumuzun) turizm gözəllikləri" adlı məsləhət vitrinləri yaratmaq olar.

Oğuz rayonunda ilk kitabxana 1941-ci ildə yaradılmışdır. 1947-ci ildə isə rayonun 3 kəndində, Xaçmaz, Qumlaq və Daşağıl kəndlərində kitabxana yaradılmışdır. 1980-ci il sentyabr ayında Oğuz rayon Mərkəzi kitabxanası Mərkəzləşdirilmiş Kitabxana Sisteminə çevrilmişdir. 1980-ci ildən kitab-

xana öz ətrafında 1 mərkəz, 1 uşaq, 1 şəhər və 30 kənd kitabxana filialını birləşdirir. 2012-ci ilin yanvar ayından Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 oktyabr 2011-ci il tarixli 162№- li qərarına uyğun olaraq MKS-nin yeni strukturu yaradılmışdır. Oğuz rayon MKS-nin 5 kitabxana filialı birləşdirilmişdir. Beləliklə MKS-nin strukturuna 1 mərkəzi kitabxana və 26 kənd kitabxana filialı daxil olmuşdur. Mərkəzi kitabxanada hazırda 6 şöbə fəaliyyət göstərir. "Oxuculara xidmət" şöbəsi, "Komplektləşdirmə və kitabişləmə" şöbəsi, "Metodika və biblioqrafiya" şöbəsi, "Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması" şöbəsi, "İnformasiya-resurs"şöbəsi. Hazırda Mərkəzi kitabxanada 5- i texniki işçi olmaqla 24 nəfər işçi çalışır. 26 kənd kitabxana filialının isə 30 nəfər işçisi vardır. İqtisadi regiona daxil olan Oğuz inzibati rayonunun Mərkəzləşdirilmiş Kitabxana Sistemində aşağıdakı adlarda diyarşünaslıq ədəbiyyatı fondları yaradılmışdır: "Ümummilli lider Heydər Əliyev və Oğuz", "Oğuzun inkişafı və Prezident İlham Əliyev", "Oğuz şəhidləri", "Oğuzun tarixi", "Oğuzun coğrafiyası", "Oğuzun əhalisi", "Oğuzlular 44 günlük Vətən müharibəsində", "Oğuz meşələri", "Oğuzun təsərrüfatı", "Oğuzun təbiəti", "Oğuzun keçmişi" və s [6].

***Nəticə***. Azərbaycan Şəki-Zaqatala iqtisadi regionunun kitabxanalarında turizmə dair informasiya resurslarının öyrənilməsi bu sahədəki mövcud vəziyyəti, meylləri və inkişaf perspektivlərini qiymətləndirmək üçün vacib şərtlərdəndir. Turizm sahəsi üzrə aparılan tədqiqatların köməyi ilə əldə edilmiş elmi məlumatlar müxtəlif qiymətləndirmə proseslərində uğurla tətbiq olunur ki, bu da öz növbəsində turizm sahəsi üzrə elmi istiqamətin inkişafını dəqiq müəyyənləşdirməyə imkan verir. Aparılan araşdırmalar zamanı məlum oldu ki, sənəd axınının tədqiqinin tətbiqində alınan nəticələrin interpretasiyası dəqiq aparılmalı, massivdə məhdudiyyətlər, istifadəçinin sorğusu, tətbiqi tədqiqatın məqsəd və vəzifələri nəzərə alınmalıdır.

Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionunun kitabxanalarında turizmə dair informasiya resurslarının tədqiqinə dair tətbiqi tədqiqatlar burada mövcud olan kitabxanaların fondlarının komplektləşdirilməsinin keyfiyyətinin yüksəldilməsi, yaradılmış informasiya məhsulları və xidmətlərinə tələbatın optimallaşdırılması, informasiya müəssisələrinin işinin koordinasiyası və planlaşdırılması, mövcud müəssisənin intellektual və maddi resurslarının optimal istifadəsi, bu sahə üzrə sənəd axınının işlənməsi zamanı texnoloji nəzarətin gücləndirilməsi ilə bağlı olan bir çox sistemdaxili məsələləri həll etməyə əlverişli imkan yaradır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Kitabxana Ensiklopediyası. – Bakı: Zərdabi-Nəşr-MMC. – 2015. – 630 s.
2. 2015-ci ildə Mədəniyyətin əsas göstəriciləri/Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. 2016: [Elektron resurs]/ URL: http:/www.stat.qov.az/ [20.02.2023].
3. 2016-cı ildə Mədəniyyətin əsas göstəriciləri/Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. 2017: [Elektron resurs]/ URL: http:/www.stat.qov.az/ [20.02.2023].
4. Azərbaycan Dövlət Statistika Komitəsi: 2013-cü ilin əvvəlinə iqtisadi və inzibati rayonlar, eləcə də şəhər yaşayış məntəqələri üzrə əhalinin cins bölgüsündə sayı (min nəfər): [Elektron resurs]/URL: http://www.stat.qov.az [20.02.2023].
5. Azərbaycan Dövlət Statistika Komitəsi:Zaqatala rayonu: [Elektron resurs]/ URL: https:-//az.wikipedia.orq/wiki/Zaqatala.cite_ref-Zaqatala rayonu [20.02.2023].
6. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin rəsmi internet saytı / URL: http://www.mct.gov.az [20.02.2023].
7. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.29 mart 2016:[Elektron resurs]/ URL: https://president.az/artıces 18201 [20.02.2023].
8. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 15 yanvar 2019: [Elektron resurs]/ https://president.az/artıces 18201 [20.02.2023].
9. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilməsi haqqında Azərbaycan Respublikas Prezidentinin fərmanı:[Elektron

resurs]/ URL: https: // www.azertağ.az/ xeber// [20.02.2023].
10. Ethno-Caucasus, Etnodemoqrafiya kavkaza: Zakatalskiy rayon (perepis 1939 qoda): [Elektron resurs]/ URL: https://az.wikipedia.orq /wiki/ Zaqatala.cite_ref-Zakatalskiy uezd (perepis 1939 qoda) [20.02.2023].
11. https://e-qanun.az/framework/5427 [20.02.2023].
12. Ethno-Caucasus, Etnodemoqrafiya kafkaza: Zakatalskiy rayon (pere-pis 1959 qoda): [Elektron resurs]/ URL: https://az.wikipedia.orq /wiki/ Zaqatala.cite_ref-Zakatalskiy (perepis 1939 qoda) [20.02.2023].
13. Ethno-Caucasus, Etnodemoqrafiya kavkaza: – Zakatalskiy rayon (perepis 1979 qoda): [Elektron resurs]/URL: https://az.wikipedia.orq /wiki/ Zaqatala.cite_ref-Zakatalskiy uezd (perepis 1979 qoda): [Elektron resurs]/ https://az.wikipedia.org/wiki/Zaqatala URL: https://az.wikipedia.org/wiki/Zaqatala [20.02.2023].
14. Qax Rayon İcra Hakiməyyətinin rəsmi saytı / URL: http://www.qax-ih. gov.az/page/11.html [20.02.2023].
15. M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasının rəsmi saytı / URL: www.anl.az [20.02.2023].
16. Population Population statistics of Eastern Europe: Ethnic Ethnic composition of Azerbaiyjan by 2009 census:[Elektron resurs]/ URL: http:/pop-stat.mashke.orq/ [20.02.2023].
17. Şəki Rayon İcra Hakimiyyətinin rəsmi saytı / URL: http:www.sheki-ih.gov [20.02.2023].
18. URL: Ethno-Caucasus, Etnodemoqrafiya kavkaza: Zakatalskiy uezd (perepis 1926 qoda): [Elektron resurs]/ https://az.wikipedia.orq/wiki/Zaqatala.cite_ref-Zakatalskiy(perepis 1926 qoda) [20.02.2023].
19. URL: http://gabala.cls.az/more/text/8202http://gabalacity [20.02.2023].
20. URL: http://gsaz.az/ articles/view/112ShakiZaqatala-iqtisadicoğrafi-rayonu [20.02.2023].
21. URL: https://az.wikipedia.org/wiki/Qax_rayonu-cite_ref Ethnic_composition_of_-Azerbaijan_by_2009_census_5-0 [20.02.2023].

**ДАШГИН МАХАММЕДЛИ**
*Докторант Бакинского Государственного Университета,*
*Библиотечные ресурсы и информационно-поисковые системы*

**ГАДЖИ ГАСИМЛИ**
*Докторант Бакинского Государственного Университета,*
*Библиотечные ресурсы и информационно-поисковые системы*

## СПЕЦИФИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ ТУРИСТИЧЕСКИХ ИНФОРМАЦИОННЫХ РЕСУРСОВ В БИБЛИОТЕКАХ ШАКИ-ЗАГАТАЛЬСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА АЗЕРБАЙДЖАНА РЕСПУБЛИКИ

В современное время туризм является одной из развивающихся сфер деятельности. Поэтому использование имеющихся информационных ресурсов по туризму в библиотечно-информационных учреждениях республики непосредственно служит пользователям информации, работающим в этой сфере. В статье приведены сведения о существующих библиотечно-информационных учреждениях из экономических районов Азербайджана: Шеки-Загаталы, и всесторонне изучены туристические информационные ресурсы в их фондах. Также в сравнительном порядке изучено место и роль централизованных библиотечных систем административных районов, входящих в состав Шеки-Загаталы, экономического района, в общей библиотечно-информационной сетевой системе страны.

*Ключевые слова*: Шеки-Загаталы, экономический район Азербайджанской Республики, библиотека, региональная библиотечная сеть, информационный спрос, туризм, документ оборот.

**DASHGIN MAHAMMEDLI**
*Deputy Dean of the Faculty of Library and Information Science of Baku State University*
*Teacher of the department of library resources and information-research systems, Phd student*

**HAJI GASIMLI**
*Baku State University*
*Phs student of the department Library resources and information-search systems*

## SPECIFIC CHARACTERISTICS OF TOURISM INFORMATION RESOURCES IN THE LIBRARIES OF THE SHAKI-ZAGATALA ECONOMIC REGION REPUBLIC OF AZERBAIJAN

In modern times, tourism is one of the developing fields of activity. Therefore, the use of the available information resources on tourism in the library and information institutions of the Republic directly serves the information users operating in this field. The article provides information about the existing library-information institutions from the economic regions of Azerbaijan: Sheki-Zagatala, and the tourism information resources in their funds are comprehensively studied. Also, the place and role of the centralized library systems of the administrative districts included in the Sheki-Zagatala economic region in the general library-information network system of the country was studied in a comparative manner.

*Keywords*: Sheki-Zagatala economic region of the Republic of Azerbaijan, library, regional library network, information need, tourism, document flow.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 24 fevral 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Rəyçilər: t.e.d. Xəlil İsmayılov, t.e.d. Qabil Əliyev.*

*Tarix və onun problemləri / История и её проблемы / History and its problems, 2023 №2, 255-260*

**UOT 94**

**AYSEL HƏSƏNOVA**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin*
*Turizm və kitabxana-informasiya fəaliyyəti kafedrasının müəllimi*
**aysel.hasanova@admiu.edu.az**

# DÖVLƏT QULLUQÇULARINA KİTABXANA XİDMƏTİNİN KEYFİYYƏTİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ MEYARLARI

*Məqalədə dövlət qulluqçularına kitabxana xidmətinin keyfiyyətinin müəyyənləşdirilməsi meyarları araşdırılmışdır. Araşdırma zamanı yeni meyarlar üzə çıxarılmışdır. Bu meyarlara əsasən hesablamaların aparılması yolları göstərilmişdir. Eləcə də burada kitabxana xidmətinə əlçatarlığın təşkili xüsusiyyətləri öyrənilir. Bu xüsusiyyətlər əsasında konkret meyarlar formalaşdırılır. Kitabxana xidmətinin subyekti, obyekti və predmeti müəyyənləşdikdən sonra artıq onun keyfiyyətinin müəyyənləşdirilməsi məsələsi gündəmə gəlir. Müasir dövrün tələblərinə görə sgər xidmət keyfiyyətli deyilsə onun kimə və hansı formada göstərilməsinin heç bir mənası yoxdu. Xidmətin keyfiyyətinə bir çox amillər təsir göstərir ki, həmin amillər xidmətin keyfiyyət meyarlarını formalaşdırır.*

*Açar sözlər*: dövlət qulluqçuları, kitabxana xidməti, keyfiyyət, meyar, əlçatarlıq, informasiya tələbatları, emosional tələbatlar, funksional tələbatlar.

***Giriş.*** Kitabxana xidməti elmi, pedaqoji və təcrübi sahə olub elmi və praktiki bilikləri özündə birləşdirərək istifadəçilərin peşəkarlığının inkişafının əsasını təşkil edir.Kitabxana xidmətinin məqsədi oxucunun ehtiyaclarını tam şəkildə ödəməkdən ibarətdir. Bu baxımdan xidmətin subyektləri kitabxanaçı və istifadəçilər hesab olunur. Lakin xidmət prosesdə onların rolları fərqlidir. Kitabxana xidmətlərinin obyekti kimi isə oxucu tələbatı, məmnuniyyəti çıxış edir. Buna görə də kitabxana xidmətinin predmetinə isə oxucu tələbatını ifadə edən sorğular daxildir [1].

***Əsas hissə.***Təcrübə göstərir ki, kitabxana xidmətinin keyfiyyətinə aşağıdakı mövqelərdən baxmaq olar:

- ✓ İnformasiya tələbatının ödənilməsi;
- ✓ müəyyən edilmiş tələblərə və standartlara uyğunluq;
- ✓ göstərilən xidmətlərin dəyərinə uyğunluq.

Kitabxana xidmətinin davamlı şəkildə təmin edilməsi üçün şərait yaratmaq və kitabxana xidmətlərinin keyfiyyətinin müəyyənləşdirilməsi meyarlarını aydınlaşdırmaq üçün xidmətin göstərilməsi, informasiya, funksional və emosional tələbat qrupları daxil olmaqla, alınan xidmətlərin keyfiyyəti ilə əlaqədar informasiya tələbatını sistemi formalaşır (Şəkil 1, Şəkil 2, Şəkil 3).




**Şəkil 1.**

Bu vəziyyətdə, xidmətin keyfiyyəti xidmətin göstərildiyi şərtlərin və istehlak olunan mənbələrin qiymətləndirilməsi (qəbul edilmiş standarta uyğunluq şəklində obyektiv və istehlakçının qiymətləndirilməsi şəklində subyektiv) kimi başa düşülməlidir. Buradan belə qənaətə gəlmək olar ki, kitabxana xidmətlərinin keyfiyyətinin müəyyənləşdirilməsi meyarları, bu xidmətlərin nəticəsini ölçməyə, nəzərə almağa, nəzarət etməyə və qiymətləndirməyə imkan verən kəmiyyət və keyfiyyət parametrlərinin məcmusudur.

Kitabxana xidmətinin keyfiyyəti ilə əlaqədar olaraq tələbatçıların formalaşdırılmış sorğu sisteminə əsaslanaraq, dövlət xidmətlərinin keyfiyyətini və mövcudluğunu qiymətləndirmək üçün konkret göstəricilər müəyyənləşdirmək mümkündür.




**Şəkil 2.**




**Şəkil 3.**

İstehlakçılar tərəfindən Kitabxana xidmətinin keyfiyyətinin qiymətləndirilməsi zamanı tələbatçıların öyrənilməsi xidmətin mövcud vəziyyətini öyrənmək və oxucuların tələbat və sorğularını nəzərə almaqla kitabxana xidmətini daha da təkmilləşdirmək üçün effektiv üsuldur. Kitabxana xidmətinin keyfiyyət göstəriciləri yuxarıda göstərilən meyarlara əsaslanmalıdır. Bundan əlavə kitabxana xidmətlərinin keyfiyyətini xarakterizə edən meyarları iki əsas qrupa bölmək məsləhətdir: 1) ümumi; 2) xüsusi [2].

Ümumi meyarların tərkibi tələbatçıların xidmət zamanı qarşılaşdıqları əsas problemləri əks etdirir. Ümumi meyarlara əlavə olaraq, müəyyən bir kitabxana xidmətinin göstərilməsi prosesinin spesifik xüsusiyyətlərini əks etdirən spesifik meyarlardan istifadə olunur. Hər bir dövlət xidməti növü üçün xüsusi meyarlar, təminat prosesində qarşılaşılan spesifik xüsusiyyətlərə və problemlərə əsaslanaraq fərdi olaraq müəyyən edilir.

Kitabxana xidmətlərinin keyfiyyətinin qiymətləndirilməsi meyarları **Şəkil 4-də** göstərilmişdir.




**Şəkil 4.**

Kitabxana xidmətinin keyfiyyətini qiymətləndirmək üçün birinci meyar qrupu müvəqqəti meyarlardan ibarətdir. Bunlara daxildir: vaxtında, səmərəlilik, birdəfəlik müraciət.

Ümumi halda, vaxt meyarları tələbatçının xidmətin göstərildiyi andan etibarən xidmətə sərf etdiyi vaxtı xarakterizə edir. Ümumi meyarların tərkibi:

✓ Sənədlərin təqdim edildiyi gündən etibarən konkret müddət ərzində kitabxana xidmətlərinin göstərilməsi hallarının payı (%) (meyar, konkret müddət ərzində xidmətlərin göstərilməsi hallarının sayının tələbatçıların ümumi sayına nisbəti olaraq təyin olunur);

✓ növbədə 15 dəqiqədən çox olmayan müddətdə xidmət gözləyən istehlakçıların payı (%) (meyar 15 dəqiqədən çox olmayan müddətdə növbədə gözləmə hallarının xidmət göstərilən oxucunun ümumi sayına nisbəti olaraq təyin olunur);

✓ "bir sorğu" üçün kitabxana xidməti hallarının payı (%) (meyar, "bir soğru" üçün kitabxana xidməti hallarının konkret xidmət edilən tələbatçıların ümumi sayına nisbəti olaraq təyin olunur).

Kitabxana xidmətinin keyfiyyətini qiymətləndirmək üçün ikinci qrup meyarlar xidmətin göstərilməsi prosesinin keyfiyyətini xarakterizə edən meyarlardan ibarətdir (oxucu məmnunluğunu əks etdirən nəzakət, işçilərin həssaslığı kimi keyfiyyətlər nəzərə alınır. xidmətin göstərilməsi prosesində işçilərin münasibəti).

Ümumi meyarların tərkibi kitabxana xidmətinin keyfiyyətindən məmnun olan tələbatçıların payı (%) ilə müəyyənləşir.

Kitabxana xidmətinin keyfiyyətini qiymətləndirmək üçün üçüncü qrup meyarlar xidmətin göstərilməsinin nəticəsinin keyfiyyətini xarakterizə edən meyarlardır.Göstərilən xidmətin xarakterindən asılı olaraq bu meyarlar aşağıdakıları əhatə edə bilər: məlumatların işlənməsinin düzgünlüyü, sənədləşmə işlərinin düzgünlüyü, yox cavablarının faizləri.

Ümumi meyarların tərkibi:

✓ xidmətin keyfiyyətindən məmnun olan tələbatçıların payı (%) (meyar, xidmətin göstərilməsinin nəticəsindən məmnun olan tələbatçı sayının xidmət göstərilmiş oxucuların ümumi sayına nisbəti kimi müəyyən edilir);

✓ düzgün tərtib edilmiş arayışların (düzgün tərtib edilmiş hesablamalar) payı (%) (meyar, düzgün tərtib edilmiş arayışların sayının verilən arayışların ümumi sayına nisbəti kimi müəyyən edilir);

✓ kitabxana xidmətindən imtinaların payı (%);

✓ keyfiyyət meyarlarına görə müsbət qiymətləndirilən kitabxana xidmətinin payı (%) (meyar, keyfiyyət meyarlarına görə müsbət qiymətləndirən xidmətin ümumi xidmətin sayına nisbəti olaraq təyin olunur).

Kitabxana xidmətinin keyfiyyətini qiymətləndirmək üçün növbəti meyar qrupu, apellyasiya prosesini xarakterizə edən keyfiyyət meyarlarıdır. Oxucuya xidmət prosesində tələbatçılar ilə birbaşa təmasda olan kitabxanaçıların hərəkətlərindən (hərəkətsizliyindən) şikayət etmək üçün sınaqdan keçirilmiş prosedurlara xüsusi əhəmiyyət verilir [3]. Bunun üçün müvafiq meyarları qurmaq lazımdır: şikayətlərə baxılması və həlli prosesinin effektivliyi və səmərəliliyi, oxucu məmnuniyyətinin mövcud prosedurdan məmnunluq səviyyəsi və şikayətlərin vaxtı.

Ümumi meyarların tərkibi:

- ✓ əsaslandırılmış şikayətlərin xidmət göstərilən oxucuların ümumi sayına nisbəti (%) (meyar əsaslandırılmış şikayətlərin sayının konkret xidmət növü üzrə xidmət alan tələbatçıların ümumi sayına nisbəti olaraq müəyyən edilir);
- ✓ müəyyən edilmiş müddət ərzində baxılan və təmin edilmiş əsaslandırılmış şikayətlərin nisbəti (%) (meyar müəyyən bir müddət ərzində şikayətə baxılma hallarının sayının verilən şikayətlərin ümumi sayına nisbəti kimi müəyyən edilir);
- ✓ mövcud müraciət prosedurundan məmnun olan tələbatçıların payı (%) (meyar, mövcud müraciət prosedurundan razı qalan tələbatçı sayının şikayət edən oxucuların ümumi sayına nisbəti olaraq təyin olunur);
- ✓ müraciət şərtlərindən məmnun olan tələbatçıların payı (%) (meyar, müəyyən edilmiş müraciət müddəti ilə razı qalan tələbatçıların şikayətçi kimi sorğuda iştirak edən tələbatçıların ümumi sayına nisbəti olaraq təyin olunur).

Kitabxana xidmətinin keyfiyyətini qiymətləndirmək üçün son meyarlar qrupu qiymətləndirmə prosesini xarakterizə edən meyarlardan ibarətdir (qiymətləndirmə qabiliyyəti, tezliyi, effektivliyi).

Ümumi meyarların tərkibi:

- ✓ istifadəçilər tərəfindən qiymətləndirilən kitabxana xidmətlərinin payı (%) (meyar, konkret xidmət növü üzrə xidmət edilən tələbatçıların ümumi sayına tətbiq olunan meyara görə kitabxana xidmətini ən azı bir dəfə qiymətləndirən tələbatçıların sayının nisbəti olaraq təyin olunur);
- ✓ konkret tezlikdə qiymətləndirilən kitabxana xidmətlərinin payı (%) (meyar, müəyyən bir müddətdə ən azı müəyyən bir dəyərdə qiymətləndirilən kitabxana xidmətlərinin sayının, müəyyən bir müddətdə göstərilən kitabxana xidmətlərinin ümumi sayına nisbəti olaraq təyin olunur);
- ✓ dəyərlərin dəyişmə dinamikası (%) (meyar cari hesabat dövründə əldə edilən dəyərlə əvvəlki hesabat dövründə əldə edilən dəyər arasındakı fərq olaraq müəyyən edilir).

Kitabxana xidmətlərinə əlçatarlığının qiymətləndirilməsi meyarları **Şəkil 5-də** göstərilmişdir.




**Şəkil 5.**

Əlçatarlıq, xidmətin göstərilməsi prosesinin sadəliyinin və rasionallığının, xidmətlərin göstərilməsi prosedurunu və prosedurlarını izah edən məlumatların aydınlığının və keyfiyyətinin qiymətləndirilməsi kimi başa düşülməlidir. Dünya təcrübəsində əlçatarlıq xidmətin göstərilməsi prosesini tənzimləyən sənədlərin keyfiyyəti, mövcud informasiya sisteminin effektivliyi ilə müəyyən edilir. Əlçatarlıq müxtəlif məkan və zaman parametrləri ilə xarakterizə olunur. Qiymətləndirməyə imkan verən əsas göstəricilər bunlardır: məlumatların mövcudluğu və sadəliyi, maliyyə, ərazi mövcudluğu, iş qrafiki, kitabxana xidmətlərinin göstərilməsi formaları, oxucu məmnuniyyətinin dərəcəsi.

Ümumi meyarların tərkibi:

- ✓ kitabxana xidmətlərinin göstərilməsi qaydası haqqında məlumatın keyfiyyətindən məmnun olan tələbatçıların payı (%) (meyar, kitabxana xidmətlərinin göstərilməsi qaydası haqqında məlumatın keyfiyyəti ilə razı olan tələbatçıların xidmət göstərilmiş oxucuların ümumi sayına nisbəti kimi müəyyən edilir);
- ✓ kitabxana xidmətlərinin göstərilməsi prosedurunun sadəliyindən məmnun olan tələbatçıların payı (%) (meyar, kitabxana xidmətlərinin göstərilməsi prosedurunun sadəliyindən məmnun olan tələbatçıların ümumi xidmət sayına nisbəti kimi müəyyən edilir);

- ✓ kitabxana xidmətinin dəyərindən məmnun olan tələbatçıların payı (%) (meyar, kitabxana xidmətinin dəyərindən məmnun olan tələbatçıların konkret xidmət üzrə xidmət alan oxucuların ümumi sayına nisbəti olaraq təyin olunur);
- ✓ kitabxana xidmətinin fiziki mövcudluğundan məmnun olan tələbatçıların payı (%) (meyar, kitabxana xidmətinin fiziki mövcudluğundan məmnun olan tələbatçıların konkret xidmət üzrə xidmət alan oxucuların ümumi sayına nisbəti olaraq təyin olunur);
- ✓ kitabxana xidmətinə vasitə əlçatanlığından məmnun olan tələbatçıların payı (%) (meyar, kitabxana xidmətinin vasitə əlçatanlığından məmnun olan tələbatçı sayının xidmət edilən oxucuların ümumi sayına nisbəti olaraq təyin olunur);
- ✓ elektron formada mövcud olan kitabxana xidmətlərinin payı (%) (meyar elektron formada mövcud olan kitabxana xidmətlərinin sayının göstərilən xidmətlərin ümumi sayına nisbəti kimi müəyyən edilir);
- ✓ ərazinin kitabxana xidmətinin göstərilməsi üçün çoxfunksiyalı mərkəzlərlə təmin edilməsi (%) (meyar kitabxana xidmətinin göstərilməsi üçün çoxfunksiyalı mərkəzlərin faktiki sayının müəyyən bir ərazi vahidi üçün normativ dəyərə nisbəti ilə müəyyən edilir);
- ✓ elektron formada kitabxana xidmətlərinin mövcudluğundan məmnun olan tələbatçıların payı (%) (meyar, kitabxana xidmətlərinin elektron formada mövcudluğundan məmnun olan tələbatçıların konkret xidmət üçün tələb olunan oxucuların ümumi sayına nisbəti olaraq təyin olunur);
- ✓ "vahid pəncərə" (toplu elektron kataloq və ya elektron kitabxana) prinsipi ilə təmin edilən kitabxana xidmətinin mövcudluğundan məmnun olan tələbatçıların payı (%) (meyar, "vahid pəncərə" ilə təmsil olunan kitabxana xidmətinin mövcudluğundan məmnun olan tələbatçı sayının nisbəti olaraq təyin olunur);
- ✓ bütün tətbiq olunan əlçatarlıq meyarlarına görə müsbət qiymətləndirilən kitabxana xidmətlərinin payı (%) (meyar, kitabxana xidməti bütün tətbiq olunan əlçatarlıq meyarları üçün müsbət qiymətləndirən tələbatçıların konkret xidmət üzrə xidmət alan tələbatçıların ümumi sayına nisbəti olaraq təyin olunur).

Dünya təcrübəsində istifadə olunan xüsusi meyarlara nümunələr:

- ✓ Sənədlərin elektron çatdırılması xidmətinin payı (%);
- ✓ Məsafədən xidmətin payı (%);

***Nəticə.*** Beləliklə, dövlət qulluqçularında kitabxana xidmətlərinin keyfiyyətini və əlçatarlığını qiymətləndirmək sistemi, müxtəlif meyarlara görə sıralanmış geniş göstəricilər və qiymətləndirmə meyarlarını əhatə edir. Kitabxana xidmətlərinin keyfiyyətinin və əlçatarlığının dərin, obyektiv qiymətləndirilməsi, şübhəsiz ki, hərtərəfli olmalı və yuxarıda göstərilən meyarların bütün spektrini nəzərə almalıdır.

## ƏDƏBİYYAT

1. Брежнева В. В., Минкина В. А. Информационное обслуживание: продукты и услуги, предоставляемые библиотеками и службами информации предприятий. Санкт-Петербург : Профессия,- 2004. - 304 с.
2. Дворкина М. Я. Информационное обслуживание: социокультурный подход. Москва : Профиздат, - 2001. - 111 с.
3. Информационные технологии для государственных служащих / Камолов С.Г., Артемова П.В. – Москва, - 2017.-215 с.

**АЙСЕЛЬ ГАСАНОВА**

*преподаватель кафедры туризма и библиотечно-информационной деятельности Азербайджанского государственного университета культуры и искусств*

## КРИТЕРИИ ОПРЕДЕЛЕНИЯ КАЧЕСТВА БИБЛИОТЕЧНОГО ОБСЛУЖИВАНИЯ ГОСУДАРСТВЕННЫХ СЛУЖАЩИХ

В статье исследуются критерии определения качества библиотечного обслуживания государственных служащих. Исследование выявило новые критерии. Показаны способы выпол-

нения расчетов на основе этих критериев. Также изучаются особенности организации доступа к библиотечным услугам. Конкретные критерии формируются на основе этих характеристик. После определения предмета, объекта и предмета библиотечной услуги встает вопрос об определении ее качества. Согласно требованиям современной эпохи, если услуга не качественная, нет смысла ее предоставлять кому, и в каком виде. Многие факторы влияют на качество обслуживания, и эти факторы формируют критерии качества обслуживания.

*Ключевые слова*: государственные служащие, библиотечное обслуживание, качество, критерии, доступность, информационные потребности, эмоциональные потребности, функциональные потребности.

**AYSEL HASANOVA**
*Lecturer of the Department of Tourism and Library-Information Activities of the Azerbaijan State University of Culture and Arts*

## CRITERIA FOR DETERMINING THE QUALITY OF LIBRARY SERVICE TO CIVIL SERVANTS

The article examines the criteria for determining the quality of library services for civil servants. The study revealed new criteria. Methods for performing calculations based on these criteria are shown. Are also studiedthe peculiarities of organizing access to library services.Specific criteria are formed based on these characteristics. After defining the subject, object and subject of the library service, the issue of determining its quality comes up. According to the requirements of the modern era, if the service is not of high quality, there is no point in providing it to whom and in what form. Many factors affect the quality of service, and those factors form the quality criteria of the service.

*Keywords*: civil servants, library service, quality, criteria, accessibility, information needs, emotional needs, functional needs.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 aprel 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Sevda Xələfova, t.e.d. Qabil Əliyev.*

**UOT 32:93/94**

**VƏFA İSMAYILOVA**
*Bakı Dövlət Universiteti*
*Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının doktorantı*
**vafasahibzade@yahoo.com**

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA CƏNUBİ QAFQAZDA TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASINDA AZƏRBAYCANIN ROLU

*Azərbaycan Cənubi Qafqaz regionunun regional təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynaya bilər. Xüsusilə, Azərbaycanın enerji ehtiyatlarına və strateji mövqeyinə görə ölkə regionda mühüm iqtisadi və siyasi güc ola bilər. Bundan əlavə, Azərbaycan regionun digər ölkələri ilə əlaqələri inkişaf etdirmək və dialoq qurmaqla regional təhlükəsizlik və sabitliyə töhfə verir. Digər tərəfdən, Azərbaycanın regiondakı münaqişələrin həllinə yönəlmiş həllyönümlü mövqeyi regional təhlükəsizliyə də müsbət təsir göstərir. Azərbaycan regional təhlükəsizliyin təmin edilməsində beynəlxalq arenada da fəal rol oynaya bilər. Məsələn, Azərbaycan regiondakı münaqişələrin həlli üçün beynəlxalq ictimaiyyətlə əməkdaşlıq edə, bu istiqamətdə təşəbbüslər göstərə bilər. Bundan əlavə, Azərbaycan regional təhlükəsizlik üçün zəruri tədbirlərin görülməsində digər regional və beynəlxalq aktorlarla əməkdaşlıq edərək regional təhlükəsizlik mühitinin inkişafına töhfə verə bilər.*

*Açar sözlər*: Azərbaycan, Cənubi Qafqaz, geosiyasət, regional, təhlükəsizlik.

***Giriş***. Qlobal səviyyədə mürəkkəb və qeyri-müəyyən proseslərin getdiyi məlumdur. Dünyanın bir sıra regionlarında baş verən münaqişələr bütövlükdə təhlükəsizlik sisteminin qurulmasına mənfi təsirini göstərir. O cümlədən Cənubi Qafqazda sabitlik və sülh məsələsi daha çox aktuallıq kəsb edir. Belə vəziyyətdə region dövlətlərinin xarici siyasətinin məzmunu maraq doğurur. Təhlillər göstərir ki, bu istiqamətdə onların hər birinin öz mövqeyi vardır. Ermənistan tamamilə dağıdıcı rol oynayır. İrəvanın son zamanlar atdığı addımlar göstərir ki, regionda qeyri-müəyyənlik daha yüksək səviyyəyə qalxa bilər. Müşahidələr göstərir ki, rəsmi İrəvanın bu istiqamətdə yeni addımlar atmaq niyyəti də yoxdur. Əksinə, həmin ölkədə daxili sosial-siyasi vəziyyət getdikcə daha da pisləşir.

***1. Cənubi Qafqazda yeni konyuktura: mövcud təhlükəsizlik reallıqları***. Cənubi Qafqazda regional təhlükəsizliklə bağlı bir sıra problemlər var. Regionda təhlükəsizlik səviyyəsinə təsir edən əsas amillərdən biri siyasi münaqişələrin və milli ərazi mübahisələrinin olmasıdır. 2020-cildə şanlı ordumuz işğal altındakı torpaqlarımızı düşmən işğalından azad edənə qədər regionda Qarabağ münaqişəsi, bu münaqişədən yaranan humanitar böhran, narkotiklərin qanunsuz dövriyyəsi, terrorizm və digər cinayət növləri ilə bağlı problemlər yaşanırdı ki, bu da regionun təhlükəsizlik səviyyəsinə mühüm təsir göstərirdi. Ümumiyyətlə, Cənubi Qafqazda regional təhlükəsizlik hər zaman mürəkkəb problem olub və onun həlli üçün beynəlxalq ictimaiyyətin və region ölkələrinin səyləri lazımdır.

Cənubi Qafqazda sülhə və sabitliyə mane olan səbəbləri altı başlıq altında aşağıdakı kimi sadalamaq olar:

1) *Siyasi münaqişələrin mövcudluğu*. Cənubi Qafqazda regionda sülh və sabitliyə mane olan bir sıra siyasi münaqişələr mövcuddur. Məsələn, Ermənistanla Azərbaycan arasında Qarabağla bağlı münaqişə illərlə davam etmiş, 2020-ci ildə isə Azərbaycanın qələbəsi ilə başa çatmışdır. Gürcüstandakı Abxaziya və Cənubi Ossetiya münaqişələri isə hələ də davam edir (1).

2) *Dövlətlərin ərazi bütövlüyünün pozulması*. Regiondakı ölkələrdən birinin dövlət ərazi bütövlüyünün pozulması digər ölkə ilə gərginliyə və münaqişəyə səbəb olur. Bu baxımdan, Azərbaycan və Gürcüstan illərlə bu problemdən əziyyət çəkdilər. 2020-ci ildə Azərbaycan Respublikası öz ərazi bütövlüyünü bərpa etsə də, Gürcüstanda bu problem hələ də davam edir (2).

3) *İqtisadi çətinliklər*. İnkişafdan geri qalma, yüksək işsizlik, qiymət dəyişkənliyi və s. kimi iqtisadi çətinliklər regionda gərginlik və münaqişəyə səbəb ola bilir. Xüsusilə Ermənistan və Gürcüstanda iqtisadi vəziyyət heç də ürəkaçan deyil (3).

4) *İnsan hüquqları ilə bağlı problemlər*. Ermənistanda insan hüquqlarının pozulması digər ölkələr ilə gərginliyə və münaqişəyə səbəb ola bilir. Bu baxımdan, Gürcüstanda da ara-sıra problemlər olsa da, regionda insan hüquqlarının pozulduğu əsas ölkə Ermənistandır (4).

5) *Narkoticarət*. Narkotik vasitələrin dövriyyəsi və ticarəti Cənubi Qafqazda sülh və sabitliyə mane olan əsas problemlərdən biridir. Bu, qanunun pozulmasına, terrorizmə və cinayətin digər formalarına gətirib çıxarır, həmçinin regionun iqtisadi inkişafına mane olur. Bu baxımdan, uzun illər boyunca əsas marşrut İrandan Azərbaycanın işğaldakı ərazilərinə, oradan Ermənistana, oradan isə digər ölkələrə uzanırdı. 2020-ci ildə şanlı ordumuz işğal altındakı torpaqlarımızı düşmən tapdağından azad etmiş və bu problem bizim ərazilərimizdə aradan qalxmışdır (5).

6) *Korrupsiya*. Ermənistandakı korrupsiya regionda əməkdaşlığın səmərəli inkişafına mane olan və cəmiyyətdə bərabərsizlik yaradan ümumi problemdir. Bu həm də qanun pozuntularına və ölkələr arasında gərginliyə səbəb ola bilər. Düzdür hərdən Gürcüstanda da bu kimi problemlər özünü göstərir, amma tam əminliklə demək olar ki, regionda əsas korrupsiya yuvası Ermənistandır (6).

Gürcüstanda olan münaqişələr də bölgədə sabitliyi pozur. SamsxetCavaxetiyada məskunlaşan erməni əhalisi Ermənistanla, Şida Kartlidə yaşayan osetinlər Şimali Osetiya ilə, Pankissdə yaşayan kistinlər (vaynax-çeçenlər) Çeçenistanla, Kvarel rayonunda yaşayan avarlar Dağıstanla sərhəddir. Bu ərazilər potensial münaqişə zonaları hesab edilir. Samsxet-Cavaxetiyada olan potensial münaqişələrdən biri də Ahıska türklərinin Gürcüstanda yaşamaq hüququnu tələb etməsi ilə bağlıdır. Abxaziya və Cənubi Osetiya münaqişəsi adları çəkilən digər münaqişələrdən öz xüsusiyyətlərinə görə fərqlənirlər. Yuxarıda adları çəkilən ərazilərdə yaşayan etnik qruplar öz identik etnosları ilə birləşmək istəyirlərsə, Abxaziya və Cənubi Osetiya Rusiya ilə birləşməyə cəhd edir (7).

Hal-hazırda regionun təhlükəsizliyi üçün digər bir məsələ gərginləşən NATO-Rusiya münasibətləridir. Məsələ bütövlükdə mürəkkəbdir. NATO-nun genişlənmə haqqında hazırda bir qərara gəlməməsi və müxtəlif regionlarda geosiyasi vəziyyətin ağırlaşması bu təşkilatın strategiyasını müəyyənləşdirməsində bir neçə ssenarini ortaya çıxarıb. Bir sıra ekspertlər hesab edirlər ki, NATO heç bir şeyə baxmadan genişlənmə planını yerinə yetirməli, dünyanın jandarmı rolunu oynamalıdır. Bu kimi fikirləri irəli sürənlər, bir qayda olaraq, sovetlər dövründə həmin məsələləri təhlil edənlərdir.

Bunlardan fərqli olaraq, bir qrup ekspert isə NATO-nun mövcud sərhədlər daxilində fəaliyyətini gücləndirməsini tövsiyə edir. Onların arqumenti bundan ibarətdir ki, hazırda qlobal miqyasda geosiyasi mənzərə qeyri-müəyyənliklərlə xarakterizə olunur və təşkilat geniş bir məkanda təhlükəsizliyi təmin edə bilməz.

İran isə aşağıdakı amillərə görə Cənubi Qafqazda müəyyən təhlükəsizlik problemi yarada bilər:

1) *Dini konfliktlərin mövcudluğu*. İran şiə dövlətidir və Cənubi Qafqaz ölkələrinin əksəriyyəti İranın dini siyasət vasitəsinə çevirməsindən narahatdır. Bu, region ölkələri arasında dini zəmində qarşıdurmalara və gərginliyə səbəb ola bilər (8).

2) *Siyasi bölünmələr*. İran ilə Azərbaycan və Gürcüstan kimi bəzi region ölkələrinin fərqli siyasi sistemləri və beynəlxalq ictimaiyyətlə fərqli münasibətləri var. Bu, ölkələr arasında siyasi gərginliyə səbəb ola bilir (8).

3) *Kəşfiyyat fəaliyyəti ilə bağlı problemlər*. Bəzən Cənubi Qafqaz ölkələri İranı ərazilərində kəşfiyyat fəaliyyəti aparmaqda ittiham edirlər. Bu, regionun digər ölkələrində gərginliyə və inamsızlığa səbəb ola bilir (9, p.109).

***2. Azərbaycan Respublikası Cənubi Qafqazın təhlükəsizliyində vacib aktor kimi***. Seçdiyi müstəqil və praqmatik xarici siyasət kursu nəticəsində regionun aparıcı dövlətinə çevrilən Azərbaycan Cənubi Qafqazda iqtisadi inkişafın əsas aktoruna çevrilməklə bərabər, eyni zamanda, NATO ilə Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində əməkdaşlıq etməklə Cənubi Qafqazın təhlükəsizliyinin təmin olunmasına mühüm töhfələr verdi. Azərbaycanın müstəqilliyinin ilk illərindən geosiyasi əhəmiyyətli zəngin təbii sərvətlərdən və geostrateji mövqeyindən (şərqlə qərbin qovşağında yerləşməsi) doğru istifadə etməsi nəticəsində bu gün Cənubi Qafqaz regional münaqişə ilə üz-üzə qalmaqdan xilas oldu, ölkəmizin həmçinin qlobal və regional gücə malik milli dövlətlərin, beynəlxalq münasibətlər sisteminin formalaşmasında rolu və təsir imkanları getdikcə artan transmilli şirkətlərin enerji lahiyələrinə tərəfdaş kimi cəlb olunması regionun sabitliyi üçün həlledici rol oynadı (10).

Azərbaycanın enerji və Asiya ilə Avropanı birləşdirən nəqliyyat-kommunikasiya layihələrini həyata keçirməsi, Türkiyə və Gürcüstanın bu layihələrdə əsas tərəfdaşlar olması Ermənistanı iqtisadi və siyasi blokadaya salmışdır. Amma onu da qeyd etmək lazımdır ki, Azərbaycanın müstəqil siyasi kurs seçməsi nəticəsində enerji ehtiyatlarını dünya bazarına öz imkanları ilə ixrac etməsi, eyni zamanda, Mərkəzi Asiya dövlətlərinin də bu enerji dəhlizinə qoşulması üçün imkan yaratması Avropanın "mavi yanacaq"la təmin olunmasında mühüm paya sahib olan Rusiyanı təşvişə salır (11, s. 952). Bu baxımdan qeyd edə bilərik ki, rəsmi Moskva Ermənistanın Azərbaycana qarşı olan ərazi iddialarından istifadə edərək regionda sülhün bərqərar olunmasına əngəl törətməyə çalışacaq. Burada əsas məqsəd regionun aparıcı dövlətinə çevrilən Azərbaycanın enerji ehtiyatlarının Rusiya üzərindən Avropaya ixracına nail olmaq, beləliklə də, Avropa, həmçinin Cənubi Qafqaz dövlətləri üzərində təsir imkanlarını artırmaqdır.

Görünür, Rusiya "yaxın xaric" adlandırdığı regionlar içərisinə daxil etdiyi Cənubi Qafqazdan asanlıqla imtina etməyəcək və regionda təhlükəsizliyin təmin olunmasında həlledici rolu olan Ermənistan-Azərbaycan sülhünün əldə edilməməsi üçün bütün resurslarından istifadə edəcək. Lakin mövcud proseslər və durum onu göstərir ki, rəsmi Moskvanın bu strateji mövqeyi rasional deyil (12). Çünki hazırda regionda əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi və təhlükəsizliyin təmin olunmasına ən mühüm töhfələr verən ölkə məhz Azərbaycandır. Avroatlantik məkana inteqrasiya olunmasında qətiyyətli mövqe nümayiş etdirən, həmçinin regionda mühüm təsir imkanlarına malik olan Rusiya ilə münasibətlərdə diplomatik prinsiplərə əməl edən Azərbaycanın xarici siyasət kursu regional təhlükəsizliyin təmin olunmasında əhəmiyyətli faktor kimi çıxış edir.

Azərbaycan müxtəlif yollarla Cənubi Qafqazda sülhün bərqərar olmasında mühüm rol oynaya bilər. Birincisi, Azərbaycan regionda mövcud siyasi münaqişələri danışıqlar və diplomatik səylərlə həll etməyə çalışa bilər.

İkincisi, Azərbaycan BMT və ya Aİ-nin himayəsi altında hərbi missiyalar kimi regionda sülh və sabitliyin bərqərar olması üçün beynəlxalq təşəbbüslərdə iştirak edə bilər.

Üçüncüsü, Azərbaycan regionun digər ölkələri ilə regional iqtisadi əməkdaşlığı inkişaf etdirməklə sülhün və sabitliyin bərqərar olmasına töhfə verə bilər.

Dördüncüsü, Azərbaycan regionda sülhə və sabitliyə əsas maneələrdən biri olan narkotiklərin qanunsuz dövriyyəsi, terrorizm və cinayətin digər növləri ilə mübarizədə fəal iştirak edə bilər.

Azərbaycan Cənubi Qafqazda təhlükəsizliyi təmin etmək üçün öz enerji resurslarından müxtəlif yollarla istifadə edə bilər:

1) *Enerji infrastrukturunun inkişafı*. Enerji infrastrukturunun inkişafı ölkənin enerji təhlükəsizliyini gücləndirməyə kömək edə bilər ki, bu da öz növbəsində regionda ümumi təhlükəsizlik vəziyyətini yaxşılaşdırmağa kömək edə bilər.

2) *Enerji resurslarının ixracı*. Enerji resurslarının ixracı əlavə gəlir gətirə və ölkənin iqtisadi təhlükəsizliyini gücləndirə bilər.

3) *Regional enerji layihələrində iştirak*. Azərbaycan regionda enerji təhlükəsizliyinin və sabitliyin yaxşılaşdırılmasına töhfə verə biləcək regional enerji layihələrində mühüm rol oynaya bilər.

4) *Regional enerji əməkdaşlığının təşviqi*. Azərbaycan regional enerji əməkdaşlığını inkişaf etdirməyə cəhd edə bilər.

Azərbaycan Cənubi Qafqazda təhlükəsizliyi həmçinin ordusunun və hərbi qdrətinin vasitəsilə həyata keçirir. 44 günlük Qarabağ müharibəsi Cənubi Qafqaz regionunun təhlükəsizliyinə müsbət təsir göstərib. Müharibə regionda təhlükəsizlik və sabitliyin artmasına, region ölkələri arasında münasibətlərin aydınlaşmasına səbəb oldu. Bundan əlavə, müharibə humanitar böhranların aradan qalxmasına səbəb olmuşdur. Müharibədən sonra bölgədə sülhün və sabitliyin bərpası üçün səylər göstərilir.

***Nəticə***. 27 sentyabr 2020-ci il tarixindən Azərbaycan tərəfindən əks hücum tədbirləri nəticəsində 44 gün ərzində dövlət sərhədləri bərpa olumuş, işğaldan azad edilmiş ərazilərdə Azərbaycan bayrağı qaldırılmışdır. Eyni zamanda müəyyən problemlər qalmaqdadır ki, sülhməramlıların fəaliyyəti, xüsusilə də işğaldan azad olunmuş ərazilərə insanların qayıdışı və normal həyatın bərpası aktual problemlərdəndir.

Bununla belə, Azərbaycan Prezidentinin Avropada siyasi lider kimi nüfuzu çox yüksəkdir. Bunu Sofiyada Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində Avropa ölkələri rəhbərlərinin Azərbaycan Prezidenti haqqında yüksək fikirlər ifadə etməsi də təsdiqləyir. Həm də məsələ yalnız Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu ilə məhdudlaşmır. İlham Əliyev bütövlükdə region və dünya əhəmiyyətli siyasət aparır. Azərbaycan Respublikası Cənubi Qafqazda regional təhlükəsizliyin təmin olunmasında əhəmiyyətli rol oynayır. Bu baxımdan, öz hərbi qüdrətini, enerji resurslarını, diplomatik və siyasi vasitələrini və s. səfərbər edir.

ƏDƏBİYYAT

1. Stronski P. The Shifting Geography of the South Caucasus. Carnegie. [İnternet Resursu] https://carnegieendowment.org/2021/06/23/shifting-geography-of-south-caucasus-pub-84814 [29.03.2023].
2. Meister S. Shifting Geopolitical Realities in the South Caucasus. Utrikespolitiska Institutet. [İnternet resursu] https://www.ui.se/forskning/centrum-for-osteuropastudier/sceeus-report/shifting-geopolitical-realities-in-the-south-caucasus/ [29.03.2023].
3. Cutler R.M. A Geopolitical Reshuffle in the South Caucasus. Geopolitical monitor. [İnternet resursu] https://www.geopoliticalmonitor.com/vast-changes-under-way-in-the-south-caucasus/ [29.03.2023].
4. Everything you need to know about human rights in Armenia. Amnesty International. [İnternet resursu] https://www.amnesty.org/en/location/europe-and-central-asia/armenia/report-armenia/ [29.03.2023].
5. Cabarov C. İkinci Qarabağ müharibəsinin regional və qlobal nəticələri, "Azərbaycan Respublikası 30 ildə: Cənubi Qafqazın güc mərkəzi" Beynəlxalq Elmi Konfransı, Bakı: AMEA Qafqazşünaslıq İnstitutu, 2021.
6. Dovich M. Corruption a major problem in Armenia, public opinion poll says. civil.net [İnternet resursu] https://www.civilnet.am/en/news/680369/680369/ [29.03.2023].
7. Waal T. Georgia, Europe’s Problem Child. Carnegie Europe [İnternet resursu] https://carnegieeurope.eu/strategiceurope/87291 [29.03.2023].
8. Cutler R.M. How Iran Threatens South Caucasus Peace and Security. Geopolitical monitor. [İnternet resursu] https://www.geopoliticalmonitor.com/how-iran-threatens-south-caucasus-peace-and-security/ [29.03.2023].
9. Kouhi E. M. Iran’s foreign policy in the South Caucasus: relations with Azerbaijan and Armenia. Oxon: Routledge, 2019. 272 pages.
10. Shapiro D. The West should re-engage in the South Caucasus. Here's where and how. [İnternet resursu] https://www.europeanleadershipnetwork.org/commentary/the-west-should-re-engage-in-the-south-caucasus-heres-where-and-how/ [29.03.2023].
11. Kasım K. Azerbaycan-Türkmenistan Enerji İşbirliğinin Hazar Enerji Güvenliğine Etkileri. ASBİ Abant Sosyal Bilimler Dergisi, 2021, Cilt: 21, Sayı: 3/Güz: 945-960.
12. Hess M. Russia’s South Caucasus Front [İnternet resursu] https://ridl.io/russia-s-south-caucasus-front/ [29.03.2023].

**ВАФА ИСМАИЛОВА**
*докторант кафедры дипломатии и современных интеграционных процессов*
*Бакинского государственного университета*

## РОЛЬ АЗЕРБАЙДЖАНА В ОБЕСПЕЧЕНИИ БЕЗОПАСНОСТИ НА ЮЖНОМ КАВКАЗЕ ПОСЛЕ ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЫ

Азербайджан может сыграть важную роль в обеспечении региональной безопасности Южного Кавказа. В частности, благодаря энергетическим ресурсам и стратегическому положению Азербайджана, страна может быть важной экономической и политической силой в регионе. Кроме того, Азербайджан способствует региональной безопасности и

стабильности, развивая отношения и устанавливая диалог с другими странами региона. С другой стороны, ориентированная на решение Азербайджанская позиция, нацеленная на урегулирование конфликтов в регионе, оказывает положительное влияние на региональную безопасность. Азербайджан может играть активную роль на международной арене в обеспечении региональной безопасности. Например, Азербайджан может сотрудничать с международным сообществом для разрешения конфликтов в регионе и проявлять инициативу в этом направлении. Кроме того, Азербайджан может внести свой вклад в развитие региональной среды безопасности, сотрудничая с другими региональными и международными субъектами в принятии необходимых мер для обеспечения региональной безопасности.

*Ключевые слова*: Азербайджан, Южный Кавказ, геополитика, регион, безопасность.

**VAFA ISMAYILOVA**
*Doctoral student of the Department of Diplomacy and Modern Integration Processes*
*Baku State University*

## THE ROLE OF AZERBAİJAN İN ENSURİNG SECURİTY İN THE SOUTH CAUCASUS AFTER THE SECOND KARBAKH WAR

Azerbaijan can play an important role in ensuring the regional security of the South Caucasus region. In particular, due to Azerbaijan's energy resources and strategic position, the country can be an important economic and political power in the region. In addition, Azerbaijan contributes to regional security and stability by developing relations and establishing dialogue with other countries of the region. On the other hand, Azerbaijan's solution-oriented position aimed at resolving conflicts in the region has a positive effect on regional security. Azerbaijan can play an active role in the international arena in ensuring regional security. For example, Azerbaijan can cooperate with the international community to resolve conflicts in the region and take initiatives in this direction. In addition, Azerbaijan can contribute to the development of the regional security environment by cooperating with other regional and international actors in taking necessary measures for regional security.

*Keywords:* Azerbaijan, South Caucasus, geopolitics, regional, security.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 29 mart 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Rəyçilər: t.e.d. Sevinc Yusifzadə, s.e.d. Adil Mirabdullayev.*

**UOT 902**

**ƏMRAH DADAŞOV**
*Bakı Dövlət Universitetinin professoru*
**amrahdadashov@bsu.edu.az**

# AZƏRBAYCAN ABİDƏLƏRİ İÇƏRİSİNDƏ İLK KƏND TƏSƏRRÜFATI VƏ BİÇİN ALƏTLƏRİ HAQQINDA

*Təqdim olunan məqalə Azərbaycanın qədim biçin alətlərinin xronoloji təsnifatını göstərməyə, onun bu ərazidə yaranması, zamanla təkmilləşməsi və qonşu iri dövlətlərin əkin alətləri ilə vəhdət təşkil etməsi izahına cəhd edilir. Azərbaycan ərazisində. eləcə də bütün Cənubi Qafqaz ərazisində çaxmaq daşlı kompozit olaraq istər mis, istərsə də bütün tunc dövründə istifadə edilmiş və yalnız dəmirin yarandığı dövrdə daha təkmil dəmir oraqlarla əvəz edilmişdir. Beləliklə, belə nəticə çıxarmaq olar ki, tunc dövründə tunc alətlər və silahlar azlıq təşkil edirdi. Çünki, tunc metal olaraq daş alətinin keyfiyyətini verə bilmədi və onun yerini tuta bilmədi. Bunu ancaq metal olaraq dəmir bacara bildi.*

*Açar sözlər:* Tunc dövründə oraq, onun çaxmaqdaşından düzəldilməsi, geniş istifadə edilməsi, kənd təsərrüfatında yüksəliş.

***Giriş.*** Arxeologiya sahəsi hər hansı tarixi dövrün maddi mədəniyyəti ilə yanaşı, mənəvi mədəniyyətini öyrənməyə imkan yaradır. Tunc dövrünə aid biçin əmək alətləri və ya məişətdə işlədilən keramik qabların qalıqlarının tapılması dövrün sosial-iqtisadi formasiyaların tədqiqi üçün vacib material sayılır. Hər bir dövrün əkin əmək alətləri istehsal olunduğu dövrə görə, materialına. həm də istifadə qaydalarına görə fərqlənir. Əkinçilik öz inkişafında yeni mərhələyə qədəm qoyduqca. əmək vasitəsi yeni istehsal üsuluna keçir və yeni iqtisadi dövr yaradır. Əmək vasitələri təkcə insan əmək gücünün imkanının ölçüsü deyil, həm də əməyin həyata keçirdiyi həmin ictimai dövrün insan düşüncəsinin və münasibətlərinin göstəricisidir.

Maraqlı burasıdır ki, qədim şum və biçin abidələrinin tədqiqi zamanı tapılan çoxsaylı əşyalar arasında ən çoxunu taxıl bitkilərinin istehsalı ilə bağlı olan biçin aləti yer tutur ki, onların da içərisində başlıca yeri oraq tutur. Bu da kənd təsərrüfatının iqtisadiyyatında aparıcı məhsuldar qüvvə kimi xüsusi yer tutur.

Təqdim olunan məqalədə Azərbaycanın qədim biçin alətlərinin xronoloji təsnifatını göstərməyə, onun bu ərazidə yaranması, zamanla təkmilləşməsi və qonşu iri dövlətlərin əkin alətləri ilə vəhdət təşkil etməsi izahına cəhd edilir.

***

Son onilliklərin arxeoloji tədqiqatları müəyyən etmişdir ki, Azərbaycanda ən qədim oturaq kənd təsərrüfatı məskənləri hələ eramızdan əvvəl V minillikdə yaranmışdır [1, s.90-91]. Ən erkən biçin alətləri neolit dövrə aiddir. Göytəpənin yaşayış yerindən aşkarlanmış əmək alətləri erkən əkinçilik mədəniyyəti üçün səciyyəvi olub buynuz və sümükdən hazırlanmış toxalardan, qurama, dişləri çaxmaq və obsidian daşlarından olan oraqlardan ibarətdir [2, s.47]. Onlar əsasən iki hissədən, ayrı-ayrı xırdalanaraq cilalanmış çaxmaq və obsidian daşlarından, taxta və ya sümükdən olan qövsşəkilli çərçivə əsasında ibarət olur. Ağzı itlənmiş dişlər orağın çərçivəsinə ağac qətranı və ya gil vasitəsilə bərkidilir (şək.1). Oraq kimi istifadə edilən belə qoşmalara Azərbaycanın demək olar ki, bütün erkən əkinçilik abidələrində rast gəlinmişdir. Lakin maraqlı burasıdır ki, məhz Azərbaycan ərazisində ilk dəfə olaraq, taxtaya və ya sümüyə bərkidilmiş belə dişli dəstlər çoxlu sayda tapılmışdır (şək.2). Bu abidənin oxşarı eneolit dövrünə aid Qazax bölgəsindəki Şomutəpə yaşayış yerindən də aşkarlanmışdır [2, s.50]. İ.Q.Nərimanovun təsvirinə görə Şomutəpə orağının çərçivəsi qövüsvari olub, orada olan diş yuvası dörd ədəddir. Lakin onlardan bir diş elə qədim zamanlarda yuvadan düşmüş, qalın ücü isə bir-birindən fərqlənərək müxtəlif ölçülərə malik olmuşdu. Dişlər çərçivənin ona uyğun oyulmuş yuvalarına iç tərəfdən daxil edilərək bərkidilir. Dişin üstündəki iş kənarı cilalanaraq itlənmiş formadadır [3, s.89].

Təsvir edilən orağın dişləri çaxmaqdaşı parçasındandır. Həmin daşlar çapılaraq üçbucaq şəklinə salınıb və iş kənarı cilalanaraq itlənmiş formada olduqdan sonra çərçivəyə bərkidilmişdir. İkinci

diş birisindən bir qədər böyükdür. Onun iş kənarı digər dişlərdən fərqli olaraq nisbətən daha itidir. Üçüncü diş isə obsidian daşından hazırlanmışdır. O, digərlərinə nisbətdə tam üçbucaq şəklində çapılıb. Qeyd etmək lazımdır ki, dişləri çaxmaq və obsidian daşından hazırlanan belə nadir oraqlar Azərbaycanın bütün erkən kənd təsərrüfatı məskənlərində [4, s.135], o cümlədən Cənubu Qafqazda [4, s.168] tapılmışdır.

Hələ öz vaxtında O.A.Həbibullayev obsidian daşının kəsici element kimi istifadə edilməsinin mümkünlüyünü qeyd etmişdir [5, s.26]. Əsas kəsici hissə kimi obsidian daşlarının qırıntılarından istifadə edirdi. Kültəpə yaşayış məskənlərindən tapılan çoxlu sayda obsidian daşının qırıntıları qədim Kültəpə sakinlərinin məişətində və əkin təsərrüfatı həyatında biçin aləti kimi ondan geniş istifadə olunmasından xəbər verir.

Şomutəpədən formaca ayrı xüsusiyyətə malik olaraq dişlərinin tapılması diqqəti daha çox çəkir. Dişlərin orağa aid olduğu, onun yuxarı küt hissəsinin hər iki tərəfdən qaramtıl yapışqan kütləsi qalıqlarının olması sübut edir. Bir neçə belə nümunə Şomutəpə yaşayış məntəqələrindən bir qədər aralıda yerləşən Töyrətəpə [2, s.38] yaşayış məntəqələrində də aşkar edilmişdir. Onlar çaxmaq daşından hazırlanmış və xüsusi formaya malik deyillər, lakin bununla belə, iş kənar cilalanma izləri açıq şəklində görsənir. Onların orağa aid olmasının sübutu aşağı kənarlardan bərkidici qətran kütləsinin qalıqlarının qorunub saxlanmasıdır.

Qazax şəhəri yaxınlığındakı Baba-Dərviş məskəninin əkin alətləri arasında bucağı cilalanmış dişlər tapılmışdır [6, s.78]. O, çaxmaqdaşından hazırlanmış seqmenşəkilli bir formaya malikdir. Amma, Baba-Dərvişdə bu cür əşyalardan əlavə, çoxlu miqdarda obsidian daşından hazırlanmış ucu cilalanmış bıçaqşıkilli plastik formalar tapılmışdır ki, onların bir qismi, ehtimal ki, oraq dişli kimi də istifadə edilmişdir. Kiçik Qafqazın cənub-şərq yamaclarında Quruçay və Köndələnçayın qovşağında, ilkin əkinçilik məskənlərində son zamanılar həm obsidian, həm də çaxmaqdaşı izlərinə çoxlu sayda rast gəlinmişdir. Onların arasında Qarakəpəktəpə və Günəştəpə abidələrinin çaxmaqdaşından ibarət olan dişlər də diqqətəlayiqdir [7, s.66-67]. Onlar öz formalarına görə yuxarıda adı çəkilən Şomutəpə, töyrətəpə, Baba-Dərviş, eləcə də eyni zonada yerləşən Qanlıtöyrətəpədən olan çaxmaqdaşı məmulatlara bənzəyirlər. Quruçay və Köndələnçayın qovşağından tapılan tapıntılar yastı və düzbucaq formasında təqdim olunur. onlar əsasən boz rəngdədirlər. Onlar orağa bərkidilmiş hissəsi küt formada olsa da, cilalanmış iş kənarlarında itlənmə izləri yaxşı izlənir.

Oraq dişləri Gürcüstanın erkən əkinçilik məskənlərindən də [4, s.53] kifayət qədər tapıntılardır ki, bu da ümumilikdə misin inkişafı dövründə daş dişli oraqlardan geniş istifadə olunduğunu və yayıldığını göstərir. Onlar həm də qədim Qafqazın ən arxaik biçin alətləridir. belə bir alətin Qədim Şərq ölkələrində əsas biçin aləti olduğu da məlumdur. Müəyyən edilmişdir ki, qədim Misirdə də taxılı belə oraqlar vasitəsilə biçirlər. Onların oraqları nisbətən düz formada, bıçaq formaslında olurdu [10, s.56]. E.ə. IV minilliyə aid çaxmaqdaşdan ibarət dişləri olan belə oraqlar Misirin cənubunda 1960-cı illərin əvvəllərində Sovet ekspedisiyası tərəfindən aşkar edilmişdir [10, s.78].

Erkən tunc dövründə Azərbaycan ərazisində çaxmaq biçin aləti olan oraqlardan geniş istifadə edilmişdir. Mis dövründən fərqli olaraq bu dövrdə oraq dişlərinin hazırlanmasında yalnız çaxmaqdaşından istifadə edilirdi.

İlk tunc dövrünə aid belə dişli oraqlara Azərbaycan ərazisində rast gəlməyən yaşayış yerinin adını çəkmək çətindir. Xüsusilə, Baba-Dərviş, Mingəçevir, Kültəpə, Qaraköpəktəpə. Günəştəpə və başqaları kimi erkən əkinçilik məskənlərində çoxlu sayda tapılmışdır [11, s.45-48]. yalnız Quruçay və Köndələnçay qovşağında olan ərazidə onların yüzdən çox aşkar edilmişdir. Q.S. İsmayılzadənin sözlərinə görə, bu zonada çaxmaqdaşından olan orağın hissələri yaşayış məntəqələrinin yaxınlığında yerləşən qədim əkin sahələrinin yerinə tapılıb.

Eneolitdən fərqli olaraq Erkən Tunc oraq dişlərinin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, onlar ucu iti kəsici olsun deyə üçbucaq formalı dişlər düzəldiblər ki, onlar ucu iti kəsici olsun deyə üçbucaq formalı dişlər düzəldiblər ki, bu da yüksək emal texnologiyası ilə digərlərindən fərqlənirlər. Erkən Tunc dövrünə aid olan oraqlar iki hissədən ibarət olurdu. Müxtəlif ölçülü qövsşəkilli taxta və ya sümükdən hazırlanan çərçivə və oraya əlavə edilən dişlər. Bu əlavələrin əhəmiyyətli bir hissəsi ikitərəfli cilalanaraq hazırlanmışdır. Adətən bu texnika ilə dişin həm çərçivəyə bərkidilmiş hissəsi, həm də üstə olan bütün səthi işlənirdi. onların iş kənarı nisbətən nazik, dişli və iti olaraq qaldı. Ora-

ğın yuxarı diş çıxıntıları üçbucaqlı formada olub uclu və iti dişlidir. orta dişlər bir qədər yastı düzbucaqlı formada olub əksər hallarda bir tərəfli kənarı itilənmiş formadadır. Bununla belə, bəzən iki kənarı itlənmiş dişlərdə təsadüf edilir. Belə oraq çərçivəsinə bərkidilən dişlər adətən, uzunmüddətli istifadə prosesində bir işçi kənarı kütləşdikcə onu çıxarıb digər tərəfi ilə əvəz edirdilər ki, bu da dişin təkrar istifadə edilməsi üçündür.

Tapıntılar içərisində çoxlu sayda çərçivəsiz üç və dördbucaqlı dişlərlə bərabər, seqment formalı dişlərə də təsadüf olunur. Üçbucaqlı dişlər çox güman ki, orağın əsasən yuxarı hissəsinə daxil edilirdi. Məhz bu hissə taxıl topasını kəsmək üçün əlverişli hissədir. Təxminən 8 sm uzunluqda olan bu formalı dişlər daha çox çoxluq təşkil edir. Bu tapıntıların içərisində uzunluğu 2 sm-dən çox olmayan dişlər də var.

Çaxmaqdaşlı diş əlavələr Gürcüstan və Şimali-Şərq Qafqazın erkən tunc abidələrində də tapılmışdır. Gürcüstanda Trialetim, dixa-Qudzube, Kulbakebi, Kvatsxelebi, Amiranis-qora və başqa yerlərdə bu növ dişlərə rast gəlinmişdir [4, s.75].

Analoji tapıntılar Şimal-Şərqi Qafqazda Kayankent, Velikent, Mamaykotan və Luqovoy erkən tunc dövrü yaşayış məskənləri də yaxşı məlumdur [4, s.45]. Eyni çaxmaqdaşlı dişli əlavələrə Cənubi Azərbaycan və Şimal-Şərqi Anadolunun Çöytəpə və Kəpəzdə erkən əkinçilik məskənlərində də rast gəlinir [12, s.98-102].



İstər mis, istərsədə tunc dövründə çaxmaq daşdan olan dişli oraqlar kənd təsərrüfatında əsas biçin alətləri olmaqda davam edirdi. Eyni zamanda. bu dövrdə Azərbaycanda ilk dəfə metal oraqlar da yaranıb ki, bu da tuncun ixtirası ilə baş verib. Naxçıvan yaxınlığındakı Kültəpədən kiçik metal orağın tapılması burada deyilənlərə aydın sübutdur [5, s.41-45]. Onun geniş sahəsi yoxdur və üç fraqmentdə qorunub saxlanılmışdır (şək.5). Metal oraqların ayrı-ayrı nümunələri Cənubi-Qafqazın Erkən tunc ərazilərində o cümlədən [4, s.76] Gürcüstanın Amiranis Qora ərazisində tapılmışdır [4, s.90]. Eyni metal oraq yuxarıda adı çəkilən Kəpəzdən də bizə məlumdur [8, s.56].

Buna baxmayaraq, görünür tunc dövrünün bu mərhələsində Cənubi Qafqazda o cümlədən Azərbaycanda metal oraqlardan geniş istifadə edilməmişdir. Belə tapıntılar nadirdir. Eyni vəziyyət, çox güman ki, Tunc dövrünün sonrakı mərhələsində də qalmışdır. Çünki, Azərbaycan ərazisində istər orta, istərsə də son tunc dövründə biçin alətləri yalnız çaxmaqdaşlı dişli oraq qoşmalarla təmsil olunur. Üzərliktəpənin yaşayış yerindən orta tunc dövrünə aid bütöv bir dəst çaxmaq daşı tapıldığı məlumdur (şək.6) [13, s.69]. Daş dişli kompozisiyalı oraqlardan Son Tunc dövrünə aid rast gəlinməyən yaşayış məntəqəsinin adını çəkmək də çətindir. Onların üç yüzdən çoxu yalnız Mingəçevirdə tapılmışdır [6, s.34].

***Nəticə***. Göründüyü kimi, Azərbaycan ərazisində, eləcə də bütün Cənubi Qafqaz ərazisində çaxmaq daşlı kompozit oraqlar bütün tunc dövründə istifadə edilmiş və yalnız dəmirin yarandığı

dövrdə daha təkmil dəmir orağlarla əvəz edilmişdir. Beləliklə, bütün bunlardan belə nəticə çıxarmaq olar ki, Tunc dövründə tunc alətlər və silahlar azlıq təşkil edirdi. Çünki, tunc metal olaraq daş alətlərin keyfiyyətini verə bilməmişdi və daşın yerini tuta bilmədi. Bunu ancaq metal olaraq dəmir edə bildi [5, s.67].

ƏDƏBİYYAT

1. Асланов Г.М., Исмайлов Г.С. Поселение эпохи позней бронзы и ранней железа в бассейне Алазани // Изв.АН.Азерб.ССР, серия истории, философии и права, 1973, ч.3, с.235.
2. Нариманов И.Г. Археологические исследования поселения Шомутепе в 1963 г. – Археологические исследования в Азербайджане. Баку, 1965, с.180.
3. Бунятов Т.А. К истории развития земледелия в Азербайджане. Баку, 1964, с.138.
4. Кушнарева К.Х., Чубинишвили Т.Н Древние культуры Южного Кавказа. Л., 1970, с.190.
5. Абибуллауев О.А. Археологические раскопки в Кюльтепе.- Баку, Элм, 1958, с.129.
6. Алиев В.Г. Археологические раскопки в урочише Баба-Дервиш // СА, 1971, №2, с.230.
7. Исмайлов Г.С. Каракепектепе-древний памятник. МКА.- Баку, 1973,т. VII,с.187.
8. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения. Баку: Изд.- во Элм, 1987, с.180.
9. Асланов Г.М., Исмайлов Г.С. Поселение эпохи позней бронзы и ранней железа в бассейне Алазани // Изв.АН.Азерб.ССР, серия истории, философии и права, 1973,Ч.3, с.235.
10. Доклады и сообщения археологов СССР на VII Международном конгрессе доисториков и происториков в Праге. М., 1966, с.150.
11. Исмайлов Г.С.,Даниельян О.А. Новые находки периода позней бронзы и античного времени из бассейна Куручая и Кенделанчая. // Изв. АН Азерб.ССР, серия истории, философии и права, 1975, ч.4, с.400.
12. Иессен А.А. Кавказ и Древний Восток в 4-3 тыс.до н.э.-КСИА, 1963, 93 , с.232.
13.Кушнарева К.Х. Поселения эпохи бронзы на холме цзерликтепе около Агдама.-МИА СССР, 1959, 67, с.125.

**АМРАХ ДАДАШОВ**
*Профессор Бакинского Государственного Университета*

## О ПЕРВЫХ СЕЛЬСКОХОЗЯЙСТВЕННЫХ И УБОРОЧНЫХ ОРУДИЯХ СРЕДИ ПАМЯТНИКОВ АЗЕРБАЙДЖАНА

В представленной статье предпринята попытка показать хронологическую классификацию древних жатвенных орудий Азербайджана, объяснить их создание в этой местности, усовершенствование во времени, единство с посадочными орудиями соседних крупных государств. На территории Азербайджана, как и на всей территории Южного Кавказа, кремневые составные серпы использовались на протяжении всего бронзового века и были заменены более совершенными железными серпами только в период появления железа. аким образом, можно сделать вывод, что бронзовые орудия труда и оружие в бронзовом веке составляли меньшинство. Потому что как металл бронза не могла дать качества каменному орудию и не могла занять его место. Только железо как металл могло сделать это.

*Ключевые слова*: серп эпохи бронзы, его изготовление из кремня, широкое использование, подъем земледелия.

**AMRAKH DADASHOV**
*Professor of Baku State University*

## AZERBAIJAN AMONG MONUMENTSABOUTEARLYAGRICULTURAL

The presented article attempts to show the chronological classification of the ancient reaping tools of Azerbaijan, explain their creation in this area, improvement over time, unity with the planting tools of neighboring large states. On the territory of Azerbaijan, as well as on the entire

territory of the South Caucasus, flint compound sickles were used throughout the entire Bronze Age and were replaced by more advanced iron sickles only during the appearance of iron.

Thus, we can conclude that bronze tools and weapons in the Bronze Age were a minority. Because, as a metal, bronze could not give quality to a stone tool and could not take its place. Only iron as a metal could do this.

*Keywords*: sickle of the Bronze Age, its manufacture from flint, widespread use, the rise of agriculture.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 mart 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 aprel 2023-cü il.*
*Rəyçilər: t.e.d. Qüdrət İsmayılov, t.e.d. Qabil Əliyev.*

**UOT 39**

**РЕНА ИБРАГИМОВА**
*доктор философии по истории, доцент кафедры Археологии и Этнографии
Бакинского Государственного Университета*
**rena.ibrahimova.historian@gmail.com**

# ПОХОРОННЫЕ ОБРЯДЫ У НАРОДОВ СЕВЕРНОГО КАВКАЗА В XIX ВЕКЕ

*Данная статья посвящена исследованию важной составной части семейного быта народов Северного Кавказа в XIX веке - похоронным обрядам, в которых до сих пор присутствуют пережитки домонотеистических верований, из которых доминирующее место занимает анимизм и вера в загробную жизнь. Они проявляются в жертвоприношениях домашних животных, приготовлении и раздаче ритуальной пищи, напитков, обряде «кормления» умерших, погребения их вместе с предметами быта, оружия, символического принесения в жертву коня, а также захоронения вместе с умершим части волос с головы его жены и сестер. Соблюдение траура близкими родственниками регламентировалось строго определенным отрезком времени. В статье отмечаются инновации, произошедшие в похоронных обрядах во II половине XX века.*

*Ключевые слова*: Северный Кавказ, жертвоприношения, анимизм, поминальные обряды, взаимопомощь, инновации.

***Введение.*** Похоронные обряды являются неотъемлемой частью семейного быта народов Северного Кавказа. В соответствии с развитием социально-экономических отношений и верований обряды, связанные с погребением, последовательно изменялись, упрощались или усложнялись. Непреходящее, важное значение имеет поминальное жертвоприношение, раздача угощения в благотворительных целях, связанное с анимистическими представлениями о загробном мире.

***

Погребально-поминальный цикл у народов Кавказа во второй половине XIX в. Значительно отражал влияние ислама. Было принято, чтобы у постели тяжелобольного находились члены семьи, а также кто-нибудь из пожилых родственников. Больному тактично предлагали сделать завещание при присутствии свидетелей – родственников. В завещании человека старше 15 лет полагалось указать сумму милостыни для бедных. Мулла читал над умирающим молитвы. После соответствующих процедур начинали громко оплакивать покойного. В Большой Кабарде оплакивали только женщины, в Малой Кабарде также и мужчины. По обычаям избегания муж не оплакивал жену, а отец и мать – маленького ребенка. На людях родители не оплакивали даже взрослого ребенка. Проявление мужем печали по поводу болезни или смерти жены вызывало у окружающих насмешки и осуждение. Имелись профессиональные женщины-плакальщицы, которые воспевали достоинства покойного и скорбь его близких. Обряд жертвоприношения, зародившийся в первобытном обществе, отражал анимистические взгляды: поклонение людей духам как материального, так и нематериального мира. Жертвоприношениями отмечаются главные переходные этапы жизненного цикла человека: появление на свет, инициации, вступление в брак, смерть. Жертвоприношения состоят из блюд, приготовленных из растительных и животных продуктов. Поминки, раздача ритуальной еды социально объединяет членов фамилии, общины, территориального образования. В этот круг общения включались и божество, и дух-покровитель семьи, и дух предка, якобы способного оказывать влияние на жизнь и благополучие своих потомков. Отсюда и то непререкаемое уважение и почитание старших, особенно аксакалов, у народов Кавказа.

Еще с глубокой древности на Северном Кавказе в могилу помещали керамические сосуды для воды и пищи (растительной, молочной и мясной). В большинстве погребений эпохи бронзы были обнаружены следы погребальной пищи, предназначенной для покойника, а вместе с ним и предкам - скелеты крупного и мелкого рогатого скота и лошадей, а также несочлененные мелкие кости животных, съеденных во время траурной трапезы. Повседневная пища посредством молитв и ритуалов, совершаемых в процессе приготовления, подношения и потребления про-

дуктов питания становилась ритуальной. Обязательным считалось приношение в жертву нескольких голов домашнего скота в память или в помощь умершему родственнику в загробном мире. Забой производили в определенном месте в соответствии с установившимися ритуалами общинные или родовые старейшины. Предварительно прочитав молитву, животное закалывают, тушу подвешивают на ветку дерева и дают стечь крови. Разделенное на определенные части мясо раздавали родственникам, соседям, бедным. Часть мяса варится для поминального стола. Жертвоприношение может быть бескровным, когда приготовляют мучные блюда, причем в этом процессе участвуют только женщины. У всех северокавказских народов главным поминальным блюдом является халва из просяной, пшеничной, кукурузной или ячменной муки, приготовленная на топленом масле с добавлением меда или сахара. Этот процесс был длительный и трудоемкий, требовал усилий женского коллектива родственниц. Каждая участница верила, что за ее усердием наблюдает умерший [7, 29].

